AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 6

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2021

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Buludxan Xəlilov, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2021, №6

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2021

www. filologiyameseleleri.com

DİLÇİLİK

NADİR MƏMMƏDLİ
Filologiya elmləri doktoru, professor
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Ayna Sultanova, 11,
Email: elmvetehsil@gmail.com

ÜNSİYYƏT, KOMMUNİKASİYA VƏ İŞGÜZAR KOMMUNİKASİYA

XÜLASƏ

Ünsiyyət, kommunikasiya və işgüzar kommunikasiya ilə bağlı anlaşılmaz, bəzən ziddiyyətli anlayışlar vardır, bu da onun forma və mexanizmlərinin öyrənilməsini, təcrübədə istifadə edilməsini tələb edir. Kommunikasiya – müəyyən işarələr vasitəsi ilə fikir, məlumat, ideya və s. maddi daşıyıcılarla mübadilə, bu və ya digər məzmunun bir şüurdan digərinə (kollektiv və ya fərdi) ötürülməsidir. Ünsiyyət anlayışına çox yaxındır, ilk baxışda eyni təəssürat yaradır, yaxud eyni bir təzahür müxtəlif sözlərlə adlanır. Eynilik həm kommunikasiya, həm də ünsiyyətdə informasiya mübadiləsi prosesinin baş verməsidir. *Ünsiyyət* sosial xarakter daşıyır, birgə fəaliyyətin tələblərindən yaranan insanların qarşılıqlı əlaqəsinin ayrılmaz hissəsi, idrak və ya emosional-qiymətləndirmə xarakterli məlumat mübadiləsidir.

İşgüzar kommunikasiya və *kommunikasiya* terminləri arasında real anlaşmada məzmun, məna fərqi vardır. Oxşarlıq özünü daha çox kommunikasiya anlayışında göstərsə, elmi ədəbiyyatda bu terminlər sinonim işlənsə də, onların hər birinin özəlliyi vardır. İşgüzar kommunikasiya kütləvi, lakin sosium arasında çox mürəkkəb peşəkar ünsiyyətdir, istər iqtisadi, hüquqi, diplomatik, kommersiya, istərsə də administrativ sahədə onsuz keçinmək mümkün deyil; insanın mədəni fəaliyyətinin bütün sahəsini əhatə edir, məqsədli forma olduğu üçün qarşılıqlı münasibətlərə xüsusi önəm verilir. Bu anlayış özündə ümumi dil, ümumi yaddaş, ümumi düşünmək meyarının estetik tələblərini, fikir və təfəkkür mədəniyyətini, nəsillərə ötürülmə mexanizmini ehtiva edir. İşgüzar kommunikasiya ünsiyyətə əsaslanır, zəruri əhəmiyyət kəsb etdiyi üçün dəyərini daim qoruyub saxlayır, lakin o, həm də müstəqil anlayışdır. İşgüzar kommunikasiyanın əsas funksiyaları *informasiyavericilik* (həqiqi, yaxud yalan məlumatların verilməsi), *interaktivlik* (insanlar arasında qarşılıqlı fəaliyyətin təşkili, məsələn, müxtəlif təsir formalarından: inandırma, əmr,

xahiş, təlqindən istifadə etməklə məqsədin razılaşdırılması, vəzifələrin bölüşdürülməsi, həmsöhbətin əhval-ruhiyyəsinə, inamına, davranışına təsir göstərmə), *perspektivlik* (ünsiyyət tərəfdaşlarının bir-birini "həzm etmə"si və bu əsasda qarşılıqlı anlaşmanın yaradılması.

Açar sözlər: ünsiyyət, kommunikasiya, işgüzar kommunikasiya, rabitə, texniki vasitələr, informasiyavericilik, interaktivlik, kommunikativ informasiya, anlamaq, nitq mədəniyyəti.

Ünsiyyət real fəaliyyətdir, əsas göstəricisi və vasitəsi nitqdir – daim şifahi və ya yazılı formada təzahür və inkişaf edir. Bu fəaliyyət təkcə hər hansı birgə işin əməli və praktik həllini yox, eyni zamanda mənəvi tələbatı əhatə edir, nəticədə mənəvi – informasiya mübadiləsi baş verir. Ünsiyyət, fəaliyyət kimi şüurlu məqsədəuyğunluq – qarşıya qoyulan məqsədə çatmaq üçün müvəffəqiyyət vasitəsi, tərəf-müqabillərlə süni mühitdir; bu fəaliyyət nəticəsində nəzərdə tutulan zəruri davranış qaydaları nizamlanır, məhz qarşılıqlı münasibətdə səmərəli münasibətlər mədəniyyət göstəricisi olur. Ünsiyyət prosesi mənəvi məzmun qazanaraq digər şəxslərlə qarşılıqlı əlaqələrə zəmin yaradır, bütövlükdə cəmiyyətin həyat fəaliyyətini səciyyələndirir. Ünsiyyət insan amilidir (*fenomenidir* desək, yanılmarıq!), bütün göstəriciləri sosial kontekstlə – insanla bağlıdır, əsas mənbəyi insan təfəkkürü, intellektidir, idrakdan, davranış norması və hissi təsəvvürlərin məcmusundan asılı olaraq düşüncələri büruzə verir. Lakin o şüurun tam surəti deyil, qaydaya salınmış fikirlərin assosiasiyasıdır, cəmiyyətdə intuisiyaya əsaslanan təfəkkürə, düşüncəyə, mənəvi təkmilləşməyə tələbat yaradır. Sonralar bu, rasional münasibətə, şəxsi davaranış qaydalarına – dostluğa, əməkdaşlığa və s. çevrilə bilir.

Ünsiyyət anlayışının üç səviyyəsi vardır:

– fərdin həyat tərzininin göstəricisidir (*maksimal səviyyə*);

– müxtəlif fərdi əlaqələrə əsaslanır (söhbət, mübahisə – *orta səviyyə*);

– psixoloji durumu təyin edir (*mikro səviyyə*).

Ünsiyyətin formulu belədir: *insanlar ünsiyyətlə bir-birini tanıyırlar!* Bu formulda insanların qarşılıqlı əlaqələrinin vacibliyi və hər birinin ünsiyyət fərdiliyi ehtiva olunur, belə yanaşma ünsiyyətin həm də mədəniyyətin əsas elementi, atributu olduğuna işarədir, lakin onunla qarşılıqlı münasibətlərinə görə məhdudlaşmır; mədəniyyət bütövlükdə birlik və təklik anlamında, sosiallaşmada və özünəməxsusluqda bütün ünsiyyət iştirakçılarının hərəkətverici qüvvəsidir. "İnsan insanı yalnız ünsiyyət, qarşılıqlı əlaqə vasitəsi ilə kəşf edir və bu üsulla özünü də tanıyır" (1, 92). Bu səbəbdən şəxsiyyətin varlığı üçün vacib olan *başqası* anlamı ünsiyyəti bütövlükdə mədəniyyətin əsas amili edir.

İnsanın sosial statusu ünsiyyət mədəniyyəti ilə birbaşa bağlıdır; həyatda effektiv ünsiyyət qura bilmək bacarığı və onu inkişaf etdirmək, hər şeydən əvvəl,

mədəniyyətin ümumi səviyyəsinə təsir edir. Ünsiyyətdə səmimiliyə yüksək dəyər verilir, fikir qarşılığı rəqabətə yox, sağlam düşüncəyə, inandırmaya, o da öz növbəsində ümumi nəticələr çıxarmağa əsaslanır. Belə nitq strategiyası üçün ifadə planı olmasa da, hər bir fərd danışıq məqsədini özü üçün aydınlaşdırmalıdır: pis – yaxşı, kobud – incə və s. Danışıq tərzi, mədəni nitqin keyfiyyətləri mənəvi sağlamlığın göstəricisidir. Ünsiyyətin əsas məqsədi təkcə informasiya ötürmək və ya almaq deyil, həm də ona dəstək vermək, insanlar arasında qarışlıqlı anlaşmanı daha yüksək səviyyəsinə çatdıra bilmək və onu qurmaqdır. Bu da mədəniyyət (!) amili ilə həyata keçirilir.

Lüğətlərdə latın mənşəli *kommunikasiya* sözü iki mənada izah olunur: rabitə (əlaqə) və *ünsiyyət*. *Rabitə* texniki vasitələrin köməyi ilə müəyyən məsafədə əlaqə saxlayan sistem, *ünsiyyət* isə qarşılıqlı münasibət, yaxınlıqdır (hətta ülfətdir). Onların hər ikisini kommunikasiya "əlaqə, rabitə, qarşılıqlı münasibət, yaxınlıq" anlayışı ilə birləşdirir və belə sistemləşdirilir: *universal* – geniş mənada istənilən maddi və mənəvi aləmin obyektinin əlaqə vasitəsi; *texniki* – məlumat vermə, maddi, ideal obyektlərin birindən başqasına ötürülməsində informasiya vasitəsi; *bioloji* – biologiyanın etologiya bölməsində heyvanların, quşların, həşəratların və s. əlaqəsinin siqnal üsulu; *sosial* – insan cəmiyyətində baş verən müxtəlif növlü rabitə və münasibət, onların arasında ünsiyyət forması kimi həyata keçirilən qarşılıqlı əlaqə.

Effektiv kommunikasiya ayrı-ayrı insanlara, qruplara və təşkilatlara öz məqsədlərinə nail olmağa və yüksək səviyyədə işləməyə imkan verir və bu, təşkilati davranışın demək olar ki, bütün aspektlərinə təsir göstərir.

Kommunikasiya – müəyyən işarələr vasitəsi ilə fikir, məlumat, ideya və s. maddi daşıyıcılarla mübadilə, bu və ya digər məzmunun bir şüurdan digərinə (kollektiv və ya fərdi) ötürülməsidir. Ünsiyyət anlayışına çox yaxındır, ilk baxışda eyni təəssürat yaradır, yaxud eyni bir təzahür müxtəlif sözlərlə adlanır. Eynilik həm kommunikasiya, həm də ünsiyyətdə informasiya mübadiləsi prosesinin baş verməsidir. *Ünsiyyət* sosial xarakter daşıyır, birgə fəaliyyətin tələblərindən yaranan insanların qarşılıqlı əlaqəsinin ayrılmaz hissəsi, idrak və ya emosional-qiymətləndirmə xarakterli məlumat mübadiləsidir. İnsan həmçinin başqa canlılar, məsələn heyvanlarla təmas qura bilər: ünsiyyət kommunikativ proseslərdən daha zəngindir, insanları bir-birinə yalnız informasiya ötürülməsi deyil, həm də praktik hərəkətlər, qarşılıqlı anlaşma, hiss və emosiyalar bağlayır. Ünsiyyət, eyni zamanda, insanın həyat fəaliyyəti və mənəvi məqsədlərinin əvəzolunmaz biostimuludur. Kommunikasiya informasiyanın ötürülməsidir, mövcudluğu yalnız rabitə zamanı aşkara çıxır – əlaqə kəsilirsə, kommunikasiya da pozulur; ünsiyyət kommunikasiyanın mütləq elementlərindən biridir, amma onun eyni deyil.

İşgüzar kommunikasiya və *kommunikasiya* terminləri arasında real anlaşmada məzmun, məna fərqi vardır. Oxşarlıq özünü daha çox kommunikasiya anlayışında göstərsə, elmi ədəbiyyatda bu terminlər sinonim işlənsə də, onların hər birinin özəlliyi vardır. İşgüzar kommunikasiya kütləvi, lakin sosium arasında çox mürəkkəb

peşəkar ünsiyyətdir, istər iqtisadi, hüquqi, diplomatik, kommersiya, istərsə də administrativ sahədə onsuz keçinmək mümkün deyil; insanın mədəni fəaliyyətinin bütün sahəsini əhatə edir, məqsədli forma olduğu üçün qarşılıqlı münasibətlərə xüsusi önəm verilir. Bu anlayış özündə ümumi dil, ümumi yaddaş, ümumi düşünmək meyarının estetik tələblərini, fikir və təfəkkür mədəniyyətini, nəsillərə ötürülmə mexanizmini ehtiva edir. İşgüzar kommunikasiya ünsiyyətə əsaslanır, zəruri əhəmiyyət kəsb etdiyi üçün dəyərini daim qoruyub saxlayır, lakin o, həm də müstəqil anlayışdır.

İşgüzar kommunikasiya yalnız şəxslərarası deyil, həm də qrup səviyyəsində baş verdiyi üçün, sosial psixologiyanı, insanların davranış və fəaliyyət qaydalarını öyrənən bir elmin nəticələri də bura tətbiq oluna bilər: ünsiyyət qurma problemi sosial psixologiya üçün əhəmiyyətlidir. İşgüzar kommunikasiyanın dörd əsas funksiyası var:

1.*İnstrumental,* yəni müştərək əməli fəaliyyət (məsələn, birgə görülən kollektiv iş);

2.*Sindikativ* – ünsiyyətə qoşulanların birliyi;

3.*Özünü ifadəetmə* – qarşılıqlı anlaşma və kommunikasiya;

4.*Yayım* – fəaliyyət imkanlarını yayma, dəyərləndirmə (məsələn, *internetdə paylaşma*).

Funksiyalar müxtəlif qarşılıqlı anlaşma ilə formalaşdığı üçün onlara fərqli mövqelərdən yanaşılır, adekvat mədəniyyət aspekti kimi baxılır. İstənilən funksiya üçün onu həyata keçirən subyekt əsasdır, belə ki, insan ünsiyyət sferasında fəaliyyət subyekti kimi müxtəlif vəzifəni yerinə yetirir: kommunikativ (qarşılıqlı əlaqəni təmin etmək), informativ (qarşılıqlı ifadə), koqnitiv (qarşılıqlı idrak), emotiv (qarşılıqlı əlaqənin həyəcanı, təsiri ilə bir şəkildən başqa şəklə düşmək). Beləliklə, işgüzar kommunikasiya sosial varlıq olan insanın – şəxsiyyətin müxtəlif tələbatını təmin edir: başqaları ilə dialoq, dərketmə və özünüdərketmə, yaradıcı fəaliyyət və s. İşgüzar kommunikasiya düzgün strategiya və taktika seçimidir.

İşgüzar kommunikasiyanın *məqsədi* tərəf-müqabillərin ünsiyyətə qoşulmaq təşəbbüsünə istiqamət vermək və onların arasında qarşılıqlı münasibət yaratmaqdır. Bu, tərəf-müqabillərin birgə prosesə qoşulmağı, dialoqlaşma fəaliyyəti ilə ünsiyyətdə iştirak edənlərin qarşılıqlı özünüdərkini və özünüifadəsini təmin edir; onlardan biri üzərinə təşəbbüskar rolu götürür, qarşılıqlı münasibətləri tənzimləyir. Bütün bunlar dialoq prosesində baş verir: "İnsanların real nitq fəaliyyəti "nitq subyekti" olur, şifahi qarşılıqlı təsir dialoqla, yəni, fikirlərin ifadə edilməsi ilə həyata keçir" (1, 92-93). Beləliklə, dialoq təkcə subyektlərin növbəliliyini nəzərdə tutan nitq forması kimi başa düşülmür, o, daha geniş məna kəsb edir – müxtəlif baxışların, mövqelərin, şüurların, anlayışların və təfsirlərin, izahların növbələşməsi.

İşgüzar kommunikasiyanın əsas funksiyaları *informasiyavericilik* (həqiqi, yaxud yalan məlumatların verilməsi), *interaktivlik* (insanlar arasında qarşılıqlı fəaliyyətin təşkili, məsələn, müxtəlif təsir formalarından: inandırma, əmr, xahiş,

təlqindən istifadə etməklə məqsədin razılaşdırılması, vəzifələrin bölüşdürülməsi, həmsöhbətin əhval-ruhiyyəsinə, inamına, davranışına təsir göstərmə), *perspektivlik* (ünsiyyət tərəfdaşlarının bir-birini "həzm etmə"si və bu əsasda qarşılıqlı anlaşmanın yaradılması. Bu sahədə kommunikativ maneələr çoxdur:

– inamsızlıq;
– fikrini izah edə bilməmək;
– nitqin qüsurluluğu;
– qulaq asmağı bacarmamaq;
– modal maneələr;
– xarakter;
– qarşıdakının danışığına dözümsüzlük;
– ekspressivlik (emosional təəssüratların yaradılması).

İşgüzar kommunikasiya birgə fəaliyyətdə məqsədə çatmaq üçün iştirakçıların intellektual informasiya mübadiləsi, qarşılıqlı əlaqədə münasibətlərin formalaşmasıdır. Bu proses konstruktiv olduğu kimi, həm də destruktiv xarakter daşıyır: ünsiyyət çoxcəhətli və müxtəlifdir, ona görə də məna və məqsədinə görə işgüzar və qeyri-işgüzar növə ayrılır. Qeyri-işgüzar şəxsi, səssiz ünsiyyətlə, daxili psixoloji problemlərlə bağlıdır: ətrafda baş verənləri müzakirə etmək, münasibət bildirmək, həyatın mənası haqqında düşüncələr, başqasının dərdinə şərik olmaq və s. İşgüzar kommunikasiya sosial informasiya mübadiləsində spesifik qarşılıqlı təsir formasıdır, əsas xüsusiyyəti məqsəd və ya məqsədlərin həyata keçməsi üçün stimuldur, produktiv fəaliyyətə daxildir və müəyyən səviyyədə birgə fəaliyyətin effektivliyini yüksəltməyə yönəlib.

İşgüzar həyatın sürəti insanlar arasında kommunikasiya vərdişlərinin olmasını zəruri edir. *Kommunikasiya* subyektin bu və ya digər obyektlə informasiya əlaqəsidir – insanların bir-birilə, eləcə də texniki vasitələrin (media, radio, televiziya, internet və s.) köməyi ilə informasiya almaq və ötürmək vərdişlərinin məcmusudur, böyük auditoriya üçün nəzərdə tutulur. *İşgüzar kommunikasiya* işgüzar münasibətlərin qarşılıqlı təzahürüdür, informasiyanın müxtəlif forma və məzmununda insanları və xidmətləri əlaqələndirən *nitq* sözünün sinonimi və texnologiyasının komponentidir. Lakin kommunikasiya bir informasiya ötürücüsündən məlumatın qəbul edən tərəfdən alınmasıdırsa, işgüzar kommunikasiya insanlar arasında nitq mübadiləsidir. Semiotik münasibətdə onların arasında oxşar və fərqli cəhətlər vardır: əgər ünsiyyətin tərəfdaşları arasında qarşılıqlı əlaqə yaranıbsa, həmin terminləri tam mənasında sinonim kimi qəbul edə bilərik; bu münasibətlər prosesin müəyyən keyfiyyətlərini ehtiva edirsə, o zaman bu terminlər arasındakı fərq yaranır:

1.*Kommunikasiya* informasiya prosesidir, o təkcə insanlarla yox, texniki vasitələr, hətta süni dillərlə də həyata keçirilə bilər, işgüzar kommunikasiya isə insanlar arasında olur, həm praktik, həm də mənəvi informasiya xarakteri daşıyır;

2.*Kommunikasiya* subyektin bu və ya digər obyektlə əlaqəsidir, bu zaman təkcə insan yox, hər hansı canlı (heyvan) və ya maşın (texniki vəsait) obyekt rolunda

eynilə insan kimi çıxış edə bilər. İşgüzar kommunikasiya isə yalnız fərdi subyektlər – insanlar arasında baş verir;

3.*Kommunikasiya* informasiya ötürmə prosesidir, bu funksiyada o, birtərəflidir – monoloqludur, işgüzar kommunikasiya qarşılıqlı əlaqə, münasibətlər prosesidir, iki tərəflidir – dialoqludur.

Kommunikasiya şərti olaraq aşağıdakı mərhələlərə bölünür:

– informasiya mübadiləsinin başlanğıcı;

– ideyaların söz, simvol, məlumatlarla təcəssümü;

– informasiyanın seçilmiş rabitə vasitəsilə ötürülməsi;

– informasiyanın verbal və qeyri-verbal formada qəbul edilməsi;

– əks-əlaqə mərhələsi kimi informasiyanı qəbul edənin ona cavabı (2, 79-80).

Kommunikasiya və işgüzar kommunikasiya iştirakçıların aktivlik dərəcəsinə görə də fərqlənir. Kommunikasiyada həmişə bir nəfər aktiv olur, digəri və ya digərləri informasiya almaqda passivdirlər; rollar dəyişə bilər – qanunauyğunluq dəyişmir. İşgüzar kommunikasiyada eyni zamanda bütün tərəf-müqabilləri az və ya çox dərəcədə aktiv ola bilir, danışan (və ya yazan) nitqini, sadəcə, dinləməklə (və ya yazmaqla) ifadə etmir və bu, təkcə informasiya qəbul etməyə (və ya ötürməyə) yönəlmir, həm də növbəli şəkildə şərhinə qarşılıqlı, aktiv reaksiya verir. Aktivlik şəxsi düşüncənin və sərbəstliyin nəticəsidir; ünsiyyət bir proses kimi şəxsiyyətdən ideya zənginliyi, fərdiliyini dərk və ifadə etməyi tələb edir, bu, iştirakçıların nitq fəaliyyətinin vacib şərtidir.

Kommunikasiya bir istiqamətli prosesdir, plan üzrə tərtib edilir; əgər kiməsə və ya nə barədəsə xəbər çatdırmaq lazımsa, bunun üçün bütün mümkün imkanlar var – texniki vasitələrlə dinləmək və ya yazılı məlumatı oxumaq: kommunikasiya bütün hallarda öz vəzifəsini icra edir. İşgüzar kommunikasiya qarşılıqlı əlaqələr prosesi olduğu üçün hər zaman improvizasiya olunur, əvvəlcədən müəyyən edilmir. Məsələn, hər hansı məsələni işgüzar dostunuzla müzakirə etdikdə, birgə qərar çıxara bilərsiniz, yaxud ünsiyyət zəminində tərəf-müqabilləriniz verdiyiniz təkliflə razılaşmaz, fikrinizdən daşındırmağa, onu qeyri-münasibliyə, ümumiyyətlə bu problemlə bağlı narahat olmamağa inandıra bilər. Belə müzakirələrin sonunun necə nəticələnəcəyini qabaqcadan bilmək mümkün deyil. Kommunikasiya şəbəkə funksiyasındadır – informasiya eyni zamanda işarələnmiş ünvan sahiblərinə göndərilir, bu halda informasiya alanların sayı kommunikasiyanın xarakterinə təsir göstərmir, böyük bir kollektiv olsalar da, onlar bu məlumatı fərdi, tək-tək qəbul edirlər. İşgüzar kommunikasiyada isə informasiya tərəf-müqabilləri arasında qarşılıqlı dəqiq ünvanlanma tələb edir.

İşgüzar kommunikasiya və kommunikasiya müəyyən informasiya prosesində dərketmənin nəticəsinə görə bir-birindən fərqlənir. Kommunikasiyada effektivlik informasiyanı göndərmək və almaq dərəcəsi ilə qiymətləndirilir, əvəzində informasiya alana onu mütləq dərk etmək tələbi qoyulmur – informasiya verən hər zaman ötürdüyünün fərqinə varmır. Məsələn, tələbənin dərs zamanı çətin mövzunu

ucadan, bəlağətlə oxuması hələ onun mövzunu mənimsəməsinə, dediklərinin mənasını dərk etdiyinə dəlalət etmir. Deməli, kommunikasiyada informasiya dərk edilməyə də bilər. İşgüzar kommunikasiyada isə effektivlik, ilk növbədə, tərəf-müqabillərin bir-birini necə anlamasıdır. *Anlamaq* həm ünsiyyətə, həm də tərəflərə aid edilir, danışıqda informasiyanı qəbul etmək olar, anlamağın bir səviyyəsi də insanın həm özünü anlamağı, həm də hansısa bir məsələdə mövqeyini anlatmağı, informasiya ünvanlanmış adamların bunu başa düşə bilməsidir. Anlamağın nəticəsi son instansiyada gerçəkləşir – eyni xəbəri müxtəlif səviyyədə başa düşmək olar və bundan asılı olaraq, cavab da fərqli olacaq. Anlaşıqlıq olmadığı halda işgüzar kommunikasiya baş tutmaya bilər, tərəf-müqabilləri arasında ya fikir ümumiliyi baş verəcək, ya da verməyəcək. Demək, anlamaq kommunikasiya üçün *fakültətiv* (təxmini), işgüzar kommunikasiya üçün isə *mütləq* əhəmiyyət daşıyır.

Aydın olur ki, işgüzar kommunikasiya və kommunikasiya anlayışları arasındakı fərq bu prosesdəki nomenklatur atributlardır: hərəsinin nitq prosesində öz üstünlüyü vardır. Formal mövqeləri iştirakçıların və danışanların sayına görə fərqlənməsidir: işgüzar kommunikasiyada monoloq, işgüzar ünsiyyətdə isə dialoq. Ancaq bu, onların arasındakı kəskin fərq deyil. İşgüzar kommunikasiyanın təbiətinin əsası onun dialoq formasında olmasıdır, bu mövqedən yanaşdıqda monoloq təkcə nitq forması kimi mövcud olmur, nitqi təmin edən tərəf-müqabillərinin növbəliyi olmadan təşəkkül tapır, bu da tərəf-müqabilsiz daxili dialoqun replikasından asılıdır (hətta cavab forması susmaq olsa belə). İşgüzar kommunikasiyanın başlıca vəzifəsi informasiyanı ötürmək və ya qəbul etməkdir, fərqli olaraq, kommunikasiya hər zaman cavab reaksiyası ilə müşayiət olunmur. Əks halda, bu informasiyaya ünvanlanan sualı, ya da yeni informasiya sorğusuna verilən cavabı ifadə edir, bu zaman informasiya mübadiləsi də dialoq kimi qarşılıqlı şəkildə, növbəlilik prinsipi ilə davam edir, bu da monoloqa yox, dialoqa xas xüsusiyyətdir. Müvafiq qaydada, kommunikasiya öz təbiətinə görə, ünsiyyətdən fərqli olaraq, monoloqludur.

Mətn qurmaq, onu dərk etmək danışıq tərzinin, münasibətlərin düzgün qurulmasını təmin edir və bütün bunlar insanların peşəkar fəaliyyətində vacib məsələlərdəndir. Bu bacarıqların inkişafı nitq mədəniyyətinin səviyyəsini formalaşdırmaqdan başlayır və işgüzar kommunikasiyanın inkişafını təmin edir.

Nitq ünsiyyət vahididir, spesifik xüsusiyyətləri, bu prosesdəki rolu etik, estetik və kommunikativ normalardır. İşgüzar kommunikasiya zamanı səsin və intonasiyanın əhəmiyyətinə diqqət yetirmək, normalara əməl etmək vacibdir; bu atributlarla nitq mədəniyyətinin məzmunu, mahiyyəti açıqlanır, müxtəlif səviyyələrdə əhəmiyyəti və təsirliyi önə çəkilir.

Ədəbiyyat

1. М.М.Бахтин. Эстетика словесного творчества. М., “Художественный литература”, 1979.
2. Bax: F.Şiriyev. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika. Bakı, “Nurlar”, 2014.

NADİR MAMMADLİ

COMMUNICATION, INTERCOURSE AND BUSINESS COMMUNICATION

SUMMARY

There are incomprehensible, sometimes contradictory concepts related to communication, intercourse and business communication, which requires the study of its forms and mechanisms as well as their usage in practice. Communication - the transmission of thoughts, information, ideas, etc. through certain symbols. exchange with material carriers is the transfer of this or that content from one consciousness to another (collective or individual). It is very close to the concept of communication, creates the same impression at first glance, or the same manifestation which may be called in different words. The identity is the process of exchanging information in both communication and intercourse. *Communication* is meant to be a social nature, an integral part of human interaction arising from the requirements of joint activity, the exchange of information of a cognitive or emotional-evaluative nature.

There is a difference in content and meaning in the real understanding between the terms of *business communication* and *communication*. Although the similarity manifests itself more in the concept of communication, although these terms are used synonymously in the scientific literature, each of them has its own peculiarities. Business communication is known to be a mass, but very complex professional communication between society, which is observed to be impossible to be realized in the economic, legal, diplomatic, commercial, or administrative spheres. It covers all areas of human cultural activity, and it is considered to be a purposeful form and the special attention is noticed to be paid to mutual relations. This concept includes common language, common memory, aesthetic requirements of common thinking criteria, culture of thought and thinking, the mechanism of transmission to generations. Business communication is based on communication, it always retains its value because it is important, but it is also an independent concept. The main functions of business communication are *informatization* (providing true or false information), *interactivity* (organization of interaction between people, for example, persuasion, command, request, persuasion using different forms of influence, goal sharing, division of responsibilities, mood, confidence, influence on

behavior), *perspective* (‘digestion’ of each other by communication partners and the creation of mutual understanding on this basis.

Key words: communication, intercourse, business communication, relationship, technical means, informatization, interactivity, communicative information, comprehension, speech culture.

НАДИР МАМЕДЛИ

ОБЩЕНИЕ, КОММУНИКАЦИЯ И ДЕЛОВАЯ КОММУНИКАЦИЯ
РЕЗЮМЕ

Существуют непонятные, порой противоречивые понятия об общении, коммуникации и деловой коммуникации, что требует изучения его форм и механизмов, использования их на практике. Коммуникация – передача идей, информации и т.д. посредством определенных знаков и обмен материальными носителями, передача того или иного содержания из одного сознания в другое (коллективное или индивидуальное). Она очень близка понятию общение, на первый взгляд производит одно и то же впечатление, или же одно и то же проявление называется разными словами. Идентичность – это то, как происходит процесс обмена информацией как в общении, так и в коммуникации. *Общение* носит социальный характер, является составной частью взаимодействия людей, возникающего из требований совместной деятельности, обмена информацией познавательного или эмоционально-оценочного характера.

Между терминами *деловая коммуникация и коммуникация* существует разница в содержании и значении в реальном понимании. Если сходство больше проявляется в понятии коммуникации, то в научной литературе эти термины употребляются как синонимы, но каждый из них имеет свою специфику. Деловая коммуникация – это массовое, но очень сложное профессиональное общение между социумами, без которого невозможно обойтись как в экономической, правовой, дипломатической, коммерческой, так и в административной сфере; оно охватывает всю сферу культурной деятельности человека, будучи целенаправленной формой, взаимодействиям придается особое значение. Это понятие включает в себя общий язык, общую память, эстетические требования общего критерия мышления, культуру мысли и познания, механизм передачи из поколения в поколение. Деловая коммуникация основана на общении, она постоянно сохраняет свою ценность, так как имеет важное значение, но так же является самостоятельным понятием. Основными функциями деловой коммуникации являются *информативность* (предоставление правдивой или ложной информации), *интерактивность*

(организация взаимодействия между людьми, например, согласование с помощью различных форм воздействия: убеждения, приказа, просьбы, аргументации, распределение обязанностей, влияние на настроение, уверенность, поведение собеседника), *перспективность* (“переваривание” партнерами по общению друг друга и создание на этой основе взаимопонимания).

Ключевые слова: общение, коммуникация, деловая коммуникация, связь, технические средства, информативность, интерактивность, коммуникативная информация, понимание, культура речи.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: akademik Rafael Hüseynov
tərəfindən çapa tövsiyə olunmuşdur

NAMAZ RİZVAN OĞLU MANAFOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
055 4407476 ; 050 372 50 94 manafov49@mail.ru

FRİDRİX ŞİLLERİN "TURANDOT – ÇİN ŞAHZADƏSİ" ƏSƏRİNDƏ ŞƏXS ADLARI

Xülasə:

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin poemaları ilə Avropa cəngavərlik romanları arasında bənzərlik çoxdur. Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq, Əkbər Ağayev Nizaminin Qərb dünyasına mənəvi təsirini qeyd etmiş, Nizami mövzularının Höteyə, Qotsiyə, Şillerə, Heyneye ilham verdiyini göstərmişdir. Nizami Gəncəvinin "Yeddi gözəl" poemasındakı "Slavyan qızının hekayəsi" əsasında fransız yazçısı Alen Röne Lesaj "Cin şahzadəsi", italyan dramaturqu Karlo Qotsi "Turandot", tanınmış alman dramaturqu Fridrix Şiller "Turandot – Çin şahzadəsi" əsərlərini yazmışlar. İlk dəfə Fransız səhnəsinə qədəm qoyan Nizami sujetləri, sonralar İtalyan və alman səhnələrinə də yol tapmışdır. Məqalədə göstərilir ki, Fridrix Şillerin əsəri öz bədii keyfiyyətlərinə, hadisələrin gərginliyinə, qəhrəmanların yüksək nitq mədəniyyətinə görə həm Lesajın "Çin şahzadəsi", həm də Qotsinin "Turandot" əsərindən xeyli üstündür.

Məqalədə F.Şillerin "Turandot – Çin şahzadəsi" pyesindəki şəxs adlarının mənşəyi, semantikası nəzərdən keçirilir. Məqalə müəllifi göstərir ki, pyesin əsas qəhrəmanlarının adı türk mənşəlidir. Turandot "Turan qızı", "Türk qızı" mənasını verir.

Açar sözlər: *Azərbaycan şairi, Nizaminin poemaları, "Yeddi gözəl", mənəvi təsir, "Turandot Çin şahzadəsi", şəxs adları*

Məşhur rus tədqiqatçısı Yevgeni Bertels (1890-1957) hələ keçən əsrin 40-cı illərində sübut etmişdir ki, Nizaminin poemaları ilə Avropanın cəngavərlik romanları arasında bənzərlik çoxdur: "C. Bokkaçonun "Ameqo", K. Qotsinin "Turandot", A.R. Lesajın "Çin şahzadəsi", Volterin "Zadiq, yaxud tale" və başqa əsərlər Nizamının poemalarının sujetləri əsasında qurulmuşdur " [3] .

Qərb ədəbiyyatının tanınmış tədqiqatçisi Əkbər Ağayev (1915-1989) Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Nizaminin Qərb dünyasına mənəvi təsirini qeyd etmış, Nizami mövzularının Höteyə, Qotsiyə, Şillerə, Heyneyə ilham verdiyini göstərmişdir [1, s. 117].

Karlo Qotsinin "Turandot", Fridrix Şillerin "Turandot – Çin şahzadəsi" əsərlərinin sujeti böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poemasındakı dördüncü hekayəyə - slavyan qızının hekayəsinə tam uyğun gəlir. Nizaminin italyan yazıçısı Qotsiyə, alman yazıçısı Şillerə birbaşa təsirini görürük.

Nizami Gəncəvinin Qotsiyə və Şillerə təsirini Avropa tədqiqatçıları da təsdiq edirlər. Almaniyanın Leypsiq şəhərində nəşr olunmuş "Fremdsprachige Schriftsteller" ("Əcnəbi yazıçilar") adlı ensiklopedik lüğətdə oxuyuruq: *"Nizami İlyas ibn Yusif 1141-ci ildə Gəncədə (bu gün Azərbaycan SSR-də Kirovabad) anadan olub...*

Qotsi özünün "Turandot" dramının mövzusunu Nizaminin "Yeddi gözəl" poemasının dördüncü hekayəsindən götürüb. Şiller "Türandot"u yenidən işləyib...

Azərbaycan SSR-də Nizaminin yubileyini xalq şairı kimi qeyd edirlər" [6, s. 450-451].

Şıllerin "Turandot – Çin şahzadəsi" əsəri ilk dəfə 1802-ci ildə Veymar Teatrında səhnəyə qoyulmuşdur.

Bu pyes teatrsevərlərə əsl hədiyyə idi. Tamaşa gözlənildiyindən də böyük uğur qazandı.

Turandot yalnız onun üç tapmacasını tapan adama ərə getmək istəyirdi, tapmacanı tapmayanın boynu vurulurdu... (Nizami Gəncəvinin "Yeddi gözəl" poemasındakı dördüncü hekayədə (slavyan qızının hekayəsi) olduğu kimi).

Şiller tamaşalara daha çox adam cəlb etmək üçün sualları – tapmacaları tez-tez dəyişirdi. Bu da marağı artırır, Turandotun yeni tapmacalarını eşitmək üçün tamaşaçıları dəfələrlə teatra gətirirdi.

Şiller Turandota on dörd tapmaca yazdı, bir tapmacanı da dostu Höte bağışladı.

Bəs, Turandot mövzusunu Şiller haradan götürmüşdü?

Friedrix Şiller "Turandot – Çin şahzadəsi" pyesini İtalyan yazıçısı, dramaturq, nağıl-pyeslərin müəllifi Karlo Qotsinin "Turandot" əsərindən iqtibas etmişdir. Venesiyalı Karlo Qotsi "Turandot" əsərini Fridrich Şillerdən 40 il əvvəl 1762-ci ildə yazmışdır.

22 yanvar 1762-ci ildə Venesiyanın San-Samuel teatrında tamaşaya qoyulan "Turandot" əsəri Qotsinin ən məşhur teatr nağılıdır (Qotsi "Turandot"u əvvəlcə nağıl formasında yazmışdı, sonra drama çevirdi).

Qotsinin əsərini tamaşaçılar rəğbətlə qarşıladılar.

"Turandot" o qədər uğur qazandı ki, bu uğuru görən, Qotsinin ədəbi rəqibləri Venesiyani tərk etdilər.

O vaxt heç kəs bilmirdi ki, Qotsinin bu məşhur əsərinin – "Turandot"un süjeti dahi Azərbaycan şairi Nizami Gəncəviyə məxsusdur.

Bəs "Turandot" mövzusu Qotsiye necə çatmışdı? Nizami motivləri Avropaya necə gəlib?

Nizami motivlərinin Avropaya gəlişi, Avropada yayılması daha cox fransızların adı ilə bağlıdır.

Fransız şərqşünası Pöti dö La Krua (1653-1713) Misiri, İranı, Türkiyəni gəzmiş, Şərq xalqlarının adət-ənənələrini dərindən öyrənmiş, nağıllar, atalar sözləri, əlyazmalar toplamışdır (yeri gəlmişkən, indi Paris Milli Kitabxanasında Nizami "Xəmsə"sinin XIV əsrə aid iki nüsxəsi saxlanılır. Bu nüsxələrdən biri hicri 763-cü ildə (miladi 1362-ci il), digəri ondan 4 il sonra, yəni hicri 767-ci ildə (miladi 1366-cı il) köcürülmüşdür. Nizami əsərlərinin XV əsrə aid olan başqa bir nüsxəsi Strasburq Milli və Universitet Kitabxanasında mühafizə olunur).

Pöti dö La Krua 1712-ci ildə topladığı Şərq nağıllarını Parisdə "Fars nağılları" ("İran nağılları") adı ilə fransızca cap etdirdi. P. Krua "Fars nağılları"na Nizami Gəncəvinin "Yeddi gözəl" poemasından bəzi hekayətləri də daxil etmişdi.

Fransız dramaturqu Alen Röne Lesaj (1668-1747) Nizaminin "Yeddi gözəl" poemasındakı dördüncü hekayəni opera üçün işləmiş, "Cin şahzadəsi" adlı opera mətni yazmışdır. "Çin şahzadəsi" operası 1729-cu ildə Parisdə "Komedi Fransez" teatrında tamaşaya qoyuldu. Lesajın əsas qəhrəmanının adı Duamantindir.

Lesajın yazdığı komik opera venesiyalı Karlo Qotsiyə məlum idi və o, "Turandot" əsərini yazarkən Lesajın səhnələşdirdiyi əsərdən istifadə etmişdir [1].

Deməli, dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" (1197-ci il) poemasındakı "Slavyan qızının hekayəsi" (Nizami Gəncəvi qəhrəmana ad verməyib) əsasında fransız yazıçısı Alen Röne Lesaj "Çin şahzadəsi" (1729-cu il, Şahzadənin adı Duamantindir (1, s.117), Karlo Qotsi (1762-ci il) "Turandot" və Fridrix Şiller "Turandot - Çin şahzadəsi" (1801-ci il) əsərlərini yazmışlar. Həm Karlo Qotsidə, həm də Fridrix Şillerdə Cin şahzadəsinin adı Turandotdur.

İlk dəfə fransız səhnəsinə qədəm qoyan Nizami sujetləri, sonralar İtalyan və Alman səhnələrinə də yol tapmışdır.

Fridrix Şillerin "Turandot – Çin şahzadəsi" əsəri öz bədii keyfiyyətlərinə, hadisələrin gərginliyinə, qəhrəmanların yüksək nitq mədəniyyətinə, personajların bitkinliyinə görə həm Alen Röne Lesajın "Cin şahzadəsi", həm də Karlo Qotsinin "Turandot" əsərindən xeyli üstündür..

Şillerin qadın qəhrəmanı Turandot xasiyyətinə görə Nizami Gəncəvinin "Yeddi gözəl" poemasındakı dördüncü hekayənin (slavyan qızının hekayəsi) qəhrəmanına daha yaxındır...

Fridrix Şillerin "Turandot – Çin şahzadəsi" pyesindəki şəxs adlarının araşdırılması maraqlı faktlar verir. Pyesdəki antroponimlərin tərkibi mənşə və dil mənsubiyyətinə görə qarışıq olsa da, əksəriyyəti türk dillərinə məxsus olan şəxs adlarıdır.

Turandot: Çin Xaqanının qızı.

Turandot sözü iki hıssədən ibarətdir: **Turan** və **Dokht** (farsca **qız**).Bu söz Alman dilində Tochter (qız, övlad mənasında), ingilis dilinə Daughter variantında işlənir.

Turan sözü türk mənşəlidir: Tur **- çoxalan, törəyən, var olan** deməkdir. Tur sözü **Türk** mənasında da işlənir. **Tur** (türk); **+ an**, **ən (**cəmlik bildirən şəkilçidir). **Turan = türklər** [5, s.671]. Turandot – **Türklərin gızı, Türk qızı.**

"Eski Türk-Moğol kişi adları sözlüyü"ndə **Turan** sözünün **1) Duran, yaşayan; 2)** Turan: **Türklərlə məskun ölkələr** [4, s.492)mənaları da qeyd olunur**:** Turandot – **Turan qızı.**

Deməli, Turandot adı **Türklərin qızı**, **Türk qızı, Turan qızı** deməkdir.

Bəs, ilk baxışdan "rəhmsiz", "amansız" görünən, inadından dönməyən, atasının "vicdansız övlad", "zalım qızım" dediyi Turandot əslində necədir?

Şiller türk qızını onun öz sözləri ilə oxucuya, tamaşaçıya belə tanıdır:

"Mənə rəhmsizdir, qəddardır deyən dillər yalan deyir. Qəddar deyiləm. Azad yaşamaqdır məqsədim.

Nə adla başqasının malı olum? Azad yaşamaq haqqımdır. Xan qızı kimi haqqıma sahib çıxıram. Hüquqsuz olmaq istəmirəm.

Asiyada gördüyüm bütün qadınlar kölə kimi təhqir olunur. Əzilmiş həmcinslərimin heyifini almaq istəyirəm beləcə.

Azadlığımı qorumaq üçün yeganə silahım təbiətin bəxş etdiyi ağlım və zəkamdır..." [7].

...Özünü qorumaq üçün Turandot onu istəyənlərə üç tapmaca verir, bilənlə evlənəcək, bilməyənin boynu vurulub, başı şəhərin qala qapısından asılacaqdır.

...Turandot Türk qızıdır. Türk qızı gözəllik deməkdir, sevgi deməkdir. Mələkdir, pəridir türklərin qızı. Lazım gələndə, ömrünü eşqinə qurban edər Türk qızları.

Türk olmaq qətiyyətli olmaq deməkdir. Türk olmaq qururlu olmaq deməkdir. O, keçmişi ilə qürurludur, atası-babası ilə qürurludur.

Turandot qadın haqsızlığı qarşısında dəmir pərdədir.

Türk qızı bilir ki, ağlın çırağı elmdir, dərin bilikdir. "*İnsana arxadır onun kamalı...*"

Turandotun sevdiyi oğlan əsl-nəcabətli, əqli cəhətdən zəngin, mənəviyyatca saf və təmiz, fiziki cəhətdən sağlam və möhkəm olmalıdır ("Yeddi gözəl"in dördüncü hekayətində olduğu kimi).

Eşq Turandotu kamilliyə aparır...

Heç kimə təslim olmayan Turandot – Turan qızı – qürurlu Türk qızı sevgiyə təslim olur. Sujet qaranlıqdan işığa, qaradan ağa, zülmdən ədalətə doğru inkişaf edir.

Altun: Əfsanəvi Çin Xaqanı (Turandotun atası)

Bu ad Gotsidə, Şillerdə italyan və alman dilinin fonetikasına uyğun olaraq üçhecalı Altoum Aito-um kimi deyilir [8, s.354]. Qədim türk adıdır: Alton/Altun, Altın sözündəki **Al (qızıl) + ton**, yəni **al donlu, qızıl, görünüşü qızıl olan** [5, s.28] mənalarını verir**.**

Xələf: Həştərxan şahzadəsi

Alman, fransız, italyan dillərininn tələffüzünə uyğun olaraq müxtəlif variantlarda yazılir və oxunur: Khalaf, Kalaf, Calaf və s.

Əslində isə bu, ərəb mənşəli **Xələf** sözüdür: **1) əvəz, davamçı; 2) varis; 3) övlad; 4) nəsil ; 5) sonra gələn** deməkdir [2, s.691].

Xələf pyesin əsas kişi qəhrəmanıdır. Əsərdə ən çox sevilən surətdir Xələf. O, Həştərxan xanı Teymurun oğludur, əsl-nəcabətlidir. Həyatın hər üzünü görüb; həm şahzadə kimi xoş günləri olub, həm də ağır günlər, çətinliklər yaşayıb. Düşmənləri ilə döyüşdə qorxusuz savaşıb. Əyilməyib, sınmayıb...

Əsl türk oğludur Xələf. Öz sevgisi ilə, alicənablığı ilə. Lazım olanda, güzəştə getmək bacarığı ilə.

Sevdiyi qadını başının tacı edir Xələf.

Teymur: Sürgün olunmuş Həştərxan xanı (Xələfin atası)

Temir-Temür-Timur türk mənşəli sözdür- **1) Dəmir; 2) (məcazı) Dəmir kimi möhkəm, bərk (sağlam) mənalarını verir** [4, s.447]. Bu antroponimin semantikasında igidlik, qüvvətlilik, dözümlülük kimi keyfiyyətlər müşahidə olunur.

Almaz: (Tamaşada yalnız adı çəkilir). **Xələfin anası**

Volqa tatarlarının dilində Almaz, İlmaz, İlmas kimi variantları olan **Almaz** adına rast gəlirik. Almaz, İlmaz, İlmas **"toxunmayacaq, almayacaq"** mənalarında işlənir. Bu ad şər qüvvələrin yeni doğulmuş körpəni üstələməməsi, şər qüvvələrin toxunmaması, şər qüvvələrin almaması üçün uşağa qoyulur. Kazan Türklərində uşağa pis, bəd, yaman güclər, ağrılar toxunmasın deyə bu ad verilir [4, s.22].

Adelma: Tatar şahzadəsi (Xorasan xanının qızı), Turandotun qulluqçusu

Adelma ərəb mənşəli **Adilə** qadın adıdır. Sözün kökü Adil **ədalətli, insaflı, düz iş görən** deməkdir [2, s.15].

Zelima: Turandotun başqa qulluqçusu

Zelima ərəb mənşəli **Səlimə** qadın adıdır. Sözün kökü Səlim: **1) sağlam; 2) eyibsiz, nöqsansız, doğru, dürüst** deməkdir[2, s.547].

Şirin: Səlimənin anası

Şırın fars mənşəli sözdür . Sözün kökü şir (**süd** kimi dadlı). Məna genişlənməsi ilə Şirin – **şirin, sevimli, dadlı, gözəl** deməkdir [5, s. 629]. Bu ada qədim dövr türk antroponimik sistemində rast gəlinir.

Barak: Şirinin əri, Xələfin keçmiş dayəsi. Gənc şahzadənin yaxın dostu(Çində adını dəyişib-Həsən qoyub)

Barak türk mənşəli sözdür [4, s.51]. Müxtəlif mənalarda işlənib: Barak – **1. Türk mifologiyasında müqəddəs köpək;** 2. **Tüklü, qıllı çuxa; 3. Evsiz, yurdsuz**.

Barak ona olan yaxşılığı da, pisliyi də yaddan çıxarmaz. Öz canını sahibi üçün təhlükəyə ata bilər və nə olursa-olsun, sahibini çətin anda tərk etməz. Barak hər zaman Xələfə sadiqdir. Pekində evsiz-eşiksiz, yurdsuzdur Barak. Həsən **(gözəl, göyçək**) ərəb mənşəli sözdür [2, s.730].

İsmayıl: Səmərqənd şahzadəsinin yaveri

İbrahim peyğəmbərin Həcərdən doğulan oğlunun adıdır. **İsmayıl** sözünün ilk dəfə qədim yəhudi dilində (**allah eşidir)** işləndiyi deyilir.

Fridrix Şiller dahi Nizaminin "Yeddi gözəl" poemasındakı dördünci hekayənin məzmununu düzgün başa düşmüş, türk qızının azadlıq istəyini, onun qadın haqsızlığına qarşı mübarizəsini ustalıqla göstərmiş, Turandotun ilahi gözəlliyini, məğrurluğunu, əyilməzliyini, ağılını və zəkasını yüksək qiymətləndirmişdir.

İstifadı edimiş ədəbiyyat

1. Ağayev Ə. M. Nizami və dünya ədəbiyyatı. Bakı, Azərnəşr, 1964, 170 s.
2. Ərəb və fars sözləri lüğəti (Red. Abdullayev B.T., Orucov Ə.Ə., Şirvani Y.Z.) Bakı: Yazıçı, 1985, 1037 s.
3. Бертельс Е. Э. Великий азербайджанский поэт Низами. Баку: Изд-во АзФАН, 1940, с.144
4. Eski Türk-Moğol Kişi Adları Sözlüğü;Hzl: Prof. Dr. Tuncer Gülensoy-Doç. Dr. Paki Küçüker, İstanbul: Bilge Kültür Sanat Yayınları, 2015, 588 s.
5. Eyuboğlu İsmet Zeki. Türk Dilinin Etimoloji Sözlüğü, İstanbul: 2. Baskı: Say Yayınları, 2020, 866 s.
6. Meyers Taschenlexikon Fremdsprachiqe Schriftsteller, Prof. Dr. Gerhard Steiner Leipsig, 1971, S. 712
7. Schiller Friedrich. Turankızı Çin Prensesi Turandot. Çevirenler Senar Ülger ve Selçuk Ülger, İstanbul: Kaynak Yayınları No 973, 1. Basım: Temmuz 2020, 162 s.
8. Turandot – Von Nizami bis Puccini. Di Johann Christoph Bürgel, Vortrag, Roma, 2006, "Quaderni di Studi İndo-Mediterranei", I (2008), pp.347-364.

Namaz Rizvan Manafov

THE NAMES OF THE CHARAKTERS IN THE WORK OF FRIEDRICH SCHILLER "TURANDOT, PRINCESS OF CHINA"

Abstract:

There is a lot in common between the poems of the great Azerbaijani poet Nizami Ganjavi and European knightly novels. For the first time in Azerbaijani literature studies, Akbar Aghayev noted the moral influence of Nizami on the Western world, as well as the fact that the plots of his works inspired Goethe, Gozzi, Schiller and Heine. On the basis of "The Story of a Slavic Girl" of Nizami Ganjavi's poem "Seven Beauties" French writer Alain-Rene Lesage wrote "Princess of China", Italian playwright Carlo Gozzi - "Turandot", and famous German play writer Friedrich Schiller - "Turandot, Princess of China". Plots of Nizami's poems, that were the first to appear on the French stage, later found their way on the Italian and German stages as well. The article shows that the work of Friedrich Schiller

surpasses both Lesage's "Princess of China" and Gozzi's "Turandot" by its artistic qualities, tension of events, and high speech culture of characters.

The article examines the origin and semantics of the names of the characters in the play by F. Schiller "Turandor, Princess of China". The author of the article shows that the names of the main characters of the play are of Turkish origin. Turandot means "Turan girl", "Turkish woman".

Key words: Azerbaijani poet; poems of Nizami; "Seven Beauties"; moral influence; "Turandot, Princess of China"; character names

Намаз Ризван оглуМанафов

ИМЕНА ПЕРСОНАЖЕЙ В ПРОИЗВЕДЕНИИ ФРИДРИХА ШИЛЛЕРА «ТУРАНДОТ, ПРИНЦЕССА КИТАЯ»

РЕЗЮМЕ:

Между поэмами великого азербайджанского поэта Низами Гянджеви и европейскими рыцарскими романами есть много общего. Впервые в азербайджанском литературоведении Акбар Агаев отметил духовное влияние Низами на западный мир, а также и то, что темы его произведений вдохновляли Гете, Гоцци, Шиллера и Гейне. На основе стихотворения «История славянской девушки» поэмы Низами Гянджеви «Семь красавиц» французский писатель Ален-Рене Лесаж написал произведение «Принцесса Китая», итальянский драматург Карло Гоцци - «Турандот», известный немецкий драматург Фридрих Шиллер - «Турандот, принцесса Китая». Сюжеты Низами, которые первыми вышли на французскую сцену, позже нашли свой путь и на итальянской и немецой сценах. В статье показывается, что произведение Фридриха Шиллера по своим художественным качествам, напряженности событий, высокой речевой культуре героев превосходит и «Принцессу Китая» Лесажа, и «Турандот» Гоцци.

В статье рассматриваются происхождение и семантика имен персонажей в пьесе Ф. Шиллера «Турандор, принцесса Китая». Автор статьи показывает, что имена главных героев пьесы турецкого происхождения. Турандот означает «дочь Турана», «турчанка».

Ключевые слова: *азербайджанский поэт, поэмы Низами, «Семь красавиц», моральное влияние, «Турандот, принцесса Китая», имена персонажей*

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Flora Kamran qızı Namazova tərəfindən çapa tövsiyə olunmuşdur.

БУНЯДОВА ВАФА ШАХЗАДЕ КЫЗЫ
Азербайджанский Архитектурный и Строительный Университет
Кафедра «Иностранных Языков»
Доктор философия по филологии.ст.преп.
Айна Султанова 5.
vafabunyadova@com.ru

РОЛЬ И ЗНАЧЕНИЕ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ СПЕЦИАЛИСТА СТРОИТЕЛЬНО-АРХИТЕРНОГО ПРОФИЛЯ

АННОТАЦИЯ

В современном мире идет процесс быстрого развития и внедрения компьютерной техники во все сферы человеческой деятельности. Информационная грамотность является залогом успешной профессиональной деятельности человека. Чем раньше студенты узнают о возможностях ИКТ, тем быстрее они смогут воспользоваться новейшими методами получения информации и преобразования ее в знания.

Применение компьютерной техники позволяет быстро, умело и правильно получать, сохранять и передавать информацию, рационально её использовать. От выпускников технического и профессионального образования различных профилей современное общество требует не только фундаментальную базовую подготовку, которая им необходима на производстве, но и хорошую информационно-технологическую подготовленность.

В настоящее время информационно – коммуникационная технология (ИКТ) в процессе обучения имеет два направления.

Первое направление – это овладение компьютерной грамотностью для получения знаний и умений в определенной области учебных дисциплин.

Второе направление – это применение компьютерной технологии как мощное средство обучения, которое способно повысить его эффективность и качество знаний студентов.Развитие творческих способностей студентов, активизирование познавательной деятельности, способствующей формированию активной жизненной позиции в современном обществе - такие возможности предоставляют уроки с применением информационной технологии.

Ключевые слова: инновационная методика, интерактивное обучение, умения и навыки, мотивация, интексификация, модуль, имитационные методы обучения

В формировании профессионально-деловых качеств специалиста главными направлениями являются:

1)компьютеризация учебного процесса;

2) инновации в информационных технологиях обучения;

3) информационная культура как составная профессиональной культуры специалиста;

Азимов Э.Г,отмечает:»Для стимуляции изучения материала и выработки адекватного поведения, нужно создать реальные, настоящие жизненные ситуации. Эту задачу берут на себя новые технологии и, в частности, Интернет. Поэтому сегодня новые методики с использованием Интернет - ресурсов противопоставляются традиционному обучению русскому языку.**»(1.с.289**)

На всех этапах учебного процесса, особенно при изучении специальных дисциплин, могут использоваться такие элементы ИКТ, как электронные учебники, интерактивная доска, электронные энциклопедии, образовательные ресурсы Интернета, диски с фильмами и иллюстрациями, электронные пособия, презентации, демонстрируемые с помощью мультимедийного проектора. Компьютеры и учебные программы можно назвать универсальными средствами обучения. В зависимости от дидактических целей выделяют несколько видов компьютерных программ: учебные, тренажеры, контролирующие, демонстрационные, справочно-информационные, мультимедиа учебники.В процессе использования мультимедийных технологий при проведении лекционных занятий качество образовательного процесса выходит на принципиально другой уровень. Сочетание визуального и слухового восприятия информации позволяет лучше понимать изучаемый материал, а также способствует улучшению запоминания и воспроизведения информации. На смену аудиозаписям и видеопросмотрам приходят презентации, электронные учебники, обучающие программы, тренажеры, программные средства тестирования и контроля уровня знаний и т.д. При объяснении нового грамматического и лексического материала эффективно использование таких мультимедийных технологий, как презентации. Удобный и эффектный способ представления информации с помощью компьютерных программ – это мультимедийные презентации. Он сочетает в себе динамику, звук и изображение, т.е. те факторы, которые наиболее долго удерживают внимание. Гораздо большего эффекта позволяет достичь одновременное воздействие на два важнейших органа восприятия (слух и зрение). Использование обучающих программ и программ-тренажеров является оптимальным на практических занятиях. Современные тренажеры могут сообщать об ошибках в ходе решения задания и его выполнении.

Мультимедийный (электронный) учебник – это представление учебного материала в электронном виде, с использованием следующих необходимых материалов: форматированного текста, графических изображений, анимации,

аудио и видеозаписи. При использовании технических средств обучения для развития коммуникативной деятельности очень важно выделять три аспекта:

1)свободное общение студентов в режиме реального времени, использование электронной почты и информационных сетей, то есть, как аутентичный диалог в письменной форме между партнерами по коммуникации, при котором компьютер выполняет роль инструментального средства коммуникации, что особенно важно при изучении иностранных языков, в частности, русского; 2)интерактивное диалоговое взаимодействие обучаемого с компьютером, при котором преследуются реальные цели коммуникации (запрос и получение информации), то есть как диалог человека и машины, в котором компьютер выступает в роли партнера по коммуникации. Студенты старших курсов используют информационные технологии в поиске информации для подготовки рефератов по различным дисциплинам, при выполнении курсовых и дипломных работ, при выполнении отчета после прохождения производственной и преддипломной практики. Современные образовательные технологии ориентированы на индивидуализацию, дистанционность и вариативность образовательного процесса, тем самым дают возможность повышать качество образования и более эффективно использовать учебное время. В целом, компьютер предоставляет обучающемуся большую независимость, что является положительной особенностью компьютерного процесса обучения с точки зрения реализации коммуникативного метода обучения.

Гальскова Н.Д.пишет:»Современная система образования предоставляет возможность каждому педагогу по-новому взглянуть на собственный опыт работы, выбрать среди множества инновационных методик «свою». Поэтому именно сегодня для успешного проведения современного урока необходимо понять, зачем и для чего необходимы изменения, осмыслить по-новому собственную позицию, и, прежде всего, измениться самому**».(2.с.312)**

При организации самостоятельной работы обучающихся использование ИКТ особенно эффективно. Во время контрольных мероприятий наиболее удобно использование программных средств тестирования и контроля уровня знаний. Применение информационных технологий позволяет сделать учебный процесс более эффективным, увлекательным и повышающим мотивацию обучающихся. Таким образом, внедрение информационных технологий в учебный процесс должно быть качественно обоснованным и не повсеместно заменяющим, а дополняющим фактором в системе современного образования. В Азербайджане идет становление новой системы образования, ориентированной на вхождение в мировое образовательное пространство. Происходит модернизация образовательной системыличности иностранных студентов технических вузов - новый виток в развитии методики русского языка как иностранного.К инновационным технологиям обучения относят:

интерактивные технологии обучения, технологию проектного обучения и компьютерные технологии. Рассмотрим некоторые из технологий. Основным концептуальным положением технологии перспективно - опережающего обучения является личностный подход (межличностное сотрудничество) с использованием метода опережения и подачей материала малыми дозами. Технология коллективного взаимообучения имеет несколько названий: организованный диалог, работа в парах сменного состава. В динамической паре участвуют четверо, и задания обсуждается трижды, с каждым партнером, а при вариационной паре каждый из четырех членов группы получает свое задание, выполняет его, анализирует, проводит взаимообучение по схеме с остальными тремя, то есть каждый усваивает четыре порции учебного содержания, и в результате регулярно повторяющихся упражнений совершенствуются навыки логического мышления и понимания, включается память и так далее. Обучение в малых группах - технология сотрудничества, главной идеей которой - учиться вместе, а не просто помогать друг другу. Достижение конкретных целей учения в процессе работы с модулем - технология модульного обучения. Модуль - это целевой функциональный узел, в котором объединены учебное содержание и технология овладения им. Содержание обучения «консервируется» в законченных самостоятельных информационных блоках. Дидактическая цель содержит в себе не только указания на объем знания, но и на уровень его усвоения. Модуль состоит из циклов уроков (двух- и четырехурочных). Расположение и количество циклов в блоке могут быть любыми. Каждый цикл в этой технологии является своего рода миниблоком и имеет жестко определенную структуру. Развивающее обучение не имеет ничего общего с репродуктивным обучением, основанным на натаскивании и зазубривании, поскольку главным является содержание, методы и формы. Развивающее обучение ориентировано на всестороннее развитие обучаемого. Игровые технологии занимают значительное место при обучении иностранных студентов, так как в игре воссоздаются условия ситуаций, какой-то вид деятельности, общественный опыт, а в результате складывается и совершенствуется самоуправление своим поведением. Игры подразделяются на имитационные, операционные, ролевые и др. Создание проблемной ситуации (скрытое или явное противоречие, присущее вещам, явлениям материального и идеального мира) - основа технологии проблемного обучения, главным методом которого является исследовательский метод. Это такая организация учебной работы, при которой обучающиеся знакомятся с научными методиками добывания знаний, осваивают элементы научных методов, овладевают умением самостоятельно добывать новые знания, планировать поиск и открывать новую для себя зависимость или закономерность. В процессе такого обучения иностранные студенты учатся мыслить логично, научно, диалектически, творчески; добытые ими знания

превращаются в убеждения; они испытывают чувство глубокого удовлетворения, уверенности в своих возможностях и силах.Все технологии интерактивного обучения делятся на имитационные и неимитационные. В основу классификации положен признак воссоздания (имитации) контекста профессиональной деятельности, ее модельного представления в обучении.Неимитационные технологии не предполагают построения моделей изучаемого явления или деятельности. В основе имитационных технологий лежит имитационное или имитационно-игровое моделирование, т. е. воспроизведение в условиях обучения с той или иной мерой адекватности процессов, происходящих в реальной системе.

Полат Е.С.отмечает:»Это позволяет организовать изучение русского языка как учебно-воспитательный процесс, представляющий методикотехно ло гическую систему с цело стными сво йствами, в ко то ро й со блюдается последовательная ориентация на четко определенные цели. Изучение русского языка как иностранного – это диалог двух культур, процесс познания теории языка и развитие речи,в котором знания усваиваются одновременно с уменми.(3.с.348)

Инновационная методика - это методика использования инновационных способов и дидактических средств, меняющая технологию учебного процесса. Ее главная задача - устранение противоречия между целью обучения, с одной стороны, и организацией содержания и процесса обучения, с другой. Инновационная методика - новый подход и к организации этапа включения в деятельность, и к развитию положительной мотивации учения, и к возможностям интенсификации и оптимизации обучения. Ее базу составляют:

1.психологические принципы организации учебного процесса и принципы развивающего обучения;

2.теоретические положения дидактики средств обучения, педагогики творчества;

3.этапы и звенья творческого процесса как механизма развития, связь механизмов творческого мышления с деятельностью правого полушария, локализующего мир воображения, язык образов;

. Инновационное обучение - один из возможных путей изменения организации работы преподавателя и обучающихся. Инновационное обучение русскому языку иностранных студентов технических вузов - процесс познания теории языка и развития речи, в котором знания усваиваются одновременно с умениями (языковыми, речевыми), что обеспечивается особой организацией изучения языка: способом развития речи, специальными дидактическими средствами и особой методикой и технологией.

Литература:

1.Азимов Э.Г. Теория и практика преподавания русского языка как иностранного с помощью компьютерных технологий. Москва, 1996, 289 с.

2. Гальскова Н.Д. Современная методика обучения иностранным языка Н.Д. Гальскова. М.: АРКТИ, 2004. 312 с

3. Полат Е.С. Новые педагогические и информационные технологии в системе образования / Е.С.Полат. М.: Академия, 2009. 348 с.

V.Bunyadova

İNŞAAT VƏ MEMARLIQ PROFİLLİ MÜTƏXƏSSİSƏ RUS DİLİNİN TƏLİM PROSESİNDƏ MƏLUMAT VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU və ƏHƏMİYYƏTİ

Xülasə

"Texniki ali məktəblərin əcnəbi tələbələrinin tədrisində interaktiv texnologiyaların istifadə edilməsi" başlıqlı məqalədə yeni tədris texnologiyaları, interaktiv texnologiyaların növləri və tipləri, innovasiyalı metodika və onun bazası nəzərdən keçirilir. İnnovasiyalı yanaşma rus dilinin tədrisini dəqiq müəyyən olunmuş məqsədlərə ardıcıl istiqamətlənmənin riayət olunduğu bütöv xüsusiyyətli metodiki-texnoloji sistemi təmsil edən təlim-tərbiyə prosesi kimi təşkil etməyə imkan verir. Texniki ali məktəblərin əcnəbi tələbələrinin rus dilinin innovasiyalı tədrisi - dil nəzəriyyəsi və nitq inkişafının dərkedilməsi prosesidir, burada biliklər bacarıqlarla (dil, nitq) eyni zamanda mənimsənilir ki, bu da dil tədrisinin xüsusi təşkili: nitq inkişafının üsulu, xüsusi didaktika vasitələri və xüsusi metodika və texnologiyalarla təmin edilir. İnnovasiyalı tədris fəaliyyətin təlim-tərbiyə sistemidir. Məqalə xarici dil kimi rus dili dərslərində rabitəli (əlaqəli) nitqin inkişafı metodikası probleminə həsr edilmişdi. Təqdim olunan işdə şagirdlərdə rabitəli (əlaqəli) nitqin formalaşmasının əsas şərtləri üsul və metodları təhlil olunmuşdur. Müəllif qeyd edir ki, şagirdlər rabitəli (əlaqəli) nitqin inkişafı – müəllimin sistematik və məqsədyönlü müdaxiləsini tələb edən uzun müddətli mürəkkəb prosesdi. Rabitəli nitq məntiqi cümlələrdən ibarətdir. Müəllif qeyd edir ki, öyrənənlərin nitqinin inkişafı uzun və mürəkkəb prosesdir və müəllimin sistematik və məqsədyönlü müdaxiləsini tələb edir. Onlarda rabitəli nitqin formalaşmasında vacib olan üsul və metodlar, vəzifələr qeyd olunur. Rabitəli nitqin tam mənimsənilməsi üçün nitq və intellektual səviyyənin lazımi dərəcədə olması vacibdir. Hesab edirik ki, rabitəli nitqin inkişafı səviyyəsində rus dilinin xarici dil kimi təsviri mətn vahidləri üçün kriteriyaların aşkarlanmasıdır. Rus dilinin daşıyıcısı mətni cümlələrə bölərək və ya cümlələri birləşdirərək məna incəliklərini təhlil etmık olar. Xarici tələbənin diqqəti mətnin formal xarakteristikasına yönəlib. Bu xarici dildə danışanın xüsusiyyətidir.

Açar sözlər: innovasiyalı metodika, interaktiv təhsil, qabiliyyətlər və vərdişlər, motivasiya, inteksifikasiya, modul, tədrisin imitasiyalı üsulları.

V.Bunyadova

THE ROLE AND SIGNIFICANCE OF INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE PROCESS OF LEARNING RUSSIAN LANGUAGE TO A SPECIALIST OF THE CONSTRUCTION AND ARCHITERAL PROFILE

Summary

In the article "The use of interactive technologies in the training of foreign students of technical universities", new educational technologies, types and types of interactive technologies, innovative methods and its base are considered. The innovative approach allows organizing the study of the Russian language as an educational process, representing a methodological and technological system with integral characteristics, in which a consistent orientation to fairly definite goals is observed. Innovative teaching of foreign students of technical universities to the Russian language is a process of learning the theory of language and development of speech, in which knowledge is assimilated simultaneously with skills (linguistic, speech), which is provided by a special organization of language learning: the way of speech development, special didactic means and special technique and technology. Innovative training - educational and upbringing system of functioningThe article is devoted to the study and development of the methodology of using the intermediate language in the lessons of the Russian language as a foreign language. The work presents examples of the formation of an intermediary language, its methods, conditions and styles used in teaching students. The author points out that the development of the mediating language among students is a long-term and complex process that requires systematic and purposeful invention of the teacher. Connection is an open, composed, composite and grammatically formal, cumber-some, and emotionally explicit statement of logically related associations. It is thought that the development of the raptors – it is the process of continuous and sloping, requiring systematic and directing of the trainer.

Key words: innovative methodology, interactive training, skills and abilities, motivation, intexification, module, imitative methods of teaching.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyyə Rzayeva tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ ƏSƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru ,dosent
ADU
Rəşid Behbudov 134
e-mail:Lalyasad@gmail.com

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İŞGÜZAR YAZIŞMALARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Qloballaşan dünyada müxtəlif ölkələr arasında əlaqələrin inkişaf etdirilməsi müşahidə edilir. Bu zaman artmaqda olan ehtiyac və tələbatları nəzərə alaraq işgüzar yazışmaların daha ciddi elmi əsaslar üzərində qurulması məsələsi meydana çıxır. Bu da sözü gedən sahənin müxtəlif aspektlərinin təhlilinin ehtiyac və tələbatlara daha çox uyğunlaşdırılmasını tələb edir. Burada əsas məqsəd kadrların ixtisasları ilə bilavasitə əlaqəli olan akademik və qeyri-akademik situasiyalarda istifadə edilən bacarıq və qabiliyyətlərin öyrədilməsidir. Bununla əlaqədar olaraq, məhz bu sahəyə aid olan, yəni bu sahədə fəaliyyət göstərən mütəxəssislərin rast gələ biləcəyi həm akademik, həm də adi, universal situasiyalar müəyyənləşdirilməli, həmin situasiyaların və onlara uyğun sənədlərin dili linqvistik cəhətdən təhlil edilməlidir. Aparılmış linqvistik təhlil nəticəsində müəyyənləşdirilmiş ayrı-ayrı situasiyalara xas olan linqvistik xüsusiyyətlərin aşkar edilməsi işgüzar yazışmaların əsasını təşkil etməlidir. Müasir zamanda bu proses «ehtiyac və tələbatların təhlili» (needs analysis) adını almışdır. Sözü gedən proses həm də «ehtmal edilən situasiyaların təhlili» (target situation analysis) kimi tanınır. Ehtimal edilən situasiyaların təhlili bu sahənin artıq tanınmış mütəxəssisləri, həm də müxtəlif sahələrin mütəxəssisləri tərəfindən qəbul edilmiş mərhələdə baş verir.Beləliklə, bu gün müasir dünyada qlobal ünsiyyət dili statusunu qazanmış ingilis dilindən kommunikativ məqsədlərə nail olmaq üçün istifadə etmək qabiliyyətinə malik olan gənclərin hazırlanması qarşıya qoyulan əsas vəzifələrdən biridir. Hazırda çalışan hər hansı kadr ixtisas profilindən asılı olmayaraq müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə müxtəlif sahələrdə bilik səviyyələrini artırmalı, ixtisasları ilə bağlı olan dünya təcrübəsindən faydalanmaq və ondan konstruktiv şəkildə istifadə etmək qabiliyyətinə malik olmalıdır. Dildə ifadə olunan fikrin qlobal obrazı sənədlərdə də dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır. Meydana gələn çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Məzmunun dil formasının sənədlərin dili ilə bu cür yaxınlaşdırılması ona görə asanlaşır ki, məlumatın müəyyən fraqmentinin qavranılmasında, həmçinin stereotiplər, yaxud sxemlər fəaliyyət göstərir. Beləliklə, xəbər

sənədin dili ilə ötürülür. Fikirlə söz arasında daha bir nitq -fikir prosesi vardır ki, bu da sənədlərin təsnifatı və onun özünün xüsusi növləri ilə bağlıdır.

Açar sözlər: yanaşma, strategiya, şifahi nitq, dil, kontekst, yazı

İnformasiya boşluğunu doldurmaq bacarığını öyrənərkən ünsiyyət zamanı sənədin vasitəsilə informasiyanın məqsədli aparılması vərdişinin də inkişaf etdirilməsinə diqqət yetirilməlidir. Eyni dildə danışan bir qrup insanlarla ünsiyyət zamanı həmin qrupda olan insanların niyə məhz belə fikir mübadiləsi aparmasını, söhbət zamanı hansı təəssürat və dəyərlərin bəyənilməsindən və müzakirə edilməsindən xəbərdar olmaq onlara həmin qrupa üzv kimi qəbul edilmək haqqı qazandırır [4,99]. İşgüzar yazışmalar zamanı ən başlıca funksiyalardan biri həmin dildə danışanların mədəniyyətini qəbul etmə bacarığına yiyələnməkdir. Bu proses ali bacarıqlar sırasına daxil olaraq təcrübə sahəsində deyil, yalnız insanın savadı, fərdi inkişaf səviyyəsi, özünə və dünyaya olan münasibətindən asılıdır.Beləliklə, istər sənədlərin dili ilə, istərsə də bu və ya digər formada ünsiyyətin ümdə vəzifəsi məlumatı ötürmək və ötürülən məlumatı başa düşməkdən ibarətdir ki, bu da əsasən sənədlər, yazışmalar vasitəsilə gerçəkləşir.Son nəticə olaraq məlumat ötürülür ki, bu da hər bir bəşər övladı üçün önəmlidir. Elə buna görə, sənəd və yazışmalar söz düzümünü və ikisinin bir yerdə ifadə etdiyi mənanı rəhbər tutaraq, informant rolunda çıxış edir. Ünsiyyət qarşılıqlı olduğu zaman daha uzun ömürlü olur. Geniş mənada insanlar arasındakı ünsiyyət dillə bağlıdır [3,78]. İnsanlar mürəkkəb dil fəaliyyətində iştirak edərək, bir-birilərini başa düşürlər və hətta səsli ünsiyyətin mahiyyətini açıb göstərmək istəyəndə səssiz ünsiyyəti də nəzərə alırlar.Dil bizim hər birimizin həyatında istənilən sahədə mühüm rol oynayır. İnkişafımız, iqtisadiyyatımız, ailədə, cəmiyyətdə, siyasi, elmi və ümumiyyətlə gündəlik fəaliyyətimiz dillə bağlıdır. Oxuyuruq, yazırıq, zəng edirik, cavab veririk, görüş təyin edirik, əhvalat danışırıq, bütün bunlar, habelə alış-veriş, uzaq-yaxın dostlar və qohumlarla əlaqələrimiz dillə mümkündür. Dil səsləndirilməlidir, səslə verilən məlumat eşidilməlidir və qavranılaraq dərk edilməlidir. Bəzən isə sənədlərin, yazılmış hərflərin dili ilə danışırıq. Bu isə müxtəlif sahələrin, o cümlədən işgüzar yazışmaların inkişafını günün tələbinə çevirir[2, 11]. Bu gün müasir təşkilatlarda işgüzar yazışmaların müxtəlif növlərindən istifadə olunur ki, onlardan ən çox istifadə olunanı məktublardır. Məktublar yazılarkən müvafiq tələblərə cavab verməlidir. Məlumatın ötürülməsini nəzərdə tutan bütün sənəd növləri, o cümlədən məktublar qeydiyyatdan keçməlidir. Məktublar yazılarkən kifayət qədər diqqətli olmaq tələb olunur. Belə ki, xırda bir səhv anlaşılmazlığa, münaqişələrə təkan verə bilər. Bu yazılarda arxaik və köhnəlmiş sözlər uzun müddət qorunur. İşgüzar məktubların dil xüsusiyyətlərindən bəhs edərkən reklam məktubları da maraq kəsb edir. Bu zaman üslub tərtibatı mühüm əhəmiyyət kəsb edir, müvafiq qaydalara riayət olunması vacibdir. Belə ki, reklam məktubunda adətən təklif olunan əmtəə və xidmətlər haqqında məlumat verildiyindən, o müəyyən sxem üzrə tərtib edilir:

1. Adresata müraciət

Maraqlı burasıdır ki, reklam məktubunun tərtibində xitablar dil faktı kimi öndə gedir.

2. Şirkətin qısa və lakonik təqdimatı

3. Əmtəə və xidmətlərin meyarlarının qarşı tərəfə bildirilməsi

4. Əlavə və buna bağlı şərtlər barədə məlumat verilməsi

Daha sonra isə əməkdaşlığın konkret təsviri verilir.

Topdan və pərakəndə satış haqqında təkliflər bu sırada yer alır. Lazım olarsa mallardan bir nüsxənin qarşı tərəfə ötürülməsi də bu sıralamaya aiddir.

Eyni zamanda suallara cavab üçün hazırlıqlı olmaq da vacib şərtlərdəndir.

Gələcək əməkdaşlığa ümid bəsləmək və bunu ifadə etmək də işin faydalı tərəfi ola bilər. Daha sonra imzalar atılır [1,219].

Qeyd edək ki, işgüzar üslubda mücərrəd isimlərdən istifadəyə də rast gəlirik. Belə ki, qanun vericilik aktlarında istifadə edilən cəza, cinayət, şikayət və s. kodekslərin həyata keçirilməsində mücərrəd isimlər işlədilir. Onu da qeyd edək ki, bu cür isimlər əksər hallarda mətnlərin giriş hissəsində və ya təsvir məqamlarında yer alır. İşgüzar yazışmalar zamanı sənədlərdə "hər şeydən əvvəl", "baxmayaraq ki", "bununla əlaqədar olaraq" və s. söz və ifadələrdən istifadə olunur. Məsələn: "baxmayaraq ki", "bununla əlaqədar olaraq" və s. söz və ifadələri məktubların mətninin təşkilndə mühüm rol oynayır.

Müasir ingilis dilində buna müvafiq olaraq, " first of all," "İ think," " generally saying" kimi ifadələrin müdaxiləsi məktub tərtibatında seçilir.

Məktubun mətni iki hissəli olur:

1. Daşıdığı mahiyyət
2. Məsələnin mətləbi.

Qeyd edək ik, məktubun məzmun xətti həm sadə nəqli cümlə, həm də mürəkkəb cümlə şəklində ola bilər.

Ərizələr CV-lər kimi motivasiyanın işə götürən şəxsdə yaradacağı təsir baxımından böyük rola malikdir.

Qeyd etmək lazımdır ki, nitqi təşkil edən cümlələr bir-birindən fərqlənən müxtəlif məqsədlərlə işlədilir. Sənədlərdə cümlələrin bir qismində əşya və hadisələr haqqında məlumat verilir, bir fikir ya təsdiq, ya inkar edilir. Başqa bir qrup cümlədə heç bir məlumat verilmir, əksinə danışan müəyyən məsələ ətrafında başqasından məlumat almaq, öz fikrini tamamlamaq, dəqiqləşdirmək məqsədilə həmin cümlələrdən istifadə edir, digər bir qrup cümlələrdə istək, arzu və s. ifadə edir.Aparılan təhlil göstərir ki, leksik sözlər məna yükü və informativliyinin dərəcəsinə görə qrammatik sözlərdən fərqlənir. Bu fərq də onların cümlədə (söyləmlərdə) vurğulu və vurğusuz olması, eləcə də intonasiya qrupunun mərkəzini (fokusunu) öz üzərinə götürməsi ilə şərtlənən amil kimi özünü göstərir. Digər tərəfdən, qrammatik sözlər ünsiyyətdə tez-tez təkrar olunduğundan onlar bir növ köhnə, artıq dinləyiciyə məlum olan informasiyaların daşıyıcısı kimi çıxış edir. Bu xüsusiyyət də onların yazılı ünsiyyət prosesində müəyyən elementlərinin distribusiyasına təsir göstərir.

Qeyd edək ki, leksik sözlərin də yazılı ünsiyyətdə təkrarına yol verilir. Bu halda onlar da köhnə məlumatın daşıyıcısı kimi kənarda qalır. Bütün bu xüsusiyyətlər cümlələrin müxtəlifləşməsinə səbəb olur.

Yuxarıda qeyd etdik ki, müasir təşkilatlarda istifadə olunan əsas sənəd növlərindən biri də ərizədir. Bu söz mənşəcə "ərz" sözündəndir.

Ərizə mahiyyət etibarilə iki formada yazılır:

1. Şikayət ərizəsi
2. Xahiş ərizəsi

Ərizənin mahiyyətində vətəndaşın istəklərinin həyata keçirilməsi ilə bağlı məsələlər yer alır. Bura vətəndaşın arzu və istəklərinin həyata keçirilməsi, mənafeyinin qorunması və s. daxildir.

Bundan başqa, işə qəbulla bağlı ərizə, mənzil verilməsi ilə bağlı təkliflər paketinin göndərilməsi və s. də bu sırada yer alır. Ərizə rəsmi dövlət dilində yazılmalı, düşünülmüş, lakonik, yığcam, anlaşıqlı yazılmalıdır. Müasir təşkilatlarda istifadə olunan ərizələrdə şikayətçi olduğu adamın şəxsiyyəti ilə bağlı söz və ifadələr işlədilməməlidir. Müraciət zamanı müəyyən alicənab, gözəl insan və s. kimi söz və ifadələrin işlədilməsinə yol verilmir. Bundan əlavə, tərcümeyi- hal yazılarkən uzun - uzadı söz və ifadələr, şəxsin emosional sferasının sənəddə təsviri yolverilməz hesab edilir. Sənədlərdə sözlər arasında bağlayıcı olan cümlələrə rast gəlinir. Bu bağlayıcılar işlənən zaman sadalama özünü göstərir. Bu zaman bağlayıcı aparıcı rol oynayır, məzmun bağlayıcının ümumi qrammatik - semantik məzmunundan asılı olur. Hər iki dildə bitişdirmə, qarşılıq, bölüşdürmə bağlayıcıları, iştirak və inkar bildirən bu beş növ bağlayıcılardan birinin iştirak etdiyi cümlələrdə, sadalama intonasiyası öz əhəmiyyətini itirir.Onu da qeyd etmək lazımdır ki, tərcümeyi- hal yazılarkən xronoloji tarixin ardıcıllığını qorumaq vacib şərtlərdəndir. Burada əsasən saylar aparıcı rol oynayır. Belə ki, sıra sayları diqqət mərkəzində olur.Bu gün müasir təşkilatlarda işgüzar yazışmalardan ən çox istifadə olunanlardan xasiyyətnamə və arayışlardır. "Xasiyyətnamə" ərəb mənşəli söz olub, "xasiyyət və namə"(fars) sözlərini özündə birləşdirir. Xasiyyətnamə geniş spektrə malik sənəddir. Bu sənəd hər hansı şəxsin rəhbər vəzifəyə təyini və ya dövlət orqanları tərəfindən tələb edilərkən tərtib edilir. Eyni zamanda əməli yazı növünə aid olub, rəsmi üsluba əsaslanır. Müasir dövrdə xasiyyətnamələr daha dolğun və sadə dildədir. Xasiyyətnamə aid olduğu müəssisənin rəhbəri və Həmkarlar Təşkilatının sədri tərəfindən imzalanır. İri təşkilatlarda xasiyyətnaməni şöbə müdirləri yazırlar.

Digər geniş yayılmış sənəd nümunəsi arayışlardır.

"Arayış" sözü mənşə etibarilə türk sözüdür. "Axtarmaq" mənasını verir.

-Arayışlar şəxsin bu və ya digər yerdə yaşaması, oxuması, işləməsi,hər hansı mülkə sahib olması və s. haqqında hüquqi sənəddir.

- Arayış verilərkən kimə, nə üçün verildiyi göstərilməlidir.

Eyni zamanda işlədiyi müəssisənin rəhbərinin imzası olmalıdır.

Burada bəzi istisna halları da vardır. Belə ki, arayışları müəssisənin kadrlar şöbəsinin müdiri, mühasibatlıq, fakültə dekanları və s. imzalaya bilər. Sonda sənədin gedəcəyi ünvan qeyd edilir. Lakin möhür sənədin təsdiqi üçün vacib hesab edilir. Əksər hallarda arayışlar xüsusi nəzərdə tutulmuş blankda yazılır.

"Arayış" sözünü yazarkən onun mövqeyi vərəqin orta hissəsi olmalıdır.

Sol hissədə idarəyə aid ştamp yer alır. Ştampın aşağı hissəsində say və yazıldığı vaxt qeyd edilir.Məzmun tamamlandıqdan sonra aid olduğu müəssisənin rəhbərinin imzası, soyadı və daşıdığı titulu qeyd edilir. Arayışın aid olduğu dil xüsusi üsluba tabe olur. Söz sırasının pozulma halları arayışın yazılışında xarakterik hesab olunur. Burada mübtəda deyil, xəbər əvvəldə, yəni prepozitiv mövqeyə malikdir. Arayış yazılarkən sırf elmi ədəbi dil hakim olmalı, bədiilikdən, obrazlılıqdan uzaq olmalıdır.Bundan əlavə, mürəkkəb arayış növləri də vardır. Bunlar əsasən cinayət tərkibli məsələlərdə faktların digər tərəfə izahlı şəkildə çatdırılmasını nəzərdə tutur. Bu zaman burada bir və ya bir neçə şəxsdən bəhs etmək mümkündür.

Ümumiyyətlə, müasir təşkilatlarda ən çox istifadə olunan sənədlər təşkilati - sərəncamverici sənədlərdir. Onlar böyük əhəmiyyət kəsb edir.

Təşkilati -sərəncamverici sənədlər idarəyə dair bütün norma və aktları həyata keçirir və reqlamentləşdirir.

Bu sənədlərin tərtibatında idarənin və ya təşkilatın hər bir işçisi maraqlı olmalıdır.

Təşkilati -sərəncamverici sənədlər üç qrupda təsnif olunur:

1.Təşkilati sənədlər

2.Sərəncamverici sənədlər

3.Məlumat -arayış sənədləri

Təşkilati -sərəncamverici sənədlər hüquqi qüvvə daşıyan sənədlərdir. Bu sənədlər normativ hüquqi aktların əsas hissələrindən birini təşkil edir.

Bunların tərtibatında normalara diqqət yetirilməlidir.

Qeyd olunduğu kimi, yazı strategiyalarının seçilməsinə gəldikdə, bu sahədə istifadə edilən materiallar əsasən işgüzar yazı strategiyalarının aşılanmasına yönəldilir. Burada əsas məqsəd yazılı mətnləri şərh etmək, yeni leksik vahidlərin kontekstual mənalarını başa düşmək, sənəddəki olan əsas ideyanı, mənanı adekvat şəkildə qavramaq və digər bacarıqları formalaşdıra bilməkdir.

Koqnitiv təlim nəzəriyyəsinə əsaslanan ingilis dilinin xüsusi məqsədlərlə tədrisi çərçivəsində dili öyrənən tələbələrdə tədris edilən xarici dildə tənqidi təfəkkürün inkişaf etdirilməsi, onlara müşahidə və şərh etmə qabiliyyətlərinin aşılanması əsas məqsədlərdən biri kimi irəli sürülür. Xüsusi dil məfhumu probleminə gəlincə, bu məsələnin bilavasitə üslubi təhlil məsələsi ilə bağlı olduğu qeyd edilməlidir. Bəzi alimlərin fikrincə, təhlilin aparılmasında əsas məqsəd müxtəlif sahələrə aid olan sənədlərə xas olan qrammatik və leksik xüsusiyyətlərin müəyyənləşdirilməsidir. Müxtəlif təşkilatlara dair işgüzar yazışmaları müqayisə edərkən mürəkkəb isimlər, felin məchul növü, modal fellər və başqa elmi mətnlərdə geniş şəkildə istifadə edilən dil

strukturlarına nadir hallarda rast gəlmək olar. Aparılan müqayisələr nəticəsində tədqiqatçılar belə qənaətə gəlmişdilər ki, işgüzar yazışmalar zamanı təşkilat və idarələrin diqqəti xüsusilə adı çəkilən dil strukturlarına yönəldilməlidir. Tədqiqatçılar işgüzar yazışmalar zamanı müstəqil məlumatların dialoq nitqi şəklində verilməsini xarakterik hesab etmirlər. Onlara görə işgüzar yazışmalar zamanı dialoqun kommunikativ - vahidliyi üçün ümumi kontekstdən asılı olmayan müstəqil replikalar səciyyəvi hesab edilmir, yalnız müəyyən qaydada birləşən iki replikanın əlaqələnməsi müəyyən hallarda əsas sayıla bilər.

Qeyd etməliyik ki, içərisində feli tərkiblər olan sadə cümlələr sadə geniş cümlənin ən mürəkkəb quruluşu kimi işgüzar yazışmalarda əsas məzmun xətti hesab edilir. Bunlar məzmun etibarilə mürəkkəb cümlələrə çox yaxınlaşır, lakin formasına görə sadə cümlənin müxtəlif formalarından biri kimi özünü göstərir. İki cümləni bir cümlə halında birləşdirib daha yığcam şəkildə ifadə etmək ehtiyacı məhz bu qaydanın olmasını şərtləndirmişdir. Bu zaman birləşən cümlələrdən biri transformasiyaya uğrayaraq, ya feli sifət, ya feli bağlama və ya məsdər tərkiblərinə çevrilir. Belə tərkiblər şəklinə düşmüş konstruksiyaları «transform» adlandıran dilçilər də vardır. Beləliklə, müasir təşkilatlarda Azərbaycan və ingilis dillərində yazılan sənədlər günün tələbinə uyğun olmalı, standartlara cavab verməlidir.

Ədəbiyyat

1. Selinker, L. Interlanguage, IRAZ, 10, 1992, pp. 219-231.
2. Tannen, D. Oral and Literate Strategies in Spoken and Written Narrative, Language // 58, 1999, pp. 11-21.
3. Ullman S. Language and meaning. London: Word, 1996, Vol.2 №2, 190 p.
4. Weinreich Uriel. On Semantics. University of Pennsylvania Press, 1980, 116 p.

L. ASADOVA

THE LINGUISTIC CHARACTERISTICS OF BUSINESS WRITINGS IN MODERN AZERBAIJANI AND ENGLISH

Summary

The article deals with the linguistic characteristics of business writings. In communicative activities, the criterion of success is whether the learner gets the message across. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of business writings. The author emphasizes its role. Since its emergence this notion caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the process clearly. Many times, the material will dictate the pattern you use, but unless the pattern is suited to your purpose and audience, do not hesitate to try another one. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex. After you have chosen a specific subject heading, identified your main and supporting points, and

selected an appropriate organizational pattern, your next step is to outline your material in the framework as it will appear in your letter, book report, research paper, etc. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end. If you plan to write a short letter, message, or report, your list of main points may be all you need. Even so, you will find it helpful to arrange them according to their order of importance. Which idea or ideas will you use in the main part of your discussion? Which will you use at the end? As a minimum, write down your main points in some kind of orderly arrangement before you begin to write. For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should. Moreover, each text is unique in regard of the structure of the text, its genre, vocabulary, and language. Several factors influence a reader's interaction: how easy the text is to read, how accurately it follows the conventions of its genre or structure, the language it is written in, and even the type and the size of font. Reading is thinking cued by written language.Effective readers locate the basic information from the text. Literal comprehension is needed when reading fiction as well as when reading nonfiction. In fiction, a reader has to identify the characters and follow the events of the story. In non-fiction, a reader needs to comprehend the topic, learn new facts related to it, and be able to find and remember important information. However, mature comprehension includes generalisation beyond the characters and the events of the story to the people and the events in real life.

Key words : approach, strategy, oral speech, language, context, writing

Л. АСАДОВА

ЛИНГВИСТИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ ДЕЛОВЫХ ПИСЕМ НА СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы лингвистические характеристики деловых писем. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Автор пытается раскрыть ихний роль. Она ссылаясь на работы ученых исследовавших эту область лингвистки, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. Практически все, на-

чиная от разговора и кончая письменными текстами, рассматривается в качестве речевых произведений. Если изучающие иностранный язык не могут пользоваться средствами языка для обмена информацией, мыслями, идеями и чувствами, приобретение лингвистических знаний становится совершенно бессмысленным и безрезультатным.Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми, а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. К примеру, в действительности сегодня практически в любом обществе существует потребность в знании языков. Прежде всего, учителя должны быть сами компетентны в этой области. Они должны быть чувствительными в лингвистическом отношении и коммуникативно компетентными. Далее, современные учителя иностранного языка должны уметь видеть себя глазами других и быть готовы считаться с тем, как они их видят. Также они должны быть готовы к экспериментам, должны быть готовы и способны делиться опытом и эмоциями с носителями других культур и своими студентами; должны находиться в постоянном поиске того, какими средствами современные языки могут содействовать пониманию на глобальном уровне. Современный учитель иностранного языка должен обладать стремлением к приобретению знаний о социально-культурном окружении и основах общества и страны изучаемого языка, должны приобретать знания о своей стране и своем обществе, и о том, каким их видят люди, принадлежащие к другим культурам.

Ключевые слова: подход, стратегия, устная речь, язык, контекст, письмо

Redaksiyaya daxil olma tarixi: 28.05.2020
Çapa qəbul olunma tarixi: 08.06.2021
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ ƏHMƏDOVA
Filologiya elmləri namizədi, dosent
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
gulnar_ahmed@mail.ru

MƏTNDƏ ZAMAN ARDICILLIĞI TƏZAHÜRÜ

XÜLASƏ

Məqalədə Azərbaycan və ingilis bədii ədəbiyyatından seçilmiş mətn nümunələri əsasında semantik əlaqə növləri, eynizamanlılıq, zaman ardıcıllığı məsələləri müqayisəli şəkildə araşdırılır. Çoxkomponentli mətinlərdə mövcud olan bir sıra semantik əlaqə növlərindən məhz komponentlər arasındakı eynizamanlılıq və zaman ardıcıllığı münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Təhkiyənin cərəyan etdiyi indiki zamanda gələcəyə nisbətən keçmişdə baş vermiş hadisələr öz zaman dəqiqliyi və çoxluğu ilə fərqlənir. Bu fərqlər hər bir komponentin situasiyanın müəyyən bir hissəsini təsvir etdiyi nümunələrdə öz əksini tapmışdır. Bütöv situasiyanın yaranmasını məhz bu hissələrin ardıcıllığı təmin edir. Nümunələrdən göründüyü kimi mətn komponentləri arasındakı ardıcıllığa formal vasitələrin köməyi olmadan belə nail olmaq mümkündür. Məqalədə bununla yanaşı mətndə zaman ardıcıllığını təmin edən eksplisit vasitələrin, yəni bağlayıcılar, zaman zərfləri və müxtəlif temporal semantikalı sözlərin işləndiyi nümunələr hər iki dil materialından istifadə olunmaqla göstərilmişdir. Zaman budaq cümlələrinin də təhkiyəli mətndə ardıcıllıq göstəriciləri kimi çıxış etməsini nəzərə alaraq "when, while" və s. bağlayıcılı budaq cümlələri təqdim olunmuşdur. Bu nümunələrdə hər bir sonrakı cümlədəki informasiya əvvəl verilmiş məlumatın daha tam və daha dəqiq çatdırılmasına xidmət etməsi göstərilir. Məhz belə qarşılıqlı əlaqə nəticəsində cümlələrin bir-biri ilə bağlılığı əldə edilir.

Açar sözlər: mətndaxili əlaqə, eynizamanlılıq, zaman ardıcıllığı, mətn komponentləri, eksplisit vasitələr.

Mətn komponentləri arasında semantik münasibətləri tədqiq edərkən çox vacib olan bir məqamı qeyd etmək lazımdır. Bu münasibətlər qarşılıqlı şəkildə mövcud olaraq, digərlərindən təcrid olunmuş işlənmə məqamlarına malik deyil. Çoxkomponentli mətinlərdə bir neçə semantik əlaqə növü özünü büruzə verir. Mətndaxili əlaqəliliyin məna tiplərini qruplaşdırarkən K.Abdullayev eynizamanlılıq və ardıcıllıq münasibətlərini xüsusi vurğulayır [1]. O, mətnin bütövlükdə proqressiyasına xidmət edən ən effektiv vasitə kimi komponentlər arasındakı ardıcıllıq əlaqəsini göstərir. Mətnin proqressiyası dedikdə əlaqəli mətnin elə bir

ardıcıl arasıkəsilməz hərəkəti nəzərdə tutulur ki, onun heç bir məqamında özündən əvvəlki sintaktik kəsiklərə ehtiyac qalmır.

Qeyd etmək lazımdır ki, zaman baxımından fərqləndirilən bu əlaqələrin ifadə vasitələrinin işlənmə məqamları mətndə cərəyan edən hadisənin keyfiyyət xüsusiyyətlərini tam şəkildə dərk etməyə və onu mətndə təhkiyənin zaman müstəvisində yerləşdirməyə imkan verir. Təhkiyənin cərəyan etdiyi indiki zamanda gələcəyə nisbətən keçmişdə baş vermiş hadisələr xüsusən özünün zaman dəqiqliyi və çoxluğu ilə fərqlənir. Bu zaman oxucu təhkiyənin cərəyan etdiyi vaxtda baş verənlərin keçmişlə əlaqəsinə diqqət yetirməli olur [4].

Zaman ardıcıllığının mətn ötürücüsü tərəfindən mətnin müəyyən kommunikativ məqsədə müvafiq ən optimal şəkildə təşkili üçün istifadə edilməsi haqqında mülahizələr digər tədqiqatlarda da yer almışdır. [2,6 və sair]. Məsələn Y.Maslov fel zamanını obyektiv zamanın dildə spesifik əksi olan və cümlədə haqqında danışılan situasiyanın temporal "lokallaşmasına" xidmət edən felin qrammatik kateqoriyası kimi nəzərdən keçirməyi təklif edir [5]. Bu "lokalizasiya" felin zaman formalarının köməyi ilə zaman ardıcıllığına və eynizamanlılığa işarə etməkdən ibarətdir.

Zaman ardıcıllığı münasibəti qurarkən mətn komponentlərinin yerləşməsi istisna edilir. Komponentlərin sadəcə düzülüşü özünü informativlik bildirən reallıq kimi büruzə verir. Təhkiyəli mətndə zaman ardıcıllığının sırf morfoloji ifadəsi ingilis dilində Past Simple Azərbaycan dilində isə felin keçmiş zaman formasıdır. Məsələn :

Robert Jordan walked through the pines, feeling his way from tree to tree to the edge of the meadow. Looking across it in the darkness, lighter here in the open from the starlight, he saw the dark bulks of the picketed horses. He counted them where they were scattered between him and the stream. There were five. (E. Hemingway, Chapter 5)

Nəzərdən keçirdiyimiz nümunədə hər bir komponent situasiyanın müəyyən bir hissəsini təsvir edir. Bu hissələrin sıralanması artıq bütöv situasiyanı bizim gözümüzün önündə canlandırır. Mətn komponentləri arasındakı ardıcıllıq münasibəti yuxarıdakı misallarda formal vasitələrin köməyi olmadan yaranır. Hər bir sonrakı cümlədəki informasiya əvvəlki cümlənin malik olduğu informasiyanın daha tam və daha dəqiq verilməsinə xidmət edir. Məhz belə qarşılıqlı əlaqə nəticəsində cümlələrin bir-biri ilə bağlılığı əldə edilir.

Lakin kontekstdə mətn qəbuledicisinin təsvir olunan situasiyanı və onun istinad etdiyi zamanı başa düşməsi ardıcıllığı təmin edən digər artıq eksplisit vasitələr də mövcuddur. Dilçilik ədəbiyyatında mətn komponentlərinin ardıcıllıq əlaqəsi zamanı onları birləşdirən vasitələr kimi ilk növbədə bəzi bağlayıcılar, zaman zərfləri və temporal semantikalı sözlər qeyd edilir. [1,4,7].

Kino searched for a true answer, and at last he said, "Everyone." And he could feel a shell of hardness drawing over him. After a while they lay down together on the sleeping mat, and Juana did not put the baby in his box tonight, but cradled him

on her arms and covered his face with her shawl. And the last light went out of the embers in the fire hole. (J. Steinbeck p.35)

"And" bağlayıcısının bir neçə işlənmə məqamı, eləcə də "after a while" leksik vahidinin mətnin komponentləri arasında zaman əlaqəsinin axıcılığına təsiri aydın şəkildə görünür.

Bəzən ikonik zamanın ardıcıllığı adlandırılan bu tip əlaqə mətn komponentlərinin ardıcıllığının köməyi ilə təsvir edilən situasiyanın xronoloji qaydasını əks etdirir. [6] Müxtəlif formal göstəricilərdən xüsusilə zaman zərflərindən istifadə olunması nəticəsində özünü daha aydın şəkildə büruzə verən ikonik ardıcıllıq təhkiyəli mətnlərdə geniş yayılmışdır:

Earlier in the evening he had taken the ax and gone outside of the cave and walked through the new snow to the edge of the clearing and cut down a small spruce tree. In the dark he had dragged it, butt first, to the lee of the rock wall. There close to the rock, he had held the tree upright, holding the trunk firm with one hand, and, holding the ax-haft close to the head had lopped off all the boughs until he had a pile of them. Then, leaving the pile of boughs, he had laid the bare pole of the trunk down in the snow and gone into the cave to get a slab of wood he had seen against the wall. With this slab he scraped the ground clear of the snow along the rock wall and then picked up his boughs and shaking them clean of snow laid them in rows, like overlapping plumes, until he had a bed. He put the pole across the foot of the bough bed to hold the branches in place and pegged it firm with two pointed pieces of wood he split from the edge of the slab. (E. Hemingway, p.230)

Azərbaycan dilində də analoji hal müşahidə edilir: "Qərib də yaralanmamışdı... mən öz-özümə təkrar etdim və birdən o günlər... tufan başlayana qədər keçən həmin günlər o vaxt fərqinə varmadığım bir aləm kimi təkrar qarşımda canlandı. Mən buldozerçinin hər bir hərəkətini: acığını, gülüşünü, təkəbbürünü, mehribanlığını heyrətli bir aydınlıqla təkrar-təkrar görürdüm. Mən bunların hamısını bu günlərdən ən xırda təfərrüatı ilə birlikdə görürdüm. Mənim zehnimdə Soltan da, Kərəmxan da, buldozerçi də hətta şofer Səməndər də bir saniyənin yüzdə, mində biri sürəti ilə bir-birini əvəz edirdi. Sonra onlar zoğallı meşənin, bizim hələ yarımçıq olan cavan körpümüzün, dəniz kimi dərin və mavi dərənin, ondan o yana görünən dağların fonunda bir-birinə və mənə baxırdılar....Sonra tufan başladı... və... və buldozerçi yaralandı. (İ. Əfəndiyev səh. 96-97)

Nəzərdən keçirdiyimiz nümunədə "və" bağlayıcısı, "sonra" zərfi mətnin komponentlərinin daha dəqiq və ciddi ardıcıllığının müəyyənləşməsinə kömək edərək ümumilikdə, mətnin möhkəm əlaqəliliyinə xidmət edir.

Nəhayət, zaman budaq cümlələri də təhkiyəli mətndə ardıcıllıq göstəriciləri kimi çıxış edə bilər. İngilis dilində buraya, ilk növbədə "when, as soon as, after, before, till, until, while" bağlayıcılı budaq cümlələrini misal gətirmək mümkündür. Bu sahədə tədqiqat aparmış M.Salkova "when" bağlayıcılı zaman budaq cümlə strukturlarının mətndə bir neçə növ temporal münasibət ifadə etdiklərini bildirir. [6]

Burada əsas diqqət baş cümlə ilə zaman budaq cümləsi arasındakı qarşılıqlı əlaqəyə yönəlir. Məsələn, mətndə hadisələr axarı tezliklə dəyişərkən, budaq cümlədəki hərəkətdən dərhal sonra baş cümlədəki hərəkət baş verir:

Suddenly Nellie jerked back and nearly freed herself. From the direction of the barn Jody heard a shrill whistling scream and splintering of wood, and then a man's voice shouting. Nellie reared and whinnied. When Jody helped to the halter rope, she ran at him with bared teeth. He dropped his hold and scuttled out of the way, into the brush. (J. Steinbeck, p.145)

Burada komponentlərin zaman ardıcıllığına "when" bağlayıcılı budaq cümləsi bilavasitə təsir edir. Ardıcıllıq baş cümlə budaq cümlədən öncə yerləşəndə də təmin oluna bilər: *You see what has become of him. And I myself saw the moment when his reason left him. (J. Steinbeck, p.26)*

Azərbaycan dilində də zaman budaq cümlələri mətndə ardıcıllıq əlaqəsinin ifadə olunmasında iştirak edir: *Biz Ağsu keçidinə çatanda hava birdən-birə tutuldu və bərk yağış başladı. Biz keçidin başına qalxanda yağış o qədər şiddətləndi ki, yoldan şırıltı ilə sel axır və üç-dörd addım qabağı görmək olmurdu. (İ.Əfəndiyev, səh.91)*

Əlbəttə, ingilis və Azərbaycan dillərində tipoloji fərqdən doğan zaman budaq cümlələrinin müvafiq olaraq bağlayıcı və şəkilçi ilə formalaşmasına baxmayaraq, onların temporal ardıcıllığı təmin edən funksional xüsusiyyətlərinin əsasən eyni olduğu aşkarlanır.

Mətn komponentləri arasında məna münasibətinə aid olan və temporal birliyin təmin olunmasında bilavasitə iştirak edən eynizamanlılıq əlaqəsi də diqqəti cəlb edir. Mətndə müxtəlif komponentlərin təsvir etdiyi hadisələr bu halda eyni zamanda baş verir. Eynizamanlılıq münasibəti informasiyanın ötürülməsi və qəbulu zamanı ayrı-ayrı mətn komponentlərinin özü ilə gətirməli olduğu xətti səciyyənin inkişafına maneə olur. Adətən belə informativ komplekslər mətn qəbuledicisi tərəfindən bir bütöv şəklində, bir tam şəklində qəbul edilir.

It ~~is wonderful the way a little town keeps track of itself and all its units.~~ *If every* ~~single man and woman, child and baby, acts and conducts itself in a~~ *known pattern* ~~and breaks no walls and differs with no one and experiments~~ *in no way* ~~and is not sick and does not endanger the ease and peace of mind~~ *or steady* ~~unbroken flow of the town, then that unit can disappear and never~~ *be heard* ~~of. But let one man step out of the regular thought or the known~~ *and trusted pattern,* ~~and the nerves of the towns-people ring with~~ *nervousness* ~~and communication travels over the nerve lines of the town.~~ *Then every unit* ~~communication to the whole (J.Steinbeck,~~ *p.39)*

Azərbaycan dilində də mətndə eynizamanlılıq əlaqəsi komponentlərin sadəcə düzülüşü ilə təmin oluna bilər: *Adilin səliqəsinə nə söz1 Heç nazirin özünün də bu cür kabineti ola bilməzdi. Qoz ağacmdan qayrılmış təzə yaraşıqlı yazı stolu. Ağ mərmər ləvazimatı. Səliqə ilə çərtilmiş rəngarəng karandaşlar. Büllur qrafin və stəkan. Qar kimi ağ örtüklü stullar, məxmər pərdələr. (/.Əfəndiyev, səh. 58)*

Eynizamanlılıq əlaqəsi zaman budaq cümlələrinin iştirakı ilə də yaranır: *I saw both of them shot and my father said, "Viva la Republica*" *when they shot him standing against the wall of the slaughter house of our village. (E.Hemingway, p. 309)*

Temporal birliyin eynizamanlılıq ilə ifadəsi "while" bağlayıcısının iştirak etdiyi zaman budaq cümlələrində "when" bağlayıcısı olan strukturlardan daha qabarıq şəkildə görünür. Məsələn:

The other night I was thinking about Madrid and I thought how I would get there and leave thee at the hotel while I went up to see people at the hotel of the Russians. (E.Hemingway, p. 302)

Azərbaycan dilində zaman budaq cümləsi ilə yanaşı, mətndə eynizamanlılıq münasibətinin digər eksplisit göstəricisi "və" bağlayıcısıdır. [1] Belə bir misala baxaq: *Lakin hər dəfə o kağız yadıma düşəndə bu buldozerçi bütün qədd- qaməti ilə qarşımda canlanaraq dərin və mükəddər baxışlarla düz gözlərinin içinə baxır və mənə elə gəlir ki, bu saat onun enli, qüdrətli sinəsindən bir ah qopub onu da, məni də məhv edəcək. (İ. Əfəndiyev, səh. 98)*

Bu mətnin birinci komponentinin zaman budaq cümləsi baş cümlə ilə qarşılıqlı əlaqədə enyizamanlılıq göstəricisinə çevrilir. Daha geniş kontekst çərçivəsində isə artıq "və" bağlayıcısı eynizamanlılıq münasibətini özündən əvvəlki və özündən sonrakı komponentlər arasında gücləndirir.

Analoji funksiyanı ingilis dilində "and" bağlayıcısı yerinə yetirir. Dilçilik ədəbiyyatından additivizm münasibətlərinin göstəricisi rolunda çıxış etdiyi məlum olan bu bağlayıcının simmetrik işlənməsi əlaqələndirilən mətn komponentlərinin ardıcıllığına heç bir təsir etmir, yəni bu ardıcıllığın dəyişdirilməsi ümumi mənanın dəyişməsinə səbəb olmur və ümumi kontekst çərçivəsindən çıxmır. Məhz bu amilin məna baxımından bitkin mətnin formalaşmasına xidmət etdiyi aşkarlanır. Məsələn:

He simply walked as fast as he could to bring the news. And as he walked, he prayed for the souls of Sordo and of all his band. It was the first time he had prayed sınce the start of the movement. (E.Hemingway, p. 289) Burada "and" bağlayıcısının simmetrik işlənməsi aydın şəkildə özünü büruzə verir. Bu zaman onun əlaqələndirdiyi iki komponentdən hansının əvvəl, hansının sonra gəlməsi prinsip etibarilə mətnin bütövlüyünə heç bir dəyişiklik gətirmir.

Həm bu, həm də bundan əvvəlki misallarda bütün mətnin məzmunu bir vahid zaman əsasında qurulur. Öz təbiətinə görə, eynizamanlılıq münasibəti təsvir edilən situasiyanın daha dərindən, daha hərtərəfli nəzərdən keçirilməsini təmin edir.

Sonuncu nümunədən göründüyü kimi, nəzərdən keçirilən münasibətlər mətn boyunca dəyişdirilə bilər. Artıq qeyd etdik ki, burada mətnin başlanğıcının komponentləri arasında eynizamanlılıq varsa, son mərhələ komponentləri arasında ardıcıllıq əlaqəsi özünü göstərir. Aşağıdakı mətndə isə bu daha aydın görünür: *And the pearl settled into the lovely green water and dropped toward the bottom. The waving branches of the algae called to it and beckoned to it. The lights on its surface were green and*

Предположение об обязательном исчерпании этих альтернатив требует дальнейшего обоснования, которое мы пока не можем предоставить. Однако многообещающее направление - связать это с Singh et al. (2016) независимо мотивированное предложение о том, что применение EXH является весьма предпочтительным, если оно дает полный ответ на обсуждаемый вопрос. Обратите внимание, что универсальное значение, которое мы получаем для (1a), применяя EXH, дает полный ответ на вопрос, при каких обстоятельствах вы добиваетесь успеха?

Ключевые слова: словности, однородность, исчерпываемости, альтернативы, условное совершенство, количественная оценка,свободный выбор

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: fililogiya üzrə fəlsəfə doktoru, dosent Allahverdi Həmidov tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL QOCAYEVA
SƏİDƏ ƏLƏSGƏROVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər kafedrasının baş müəllimləri
İstiqlaliyat pr.5
konulsaida@com.ru

ÜMUMİ DİLÇİLİK SİSTEMİNDƏ FRAZEOLOGİZMLƏRİN TƏDQİQİ VƏ TARİXİ MƏNBƏLƏRİNƏ DAİR

XÜLASƏ

Nitqin dəqiqliyi və ifadəliliyi sözlərin,ifadələrin qanunauy-ğun şəkildə işlədilməsindən asılıdır.Biz nitqimizi müəyyən qram-matik qaydalar əsasında qururuq.Sözlər kimi,bütövlükdə bir məna ifad edən sabit birləşmələr də dilimizin lüğət tərkibinin zənginləş-məsində böyük rol oynayır.Bir çox hallarda müəyyən mənanı bil-dirmək məqsədi ilə tək bir sözdən yox,vəhdət təşkil etmiş sözlər qrupundan da istifadə olunur.

Dildə olan bütün sabit söz birləşmələrinin,bölünməz ifadə və ibarələrin məcmusuna **frazeologiya** deyilir.Frazeologiya mənşəcə yunan sözü olub,**phrases-ifadə,logos-nəzəriyyə,elm** sözlərinin bir-ləşməsindən əmələ gəlmişdir.Frazeologiya sabit söz birləşmələrinin qanunauyğun inkişafını,mənşəyini və yaranmasını, xüsusiyyətlərini, forma və məzmun zənginliyini,işlədilmə imkanını,semantik və qrammatik strukturunu,söz və sərbəst birləşmələrlə və s. tədqiq edir. “Frazeologiya” terminini dilçilik aspektində ilk dəfə **Şarl Balli** işlətmişdir.O, söz birləşmələrinin iki tipini qeyd edərək yazır ki, birləşmələrin birisi sözlərin sabit olmayan birləşməsidir.Bunlar daimi olmur,nitq prosesində yaranır və ona görə də nitq vahidlərini təmsil edir. Birləşmələrin bəziləri frazeoloji tərkiblər yaradır.Bun-lar dil sisteminə onun vahidləri kimi daxil olur.

Dilçilikdə dil haqqında elmin başqa sahələri kimi, frazeolo-giya da **iki hissəyə** ayrılır:**1)** ümumi frazeologiya;**2)** xüsusi frazeo-logiya.

1.Ümumi frazeologiyada bir sıra inkişaf etmiş dillərin fra-zeoloji materialların tədqiqindən alınan nəticələr ümumiləşdirilir və bunun əsasında frazeologiyanın ümumi problemləri müəyyənləş-dirilir.

2. Xüsusi frazeologiyada isə hər bir konkret dilin faktları əsasında həmin dilin frazeoloji sistemi,semantik strukturu və s. cə-hətləri təsvir olunur.

Açar sözlər:**dilçilik,frazeologiya,İngilis dili,Azərb.dili,semantika**

Frazeologiya az öyrənildiyindən onun əsas tədqiqat obyektini təşkil edən söz birləşmələri üçün vahid konkret termin yaranmamış-dır.Odur ki,bu sabit söz birləşmələri bir sıra dilçilərin əsərlərində müxtəlif adlar altında verilmişdir.Onlar sabit söz birləşmələrini frazeoloji vahidlər, frazeoloji birləşmələr,tərkib hissələrinə bölün-məyən söz birləşmələri,idiomatik ifadələr, idiomlar,frazemlər, fra-zeologizmlər və s. kimi çoxlu terminlər vasitəsilə adlandırmışlar. Belə müxtəliflik frazeoloji məsələləri dəqiq anlamağa maneçilik tö-rədir və fikri yayındırır.Dildəki be-lə sabit söz birləşmələrinin "frazeologizm" termini ilə verilməsi daha məqsədə uyğundur.Fikrin ifadəsində nitqin bilavasitə tərkib hissəsini təşkil edən iki və daha artıq sözlərin birləşməsindən ibarət olub,kom ponentləri sintaktik və semantik cəhətdən parçalanmayan,quruluşça sərbəst söz birləşmələrinə və ya cümləyə oxşayan,dildə hazır şəkildə olub ənənəyə görə ya bir formada,ya da qrammatik cəhətdən dəyişdirilə-rək işlədilən konstruksiyalara **frazeologizmlər** deyilir.Frazeologiz-mi təşkil edən sözlər onun tərəfləri,yaxud komponentləri hesab olu-nur.Onlar frazeologizmlərdə üzvi surətdə elə birləşir ki,onları bir-birindən ayırmaq və hər bir sözü müstəqil mənada düşünmək qeyri-mümkündür. Frazeologizmi təşkil edən sözlərin hamısı ümumilikdə bir məna ifadə edirlər. **H.Bayramov bu haqda qey edir**:

"Frazeologizmlər dilin xalq fizionomiyası,onun orijinal vasi-təsi,varlıq və zəka zənginliyidir.Onların həm məzmun,həm də forma etibari ilə zənginliyi və dildə həddindən artıq işlədilməsi alimlərin diqqətini özünə cəlb etmişdir.Ona görə də frazeologiya dilçilik el-minin bir şöbəsi olan leksikologiyanın xüsusi bir bölməsinə çevril-mişdir. Frazeologizmlərin daxili məna quruluşunun və xarici struk-turunun,onların ayrı-ayrı dillərdə yeri və mövqeyinin açıqlanması, tərcümə olunma imkanlarının öyrənilməsi,milli və beynəlmiləl ma-hiyyətinin şərhi,onların işlənmə xüsusiyyətlərinin və istifadə olun-ma sahələrinin təhlili həm nəzəri,həm də praktik cəhətdən aktuallıq kəsb edir**.(1.s.138-142**)

Frazeologizmlərdən istifadə insanlara öz fikirlərini dəqiq,qı-sa və idiomatik ifadə etmək imkanını verir.Onlar məfhumu dolayı olsa da,konkret ifadə edir.Frazeologizmlərin əsas xüsusiyyətlərin-dən biri onların obrazlı,emosional,ifadəli olmasıdır.Belə ki, frazeo-logizmlər dilin ekspressivliyində onun emosionallığında xüsusi rol oynayır.Onlar bu və yadigər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir. Frazeologizmlərdən həm bədii,həm publisist,həm də digər üs-lublarda istifadə olunur.Onlar ədəbi dilin yazılı növündə, əsasən bədii üslubda yazılan əsərlərdə,xüsusi üslubi rola malikdir.Frazeo-loji birləşmələr yazıçı fikrinin tutumunu böyüdür, bədii əsərin emo-sionallığını ,üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir. Yazıçı frazeoloji birləşmələri cümlədə işlədərkən mətnlə frazeoloji birləşmənin qarşılıqlı münasibətini əsas götürür,yəni mətn frazeo-logizmlərin semantik çalarlarını dəqiqləşdirir,frazeologizmlər isə mətnin.Böyük yazıçı və şairlərin əlində frazeologizmlər bu və ya başqa surətin danışığını fərdiləşdirmək,tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir.

Frazeologizmlər möhkəm milli xüsusiyyətə malikdir.Hər han-sı bir xalqın frazeologizmlərini öyrənməklə,biz həmin xalqın mədə-niyyəti,tarixi,həyat və yaşayış tərzi ilə yaxından tanış oluruq.Hər bir dilin özünəməxsus frazeologizmləri var.İngilis dili-nin də frazeologiya dünyası çox böyük və müxtəlifdir.İngilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürəkkəb frazeoloji sis-tem o dərəcədə zəngindir ki,danışıq prosesində, frazeologizmlərin vasitəsi ilə bu və ya digər fikri aydın şəkildə başqasına çatdırmaq mümkündür.Bu dilin frazeologizmləri minillik tarixə malikdir.Onlar müxtəlif ictimai tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. İngilis dilinin frazeologizmlərinin əmələ gəlmə mənbəyi,əsasən,xalq danışıq dili,yazılı ədəbiyyat və folklor olmuşdur. Uzun zamandır ki,dünya ölkələrində İngilis dilini öyrənilmə-sinə geniş yer verilir.Bizim ölkəmizdə də həmçinin bu dilin öyrə-nilməsinə böyük diqqət yetirilir.Hər hansı bir dilin mükəmməl for-mada öyrənilməsi,o cümlədən İngilis dilinin öyrənilməsi onun frazeologizmlərini bilmədən mümkün deyil.**V.P.Jukov yazır:"**İngilis dilini öyrənən şəxslər üçün onun frazeologiya sahəsi böyük çətinlik törədir.Onlar əsasən bu dilin frazeologizmlərinin tərcüməsi zamanı böyük çətinliklə üzləşir.Frazeologizmləri əksər hallarda başqa bir dildə olduğu kimi tərcümə etmək olmur və çox zaman mənasız,gülünc alınır.**(2.c.212**)

Bəzitədqiqatçılar,ocümlədənS.İ.Abakumov,A.A.Reformadski,L.A.Bulaxovski, E.İ.Levintova,Y.M.Volf, M.Ruzikulova,A.Arnold,S.İ.Ojeqov və başqaları frazeologizmlərin bir dildən başqa dilə hərfən tərcüməsinin mümkün olmamasını qeyd edir və bunun səbəbini həmin dillərin milli səciyyəsi ilə əlaqələn-dirmirlər.Bəzi dilçilər isə bu əlaməti frazeoloji vahidlərin milli di-lin xüsusiyyətini əks etdirməsi ilə izah edilir. Azərbaycan dilçiliyində də bu məsələ müxtəlif şəkildə şərh edilmişdir. Onlar frazeologizmlərin başqa dillərə eynilə tərcümə olunma bilməməsini qeyd edir.

İngilis dili frazeologizmlərinin tərcüməsi prosesində nəinki təcrübəsiz tərcüməçilər,həmçinin təcrübəli tərcüməçilər də çətinlik-lərlə üzləşirlər.Onlar çox zaman bu frazeologizmlərin yanlış tərcü-məsini verirlər. Bizim də əsas məqsədimiz İngilis dili frazeologizmlərinin Azərbaycan dilinə tərcüməsi yollarını öyrənməkdən və tərcümə prosesində ortaya çıxan problemləri aydınlaşdırmaqdan,aradan qaldırmaqdan ibarətdir.

Frazeologizmlərin öyrənilmə tarixi-ictimai hadisə olub,dilin başqa sahələri kimi,ümumi frazeologiya elminə aiddir.Belə ki, hər bir konkret dilin frazeoloji vahidləri də zəruri ehtiyac nəticəsində tədricən formalaşaraq zənginləşmə prosesi keçirib və sistem halına düşmüşdür.Frazeologizmlər hər bir xalqın həyat və yaşayış tərzi,sənəti-peşəsi,mifik rəvayətləri,dini və möhvümi təsəvvürləri, adət-ənənəsi,dünyagörüşü ilə əlaqədar yaranmış və indi də yaranmaqdadır. Həm dildəki frazeoloji materialın məcmusu və həm də bunlar haqqında elm şöbəsi **frazeologiya** adlanır.Frazeologiyanın belə **iki məna** ifadə etməsi dilçilikdə qüsurdur.Dilin leksik tərkibi **leksika**, leksikadan bəhs edən şöbəsi **leksikologiya** adlandırıldığı kimi, frazeoloji tərkibi bildirmək üçün frazika, frazika haqqında biliyi isə frazeologiya

adlandırmaq lazımdır. Dilçilikdə az işlənilmiş nəzəri problemlər hələ də çoxdur;mə-sələn,leksem və frazemlərin qarşılıqlı münasibəti, frazemlərin nitq hissələrinə olan münasibəti və s.Bütün bu məsələlərin həm xüsusi, həm də ümumi dilçilik planında həll edilməsi frazeologiya şöbəsinin qarşısında duran əsas vəzifələrdəndir.

Hər bir konkret dilin frazeologiyası **iki planda** tədqiq edilir: diaxronik və sinxronik.

1.Diaxronik planda dilin frazeologiyasının tarixən formalaşması və müasir dövrə semantik və struktur cəhətdən inkişafı öyrənilir.

2. Sinxronik planda isə dilin frazeologiyasının müasir vəziyyətinin semantik və struktur cəhətdən təsviri verilir. Frazeologiya dilçiliyin tam müstəqil şöbəsi kimi hələ çox gəncdir.Lakin,bu heç də o demək deyildir ki, frazeologiya məsələləri ilə əvvəllər məşğul olunmamışdır.Bu məsələ alimlərin diqqətini çoxdan cəlb etmiş və frazeologiya "gizli" inkişaf yolu keçmişdir. Frazeoloji vahidlərin birinci müşahidəçiləri lüğət tərtib edənlər-leksikoqraflar olmuşdur.Lüğət tərtib edənlər bəzi sözlərin mənalarını itirdiyini müşahidə etmişlər.Belə vəziyyət,adətən,bu və ya başqa söz bölünməz birləşmə tərkibində olduqda nəzərə çarpmışdır. Filoloqların diqqətini cəlb edən frazeoloji materialilk dəfə məcmuə şəklində toplanmaqla kifayətlənmiş,bunların xüsusiyyətlərinə,məna və quruluşlarına,müxtəlif tipə malik olduqlarından fikir verilməməmişdir."Rusiyada belə məcmuələr üç yüz il bundan əvvəl meydana gəlmişdir."

Dilçilik ədəbiyyatında frazeologiyanın tədqiqat obyektindən bəhs edən müəllifləri **iki qrupa** bölürlər:

1.Ümumiyyətlə hər hansı bir dildə hazır şəkildə olan söz bir-ləşmələrinin hamısını frazeologiya hesab edənlər.

2.Dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını deyil, onlardan nitq və ya dil vahidlərinə ekvivalent olub,komponentləri məna və quruluşça parçalanmayan qismini frazeologiya adlandıranlar.

Dilçilikdə bunlardan birincisi **"geniş mənada frazeologiya"**, ikincisi **"dar mənada frazeologiya"** adlandırırlar.

Dildə hazır şəkildə işlədilən söz birləşmələrinin hamısını frazeologiya hesab edənlər:

Rus dilçilərindən **S.İ.Ojeqov** öz kitabında yazıe:" frazeologiyaya hazır şəkildə sitat materialı kimi baxaraq,ümumiyyətlə fikir mübadiləsi zama-nı istifadə edilən sabit söz birləşmələrinin hamısını frazeologiyanın tədqiqat obyekti hesab edib,ona belə tərif vermişdir:

"Frazeologiyaya,adətən,dildə məna cəhətdən parçalanmayan, lakin işlək sitat materialı kimi möhkəmlənən atalar sözləri,məsəllər,yazıçıların "qanadlı sözlər" şəklində düşmüş ifadələr və bunun kimiləri daxildir.Onlar müəyyən bütövlük təşkil edən söz birləşmələridir**.(3.c.54-62)**

B.N.Qolovinin fikrincə isə frazeologizmlər danışan tərəfindən hazırlanmır.Onlar dildə hazır şəkildə mövcuddur.Hamı onlardan hazır şəkildə dil

vahidi kimi istifadə edir. A.İ.Yemifovun tərəfindən frazeologiyanın tədqiqat obyekti daha genişləndirələrək frazeoloji birləşmələrin sırasına idarə ştampları,istehsal-texniki ifadələr və s. daxil edilmişdir. Rus dilçiliyində N.M.Şanski frazeologiya üzərində əhəmiy-yətli araşdırmalar aparmışdır.N.M.Şanski "frazeoloji ifadə" adı ilə dildəki iki və daha artıq çox vurğulu sözdən ibarət mənaca tam,söz tərkibi və quruluşca sabit şəkildə işlənən vahidləri nəzərdə tutur.A.A.Reformatski,yuxarıda tədqiqatçıların qeyd etdiklərindən əlavə olaraq,dildəki "spesifik sözləri" də frazeoloji vahid hesab edir və əhalinin müxtəlif qrupunun nitqi üçün spesifik olan sözləri və söz birləşmələrini "frazeologiya" adlandırır.O,öz dərsliyinin sonrakı nəşrində bu meyarı dəyişdirərək, frazeologiyaya aşağıdakı tərifi verir:

"Əhalinin sinfi mənsubiyyətinə və ya ixtisasının əlamətinə, ədəbi cərəyanlara və ayrı-ayrı müəlliflərə məxsus spesifik söz və ya söz birləşmələrini "frazeologiya" adlandırmaq olar."

A.A.Reformatskinin bu tərifindəki spesifik sözlər müstəsna olmaqla,bir sıra başqa dilçilərdə frazeologiyanı geniş mənada nəzərdə tuturlar.Y.M.Qalkinafederok,Q.Dementiyeva,A.P.Mordvilka, S.Q.Qavrin, Y.R.Qep-ner, S.A.Fessalonitski, İ.V.Arnold, L.P.Smit, V.N.Telya dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını frazeologiya hesab edirlər.**P.P.Filin** yazır:"Qeyd etmək lazımdır ki,son illərə qədər türkoloji tədqiqatlarda da frazeologiyanın obyekti,əsasən,geniş mənada nəzərdə tutulmuşdur.(**4.c.98-102**) This article deals with theanalysis of the phraseological units upon the different approaches of the distinguished linguistsin the scientific context.Linking to the modern approaches and views of either the Western or Russian linguists,the author hasinvestigated the different pecularities of the phraseological units in English language.So,in her articlethe author showed that the classification of phraseological units has beencarried out in different directions in linguistics.

Dildə hazır şəkildə işlədilərək komponentləri məna və qu-ruluşca parçalanmayan söz birləşmələrini frazeologiya hesab edənlər:

Yuxarıda qeyd etdiyimiz kimi,tədqiqatçıların xeyli hissəsi dildə olan bütün və hər cür sabit söz birləşmələri deyil,onların müəyyən qismini frazeologiya adlandırır və bununla əlaqədar olaraq frazeologiyaya müəyyən tərif verirlər:

Dilçilik tarixində frazeologiyanın tədqiqat tarixi Ferdinant de Sossür və Ş.Ballidən başlayır. Ferdinant de Sossür dildəki sabit söz birləşmələrini sərbəst söz birləşmələrindən belə fərqləndirir:

"Biz hər şeydən əvvəl,külli miqdarda ifadələrə rast gəlirik ki,bunları dilə aid etmək lazımdır.Bunlar dildə elə hazır dil parçalarıdır ki,adətən daxilindəki ayrı-ayrı mənalara malik olan sözləri dəyişmək mümkün olduğu halda,bu məqbul sayılmır.Bu söz birləş-mələrinin ənənəyə görə daşıdığı məna komponentlərinin bütövlükdə mənasından və sintaktik quruluşundan asılıdır.Bu cür söz birləşmələri düzəldilmir,bunlardan dildə hazır şəkildə istifadə olunur."

ƏDƏBİYYAT:

1. H.Bayramov:”Azərbaycan dili frazeologiyasının əsasları”. Bakı-1961.”Maarif” nəşriyyatı.s.138-142
2. В.П.Жуков:”Русся фразеология”. Москва,1986 г.с.212.
3. Ожегов С.И.»О структуре фразеологии.»Лексикографический сборник.Вып.М.1974 г.с.54-62.
4. Филин П.П.”Очерки по теории языкознания.”М.1982 г.с.9

К.Годжаева,С.Алесгерова

ФРАЗЕОЛОГИЯ В ОБЩЕЙ ЯЗЫКОВОЙ СИСТЕМЕ ОБ ИССЛЕДОВАНИЯХ И ИСТОРИЧЕСКИХ ИСТОЧНИКАХ

Резюме.

Основной целю предлагаемой статьи,является исследование фразеологических единиц. В статье кратко проанализированы доселе высказанные идеен и предположения в области вариантности и синонимики фразеологических единиц.Данная статья анализирует фразеологические единицы с точки зрения различных подходов, предпринятых выдающимися лингвистами в научном контексте. Автор статьи провела исследование различных аспектов фразеологических единиц английского языка, увязывая свои исследования с современными подходами и взглядами, существующими в западной и российской лингвистике. Исходя из этого, автор статьи отметила, что классификации фразеологических единиц были проведены по различным направлениям лингвистики. Чарльз Балли первым разработал классификацию словосочетаний в своей первой работе «Выводы о стилистике». В своей второй работе «Стилистика французского языка» Чарльз Балли отмечал, что использование фразеологии было традиционным, а ряд слов во французском языке имеет тенденцию сочетаться с одними словами, а с другими нет. Он разделил словосочетания на четыре группы: 1) свободные словосочетания, 2) обычные сочетания, 3) фразеологические группы, 4) фразеологические ассоциации. Автор статьи также отметила, что академик В.В.Виноградов на материале русского языка разделил фразеологические единицы на три семантические группы: «фразеологические ассоциации», «фразеологические сращения» и «фразеологические сочетания». Говоря о фразеологических единствах, он писал, что не существует связи, даже потенциальной связи, между значением составных частей фразеологизма и его общим значением.

Ключевые слова:лингвистика,фразеологис,английский язык, азербайджанский язык,семантика.

K.Godjaeva,S.Alesgerova

FRAZEOLOGISM IN THE GENERAL LINGUISTIC SYSTEM ABOUT RESEARCH AND HISTORICAL SOURCES

Summary.

In the article it is considered operating of predicative phra-seological units in the complex sentences.It is compared closed and unclosed phraseological units.Closed predicative phraseological units operate like a ready sentences and prevent including in the idioms any new words. Predicative phraseological units operate like a component of the complex sentences. Predicative phraseological units are main or subordinate part of the sentence.Complex senten-ces which have predicative phraseological units are also interesting in the actual division.

This article deals with theanalysis of the phraseological units upon the different approaches of the distinguished linguistsin the scientific context.Linking to the modern approaches and views of either the Western or Russian linguists,the author hasinvestigated the different pecularities of the phraseological units in English language.So,in her articlethe author showed that the classification of phraseological units has beencarried out in different directions in linguistics.That is why in her first study, shecould say that the Swiss linguist, the founder of "The theory of Phraseology" Charles Balli`s classification has greatly influenced the development of phraseology. Charles Balli gave the first classification of the word combinations in his first work,"Summary of Stylistics". He divided the word combinations into four groups: 1) free word combinations, 2) ordinary combinations, 3) phrazeological group, 4) phrazeological associations. On the basis of the Russian language material called "frazeological associations", "frazeological adjacencies" and "frazeological combinations"academician V.V.Vinogradov divided the frazeological units into three semantic groups. While speaking about frazeologicalcompounds, he wrote that there was no relationship, no connection, or even no potential relationship between the meaning of the components and their commonone..

Key words:lingwstic,phrazeological,inglish,azerbaydjany,semantic.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya elmləri doktoru, dosent Yusif Süleymanov tərəfindən çapa tövsiyə olunmuşdur

LALƏ HÜSEYNOVA
Azərbaycan Tibb Universiteti
Xarici Dillər kafedrasının baş müəllimi
S.Vurğun küç.157.
lalakuseynova@com.ru

İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏNİN STRUKTUR TİPLƏRİ VƏ ONUN AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏDƏ MƏQBUL EKVİVALENTLƏRİ

XÜLASƏ

Bildiyimiz kimi cümlə nitqin əsas vahidlərindən biridir. Cümlə haqqında təlim ümumi dilçiliyin mübahisəli, həm də maraqlı məsələlərindən biridir.Dilçilərin bəziləri bu fikirdə olmuşlar ki, cümlənin vəzifəsi hökmü bildirməkdir. Digər dilçilər isə hökm ilə cümlənin eyniləşdirilməsinin əleyhinə çıxmışlar. Məsələn,A.M.Peşkovski də cümlənin hökm ilə eyniləşdirilməsinin əleyhinə çıxaraq göstərmişdir ki, bir qayda olaraq cümləni hökmə gətirib çıxarmaqdan əl çəkmək lazımdır. Çünki hökm məfhumunun özü (həm məntiqi, həm də psixoloji) cümlənin təhlili üzərində qurulmuşdur. Cümlə öz tərkibinə elə sözlər daxil edir ki, bunlar öz məntiqi qarşılıqlı əlaqəsinə görə hər hansı bir hökmü ifadə edir, yəni hər hansı bir yeni bitmiş fikir və yaxud mühakimə bildirir”[1].

Dilçi alim Admoni V.Q.qeyd edir ki,” hökmlə cümləni qarışdırmaq olmaz. Hökmlərin hamısı cümlədir. Lakin bütün cümlələr hökm bildirmir. Məsələn: əmr və sual cümlələri hökm hesab edilmir, çünki bu cümlələrdə subyekt və predikat yoxdur. Deməli, sual və əmr cümlələrində predikat və subyekt olmadığı üçün bunlar hökm sayılmır. Bundan başqa, hökmdə nə isə təsdiq və ya inkar edilir. Əmr cümləsində isə əşya və ya şəxs nəyə isə təhrik olunur, sual cümlələrində isə soruşulur. Sualla hökmün bir fərqi də ondan ibarətdir ki , biz sual verərkən mühakimə etmirik, soruşuruq, hökm verərkən isə mühakimə edirik. Sual cümlələrində məqsəd müəyyən cavaba nail olmaqdır” [2] (1, səh.105).

Hökm ümumbəşəri , cümlə isə milli səciyyə daşıdığına görə, eyni bir hökm ayrı-ayrı dillərdə həm oxşar cümlə quruluşu ilə, həm də müxtəlif cümlələrlə verilə bilər. Cümlənin üzvləri və quruluşu hökmün üzvləri və quruluşundan bəzən fərqlənir, bəzən də uyğun gəlir. Bütün bu göstərilənlər hamısı sadə cümlə probleminə bilavasitə aiddir. “ Hər bir sadə cümlə müəyyən aspektdən öyrənilir. Bu aspektlərdən 1-cisi onun strukturudur. Sadə cümlənin strukturuna əsasən onun malik olduğu komponentlər daxildir. Digər bir aspektdə isə onun semantikası yəni, mənasıdır. Üçüncüsü aspekt isə praqmatik adlanır, - yəni onun ifadə edilməsi. Bu özünü əsasən nitq prosesində göstərir ”[1].İngilis dilində sadə cümlənin struktur quruluşu nəinki nitq prosesində fəal rol oynayır, həm də cümlə daxilində hər bir modelə uyğun üzvlər arasında sintaktik əlaqələri birləşdirir.

Açar sözlər: Sadə cümlə, sintaktik vahid, sintaktik əlaqə,İngilis dili,struktur
"İngilis dilində sadə cümlənin strukturunda işlənən komponentlər asılı, asılı olmayan , 1-ci dərəcəli və ya 2-ci dərəcəli komponentlərə (üzvlərə) bölünmüşlər "[2]. Deməli həm ingilis, həm də Azərbaycan dilinin, eləcə də , başqa dillərin əsas struktur vahidi - "cümlə" adlanır. Bildiyimiz kimi hər bir cümlə struktur əlamətlər əsasında bölünürlər. Bu əsasda sadə cümlələr "təktərkibli və ya cüttərkibli, bütöv və ya yarımçıq, adlıq və s. olmaqla növlərə ayrılırlarÜnsiyyət prosesində istifadə olunan fikrin həcmindən asılı olaraq müxtəlif quruluşlu, müxtəlif həcmli cümlələr işlədilir. Digər dillərdə olduğu kimi müasir ingilis dilində də cümlələr quruluşua görə iki qurupa bölünür: 1) sadə cümlə; 2) mürəkkəb cümlə.Sadə bir fikri ifadə edən cümləyə sadə cümlə deyilir; məsələn,

Gemma closed the window. We were setting in the dining-room having lunch (Braine).Sadə cümlələr də öz növbəsində iki qurupa bölünür: 1) sadə müxtəsər cümlə; 2) sadə geniş cümlə. Ancaq baş üzvlərdən ibarət olan cümlələrə sadə müxtəsər cümlələr deyilir, məsələn: I am a teacher. She is a doctor. Dorian Gray smiled. Clara stopped (Stevenson). The Gradfly laughed (Voynich). I was afraid (Walsh).Baş üzvlərlə yanaşı, həm də bir və ya bir neçə ikinci dərəcəli üzvdən ibarət olan cümlələrə sadə geniş cümlələr deyilir, məsələn: Birds return to our country in spring. Brown grinned at me (Braine). The Gadfly flung out both hands with a sharp cry.Sadə müxtəsər cümlələr təktərkibli (one-member), yaxud cüttərkibli (two-member) olur. Sadə cümlədə hər iki baş üzv iştirak edirse, belə cümlələrə cüttərkibli cümlələr deyilir, məsələn: Tom came. The sun has set. The rain is pouring. We all burst into laughing (Braine).

Cüttərkibli cümlələr özlərində tam (complete) və natamam (incomplete) olmaqla iki yere bölünür;Cüttərkibli cümlədə hər iki baş üzv iştirak edirsə bu tam cümlədir;James looked at his daughter-in-law;Bəzən təkrara yol verməmək üçün, fikri yığcam və səlis ifadə etmək üçün cümlədə üzvlərdə biri və ya digərləri buraxılır və bu buraxılmış üzvləri kontekstə bərpa etmək mümkün olur. Bu yarıçıq cümlələr elliptik cümlələr adlanır. -Who does it for Mr. George? -James, of course.

V.Q. Admoni göstərir ki, "elliptik cümlələrin tərkibində cümlənin zəruri üzvlərindən biri və ya bu zəruri üzvlərin hansısa tərkib elementi iştirak etmir. Bununla bərabər , elliptik cümlələr bir sıra ikinci dərəcəli üzvlərə malik ola, yəni geniş cümlələr ola bilər.(2.s232-291)T.Şopen ellipsisin iki növünü fərqləndirir: analipsis (və ya irəli ellipsis) və katalipsis (və ya geri ellipsis); -analipsis: Bergamo [is beautiful], and LUCCA , too-katalipsis; I think that Joan [], and you that Marvin, [will finish first].İngilis dilində cüttərkibli cümlələrin aşağıdakı növləri vardır:

Şəxsli cümlələr. Bu cümlələrdə mübtəda sadə isimlə və ya qeyri-müəyyən və ya müəyyən şəxsli əvəzliyi ilə, həmçinin, başqa isimləşmiş nitq hissələri ilə ifadə olunur;The bell rang; The man looked up; The winter quite spread soft over the desert's breadth. Qeyri-müəyyən şəxsli cümlə. Bu cümlədə mübtədanın ifadə etdiyi

şəxs naməlum olur. Mübtəda they qeyri-müəyyən şəxs əvəzliyi ilə ifadə olunur;They finished the meal in silince.

Ümümi şəxsli cümlə. Bu cümlələrdə mübtəda rolunda one-qeyri-müəyyən əvəzliyi və you,we şəxs əvəzlikləri iştrak edir; One was a slender girl with a stoop and pale loose hair.We dined together by the fireside.

Şəxsiz cümlələr. Şəxsiz cümlələrdə mübtəda rolunda it əvəzliyi iştirak edir. Bu cümlələrdə it əvəzliyi hər hansı bir şəxs və ya əşyanı ifadə edrək müəyyən şəxsli mebtəda rolunda deil, şəxsiz cümlənin mübtədasi kimi çıxış edir. Burada it əvəzliyi hər hansı bir canlı şəxsi və ya əşyanı ifadə etmir. Zaman , məkan, təbiət hadisələrini ifadə edərək mübtəda rolunda çıxış edir.

It was snowing fast. ; It was late. ; It was early spring. ; It is hailing.

Baş üzvləri ayrı-ayrılıqda ifadə edilməyən, daha doğrusu, ifadə edilməsi mümkün olmayan cümlələrə təktərkibli cümlələr deyilir, məsələn:

Fire! Forward! A morning cold any chill. The sharpening cold. The losing sky. Something falling apart (Lindsay)

İngilis dilində cüttərkibli cümlənin iki növü var;

1)Nomirativ cümlə (Adlıq cümlə)- Nominal sentence

2) Verbal cümlə- Verbal sentence

Təktərkibli cümlənin əsas üzvü isimlə, sözönlü birləşmə, əvəzlik və ya sifətlə ifadə olunubsa , belə cümlələr nominativ (adlıq) cümlə adlanır;

Winter. Snow. Adlıq cümlələr özləridə iki qurupa ayrılır:

1) Müxtəsər (unextended) ; The grass, this good, soft, lush grass. ; A beatiful day, quite warm.
2) Geniş (extended) ; And then the silence and the beauty of this camp at night. The mystic shadow of water. The wonder and the glory of all this

Təktərkibli cümlənin digər bir növü verbal cümlə-dir. Verbal təktərkibli cümlələrdə baş üzv felin şəxsiz forması, cerund və ya məsdərlə ifadə olunur. Bu tip cümlələr əsasən emosional nitqdə istifadə olunur;

To think of that! ; Living at the mercy of a woman!

Sözlər arasında müxtəlif əlaqə vasitələrini qurmaq və bu sözlərin danışdığı funksiyaları öyrənmək heç də sintaktik tədqiqatlarla bitmir, çünki əsas sintaktik kateqoriya olan cümləni izah etmir. Belə ki, “ a large room” böyük otaq, “to look at him” ona baxmaq, “the doctor’s arrival” həkimin gəlişi, və ys hətta “his having come” və “his sayingg that” kimi söz birləşmələrinə baxsaq, görərik ki, sözlərin bir-birinə düzgün qaydada birləşmələrinə və bu ifadələrin mənalarının aydın olmasına baxmayaraq, onlar real, aktual məna bildirmirlər.

Bu söz birləşmələrində fikir tamlığı deyil, fikrin hissələri ifadə olunur. Onların cümlə şəklində birləşməsi və tam bir fikir ifadə etməsi üçün nə isə çatışmır. Buradan belə bir qənaətə gəlmək olar ki, söz birləşməsi və ya sözlərin qramatik qanunauyğunluğa əsasən birləşməsi məsələsi və cümlə bir-biri ilə sıx əlaqəli məsələdir, lakin eyni zamanda iki müxtəlif problemlərdir ki, bunlardan ən aparıcısı

cümlənin qurulması məsələsi hesab olunur. Bununla əlaqədar bir daha qeyd etmək lazımdır ki, bəzi hallarda cümlə söz birləşmələrindən ibarət olmur, müəyyən hallarda bir sözdən ibarət olan cümlələrə də rast gəlinir və onlar tam fikir ifadə edir. Bununla yanaşı, belə cümlələrdə sözlərin birləşməsi yaxud hər hansı uzlaşma qaydaları ilə bağlı problemlər meydana gəlmir. Məsələn: Come! Gəlin!; Go! Gedin; When? Nə vaxt ? ; Why? Nə üçün? ; Which? Hansı? Yes! Bəli! və bir çox digərləri. Belə hallarda mühüm məsələlərdən biri cümlənin qurulmasıdır: xüauailə, "when", "why", "which" sözlərinin bitmiş fikri ifadə etmələri məsələsini aydınlaşdırmağa ehtiyac var.

Londonda çıxan məcmuədə qeyd edilir ki,"Dilə xas olan ən gözəl xüsüsiyyətlərdən biri də ondan ibarətdir ki, dil sistemi ünsiyyətin tələbləri uyğun dəyişə bilir. Leksikada bu, yeni sözlərin yaranması və isimlərin məcazi mənada istifadə olunması, geniş dairədə isə sözlərin leksik mənalarının bir-biri ilə uzlaşması imkanlarınd özünü göstərir.(3.s.39-40)

Lakin cümlənin ölçüsünü və tərkibini genişləndirməsi struktur baxımından məhdudiyyət yoxdursa, əks istiqamətlənmiş prosedur konkret sərhəddə malikdir. Bu sərhəd sadə cümlə adlanır. Onun tərkibinə aid hər hansı elementin buraxılması onun quruluşunu və sematik vahidliyini pozur. "When his wife, tall, lovely creature in cloth of gold, had let us, I remarker laughingly on the change is his present circumstances from those when we had both been medical students". (S. Maugham) cümləsi kifayət qədər mürəkkəbdir.

Bu cümləni verilmiş mübədaya yene təyin artirmaqla, tabeli budaq cümlə yaxud modal sözlər əlavə etməklə daha da mürəkkəb etmək mümkündür. Soradan əlavə olunmuş elementləri genişləndirərək mürəkkəbləşdirmək mümkündür. Bu proses sonsuz davam edə bilər. Lakin cümlənin qalan hissəsinin quruluşuna və sematik tamlığına heç bir təsir etməyən elementlərin buraxılması müəyyən sərhəddə qədər davam edə bilər. Hazırki misalda bu "I remarked on the change" konstruksiyasıdır. Bu cümlədə mübtəda+özündən sonra sözönlü tamamlıq tələb edən xəbər+sözönlü tamamlıq sintaktik strukturu əks olunmuşdur.

Feilin ətrafında olan cümlə üzvlərinin sayı və qramatik xüsusiyyəti feilin sematikasını əmələ gətirir.

Real cümlələri nəzərə almadan biz əminlikdə deyə bilərik ki, məsələn "to hate" feli cümlədə xəbər kimi mütləq mübtəda və sözönsüz tamamlıq tələb edən "to remid"- mübtəda və sözönlü tamamlıq; "to treat" (davranmaq mənasında) sözönsüz tamamlıq və tərzi-hərəkət zərfliyi və s.

Məchul növdə olan cümlələrin məlum növdə olan cümlələrdən asılı olmadığını sübüt edən faktlardan biri də ondan ibarətdir ki, dildə məchul növdə işlənən bəzi cümlələr var ki, onların məlum ekvivalenti mövcüd deyil. Məsələn:

"I was born there" (E.M.Forster) "My father was killed in the war". "Next day they were drenched in a thunderstorm" (T.Hardly).

Sadə cümlələr müxəsər və geniş olur. Müxtəsər sadə cümlələr cümlənin yalnız baş üzvlərindən-mübtəda(1) və xəbərdən(2) ibarət olur.

Geniş cümlənin tərkibinə baş üzvlərdən başqa ikinci dərəcəli üzvlər də (heç olmasa onlardan biri)- tamamlıq, zərflik və təyin daxildir. Onlar baş üzvləri izah edir;

MÜBTƏDA ona aid olan cümlənin ikinci dərəcəli üzvləri ilə (sağ və soldan mübtədanı təyin edərək) mübtəda qrupunu yaradır (geniş mübtəda).

XƏBƏR ona aid olan cümlənin ikinci dərəcəli üzvləri ilə (tamamlıq, zərflik,tamamlıq və zərfliyin təyini) xəbər qrupunu yaradır.

Cümlənin ən əsas növü bir cümlədən ibarət sadə cümlədir. Sadə cümlə hətta bir sözdən də ibarət ola bilər: Qaçın!

Buna baxmayaraq, cümlə adətən mübtəda və xəbərdən ibarət olur. Hər bir mübtəda və xəbəri təyin edən sözlər=modifikatorlar ola bilər. Aşağıda göstərilmiş misallar sadə cümlələrə aiddir. Lying exposed without its blanket of snow, the ice on the river melts quickly under the warm March sun.

Göründüyü kimi, sadə cümlə uzun ola bilər və uzunluğuna görə sadə cümləni mürəkkəb cümlədən ayirmaq haqqında düşünmək səhvdir.

İngilis alimi İlyush B.A.yazır:"Ən təbii cümlə sadə cümlədir. Sadə cümlə uşaqların ilk danışdıqları cümlə növü olmaqla bərabər, istənilən yaş qurupunun danışıq zamanı daha çox istifadə etdiyi cümlədir. Yazılı nitqdə sadə cümlələr oxucunun diqqətini cəlb etmək, yaxud hər hansı məsələyə yekun vurmaq üçün çox effektivdir. Lakin sadə cümlələrdən istifade edərkən ehtiyyatlı olmaq lazımdır. Belə ki, ondan həddən artıq istifadə etmək məqaləni qeyri-ciddi göstərə bilər. Sadə cümlələrdən istifadə edərkən, onları bir-biri ilə əlaqələndirmək üçün ara sözlərdən də istifadə etmək lazımdır."(4.s.378)

ƏDƏBİYYAT:

1.Адмони В.Г. Основы теории грамматика. М.: Наука, 1964-105с
2.Адмони В.Г. Типология предложения. –В ки.: Исследования по общей Shopen теории грамматика. М.: Наука, 1986, с.232-291.
3.T. Differences between spoken and written language. London 1948.pp.39-40
4.Ilyish B.A. The Strukture of Modern English. –M. –L. : Prosvesc, 1965. -378 p.

Л.Кусейнова

СТРУКТУРНЫЕ ВИДЫ ПРОСТОГО ПРЕДЛОЖЕНИЯ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ И ЕЕ ВОЗМОЖНЫЕ ЭКВИВАЛЕНТЫ ПО СРАВНЕНИЮ С АЗЕРБАЙДЖАНСКИМ ЯЗЫКОМ

РЕЗЮМЕ

Простое предложение – это синтаксическая единица. Образованная одной синтаксической связью между подлежащим и сказуемым или одним главным членам. Двусостаное предложения – это просте предложение с подлежащим и сказуемым как необходимыми компонентами.

Односоставное предложение с подлежащим и сказуемым как в котором есть только один главный член (с зависимыми словами или без них). Одностовные предложения бывают неопределенно – личное, обобщенно – личное и безличное.Простые предложения по своей структуре (наличию или отсутствию некоторых членов предложения) подразделяются на двусоставные и односоставные,атакжена нераспространенные атакжена нер аспространенные и распространенные.

Two-member sentence (двусоставное предложение) – предложение, в котором есть оба главных члена предложения (подлежащее и сказуемое), или один из них опускается, так как понятен из контекста или предыдущего предложения.Двусоставные предложения, в свою очередь, делятся на полные и неполные. Complete sentence (полное предложение) – двусоставное предложение, в котором есть и подлежащее, и сказуемое.

Ключевые слова: простое предложение, синтаксическая единица, синтактические связи,Английский язык,структура

L.Kuseynova

STRUCTURAL TYPES OF SIMPLE SENTENCES IN ENGLIS H AND ITS POSSIBLE EQUIVALENTS COMPARED TO AZERBAIJANI LANGUAGE

SUMMARY

The article deals with the Simple Sentence according to its structure. Simple Sentences are called simple because they contain only one subject and onr verb, or predicate. A simple sentence contains only one independent clause. This means that it doesn’t contain more than one independet clause. And it doesn’t contain any subardinate clauses.

It expresses only one main idea. Independent clauses have one subject and one verb, or predicate. What’s a predicate? A predicate is the main verb in a sentences and eny additional compenents related to thr subjects actions. Understand that simple doesn’t always mean short or even uncomplicated for that matter when it

comes to simple sentences and their subjects and verbs. A simple sentence can be long and have compound subjects and compound verbs or predicates.

A copular verb does not take an object and it cannot be modified by an adverb. The word or phrase that follows a copular verb typically says something about the subject of the sentence.The fish tasted awful. (NOT The fish tasted awfully.)Here the adjective awful says something about the fish. It doesn't modify the verb tasted.Note that the adjective in an adjective phrase may be modified by an adverb. When it is modified by an adverb, the adverb goes before the adjective.

Key words:Simple Sentences,syntactical unit,syntactical relation, Anglais, structur

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Adilə Zeynalova tərəfindən çapa tövsiyə olunmuşdur

PAKİZƏ MƏMMƏDZADƏ
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimi
H.Cavid pr.25
pakizemamedzade@gmail.ru

MÜASİR İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ƏCNƏBİ MƏNŞƏLİ SÖZLƏRİN ROLU

Xülasə

Hər hansı bir dilin zənginləşməsində, onun lüğət ehtiyatının mükəmməliyində alınma sözlərin böyük təsiri var. Bu xüsusilə də dilin tarixi, keçdiyi yol və inkişaf mərhələləri ilə çox əlaqədardır. Lakin dilin əsas lüğət ehtiyatı onun doğma yəni öz tarixi mənşəyi ilə əlaqədar olan sözlərdir ki, bura alınma sözlör daxil deyil. Ingilis dilinin tarixinə nəzər salsaq onun çox zəngin və geniş söz ehtiyatı olduğunun şahidi olarıq. Qədim ingilis dilində alınma sözlərin bir neçə mərhələləri müşahidə edilir.

Müasir dövrdə elə bir dil təsəvvür etmək mümkün deyildir ki, o başqa dillərlə qarışıqlı əlaqə və ünsiyyətdə olmasın. Dillərin qarşılıqlı münasibətində həmin dillərin bir- birinə söz alıb verməsi sözü özününkiləşdirilməsi və yaxud onu qəbul etməməsi və s. faktorlar meydana çıxır ki, bütün bunlar dilçi alimlərimizin daim nəzər-diqqətini cəlb etmiş və tədqiqatçılarımız bu sahədə geniş elmi işlər aparmışlar.

Məlumdur ki, müasir Azərbaycan ədəbi dilində şərq vaə qərb mənşəli bir çox alınma söz və terminlər işlənməkdədir və onların əhatə dairəsi daha da genişlənməkdədir. Azərbaycan dilində alınma sözlər haqqında çoxlu elmi əsərlər, məqalələr və dissertasiyalar meydana çıxsa da, mövcud prosesin anlaşılmasında müxtəlif baxışlar meydana çıxmışdır. Belə ki, başqa dillərə mənsub sözlərin alındığı dildə mənimsənilmə dərəcəsini ümumxalq xarakterinə malik olub-olmaması keyfiyyətini əsas meyar götürərək başqa dillərə məxsus sözləri «əcnəbi sözlər» adlandıraraq, onlarm 2 qrupa bölmək olar:

1. Azərbaycan dilinə daxil olmuş və ümumxalq xarakteri daşıyan müxtəlif sahalərə aid acnəbi sözlər:
2. Ümumxalq xarakteri daşımayan və istifadəsi üslubi maqsədilə bədii dildə istifadədə olan acnəbi sözlər:

Açar sözlər – **alınma sözlər, lüğət ehtiyatı, etimologiya, çoxmənalılıq, arxaizm, neologizm, düzəlmə, zənginləşdirmə, mənbələr**

Məlumdur ki, keçən əsrin axırlarına qədər dilimizdə şərq məişəli ərəb və fars dillərinə məxsus söz və terminlər hökmranlıq sürürdü. Lakin XX əsrin əvvəllərindan başlayaraq dilimizdə Qərbi Avropa dillərinə (latın, yunan, fransız, ingilis, alman, İtalyan, holland va s.) məxsus alınma sözlər daha üstünlük taşkil etmiş və bu proses

zaman ötdükcə daha qabarıq şəkildə özünü göstərmişdir. Azərbaycan dilində Qərbi Avropa dillərinə məxsus sözlərdən ən çox işlənəni latın və yunan dilləridir. Sonrakı yerləri fransız və ingilis dillərinə məxsus sözlər tutur. Bu dilə məxsus sözlər xüsuslə də, son zamanlar, elm və texnikanın sürətlə inkişaf etməsi nəticəsində dilimizdə daha çox işlənməyə başlamış və öz fəaliyyət dairəsini daha da təkmilləşdirməkdədir. Qeyd etmək lazımdır ki, dilimizə keçən sözlərin əksəriyyəti rus dili vəsitəsilə daxil olmuş və dilimizdə rus dilinin fonetik və qrammatik xüsusiyyətləri özünü qabarıq şakildə büruzə verir.

Azərbaycan dilinin lüğət tarkibində rus dili vasitəsilə keçmiş sözlər dilimizin bütün sahələrində işlənir.

1. Alınma sözlər və onların struktur - semantik xüsusiyyətləri.

İçtimai hadisə olmaq etibarilə dil daim inkişaf edir və zənginləşir. Qrammatikadan fərqli olaraq lüğət tərkibi dəyişməyə daha çox meyllidir. Həm də hər bir canlı dilin leksikası kəmiyyətcə çox sürətlə artır, yeni anlayışlar, yeni məfhumlar, sözlər tələb edir, halbuki, köhnə sözlər isə bir qayda olaraq yeni sözlərlə birlikdə qalır, onların yalnız az bir hissasi dildə istifadədən çıxaraq arxaizmlərə çevrilirlər. Burada artma prosesi azalma prosesini əhəmiyyətli dərəcədə ötüb keçir, say daim artır. Məsələn, ingilis dilinə məxsus «dok» sözü dilimizə təzəcə daxil olmuş,Azərbaycan izahlı lüğətində «gəminin temir olunduğu karxana» kimi verilmişdir. Bu alınma sözün altenativi olaraq dilimizde «gəmi tərsanesi» söz birləşməsi şəklində işlənmiş və bunların əsasında elə bir mənə fərqləri olmasa da, hər ikisi dilimizdə işlənməkdədir.**Kembric Universitetində aparılan tədqiqatlarda qeyd edilir ki,**”Dilin lüğət tarkibini zənginləşdirən vasitələrindən biri ingilis dilinə məxsus alınma sözlər təşkil edir. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ingilis dilinə məxsus söz və terminlər dilimizə zoraki yolla deyil, zərurət nəticəsində qəbul edilmişdir və dildə ana dili elementlari ilə ünsiyyətdə işlənmiş, onlarla qaynayıb qarışmış, dildə bir növ özünə vətəndaşlıq hüququ qazanmışdır**.(1.s.158-163).**

Həqiqətən də əksər hallarda, hamı tərəfindən qəbul edilmiş elmi - texniki terminlərdən ibarət olan zəruri əcnəbi sözlər tərcümə edilsəydi, onların işlətmək lazım gəlməzdi. Deməli bunların tərcüməsi yalnız mənasını təhrif edir, sözün düzgün başa düşülməsini dolaşdırır. Doğrudan da, yeni anlayışları ifada etmək üçün dilin öz daxili imkanları məhduddursa, zərurət nəticəsində söz alınması vacibdir. Təsadüfi deyil ki, müasir dövrdə beynəlxalq miqyaslı çox zəngin hesab olunan ingilis dilində kanar dil elementlari, alınmalar xüsusi lay taşkil edir va bu dilin tadqiqatçıları həmin cəhəti dili zənginləşdirən, əlvanlaşdıran, ünsiyyət üçün daha yararlı edən hal kimi qiymətləndirirlər. Bunun səbəblərindən biri və əsas alınma sözlərin daxil olduğu dilin fonetik - qrammatik qayda - qanunlarına uyğunlaşmasıdır. Ona görə də çox zaman alınma sözlərin alınma xarakteri zahirən bilinmir. N.M.Şanski alınma sözlərin bu xüsusiyyətindən bəhs edərək yazır ki, «...əcnəbi sözlərin çoxunun əcnəbi söz olduğu, kənardan gəlmə olduğu açıq-aşkar hiss edilir, lakin mənşə etibarilə ad sözlərin

alınma olduğu heç də həmişə hiss edilmir. Bir çox yad sözlarin alınma olduğunu sübut etmək üçün xüsusi araşdırmalar lazım gəlir».

Alınma sözlərin mənimsənilməsində sözü alan dilin spesifikası nəzərə alınmazsa, bu dilin fonetik va qrammatik normaları gözlənilməzsə, hamin alınma öz dildə vatandaşlıq hüququ qazana bilməyəcək və gec-tez dildən çıxacaqdır. Bu özü də onu göstərir ki, başqa dildə sözlər mexaniki olaraq alınır. Digər tərəfdən isə əcnəbi dillərdən xüsusilə də ingilis dilindən sözlərin alınması prosesi iki tərəfli prosesdir. Bu ancaq bu dilin hazır elementlərinin sadəcə olaraq başqa bir dilin ixtiyarına verilməsi demək deyildir. Bu həm də həmin elementləri üzvi şəkildə alan dilin sistemi tərəfindən mənimsənilməsi deməkdir, yeni sistem şaraitinda forma va semantik baxımdan dəyişməsi deməkdir. «Əgər alınma prosesi qeyri-müəyyən əcnəbi sözlər yığımının başqa nitq stixiyasına mexaniki köçürülməsi deyilsə, onda bu proses haqqında demək olar ki, bu əsəsən, yaradıcı fəal iştirakin ən yüksək mərhələsidir».

Alınma sözlərin Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində rolu. Azərbaycan dili dünyanın ən qədim dillərindən olub, geniş və zəngin imkanlara malikdir. Buna baxmayaraq, bütün digər dillər kimi, Azərbaycan dili də, yad təsirlərdən kanarda qalmamış, dünyanın bir sıra yaxın və uzaq dilləri bilavasitə və yaxud dolayısı yolla bu və ya digər dərəcədə Azərbaycan dilinə öz təsirini göstərmişdir. Dünyanın başqa xalqları kimi, Azərbaycan xalqı da tarix boyu müxtəlif xalqlarla yaxın və uzaq bir şəkildə əlaqə və münasibətdə olduğundan həmin xalqların dillərindən Azərbaycan dilinə minlərlə söz keçmişdir. Bu proses dilin leksikasmı zənginləşdirən əsas amil olaraq indikinin özündə belə, fəal bir surətdə dəvam etməkdədir. Azarbaycan dilində alınmalar mövzusu, xüsusilə də Qərbi Avropa dillərindən (ingilis, fransız, yunan va s.) keçən söz və terminlər dilçilərimizin xüsusi tədqiqat obyekti olub, onun etrafında bir cox elmi əsərlər,məqalələr,dissertasiyalar yazmışdır.İngilis dili və digər Qərbi Avropa dillərindən alınma söz və terminlər hesabına Azərbaycan dilinin lüğət terkibi xeyli zənginləşmiş və bu proses 70 il sovet dövründə daha da intensiv şəkil almış və bütün bunları təbii ki, bir neçə dissertasiya ilə əhatə etmək olmaz.**Devid Kristal öz kitabında qeyd edir:"**Dilçilik əsərlərində dəfələrlə qeyd olunduğu kimi, əgər inqilabdan əvvəl dilimizin lüğət tərkibinə ərəb və fars dillərinin təsiri daha güçlü idisə, inqilabdan sonra ingilis, rus, fransız vs başqa Avropa dillərindən keçən sözlər daha qabarıq şəkildə özünü biruzə verdi.İngilis dilinin lüğət tərkibinin zənginləşməsində, dilin daxili imkanlarından əlavə, başqa dillərdən alınma sözlər də əhəmiyyətli yer tutur. Alınma sözlə hər hansı bir dildə müxtəlif səbəbdən zərurət nəticəsində meydana çıxmışdır və onlar dilin lüğət tərkibində özünəməxsus yer tuturlar**.(2.s.242)**

Bir dilə başqa dillərdən söz alınması dilçilikdə «alınmalar», «alınma sözlər» əcnəbi «terminlər» və s. kimi adlandınlmışdır. Alınma sözlər dilə iki yolla daxil ola bilər:

1) iki dilin bir-birinə birləşməsi nəticəsində;

2) qonşu xalqların bir-birilə mədəni-tarixi, iqtisadi-mədəni yaxmlığı nəticəsində.

Məsələn, ingilis dili öz tarixi inkişafı boyu başqa xalqlarla əlaqədə, ünsiyyətdə olmuş və istər-istəməz latın, yunan, İtalyan vs skandinaviya xalqlarınm dilindsn bir çox sözlsr msnimssmiş, onları öz fonetik və qrammatik qayda-qanunlanna uyğun olaraq işlətmişdir. İstər iki dilin tarixi zərurət nəticəsində bir-biri ilə qovuşması, istərsə də xalqlann mədəni-iqtisadi ünsiyyətdə olması, sözlərin alınması prosesində bir dilin o biri dilə təsiri nəticəsində meydana çıxır və həmin dilin sözləri istər-istəməz o biri dildə qəbul edilmssi ilə başa çatır. Alınma sözlərin miqdarı və xarakteri bir dilin başqa dilə təsiri prosesində konkret tarixi şəraitdən asılı olur. Məsələn, ingilis dilində skandinaviya dillərindən alınma sözlər dillərin bir-birilə qovuşması prosesi nəticəsində meydana çıxmışdır. Bu sözlərin miqdarı müəyyən içtimai, iqtisadi, mədəni əlaqəsi nəticəsində ingilis dilinə keçən fransız dili sözlərindən sayca azlıq tsşkil edir. İngilis dilinə keçən fransız dili mənşəli sözlər həcmcə və keyfiyyətcə başqa dillərdən keçən sözlərdən xeyli üstünlük təşkil edir və onların ana dili sözlərilə qovuşması da təbii xarakter almışdır.

İngilis dilinə keçən sözlərin əksəriyyəti cəmiyyətin inkişafı prosesində və həmçinin elm və texnikanın sürətlə irəli getməsi nəticəsində yaranan yeni məfhum və anlayışları ifadə etmək zərurətindən meydana çıxmış və həmçinin ingilis xalqının başqa qonşu xalqlarla daim ünsiyyətdə olması bu prosesi daha da sürətləndirmişdir.

Ancaq ingilis dilində elə alınma sözlərə də rast gəlmək olar ki, onlar həmin məfhum və anlayışları ifadə edən ana dili mənşəli sözlərlə sinonimlik edir və bir növ bunlar arasında dildə yaşamaq uğrunda mübarizə gedir və hansının - alınma sözünmü, yoxsa ana dili mənşəli sözün qalib çıxmasımn tarix özü göstərir və bu prosesdə heç vaxt zorakılıq, məcburiyyət və yaxud puristlik cəhdlər göstərmək doğru olmazdı. Ən qədim mənbəyə müraciət etsək bu Ümumi Hind-Avropa – dillər ailəsindən bəhrələnən mərhələdir ki, burada rast gəlinən sözlər mənşə etibarilə digər Hind-Avropa dilləri ailəsinə daxil edilən dillərdə də rast gəlinir. Digər bir mərhələ ingilis və digər german dilləri qrupunun eyni German mənşəli sözləri mənimsəmələri olub. Bu sözlərə yalnız German dilinə aid olan dillərdə rast gəlinə bilər.Yeni ingilis dili sürətlə inkişaf etməkdədir. Hal-hazırki lüğətlərin toplusuna nəzər salsaq ingilis dilinin söz ehtiyatının dəqiq sayını bilmək çətindir. Sözlərin bir çoxu qədim, orta ingilis dili mərhələlərində işlənib yeni ingilis dilində bu sözlərə rast gəlinmir və yeni sözlərin sayı köhnəlmiş və işləkdən çıxmış sözlərdən xeyli sayda çoxdur. Həm daxiili, həm xarici ünsürlərin təsirindən yeni alınma sözlər ingilis dilini zənginləşdirir.Təxmini hesablamalara görə 300 milyon insan ingilis dilində doğma dil kimi danışır və bir o qədər də ondan əcnəbi dil kimi, 100 milyon isə ondan işlə əlaqədər istifadə edir. Həyatın bir çox sahələrində, əsasən texniki elmlərdə, diplomatiya, turizm kimi strukturlarda bu dildən geniş istifadə edilir. 45 ölkədə ingilis dili rəsmi və ya qeyri rəsmi dil kimi fəaliyyət göstərir, bir çox ölkələrdə status kimi qəbul edilməsə də ingilis dili artıq cəmiyyətin arasına nüfuz etmişdir. Tarixə

Bu məqalə əvəzliklərin strukturu və semantik xüsusiyyətlərinə həsr edilmişdir. Burda əvəzliklərin xüsusiyyətləri haqqında ümumi məlumat verilir.Dildə qrammatika vacibdir çünki dil danışmağımızı mümkün edən vasitədir. İngilis dilləri və Azərbaycan dilləri quruluş baxımından müxtəlif dil qruplarına daxildirlər. Məqalədə müasir ingilis dilində mövcud olan nitq hissələri təsnif olunur və ayrı ayrılıqda şərh olunur. Əvəzliklər oxuyuculara kim haqqında danışılan və nə söyləmək istədikləri haqqında fikir istifadə edərkən yol göstərir. Əvəzliklər isimləri əhatə edir. İngilis dilində əvəzliklər yalnız üçüncü şəxs təkində əvəz etdikləri ismin cinsini alır. Əvəzliklər ənənəvi olaraq nitq hissələrindən biri olaraq qəbul edilir. Müasir igilis dili analitik dillər qrupuna daxildir və dildə sözbirləşməsində və cümlədə sözlər arasındakı qrammatik sintaktik əlaqələr köməkçi sözlər və cümlədə sözlərin sırası ilə ifadə edilir. Əvəzliklər isimlərin kiçik bir alt kateqoryasını təşkil edir. Əksər isimlər ismi ifadələrdə görülür çünki ismə hər hansı bir söz əlavə etmək isim ifadəsinə çevrilir. İngilis dilində əvəzliklərin bir neçə növü var və bəzi əvəzliklər bir neçə kateqotiyaya aiddir. Əvəzliklər olmadan biz isimləri davamlı olaraq təkrarlamaq məcburiyyətində qalarıq, danışıqlarımızı və yazdıqlarımızı təkrar edərik ki buda cox çətin olar. Onlar ingilis dilini danışmaq üçün yaxşı aəltdir. Bu prosesdə əsas və başlıca məsələ dilin ictimai funksiyasına müvafiq olaraq onun qrammatik qayda qanunlarından praktik istifadə etmək bacarıq və vərdişləri qazanmaqdan ibarətdir. Əvəzliklər başqa sözləri təşkil edən və ya dəyişdirən, yazı və danışıq vərdişlərinizi daha da dəqiqləşdirən bir funksiyadır. Pro forma funksional sözlərin və ya başqa sözlər üçün istifadə olunan ifadələrin bir növüdür. Əvəzliklər əsasən pro formaları kimi fəaliyyət göstərir. Lakin bəzi əvəzliklər də vardır ki onların pro formaları mövcud deyil. Ən böyük təsiri olduqda əvəzliklərinizi diqqətlə seçin və istifadə edin!

Açar sözlər: İngilis dilində əvəzliklərin struktur və semantik xüsusiyyətləri

Əvəz sözləri isim əvəzinə işlənir.Əvəzliklərin məqsədi dildə təkrarlanmamaq və cümlələri daha asan başa düşməkdir.Dilin lüğət tərkibindəki olan sözlərdən bir qrupu isim, sifət, say və zərfin yerində işlənə bilir –onların morfoloji sinonimi olur, və ya

həmin nitq hissələrinə işarə edir. Belə söz qrupları əvəzlik adlanır. Əvəzliklər kiçik bir ism alt kateqoriyasını təşkil edir, fərqləndirici xüsusiyyətləri ondan ibarətdir ki, digər isimlərlə əvəz edilə bilər. (1,6). Əvəzliklər əsas nitq hissələrindən biri olaraq, malik olduğu leksik-qramatik məna baxımından digər nitq hissələrindən fərqlənir bilir. Onlar mənaca nisbi olur və əvəz etdikləri sözün mənasından asılı olmur. Məsələn üçüncü şəxsin təkində işlənən **it** əvəzliyi təkdə olan müxtəlif isimləri əvəz edə bilir. Eyni bir şəxs bir halda I (danışan), digər halda you (dinləyən), üçüncü halda isə he(she)(haqqında danışılan)əvəzlikləri ilə ifadə oluna bilir.Əvəzliklər özünəməxsus morfoloji suala malik deyil. Hansı nitq hissəsini əvəz edərsə, onun da sualına cavab verir.

Müasir ingilis dilində əvəzliklər iki qrupa bölmək olar; ismi əvəzliklər(noun pronouns) və sifəti əvəzliklər(adjective pronouns). Şəxs əvəzlikləri (I,you,he,she,it,we, they) yiyəlik əvəzliklərinin müstəqil işlənən forması (mine, yours, hers və s) qayıdış əvəzlikləri (myself, herself,themselves və s)bir qayda olaraq isim rolunda işləndiyi üçün onlara sifəti əvəzliklər deyilir. Əvəzliklərin əksəriyyəti isimlərin təyinedicisi kimi onların qarşısında işlənir, bu zaman isimin qarşısından artikl düşür.Məsələn: my notebook, each pupil

İngilis dilində əvəzliklərin təsnifatı aşağıdakılardır:

1. Şəxs əvəzlikləri (Personal pronouns)
2. Yiyəlik əvəzlikləri (Possessive pronouns)
3. Qayıdış əvəzlikləri (Reflexsive pronouns)
4. Qarşılıq əvəzlikləri (Reciprocal pronouns)
5. İşarə əvəzlikləri(Demonstrative pronouns)
6. Sual əvəzlikləri (İnterrogative pronouns)
7. Nisbi əvəzliklər (Relative pronouns)
8. Bağlayıcı əvəzliklər (Conjunctive pronouns)
9. Təyin əvəzlikləri (Defining pronouns)
10. Qeyri-müəyyən əvəzliklər(İndedfinite pronouns)
11. İnkar əvəzlikləri (Negative pronouns)

Şəxs əvəzlikləri (Personal pronouns)

Şəxs əvəzlikləri müəyyən bir şəxsə və ya bir şeyə aiddir. Onların forması bir insanı, nömrəni, cinsi göstərmək üçün dəyişir. İngilis dilində şəxs əvəzlikləri bir qayda olaraq isim əvəzində işlədilir, altı sözü əhatə edir: I –mən, you-sən, he,she,it – o, we-biz, you-siz, they-onlar. Həmin sözlər mövcud olmasaydı, dilimizdə üç qrammatik şəxs(danışan, dinləyən, haqqında söhbət gedən) anlayışı da yarana bilməzdi.(3)

Şəxs əvəzlikləri insan məfhumu bildirən isimləri əvəz etdiyi üçün kim? sualına cavab verir. Şəxs əvəzlikləri quruluşca sadədir, onların düzəltmə və mürəkkəbi olmur. Şəxs əvəzliklərin iki halı vardır: adlıq hal və obyekt halı. Adlıq halda olan şəxs əvəzlikləri cümlədə mübtəda vəzifəsində iştirak edə bilir. Birinci şəxsin təkində

‘I’ (mən) həmişə böyük hərflə yazılır. ‘I’ həmcins mübtədalardan biri olduqda o digər mübtədalardan sonra yazılır. Məsələn: My brother and I are teachers. He and I must be there at 10. Adlıq halında işlənən şəxs əvəzliklərinə sual **who**? sual əvəzliyi ilə verilir. Məsələn: He is an engineer. Who is an engineer?

I mürəkkəb xəbərin adlıq hissəsi rolunda özünün obyekt hal forması “me”ilə əvəz edilə bilir. Şəxs əvəzliklərindən hər biri obyekt halında Azərbaycan dilində şəxs əvəzliyinin yönlük və təsirlik hal formalarına uyğun gələ bilir.

me – məni,mənə	us- bizi, bizə
you- səni, sənə	you- size, sizə
him, her, it – onu ,ona	them- onları , onlara

Müasir İngilis dilində I,he,she,we əvəzliklərinin obyekt hal forması suppletiv yolla, yəni başqa sözdən olan sözlə düzəldilir. Müqayisə edin: I-me, she-her, he-him, we-us. Obyekt halında işlənən şəxs əvəzlikləri cümlədə tamamlıq (həm vasitəli, həm də vasitəsiz) vəzifəsində çıxış edə bilir. Bunlar Azərbaycan dilində təsirlik və yönlük halda əvəzliklərə uyğun gəlir. Məsələn:

I saw her in the park. (vasitəsiz tamamlıq) Mən onu parkda gördüm.(təsirlik hal)

She gave me her new book. (vasitəli tamamlıq) O öz kitabını paltarını mənə verdi. (yönlük hal)

Who? sual əvəzliyi adlıq halından başqa obyekt halına da malikdir və danışıq zamanı dildə çox vaxt Whom? sual əvəzliyinin yerinə işlədilə bilinnir. Məsələn: Who do you know there?Obyekt halında şəxs əvəzlikləri for, to və s. sözönləri ilə işlənə bilir. Məsələn: You showed the picture to them.

Yiyəlik əvəzlikləri. (Possesive Pronouns)

Yiyəlik əvəzlikləri, adından məlum olduğu kimi, əşyanın sahibini bildirən isimləri əvəz etmək üçün işlədilir. Yiyəlik əvəzlikləri bütün şəxslərə aid edə bilər. Ona görə də İngilis dilində hər şəxsə aid özünün yiyəlik halı mövcuddur. Onlar Azərbaycan dilindən fərqli olaraq şəxs əvəzliklərindən son dərəcə fərqlənirlər. (4,6)

Yuxarıda qeyd edilən kimi yiyəlik əvəzlikləri mənsubiyyət bildirir və Whose? sualına cavab verir. Nitqdə işlənmə baxımından iki yarımqrupa bölünür: 1. Yiyəlik əvəzliklərinin isimlə işlənən formaları; 2. Yiyəlik əvəzliklərinin müstəqil (isimsiz) işlənən formaları.Müasir İngilis dilində yiyəlik əvəzliklərinin isimlə işlənən aşağıdakı formaları mövcuddur: my, your, his, her, its, our, your, their.Yiyəlik əvəzlikləri bir qayda olaraq, isimlərin qarşısında gəlir və onları təyin edir. Bu baxımdan da onlar cümlədə əsasən təyin funksiyasını yerinə yetirirlər: Məsələn: This is my bag.Yiyəlik əvəzlikləri ayrı-ayrı şəxs əvəzliklərindən əmələ gələrək həmin şəxslərə yiyəlik halda olan şəxs mənaları verməklə “öz” mənasını da kəsb edir. Bu o zaman baş verir ki, cümlənin adlıq halda olan şəxsi ilə onun yiyəlik halında olan şəxs əvəzliyi eyni şəxsə aid olsunlar. Adlıq halda olan əvəzliklə yiyəlik halda olan əvəzlik eyni cümlə daxilində müxtəlif şəxslərə aid olduqda, yiyəlik əvəzlikləri “öz” mənasını vermir. (1,2)Məsələn: She is in my room- O mənim otağımdadır.Əgər ismin

qarşısında başqa təyinlər də varsa yiyəlik əvəzliyi bütün söz birləşməsinin qarşısında işlədilə bilir. Məsələn: Where is your new white dress?

Müasir İngilis dilində yiyəlik əvəzliklərinin müstəqil işlənən formaları aşağıdakılardan ibarətdir:

Mine	Ours
Yours	Yours
His,Her,İts	Theirs

Yiyəlik əvəzliklərinin bu forması ismə xas olan funksiyalarında yəni, mübtəda, predikativ və tamamlıq rolunda çıxış edir. Məsələn: Ours is new (mübtəda)

I have left my pencil at home. Please give me yours. (tamamlıq)

That blue car is mine. (mürəkkəb ismi xəbərin ad hissəsi)

Sözönü ilə işləndikdə yiyəlik əvəzliklərinin müstəqil forması təyin rolunda da çıxış edə bilir. Məsələn: Tom is an uncle ours – Tom bizim əmimizdir. İnglis dilində işlənən yiyəlik əvəzliklərinin müstəqil işlənən formaları Azərbaycan dilinə mənimki, səninki, onunku, bizimki və s. sözləri vasitəsiylə tərcümə olunur. Məsələn: That car is not thiers – O maşın onlarınkı deyil. This newspaper is not ours- Bu qəzet bizimki deyil

Yiyəlik əvəzliklərinin müstəqil işlənən forması təyin rolunda çıxış edərkən, azərbaycan dilinə şəxs əvəzliyinin yiyəlik hal forması kimi tərcümə edilir. Məsələn: Sara is an aunt of his – Sara onun xalasıdır. Qeyd etmək lazımdır ki, müasir İngilis dilində işlənən yiyəlik əvəzliklərinin müstəqil işlənən formasında da eyni mənaya malik olan, ancaq cinsə görə fərqlənən üç müxtəlif əvəzlik işlənir: His (kişi cinsi), hers (qadın cinsi), its(orta cins). Bu əvəzliklərin hər üçü Azərbaycan dilinə eyni sözlə - onunku sözü ilə tərcümə olunur. Məsələn: This car is his – Bu maşın sizinkidir.

Qayıdış əvəzlikləri (Reflexsive pronouns)

Ingilis dilində əvəzliyin təsnif olunmuş formalarından biridə qayıdış əvəzlikləridir. Bu qrupa daxil olan əvəzliklərin hamısı düzəltmə sözlərdən ibarətdir. Qayıdış əvəzliklərini düzəltmək üçün təkdə - **self**, cəmdə isə - **selves** sonluqlarından istifadə olunur. Bu sonluqlar birinci və ikinci şəxslərin təki və cəmi üçün **my, our, your** yiyəlik əvəzliklərinin sonuna əlavə edilir. Məsələn: myself- mən özüm; yourself- sən özün; ourselves – biz özümüz; yourselves –siz özünüz, üçüncü şəxsin təki və cəmi üçün isə obyekt halda şəxs əvəzliklərinin sonuna əlavə olunur.(2.3) Məsələn: himself – o özü(k/c); herself – o özü (q/c); itself- o özü(cansız)və themselves- onlar özləri.

Oneself sözü də qaqyıdış əvəzliyi qrupuna daxildir. Bu qayıdış əvəzliyi **one** qeyri-müəyyən şəxs əvəzliyinin sonuna **self** morfemi əlavə etmək yolu ilə düzəldilmişdir.Qayıdış əvəzlikləri cümlədə ismin və ya əvəzliyin mənasını gücləndirmək üçün işlədilir. Bu zaman qayıdış əvəzlikləri həm cümlənin sonunda, həm də mənasını gücləndirdiyi sözdən sonra gələ bilir.

She wrote it herself

< Onu o özü yazıb

She herself wrote it

Qayıdış əvəzlikləri sözönlü tamamlıq funksiyasında çıxış edərkən, onlardan əvvəl sözönü işlənir. Məsələn: He thinks too much of himself. Qayıdış əvəzlikləri predikativ, zərflik və təyin rolunda da sözönləri ilə işlədilir. Məsələn: She was by herself at home.

Qarşılıq əvəzlikləri (Reciprocal pronouns)

İngilis dilində iki qarşılıq əvəzliyi mövcuddur: **each other, one another.**

Ecah oher, one another Azərbaycan dilində bir-birini, bir birinə, o birinə kimi tərcümə olunur.bu əvəzliklər iki və daha çox şəxs və əşya arasında mövcud olan qarşılıqlı hərəkət və münasibətləri bildirmək üçün istifadə olunur.

Each other – iki**, one another -** əvəzliyi isəikidən çox şəxs və əşya arasında olan hərəkət bildirmək üçün işlədilir. Məsələn: Tom and Jack helped each other. The pupils of our group help one another. (5,6). Lakin bu qayda bəzən gözlənilmir. Xüsusən one another, each other əvəzliyinin yerinə işlənir. Məsələn How long have you known each other for three years. Qarşılıq əvəzliklərinin iki halı mövcuddur:

1. Ümumi- each other, one another
2. Yiyəlik – each other's one another's forması vardır.

Ümumi halda onlar cümlədə tamamlıq, yiyəlik halda isə təyin rolunda işlənir. Məsələn: I think we called each other friends. He seemed devoted to one another.

İşarə əvəzlikləri (Demonstrative Pronouns)

This, that, (the) same, such – ingilis dilində işlənən işarə əvəzlikləridir. Bu əvəzliklərdən this- bu, cümlədə these –bunlar; that- o, those- onlar. This, that işarə əvəzlikləri işarə bildirdiyi kimi, əşyanı göstərmək üçün də işlədilir. Bu halda onlar sifətin deyil isimin yerində işlənir, ismin suallarına cavab verir, hallanır, cəm şəkilçisi qəbul edir, cümlənin .mübtədası,tamamlığı və ya xəbəri olur. Məsələn: Who told you this? – Bunu sənə kim dedi?

(the) Same işarə əvəzliyi bir qayda olaraq müəyyənlik artiklı ilə işlədilir. Məsələn: İt is the same film.

The Same işarə əvəzliyi Azərbaycan dilində həmin, eyni sözləri vasitəsilə tərcümə edilir. Məsələn: it is the same book- o həmin kitabdır.

Such işarə əvəzliyi Azərbaycan dilində belə və ya elə kimi tərcümə olunur. Məsələn: I have never seen such a picture – Mən heç vaxt belə şəkil görməmişəm.

Sual əvəzlikləri (Interrogative Pronouns)

Bütün dillərdə olduğu kimi ingilis dilində də sual əvəzlikləri vardır. Inglis dilində aşağıdakı sual əvəzlikləri mövcuddur: **who** - kim**, whom** –kimə, kimi, **whose-**kimin, **what-** nə, **which-** hansı.

Sual əvəzlikləri xüsusi suallarda işlənir və bir qayda olaraq cümlənin əvvəlində durur. (3,4)Məsələn: Who is at home? Whose book is this?

Who – ismi əvəzlik kimi mübtəda (sual mübtədaya verilərkən) və xəbərin adlıq hissəsi (sual xəbərə verilərkən) funksiyasında işlənir. Məsələn : Who came yesterday?(mübtəda), Who is that man?(xəbər)

Who – mübtəda funksiyasında işlənərkən ondan sonra xəbər həmişə təkdə işlənir Məsələn:Who is in the yard?

Who – xəbərin adlıq hissəsi funksiyasında işlənərkən xəbər mübtəda ilə ifadə olunmuş isim və ya əvəzliklə şəxsə və kəmiyyətə görə uzlaşır. Məsələn: Who is that little child? Who are those little children?

Whom – sual əvəzliyi **Who** əvəzliyinin obyekt halıdır, o da who əvəzliyi kimi canlılara aiddir cümlədə tamamlıq funksiyasında işlənir və danışıq dilinə whom-who ilə əvəz edilir. Məsələn: Who did you meet there və ya Whom did you meet there?

Whose – nisbi əvəzliyi təyin funksiyasında çıxış edərək, həm canlı varlıqları bildirən həm də cansız əşyaları bildirən isimlərlə işlənir. Məsələn: We met a man whose sister knows us.

What – nisbi əvəzliyi əsasən heyvan və cansız əşya bildirən isimlərlə işlənir və cümlədə mübtəda yaxud tamamlıq rolunda çıxış edir. Məsələn: The article that İ translated yesterday was very difficult. Onu da vurğulamaq lazımdır ki **that** nisbi əvəzliyi bəzən şəxs bildirən isimlərlə də işlənə bilir. Məsələn:The doctor that you visited yesterday is very popular in our city.

Which- sual əvəzliyi seçmə mənasına malikdir. Mövcud olan iki və daha artıq şəxs yaxud əşyadan hansının münasib, lazım olduğunu soruşarkən işlədilir. Məsələn:Which girl is your sister?

Which- Azərbaycan dilinə **hansı** sual əvəzliyi vasitəsilə tərcümə edilir. Məsələn: Which book do you like? – Siz hansı otağı xoşlayırsınız?

Nisbi əvəzliklər (Relative pronouns)

Nisbi əvəzliklər bunlardır: **Who, which, that, whose, as.**

Who nisbi əvəzliyi canlı varlıqları bildirən isimlərlə işlənir və cümlədə mübtəda funksiyası daşıyır. Məsələn: He was the first boy who returned.

Which nisbi əvəzliyi cansız əşya və ya heyvan bildirən isimlərlə işlədilir və cümlədə mübtəda, tamamlıq funksiyasında içlənir. Məsələn: The cup which are on the table must be washed.

That nisbi əvəzliyi heyvan və ya cansız əşya bildirən isimlərlə işlənir və cümlədə mübtəda və ya tamalıq rolunda çıxış edə bilir. Məsələn: She was the prey of an anxiety that he found, ……

Whose nisbi əvəzliyi canlı varlıqları bildirən isimlərlə, bəzən isə cansız əşyaları bildirən isimlərlə işlənir və hər iki halda təyin funksiyasında çıxış edir.(5) Məsələn: It was the dog whose name is Tex.

As nisbi əvəzliyi həmişə such yaxud the same əvəzliyi ilə əlaqədar olaraq işlənir. Məsələn: She never told you such thing as you did.

Bağlayıcı əvəzliklər (Conjunctive Pronouns)

İngilis dilində işlənən bağlayıcı əvəzliklər cümlədə bağlayıcı kimi çıxış edir. Onlar aşağdakılardır:

Who- kim? **What-** nə? **Which** –hansı? **Whose-** kimin?

Bağlayıcı əvəzliklər mübtəda, tamamlıq və xəbər budaq cümlələrini baş cümlə ilə bağlayır.

Məsələn: What you have told me has become true.(mübtəda budaq cümlə) – Sənin mənə dediklərin doğru çıxdı.

Qeyri müəyyən əvəzliklər (Indefinite Pronouns)

İngilis dilinə xas olan qeyri müəyyən əvəzliklər danışana məlum olmayan şəxs və əşyaları ifadə etmək üçün işlədilir. Bunlar aşağıdakılardır: **some, any, somedoby, anybody, someone, anyone, something, anything, many, much, little, few və s.** Bu əvəzliklərdən **some, any, many, much, few, little** – sadə, qalanları isə mürəkkəbdirlər.

Qeyri- müəyyən əvəzliklərin əsasını iki söz(some,any) təşkil edir. onlar leksik məna baxımından eyni olub **bir neçə** mənasını kəsb edir və özündən sonra sayıla bilən isim cəmdə işlənir. **Some** –Azərbaycan dilinə "bir az, bir qədər", **any** isə "heç" kimi tərcümə edilir. (8) Məsələn: Give me some bread and butter.

Some –bir qayda olaraq təsdiq, any isə sual və inkar cümlələrdə içlədilir. Məsələn: I have some books. Do you have any luggage? "Some" isimlərin qarşısında **bir neçə, bəzi,** sayılmayan isimlərin qarşısında isə "bir az, bir qədər" kimi tərcümə olunur. Məsələn: Some people like travelling. **Soe** həmçinin xüsusi sual cümlələrində təklif və xahiş bildirdikdə isə ümumi sual cümlələrində işlənə bilər. Məsələn: Can İ have some sugar, please?

Any qeyri müəyyən əvəzliyi bəzən təsdiq cümlələrdə işlənir və Azərbaycan dilində "istənilən" kimi tərcümə olunur. Ex: you may take any book you like

Some, any qeyri müəyyən əvəzliklərinə body,one əlavə etməklə mürəkkəb qeyri müəyyən əvəzliklər düzəlir. Somebody, anybody, someone, anyone- şəxsə aid

olunur, something, anything isə yalnız ümumi hal formasına malikdir və cansız əşyalara dair işlədilir.

Somebody,anybody Azərbaycan dilinə"kimsə, bir kəs", something, anything isə "bir şey,nəsə" kimi tərcümə olunur. Məsələn: Somebody was standing at the window.

İs there anybody in the room?

Many, Much əvəzlikləri nəna baxımından eyni sözlərdir yalnız aralarındakı fərq odurki, many (çox)sayıla bilən, much(çox) sayıla bilməyən isimlərlə işlədilir. Ex: many books, many pens, much money etc.Many, much əsəsən sual və inkar cümlələrdə , təsdiq cümlələrdə isə onların əvəzinə a lot of, plenty of, lots of işlənir.

Little,Few əvəzlikləri Azərbaycan dilində "az"kimi tərcümə olunur. Few sayıla bilən, Little isə sayıla bilməyən isimlərlə işlədilir. Məsələn: few books, few pens, liitle water etc. Few, little qeyri müəyyən əvəzlikləri qeyri müəyyənlik artiklı ilə işlənərkən müsbət məna bildirir və dilimizə "bir az bir neçə" kimi tərcümə olunur. Məsələn: I have a little time – Mənim bir az vaxtım var.

İnkar əvəzlikləri (Negative pronouns)

Müasir ingilis dilində istifadə olunan inkar əvəzlikləri bunlardır: **no, none, nothing**, **nobody, no one**, **nether**. İngilis dilində inkar əvəzliklərinə xas olan xüsusiyyət onda ibarətdir ki, onların hər biri inkarlığı təkbaşına ifadə edir, yəni inkar əvəzliyi olan cümlədə digər inkar vasitəsi işlədilmir.

No inkar əvəzliyi sifəti əvəzlik kimi işlənərək ismi təyin olunur və Azərbaycan dilində **heç bir** kimi tərcümə olunur. No əvəzliyi ilə işlənən isim həmişə artiklsız işlənir. Məsələn : I have no books.

None inkar əvəzliyi no inkar əvəzliyinin mütləq, yəni tək isimsiz işlənən formasıdır. O həm şəxsə həm də əşyalara aid işlənə bilir və Azərbaycan dilinə **heç kim, heç nə** kimi tərcümə edilir.(7,8) Məsələn: None of them dared to speak.

Nothing inkar əvəliyi no inkar əvəzliyindən və **thing** ismindən əmələ gəlmiş mürəkkəb sözdür və Azərbaycan dilinə **heç nə, heç bir şey** kimi tərcümə olunur. O həmişə cansız əşyalarla aid işlədilir və cümlədə ismi əvəzlik kimi işlənərək mübtəda, predikativ və ya tamalıq olur. Məsələn: There is nothing in the yard.

Nobody inkar əvəliyi həmişə ismi əvəzlik olaraq işlənir və cümlədə mübtəda və ya tamamlıq olur. Məsələn: I know nobody in this city.

No one inkar əvəzliyi şəxsə aid işlənir və cümlədə mübtəda və ya tamalıq olur və Azərbaycan dilinə **heç kim, heç bir kəs** kimi tərcümə olunur. Məsələn: No one knew him well.

Neither əvəzliyi həm ismi, həm də sifəti əvəzlik kimi işlənir. Ismi əvəzlik kimi o, cümlədə mübtəda, yaxud tamalıq sifəti əvəzlik kimi isə təyin olur və Azərbaycan dilinə **heç biri (deyil**), kimi tərcümə olunur. Məsələn: Nether of my friends was there.

ƏDƏBİYYAT

1. Ismixan Rəhimov <İngilis dilinin qrammatikası> 2012
2. Rəsul Ağayev < English grammar> 2012
3. Oruc Musayev <Ingilis dilinin qrammatiksı> 1979
4. Raymond Murphy< English Grammar inUse> 2012
5. Sidney Greenbaum <Oxford English Grammar>2014
6. Betty Schrampfer Azar< Basic English Grammar> third edition 2013
7. https//www.ingilisdili.net
8. https//www.grammarbook.com

M. ŞUKUROVA

STRUCTURAL AND SEMANTIC FEATURES OF PRONOUNS

SUMMARY

This article is dedicated to the structural and semantic features of pronouns. It provides general information about the features of pronouns. Grammar is important because it is the language that makes it possible for us to talk about language. Grammar names the types of words and word groups that make up sentences not only in English but in any language. And knowing about grammar offers a window into the human mind and into our amazingly complex mental capacity. Pronouns tell the reader who you're talking about, or what you want. Pronouns make up a small subcategory of nouns. There are a few different types of pronouns and some pronouns belong to more than one category. Without pronouns we'd constantly have to repeat nouns and that would make our speech and writing repetitive not to mention cumbersome. A pronoun is a word that replace a noun. Most nouns appear in noun phrases because adding any word to a noun turns into a noun phrase. They are useful tools for speaking English well, so it's important to learn how to use them correctly. Pronouns are words that describe or modify other words, making your writing and speaking much more specific, and a whole lot more interesting. Pronouns replace nouns. A different pronoun is required depending on two elements: the noun being replaced and the function that noun has in the sentence. In English pronouns only take the gender of the noun they replace in the third person singular form. Pronoun is a category of words. A pro form is a type of function word or expression that stands in for another word, phrase, clause or sentence where the meaning is recoverable from the context. In English pronouns mostly function as pro forms, but there are pronouns that are not pro forms that are not pronouns. Choose your pronouns carefully and use them when they have the greatest impact!

Key words: Structural and Semantic features of Pronouns

М. ШУКУРОВА

СТРУКТУРНЫЕ И СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ МЕСТОИМЕНИЙ

РЕЗЮМЕ

Эта статья посвящена особенности местоимений. Грамматика важна, потому что именно язык позволяет нам говорить о языке. Грамматика называет типы слов и групп слов, которые составляют предложения не только на английском, но и на любом языке. А знание грамматики открывает окно в человеческий разум и в наши удивительно сложные умственные способности. Местоимения составляют небольшую подкатегорию существительных. Есть несколько разных типов местоимений и некоторые местоимения относятся к более чем одной категории. Местоимение определяется как слова или фраза, которая используется в качестве замены существительного или существительной фразы, которая известна как антецедент местоимения. Без местоимений нам постоянно приходилось бы повторят существительные и это сделало бы нашу речь и письмо. Это полезные инструменты для хорошего разговорного английского, поэтому важно научиться правильно их использовать. Местоимения - это слова которые описывают или изменяют другие слова, делая ваше письмо и речь намного более конкретными и намного более интересными. Местоимения заменяют существительные. Другое местоимение требуется в зависимости от двух элементов: заменяемого существительного и функции, которую имеет существительное в предложении. В английском языке местоимения принимают только род существительного, которое они заменяют в форме третьего лица единственного числа. Местоимение –это категория слов. Про - форма представляет собой тип функции слова или выражения, которое стоит за другого слова, фразы, статьи или предложения, где значение возмещается из контекста. В английском языке местоимения в основном функционируют как проформы, но есть местоимения, которые не являются проформами, которые не являются местоимениями. Тщательно выбирайте свои местоимении и используйте их, когда они оказывают наибольшее влияние!

Ключевые слова: Структурные и Семантические особенности местоимений

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Ülviyyə Nəsirova tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA SÜLEYMANOVA
Azərbaycan Dillər Universiteti
Təbriz küç.81
azerbaijanVIP@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ BAĞLAYICILARIN MƏTNYARATMA XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Hər bir mətn kommunikativ olaraq özündə müəyyən bir informasiyanı ehtiva edir. Mətn elə bir sintaktik çərçivədə yaradılır ki, müəyyən bir informasiyanın daha effektli, daha səmərəli ötürülməsi təmin olunsun. Onun mətnqəbuledicisinə adekvat şəkildə ötürülməsi mətnin funksiyasına aiddir. Bu informasiyanın ötürücüləri kimi mətndə müxtəlif formal vasitələrdən istifadə edilir.

Məqalə müasir ingilis dilində mətnin təşkilində formal əlaqə vasitəsi olan bağlayıcılardan bəhs edir. Bağlayıcılar söz birləşmələrinin və cümlənin tərkibindəki sözlər, birləşmələr, cümlələr və cümlə qrupları arasında əlaqə yaradan köməkçi nitq hissəsidir. Məsələn, "and" bağlayıcısı mətndə zaman ardıcıllığı və additiv münasibətləri təmin edən vasitə kimi çıxış edir. Məqalədə müasir ingilis dilində bağlayıcıların mətnyaratma xüsusiyyətləri araşdırılır. Məqalədə Azərbaycan, rus və ingilis dillərində olan müxtəlif elmi əsərlərə və internet materiallarına istinad edilir. Təqdim olunan arqumentlər bədii ədəbiyyatdan gətirilən nümunələr əsasında izah olunur. Məqalədə bir çox dilçi alimlərin fikirlərinə istinad edilir.

Açar sözlər: köməkçi nitq hissələri, bağlayıcı, mətn, kontekst, diskurs, formal əlaqə vasitələri

Dildə mövcud olan sözlər ənənəvi olaraq leksik mənalarına, morfoloji əlamətlərinə və sintaktik funksiyalarına görə müəyyən qruplara bölünür ki, bunlara nitq hissələri deyilir. Nitq hissələri, onların təsnifi prinsipləri və bölgüsü dilçilikdə aktual, çətin və mübahisəli məsələlərdən biridir. Qədim zamanlardan nitq hissələrinin dünyanın müxtəlif dillərində təsnifi, təzahürü problemləri, əsas və köməkçi nitq hissələri və s.məsələlər qismən də olsa şərh olunmuşdur. Nitq hissələri bütün dünya dillərinə aid universal bir kateqoriyadır. 1979-cu ildə çap olunmuş "Qrammatik nəzəriyyə problemləri" adlı əsərində A.A.Xolodoviç qeyd edir ki, heç bir qrammatika nitq hissələrindən yan keçmir, bütün dillərdə nitq hissələri mövcuddur (1, s.18).

Dilçilərin bəziləri nitq hissələrinin təsnifində sözün mənası ilə morfoloji əlamətini, bəziləri məna ilə sintaktik mövqeyi, başqa bir qrupu isə məna, morfoloji əlamət və sintaktik mövqeyi əsas götürmüşlər.

Müasir ingilis dilində nitq hissələrinin bir qismi nominativ və qrammatik mənaya malik olur, müstəqil cümlə üzvü olur və müstəqil kommunikativ funksiya daşıyır. Bu nitq hissələri əsas nitq hissələri adlanır. Digər qisimdən olanlar isə müstəqil nominativ mənaya malik olmur, cümlədə müstəqil üzv ola bilmir, yalnız qrammatik mənalar ifadə edir, köməkçi funksiya daşıyır. Bu nitq hissələri köməkçi nitq hissələri adlanır.

E.Hacıyev "Müasir İngilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri" adlı kitabında qeyd edir ki, köməkçi nitq hissələri əsas nitq hissələrindən törəmişlər. Tarixən müstəqil mənaya malik olan söz dilin inkişaf prosesi nəticəsində semantik deformasiyaya uğrayaraq öz müstəqilliklərini itirmiş və köməkçi sözə çevrilmişdir (1, s. 57).

İngilis dilində nitq hissələrinin ilk müfəssəl təsnifini verən H.Suit sözləri məntiqi və morfoloji meyarlar əsasında beş nitq hissəsinə ayırır: isim, sifət, say, feil, ədatlar. Köməkçi nitq hissələrini ədatlar adı altında qeyd edir. Nitq hissələrini iki qrupa ayırır: dəyişən (declinable), dəyişməyən (indeclinable), yəni qrammatik əlaməti olan və olmayan. İkinci qrupa zərf, sözönü, bağlayıcı və nida aid edilir(13, s. 15).

Rus dilçiləri M.Qanşina və N.Vasilevskaya semantik, sintaktik və morfoloji xüsusiyyətlərinə görə ingilis dilində sözləri iki əsas qrupa bölürlər: müstəqil nitq hissələri-isim, sifət, say, əvəzlik, feil, zərf; köməkçi nitq hissələri- sözönüləri, bağlayıcılar, artikllar və ədatlar (7, s.13-14).

B.A.İlyiş nitq hissələrini sözün mənasına, formasına və funksiyasına görə təsnif edir. Köməkçi nitq hissələri hesab etdiyimiz bağlayıcı, sözönü və s. nitq hissələrinin heç bir kateqoriyası olmadığı üçün "dəyişməyən sözlər" kimi səciyyələndirir (1, s.25).

O.Musayev ingilis dilindəki nitq hissələrini üç qrupa bölür, isim, sifət, say, əvəzlik, vəziyyət bildirən sözlər, feil, zərf əsas nitq hissələrinə, nidalar və modal sözləri sərbəst nitq hissələrinə, artikl sözönü, bağlayıcı və ədatları köməkçi nitq hissələrinə aid edir. Bu təsnif daha məntiqi və uyğundur və ingilis dilində dörd köməkçi nitq hissəsinin olduğunu qəbul edirik (10, s. 9).

Köməkçi nitq hissələrindən biri olan bağlayıcılar sözlər, söz birləşmələri və ya müstəqil cümlələr arasındakı əlaqələri ifadə edir, cümlədə müstəqil sintaktik funsksiya daşıya bilmir.

İngilis dilində bağlayıcılar haqqında ətraflı məlumat E.Hacıyevin tədqiqatlarında, O.Musayev, D.Biber, G.Leech, S.Conrad müəllifi olduğu qrammatika kitablarında verilmişdir.

E.Hacıyev bağlayıcıları belə təsnif edir: "Dildə mövcud olan sözlər müəyyən və konkret fikir ifadə etmək üçün bir –biri ilə mütləq əlaqəyə girməli, söz birləşməsi və cümlə şəklində formalaşmalıdır. Bəzən isə daha mürəkkəb və dərin məna ifadə etmək üçün ayrı-ayrı söz birləşmələrinin və cümlələrin bir vahid halında birləşdirilməsi zərurəti meydana çıxır. Belə hallarda sözlərin, söz birləşmələrinin və eləcə də ayrı-ayrı cümlələrin arasında əlaqə yaratmaq üçün bir sıra vasitələrdən-söz

formalarından, intonasiyadan, söz sırasından və köməkçi sözlərdən istifadə olunur. Həmin məqsədlə işlədilən köməkçi sözlərdən biri də bağlayıcıdır" (1, s.67).

Müasir ingilis dilində bağlayıcılar morfoloji quruluşuna və ifadə etdikləri qrammatik məna və əlaqəsinə əsasən təsnif edilir. Morfoloji quruluşuna görə bağlayıcıların növləri:

1. sadə bağlayıcılar: *and, or, but, that, after, when, where* və s .
2. düzəltmə bağlayıcılar: *until, unless, before, supposing, provided* və s.
3. mürəkkəb bağlayıcılar: *however, whereas, wherever, notwithstanding* və s.
4. tərkibi bağlayıcılar: *in order to, in case, for fear that, on the ground that, as if, as though, as well as* və s.
5. qoşa bağlayıcılar: *both....and, either...or, neither.....nor, not only....but also* və s.

I.P.Krılova və Y.M.Qordonun birgə müəllifliyi ilə yazılmış qrammatikada bağlayıcılar tək-tək sözlər (*and, but, as, though*), birdən artıq sözdən ibarət olan ifadə (*in order that, on condition that, in case, as soon as, as if, as though*) və eləcə də nisbi bağlayıcılar, yəni cüt-cüt, qoşa işlənən ifadələr şəklində (*both....and, not only....but also*) təsnif edilir (8, s.394).

B.İlyiş qeyd edir ki, qrammatik quruluşuna görə eyni olan cümlələrdə müxtəlif bağlayıcıları işlətməklə mənanı tamamilə dəyişmək olar (9, s.156). O, müqayisə üçün iki cümləni nümunə göstərir: *"He came because it was late" və "He came though it was late".*

Nümunələrdən görünür ki, hər iki cümlə qrammatik quruluşuna görə tamamilə eynidir, ona görə də fərqi bağlayıcıların təbiətində, yəni onların mənasında axtarmaq lazımdır. Bütün bunlar bir daha sübut edir ki, müxtəlif sözlər və cümlələr arasında mövcud əlaqəni ifadə edən hər bir bağlayıcının öz mənası var.

İfadə etdikləri qrammatik əlaqə baxımından ingilis dilində bağlayıcılar iki qrupa bölünür: tabesizlik bağlayıcılar və tabelilik bağlayıcılar.

Tabesizlik bağlayıcıları həmcins üzvləri, söz birləşmələrini və müstəqil, bərabərhüquqlu cümlələri bir-birinə bağlayır. Müasir ingilis dilində tabesizlik bağlayıcıları aşağıdakı yarımqruplara bölünür:

1) birləşdirici bağlayıcılar (copulative, additive conjunctions)- *and, as well as, nor, both...and, not only...but also, neither...nor.*

I am getting on *as well as* I can expect, and I must leave it at that (28, s.104).

2) bölgü bildirən bağlayıcılar (disjunctive, alternative or separative conjunctions)- *or, or else, either...or, otherwise.*

Who is going to live in a town like that, *or* with it on his walls? (15, s.19).

3) ziddiyyət bildirən bağlayıcılar (adversative or contrasting conjunctions)- *but, yet, while, whereas, nevertheless, still, however, notwithstanding.*

He didn't reply for a moment *but* looked at her with a slight smile (17, s.74).

4) səbəb-nəticə bildirən bağlayıcılar (causative-consecutive conjunctions)- so, for, hence, thus, therefore.

The windows were open, *for* it was hot. (J.Galsworthy).

Tabelilik bağlayıcıları tabeli mürəkkəb cümlələrdə baş və budaq cümləni bir-birinə bağlayır.

L.S.Barxudarov və D.A.Ştelinqə görə tabesizlik bağlayıcılarından fərqli olaraq, tabelilik bağlayıcıları cümlənin tərkibindəki qeyri-həmcins, bərabərhüquqlu olmayan elementlər arasındakı əlaqəni ifadə edir və tabelilik bağlayıcılarını iki qrupa bölür: 1) adlıq budaq cümlələri baş cümləyə bağlayanlar; 2) zərflik budaq cümlələri baş cümləyə bağlayanlar (4, s.271).

M.A.Belyayeva qeyd edir ki, tabelilik bağlayıcıları budaq cümlələri əsas, yəni asılı olduğu cümləyə bağlayır. Bu bağlayıcılar budaq cümlənin tərkibinə daxil olur, lakin bəzi hallarda mürəkkəb bağlayıcıların bir hissəsi baş cümlənin tərkibində, ikinci hissəsi isə budaq cümlənin tərkibində işlənir (5, s.210.) Məsələn:

The text was *not so* difficult *as* I expected.

M.A.Belyayeva tabelilik bağlayıcılarını belə qruplaşdırır: izahedici bağlayıcılar, zaman bağlayıcıları, səbəb bağlayıcıları, məqsəd bağlayıcıları, şərt, güzəşt, tərzi-hərəkət və müqayisə bağlayıcıları (5, s. 213-216).

N.F.İrtenyevaya görə tabelilik bağlayıcıları birinin digərindən asılı olduğu cümlələri bir-biri ilə əlaqələndirən bağlayıcılardır (6, s. 131).

Müasir ingilis dilində tabelilik bağlayıcıları aşağıdakı qruplara bölünür:

1) mübtəda, predikativ və tamamlıq budaq cümlələrini bir-birinə bağlayanlar- *that, if, whether.*

That he would tell Brander to stay away seemed simply terrible to Jennie and to her mother (14, s. 66).

He thought that Soames ought to go there (15, s.133).

2) zərflik budaq cümlələrini baş cümləyə bağlayanlar.:

a) zaman budaq cümləsini bağlayanlar- *as, as soon as, when, whenever, till, until, since, before, after, as long as.*

When the horse arrived, it turned out indeed to be a superlative animal (16, s.306).

While I wanted, I got some snow in my hand, and washed my face with it.

While bağlayıcısı eyni zamanda ziddiyyət bildirən tabesizlik bağlayıcısıdır.

He had a glass eye which remained stationary, *while* the other eye looked at the man.

He must have been twenty minutes there *before* a cry roused him (15, s.189).

Qeyd etmək lazımdır ki, *before, after, since* sözləri həm sözönü, həm bağlayıcı, həm də zərf kimi işlənir. Məsələn,

Irene and he had paid many visits to France before the war (15, p.182) (sözönü)

"I should like to have done him justice before", said Soames (15, s. 192) (zərf)

I was to tell you it was no use; he must do what his father wished before he dies (15, s. 216) (bağlayıcı).

b) məkan budaq cümləsini bağlayanlar – *where, wherever, whence.*

They didn't move from where they stood (16 , s. 115).

c) səbəb budaq cümləsini bağlayanlar-*because, as, since, seeing, considering, on the ground that.*

Since you insist on, I will consider the matter again.

ç) şərt budaq cümləsini bağlayanlar- *if, unless, in case, provided, supposing, on condition.*

We have simply got to be secret at present, *if* we want to be together (15, p. 77).

d) məqsəd budaq cümləsini bağlayanlar- *lest, that, so that, in order that, for fear that.*

He walked into the Green Park *that* he might cross to Victoria Station and take the Underground into the city (J.Galsworthy).

Try to come early,so that I may have to see you alone (15, s. 222).

e) nəticə budaq cümləsini bağlayanlar- *that, so that.*

There was enough fuel in the tank *so that* we were able to go on without refilling.

ə) müqayisə budaq cümləsini bağlayanlar-*as, as…as, not so…as, as if, as though.*

I don't treat art as if it were grocery.

f) güzəşt budaq cümləsini bağlayanlar- *though, although, even if, even though, as.*

And she knew it, although she might sit there calm and self-possessed.

Sadə cümlələrdə işlənə bilən bağlayıcılardan *as if, as though, when* və s. göstərmək olar (1, s. 71). She looked as if frightened.

Göstərilən nümunələrdən görünür ki, eyni bir bağlayıcı müxtəlif növ budaq cümlələri baş cümləyə bağlaya bilər.

Dilçilikdə mətnə hazır məhsul, nitq-əqli prosesin nəticəsi kimi baxılır. "Mətn" anlayışı, danışanın fikrinə əsasən, özlərində bitmiş mənanı ehtiva edən bir və yaxud bir neçə cümlədən ibarət hər hansı bir söyləmi təyin etmək üçün işlədilir (3, s.7).

K. Bart qeyd edir ki, mətnin bütün mənalarını aşkarlamaq mümkün deyil, o sonsuzluğa açılmış və heç bir oxucu, heç bir elm onun bizim anlamımızda mənaca açılması prosesini dayandıra bilməz.

M.A. K. Hallidey və R. Həsən mətni "şifahi və yaxud yazılı, istənilən uzunluqda bir bütöv təşkil edən nitq kəsiyi" kimi təyin edirlər (3, s.8).

D.E.Rozental və M.A.Telenkova tərəfindən tərtib olunmuş Linqvistik terminlərin lüğətində "mətn" məfhumunun çox qısa tərifi verilib: "Mətn yazıda və yaxud çapda əks olunmuş nitq əsəridir (3, s.18).

Mətnə xas olan cəhətlərdən bir bütövlükdür. Belə ki, mətn elə bir sintaktik çərçivədə yaradılır ki, müəyyən bir informasiyanın daha effektli, daha səmərəli otürülməsi təmin olunsun. Bu cəhət mətnin bütövlüyünü şərtləndirir. Mətn eyni zamanda daxilən tam, daxilən əlaqəli olmalıdır.

T.Nikolayeva mətndaxili əlaqəlilikdən bəhs edərkən üç əsas vasitə ayırır: 1) intonasiya; 2) söz sırası; 3) mətn münasibətlərinin eksplisit seqment göstəriciləri (artikllar, işarə əvəzlikləri, bağlayıcılar və s.).

M.A.K.Hallidey və R.Həsən " Cohesion in English" əsərində mətndaxili əlaqələri "cohesion" (koqeziya) adlandırır (3, s. 26).

Hər bir mətn kommunikativ vahid olaraq özündə müəyyən bir informasiyanı ehtiva edir və onun mətnqəbuledicisinə adekvat şəkildə ötürülməsi mətnin funksiyasına aiddir. Bu informasiyanın ötürücüləri kimi mətndə müxtəlif formal vasitələrdən istifadə olunur. A.Məmmədov mətn yaranmasında iştirak edən aşağıdakı formal əlaqə vasitələrini göstərir:

1. fonetik təkrar (alliterasiya, assonans);
2. morfoloji təkrar (cins, hal, zaman kateqoriyası əlamətlərinin təkrarı);
3. leksik təkrar (sözlərin tam, natamam təkrarı və sıfır təkrar);
4. sintaktik təkrar (söz sırasının tam və natamam təkrarı, xiazm);
5. leksik-qrammatik vasitələr (bağlayıcılar, önsözlər, determinantlar);
6. deyktik elementlər (müxtəlif tipli əvəzliklər, artikllar) (3, s. 26-27).

Tabesizlik bağlayıcıları mürəkkəb sintaktik bütövün komponentləri arasında zaman ardıcıllığını təmin edən vasitə kimi çıxış edir. Məsələn:

He saw the road empty and he saw movement on it. (E.Hemingway).

Fleur rose from her chair-swiftly, restlessly, and flung herself down at a writing-table. Seeing ink and writing-paper, she began to write as if she had not time to breathe before she got her letter written. *And* suddenly she saw him (15, p.30).

Tabesizlik bağlayıcısı olan “and” mətnin komponentləri arasında additiv münasibətlərinin yaranmasında da mühüm rol oynayır. Məsələn:

There stood a white house within a walled garden, and in the pantry of this we found a store of food. (Wells).

And bağlayıcısı yalnız sadə cümlələri deyil, eyni zamanda ayrı-ayrı cümlələr qrupunu birləşdirməklə geniş mətn düzəltmədə iştirak edir. Bu bağlayıcı barədə N.A.Kobrinanın fikrinə diqqət yetirək:

And bağlayıcısı iki müstəqil cümləni birləşdirir. Məsələn,

I’ll see how much these tools will swallow. *And* they have lapped up the lot (J.Galsworthy).

And bağlayıcısı *this* işarə əvəzliyindən əvvəl gələrək özündən əvvəlki cümləni bir növ izah edir. Burada *and+this* birləşməsi mənaca *which* sözünə yaxınlaşır (2, s.214).

The dialectical materialist theory of knowledge for the science a means for the examination and criticism of their own assumptions and procedures. *And this* is something for the formulation and solution of the problems and tasks of science (J.Galsworthy).

And bağlayıcısı ziddiyyət bildirən cümləni birləşdirir.

.....she nagged him and taunted him, and would hear no word of his case. *And* he wanted dreadfully to discuss his case (J.London).

And bağlayıcısının birləşdirmə qabiliyyəti mürəkkəb cümlə çərçivəsindən çox-çox kənara çıxır. Belə ki, bu bağlayıcı mətn dilçiliyi üçün daha geniş imkanlar açır, böyük abzasları bir-birinə bağlayır (2, s.215). Məsələn:

And that was all she got from him; but the matter rankled in her brain. She could not hear sleeping dogs (15, s.104).

Mürəkkəb sintaktik bütövdə səbəb-nəticə münasibətlərinin onun komponentlərini əlaqələndirən vasitə kimi özünü göstərməsində bağlayıcılar mühüm rol oynayır. Məsələn:

He must have been tired and walking slowly, for he didn't reach Gad's Hill until noon (F.Scott Fitzgerald).

I decided to stop and have a lunch for I was feeling hungry.

It is raining again, so we'll have to stay at home.

Mətndə rast gəlinən qarşılaşdırma əlaqəsi bağlayıcılar vasitəsilə ifadə olunur. Məsələn: He didn't reply for a moment, but looked at her with a slight smile (S.Maugham).

Beləliklə, bağlayıcılar mətndə formal əlaqə vasitəsi kimi çıxış edərək istər mikromətndə, istərsə də makromətndə komponentlər arasında zaman ardıcıllığı, additivizm, qarşılaşdırma, ziddiyyət və səbəb-nəticə münasibətlərinin yaranmasında mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat

1. 1. Hacıyev E.İ. Müasir İngilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksional-semantik xüsusiyyətləri. Bakı, Mütərcim, 2006, 268s.
2. Hüseynov A.R. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu. Bakı, Mütərcim, 2015, 375 s.
3. Məmmədov A.Y. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı, Elm, 2001, 144 s.
4. Бархударов Л.С., Штелинг Д.А. Грамматика английского языка. М., 1973, 428с.
5. Беляева М.А. Грамматика английского языка. Москва, 1977, 319 с.
6. Иванова И.П., Бурлакова В.В., Почепцов Г.Г. Теоретическая грамматика современного английского языка. М., 1981, 285 с.
7. Ganshina M.A., Vasilevskaya N.M. English Grammar. M., Higher school Publishing house, 1964, 548 p.
8. Gordon E.M. Krylova I.P. A Grammar of Present-day English. Moscow, 1986, 430p.
9. Ilyish L.A. The structure of Modern English. L. Prosvesheniye Publishers, 1971, 387 p.
10. Musayev O.I., Hajiyev E.I., Huseynov A.R. A Practical Grammar of Contemporary English. Baki, Qismat, 2009, 538 p.
11. Oxford Advanced Learner's Dictionary of Current English. Seventh edition. Oxford University Press, 2005, 1780 p.
12. Swan M. Practical English Usage. Oxford University Press, 2005, 658 p.

13. Sweet H.A. A new English Grammar, Logical and Historical. Part I, Oxford, 1930, 499 p.
14. Dreiser Th. Jennie Gerhardt. M., Progress Publishers, 1972, 357 p.
15. Galsworthy J. The man of Property. The Forsyte Saga. Book I. Moscow, Progress Publishers, 1974, 383 p.
16. Maugham S.W. The Moon and Sixpence. Moscow, Progress Publishers, 1972, 240 p.
17. Maugham S.W. The Painted Veil. Moscow, 1998, 247 p.

Лейла Сулейманова

ТЕКСТООБРАЗУЮЩИЕ ОСОБЕННОСТИ СОЮЗОВ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Любой текст как коммуникативная единица содержит определенную когнитивную информацию, передача которой получателю и составляет его функцию. В любом сообщении, кроме передачи ряда фактов, содержится также авторская трактовка сообщаемого в тексте. В системе языка существуют различные формальные средства, используемые в текстах в качестве носителей информации.

В статье рассматриваются союзы как связующих средств текста в современном английском языке. Союз-это служебная часть речи, связывающая части сложного предложения, отдельные предложения в тексте, а также слова в составе простого предложения. Например, союз “and” превращается в тексте в показатель как временной последовательности, так и аддитивности. В статье анализируются текстообразующие особенности союзов в современном английском языке. В статье также упоминаются различные труды, работы на азербайджанском, русском и английском языках, а также интернет материалы. Представленные аргументы объясняются на примерах художественной литературы. В статье также упоминалось много мнений многих лингвистов.

Ключевые слова: служебные части речи, союз, текст, контекст, дискурс, формальные средства связи

Leyla Suleymanova

THE TEXT-FORMING FEATURES OF CONJUNCTIONS IN MODERN ENGLISH

SUMMARY

Any text as communication unit has a certain cognitive information and its function is to convey this information to a receiver. Any message, expect conveying some facts, contains also a sender's interpretation of information in text. Various formal means exist in the system of language used in the texts as bearers of information.

The article deals with the conjunctions as cohesive connectors in the composition of text in modern English. Conjunctions are structural parts of speech that serve to connect words or phrases as well as clauses or sentences. For example, conjunction "and" can be in the text an indicator of both sequencing in time and addition. The text-forming functions of conjunctions have been investigated in the article. The article refers to various scientific works in Azerbaijani, Russian and English, as well as internet materials. The arguments presented in the article are explained on the basis of examples provided from the fiction. A lot of opinions of many linguists have been referred in the article as well.

Key words: structural parts of speech, conjunction, text, context, discourse, formal cohesive ties

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
Allahverdiyeva Fəridə Məhəmmədəli qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

ALCANOVA AYGÜN CAVID QIZI
Azərbaycan Tibb Universiteti
alcanova1512@gmail.com

QAVRAMADA EŞITMƏ FEILLƏRININ ROLU

XÜLASƏ

Qavrama prosesi həmişə subyektin fikrinin obyektə istiqamətləndirməsindən irəli gəlir, bu ya düz və ya vasitəli, eksplisit və ya implisit, konkret və ya mücərrəd, canlı və ya cansız və s. ola bilər. Məsələn: eşitmək, fikirləşmək, hiss etmək, anlamaq və s. fellərinin semantik strukturunda konkret obyektə yönəlmə yoxdur, lakin bununla belə subyektin eşitmək, anlamaq bacarığı müəyyən obyektə olmasa da, konkret və ya mücərrəd bir obyekti ortaya qoyur, belə ki, bunlarsız anlama, qavrama, eşitmə prosesi mümkün deyil.

Bununla belə, əqli fellərin semantikasına xas olan "fikirləşən subyekt – fikir prosesi – fikrin obyekti" əsas modeli funksional-semantik sahə çərçivəsində əqli fel leksikasının linqvistik təsvirinin bazası kimi nəzərdən keçirilməlidir. Əqli semantikanın birinci və ikinci dərəcəli mənalarının öyrənilməsi onun tərkibində nüvə, mərkəzi və periferiya ünsürlərinin ortaya çıxmasına imkan yaradır.

Eşitmə felinin semantikası eşitmə prosesinin strukturunu əks etdirir. Obyektə yönəlmə istiqamət olaraq seçilsə də əslində bu proses iki tərəflidir. Belə ki, danışanın olmaması bu prosesin baş verməməsinə gətirib çıxardır, yəni bir kəs danışmalıdır ki, digəri eşitsin, ona görə də felin strukturu eşitmə prosesini əks etdirir. Eşitmə prosesi subyektin müəyyən psixoloji vəziyyəti kimi göstərilir.

Əqli sahənin periferiya hissəsi semantikasında əqlilik olan felləri əmələ gətirir. Bu zaman bu fellərdə əqli fəaliyyət ikinci mənalıdır. Belə felləri iki qrupa ayırmaq olar. Birinci qrupa semasında "əqli fəaliyyəti yerinə yetirmə" olan fellər və mənalarında ikinci dərəcəli olan, ədəbi dilin izahlı lüğətlərində və dialektdə öz əksini tapan fellər daxildir.

İkinci qrupa da semasında "əqli fəaliyyəti yerinə yetirmə" olan fellər daxildir, lakin burada mənalarında ikinci dərəcəlik var, lakin bu lüğətlərdə öz əksini tapmır. Bu onu göstərir ki, əqli leksemlərin məna strukturunda semantik cəhətlərin yenidən qruplaşması daimi deyil və nitq aktı kimi nəzərdən keçirilə bilər.

Açar sözlər: dilçilik, proses, hərəkət, eşitmə, feil, qavrama

Dil insanlar arasında ünsiyyət vasitəsidir. Ünsiyyət o zaman mümkün olur ki, nə isə nəql edilsin, kim isə nəql olunanı, informasiyanı, məlumatı qəbul etsin. Qəbul isə eşitmə vasitə vasitəsi olur. Eşitmə fellərinin böyük əhəmiyyəti də bundan irəli gəlir. Eşitmə prosesi bir tərəfli prosesdir, bu prosesdə insan eşitmə orqanları – qulaqları iştirak edir. Dünyanın bütün dillərində digər bütün fellərə nisbətən eşitmə

fellərinin sayı azdır. Hətta eşitmə felləri vasitəsilə məcazlaşma demək olar ki, yoxdur.

Dilçilik ədəbiyyatında fel termini ilə altı əsas nitq hissəsindən biri göstərilir. Lakin ünsiyyət prosesində (dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir) fel altı əsas nitq hissəsi olması çərçivəsindən xeyli kənara çıxır və iki nitq hissəsindən – ad və fel biri olur; qalan bütün nitq hissələri ya ismin orbitinə daxil olub, onun "peyklərinə" çevrilir; ismə xidmət edir, ya felin xidmətçisi rolunu oynayır, ya da bu iki nitq hissəsinin "poçtalyonu olur" – bu iki nitq hissəsi arasında əlaqələr yaratmağa xidmət edir. Məhz bu iki nitq hissəsinin rabitəsi – hətta onlardan biri əyani surətdə zahirdə olmadıqda belə insanlar arasında ünsiyyətin yaranmasına səbəb olur, kütləni cəmiyyətə çevirir.

Buradan aydın olur ki, hər hansı bir dil üçün felin əhəmiyyəti göründüyündən artıqdır. Əlbəttə, bu, həqiqətdir. Lakin bu, heç də elə bir təsəvvür yaratmamalıdır ki, dildəki əhəmiyyəti felin dilin leksik sistemində sayı ilə düz mütənasibdir, yəni dildə nəhəng miqdarda fellər vardır. Hər hansı bir dilin leksik sistemi statistik baxımdan araşdırılarsa, aşkar olur ki, fellər həmin dilin leksikasının cüzi bir hissəsini təşkil edir. Kəmiyyətcə, məsələn, isimlərlə müqayisədə, xeyli az olmasına baxmayaraq, fel qrammatik kateqoriyalarının, habelə məna çalarlarının, sözlərin semantik tutumunun zənginliyinə görə başqa nitq hissələrindən xeyli üstündür. Təsadüfi deyildir ki, məşhur rus dilçisi V.V.Vinoqradov fel haqqında bu sözləri yazmışdır: "Bütün başqa qrammatik kateqoriyalara nisbətən felin semantik strukturu daha tutumlu və zəngindir. Felin bu xüsusiyyətləri onun qrammatik quruluşunun xüsusiyyətlərindən asılıdır" [1, 245].

Felləri yeddi qrupda birləşdiririk: hərəkət felləri, iş felləri, hal-vəziyyət felləri, təfəkkür felləri, nitq felləri, eşitmə felləri və görmə felləri. Düşünürük ki, hər hansı bir iş hərəkətsiz icra edilə bilməz: hər bir işi görmək üçün insan müəyyən hərəkəti etməlidir, iş fellərinin müəyyən bir nəticəsi olur. Ancaq hərəkət fellərinin nəticəsi olmur. Buna görə də yazıda *hərəkət və iş felləri* ayırmışam. Lakin onları *hərəkət və iş felləri* adı altında birləşdirmək, ancaq ayrılıqda araşdırmaq da olardı. Digər tərəfdən, təfəkkür, nitq, eşitmə və görmə fellərini də *idrak və hissi qavrama felləri* adı altında birləşdirmək olardı. Felləri belə qruplaşdırmaq olardı:

1) Hərəkət və iş felləri
2) Hal-vəziyyət felləri
3) İdrak və hissi qavrama felləri.

Situasiyanın təyini üçün semantik sinfin içərisində bir sıra yarımsiniflər mövcuddur. Bu yarımsiniflər öz növbəsində fel xüsusiyyətlərinin bir növ lövhəciyini əmələ gətirir. Bu lövhəcikdə ən vacib bölünmələrdən biri statik və qeyri-statik predikatların qarşıdurması kimi məlumdur. Statik predikatlar vəziyyət və xüsusiyyəti təyin edir. Burada zamanda uzunmüddətli və əhəmiyyətli sabitliklə səciyyələnən situasiyalar nəzərdə tutulur. Statik situasiyalar sabitdir, onlar subyektin iradəsindən asılı olmayaraq mövcuddur və onların mühafizəsi üçün xüsusi cəhdlər tələb etmir.

Bu, dünya dillərində vəziyyət predikatlarının hansı qrammatik şərhdə özünü büruzə verməsindən asılı olaraq dəyişir. Belə ki, bu predikatlar daha az dərəcədə prototipik xüsusiyyətlərə malik olduğundan çox az dillərdə fel kimi verilir. Bununla bərabər, belə dillər mövcuddur. Bunlara Vyetnam, tay, cənubi-şərqi Asiyanın bir çox dilləri, eləcə də qərbi Afrikanın bir sıra dilləri daxildir. Məhz bu dillərdə felin xüsusi yarımsinfi – vəziyyət felləri və ya statiklər ayrılır ki, bunlarda da başqa dillərdə mövcud olmayan bir sıra qrammatik xüsusiyyətlərin ortaya çıxmasını görmək olar. Çox vaxt statiklər fellərlə qarşılaşdırılır və qrammatik sinif olan sifətlərin nüvəsini əmələ gətirir. Burada qeyd etmək lazımdır ki, müxtəlif dillərdə müstəqil qrammatik sinif olan sifətlər bilavasitə fellərlə yaxınlığa malikdir. Belə ki, klassik latın və yunan dillərində sifətlər fellərdən daha çox adların qrammatik yarımsinfi kimi özünü təcəssüm etdirir. İngilis dilində sifətlər bərabər surətdə həm adlardan, həm də fellərdən uzaqdır. Nəhayət, bir sıra dillərdə sifətlərin fellərlə ortaq kateqoriyalarının, eyni zamanda öz kateqoriyalarının da olduğunu görə bilərik. Bununla bərabər statik predikatlar eyni və ya yaxın semantika ilə müxtəlif dillərdə özlərini müxtəlif cür apara bilər. Beləliklə, rus dilində *мокрый* (yaş) sifətdirsə, latın dilində ona uyğun gələn predikat feldir (*modere* – yaş olmaq). *Ac olmaq* sözü rus və ingilis dillərində (*hungry*) sifətlə göstərildiyi halda, fransız dilində ona uyğun sifət yoxdur, lakin latın dilində xüsusi – *esurire* "özünü ac hiss etmək" feli mövcud olmuşdur. Bu cəhətdən insanın əqli və emosional vəziyyətinin təsviri daha fəal sahədir, belə ki, bu zaman eyni dərəcədə həmin dildə olan fel və ya fel olmayan sözlərlə təsvir mümkündür.

S.Qrinbaum və G.Nelson "İngilis dili qrammatikasına giriş" əsərində fellərin tamlığı məsələsinə toxunurlar. Fellərin münasibətlərinin öyrənilməsi üçün aşağıdakı modelləri təklif edirlər.

SVO: subject+(transitive) verb+(direct) object;

SVC: subject+(linking) verb+ (subject) complement;

SV: subject+(intransitive) verb;

SVA: subject+verb+adverbial (complement);

SVOO: subject+(transitive) verb+(direct) object+(object) complement;

SVOA: subject+(transitive) verb+(direct) object+adverbial (complement) [3, 235].

C.Quer təsnifatı kimyəvi elementlərin cədvəlini xatırladır. Üfuqi parametrdə dörd əsas fel növünü görə bilərik. Şaquli parametr isə spesifik fel siniflərini əhatə edir. Müəllif tərəfindən aşağıdakı tematik rollar: Təcrübəçi (T), Vasitəçi (V), Pasient (P), Cərgə (C), Ölçü (Ö), Alət (A), Yerli (Y), Mənbə (Mn), Məqsəd (Mq), Yol (Yl), Vaxt (Vx) verilir.

- (a) hərarət felləri: *It's hot. It's cooling off;*
- (b) hərarət-təcrübi fellər: *It hailed on me. The patient is hot. John got cold;*
- (ç) emosional fellər: *John is discouraged (about his work). John hit Bill (with his fist);*

- (ç') faktik bilik felləri: *know, learn, teach, study*. Onlar aşağıda əsas fel növlərini təcəssüm etdirir: vəziyyət "*Susan knows algebra";* proses "*Susan has learned a lot of algebra";* hərəkət "*Susan is studying algebra";*
- (c) arzu və ya idrak ifadə edən fellər: vəziyyət "*Mary wants a Cadillac"*; proses "*Mary fell in love with Tom";* hərəkət-proses "*I introduced Mary to Tom"*; hərəkət "*John scorned Mary";*
- (c') məs. *see, tell, listen* kimi hiss, nitq və diqqət felləri;
- (d) fiziki fellər;
- (e) ölçü felləri: vəziyyət "*The statue weights one ton"*; proses "*My bonds went down 10%"*; hərəkət-proses "*I shortened it two inches";* hərəkət "*The cowboy gained five yards";*
- (ə) yerli felləri: "*The knife is in the box". "They placed the book by the phone";*
- (ə') hərəkət və hərəkət etmə felləri: "*Don fell from the chair".*
- (f) sahiblik və nailiyyət felləri: *have, obtain, give, grab* [5].

R.A.Klouz digərlərindən fərqli olaraq, ingilis dilində olan eşitmə felləri leksik-semantik cəhətdən beş tipə bölür:

1) Q-tipi;
2) A-tipi;
3) B-tipi;
4) C-tipi;
5) D-tipi [4, 28-29].

Azərbaycanda Z.N.Verdiyevanın rəhbərliyi ilə ingilis dilinin fel, sifət, zərf və isimlərin dörd cilddən ibarət sistemli lüğəti hazırlanmışdır [6; 7; 8; 9]. Bu lüğət ingilis dilində işlək olan sözləri əhatə edir. Lüğətdə sözlər leksik-semantik qruplar üzrə verilir.

Lüğətin birinci cildi ingilis dili fellərini əhatə edir. Burada 2309 fel verilmişdir. Lüğətdə fellər aşağıdakı qruplara bölünür:

1. Verbs of state "hal-vəziyyət bildirən fellər": exist "mövcud olmaq", "yaşamaq", "dolanmaq"; luxuriate "ləzzət almaq", "zövq vermək", "nəşələnmək", "həzz almaq", fare "yaşamaq";

2. verbs of process "proses bildirən fellər": happen "baş vermək", follow "izləmək", intervene "baş vermək", resume "yenidən başlamaq", "təzələmək";

3. verbs of action or activity "hərəkət və ya fəaliyyət bildirən fellər": act "iş görmək", "hərəkət etmək"; "işləmək"; "fəaliyyət göstərmək"; hurry "tələsmək"; hasten "tələsmək"; wait "gözləmək", bide "gözləmək", begin "başlamaq";

4. causative verbs "kauzativ fellər": affect "təsir etmək", "həyəcanlandırmaq"; render "vermək", "əvəzini vermək", "haqqını vermək"; alter "dəyişdirmək", modify "yumşaltmaq" və s.

Həmin lüğətlərin böyük elmi əhəmiyyəti vardır. Göründüyü kimi, həmin lüğətin fel hissəsində verilmiş leksik-semantik bölgünün elmi əsasları hazırlanmamış və nəticədə müəyyən dolaşıqlıq meydana çıxmışdır.

İngilis dili qrammatika kitablarında fellərin semantik təsnifatı ayrıca bir məsələ kimi tədqiq olunmur. Amma bu dilə aid yazılmış qrammatikalarda felin bu və ya digər məsələsinin araşdırılmasında bəzi LSQ-lərin adı çəkilir: verbs of perception "hissi-qavrayış felləri", verbs denoting mental activity "əqli fəaliyyət bildirən fellər", verbs denoting wish "arzu bildirən fellər", verbs denoting feeling "hiss bildirən fellər", verbs of declaring "məlumat bildirən fellər", verbs denoting order and permission "əmr-icazə bildirən fellər", verbs denoting abstract relations "mücərrəd münasibət bildirən fellər" [2, 94; 195-198].

B.M.Strang felləri aşağıdakı semantik prinsipə bölür:

1. nitq felləri. Özləri də iki yarımqrupa bölünür:

a) ümumi mənalı nitq felləri; b) nitqi səciyyələndirən və müşayiət edən fellər;

2) zehni fəaliyyət bildirən fellər;

3) qavrayış bildirən fellər. Bu qrup iki yarımqrupa bölünür:

a) fiziki qavrayış bildirən; b) hissi qavrayış bildirən fellər;

4) emosional vəziyyət bildirən fellər;

5) mərhələ, dövr, konkretlik bildirən fellər [10, 54].

Bütün yazılanlardan belə nəticəyə gəlmək olar ki, hər bir tədqiqatçı ingilis dilçiliyində fellərin leksik-semantik qruplara bölərkən bu məsələyə müxtəlif aspektdən yanaşmışdır. Tədqiqatçılar xüsusən eşitmə bildirən fellərin bir çox qrup və yarımqruplarını ortaya çıxarmışlar.

Beş hiss və ağlımızla ətraf mühiti təfəkkürümüzdə qavramağa kömək felləri qavrama felləri adlandırırıq. Fiziki qavramanın əsas felləri: see, hear, smell, taste, feel felləridir. Əqli qavrama felləri isə notice, observe, recognize və s. fellərdir. Bu fellər aşağıdakı nümunələrdən də göründüyü kimi, uzunmüddətli hadisələri əmələ gətirmir.

See və *hear* felləri mənasına görə *look* və *listen to* fellərinə yaxındır. Sondakılar hüdudlanmış hərəkətləri göstərir, ona görə də uzunmüddətli hərəkət əmələ gətirmir. Görmə (seeing) və eşitmə (hearing) – insanın şüurundan asılı olmayaraq baş verən hərəkəti göstərir, normal olaraq da müəyyən vaxtla çərçivələnmir. Aşağıdakı cümlələrdə see və look, hear və listen fellərinə nəzər salaq:

I saw a man go past, but I didn't look at him – "Mən yanımdan kişinin keçdiyini gördüm, lakin ona qulaq asmadım".

They heard the teacher saying something, but didn't listen to him – "Onlar müəllimin nəsə dediklərini eşitdilər, lakin ona qulaq asmadılar".

See və hear fellərinin can (could) modal feli ilə işlənir, bu zaman diqqətin şüurlu surətdə yönəlməsindən söhbət gedir. Aşağıdakı cümlələrdə see və look, hear və listen fellərinə nəzər salaq:

I looked out of the window, but it was dark and I saw (could see) nothing – "Mən pəncərədən baxdım, lakin qaranlıq olduğundan heç nə görmədim".

We listened carefully, but heard (could hear) nothing – "Biz diqqətlə qulaq asdıq, lakin heç nə eşidə bilmədik".

See və hear sadə indiki, sadə keçmiş və sadə gələcək zamanda və ya can (could) işlənə bilər.

Do you see that green bird near the water? –"Sən suyun yanında yaşıl quşu görürsən?"

Can you see Mary anywhere in the audience? – "Sən Merinin auditoriyada görə bilirsən?"

Canı you hear what the speaker is saying? – "Natiqin nə haqqında danışdığını eşidirsən?"

Do you hear someone moving, about in the next room? - "O biri otaqda birinin gəzdiyini eşidirsən?"

Look və listen felləri indiki davamedici (keçmiş davamedici, gələcək davam edici) zamanda işlənir.

He was looking at some old photographs – "O fotoları nəzərdən keçirirdi".

Are you listening to the wireless? (If not, please switch it off) – "Sən radioya qulaq asırsan? (Əgər asmırsansa, zəhmət olmasa, söndür)".

See feli görüşmək, kiməsə dəymək, rastlaşmaq mənasında da işlənir, çox vaxt mənasını dəyişərək, sözönlükləri ilə digər mənalarda işlənir, məsələn: somebody off (up, down, out) — kimi isə yola salmaq (stansiyaya, mərkəzə, şəhər kənarına, evdən) və ya see to - (something) — nəsə haqqında qayğıya qalmaq. Bütün bu hallarda see feli uzunmüddətli formalara malikdir. Во всех этих случаях see может иметь длительные формы. Aşağıdakı nümunələrə nəzər salaq:

I'm seeing my dentist this afternoon - "Mən diş həkiminə bü gün gedirəm".

Can (cannot) see modal feli "şüurlu yönəlmiş diqqəti", yəni nəsə görmək, eşitmə və s. nəzərdə tutur.

Tom is seeing a lot of Mary these days – "Tom son vaxtlar Merini çox görür (yəni onunla vaxt keçirir".

When you saw me at the airport this morning I was seeing a friend off – "Sən bu gün məni aeroportda görəndə mən dostumu yola salırdım".

Hear feli hüquqi mənada kiminsə işinə qulaq asmaq mənasında işlənir. Məsələn:

Which judge is hearing the case? Hansı hakim bu işə qulaq asır (baxır)?

Hear həmçinin dərsi soruşmaq və s. mənada da işlənir. Məsələn: My brother was hearing my recitation. Qardaşım mənim təkrarıma qulaq asırdı (soruşurdu).

Nəticə etibarilə demək lazımdır ki, qavrama sahəsinin nüvə vahidləri kimi fikirləşmək, eşitmək, hiss etmək, görmək felləridir. Bu feil leksemlər əqli semantikaya malikdir, belə ki, "əqli fəaliyyət yerinə yetirmə" seması kateqorial-leksikdir və qavrama prosesinin müxtəlif xarakteristikasını əks etdirir.

Ədəbiyyat:

1. В.Виноградов. Русский язык. М., 2001, 719 с.
2. Каушанская В.Л., Ковнер Р.Л., Кожевникова О.Н. Grammar of the English Language, L., 1973, 319 стр.
3. Greenbaum s. and G.Nelson. An introduction to English Grammar, second edition Peason Education limited, Edinburgh gate, Harlow, Essex C.M., 20 21E, England, 2002, 407 p.
4. Quirk R., Greenbaum S., G.Leech, Svartvik J. A University Grammar of English. — M., 1982, 147 p.
5. Quer J. Mood at the interface. 1998, 293 p.
6. The Systematic Dictionary of English Verbs. Book 1. Baku, Elm, 1978, 178 p.
7. The Systematic Dictionary of English Adjectives. Book 2. Baku, Elm, 1980.
8. The Systematic Dictionary of English Adverbs. Book 3. Baku, Elm, 1983.
9. The Systematic Dictionary of English Nouns. Book 4. Baku, Elm, 1984.
10. Strang Barbara M.H. Modern English Structure, New York, 1965, 231 p.

AYGUN ALJANOVA

THE ROLE OF AUDITORY VERBS IN PERCEPTION
SUMMARY

The process of perception always arises from the orientation of the subject's thought to the object, whether direct or indirect, explisit or implisit, concrete or abstract, animate or inanimate and so on can be. F.e. hearing, thinking, feeling, understanding, etc.

There is no orientation to a spesific object in the semantic structure of verbs, but the subject's ability to hear and understand reveals a concrete or abstract object, although without it, the process of comprehension, perception, hearing is impossible without them. However, the basic model of the semantics of mental verbs verbs "thinking subject – thought process – object of thought" should be considered as a basis for the linguistic description of the lexicon of the mental verbs in the functional-semantic field. The study of the primary and secondary meanings of mental semantics allows the emergence of nuclear, central and peripheral elements in its composition.

The semantics of the auditory verb reflect the structure of the auditory process. Although object orientation is chosen as the direction, in fact, this process is two-

sided. Thus, the absence of the speaker leads to the failure of this process, that is, one person must speak in order for the other to hear, so the structure of the verb reflects the process of hearing. The process of hearing is expressed as a certain psychological state of the subject. The peripheral part of mental field forms verbs that are rational in semantics. In this case, mental activity is secondary in these verbs. Such verbs can be divided into two groups.

The first group includes with "mental activity" in the semantics and verbs with secondary meanings, which are reflected in the explanatory dictionaries and dialects of the literary language.

The second group also includes verbs with "mental activity" in the semantics, but here they have a secondary meaning, but are reflected in these dictionaries. This shows thet the regrouping of semantic features in the semantic structure of the mental lexemes is not permanent and can be considere as an act of speech.

Key words: linguistics, process, action, hearing, verb, perception

АЙГЮН АЛЬДЖАНОВА

РОЛЬ СЛУХОВЫХ ГЛАГОЛОВ В ВОСПРИЯТИИ
РЕЗЮМЕ

Процесс восприятия всегда возникает из ориентации мысли субъекта на объект, будь то прямая или косвенная, явная или неявная, конкретная или абстрактная, одушевленная или неодушевленная и т.д. может быть.

Например: слух, мышление, чувство, понимание и т.д. В семантической структуре глаголов нет ориентации на конкретный объект, но способность субъекта слышать и понимать выявляет конкретный или абстрактный объект, хотя без этого процесс понимание, восприятие, слух невозможны без них.

Семантика слухового глагола отражает структуру слухового процесса. Хотя в качестве направления выбрана объектная ориентация, на самом деле этот процесс двухсторонний. Таким образом, отсутствие говорящего приводит к сбою этого процесса, то есть слышать, поэтому структура глагола отражает процесс слушания.

Процесс слушания выражается в определенном психологическом состоянии испытуемого. Периферийная часть ментального поля образует рациональные по семантике глаголы. В этом случае мыслительная деятельность у этих глаголов вторична. Такие глаголы можно разделить на две группы. В первую группу входят глаголы с «умственной деятельностью» в семантике и глаголы со второстепенными значениями, которые отражены в толковых словарях и диалектах литературного языка.

Во вторую группу также входят глаголы с «умственной деятельностью» в семантике, но здесь они имеют второстепенное значение, но не отражены в этих словарях. Это показывает, что перегруппировка семантических признаков в семантической структуре ментальных лексем непостоянна и может рассматриваться как речевой акт.

Ключевые слова: лингвистика, процесс, действие, слух, глагол, восприятие

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Məlahət Gərayzadə tərəfindən çapa tövsiyə olunmuşdur

ДЖАМИЛЯ РАМИЗ ГЫЗЫ ГАСЫМОВА
старший преподаватель кафедры «Теории и практики перевода германских языков»
Азербайджанский Университет Языков
Адрес: пр.Г.Джавида 556/57, дом «Г», блок 2, кв. 6
gasimovajamila@yahoo.de
+994506455040

О ПЕРЕВОДЕ КАК СРЕДСТВЕ МЕЖКУЛЬТУРНОЙ КОММУНИКАЦИИ И РОЛИ ПЕРЕВОДЧИКА КАК ПОСРЕДНИКА МЕЖДУ КУЛЬТУРАМИ
(на материале произведений Г.Бёлля)

Açar sözlər: *mədəniyyətlərarası kommunikasiya, məxəz dilin mədəniyyəti, hədəf dilin mədəniyyəti, bədii əsərin milli xüsusiyyətləri,kompetensiya*
Key words: *intercultural communication, source culture, target culture, national features of a literary work, competence*
Ключевые слова: *межкультурная коммуникация, исходная культура, целевая культура, национальные особенности художественного произведения, компетентность*

Деятельность переводчика рассматривается не только в рамках языкового, но и культурного аспектов. Язык и культура находятся в тесной взаимосвязи. Ни один язык, являющийся частью культуры, нельзя рассматривать в отрыве от нее.

Перевод устанавливает глубокую и многогранную связь между исходной и целевой культурами. Создание и восприятие текста подлинника и текста перевода происходят в результате сложных культурно-коммуникативных связей. Поэтому перевод, в узком смысле этого слова, можно обозначить как языковую, а в широком, - как культурную работу, т.е. «работу с другой культурой и над своей культурой, работу со своим и над своим языком» [4, 59].

Текст является продуктом определенной культуры. Условия его создания и восприятия отличаются от одной коммуникативной общности к другой. Чем сильнее эти отличия, тем выше требования к переводчику, задачей которого является преодоление этого коммуникативного различия. Как верно указывает Г.Байрамов, «… культурные различия доставляют переводчику больше трудностей, чем языковые» [1,228]

Выделяют следующие методы перевода (переводческие позиции):

а) Адаптированный перевод, при котором элементы текста подлинника, специфические для исходной культуры, заменяются элементами целевой культуры.Так, в переводе рассказа Г.Бёлля «История чашки с отбитой ручкой»

переводчик Ч.Гурбанлы заменяет малоизвестное азербайджанскому читателю слово «клейстер» на «tutqal»: … *ich diene ihm zum Anrühren von Farbe, von* ***Kleister*** *...*[2,82] - *ona ... rənglərini,* ***tutqalını*** *qarışdırmaq üçün yarayıram...* [3,531]
б) Неадаптированный перевод, при котором в тексте на переводящем языке сохраняются культурно-специфические исходные элементы. В.Гаджиев в своем переводе другого произведения автора под названием «Воспоминания юного короля» использует затранскрибированное немецкое слово, полагаясь на широту знаний читателя: *Kurz darauf kam mein* ***Kammerdiener*** *ins Zimmer gestürzt, warf sich auf der Türschwelle nieder und flüsterte hingebungsvoll…* [2,91] – *Bir az keçəndən sonra* ***kammerdinerim*** *özünü içəri saldı, qapının ağzındaca yerə döşənib yalmana-yalmana dedi...* [3, 463]

Трудности возникают тогда, когда разница между культурами настолько велика, что для читателя переводящего языка требуется создать необходимые предпосылки для адекватного восприятия текста. Неадаптированный перевод расширяет коммуникативные связи переводящего языка, и это может значить, что элементы исходной культуры передаются в него посредством новых стилистико-языковых форм выражения. Перевод изменяет и обновляет языковые и стилистические нормы переводящего языка.

Перевод обогащает литературу целевой культуры. Так, перевод какого-либо произведения на иностранном языке открывает доступ к миру исходного текста, к стилистике автора и оказывает вдохновляющее воздействие на авторов целевой культуры. Текст перевода вносит свой вклад в установление контакта между его читателем и исходной культурой, а также автором текста подлинника.

Переведенное произведение становится частью литературы, написанной на переводящем языке, и выполняет такую же культурную функцию, что и оригинальное произведение. Кроме того, перевод по отношению к оригинальной литературе обладает специфической познавательной ценностью: он информирует об оригинале и о чужой культуре вообще.

Задачи, стоящие перед переводной литературой, довольно противоречивы: с одной стороны, перевод должен производить такое же впечатление, что и оригинальное художественное произведение, с другой – выявить характерные черты иноязычной литературы и культуры. Эта информативная функция перевода проявляется, как правило, тем сильнее, чем «отдаленнее» литература, с которой делается перевод. Приоритетность этих задач перевода определяется не только переводной литературой, но и ее читателем. Переводчик при более или менее полном сохранении национальных особенностей произведения может руководствоваться предполагаемыми им у своего читателя знаниями о чужой культуре. Одновременно у него есть возможность привить читателю лучшее понимание неродной литературы.

Роли переводчика, осуществляющего культурный трансфер, придается большое значение. Переводчик в качестве читателя выполняет довольно активную и креативную роль. Он должен связать мир и культуру автора с миром читателя целевой культуры. Таким образом, транскодирование (лингвистический трансфер) оказывается недостаточным. Более существенной становится трансляция, культурный трансфер. Это особенно важно в художественном тексте. Он обладает определенной общественной функцией, так как выступает за читающую и не читающую общественность. Текст есть оформленная реальность. Ввиду того, что переводчик должен решиться на один из возможных вариантов, перевод всегда является интерпретацией. Разные же интерпретации порождают разные типы чтения оригинала в переводе. Переводчик при этом не всегда может оказаться идеальным знатоком обеих культур, что повлечет за собой интерпретации, не соответствующие намерениям автора текста оригинала. Интересным при этом будет влияние переводческих интерпретаций на восприятие произведения в стране переводящего языка.

Чем ниже степень родства исходного текста с целевой культурой, тем чаще встречаются культурно-специфические элементы. Национальная и историческая специфика также представляет определенную трудность при переводе, поскольку художественное произведение является неповторимым исторически обусловленным фактом. В этом отношении следует обратить внимание на имена собственные, обращения, меры веса и объема, иносказания и диалекты, которые без адаптации и разъяснения в новом контексте могут вызвать у читателя другую реакцию и представления. Для иллюстрации сказанного вновь обратимся к произведению Г. Бёлля и его переводу на азербайджанский язык. В рассказе «Вырастил грушу у себя в саду» переводчик А.Наби во избежание обременения азербайджанского читателя побочной информацией немецкую реалию «Konsumbrot» передает как «kooperativ çörək», не вдаваясь при этом в подробности, что он изготавливался в послевоенной Германии из ржано-пшеничной муки: … *und der einzige, der meinen Namen kennt, ist der Kolonialwarenhändler an der Ecke, der mir nur zögernd Kredit gewährt, betrübten Auges* ***Konsumbrot*** *… in meiner Tasche verschwinden sieht …* [2,170] – *Adımı bilən yeganə adam tərəddüdlə borc verən döngədəki sahibkar idi. O, qəzəbli gözlərlə kooperativ çörək ... zənbilimə girdiyini görür ...* [3,594].

В.Коллер выделяет социокультурные значения как «специфичные для каждой отдельной культуры, страны, социальной группы или религиозной общины; они подразумеваются в тексте и их знание предполагается у читателя (слушателя). Они просматриваются в культурной специфике перевода или в процессе укоренении текста в определенном коммуникативном пространстве». Передача таких социокультурных значений часто возможна лишь в форме комментариев [4,290].

В связи с несовпадением исходного и переводящего языков возникают «настоящие проблемы в лексической системе переводящего языка» [4,232]. Речь идет о реалиях, т.е. словах и выражениях, обозначающих предметы или явления быта, культуры, истории, географии, политики данного народа или данной страны (*эмпанадос,конфирмация, тога, фиорд, ку-клукс-клан* [5,с.51-68]). В.Коллер приводит переводческие методы, позволяющие заполнить «временные пробелы». Следующие из них представляют интерес для перевода художественных произведений с немецкого языка на азербайджанский:

а) полное или частичное усвоение исходного слова переводящим языком: *der Absatz – abzas, das Halstuch – qalstuk, der Kanzler – kansler, der Kurort – kurort, das Zifferblatt – siferblat;*

б) калькирование: *Deutscher Fußball-Bund - Almaniya Futbol Birliyi, die Halbinsel – yarımada;*

в) использование в качестве соответствия схожего по значению выражения переводящего языка: *der Stab – qərargah, der Durchschlag – süzgəc, aşsüzən;*

г) описательный перевод: *die Ausfallstraße - şəhər mərkəzindən şəhərətrafı bölgələrə aparan əsas yol, das Mitbestimmungsrecht - işçilərin müəssisənin idarə olunmasında iştirak etmək hüququ.*

Рассматривая место перевода в межкультурной коммуникации, мы видим, что переводчик должен не только передавать языковые знаки со всеми их семантическими и стилистическими аспектами, но и культуру, которая стоит за ними. Он должен знать, как в обеих культурах в конкретной ситуации используются эти знаки. Таким образом, переводчик должен уметь посредничать между языками и культурами.

Языковые знаки заменяют предметы, которые они обозначают, не полностью. Поэтому задача переводчика заключается в его умении дать своим читателям представление о недоступных предметах, о которых повествует текст, относящийся к совершенно чужой или частично чужой культуре.

Чтобы справиться с поставленной задачей, переводчик должен обладать двумя основными компетентностями:

1.Текстовой компетентностью, способностью воспринимать и производить текст как своей культуры, так и чужой. Восприятие текста связано со способом его понимания. Это понимание зависит от читательских привычек (привычек в обращении с текстами) и стратегий чтения. И привычки, и стратегии культурно специфичны. Переводчик в данном случае не является исключением. Он тоже находится под влиянием привычек, присущих его культуре.

2. Культурной компетентностью. Она понимается как способность абстрагироваться от собственной культуры и ситуации, рассматривать чужую культуру в ее специфике и сравнении с собственной и применять сделанные наблюдения и выдвинутые гипотезы целесообразно и культуросообразно в определенной (коммуникативной) ситуации.

Чтобы обеспечить функциональную коммуникацию между членами различных культурных общностей, переводчик должен хорошо ориентироваться как в своей рабочей культуре, так и в чужой. Интуитивное знание культур, которым обладает носитель языка, выросший в бикультурной среде, оказывается при этом недостаточным. Профессиональная переводческая деятельность требует потенциально сознательной культурной компетентности.

Культурная компетентность переводчика должна охватывать целостную систему его рабочих культур, а также включать в себя не только знание этих культур, но и компетентность между ними. «Компетентность между культурами» заключается в умении переводчика оценивать отношение к себе участников обеих культур, их знания о другой культуре и предположения касательно мнения представителей другой культуры о них. Иначе говоря, «компетентность между культурами» относится к знанию переводчика, связанному с представлением о себе, других и отраженном самопредставлении соответствующих рабочих культур. Такая компетентность дает возможность переводчику предугадывать в межкультурной ситуации поведение партнеров, а в случае необходимости компенсировать или корректировать его.

Таким образом, если под культурой понимается совокупность правил и норм, регулирующих поведение членов определенного общества, то под культурной компетентностью понимается знание и обладание этими правилами и нормами. Компетентность в своей культуре присутствует, хоть и несознательно, всегда. При установлении контакта с чужой культурой ее отдельно или вместе взятые элементы также несознательно воспринимаются и интерпретируются в соответствии с нормами собственной культуры. Несознательная компетентность оказывается недостаточной для переводчика. Чтобы быть в состоянии переводить, ему необходима сознательная компетентность в рамках своей и чужой культуры, предполагающая не только знание ее элементов, но и обладание ими. При наличии сознательной компетентности между двумя культурами она переходит в переводческую. Поэтому переводчик, профессионально выступающий в роли как письменного, так и устного посредника, а также регионального эксперта, должен обладать этой двойной компетентностью.

Следует также отметить, что основу знаний, относящихся к чужой культуре, составляют географо-демографические факты, а также все, связанное с государственными организациями, политикой и обществом, управлением, экономикой, юриспруденцией и образованием. Центральное место занимают при этом история, литература и изобразительное искусство. Так, название рассказа «Hier ist Tibten» В.Гаджиев переводит как «Tibten stansiyası», эксплицитно выражая содержащуюся в исходном варианте имплицитную информацию и давая тем самым азербайджанскому читателю первый ориентир, по которому будет организовываться его восприятие.

В данной статье мы постарались рассмотреть важные аспекты роли перевода в межкультурной коммуникации, дать дефиницию понятию «культура», определить значение культурно-специфического содержания текста. Кроме того, была сделана попытка описать деятельность переводчика как посредника между культурами и компетентности, которыми он должен обладать.

Литература:

1. Bayramov Q. Tərcümə sənəti, Bakı: «OKA Ofset» nəşriyyatı, 2008, 218 səh
2. Böll H. Mein trauriges Gesicht. Humoresken und Satiren.Verlag Philipp Reclam jun. Leipzig, 1988
3. Böll H.Seçilmiş əsərləri. – Bakı:"Şərq-Qərb", 2009, 600 səh.
4. Koller, W. (2004): Einführung in die Übersetzungswissenschaft, 7. Auflage. Wiebelsheim: Quelle & Meyer
5. Влахов С., Флорин С. Непереводимое в переводе. Москва:Международные отношения,1980, 343 стр.

Qasımova Cəmilə Ramiz

Tərcümə mədəniyyətlərarası kommunikasiyada vasitə kimi və tərcüməçinin mədəniyyətlərarası ünsiyyətdə bir vasitəçi kimi rolu haqqında (H.Böllün əsərləri əsasında)

Xülasə

Məqalədə tərcümənin mədəniyyətlərarası ünsiyyətdəki rolunun vacib aspektləri nəzərdən keçirilir, "mədəniyyət" anlayışının tərifi verilir və mətnin mədəni-spesifik məzmununun mənası müəyyənləşdirir. Müəllif mətnin mahiyyətini anlamaq, onun mədəni və stilistik kontekstdə yerini müəyyən etmək, iki dünya, yəni mənbə və hədəf mədəniyyət arasındakı paralelləri tanımaq və tapmaq, tərcüməçinin nə dərəcədə vacib mədəniyyətlərarası vasitəçisi kimi fəaliyyətini və tələb olunan kompetensiyalarını təsvir eləməyə səy göstərir. Tərcüməçi nəinki dil işarələrini, onların formal, semantik və stilistik aspektlərini ötürülməli, hətta onların arxasında duran mədəniyyəti də, əks etdirməlidir.

Dil işarələri adlandırdığı əşyaları tam əvəz edə bilmir. Buna görə də tərcüməçinin vəzifəsi oxucularına tamamilə yad və ya qismən yad mədəniyyətə aid bir mətndə bəhs edilən əlçatmaz əşyalar haqqında anlayış verməkdir.

Tərcüməçi qarşısında duran vəzifənin öhdəsindən gəlmək üçün iki əsas kompetensiyaya malik olmalıdır:

1. Mətn kompetensiyasına: həm doğma, həm də özgə mədəniyyətin mətnini qavramaq və yaratmaq bacarığı. Mətni qavrama bacarığı onun anlama tərzi ilə sıx əlaqədədir. Anlama isə oxu vərdişlərindən və oxu strategiyalarından asılıdır. Vərdişlər də, strategiyalar da mədəni cəhətdən spesifikdir. Bu

cəhətdən tərcüməçi istisna deyil. O da mədəniyyətinə xas olan ənənlərin təsiri altındadır.

2. Mədəni kompetensiya. Bu, doğma mədəniyyətdən və situasiyadan azad olunmaq, özgə mədəniyyətin özünəməxsusluğunu dərk edərək onu öz doğma mədəniyyətlə müqayisə etmək və aparılmış müşahidələri və irəli sürülmüş fərziyyələri müəyyən (kommunikativ) situasiyada məqsədə- və mədəniyyətə uyğun tətbiq etmək bacarığı kimi başa düşülür.

Tərcüməçi müxtəlif mədəni cəmiyyət üzvləri arasında funksional kommunikasiyanı təmin etmək üçün həm öz, həm də özgə mədəniyyəti yaxşı tanımalıdır. Bikultural mühitdə böyümüş dil daşıyıcısının intuitiv biliyi bu halda kifayət deyil. Peşəkar tərcüməçilik fəaliyyəti olduqca şüurlu mədəni kompetensiya tələb edir.

Qeyd etmək lazımdır ki, özgə mədəniyyətə aid biliyin əsasını coğrafi-demoqrafik faktlar və həmçinin dövlət təşkilatları, siyasət və cəmiyyət, idarəçilik, iqtisadiyyat, hüqüqşünaslıq və təhsillə bağlı hər şey təşkil edir. Tarix, ədəbiyyat və təsviri incəsənət isə bu cəhətdən önəmli yer tutur.

Bu mövzunu müzakirə edərək, müəllif H.Böllün əsərlərindən və onların Azərbaycan dilinə tərcümələrindən bir çox nümunələr gətirir.

Gasimova Jamila Ramiz

About a translation as a means of intercultural communication and the role of the translator as an intermediary between cultures (based on the works of H.Böll)

Summary

This article discusses important aspects of the role of translation in intercultural communication, defines the concept of culture, determines the meaning of the culturally specific content of the text. The author notes how important it is to understand the text, to define its role in a cultural, temporal and stylistic context, to recognize and find parallels between the two worlds, that is, the original and target culture. The article attempts to describe the activities of the interpreter as an intermediary between cultures and the competence that he must possess. A translator must not only convey language signs with all their formal, semantic and stylistic aspects, but also the culture behind them.

Language signs do not completely replace the objects they signify. The task of the translator, therefore, lies in his ability to give his readers an insight into the inaccessible subjects narrated by a text belonging to a totally foreign or partially foreign culture.

To cope with the task at hand, an interpreter must possess two basic competencies:

1. Textual competence, the ability to perceive and produce text from both one's own culture and another's. Perception of a text is related to the way it is understood. This understanding depends on reading habits (textual habits) and reading strategies. Both habits and strategies are culturally specific. The interpreter in this case is no exception. He, too, is influenced by the habits of his culture.

2. Cultural competence. It is understood as the ability to abstract from one's own culture and situation, to consider another's culture in its specificity and comparison with one's own and to apply the observations made and hypotheses put forward expediently and culturally appropriate in a given (communicative) situation. To ensure functional communication between members of different cultural communities, the interpreter must be well-versed in both his or her own working culture and that of others. The intuitive knowledge of cultures possessed by a native speaker who grew up in a bicultural environment is insufficient. Professional translation work requires potentially conscious cultural competence.

It should also be noted that the basis of knowledge relating to a foreign culture is geographic and demographic facts, as well as everything related to governmental organizations, politics and society, management, economics, jurisprudence, and education. History, literature, and the visual arts are central.

The author, discussing this topic, cites many examples from the works of H. Böll and their translations into Azerbaijani.

Гасымова Джамиля Рамиз газы

О переводе как средстве межкультурной коммуникации и роли переводчика как посредника между культурами (на материале произведений Г.Бёлля)

В статье рассматриваются важные аспекты роли перевода в межкультурной коммуникации, дается определение понятию «культура» и определяется значение культурно-специфического содержания текста. Автор отмечает значимость понимания текста, определения его места в культурном и стилистическом аспектах, а также нахождения параллелей между исходной и целевой культурами. Анализируются деятельность переводчика как межкультурного посредника и компетентности, которыми он должен обладать. Переводчик должен не только передать языковые знаки, их семантические и стилистические особенности, но и отразить стоящую за ними культуру.

Языковые знаки заменяют предметы, которые они обозначают, не полностью. Поэтому задача переводчика заключается в его умении дать своим читателям представление о недоступных предметах, о которых повествует текст, относящийся к совершенно чужой или частично чужой культуре.

Чтобы справиться с поставленной задачей, переводчик должен обладать двумя основными компетентностями:

1.Текстовой компетентностью, способностью воспринимать и производить текст как своей культуры, так и чужой. Восприятие текста связано со способом его понимания. Это понимание зависит от читательских привычек (привычек в обращении с текстами) и стратегий чтения. И привычки, и стратегии культурно специфичны. Переводчик в данном случае не является исключением. Он тоже находится под влиянием привычек, присущих его культуре.

2. Культурной компетентностью. Она понимается как способность абстрагироваться от собственной культуры и ситуации, рассматривать чужую культуру в ее специфике и сравнении с собственной и применять сделанные наблюдения и выдвинутые гипотезы целесообразно и культуросообразно в определенной (коммуникативной) ситуации.

Чтобы обеспечить функциональную коммуникацию между членами различных культурных общностей, переводчик должен хорошо ориентироваться как в своей рабочей культуре, так и в чужой. Интуитивное знание культур, которым обладает носитель языка, выросший в бикультурной среде, оказывается при этом недостаточным. Профессиональная переводческая деятельность требует потенциально сознательной культурной компетентности.

Следует также отметить, что основу знаний, относящихся к чужой культуре, составляют географо-демографические факты, а также все, связанное с государственными организациями, политикой и обществом, управлением, экономикой, юриспруденцией и образованием. Центральное место занимают при этом история, литература и изобразительное искусство.

Автор, рассуждая по данной теме, приводит много примеров из произведений Г.Белля и их переводов на азербайджанский язык.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Sərxan Abdullayev tərəfindən çapa tövsiyə olunmuşdur

KÖNÜL TAĞIYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti
Dillər kafedrası, baş müəllim
Atatürk prospekti, 140
tagiyeva.konul87@gmail.com

ERQONİMLƏRİN DİL MƏNSUBLUĞU

XÜLASƏ

Müasir şəhərlər daim dəyişir və inkişaf edir. Yeni müəssisələrin yaranması yeni advermə ənənələrinin əmələ gəlməsinə səbəb olur. Adətən, bu ənənələrin çoxu müasir şəhərlərdə üst-üstə düşür. Amma hər şəhərin bu baxımdan özünəməxsus cəhətləri də vardır. Şəhərlərin onomastik məkanında çoxdillilik diqqəti cəlb edir. Belə bir mühitdə onimlərin öyrənilməsi çox əhəmiyyətlidir.

İnsanların işgüzar birliklərinin: təşkilatlar, müəssisələr, şirkətlər, idarələr, cəmiyyətlər və s.-nin adları olan erqonimlər həm linqvistik, həm də praqmatik cəhətdən maraq kəsb edir. Erqonimlər müasir dil məkanının ayrılmaz hissəsinə çevrilmişdir. Bu adlarda çağdaş dil tendensiyaları öz əksini tapır. Şəhərin onomastik məkanı gündən günə rəngarəng, parlaq, orijinal adlarla zənginləşir. Erqonimiyanın inkişafı alimlərin ona diqqətini artırır ki, bu da həmin adların fəal tədqiqinə imkan yaradır. Erqonimlər digər onimlərdən fərqli, özünəməxsus cəhətlərə malikdir. Onlar dilxarici amillərin təsirinə çox məruz qalır. Bu adlar özündə maksimum informasiyanı cəmləşdirir. Həmin informasiyanın məqsədi insanların diqqətini cəlb etməklə erqonimlərin seçiminə təsir göstərmək, bununla da obyektin nüfuzunu qaldırmaq, onu digərlərindən fərqləndirməkdir.

Erqonimlər arasında milli dil vahidlərindən yaranmış adlarla bərabər, başqa dillərə məxsus sözlərdən düzəlmiş vahidlər də vardır. Erqonimyaratmada əcnəbi leksika özünəməxsus yer tutur.

Məqalədə Azərbaycan erqonimik məkanında müxtəlif mənşəli erqonimlərdən bəhs olunur. Qeyd edilir ki, erqonimlərin yaradılması zamanı milli və əcnəbi mənşəli vahidlərdən, elementlərdən istifadə müasir şəhərin erqonimiyası üçün xarakterik cəhətlərdəndir. Araşdırmada erqonimlərin tipləri və yaranma yolları nəzərdən keçirilir, şəhərin dil mühitini xarakterizə edən adlar təhlil edilir. Aparılan təhlil milli və əcnəbi mənşəli erqonimlərin tipik xarakteristikalarının üzə çıxarılmasının çox aktual və maraqlı olduğunu göstərir.

Açar sözlər: onomastika, erqonim, advermə ənənələri, ad modelləri, erqonimik məkan, erqonimik nominasiya, onomastik sistem

KONUL TAGHIYEVA

SUMMARY
LINGUISTIC BELONGING OF ERGONYMS

Modern cities are constantly changing and developing. The emergence of new enterprises leads to the emergence of new advertising traditions. Usually, many of these traditions overlap in modern cities. But each city has its own peculiarities in this regard. Multilingualism attracts attention in the onomastic space of cities. In such an environment, the study of onyms is very important.

Ergonyms, which are the names of people's business associations: organizations, enterprises, companies, departments, societies, etc., are of interest both linguistically and pragmatically. Ergonyms have become an integral part of the modern language space. These names reflect modern language trends. The onomastic space of the city is enriched with colorful, bright, original names day by day. The development of ergonomy increases the attention of scientists to it, which allows for the active study of these names. Ergonyms are different from other onyms.. They are very exposed to external factors. These names contain the maximum amount of information. Həmin informasiyanın məqsədi insanların diqqətini cəlb etməklə erqonimlərin seçiminə təsir göstərmək, bununla da obyektin nüfuzunu qaldırmaq, onu digərlərindən fərqləndirməkdir. The purpose of this information is to influence the choice by attracting people's attention, thereby raising the prestige of the object, to distinguish it from others.

Ergonyms include names made up of national language units, as well as units made up of words belonging to other languages. Foreign vocabulary has a special place in ergonym creation.

The article discusses ergonyms of different origins in the ergonomic space of Azerbaijan. It is noted that the use of units and elements of national and foreign origin in the creation of ergonomics is a characteristic feature of the ergonyms of the modern city. The study considers the types and ways of formation of ergonyms, analyzes the names that characterize the linguistic environment of the city. The analysis shows that the discovery of typical characteristics of ergonomics of national and foreign origin is very relevant and interesting.

Keywords: onomastics, ergonym, naming traditions, name models, ergonomic space, ergonomic nomination, onomastic system

ТАГИЕВА КЕНУЛЬ

ЯЗЫКОВАЯ ПРИНАДЛЕЖНОСТЬ ЭРГОНИМОВ

РЕЗЮМЕ

Современные города постоянно меняются и развиваются. Появление новых предприятий приводит к появлению новых рекламных традиций. Обычно многие из этих традиций пересекаются в современных городах. Но в каждом городе в этом плане есть свои особенности. Использование нескольких языков привлекает внимание в ономастическом пространстве городов. В такой среде очень важно изучение онимов.

Эргонимы - названия бизнес-ассоциаций людей: организаций, предприятий, компаний, отделов, обществ и т. д. - интересны как с лингвистической, так и с прагматической точек зрения. Эргонимы стали неотъемлемой частью современного языкового пространства. Эти имена отражают современные языковые тенденции. Ономастическое пространство города день ото дня обогащается красочными, яркими, оригинальными именами. Развитие эргономики увеличивает внимание к ней ученых, что позволяет активно изучать эти названия. Эргонимы отличаются от других онимов. Они очень подвержены воздействию внешних факторов. Эти имена содержат максимальное количество информации. Цель этой информации - повлиять на выбор эргономики, привлекая внимание людей, тем самым повышая престиж объекта, выделяя его среди других.

Эргонимы включают названия, составленные из единиц национального языка, а также единиц, составленных из слов, принадлежащих к другим языкам. Особое место в эргономике занимает иностранная лексика.

В статье рассматриваются эргонимы разного происхождения в эргономическом пространстве Азербайджана. Отмечается, что использование агрегатов и элементов отечественного и зарубежного происхождения при создании эргономики является характерной чертой эргономики современного города. В исследовании рассматриваются виды и способы формирования эргономики, анализируются названия, характеризующие языковую среду города. Анализ показывает, что открытие типичных характеристик эргономики отечественного и зарубежного происхождения очень актуально и интересно.

Ключевые слова: ономастика, эргоним, рекламные традиции, именные модели , эргономическое пространство, эргономическая номинация, ономастическая система.

Giriş: Müasir dünyada şəhərlərin onomastik məkanında çoxdillilik diqqəti cəlb edir. Belə bir mühitdə onimlərin öyrənilməsi çox əhəmiyyətlidir. Çoxmillətli, çoxkonfessiyalı ölkə kimi tanınan Azərbaycanın yerləşdiyi coğrafi mövqe onun sivilizasiyaların qovuşduğu bir məkana çevrilməsində böyük rol oynamışdır.

Onomastik vahidlərin bir növü olan erqonimlər müasir Bakının, Gəncənin və digər şəhərlərin onomastik məkanını səciyyələndirir və linqvokulturoloji əhəmiyyət

daşıyır. Bu adlar özündə maksimum informasiyanı cəmləşdirir. Həmin informasiyanın məqsədi insanların diqqətini cəlb etməklə erqonimlərin seçiminə təsir göstərmək, bununla da obyektin nüfuzunu qaldırmaq, onu digərlərindən fərqləndirməkdir.

"Erqonimlər şəhər onomastikonunun ən geniş və səciyyəvi təbəqəsidir. Burada müasir dilə və bütövlükdə müasir kommunikasiyaya xas bəzi tendensiyalar (məsələn, alınmalara, əcnəbi leksikaya meyil, ümumdil mədəniyyətinin aşağı düşməsi, sözdüzəldici və orfoqrafik normaların pozulması) realizə olunur. Hal-hazırda şəhər dilinin öyrənilməsi müasir dilçiliyin fəal inkişaf edən istiqamətlərindən biridir. Bu tədqiqat linqvokulturoloji, praqmatik aspektlərdə həyata keçirilir. Şəhər dilinin öyrənilməsi tam şəkildə cəmiyyət həyatının dinamikləşmə, ünsiyyətin spontanlığı, dil oyununa cəhd, variativlik, dilin liberallaşdırılması ilə bağlı yeni tendensiyalarını nümayiş etdirir" (8, s.257). Təşkilatlar, müəssisələr, şirkətlər, idarələr, cəmiyyətlər, ictimai-mədəni obyektlər və s.-nin adları olan erqonimlər həm linqvistik, həm də praqmatik cəhətdən maraq kəsb edir. Erqonimlərin ən geniş yayılmış tərifi N.V.Podolskayanın məşhur lüğətində verilmişdir (17, s.151).

Azərbaycan onomastikasında erqonimiya az öyrənilmiş sahələrdən biridir. Tədqiqatçılar tərəfindən bütövlükdə "insanların işgüzar birliklərinin xüsusi adları" (15, s.306; 9, s.98; 2, s.146) kimi səciyyələndirilən erqonimlərin yaranması və işlənməsi, semantik, praqmatik, struktur xüsusiyyətlərinin öyrənilməsi getdikcə aktuallaşır. Müşahidələr göstərir ki, obyekt adı kimi əcnəbi dillərdən, xüsusən ingilis dilindən istifadə get-gedə daha çox populyarlıq qazanır. Əcnəbi dil elementlərindən erqonimyaratmada istifadə yeni mədəni, siyasi, texnoloji realiləri ifadə edən yad dil vahidlərinin milli dilə daxil olması ilə əlaqədardır. Buna baxmayaraq, erqonimlər arasında türk mənşəli sözlərin özünəməxsus yeri vardır. Erqonimlərin yaranma mənbələri arasında türk mənşəli leksika da mühüm yer tutur.

Türk mənşəli erqonimlərin yaranma mənbələri

Müasir şəhərlər daim dəyişir və inkişaf edir. Yeni müəssisələrin yaranması yeni advermə ənənələrinin əmələ gəlməsinə səbəb olur. Adətən, bu ənənələrin çoxu müasir şəhərlərdə üst-üstə düşür. Amma hər şəhərin bu baxımdan özünəməxsus cəhətləri də vardır.

Azərbaycan dilçiliyində bu vaxta qədər türk mənşəli və tərəflərindən biri türk mənşəli olan hibrid erqonimlərin linqvistik tədqiqata cəlb edilməmişdir. Şübhəsiz, belə bir mövzunun öyrənilməsi onomastikanın tədqiqi üçün zəngin materiallar verər, adyaratmada apelyativin funksiyası, motivləşmə meyarları və s. müəyyənləşə bilər ki, bu da nominatorun estetikası və psixologiyasını öyrənmək baxımından geniş imkanlar yaradar. Bu baxımdan türk mənşəli erqonimlərin dilçilik obyekti kimi öyrənilməsi aktualdır. Türk mənşəli erqonimlər – tərkibində türk mənşəli vahidlər olan idarə, müəssisə, təşkilat və s. adlarıdır. M.V.Qorbanevski erqonimlərin təsnifində regional əlamətə üstünlük verərək göstərirdi ki, təsnifat zamanı leksik-semantik və sözdüzəldici təhlil prinsiplərinin vəhdəti məqsədəuyğundur: birincisi rus

dilinin lüğət tərkibinin zənginliyini göstərir, nominasiya prinsiplərində qanunauyğunluqların müəyyənləşdirilməsinə imkan verir, ikinci isə dilin leksikasının ayrıca təbəqəsi kimi erqonimiyanın sözyaratma imkanlarını müəyyən edir (13, s.58).

Türk mənşəli erqonimlərin işləndiyi leksik qrupları aşağıdakı kimi müəyyənləşdirə bilərik:

1.Ümumi isimlərdən düzələnlər. Ümumi zoonimlərdən düzələn adlar: "Qaranquş" (uroloji sanatoriya); Ümumi fitonimlərdən düzələnlər: "Günəbaxan", "Dəmirağac", "Palıdlı" (istirahət mərkəzləri), "Gavalı" (mağaza), "Çinar" (hotel), "Çinar Plaza" (biznes mərkəzi), "Sumaq" (kafe və restoran); Mücərrəd isimlərdən düzələnlər: "Bilik" (dəftərxana ləvazimatı mağazası); Coğrafi nomenlərdən düzələn erqonimlər: "Dəniz" (məktəb ləvazimatları mağazası), "Göl" (motel, restoran), "Qaya" (motel, əyləncə kompleksi), "Bulaq" (istirahət zonası); Müsbət emosiya ifadə edən sözlərdən düzələnlər: "Sevinc", "Uğur" (motellər); İnformativ xarakterli adlar: "Ucuzluq" (mağaza); Predmet bildirən sözlərdən düzələnlər: "Altun" (motel); Zaman bildirən sözlərdən düzələnlər: "Gecələr" (istirahət mərkəzi); Peşə leksikası ilə əlaqədar adlar: "Dənizçi" (istirahət mərkəzi); Qohumluq bildirən sözlərlə düzələnlər: "Qardaşlar mebel" (şirkət), "Qayınana" (restoran), "AtaBank"; Vokativlərdən düzələn erqonimlər: "Ay qonşu" (restoran); Etiket bildirən vahidlərdən düzələnlər: "Günaydın" (kafe və restoran); Təbiət hadisələrini bildirən sözlərdən düzələnlər: "Göy qurşağı" (istirahət mərkəzi), "Dalğa" (biznes mərkəzi, TV, restoran)

2.Xüsusi isimlərin iştirakı ilə düzələn türk mənşəli erqonimlər. Antroponimlərdən düzələn erqonimlər: "Turqut", "Koroğlu", "Aydınoğulları" (motellər), "Elturan" (mağaza), "Ayxan", "Atilla" (internet-klublar), "Toğrul" (sağlamlıq mərkəzi), "Dədə Qorqud" (istirahət mərkəzi), "Paşa Holdinq" (şirkət); Etnonimlərdən düzələnlər: "Kəngərli" (şirkət), "Alban Resort" (hotel); Toponimlərdən düzələn erqonimlər: "Qarabağ", "Kəpəz", "Goran" (sanatoriyalar), "Gəmiqaya", "Göyçə", "Əlincə" (istirahət mərkəzləri); Kosmonimlərdən düzələnlər: "Ay Ulduz", "Dan ulduzu" (istirahət mərkəzləri), "Ulduz" (şokolad fabriki).

Erqonimyaratmada nominatorlar müxtəlif üsullarla düzələn vahidlərdən istifadə edirlər. "Leksik yolla sözlərin əmələgəlmə prosesinin mahiyyəti ondan ibarətdir ki, ümumiyyətlə, leksik vahidlər (sözlər) dilə ya hazır bir şəkildə daxil olur və ya sözün tərkibində dəyişikliyin əmələ gəlməsi ilə düzəlir" (6, s.121). Erqonimik məkanda işlənən belə sözlər içərisində müxtəlif semantikalı leksik vahidlər vardır. Yeni məna kəsb etmək hesabına söz yaradıcılığı üzrə əmələ gələn erqonimlərə "Dolma" (restoran), "Göyərçin" (uşaq bağçası) və s. kimi adları misal göstərmək olar. Yuxarıda qeyd etdiyimiz prinsiplərlə (ümumi və xüsusi isimlərdən türk mənşəli erqonimlərin yaranması) düzələn erqonimlər məhz bu üsulun nəticəsidir.

Morfoloji yolla yaranan sözlərdən düzələn erqonimlər: "Damcılı", "Günəşli" (motellər), "Daşlı", "Görüş" (istirahət mərkəzi) və s.

Sintaktik üsulla yaranan erqonimlər arasında təyini söz birləşmələri modelində olan vahidlər çoxdur. Nümunələr əsasında bunları nəzərdən keçirək:

I növ təyini söz birləşməsi modelində: "Altun kitab" (nəşr evi), "Ağ göl", "Aylı gecə", "Yaşıl bağ", "Yeddi bulaq" (motellər), "Üç bulaq", "İki qardaş", "Beş qardaş", "Asma körpü", "Ballı bulaq" (istirahət mərkəzləri), "Altun saray", "Böyük Saray", "Ağ saray" (restoranlar), "Bol market" (mağaza) və s. Məlum olduğu kimi, "belə birləşmələr sözlərin yanaşmasından əmələ gəlir, birinci tərəf atributiv, ikinci tərəf isə həmişə substantiv xüsusiyyət daşıyır. Birinci növ təyini söz birləşmələrinin ikinci tərəfi, bir qayda olaraq, isimlə və ya substantivləşmiş hər hansı bir sözlə, birinci tərəfi isə isimlə, sifətlə, sayla, əvəzliklə və feili sifətlə ifadə olunur" (1, s.47). Verdiyimiz nümunələrdən də aydın olur ki, I növ təyini söz birləşməsi modelində olan erqonimlərin birinci tərəflərində, əsasən, sifətlər və saylar işlənir.

II növ təyini söz birləşməsi modelində: "Xan bağı" (motel), "Ay işığı", "Dağlar qoynunda" (istirahət mərkəzləri), "Qartal yuvası" (oyun zalı) və s. Əsasən, mücərrədlik bildirən bu növ birləşmələrin tərəfləri məhdud ifadə vasitələrinə malikdir. Nümunələrdən görürük ki, belə erqonimlərin tərəfləri isimlə ifadə olunmuşdur və bu tərəflər birlikdə vahid anlayışla yanaşı, poetik məzmun bildirir. Bildiyimiz kimi, adətən, mürəkkəb idarə adları məhz bu birləşmələrlə ifadə edilir.

Mürəkkəb söz modelində olan erqonimlərə aşağıdakıları misal göstərə bilərik:

"Balbulaq", "Buzbulaq", "Dəmiraparan", "Babayurd", "Ceyranbulaq", "Uludağ", "Gil-torpaq" (istirahət mərkəzləri). Mürəkkəb söz modelindəki erqonimlərin bəziləri II növ təyini söz birləşmələrinin formasına əsaslanır, məsələn: "Qaşaltı", "Çaydaşı" (istirahət mərkəzləri), "Gölüstü" (motel) və s.

Azərbaycan erqonimiyasında əcnəbi adlar

Erqonimlər arasında milli dil vahidlərindən yaranmış adlarla bərabər, başqa dillərə məxsus sözlərdən düzəlmiş vahidlər də vardır. Erqonimyaratmada əcnəbi leksika özünəməxsus yer tutur. Erqonim yaradıcılığında istifadə olunan müxtəlif dillərə aid dil vasitələri əcnəbi hesab olunur. L.P.Krısin əcnəbi leksika dedikdə, resipiyent dildə mənimsənilmə dərəcəsindən asılı olmayaraq, başqa dildən gələn istənilən söz və ifadələri nəzərdə tutur (12, s. 35). Əcnəbi mənşəli erqonim dedikdə, insanların işgüzar birliyinin proprial adı nəzərdə tutulur ki, onun tərkibində əcnəbi komponent var (4, s.10).

Aparılan tədqiqatlar arasında əcnəbi mənşəli erqonimlərə, habelə əcnəbi vasitələrin, yaxud əcnəbi qrafikanın istifadəsi ilə yaranmış adlara həsr olunmuş əsərlər xüsusilə seçilir (Bax: Vermişova, Lasitsa, Butakova, Krıkova, Q.S.Dorjiyeva və A.O.Tkaçova, Arxipova, Hüseynova, Aulina).

Hər bir dildə erqonimik sistem, ilk növbədə, milli dil vahidləri ilə zənginləşir. Adyaratma prosesində onlarda bəzən olduğu kimi işlənir, bəzən də müəyyən dəyişikliklərə uğrayır. Lakin son illərdə Bakı və Gəncə şəhərlərində əcnəbi adların böyük artımı müşahidə olunur. Belə ki, işgüzar obyektlərin çoxu xarici sözlərlə

adlandırılır. Əcnəbi mənşəli obyekt adları timsalında erqonimik nominasiyadakı müasir tendensiyaların nəzərdən keçirilməsi böyük maraq kəsb edir.

Müasir şəhərlərin xarici vizual məkanında Avropa dillərinin üstünlüyü hiss olunur. Bunların arasında, şübhəsiz ki, ingilis dili daha irəlidədir. Bu tendensiya bütün dünyada müşahidə edilir və ingilis dilinin dünyada ünsiyyət vasitəsi kimi geniş yayılmasından, eyni zamanda, ingilis dilində yazılmış adların dəb olmasından irəli gəlir. İngilisizmlər həm informativ, həm fərdiləşdirici, həm reklam funksiyaları daşıyır, eyni zamanda, müəyyən dünyagörüşü və milli mədəniyyəti ifadə etməyə imkan verir.

Erqonimlərdə ingilis sözlərindən çox vaxt adın müasirliyini nəzərə çatdırmaq üçün istifadə edilir. Nominatorlar müxtəlif üsullarla ingilis dili elementlərinin vasitəsilə erqonimik məkana yeni-yeni adlar daxil edirlər. Bu cür adların yaradılmasında məqsəd həm də sahibkarın öz obyektini geniş dairədə tanıtmaqdır. Bununla yanaşı, erqonimik məkanda xarici iş obyektlərinin adları geniş şəkildə işlənir və xüsusi yer tutur. Çünki istehlakçıların şüurunda xarici şirkət yüksək keyfiyyət, məhsul və xidmətlərin geniş çeşidi, etibarlılıq, sabitliklə assosiasiya olunur.

Azərbaycan erqonimiyasında əcnəbi mənşəli erqonimlərin müxtəlif növlərinə rast gəlmək mümkündür. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Azərbaycan dilinin lüğət tərkibində olan alınmaların köməyi ilə düzəlmiş erqonimlər: “Lekal”, “Rebus”, “Qlobus” (dəftərxana malları mağazaları), “Kenquru” (uşaq geyimləri mağazası), “Partizan” (restoran), “Karat” (hostel), “Melodiya” (musiqi alətləri mağazası), “Metro Park” (ticarət mərkəzi), “Start” (idman mərkəzi), “Aristokrat” tibb mərkəzi, “Çempion” çay evi və s.

2.Yad dildə olan erqonimlər. Belə adlar transliterasiya olunmadan işlənir. Tərkibinə görə birkomponentli və ya çoxkomponentli olur: Diamond, Elephant, Olympos, Boomerang, Offside, Kingston, Yellow Egg, Paris bistro, ninehotel, Museum Park Hotel, City Life, Two Seasons Boutique, Four Seasons Hotel, Three Barrels, Beer Hall, Edem Pub, Beer Office, Black Star, Powerful Electronics, Silver Telecom, Royal Music, Kids Couture, Happy Hands və s.

3.Ekzotizmlərdən düzələn adlar erqonimik məkanda özünəməxsus mövqeyə malikdir. Bunlar qeyri-adi adlar kimi diqqəti cəlb edir, milli kolorit yaradır. Onların da əsas vəzifəsi istehlakçı cəlb etməkdir. Başqa xalqların mətbəxini əks etdirən adlar belə erqonimlər arasında xüsusi yer tutur: Məsələn: Şaurma, Pizza İnn, Dominos Pizza, Pizza Hut, Xaçapuri Garden, Mozzarella və s. Ekzotizmlərin digər qrupları da advermədə iştirak edir: Lady Sharm, Lady Fox, Centleman (mağazalar), Baron Pub (restoran) və s.

4.Erqonimiyada xeyli miqdarda hibrid adlar vardır. Onları belə qruplaşdırmaq olar:

1)Azərbaycan dilinin sözləri I tərəfdə işlənir: Buxar Vape Shop, Pıçıltı Cosmetics, Naxış Studio, Ağa Electronics, Avand Studio (kişi salonu). Bu

nümunələrdə əcnəbi leksika orijinalda olduğu kimi verilir. Elə erqonimlər də var ki, onlarda əcnəbi leksika transkripsiya ilə verilir: Qala Kosmetics.

2)Azərbaycan dili sözləri II tərəfdə işlənir: Still Geyim, Gold Əminə, Megahand Gəncə, Grand Qafqaz.

Davamlı olaraq hibrid erqonimlərin tərkibində "store", "lounge", "shop", "mall", "palace", "house", "plaza" kimi sözlər işlənir və obyektlərin ixtisaslaşmasını göstərir. Bu konstruksiyaya malik adları yenə də iki qrupa bölmək olar: 1) I tərəf Azərbaycan dilində işlənən həm milli, həm də alınma sözlərdən ibarət ola bilər: Habibi Lounge, Buta Palace, Delfin Market, Hamilə Store, Xingal House, Gənclik Mall, Nur Art House, Photo House, Organic Shop, Nur Lounge, Baku Medical Plaza; 2) I tərəf xarici dilin leksikasından ibarət ola bilər: Bestshop, Purple Store, Baby shop, Diet House, Theatre Lounge, Creative Shop, Mini Miki House.

5.Erqonimlərin tərkibində müəyyən sözlər işlənir ki, bunlar aid olduğu mədəniyyəti əks etdirir. Belə sözlərdən biri pabdır. "Pab (ing. *Pub*) - Alkoqollu içkilərin satıldığı və içildiyi restoran tipli məkan. Pablar ingilis sosial-kulturoloji mədəniyyətinin mühüm tərkib hissələlərindən biridir. Pab sözü İngilis dilində Public House (*azərb. İctimai Ev*) sözlərinin qısaldılmasından əmələ gəlmişdir. Bu tipli içkixanalar əsasən Böyük Britaniyanın hakim olduğu ərazilərdə (Avstraliya, Kanada, Yeni Zelandiya) yayılmışdır. Mütəxəssislər tərəfindən Pablar Tavernaların müasir forması kimi izah edilir" [https://az.wikipedia.org/wiki/Pab]. Məsələn: Hops Pub Baku, The London Pub, Finnegan's (İrlandiya Pabı), Beer Point Pub, Beer Loft, Miraj Pub, Medalyon, My Dream, Paulaner Brauhaus Baku, Richman Pub and Restaurant, Trafford Pub Restaurant, Yaban Pub, Abba Pub, Le Chateau Music Bar, CraZzy Bear, Amber Restoran.

6.İngilisdilli ölkələrin milli-mədəni spesifikasını əks etdirən adlar sırasında William Shakespeare, Sherlock's, Ayvengo (restoran), Chaplin coffee (kafe), Camelot Club (bar) kimi obyekt adları diqqəti cəlb edir. Belə erqonimlər bir neçə funksiya yerinə yetirir: nominativ, informativ, fərqləndirici, eyniləşdirici, reklam. Bütün bu funksiyalar birlikdə müəyyən obraz yaradır, insanları cəlb edir. Bundan əlavə, həmin adlar transonimləşmə hadisəsi nəticəsində yaranmış erqonimlərdir.

7.Bir qrup erqonimlər var ki, dünyaca məşhur şirkətlərə aiddir və məhz həmin adlarla hamıya tanışdır: Samsung, Bosh, Sony, Zara, Apple, Gucci, Emporio Armani, Lacoste,Dior və s.

8.Coğrafi adlardan istifadə müştərilərin intellektual assosiasiyalarına əsaslanır: Avropa (aptek), Münhen, Porto Prense, Texas Pub Hall, Caribbean Pub & Restaurant (pablar), Hollywood (kişi geyimləri mağazası), Ştutqart (avtomobil hissələri mağazası)

9.Müxtəlif elementlərin birləşməsindən ibarət adlar: Pub 900, Pub 018, 28 Mall, 28 hotel, Pub 1984, th13teen, Garaj 73

10.Abreviatur formasında olan erqonimlər. Belə adlar iki cür olur: 1)yalnız abreviaturdan ibarət erqonimlər – H&M, BMW, TCL, KFC; 2)abreviatur + söz konstruksiyasında olan erqonimlər – SS Lounge Bar, Vm Hostel, HB Music Store, VİP electronics

11.Yerləşdiyi əraziyə uyğun olan erqonimlər: Doctor's Cafe (ATU Tədris Cərrahiyyə Klinikasının ərazisi), Station (bu restoran "Sahil" metrostansiyasının yaxınlığındadır), Theatre Lounge (Gənc Tamaşaçılar Teatrının binasında) və s.

12.Söz oyunu nəticəsində yaranan erqonimlər: Qeyd edək ki, xarici dillərdən istifadə söz oyunu üçün də şərait yaradır:

Meatadore – restoran adı. Matador sözünü xatırladır, lakin ingiliscə "meat" – "ət" sözü adın əsasını təşkil edir.

Beerloga – pab və restorandır. Rus dilindəki "берлога" – "yuva" sözünü xatırladır. İngilis dilindəki "beer" – "pivə" adın əsasını təşkil edir.

Beerbasha – restoran adıdır. Azərbaycan dilindəki "birbaşa" sözünə uyğunlaşdırılmışdır. Adın ilk komponenti ingilis dilindəki "beer" – "pivə" sözüdür. Konsept – "pivə birbaşa hazırlanıb sizə gətirilir".

Beertəhər – restoran adıdır. Azərbaycan dilindəki "birtəhər" sözünə uyğunlaşdırılmışdır. Adın ilk komponenti ingilis dilindəki "beer" – "pivə" sözüdür.

Beerlin Pub – bu erqonim Berlin toponiminə uyğunlaşdırılmışdır.

Coffeevar – bu erqonimi iki cür izah etmək olar: 1)"kofe var, mövcuddur" kimi; 2)kofevar (bu söz ruscadır) – "kofe hazırlayan şəxs" kimi.

Erqonimiyada italyan, fransız və s. dillərə məxsus vahidlər də öz əksini tapır: "OroNero Bar", "Vapiano", "Trattoria L'Oliva", "Pizza Locale", "Lavazza Espression", "Etiquette Chill& Co", "L'Avenue", "Paris Bistro" və s.

Rus erqonimlərinin yaranma prinsipləri

Getdikcə müasir dünyanın inteqrasiya və qloballaşması ilə əlaqədar bu tələbat daha da çoxalır. Rus dili də bu dillərin arasında ən mühüm yerlərdən birini tutur. Hazırda Azərbaycanda mədəniyyətlərarası kommunikasiyada ana dili ilə yanaşı, xarici dillərin, xüsusilə də rus dilinin bir fənn kimi tədrisi ön plana çəkilir və bir tədris modeli kimi geniş vüsət alır. Cəmiyyətin bütün sahələrində – siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, turizm, səhiyyə və vətəndaşların şəxsi əlaqələrində bu dil hər gün istifadə olunur.

Rus dilində olan erqonimlərin yaranmasında müxtəlif prinsiplərdən istifadə olunur:

1)ünvan prinsipi. Obyekt yerləşdiyi əraziyə uyğun adlandırılır – məsələn, "Pushkin Pub". Bu obyekt A.S.Puşkin küçəsində yerləşir; "Çayki" restoranı – Bakı bulvarında, dəniz kənarında yerləşir. Məlumdur ki, insanlarda dəniz həmişə qağayılarla assosiasiya olunur. Qağayıların adının dənizkənarı obyektə verilməsi uğurlu addımdır. Restoranın yerləşdiyi mövqe qağayıların uçduğu möhtəşəm dəniz mənzərəsi ilə fərqlənir; "Qubernator" kafe – Filarmoniya bağında yerləşir. Filarmoniya bağı 1830-cu illərdə Bakı komendantı R.R.Xovenin təşəbbüsü ilə

yaradılıb. XIX əsrin 30-cu illərində salınan bağ məhz qubernatorun təşəbbüsü ilə yaradıldığı üçün əvvəllər "Qubertnator bağı" kimi tanınırdı. Kafenin adı bununla əlaqədar verilmişdir.

2)ixtisaslaşma prinsipi. Bir çox erqonimlər obyektin müəyyən sahə üzrə ixtisaslaşmasını göstərir və tematik adlar sayılır: "İqoloçka" – biçmə-tikmə ləvazimatları satılan mağaza; "Rozetka" – elektronika malları satılan mağaza; "Çemodan" – çanta, çamadan çeşidlərinin satıldığı mağaza; "Başmaçok", "Kabluçok" – adətən, belə adlar ayaqqabı mağazalarına verilir; "Sırovarnya" – müxtəlif pendir çeşidlərinin təqdim edildiyi restoran; "Pivnaya apteka" – atmosferi olan pivə barıdır. Aptek mühiti yaratmaq üçün müəssisənin əməkdaşları əczaçılar kimi ağ xalat geyinirlər; "Beluqa" – balıq restoranının adı həmin balıq növünün adını özündə əks erdirir; "Kankret Peçat Dönər" – müxtəlif dillərin və fərqli qrafikanın birləşdiyi erqonim. Obyektin konsepti – bir şeyin doğruluğunu qəti şəkildə təsdiq etmək, şəhərdə peçatı vurulmuş yeganə müəssisə.

3)auditoriyaya yönəlmə/ünvanlanma prinsipi. Bu prinsip əsasında çox vaxt uşaq obyektləri adlandırılır. Həmin adlar, adətən, nağıl qəhrəmanlarının, müxtəlif heyvanların adlarından, ümumiyyətlə, uşaqlıq dövrünü əks etdirən sözlərdən, ayrı-ayrı sözlərin əzizləmə formada olan variantlarından düzəlir: "Malışok" – bu söz mal+ış+ok hissələrindən ibarətdir. Ad konkret auditoriyaya yönəlmişdir; "Teremok.az" – uşaq oyuncaqları satılan internet-mağaza. "Teremok" kiçiltmə məzmunu daşıyan sözdür. "Terem" sözündəndir, "kiçik terem" deməkdir. "Teremok", eyni zamanda, rus xalq nağılının adıdır (cizgi filmi, opera kimi interpretasiyaları var). Bu erqonimi milli-mədəni fonu əks etdirən ad kimi də qeyd etmək olar.

Belə erqonimlərin əsas funksiyası adresatın diqqətini ekspessiv sözlərin köməyi ilə cəlb etməkdir. Həmin adlarda sözün mənasının emosional-ekspressiv komponenti üstünlük təşkil edir. Kiçiltmə bildirən şəkilçilər ekspressivliyi təmin edən vasitələrdir.

Ümumiyyətlə, emosionallıq və ekspressivlik yaradan erqonimlər həmişə istehlakçıların xüsusi marağına səbəb olur: "Trın Trava" Russkaya İzba – sırf rus mətbəxi və kənd mühiti olan restoran; "Yolki Palki" – təəccüb, təəssüf, sevinc, qəzəb və s. kimi mənalar bildirən ekspressiv ifadədir; "Starıy Dvorik" – burada hamının bir-birini tanıdığı əsl köhnə Bakı həyətlərinin ruhu duyulur.

Erqonimlər arasında milli-mədəni presedent fenomenləri əks etdirən, habelə milli-mədəni assosiasiyalı adlar da vardır: "12 stulyev" restoranı – Satiriklər İlf və Petrovun eyniadlı romanı əsasında çəkilmiş məşhur komediyanın adı ilə bağlı erqonimdir; "Kalinka" – kafe. Rus xalqı və mədəniyyəti ilə assosiasiya yaradan ən məşhur adlardan biridir; "Mari Vanna" – ev mühitini xatırladan restorandır. Sanki sevimli nənənin evinə qonaq gəlmisən; "Mama nakormila" – kafe. Təbəssüm yaradan bu ad göstərir ki, obyektdə doyumlu və ləzzətli yeməklər hazırlanır.

Rus dilində olan erqonimlərin bəziləri ərazi anlayışı ilə bağlıdır. Bunlar topoerqonimlər və topoterminlərdən düzələn erqonimlərdir: "Dubrovka" – restoran adı. "Dubrovka" rus dilində fitonim kimi – bir sıra çoxillik otların adı olaraq bilinir. Bundan əlavə, Rusiya ərazisində Dubrovka toponimi də vardır ki, Moskvanın cənub-şərqində ərazi adı kimi məşhurdur. Böyük ehtimalla, "Dubrovka" erqonimi toponimdən düzəlmədir.

Rus dilinin ümumi leksikası əsasında da erqonimlər əmələ gəlir. Məsələn, "Şkatulka", "Akvarium", "Koleso" – mağaza adları, "3 Boçki" – pub-restoran adıdır. "Samovar" – bu adı daşıyan bir neçə obyektə rast gəldik: çay evi, restoran.

Nəticə

Yekun olaraq qeyd edə bilərik ki, Azərbaycan dilçiliyində ilk dəfə olaraq türk mənşəli erqonimlər leksik-semantik və söz yaradıcılığı cəhətdən təhlil olunmuş, dildaxili və dilxarici amilləri nəzərə almaqla erqonimik məkanda advermənin mahiyyəti üzə çıxarılmışdır. Bu məqsədlə "türk mənşəli erqonimlər" termini elmi dövriyyəyə daxil edilmişdir. Topladığımız faktik materialın təhlili göstərir ki, müasir erqonimiyada spesifik nominativ prosesləri əks etdirən mikrosistemlər formalaşmaqdadır. Bununla da müəyyən obyektlər növünə özünəməxsus struktur-semantik modellər üzrə adların verilmə ənənəsi meydana çıxır.

Araşdırma göstərdi ki, erqonimlər müasir şəhərin dil mənzərəsini əks etdirir. Onların rəngarəngliyi, ayrı-ayrı funksiyaları yerinə yetirməsi cəmiyyətdə baş verən ictimai-siyasi, eləcə də iqtisadi dəyişikliklərlə əlaqədardır. Son illərdə Bakı və Gəncə şəhərlərində əcnəbi adların böyük artımı müşahidə olunur. Belə ki, iş obyektlərinin çoxu xarici sözlərlə adlandırılır. Şəhərin erqonimik məkanında xarici dillərdən geniş istifadənin müxtəlif səbəbləri var. Bu, bir tərəfdən, dünyadakı qloballaşma tendensiyaları ilə bağlıdır. Digər tərəfdən, advermədə xarici leksikadan istifadəyə olan dəblə əlaqədardır. Əcnəbi erqonimlər həm də xarici turistlərə ünvanlanır. Aparılan təhlil nəticəsində aydın oldu ki, müasir şəhərlərdə əcnəbi erqonimlərin tipik xarakteristikalarını üzə çıxarmaq və öz funksiyasını daha effektiv yerinə yetirən erqonimə hansı cəhətlərin xas olmasını müəyyənləşdirmək çox aktual və maraqlıdır.

Göründüyü kimi, rus dlində olan erqonimlər yaranma yolları və prinsiplərinə görə olduqca müxtəlifdir. Digər erqonimlər kimi, onların da linqvistik təhlilə cəlb edilməsi vacib məsələdir. Çünki bu erqonimlərin də əsas funksiyası təkcə diqqəti cəlb etmək yox, həm də ad seçiminə təsir göstərməkdir. Onların öyrənilməsi Azərbaycan erqonimik sisteminin daha ətraflı işıqlandırılması üçün zəmin yaradır.

Ədəbiyyat

1. Abdullayev, Ə. Müasir Azərbaycan dili. Sintaksis: [4 hissəli] / Ə.Abdullayev, Y.Seyidov, A.Həsənov. – Bakı: Şərq-Qərb, – h.4. – 2007. – 424 s.
2. Adilov, M. İzahlı dilçilik terminləri lüğəti / M.Adilov, Z.Verdiyeva, F.Ağayeva. – Bakı: Elm və təhsil, – 2020. – 656 s.

3. Архипова, Е.В. Урбанонимы Рязани и языковая политика в сфере городской номинации: [Электронный ресурс] // Форум-диалог. Языковая политика. Общероссийская перспектива. Доклады участников, – Москва: – 25 октября, – 2019, – с.16-19. URL: http://fadn.gov.ru/system/attachments/attaches/000/030/ 869/original/ Sbornik_verstka_ 4.pdf?1572952932
4. Аулина, М.В. Языковые предпочтения номинаторов в эргонимии г.Баку (современный период): [Электронный ресурс] // Современные исследования социальных проблем, – 2015. №6 (50). URL: https://cyberleninka.ru/article/n/yazykovye-predpochteniya-nominatorov-v-ergonimii-g-baku-sovremennyy-period
5. Бутакова, Е.С. Эргонимы иноязычного происхождения в коммуникативном пространстве города: [Электронный ресурс]: / Автореферат дисс. … кандидата филологических наук / – Томск, 2013. – 27 с. URL: http://imja.name/novostionomastiki/avtoreferaty-po-onomastike-1.shtml
6. Cəfərov, S. Müasir Azərbaycan dili. Leksika: [4 hissəli] / S.Cəfərov. – Bakı: Şərq-Qərb, – h.4. – 2007. – 192 s.
7. Доржиева, Г.С. Функции эргонимов в туристической индустрии Республики Бурятия: [Электронный ресурс] / Г.С.Доржиева, А.О.Ткачева // Вестник СВФУ, –2020. № 3 (77), – с.60-73. URL: https://cyberleninka.ru/article/n/funktsii-ergonimov-v-turisticheskoy-industrii-respubliki-buryatiya
8. Həbibli, R. Erqonimlərin yaranma və işlənmə xüsusiyyətləri // “Azərbaycanşünaslığın aktual problemləri”. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş V Beynəlxalq elmi konfransın materialları, – Bakı: – 5-7 may, – 2014, – s.257-259
9. Həbibli, R. Tətbiqi onomastika məsələləri / R.Həbibli. – Bakı: “MSV Nəşr”, – 2018. – 224 s.
10. https://az.wikipedia.org/wiki/Pab
11. Крыкова, И. В. Англоязычные эргонимы и словесные товарные знаки Японии как опосредованное отражение национальной культуры: [Электронный ресурс]: /Автореферат дисс. … кандидата филологических наук / – Владивосток, 2004. – 28 с. URL: https://static.freereferats.ru/_avtoreferats/01002740839.pdf
12. Крысин, Л.П. Русское слово, свое и чужое: Исследования по современному русскому языку и социолингвистике / Л.П.Крысин. – Москва: Языки славянской культуры, –2004. – 884 с.
13. Горбаневский, М.В. Лексико-семантический и словообразовательный анализ русской ойконимии (междуречья Оки, Москвы и Нары) / М.В.Горбаневский. – Москва: Квадрат, – 2005. – 178 с.

14. Qurbanov, A. Azərbaycan onomalogiyasının əsasları: [2 cilddə]: [Elektron resurs] / A.Qurbanov. – Bakı: – c. 2. – 2019. – 432 s. URL: http://www.afadqurbanov.az/books/5.%20Az.Onomalogiyasinin%20Esaslari%20II.pdf
15. Гусейнова, Н.А. Современная российская эргонимия в аспекте иноязычных заимствований: [Электронный ресурс]: / Дисс. ... кандидата филологических наук/ – Москва, 2014. – 253 с. URL: https://mgimo.ru/library/publications/sovremennaya_rossiyskaya_ergonimiya_v_aspekte_inoyazychnykh_zaimstvovaniy_dissertatsiya/
16. Ласица, Л.А. Языковые и структурные особенности иноязычных эргонимов города Оренбурга // Вестник Оренбургского государственного университета, – 2015. № 11 (186), – с.95-100
17. Подольская, Н.В. Словарь русской ономастической терминологии / Н.В.Подольская. – 2-е изд. – Москва: Наука, 1988. – 192 с.
18. Вермишова, П.И. Современные эргонимы как отражение унификации языкового пространства российских городов: [Электронный ресурс] // «Язык и культура региона как составляющие образовательного пространства». Материалы II Международной научно-практической конференции, – Белгород: – 18-20 мая, – 2017, – с.103-107. URL: https://scholar.google.ru/citations?user=v42XAB0AAAAJ&hl=ru

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: akademik Nizami Cəfərov
tərəfindən çapa tövsiyə olunmuşdur

:

AXUNDOVA NƏRMİN CAHANDAR QIZI
AMEA Nəsimi adına Dilçilik İnstitutu
narminaxundova88@mail.ru
UOT. 81.512.162

ÜSLUBİ NEOLOGİZMLƏRİN LİNQVİSTİK SƏCİYYƏSİ

Xülasə

Məqalədə üslubi neologizmlərin linqvistik aspektlərindən bəhs olunur.Adi neologizmlərdən fərqli olaraq üslubi neologizmlər linqvistik poetika problemi ilə sıx bağlıdır. Üslubi neologizmlər problemi, ilk növbədə, bədii dilin nəzəri konsepsiyaları ilə izah edilməlidir. Qeyd edək ki, üslubi neologizmlər nəsr dili ilə müqayisədə poeziya dilində daha çox yaradılır. Bu da səbəbsiz deyil, çünki nəzm dili nəsr dilinə nisbətdə kreativliyə daha çox meyillidir. Üslubi neologizmlər bəzən fərdi - üslubi neologizmlər də adlandırılır. Üslubi neologizmlərin öyrənilməsi yazıçı və dil, dilin estetikası, dilin poetik funksiyaları məsələlərinə də aydınlıq gətirir. Dil və zaman, dil və ədəbiyyat, yazıçı və zaman problemlərinin öyrənilməsi zamanı da üslubi neologizmlər önəmli dil faktları kimi aktuallıq kəsb edir.

Digər tərəfdən, üslubi neologizmlər problemi poetik dilin nəzəri əsasları məsələsinə də aydınlıq gətirir.

Araşdırmada üslubi neologizmlərin poetik funksiyası müəyyənləşdirilir, onların leksik-semantik aspektlərindən danışılır. Məqalədə qeyd olunur ki, neologizmlər hər bir dilin həm daxili ehtiyatları hesabına yaranır, həm də hər bir dil başqa dildən söz alaraq zənginləşir, söz ehtiyatını artırır. Bədii dilin linqvopoetik funksiyasının formalaşmasında üslubi neologizmlər mühüm əhəmiyyət kəsb edir.Üslubi neologizmlər dilin leksik kateqoriyası kimi özünəməxsus linqvistik xüsusiyyətlərə malik olub fərdi-bədii söz yaradıcılığı faktı kimi yaranan dil vahidləridir. Bu dil vahidləri bədii üslubun və bütövlükdə, ədəbi dilin zənginləşməsində mühüm rol oynayır. Üslubi neologizmlərin bir hissəsi sonradan dildə vətəndaşlıq hüququ qazanaraq ümumişlək dil vahidinə çevrilir. Bir qismi isə arxaikləşir, dilin passiv leksik fonduna daxil olur. Beləliklə, üslubi neologizmlər haqqında deyilən fikirləri ümumiləşdirərək bu nəticəyə gəlirik ki, bu tipli sözlər bədii üslubda ekspressivliyin artmasına təsir edir, yazıçı dilinin fərdiləşməsində mühüm rol oynayır.

Açar sözlər: üslubi, neologizm, dilçilik, aspekt, funksiya, bədii dil

Neologizmlərin yaranması hər bir dilin leksik-semantik sistemində müşahidə olunan səciyyəvi prosesdir. Neologizmlər hər bir dilin həm daxili ehtiyatları hesabına yaranır. Həm də hər bir dil başqa dildən söz alaraq zənginləşir, söz ehtiyatını artırır. Neologizmlərin yaranması həm etnolinqvistik, həm də ekstralinqvistik hadisədir. Adi neologizmlərdən fərqli olaraq üslubi neologizmlər linqvistik poetika problemi ilə sıx bağlıdır. Üslubi neologizmlər problemi, ilk növbədə, bədii dilin nəzəri konsepsiyaları ilə izah edilməlidir.

Üslubi neologizmlərin dildə funksional-praqmatik və struktur-semantik aspektləri vardır. Onlar həm də mətndə okkazional funksiya daşıyırlar. Dünya dilçiliyində Boduen de Kurtenenin, Q.O.Vinokurun, K.Fosslerin, R.Yakobsonun yaradıcılıqlarında fərdi - üslubi söz yaradıcılığı mövzusuna toxunulmuşdur. Bu tipli neologizmlərin həm üslubiyyat baxımından, həm leksikoqrafik baxımdan, həm də semantik baxımdan tədqiqi dilin söz potensialının öyrənilməsi üçün çox əhəmiyyətlidir.

Qeyd edək ki, üslubi neologizmlər nəsr dili ilə müqayisədə poeziya dilində daha çox yaradılır. Bu da səbəbsiz deyil, çünki nəzm dili nəsr dilinə nisbətdə kreativliyə daha çox meyillidir. Üslubi neologizmlər bəzən fərdi - üslubi neologizmlər də adlandırılır.

Dilçilik tarixinə nəzər salsaq, üslubi neologizmlər haqqında müxtəlif fikirlərin irəli sürüldüyünü görərik. Əbdüləzəl Dəmirçizadə neologizmləri iki qrupa ayırır: 1) lisani yeni sözlər; 2) üslubi yeni sözlər (3, s.114).

Hər bir yaradıcı söz sənətkarı bədii ədəbiyyata yeni üslubi çalarlı sözlər gətirir və bədii təxəyyülün nəticəsi kimi dildə gerçəkləşən yeni sözlər milli dilin daxili potensialını gücləndirir. Digər tərəfdən, üslubi neologizmlər milli ədəbi dilin etnomədəni düşüncə tərzinin ifadəsi kimi gerçəkləşir. Məsələn, Süleyman Rəhimovun dilində *yurdçu*, Mikayıl Müşfiq poeziyasında *yataqdaş, qızılgöz, alovgöz, işılğan*, Cəfər Cabbarlının dilində *elbaşılıq*, Səməd Vurğun şeirlərində işlənən *sayrışmaq,* Hüseyn Cavidin dilində *könüldaş,* Rəsul Rzanın şeirlərində işlənən *çimərlik, işıqfor, duyum, dolum,* Cəfər Cabbarlının dilində işlənən *görük*, *öpkü,* Xəlil Rza Ulutürkün şeirlərində işlənən *gölmə* tipli sözlər şair bədii təfəkkürünün məhsulu kimi ortaya çıxmış üslubi neologizmlərdir. Bu tipli sözlər etnolinqvistik mahiyyət daşıyır, dilin lüğət tərkibində işlənmə dərəcəsinə və funksiyasına görə bəzən aktiv, bəzən isə passiv lüğət fonduna daxil olur. Bəzən dilçilikdə dialekt sözlərlə üslubi neologizmlər səhv salınır. Məsələn, Səlim Cəfərov Səməd Vurğun şeirlərində işlənən *sayrışmaq* üslubi neologizmini dialektizm hesab edərək yazır ki, dialektlərdən müasir ədəbi dilə sözlərin gəlmə prosesini izləmək nisbətən asanlıq törədir. Çünki bu və ya digər yazıçının dilində işlənən hər hansı bir yeni söz nəzər diqqətimizi cəlb edir. Aydındır ki, *sayrışan* sözü birinci dəfə Səməd Vurğun tərəfindən işlədilmişdir:

Bakının sayrışan ulduzlarından ,
Çadrasız, boyasız türk qızlarından

Salam gətirmişəm hüzuruna mən...(2, s.10). Halbuki həmin *sayrışmaq* sözü dialektizm deyil, indiyədək heç bir dialektoloji lüğətdə qeydə alınmamışdır.

Üslubi neologizmlərin leksik-semantik aspektlərinin nəzəri dilçilik kontekstindən öyrənilməsinin bir çox linqvistik özəllikləri var. Belə ki, bu problemin öyrənilməsi üslubi neologizmlərlə bağlı üslubiyyat məsələlərini gündəmə gətirir. Üslubiyyatın nəzəri aspektlərinin sistemləşdirilməsi, dilin daxili potensialı hesabına zənginləşmə meyillərinin tədqiq edilməsi, üslubi neologizmlərin leksik-semantik səciyyəsinin verilməsi, bədii üslubun poetik imkanlarının öyrənilməsi, bədii dilin semiotik və etnokulturoloji mahiyyətinin açıqlanması, ümumilikdə, dilin inersiyasının və dilin söz potensialının üzə çıxarılması məsələsinə aydınlıq gətirmiş olur. Bu baxımdan bu mövzunun nəzəri dilçilik istiqamətində öyrənilməsi aktuallıq təşkil edir. Üslubi neologizmlər etnolinqvistik və entkulturoloji baxımdan da əhəmiyyətli dil faktlarıdır. Üslubi neologizmlərin öyrənilməsi yazıçı və dil, dilin estetikası, dilin poetik funksiyaları məsələlərinə də aydınlıq gətirir. Dil və zaman, dil və ədəbiyyat, yazıçı və zaman problemlərinin öyrənilməsi zamanı da üslubi neologizmlər önəmli dil faktları kimi aktuallıq kəsb edir.

Digər tərəfdən, üslubi neologizmlər problemi poetik dilin nəzəri əsasları məsələsinə də aydınlıq gətirir. Dünya nəzəri dilçiliyində poetik dilin bədii-fəlsəfi konseptləri haqqında fundamental fikirlər mövcuddur. Rus dilçisi, akademik V.V.Vinoqradov dəfələrlə qeyd etmişdir ki, yazıçı bu və ya digər bədii məqsədlə dildə mövcud olan qaydalardan müəyyən qədər uzaqlaşarkən onun yaratdığı söz estetik cəhətdən özünü doğrultmalıdır. Əgər yazıçı bu və ya digər hadisəni ifadəli şəkildə təsvir etməyə lazımı sözlər tapa bilmirsə, o, mütləq yeni üslubi neologizm yaradır (1, s.103). Deməli üslubi neologizm çox zaman bədii nitq ehtiyacından yaranır. Ona görə də bəzi ədəbiyyatlarda üslubi neologizmləri okkozianal sözlər kimi səciyyələndirirlər.

Rus dilçisi D.N.Şmelev "Müasir rus dili. Leksika" adlı əsərində yazır ki, üslubi neologizmlər nitq faktı kimi mətndə daha çox ekspressiv-semantik funksiya daşıyırlar və adətən mətndən kənara çıxmırlar (16, s.157). Deməli, D.N.Şmelevin görüşlərinə görə, üslubi neologizmlər daha çox kontekstual anlam daşıyır. O qeyd edir ki, linqvistik planda isə onlar mətnin linqvo-stilistik analizində dilin sözyaratma imkanlarını öyrənmək baxımından, sözyaratma modellərinin məhsuldar və ya qeyri-məhsuldar olduğunu öyrənmək baxımından əhəmiyyətli dil faktlarıdır (16 ,s.157-158).

Əbdüləzəl Dəmirçizadə "Azərbaycan dilinin üslubiyyatı" adlı əsərində qeyd edir ki, üslubi qrupdan olan yeni sözlər xüsusi və ya fərdi mahiyyətli sözlərdən sayılır və bunların bir qismi sonradan ümumiləşsə də, bir qismi məhdud söz olaraq da qalır. Belə fərdi yeni sözlər daha çox bədii ədəbiyyatda ekspressivlik üçün və ya başqa poetik məqsədlə düzəldilir (3 , s.119).

Türkan Əfəndiyeva "Azərbaycan dilinin leksik üslubiyyatı" əsərində qeyd edir ki, bədii yaradıclıq ümumxalq dilində olan sözlərlə kifayətlənmir. Yazıçı fikrini

daha obrazlı və daha təsirli şəkildə ifadə etmək üçün, əsərin satirik-ironik tonunu qüvvətləndirmək, istehza, yumor kimi çalarlar yaratmaq, komik situasiyalara xüsusi ekspressiya ilə təsvir etmək, tənqidedici və ifşaedici motivi gücləndirmək və s. bu kimi üslubi məqsədlərlə əlaqədar olaraq yeni sözlər və ifadələr düzəltməli olur. Üslubi tələbatla bağlı əmələ gələn bu cür yeni sözlər və tərkiblər dilçilikdə üslubi neologizmlər adlanır. Üslubi neologizmlər fərdi xarakter daşıyır və yazıçının işlətdiyi məcazlarla birlikdə onun üslubunu səciyyələndirir (5, s.215).

Türkan Əfəndiyeva üslubi neologizmlərlə adi neologizmləri belə fərqləndirir:

1) Ümumdil neologizmlərinin yaranması yeni əşyaya, anlayışa, ad vermək zərurətindən doğur, fərdi-üslubi neologizmlər isə bədii təsvir vasitəsi kimi meydana çıxır.

2) Ümumdil neologizmləri nominativ funksiyada, yazıçının yaratdığı neologizmlər isə üslubi məqsədlə işlənir. Bunlar oxucuya estetik təsir göstərdiyinə görə emosional – ekspressiv funksiya daşıyır.

3) Ümumdil və yazıçının yaratdığı neologizmlər bir-birindən fərqli mövqeyə malikdir. Əgər birinci qrup (yəni ümumdil) neologizmlər tədricən ümumxalq dilinin lüğət tərkibinə keçirsə, yazıçının yaratdığı fərdi neologizmlər bədii üslubda işlənməklə məhdudlaşır, müəyyən bir sənətkarın fərdi üslubunun leksik vahidi kimi qalır.

4) Ümumdil neologizmi tədricən sabitləşib, öz yenilik xüsusiyyətini itirir, üslubi neologizm isə heç bir vaxt köhnəlmir. Zamanla əlaqədar olmayaraq üslubi neologizm bədii təsvir vasitəsi kimi həmişə yenidir, emosional-ekspressivdir (5, s.216).

Türkan Əfəndiyevanın bir fikri ilə razılaşmırıq ki, guya üslubi neologizmlər bəzən məhdud şəkildə qalır. Çünki onların bir qismi bədii dildə işlənir, işləndikcə öz işlənmə diapozonunu, işlənmə arealını genişləndirir və ədəbi dildə sabitləşir. Yəni üslubi neologizmlərə yalnız məhdud dairədə baxmaq düzgün deyil. Qeyd edək ki, bədii üslubun xüsusi cəhətlərindən də biri odur ki, burada fərdi yaradıcılıq, fərdi üslubun inkişafı üçün geniş imkanlar var. Məhz buna görə də bədii dildə fərqi söz yaradıcılığı hər zaman müşahidə olunur. Üslubi neologizmlərin yaranma xüsusiyyətlərinə nəzər salsaq, görərik ki, bədii üslubda yazan sənətkarlarda fərdi söz yaradacılığına meyil digər üslublardakına nisbətən daha çoxdur.

Türkan Əfəndiyevanın fikrincə, üslubi neologizmlər əsərin məzmununu emosional və ifadəli açılışına xidmət etməlidir. Yazıçı həmin neologizmləri yaradarkən dildə mövcud olan sözdüzəltmə qaydalarını, ənənələri gözləməlidir. Əgər yazıçı neologizmi süni yolla və müəyyən bədii məqsəd güdmədən yaradırsa, həmin neologizm təcrübədə özünü doğrultmur, oxucuya yaxşı təsir bağışlamır (1, s.104)

Digər tərəfdən, üslubi neologizmlərin yaranmasına söz yaradıcılığının bir qolu kimi baxmaq daha düzgündür. Bədii dildə söz potensialının güclənməsi üçün hər cür imkan var. Yazıçı həm ümumişlək sözlərdən istifadə edə bilər, həm arxaik və dialekt sözlərdən istifadə edə bilər, həm də dildə işlənən sözlərə yeni məna çaları verərək onu yeni mənada işlədə bilər. Məsələn Qəzənfər Kazımov bədii dildə komizm ünsürləri yaratmaq üçün Mir Cəlalın yaradıcılığına müraciət edərək yazıçının məhz

mətn daxilində sözlərə yeni çalar verməsini xüsusi qeyd edir: “Mir Cəlal *oturmaq, doğmaq, xortdamaq, sancı* kimi ümumişlək, *bizləmək* kimi şivə çalarlı sözəri də, həmin sözlərin ümumxalq dilindəki potensial imkanları hesabına komik yükün xüsusi daşıyıcı vasitələrinə çevirə bilmişdir. Bunlar ümumi mətndən ayrılıqda və kənara çıxarıldıqda komik effekti zəiflətsələr də, mətn daxilində başqa komizm vasitələri ilə birlikdə fikrin komik ifadəsinə xidmət edir. Misallara diqqət yetirək:"Orada oturan biz deyilikmi?" "Bir yük kömür bazara aparınca iki dəfə doğursan", "Bir kişinin ki başına elə oyun açıla, əlbəttə, xortdayar!.. Mən də olsam, xortdaram. Hələ harasıdır, qoy bir iş sahibi gəlsin... Hər qarış torpaqdan bir igid qalxacaq, "xortdayacaq". "Başqa vaxt Qıssa belə bir təklifi bəlkə qəbul edərdi, lakin indi Bəbir bəyin "sancı"sını yaxşı bilirdi". "Bəy yavaşca dəsmalı götürdü... Bekarı bizlədi” (7, s.71). Alim qeyd edir ki, Mir Cəlal adi ümumişlək sözlərin semantikasını məcazilik, çoxmənalılıq yolu ilə ustalıqla komik plana uyğunlaşdıra bilmiş və ümumişlək sözlərin çoxmənalılığından uğurla faydalanmışdır (7 ,s.70).

Azərbaycan ədəbiyyatında ən çox Rəsul Rza və Mikayıl Müşfiqin yaradıcılığında üslubi neologizmlər işlənmişdir. Görünür, sərbəst üslubun yaratdığı geniş imkanlar bu şairlərə Azərbaycan dilinin imkanlarını lazımınca qiymətləndirmək şansı vermişdir. Məsələn, Mikayıl Müşfiq “Yağış yağarkən” şeirində *döngə* əvəzinə *dönmə* sözü işlədir. Eyni zamanda şair türk dilindən gəlmə “səki, döşəmə” anlamında olan *qaldırım* sözündən istifadə edir.

Görkəmli Azərbaycan şairi Rəsul Rza *duy-* feilindən *duyum*, *duyumsuz* sifətini yaratmış və poetik örnəklərində bu sözdən geniş şəkildə istifadə etmişdir:

Doyumsuz gözlər,
duyumsuz ürəklər.
Bağlı qollar,
ağır yüklü kürəklər (10, c.1, s.40)

Şairin “Ani duyum”, “Uğursuz duyum” adlı şeirləri vardır. “*Ani duyum*” şeirində yazır:

Hərdən mənə elə gəlir ki,
ulduzlar göyün yaxasında sədəf düymələrdir.
Bu düymələri açsan
Başqa bir aləm görəcəksən.
Orda nə toz var, nə duman.
Nə ölüm, nə qan.
Orda yaşayır
Zamanın süzgəcindən keçmiş İnsan...
Döşənirəm torpağa üzü üstə.
Bağışla məni, böyük ana, bağışla!
Könlünə dəydim bu yanlışla (10, c.1, s.161).

Ümumiyyətlə, Rəsul Rza yüzlərlə yeni söz yaratmış və həmin sözləri öz şeirlərində işlətmişdir. Müasir Azərbaycan dilində ümumişlək olan sözlərin bir qismi Rəsul Rza poetik düşüncəsinin məhsulu kimi ortaya çıxmışdır.

Poetik dildə ifadə olunan fikir dilin estetik çalarlarını ifadə edir. Məsələn, Rəsul Rza "Dinmədik" adlı şeirində *qəm yükü* poetizmi işlədir:

Sən bilmədin,
Mən bilmədim.
Soruşma ki, kim bildi, kim!
Bəlkə bilsən,
Bəlkə bilsəm,
Neyləyərdik?
Qəm yükümüz *azalardı*
Bilsə idik?
Demirəm ki,
Nigaranlıq yox olardı
Qəm yükümüz *az olardı* (10, c.1, s.35).

Bədii dilin əsasını təşkil edən poetik fiqurlar, bədii ifadə vasitələri dilə canlılıq, təsirlilik gətirir. Yazar söz sənətinin incəliklərindən və sözə sahiblik bacarığından istifadə edərək dilin söz potensialını gücləndirir.

Rəsul Rza "İnsan şəkli" *indiki zaman* əvəzinə *dövranın indisi* ifadəsini işlədir:

Orda bir insan şəkli asacağam,
görünsün dünyanın hər yerindən;
zamanın keçmişindən,
dövranın indisindən,
əsrin gələcəyindən (10, c.1, s.36).

Mikayıl Müşfiqin işlətdiyi yeni üslubi sözlərdən biri *qızılgöz* sözüdür:

Min at gücü varkən canımızda,
Can yox nə üçün fantanımızda?
Minlərcə nöyüt haləsi parlar
Hər damla qızılgöz qanımızda.

Ümumiyyətlə, üslubi neologizmlər leksik, morfoloji və sintaktik səviyyədə yaranır. Ədib tərəfindən yaradılan neologizmlər həm semantik, həm də üslubi cəhətdən fərqlənir. Bu tipli neologizmləri bəzən dilçilikdə fərdi-müəllif neologizmləri də adlandırırlar. Onların bədii mətndə əsas funksiyalarından biri məhz ekspressivliyi gücləndirməkdir.

Bəzən üslubi neologizmlər çox məhdud dairədə işləndiyindən yalnız hər hansı bir ədibin əsərlərində mövcudluğunu qoruya bilər. Ancaq elə üslubi neologizmlər də var ki, onlar daha geniş miqyasda qəbul olunur və ümumişləklik qazanır. Bu məsələ ilə bağlı görkəmli Azərbaycan dilçisi Əbdüləzəl Dəmirçizadə yazır ki, C.Cabbarlının vaxtilə yeni söz kimi işlətmiş olduğu *görük, öpkü* sözlərinin ümumiləşməməsinin, məhdud üslubi söz kimi qalmasının səbəbi budur ki, bu sözlərin yaradılması zəruri

mənalılığın üslubi çalarlıqda ifadə edilməsi ilə yox, ancaq üslubi ekspressivliklə əlaqədardır. Axı *pəncərə* sözünü hamı bilir və işlədir, bu sözü *gör* kökünə *-ük* şəkilçisi bitişdirməklə düzəldilən *görük* sözü ilə əvəz etmək üçün zərurət yoxdur. Beləcə də, *öpüş* sözü varkən, *öpkü* sözünü işlətmək üçün heç bir üslubi çalarlıq zərurəti yoxdur. Bu sözlər də ancaq qəribə üslubi ekspressivlik üçün işlədilmişdir və buna görə də məhdud, fərdi, yeni söz olaraq qalmışdır (3, s.120).

A.Məhərrəmov yazır ki, poeziyada yeni söz yaradıcılığı neologizmi güclü poetik nitq faktına çevirir. Yeni söz düşdüyü nitq mühitində obrazlı qavrayışı gücləndirir. Üslubi əməliyyatın uğurlu nəticəsi kimi meydana çıxan neologizmlər dilimizin qrammatik-struktur qəliblərində yaranan sözlərə şeir dilinin lüğət materialı hüququnu qazandırır. Konkret bədii situasiyalarda müəyyən məfhumu ifadə etmək üçün ümumxalq dilində münasib kəlmənin yoxluğu hiss ediləndə, təsvir obyektinə orijinal şair münasibətini bildirmək məqamlarında, mənanı xüsusi üslubi incəliklə demək zərurəti duyulanda okkazionalizmlərə müraciət olunur. Belə sözlərin əmələ gəlməsinin əsasında alınma sözlərin doğma dilə məxsus ekvivalentini yaratmaq niyyəti də dayanır (8, s.49). A.Məhərrəmovun düzgün olaraq qeyd etdiyi kimi, bu tipli sözlər bəzən yazıçı və şair dilində milli koloriti yaratmaq üçün, dilin milli potensialını qorumaq üçün də istifadə edilir. Çünki bu tipli sözlər adətən, frazeologizmlər kimi başqa dilə hərfən tərcümə olunmur və ya oluna bilmir. Beləliklə, bədii dildə dilin milliliyi qorunur, dilin etnopsixoloji tələbatı ödənir. Digər tərəfdən, bu tipli yeni sözlər milli dilin özünəməxsusluğunu gücləndirir, ekzotizmi qüvvətləndirir.

Qeyd edək ki, fərdi söz yaradıcılığının məhsulu olan üslubi neologizmlər bədii mətndə morfemlər arasında paradiqmatik və sintaqmatik əlaqələrin genişlənməsində böyük rol oynayır. Bəzən okkazionalizm kimi dilə gətirilən üslubi neologizm uğurlu alınmır və ümumişləklik qazanmır. Məsələn, Səlim Cəfərov "Azərbaycan dilində söz yaradıcılığı" əsərində qeyd edir ki, təsadüfi yolla düzələn sözlər, dilin lüğət tərkibində eybəcər bir şəkil alır və uzun müddət yaşaya bilmir. Vaxtilə dilimizə gətirilmiş və tez də dildən çıxmış olan *bizimləşən* sözü belə sözlərdəndir. Bu sözün kökü 1-ci şəxs əvəzliyinin cəmini ifadə edir, *-im* yiyəlik hal şəkilçisi olub, *-ləş* şəkilçisi isimdən feil düzəldən , *-ən* şəkilçisi də feili sifət əmələ gətirən şəkilçilərdəndir. Deməli, bunlardan birincisi qrammatik, ikincisi və üçüncüsü qrammatik-leksik şəkilçilərdəndir. Məlumdur ki, dilimizdə mən əvəzliyindən başqa əvəzliklərdən feil düzəldilmədiyi kimi, qrammatik şəkilçilərdən sonra qrammatik –leksik şəkilçilər də əlavə edilə bilməz. Məhz buna görə də, bu söz dilimizdə özünə zəmin tapa bilməmişdir (2, s.61). Ancaq biz Səlim Cəfərovun bu fikirləri ilə razılaşmırıq. Məlumdur ki, dildə istisnalar var. Bəzən üslubi neologizmlərdə müşahidə olan qeyri-ənənəvi qrammatik formalar, əslində, bədii dilin estetik tələblərini ödəyir, fərdi üslubun seçilməsinə, fərqlənməsinə yardım edir.

Beləliklə, üslubi neologizmlər haqqında deyilən fikirləri ümumiləşdirərək bu nəticəyə gəlirik ki, bu tipli sözlər bədii üslubda ekspressivliyin artmasına təsir edir, yazıçı dilinin fərdiləşməsində mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan bədii dilinin üslubiyyatı. Oçerklər. (Redaktorlar: A.M.Şirəliyev, Z.İ.Budaqova). – Bakı: Elm, –1970. – 357 s.
2. Cəfərov, S. Azərbaycan dilində söz yaradıcılığı. – Bakı: ADU nəşri, –1960. – 201 s.
3. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı. – Bakı: Azərtədrisnəşr, – 1962. – 270 s.
4. Əfəndiyeva, T.Ə. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. – Bakı: Elm, –2001. – 183 s.
5. Əfəndiyeva, T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. – Bakı: Elm və təhsil, – 2011.
6. Kazımov, Q.Ş. Yazıçı və dil. – Bakı: APİ-nin nəşri, – 1975. – 228 s.
7. Kazımov, Q. Seçilmiş əsərləri. 10 cilddə. C.2. – Bakı: 2008.
8. Məhərrəmov A. Azərbaycan poeziyasında dil və üslub problemləri. / Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Bakı: 2013. – 58 s.
9. Müşfiq, M. Seçilmiş əsərləri. – Bakı: Şərq-Qərb, – 2004. – 352 s
10. Rza, R. Seçilmiş əsərləri. 5 cilddə. – Bakı: Öndər, – c.1, – 2005, – 303 s.
11. Rza, R. Seçilmiş əsərləri. 5 cilddə. – Bakı: Öndər, – c.5, – 2005, – 303 s.
12. Арнольд, И.В. Стилистика современного английского языка: (Стилистика декодирования): Учебное пособие. – М.: Просвещение, –1990. – 300с.
13. Бакина, М. А. Словотворчество / Языковые процессы современной русской художественной литературы (Поэзия). – Москва, Наука, – 1977 // http://cheloveknauka.com/v/53803/d?#?page=1
14. Будагов, Р. Писатели о языке и язык писателей. – Москва. Изд-во МГУ, – 1984.
15. Ефимова, А.И. Стилистика художественной речи. – Москва, – Русский Твердый переплет, – 1957. – 448 с
16. Шмелев, Д.Н. Современный русский язык. Лексика. – Москва. Просвещение. – 1977. – 335 с.

РЕЗЮМЕ

ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ СТИЛИСТИЧЕСКИХ НЕОЛОГИЗМОВ

В статье рассматриваются лингвистические аспекты стилистических неологизмов. В отличие от обычных неологизмов стилистические неологизмы тесно связаны с проблемой лингвистической поэтики. Проблема стилистических неологизмов должна объясняться, прежде всего, теоретическими концепциями литературного языка. Следует отметить, что

стилистические неологизмы создаются больше на языке поэзии, чем на языке прозы. Это потому что, язык поэзии более склонен к творчеству, чем язык прозы. Стилистические неологизмы иногда называют индивидуально-стилистическими неологизмами. Изучение стилистических неологизмов также проясняет проблемы писателя и языка, эстетики языка, поэтических функций языка. Стилистические неологизмы также являются важными лингвистическими фактами при изучении языка и времени, языка и литературы, писателей и проблем времени. С другой стороны, проблема стилистических неологизмов также проясняет теоретические основы поэтического языка.

В исследовании определяется поэтическая функция стилистических неологизмов, обсуждаются их лексико-семантические аспекты. В статье отмечается, что неологизмы создаются как за счет внутренних ресурсов каждого языка, так и каждый язык обогащается за счет заимствования слов из другого языка, увеличивая словарный запас. Стилистические неологизмы играют важную роль в формировании лингвопоэтической функции литературного языка. Стилистические неологизмы - это языковые единицы, которые имеют свои языковые особенности как лексическая категория языка и проявляются как факт индивидуально-художественного словотворчества. Эти языковые единицы играют важную роль в обогащении художественного стиля и литературного языка в целом. Некоторые стилистические неологизмы впоследствии приобретают право гражданства в языке и становятся общеязыковой единицей, а другие становятся отсталыми и входят в пассивный лексический фонд языка. Таким образом, обобщая взгляды на стилистические неологизмы, мы делаем вывод, что такие слова влияют на повышение выразительности художественного стиля, играют важную роль в индивидуализации языка писателя.

Ключевые слова: стиль, неологизм, лингвистика, аспект, функция, литературный язык

LINGUISTIC FEATURES OF STYLISTIC NEOLOGISMS

SUMMARY

The article deals with the linguistic aspects of stylistic neologisms. Unlike ordinary neologisms, stylistic neologisms are closely related to the problem of linguistic poetics. The problem of stylistic neologisms should be explained, first of all, by the theoretical concepts of the literary language. It should be noted that stylistic neologisms are created more in the language of poetry than in the language of prose. This is because, the language of poetry is more inclined towards creativity than the language of prose. Stylistic neologisms are sometimes called individual stylistic neologisms. The study of stylistic neologisms also clarifies the problems of

the writer and language, the aesthetics of language, the poetic functions of language. Stylistic neologisms are also important linguistic facts in the study of language and time, language and literature, writers and problems of time. On the other hand, the problem of stylistic neologisms also clarifies the theoretical foundations of poetic language.

The study determines the poetic function of stylistic neologisms, discusses their lexical and semantic aspects. It is noted that neologisms are created both at the expense of the internal resources of each language, and each language is enriched by borrowing words from another language, increasing the vocabulary. Stylistic neologisms play an important role in the formation of the linguo-poetic function of the literary language. Stylistic neologisms are linguistic units that have their own linguistic characteristics as a lexical category of the language and are manifested as a fact of individual artistic word creation. These linguistic units play an important role in enriching the artistic style and literary language in general. Some stylistic neologisms subsequently acquire the right of citizenship in the language and become a general linguistic unit, while others become backward and enter the passive lexical fund of the language.

Thus, summarizing the views on stylistic neologisms, we conclude that such words affect the increase in the expressiveness of the artistic style, play an important role in the individualization of the writer's language.

Key words: style, neologism, linguistics, aspect, function, literary language

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filoloigiya üzrə fəlsəfə dokroru , dosent Gunay Rəfibəyli tərəfindən çapa tövsiyə olunmuşdur

САБИНА НУРАЛИЕВА
Азербайджанский Университет Языков
Баку, ул. Рашида Бейбутова 60
sabina.bagiyeva.sb@gmail.com

ЯЗЫКОВЫЕ СРЕДСТВА ВЫРАЖЕНИЯ ОЦЕНКИ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ (НА ОСНОВЕ ВЫСТУПЛЕНИЙ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА)

Резюме

Оценка является всеобъемлющей лингвистической категорией. В оценке выражаются всеобщие законы человеческого мышления. Тем не менее, в основание оценки могут быть положены различные критерии. Они излагают сложности, которые возникают при толковании средств выражения оценки. Процесс понимания политического дискурса начинается с расшифровки и понимания слов и предложений. Дискурс – это, прежде всего, текст, погруженный в ситуацию коммуникации, или, наоборот, коммуникацию через текст. Существует большое разнообразие тактик и языковых средств осуществления стратегий в политическом дискурсе. Их выбор зависит от многих неязыковых факторов, таких, как целевая аудитория, ситуационный, социокультурный и прагматический контекст.

Оценка в политическом тексте прежде всего служит эффективным средством выражения личной позиции автора. Оценка также привлекает и удерживает внимание, насыщает текст выразительными образами, влияет на ассоциативное мышление, превращаясь в один из инструментов влияния.

Не существует четко определенного списка лингвистических средств оценки, которые можно было бы найти в одном корпусе с помощью компьютера. Список лексико-грамматических средств, которые можно использовать для оценки, бесконечен. Было бы бесполезно брать список возможных оценщиков в качестве отправной точки и проверять, какие из них встречаются в корпусе, поскольку это обеспечит лишь ограниченную перспективу об оценке, присутствующей в этом корпусе.

Оценка в политическом дискурсе демонстрирует способность к реализации с помощью разноуровневых языковых и речевых средств. Лексико-грамматическими классами слов, участвующих в выражении оценки в текстах политического дискурса, являются прилагательные. Кроме лексических средств, категорию оценки можно выразить с помощью стилистических и синтаксических средств.

Использование оценочной лексики в определенном политическом дискурсе раскрывает перед говорящим широкие возможности: говорить завуалировано, избегать прямых номинаций и острых углов, или, наоборот, создавать острую политическую конфронтацию, дискредитировать политического оппонента, критиковать события и факты. Функционально-семантическая область оценки осуществляет ценностное расположение адресанта и направляет оценочное понимание адресата (слушателя-читателя) на основе выбора языковых средств с целью повышения эффекта влияния общения в политическом дискурсе. Оценочная лексика в любом языке представляет собой большой семантический разряд слов.

Ключевые слова: оценка, языковые средства, семантика, аффективность, интенсификация, аксиологические предикаты.

Оценка является основным элементом нашей жизни: как средство интерпретации мира и предложения данной оценки другим, она проникает в человеческое поведение. Когда мы взаимодействуем с окружающим миром, мы воспринимаем, классифицируем и оцениваем то, с чем сталкиваемся. Следовательно, оценка чрезвычайно важна в реальном политическом дискурсе, так как политическим деятелям трудно, если не невозможно (и, возможно, даже нежелательно) говорить полностью «объективным» голосом, не навязывать оценки своим высказываниям и не высказывать оценочные суждения.

В политическом дискурсе оценка как ценностная сторона семантики может быть выражена эксплицитно или имплицитно различными средствами и быть сигналом оценочной информации. Прагматический эффект сообщения и воздействия обеспечивается оценочной информацией. Согласно нормам дискурсивных практик, которые допускают как импликацию, так и экспликацию значения, оценочный концепт может получить чисто оценочное, оценочно-дескриптивное или чисто дескриптивное, внешне неоценимое выражение, однако он всегда остается устойчивым, обязательным компонентом когнитивной модели текста, обусловленной необходимостью формирования оценочной позиции аудитории.

Например, в своем обращении по случаю начала нового учебного года и Дня знаний 15 сентября 2020 года, президент АР Ильхам Алиев отмечает о ценностях, которые являются важными для каждого человека:

Eyni zamanda, *onu da xüsusi qeyd etməliyəm ki*, *bizim gənclərimiz*, *uşaqlarımız vətənpərvərlik ruhunda*, *milli ruhda*, *milli* ***dəyərlər*** *– ənənəvi Azərbaycan* ***dəyərləri*** *əsasında tərbiyə almalıdırlar. Burada*, *əlbəttə ki*, *ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda*, *bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda*, *ənənəvi* ***dəyərlər*** *ruhunda tərbiyə etməlidirlər* [6].

Эксплицитная номинация концепта лексической единицей *dəyərlər*, которая повторяется три раза, служит повышению эмоционального напряжения выступления. Кроме того, эмоциональность усиливается и за счет использования лексем, которые содержат сему положительной оценки: *vətənpərvərlik ruhu*, *milli ruh*. В их состав входит эмоционально-интеллектуальный компонент, который сформирован на гармонии рационально-оценочных суждений и эмоций.

В соответствии с концепцией А.Н. Вольф, оценка иногда лимитируется элементами меньше одного слово, но она также может охватывать группу слов или целостное высказывание [3, с. 6].

Согласно исследователям, прилагательные представляют собой один из главных слоев словарного запаса, предназначенных для обозначения оценки [3, с. 6]. Надо также иметь ввиду, что в морфологическом аспекте прилагательные наиболее подвержены получению значения оценки, что обусловлено с их атрибутивной сущностью (категориальная) [5, с. 34]. Об основной роли прилагательных для обозначения оценки свидетельствует и то, что в рамках политического дискурса к функции выражения признака часто подключается функция оценки качества, которая выражается прилагательным.

А.Н. Вольф считает, что соединение эмотивного (оценочного) и дескриптивного содержания в значениях слов наиболее очевидно выделяется в системе прилагательных, для которых важной считается семантика признака. Между прилагательными исследователь рекомендует выделять собственно оценочные и дескриптивные слова. Собственно оценочные слова называют только оценку со значением «хорошо» или «плохо» с той или иной степенью аффективности и интенсификации: например, хороший, лучший, потрясающий, великолепный, плохой, негодный, ужасный [3, с. 29]. Дескриптивные слова не включают в себя никакой оценки (например, *медный*, *португальский*, *утренний*) и содержат в себе большое количество относительных прилагательных.

Степень аффективности интесификаторов и других подобных единиц неодинакова, они расположены, как и все элементы, относящиеся к оценочной структуре, по шкале убывания / нарастания. Политические деятели часто употребляют слова, которые содержат аффективность в своем значении («крайний», «необъятный», «необычный», «невероятный», «ужасный», «потрясающий», «замечательный», «ошеломляющий»). Например, президент Азербайджанской Республики Ильхам Алиев, в своей речи, сделанной на встрече с сопредседателями Минской группы ОБСЕ от Франции и США, использовал прилагательный, содержащий аффективность:

Biz müharibədən sonra ermənilərin əvvəl yaşadıqları kəndlərin vəziyyətini görürük. Orada səfalət hökm sürüb. İnsanlar oralarda ***inanılmaz*** *şəraitdə yaşayıblar. Bəs bu işğalın məqsədi nə idi*? [6].

Интенсификация – усиление признаков «хорошо» или «плохо». Противоположным свойством является деинтенсификация (ослабление признака). Интенсификация может быть выражена в семантике слов, а также сказываться аффиксами:

Xüsusilə vurğulamaq istəyirəm ki, *biz orada vətəndaşlarımız üçün* ***ən yaxşı*** *şərait yaratmalıyıq. Çünki uzun illərdir bu insanlar əziyyət çəkirlər* (речь Ильхама Алиева, сделанная во время пресс-конференции для представителей местных и зарубежных СМИ) [6].

Также и аксиологические предикаты, входящие в структуру оценки, добавляют высказыванию явную субъективность, указывая на предмет оценки и связывая его с объектом оценки, который принадлежит концептуальному миру говорящего [4, с. 34]. Аксиологические предикаты могут быть представлены глаголами, выражающими мнения, чувства, глаголами сообщения, которые могут выполнять две функции: определять мыслительный процесс и использоваться в качестве модальных слов, квалифицирующих идеи высказываний [1, с. 477]. В последнем случае аксиологические предикаты выражают оценочное значение, передаваемое в высказывании, и показывают определенное расположение говорящего к сути высказывания через лексическое значение [3, с. 34]. В речевых актах важную роль играет вторая функция, определяемая как скобочная. Предикаты мнений могут выполнять эту функцию не только в фразах в скобках, но и в других случаях, когда они используются в высказываниях от 1-го лица единственного числа. Такие предикаты подчеркивают оценочное значение, фактически представленное как индивидуальное мнение [3, с. 100].

Широко используется аксиологический предикат «знать», с помощью которого можно выразить проверяемое суждение. Это может создать аффективную среду. Фразу «я знаю» можно трактовать как установившееся выражение, описывающее эпистемологическое состояние уверенности говорящего [2, с. 266]. Выражая истинное знание или категориальную уверенность, фраза «я знаю» становится характерной чертой авторитетного оратора с социальным и статусным доминированием: ***Mən bilirəm ki***, *hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki*, *niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir*, *müsahibələr vermir* (речь президента АР Ильхама Алиева на пресс-конференции для представителей местных и зарубежных СМИ) [6].

Фраза «я думаю», используемая в оценочном значении, выполняет совещательную функцию и выражает авторитет говорящего: ***Düşünürəm*** *ki*, *məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər* (речь президента АР Ильхама Алиева на встрече с делегацией во главе с действующим председателем ОБСЕ) [6].

На синтаксическом уровне политического дискурса политики предпочитают простые предложения для лучшего убеждения народа. В случае использования замысловатых предложений они или несут в себе характер официально простого, или основное предложение не имеет большой информационной нагрузки. Такие предложения формируют видимость размышления с дальнейшим выводом, содержат в себе утвердительный, апеллятивный характер. Это позволяет президенту-оратору быть более выразительным и убедительным, быть ближе к народу. Его выступление становится лучше понятным и доступным для различных социальных слоев населения: *Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə ermənі kitabı saxlayırıq* (интервью президента АР Ильхама Алиева немецкому телеканалу ARD) [6].

Употребление риторических вопросов в речах имеет целью привлечение внимания, усиление впечатления и эмоциональности высказывания, создание приподнятого настроения. Суть риторического вопроса заключается в том, что слушатель сам знает ответ на поставленный вопрос. Кроме того, риторические вопросы очень успешно подчеркивают главные идеи говорящего: *Bəs*, *vəsaiti olmayanlar nə etsinlər*? *Bu adamlar ölmə*lidirlər? *Deməli, varlılar özlərini peyvəndləyəcək*, *bütün istehsalı özlərinə götürəcək*, *necə deyərlər*, *elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək*, *yoxsul ölkələr isə əziyyət çəkməli olacaqlar. Biz hansı bərabərlikdən danışırıq*? (речь президента АР Ильхама Алиева на пресс-конференции для представителей местных и зарубежных СМИ) [6].

Условные предложения, чаще всего наблюдаемые в предвыборных речах политиков, используются ими для описания ситуаций, которые могут случиться в будущем. Эти ситуации обычно касаются политической жизнидеятельности страны и объеденены с деятельностью самого политика, который хочет представить аудитории план своих действий. Таким способом политик доказывает адресату свою компетентность и готовность к активным действиям: *Əgər bütün işlər plan üzrə getsə*, *aeroport payızın əvvəlində istifadəyə veriləcək* (речь президента АР Ильхама Алиева на пресс-конференции для представителей местных и зарубежных СМИ) [6].

Для оказания воздействия на сознание адресата политики часто повторяют некоторые слова и словосочетания, имеющие наибольшую смысловую нагрузку. Повторение в политическом дискурсе является одним из наиболее эффективных средств воздействия на психику реципиента. Благодаря частому употреблению определенные слова и фразы откладываются в памяти адресата, становятся для него лично значимыми: *Yaxud da ki*, *baxın Ermənistana*, *indi xaricdən yardım olmasa*, ***birdəfəlik*** *batacaq*, <u>*birdəfəlik*</u>! (вступительная речь президента АР Ильхама Алиева на VII съезде партии «Ени Азербайджан») [6].

В речи политиков прослеживаются также параллельные конструкции, позволяющие акцентировать важнейшие идеи в речи, и придавать ей определенный ритм. Параллельные конструкции часто содержат лексические повторы. Их влияние на реципиента является достаточно сильным, поскольку они сочетают логические, ритмичные, эмотивные и экспрессивные аспекты: *Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik* (вступительная речь президента АР Ильхама Алиева на VII съезде партии «Ени Азербайджан») [6].

Политики в своих речах и интервью довольно часто используют сравнения. Как средство воздействия на сознание адресата сравнения облегчают понимание определенных политических событий или политической картины мира в целом. Через аналогии и параллели подчеркивается схожесть определенного политического явления с подобным явлением в прошлом. Это часто позволяет найти выход из сложной ситуации: *Əziz qardaşımın dediyi kimi, bu gün buraya gələnlərin mütləq əksəriyyəti Türkiyəyə əziz qardaşıma dəstək vermək üçüngəlib* (ответпрезидента АР Ильхама Алиева на вопрос корреспондента телеканала Space TV) [6].

Исследование оценки в политическом дискурсе показывает, что оценочное значение является основным компонентом содержания и служит решающим фактором в осуществлении коммуникативно-прагматической цели воздействия. Языковые средства позволяют политикам привлечь внимание аудитории, облегчить восприятие политической речи или выступления, разнообразить речь политика средствами воздействия, формировать политическое сознание реципиентов, а также побудить их к выгодным для политика конкретным действиям.

Литература

1. Hooper, J.B. Thompson, S.A. On the Applicability of Root Transformations // The MIT Press: Linguistic Inquiry, – 1973. Vol.4 № 4, – p. 465–497.
2. Белова, А.Д. Лингвистические аспекты аргументации: монография / А.Д.Белова. – Киев: Логос, – 2003. – 304 с.
3. Вольф, Е.М. Функциональная семантика оценки / Е.М. Вольф. – М.: Едиториал УРСС, – 2002. – 280 с.
4. Приходько, Г.І. Оцінка і комунікація: посіб. для студентів та аспірантів / Г.І.Приходько. – Вінниця: Нова Книга, – 2013. – 168 с.
5. Солганик, Г.Я. Лексика газеты (функциональный аспект) : [учеб. пособ. для студ. вузов] / Г.Я. Солганик. – М. : Высшая школа, – 1981. – 112 с.
6. www.president.az

SƏBINƏ NURƏLIYEVA

SIYASI DISKURSDA QIYMƏTLƏNDIRMƏNIN DIL VASITƏLƏRI ILƏ IFADƏSI (AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI İLHAM ƏLIYEVIN ÇIXIŞLARI ƏSASINDA)

XÜLASƏ

Qiymətləndirmə geniş əhatəli bir dil kateqoriyasıdır. Qiymətləndirmədə insan təfəkkürünün universal qanunları ifadə edilir. Bununla belə, qiymətləndirmə üçün əsas kimi fərqli meyarlar götürülə bilər. Onlar qiymətləndirmənin ifadə vasitələrinin şərhində yaranan çətinlikləri əks etdirir. Siyasi diskursun başa düşülməsi prosesi söz və cümlələrin deşifrə edilməsi və başa düşülməsindən başlayır. Diskurs "həyata dalmış" nitqdir. Siyasi diskursda strategiyaların həyata keçirilməsi üçün müxtəlif taktikalar və linqvistik vasitələr mövcuddur. Onların seçilməsi hədəf auditoriya, situasiya, sosial-mədəni amil və praqmatik kontekst kimi bir çox dilxarici amillərdən asılıdır.

Siyasi mətndə qiymətləndirmə ilk növbədə müəllifin şəxsi mövqeyini ifadə edən effektiv vasitə kimi çıxış edir. Qiymətləndirmə həmçinin təsiredici vasitələrdən birinə çevrilərək, diqqəti cəlb edir, mətni ifadəli obrazlarla zənginləşdirir, assosiativ düşüncəyə təsir göstərir.

Linqvistik qiymətləndirmə vasitələrinin müəyyən bir korpusda kompüterin köməyi ilə tapıla bilən dəqiq bir siyahısı yoxdur. Qiymətləndirmə üçün istifadə edilə bilən leksik və qrammatik vasitələrin siyahısı sonsuzdur. Mümkün qiymətləndiricilərin siyahısını bir başlanğıc nöqtəsi kimi götürmək və onlardan hansının korpusda olduğunu yoxlamaq faydasız olardı, çünki bu, həmin korpusda olan qiymətləndirmə haqqında yalnız məhdud bir perspektivi təmin edərdi.

Siyasi diskursda qiymətləndirmə müxtəlif səviyyəli dil və nitq vasitələrinin köməyi ilə realizasiya qabiliyyəti nümayiş etdirir. Siyasi diskurs mətnlərində qiymətləndirmənin ifadəsində iştirak edən sözlərin leksik-qrammatik sinifləri sifətlərdir. Qiymətləndirmə kateqoriyası leksik vasitələrdən başqa, həm də üslubi və sintaktik vasitələrlə ifadə edilə bilər.

Müəyyən siyasi diskursda qiymətləndirmə leksikasından istifadə natiqə maskalanaraq danışmaq, ad çəkmək və gərginlik yaratmaqdan qaçmaq və ya əksinə, kəskin siyasi qarşıdurma yaratmaq, siyasi rəqibini nüfuzdan salmaq, hadisələri və faktları tənqid etmək kimi geniş imkanlar yaradır. Funksional-semantik qiymətləndirmə sahəsi adresantın dəyər dispozisiyasını həyata keçirir və siyasi diskursda ünsiyyətin təsirini artırmaq üçün müvafiq dil vasitələrinin seçilməsi ilə adresatın (dinləyici-oxucunun) qiymətləndirmə anlayışını istiqamətləndirir. Qiymətləndirmə leksikası istənilən dildə sözlərin böyük bir semantik qrupunu təmsil edir.

Açar sözlər: qiymətləndirmə, linqvistik vasitələr, semantika, təsirlilik, intensivləşmə, aksioloji predikatlar.

SABINA NURALIYEVA

LANGUAGE MEANS OF EXPRESSING EVALUATION IN POLITICAL DISCOURSE (BASED ON SPEECHES MADE BY THE PRESIDENT OF THE AZERBAIJAN REPUBLIC ILHAM ALIYEV)

SUMMARY

Evaluation is a comprehensive linguistic category. Evaluation expresses the universal laws of human thinking. However, different criteria can be used as a basis for the evaluation. These criteria outline the difficulties that arise in interpreting the means of expressing value. The process of understanding political discourse begins with deciphering and understanding words and sentences. Discourse is, first of all, a text immersed in a communication situation, or, *vice versa*, communication through a text. There is a wide variety of tactics and linguistic means of implementing strategies in political discourse. Their choice depends on many extralinguistic factors such as target audience, situational, sociocultural and pragmatic context.

Evaluation in a political text primarily serves as an effective means of expressing the author's personal position. Evaluation also attracts and retains attention, saturates the text with expressive images, affects associative thinking, turning into one of the tools of influence.

Many means of expressing evaluation refer to open classes. There is no clearly defined list of linguistic assessment tools that could be found. The list of lexical and grammatical tools that can be used for assessment is endless. It would be useless to take a list of possible evaluators as a starting point and check which ones occur in a corpus, as this will only provide a limited perspective on the evaluation present in that corpus.

Evaluation in political discourse demonstrates the ability to be realized with the help of multi-level linguistic and speech means. The most lexical and grammatical classes of words involved in the expression of evaluation in the texts of political discourse are adjectives. In addition to lexical means, the evaluative category can be expressed using stylistic and syntactic means.

The use of evaluative vocabulary in a certain political discourse opens up ample opportunities for the speaker: to speak in a veiled way, avoid direct nominations and sharp corners, or, *vice versa*, create an acute political confrontation, discredit a political opponent, criticize events and facts. The functional-semantic area of evaluation realizes the value disposition of the addresser and directs the evaluative understanding of the addressee (listener-reader) based on the choice of linguistic means in order to increase the effect of the influence of communication in political

discourse. Evaluative vocabulary in any language is a large semantic category of words.

Key words: evaluation, language means, semantics, affectivity, intensification, axiological predicates.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya elmləri doktoru, professor Həbib Zərbəliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

FƏXRƏDDİN EYLAZOV
AMEA Naxçıvan Bölməsi
E-mail: eylazov.f@gmail.com

EKOLOGİYA TERMİNLƏRİN TƏRCÜMƏ METODLARI

XÜLASƏ

Bütün elm sahələrində vacib elmi-tədqiqat işlərindən biri terminlərin nizama salınmasıdır. Nizamasalma prosesində anlayışlar təhlil olunur, sistemləşdirilir və normalaşdırılır. Terminin daxil olduğu sahənin daxili bölgüsü geniş olduqda terminlər bu sahədə funksional ixtisaslaşmış anlayışları ifadə edir. Bu halda yaxın anlayışların müxtəlif terminlərlə adlandırılması tələb olunur. Yaxın anlayışları bildirən terminlərin qarışdırılması, onlardan birinin digərinin əvəzinə istifadə edilməsi baş verir. Terminləri dəqiq istifadə etmək məqsədilə ümumi mənanın funksional ixtisaslaşmasını öyrənmək yaxın terminlərin sinonim sırasını qurmaq və onların real tətbiq sahəsini (peşə uzusu) tapmaq lazım gəlir. Terminin real funksionallıq sferası sahəyə aid mənbələr əsasında müəyyənləşdirilir. Terminoloji sistemdə dubletlər alınma terminlərin iştirakı ilə formalaşır. Fasiləsiz təhsil sistemində semantik baxımdan yaxın anlayışları bildirən terminlərə çox təsadüf edilir. Belə terminlərin bir qismi ümumi mənanın sahədaxili funksional ixtisaslaşması üzrə fərqlənir.

Terminlər elmi-texniki tərəqqi prosesində yaranır. Bu tərəqqi ilə bağlı dilin lüğət fondundakı terminlərin sayı müntəzəm artır. Anlayış bildirən hər hansı bir söz elm sahəsində predmetin, hadisənin, gerçəkliyin elmi təsəvvüründən keçərək xüsusiləşməsi yolu ilə terminləşir. Yeni termin təkcə bu və ya digər elm sahəsinin xüsusi leksik vahidi deyil, həm də sahənin əsaslarını, cəmiyyətin sosial-ictimai fəaliyyətini dildə əks etdirən leksik qatıdır.

Ekologiya terminlərinin öyrənilməsində struktur-semantik təhlillə yanaşı əksər hallarda müqayisəli metoddan da istifadə edilir. Müxtəlifsistemli dillərin leksik sistemi və məna strukturları arasında olan fərqləri araşdırmaq üçün müxtəlif metodlara ehtiyac yaranır.

Açar sözlər: torpaq sürüşməsi, daşqın, erroziya, ekoloji, ekosistem, yaşıl zona, yağıntı dərəcəsi.

Müasir cəmiyyətdə insan həyatının bütün sahələrində informasiya həcminin kəskin artımı və bu artımın durmadan yüksəlməsi terminologiyanın zənginləşməsinə təkan verir. Cəmiyyət üzvlərinin aldıqları informasiyanın çoxalması sürətlənən və genişlənən kommunikativ proseslə müşayiət olunur. Əgər əvvəlki dövrlərdə elmlərin diferensiasiyası meyilləri güclü olmuşdursa, indi elmlərin inteqrasiyası daha böyük

vüsət almışdır. Hazırda cəmiyyət həyatının bütün sahələrində, o cümlədən elm və texnikada problemlərin həllinə çoxaspektli şəkildə və kompleks formada yanaşılır. İnformasiya cəmiyyətində müxtəlif kommunikasiya vasitələrinin olmasına baxmayaraq, yenə də ünsiyyətdə dil başlıca rol oynayır. Dil elmin inkişaf etməsində və ötürülməsində aparıcı mövqeyini saxlayır. Belə şəraitdə terminoloji vahidlərin sosial funksiyası genişlənir.

Cəmiyyət həyatındakı əsaslı dəyişikliklərin insan fəaliyyətinin bütün sahələrinə, o cümlədən elmə təsirini aydınlaşdırmağa olan tələbatını artırır. Elmin müxtəlif sahələrinin sürətli inkişafı, yeni məfhumların yaranması terminoloji sistemi zənginləşdirir. Anlayışların bir sahədən digərinə transterminləşməsi elmi dilə təsir göstərir. Müasir dövrdə elmlərin yeniləşməsi və elmi biliklərin inteqrasiyası sahədaxili axtarışların qismən sahələrarası axtarışlara çevrilməsini gerçəkləşdirir. Bu meyil müasir elmlərdə yeni tədqiqat istiqamətlərinin yaranması ilə nəticələnir və ya bir-biri ilə əlaqəsi olan elmlərin terminlərinin müştərək işlənməsinə əsas verir. Yeni elmi istiqamətlərdə yaxınlıq, müştərəklik informasiya cəmiyyətində terminlərin istifadə sahələrinin sərhədlərini genişləndirir. Elmi dilin funksional vahidi termindir. Terminin təyin edilməsi fəlsəfə, linqvistika, semiotika, informatika və digər elm sahələrinin başlıca istiqamətidir. Hər bir sahə termini anlayışı müxtəlif cəhətdən təyin edir. V.P.Danilenko terminin tərifinin müxtəlif variantlarını vermiş və termin kimi çoxcəhətli hadisənin bir tərifə təyin olunmasının qeyri mümkünlüyünü qeyd etmişdir [9,s.32].

Bütün elm sahələrində vacib elmi-tədqiqat işlərindən biri terminlərin nizama salınmasıdır. Nizamasalma prosesində anlayışlar təhlil olunur, sistemləşdirilir və normalaşdırılır. Terminin daxil olduğu sahənin daxili bölgüsü geniş olduqda terminlər bu sahədə funksional ixtisaslaşmış anlayışları ifadə edir. Bu halda yaxın anlayışların müxtəlif terminlərlə adlandırılması tələb olunur. Yaxın anlayışları bildirən terminlərin qarışdırılması, onlardan birinin digərinin əvəzinə istifadə edilməsi baş verir. Terminləri dəqiq istifadə etmək məqsədilə ümumi mənanın funksional ixtisaslaşmasını öyrənmək yaxın terminlərin sinonim sırasını qurmaq və onların real tətbiq sahəsini (peşə uzusu) tapmaq lazım gəlir. Terminin real funksionallıq sferası sahəyə aid mənbələr əsasında müəyyənləşdirilir. Terminoloji sistemdə dubletlər alınma terminlərin iştirakı ilə formalaşır. Fasiləsiz təhsil sistemində semantik baxımdan yaxın anlayışları bildirən terminlərə çox təsadüf edilir. Belə terminlərin bir qismi ümumi mənanın sahədaxili funksional ixtisaslaşması üzrə fərqlənir.

Elmi-texniki tərəqqi prosesi müxtəlif elmlərə məxsus terminlərin ayrı-ayrı dillərdə eyni şəkildə işlənməsini gerçəkləşdirir. Eyni zamanda terminologiyada unifikasiyanm aparılması da terminlərin müxtəlif dillərdə eyni şəkildə istifadə edilməsinə təkan verir. Müasir dövrdə ictimai-siyasi terminlərdən istifadə olunmasında da eyni cəhət müşahidə olunur, ingilis dilinin beynəlxalq miqyasda ümumi ünsiyyət vasitəsi kimi tətbiqi isə bu dildə XX əsrdən başlayaraq yaranan yeni

sözlərin dünyanın müxtəlif dillərinə keçməsinə şərait yaradır. Qeyd edək ki, yeni sözlər də daha çox terminləri əhatə edir Terminin məzmun strukturuna aşağıdakı təşkiledicilər daxil olur: semantika, motivləşmə, siqnifikativ məna. Terminin məzmun strukturundan bəhs edərkən terminini məna və mahiyyəti nəzərə alınmalıdır. B.N.Qolovinin fikrinə görə, sözün mənası anlayışın əsasını və onun yaranma üsulunu təşkil edir. Sözün mənası anlayışın yaranıb mövcud olduğu çərçivədə onun məna fərqləndirici formasıdır [4,s.42].

Terminlər müəyyən sahəyə aid xüsusi anlayışları bildirən söz və söz birləşmələridir. Terminologiyada termin və terminoloji birləşmələr bir-birindən ayrılır [2,s.38]. Hər bir termin tərif və ya definisiya vasitəsilə anlayışın təyini və aydınlaşdırılmasının nəticəsidir. F. de Sössürün irəli sürdüyü prizmadan baxılarsa, "termin dil işarəsidir". Başqa sözlə desək, adlandırılanı və adlandıram olan dil vahididir. Terminin başqa dil işarələrindən fərqi onun semantik ekstensiyasının adlandıranla müqayisədə adlandırılandan daha əvvəl təyin olunmasındadır [7,s.46]. Bu və ya digər dil formasının nəyi ifadə etməsini bilmədən anlayışın dərk olunması mümkündür. Anlayış termindən əvvəl gəlir. Terminin başqa səciyyəvi cəhəti ondadır ki, onun adlandırdığı digər adlandırılanlar sırasında definisiya alır. Digər adlandırılanlarla yeni adlandırılan eyni sahəyə aid olurlar. Başqa sözlə desək, təcrid olunmuş şəkildə termin yoxdur. Termin həmişə semantik tamın tərkib hissəsidir. Bu semantik tam elm, praktik fəaliyyət, mexanika və s. ola bilər [8,s.95].

Ekologiya terminlərinin öyrənilməsində struktur-semantik təhlillə yanaşı əksər hallarda müqayisəli metoddan da istifadə edilir. Müxtəlif sistemli dillərin leksik sistemi və məna strukturları arasında olan fərqləri araşdırmaq üçün müxtəlif metodlara ehtiyac yaranır [6,s.201].

Terminoloji leksikadan söz açdıqda qeyd etmək lazımdır ki, dillərin leksik sisteminin çox hissəsini bu terminlər təşkil edir. Ekoloji mühitin surətlə dəyişməsi insanların həyatında bu terminlərin geniş inkişafına şərait yaradır [7,s.48]. Terminoloji bilik müasir zamanda müxtəlif peşə adamalarına lazımdır. Ekologiya elmi özlüyündə surətlə inkişaf edən elmlər sırasına aiddir. Bəzən elmi ədəbiyyatda işlənən ekologiya terminlərinin hələ də lüğətlərdə qeyd olunmaması hallarına da rast gəlmək olur. Müxtəlif sistemli dillərdə ekologiya terminlərinin fərqli ifadə tərzləri onların müqyisə yolu ilə öyrənilməsini zəruri edir. Hələ vaxtı ilə görkəmli dilçi İ.A.Boduen De Kurtene qeyd edirdi ki, "bütün elmlərdə zəruri əməliyyatlardan biri müqayisədir bütövlükdə təfəkkür ona əsaslanır" [1,s.51].

Qeyd etmək lazımdır ki, müxtəlifsistemli dillərin müqayisəsi ilə məşğul olan elm dilçilik sisteminə gec gəlsə də konstruktiv linqvistika leksik-semantika və semantik qanunauyğunluqlar sahəsində xeyli irəliləmişdir. Sözün müstəqil mənası ilə onun çalarları arasındakı fərq özünü ekoloji terminlərdə də göstərir. Dilçilik ədəbiyyatından məlumdur ki, sözlər və terminlər leksikologiyada dilin müstəqil vahidləri kimi araşdırılır. Deməli lüğət tərkibi konkret və ümumiləşmiş formada araşdırılır [3,s.55]. Ayrılıqda götürülmüş hər bir termin məna kompleksinin ifadəçisi

kimi çıxış edir. Beləki ekologiyanın müxtəlif sahələri ilə əlaqədar yaranan terminlərin də leksik sistemin zənginləşməsində elmi və qrammatik əhəmiyyəti vardır. Terminlərin müqayisəli şəkildə öyrənilməsini zəruri edən şərtlərdən biri də onlar arasında məna yaxınlığı və oxşarlığın olmasıdır. Tarixi faktlar göstərir ki, Azərbaycan dilindən fərqli olaraq Fars dilində ekoloji terminologiya özünəməxsus və zəngin bir inkişaf yolu keçmişdir. Fars dilində ekologiya terminlərinin yaranma və formalaşma tarixi bəzi hallarda bəşəriyyətin ilkin inkişaf dövrlərinə gedib çıxır. Müqayisə zamanı terminlər arasında mövcud olan oxşar və fərqli cəhətlər aşkarlanır. Bu xüsusiyyətlər əsasən xalqların milli təfək-kürünün və həyat tərzinin nəticəsi kimi aydınlaşır. Hər iki dildə oxşar və fərqli cəhətlərin araşdırlması üçün adətən müqayisə metodundan istifadə edilir. Fars və Azərbaycan dillərində ekologiya terminlərini müqayisə etdikdə aydın olur ki, onların mənaları bəzən qismən də olsa uyğunlaşır. Əksər hallarda isə anlayış və məna cəhətdən çox fərqlidir [5,s.186].

Hər bir dilin leksikonunu təşkil edən müxtəlif söz qrupları, leksik laylar tədricən yaranmamışdır. Təbii olaraq müəyyən sahələrə aid yaranmış ilkin sadə sözlərdən sonralar yeni yeni dil vahidləri təşəkkül tapmış və sonradan sistemləşmişdir [4,s.106]. Qeyd etmək lazımdır ki, Fars dilində olduğu kimi strukturca sadə olan ekologiya terminləri bu sistemdə yeni-yeni terminlərin əmələ gəlməsində yaxından iştirak edir.

Məsələn: زمین -yer kürrəsi, quru sahə; زمین شناسی -torpaqşü-naslıq, زراعت --əkinçilik; آب-su hüceyrəsi, محیت زیست, ətraf mühiti; بوم شناسی -ekologiya; بوم شناسی -ekolog; خاک-torpaq, yer; خشکی خاک -torpağın quruması, külə dönməsi.

Ekologiya terminologiyasının təşəkkül tapmasında əsas mənbələrdən biri ekologiyanın bir elm kimi formalaşması və şaxələnməsi olsa da, digər elm sahələrinin də təsiri az olmamışdır [5,s.99]. Təbiətdə baş verən qlobal və regional dəyişikliklər müxtəlif elm sahəsində çalışan alimlərin də diqqətini həmişə cəlb etmişdir. Beləki, hələ XIX əsrin sonu XX əsrin əvvəllərində ekoloji problemlərin insan həyatına törətdiyi təhlükəni görən alimlər, təbiətşünaslar (V.V.Dokuçayev, V.İ.Vernadski sonralar N.N.Moiseyev, A.A.Yablokov, A.N.Yanşin və.s. yanaşı ictimayyətşünaslar əvvəllər V.V.Solovyov, N.Y.Daniyelevski, XX əsrin sonunda O.S.Kolbasov, O.M.Roy, A.D.Ursul, N.M.Məmmədov,A.M.Şükürov və başqaları) təbiətdə baş verən problemlərin tədqiqi və analizi ilə məşğul olmuşlar. Həmin dövrlərdə insanlar artıq hiss edirdilər ki, yaşadıqları mühitdə təbiətlə onların arasında aglasığmaz fəlakətli hadisələrin sayı getdikcə artır. Səmada, yerin təkində, suda, havada baş verən kataklizmlər insanların həyat tərzini çətinləşdirirdi. Təbiətdə baş verən hadisələr insanların şüurunun da dəyişməsinə səbəb olmuşdur [7,s.53]. Demək təbiət qanunları ictimai qanunauyğunluqlarla harmoniya təşkil etmişdir. İnsanlar artıq əmin olmuşdular ki, ətraf mühitin qorunmasında, ekoloji tarazlığın saxlanılmasında ekologiya elminin əhəmiyyəti getdikcə artırdı. Ekologiya elminin coğrafiya, botanika, aqrokimya və torpaqşünaslıq kimi elm sahələrində baş verən hadisələri bir birindən ayırd etmək üçün sözə, söz birləşmələrinə və terminlərin yaranmasına

ehtiyac duyulurdu. Hələ vaxtilə ulu təbib və mütəfəkkir Əbu Əli ibn Sina yazırdı ki, təmiz hava bir çox xəstəliklərin ən yaxşı dərmanıdır və hər bir məlhəmdən çox- çox üstündür, atmosferi qorumaq inasanların müqəddəs bor-cudur [3,s.209]. Bioloji sistemin quruluşunu və fəaliyyətinin tədqiqi ekologiyanın elm kimi inkişafında böyük və əhəmiyyətli rol oynamışdır. Ekoloji terminlərin qarşılıqlı müqayisəsi və onların yaranma metodlarının öyrənilməsi ekoloji terminlər sistemini formalaşdıran əsas məsələdir.

ƏDƏBİYYAT

1. Ağayev Ə. "Kitabi-Dədə Qorqud" da işlənən terminlər. Azərbaycan filologiya məsələləri "Elm" Bakı 1984-264 s
2. Qurbanova K.A. Antroponimiyanın nəzəri məsələlərinə dair. Bakı "Elm" 2001 136 s
3. Бодуен Де Куртене И.А. Избранные труды по общему языкознанию ТЛМ 1963 51-57
4. Головин Б.Н. Введение в языкознание.-Москва: Высшая школа, 1977, 311.
5. Гринев С.В. Введение в терминоведение.-Москва: Лицей, 1993. 309 с.
6. Лейчик В.М. терминоведение: предмет, методы, структура,- Москва: Изд-во ЛКИ, 2007, 256 с.
7. Реформатский А.А. Что такое термин и терминология//Вопросы терминология,- Москва: Изд-во АН СССР, 1961.-С.46-54
8. Суперанская А.В., Подольская Н.В., Васитьева Н.В. Обшая терминология: Вопросы теории.-Москва: наука, 1989, 246 с. с. 130
9. Даниленко В.П. Русская терминология: Опыт лингвистического описания. Москва, 1977

Faxhraddin Eylazov

ABSTRACT
METHODS OF TRANSLATION OF ECOLOGICAL TERMS

Keywords: landslide, flood, erosion, ecological, ecosystem, green zone, precipitation rate.

One of the important research works in all fields of science is the regulation of terms. In the process of regulation, concepts are analyzed, systematized and normalized. When the internal division of the field in which the term is included is wide, the terms express functional concepts in this field. . In this case, it is necessary to name similar concepts in different terms. Terms denoting similar concepts are got

wrong and one of them is used instead of the other. In order to use the terms accurately, it is necessary to study the functional specialization of the general meaning, to build a series of synonyms of close terms and to find their real field of application. The sphere of real functionality of the term is determined on the basis of field sources. In the terminological system, doublets are formed with the participation of borrowed terms. In the education system, there are many terms that express semantically similar concepts. Some of these terms differ in the functional specialization of the general meaning within the field.

The terms appear in the process of scientific and technical progress. The number of terms in the vocabulary related to this progress is regularly increasing. Any word that expresses a concept become a term in the field of science by specializing through the scientific conception of an object, event, or reality. The new term is not only a special lexical unit of this or that field of science, but also a lexical layer that reflects the foundations of the field, the social activity of society.

In addition to structural-semantic analysis, a comparative method is often used in the study of ecological terms. Different methods are needed to study the differences between the lexical systems and semantic structures of different systems of languages.

Фахраддин Эйлазов

РЕЗЮМЕ

МЕТОДЫ ПЕРЕВОДА ЭКОЛОГИЧЕСКИХ ТЕРМИНОВ

Ключевые слова: **оползень, наводнение, эрозия, экология, экосистема, зеленая зона, количество осадков.**

Одной из важных научно-исследовательских работ во всех областях науки является упорядочение терминов. В процессе упорядочения понятия анализируются, систематизируются и нормализуются. Когда внутреннее деление области, в которую входит термин, обширно, термины обозначают функциональные специализированные понятия в этой области. В этом случае требуется называть близкие понятия разными терминами. Происходит смешение терминов, обозначающих близкие понятия, использование одного из них вместо другого. Чтобы правильно использовать термины, необходимо изучить функциональную специализацию общего значения, построить ряд синонимов близких терминов и найти их реальную область применения. Реальная функциональность термина определяется на основе источников, связанных с данной областью. В терминологической системе дублеты образуются при наличии заимствованных терминов. В системе непрерывного образования много совпадений терминов, обозначающих близкие по смыслу

понятия. Некоторые из таких терминов отличаются внутриотраслевой функциональной специализацией общего значения.

Термины возникают в процессе научно-технического прогресса. В связи с этим прогрессом количество терминов в словарном фонде языка регулярно увеличивается. Любое слово, обозначающее понятие, терминируется в области науки путем его конкретизации путем перехода к научному представлению о предмете, явлении, действительности.

Новый термин-это не только особая лексическая единица той или иной отрасли науки, но и лексический пласт, отражающий в языке основы отрасли, социально-общественной деятельности общества.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: AMEA-nın müxbir üzvü Əbülfəz Aman oğlu Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

TAĞIYEVA RUHIYYƏ İSABALA QIZI
SDU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrası
e-mail: tagiyeva77@bk.ru

CƏNUBI QAFQAZIN HƏRBI-TOPOQRAFIK XƏRITƏSINDƏ ETNOOYKONIMLƏR VƏ ANTROPOOYKONIMLƏR

XÜLASƏ

Məqalədə Avrasiyada toponimlırin türk layınnı olması, türkmənşəli toponimlərin Balkan ölkələrindən Çin dənizinə, Volqaboyundan İraqadək bir dil qaydaları ilə əmələ gəlməsi və sistem halında mövcud olması açıqlanır. Daha sonra qeyd edilir ki, XIX əsrin sonu, XX əsrin əvvələrində başda İngiltərə, Fransa, Rusiya və digər kapitalist dövlətləri olmaqla, onların təhriki, siyasi və hərbi gücləri ilə Osmanlı İmperiyası parçalanmışdır. Nəticədə əsrlərlə imperiyanın tərkibində olan xalqlar müstəqilli əldə etmişlər. Bundan sonra Bolqarıstan, Xorvatiya, Yunanıstan, Makedoniya, Rumıniya, Serbiya, Bosniya, Misir, Yəmən və digər ölkələrdə əsrlərlə yaşamış türksoylu xalqlar acınacaqlı şəkildə deportasiya edilərək həm də soyqırıma məruz almalrı göstərilir. Nəticədə əsrlərlə türk dillərinin qayda-qanununları ilə yaradılan və millətin etnik kimliyini bildirən coğrafi adlarında məhv edilməsi şərh olunur.

Bu gün Suriya, İraq, Liviya və digər ərazilərdə toplu yaşayan və "yaddan çıxan" bayır-bucaq türkmənlərində basqı altında olması, onları dilində mövcud olan toponimlrin təhrif edilməsi və.s. məsəllər haqqında məlumat verilir. Daha sonra göstərilir ki, 1917-ci il oktyabr çevrilişindən sonra Azərbaycan torpaqlarında bolşevik Rusiyası tərəfindən süni yaradılan "Ermənistan" və "Gürcüstan" respublikalarında Krım, Şimali Qafqaz, Tatarıstan, Basqırıstan eləcə də Orta Asiya respublikaslarında türkün kimliyi və etnik kodu sayılan toponimlərə zaman-zaman divan tutulması, bir çox coğrafi obyektlərə rus inqilabçılarının adlarının verilməsi və.s məsələlər qeyd olunur. Daha sonra 1903-cü ildə Tiflisdə nəşr edilən Hərbi-Topoqrafik xəritədəki türkmənşəli Azərbaycan etnooykonim və antropooykonimlıri leksik-semantik baxımdan təhlil olunur və nümunələr təqdim edilir.

Açar sözlər: oykonim, onomastikası, onlayn, qərargah, tayfa, oronimiya, antroponim.

XIX əsrin axırları, XX əsrin əvvəllərində olan rus hərb sənədlərində azərbaycanşünaslıq, tarixi-coğrafiya və dil tariximizi öyrənmək üçün xeyli mənbə vardır. Bunlardan biri də 1903-cü ildə rus hərbi qərargahı tərəfindən hazırlanan və Tiflisdə çap olunan bu hərbi-topoqrafik xəritədir. Bu tarixi xəritədə qeydə alınan kartoqrafik adların öyrənilməsi azərbaycanşünaslığın aktual məsələlərindən biridir. Bu xəritə o zaman həm də məxfi bir sənəd kimi sayılmışdır. Xəritədə

Azərbaycanlıların soykökündə iştirak etmiş qədim tayfa adları və antroponimlər diqqəti daha çox cəlb edir. Gəncə, Bakı, İrəvan və Tiflis quberniyalarının qəzaları üzrə qeydə alınan yaşayış məntəqəsi adlarında işlənmiş onomastik vahidləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. İlkin türkmənşəli tayfa adlarından törənən etnooykonimlər:

a) Tayfa adlarından törənən etnooykonimlər.

Bayandur (Güm.), Bayandur, Qazxun, Uluxan, Xələc (Zən.), Eymur, Sarvan (Bor.), Qax-Muğal, Qıpçaq (Zaq.), Alpaut (Q.), Alpout (Şam.), Alpaut (Gən.), Alpaut (Böyük Xələc, Tərəkəmə (Cav.), Avşar (İr.), Avşar, Qacar,Bayat, Abdal (Ş.), Eymur, Qarxuz (Ər.), Muğan, Padar, Alpaut (G.), Bayat, Cığatay (Qub.), Qazax, Alpaut (Qaz.), Bayan (Gən.), Oğuz (Ərd.)

Cənubi Qafqazda – azərbaycanlılar yaşayan ərazilərdə göstərilən etnooykonimlər çox geniş arealda yayılmışdır.

b) Aidlik və mənsubluq bildirən -lı, -li, -lu, -lü şəkilçili ənənəvi tayfa adlarından törənən etnooykonimlər.

Qaramanlı, Cinli (Cav.), Arıxlı (Bor.), Köçərli, Qaraqoyunlu, Qılıclı, Qacarlı (Kar.), Qaradağlı (Ər.) Qaraqoyunlu (Sür.), Qaramanlı, Quslu, Baharlı (Zən.), Mosullu, Muğanlı (Sığ), Çaxırlı (B.), Saatlı, Minbaslı, Qaraqaşlı (C.), Çaxırlı//Cəkurlu, qaracallı (G.), Şıxlı, Qaymaxlı, Xəlifəli, Tatlı, Göyçəli, Kəmərli, Xotanlı (Qaz.), Çıraxlı (Güm.), Ərəbli (Bor.), Oğuzlu (Sür.) və s.

Bu etnooykonimlər ya hər hansı tayfanın kiçik bir hissəsini, ya da onların hansı bölgədən gəldiklərini əks etdirir. Yəni toponim yenidən tayfa adına çevrilərək yer-yurd adlarında əks olunur.

c) Aidlik və mənsubluq bildirən –lı, -li, -lu, -lü şəkilçili müxtəlif apelyativlərdən törənən etnooykonimlər.

Nağaralı (Gən.), Mülklü (Gən.), Qoturlu, Qılıclı, Xatınlı (Cav.), Saraclı (İr.), Keşəli (Sığ.), Dədəli (Qub.), Haqqıxlı, Oğsüzlü (Qaz.), Dədəli (Qub.), Sadaxlı (T.), Muncuqlu, Qapılı (Güm.), Qılıclı (Sür.)

Göstərilən oykonimlərin bir çoxunda əlamət anlayışı əks olunur.

ç) Aidlik və mənsubluq bildirən -lı, -li, -lu, -lü şəkilçili mülki və dini titullu şəxs adlarından, tirə, nəsil, tayfa anlayışlı sözlərdən törənən etnooykonimlər:

Məmmədzamanlı, Əhmədbəyli (Nax.), astanlı (B.), Xanməmmədli, Həşimxanlı, Əzizli, Bayramlı, Yuxarı Eyublu, Aslanbəyli (Qaz.), Səfərli (T.), Malıbəyli, Maqsudlu (Ş.), Pirili (Zən.), Qızıl hacılı (T.), Usuflu (Siğ), Qara Hacılı (Sür.), Daş salahlı, Aşağı Eyublu (Qaz.) və s.

d) Mənsubluq, aidlik və topluluq bildirən –an, -ən; -lar, -lər şəkilçili etnoqrafik mənşəli sözlərdən törənən etnooykonimlər:

Arpalar (Nax.), Evçilər (Sür.), Abdallar, Böyük Uzunlar, Qullar, Kiçik Uzunlar (B.), Qullar (Sığ.), Ellər, qaralar, Qarabağlar (İr.), Quşçu Dəllər (Üç.), Şıxlar, Seyidlər, Abdallar, Qaralar (Zən.), Rəncbərlər (Şam.), Sağırlar, Karrar (G.),

Kosalar, Qovlar (Qaz.0, Dəllər, Şıxlar, Qarabağlar, Sünnülər (Gən.), Qurdlar (Cav.), Sayadan (Qub.), Baş Abaran (İr.), Qacaran (Zən.) və s.

Qeyd olunan Qacaran, Sayadan,Avaran etnooykonimlərinin tərkibində işlənən –an, -ən şəkilçisi kəmiyyət ifadə edən qədim şəkilçilərdəndir.

e) Aidlik və mənsubluq, həm də peşə və sənət bildirən –cı, -ci, -cü, -cu şəkilçili əşya, peşə, sənət, silah, zoonim, şəxs anlayışlı sözlərdən törənən etnooykonimlər:

Canaxçı, Quşçu (Gən.), Qapancı (Cav.), Sabunçu, Çanaxçı, sabançı, Çubuxçu (İr.), Qaltaxçı, Qazançı (Güm.), Yayçı Kələci (Sür.), Oxçu, Quşçu (Zən.), Şorbaçı, Kürəçi, Sabunçu (B.), Gəmiçi, Axtaçı (C.), Quşçu, Şorbaçı (Şam.), Toyçu (G.), Dəvəçi, Aşağı Quşçu (Qub.), Kələçi (Qaz.), Çanaxcı (Ş.), Kəpənəkçi (Bor.), Böyük Kəpənəkçi, Kiçik Kəpənəkçi (Güm.), Qazançı Mələk (Nax.) və s.

ə) Kiçiltmə, əzizləmə bildirən –ca, -cə; -cığaz, - cuğaz, -cüğaz; -cıq, -cug şəkilçili sözlərdən törənən etnooykonimlər:

Xancığaz (Pəm.), Quşçu, Yengicə (G.), Uluca, Yengicə (C.), Qarınca (Güm.), Kürəcik (İr.), Ərincə (Ax.), Ərincə (Nax.), Şirvancıq, Mahmudcuq (Güm.), Xancığaz (Pəm.), Miskincə (Şam.), Əyricə (Cav.), Yuxarı Qanlıca, Aşağı Qanlıca (Güm.) və s.

Qeyd edək ki, İsmayıllı rayonunun inzibati ərazi bölgüsünə daxil olan və müasir xəritələrdə təhrif edilərək Quşəncə kimi qeyd olunan yaşayış məntəqəsinin adı xəritədə Quşçu – Yengicə kimi qeyd edilmişdir.

f) Feili sifət modelində formalaşan etnooykonimlər.

Feili sifət modelində olan oykonimlərin xəritədə 2 tipi müşahidə olunur. Bunlardan bir qismi ləqəbmənşəli oykonimlərdir. Digər bir qismi isə təbiət hadisələri bağlı olaraq formalaşmışdır.

Ləqəbmənşəli etnooykonimlər əsasən –an, -ən şəkilçili feili sifətlərdən formalaşmışdır. Məsələn: Boğazkəsən (Bor.), Çatıqıran (İr.), Qonaqqıran, Boğazkəsən (Güm.), İtqıran (Nax.), İlançalan (Üç.), Qundaqsaz (layan) – Pəm. Göründüyü kimi, -an, -ən şəkilçisi substantiv və atributiv sözlər (adlar) düzəldərək əvvəlcə ləqəb adlarında, sonra tayfa adlarında, daha sonra isə elliptik halda oykonimlərdə və toponimin digər növlərində (oronim, hidronim və s.) əks olunur. Həyatın müəyyən tələbi ilə məcazi mənalı sintaktik vahidlər yaranır. Göstərilən ləqəblər bu gün də ləqəb (İlançalan Məsim, Boğazkəsən Səfər) və substantivləşərək tayfa adlarında işlənməkdədir. Məsələn: ilançalanlar, boğazkəsənlər, damagirməzlər, qonaqqıranlar və ilaxır. Burada qonaqqıran "qonağı ac qoyan", boğazkəsən "boğazına çörək yeməyən" , çatıqıran "daha çox tələsən", "ütələk" adamlara deyilir [2, s.45].

Təbiət hadisələri və ya tarixi bir hadisə ilə bağlı olan feili sifət modelində olan toponimlər əsasən oronimiyada çoxdur. Məsələn: Palantökən, Naltökən, Musavurulan, Əhmədölən və s.

2. Antroponimlərdən törənən antropooykonimlər

Cənubi qafqazın toposistemində antroponimlərdən ibarət olan oykonimlər də çoxluq təşkil edir. Belə antropooykonimlər sadə və mürəkkəb şəxs adlarından ibarət

olur. İkinci tərəfinin ellipsiyası nəticəsində həmin adlar (Əlibəy, Mehriban, Qara Namaz) toponimik səviyyədə sadə adlar kimi sabitləşmişdir. [2, s.167]. T. Əhmədov düzgün olaraq qeyd edir ki, antropotoponimlərin əksəriyyəti kəndin vəya qəsəbənin əsasını qoyan şəxsiyyətlərin adını daşıyır. Xüsusi mülkiyyətin mövcud olduğu feodalizm və kapitalizm dövrlərində müəyyən bir şəxsiyyətin kənd salması və adını yaşayış məntəqəsinə verməsi təbiidir. Belə antropooykonimlər yüzlərlədir. Alıxan (Ağb.), Qaraxan (Zaq.), Qaraxan (Q.), Qara Məmməd, Arıx Vəli, Sübhanverdi və ilaxır şəxs adı. Xəritədə olan antropooykonimlər titul+şəxs adı, ləqəb+şəxs adı, etnonim+şəxs adı modellərində daha çox nəzərə çarpır. Bunlara ayrılıqda diqqət yetirək.

a) Sadə və mürəkkəb tipli şəxs adlarından törənən antropooykonimlər: Haqnəzər, Əlimərdan (Qaz.), Heydərbəy (Bor.), Zeynəddin (Ər.), Xanağa (B.), Bəsirbəy (Şam.), Mehdibəy, Həsənəli, Mahmud (G.), Əlibəy, Mərcan (Zaq.), Qaraxan (İr.), Mehriban (Üç), Sultanbəy, Xanağa (Nax.), Sübhanverdi, Ağabəy, Avdıbəy (Güm.), Əlican, Hasanxan, Ağabəy (Sür), Xançoban (Ər.).

b) I növ ismi birləşmə formasında titul+şəxs, ləqəb+şəxs, tayfa+şəxs antroponimik modellərdə olan antropooykonimlər:

Hacı Bayram (İr.), Dəli Paşa (Göy.), Hacı İsmayıl (B.), Yekəxana İbrahim (Şam.), Şorlu Mehmandar (İr.), Əli Qoçaq, Molla Dursun, Qara Qulu, Molla Bayazid, Şıx Hacı (Üç.), Şah Mahmud, Qara Baba (Nax.), Böyük Arıx Vəli, Kiçik Arıx Vəli, Kayı Qulu (Güm.), Şah Nəzər (Bor.), Molla Qəmər (Sür.), Məşədi Cəfər, Xoca Həsən, Əli Xoca, Qızıl Xoca(B.), Qabırrı Mehdi bəy (Ş.).

Göründüyü kimi, şəxs adlarınınönündə dini (hacı, molla, şeyx), mülki (şah), titular, digərlərində ləqəb (yekəxana, qoçaq, qara, qurd və tayfa adı (arıx) işlənərək antroponimik model yaratmışdır.

Qeyd edək ki, Azərbaycan dilində rast gəlinən inversiya hadisəsi Əliqaçaq oykonimində əks olunmuşdur. Əslində bu oykonim Qaçaq Əli formasında olmalıdır. Oykonimlərdə belə bir system də mövcuddur. Bir çox halda ləqəb+ad modelində olan oykonimlər də birinci və ya ikinci tərəf düşür, oykonim sadələşir. Məsələn: Şamaxı rayonunda bu gün mövcud olan Yekəxana kəndi vaxtı ilə Yekəxana İbrahim, yaxud İsmayıllı rayonundakı Quşəncə kəndi xəritədə Quşçu Yenkicə kimi qeyd edilmişdir [4. s.153].

c) II növ ismi ismi birləşmə modelində elliptik coğrafi nomensiz antropooykonimlər

Birinci tərəfi ləqəb, titul, tayfa, şəxs və digər adlardan, ikinci tərəfi III şəxsi bildirən -ı,-i,-u,-ü mənsubiyyət şəkilçili "oğlu" və "uşağı" sözlərindən ibarət oykonimlər də xəritədə qeyd olunmuşdur. Məsələn: Saloğlu (T.), Bacoğlu, Oxçoğlu (İr.), Əliquluuşağı (Zən.), Çalağlu (C.), Molla Əlioğlu (G.), Evoğlu (Ş.), Talıboğlu (İr.), Omaroğlu, Qızıloğlu, Tellioğlu (Ərd.), Şıxsalahoğlu (Cav.), Cəlaloğlu (Bor.), Əliquluuşağı (Zən.) və s.

Bu tipdə olan oykonimlər də elmi ədəbiyyatda sadə və mürəkkəb şəxs adlarından törənmiş elliptik coğrafi nomensiz oykonimlər hesab edilir [3, s.167].

Qeyd edək ki, göstərilən yer-yurd adları həm də D.D.Paqrevin hələ 1913-cü ildə tərtib etdiyi kitabında da göstərilmişdir. [5].

Ümumiyyətlə, quberniyaların qəzaları üzrə rus mənbələrində qeydə alınan yer-yurd adlarının öyrənilməsi müasir dövrdə öz aktuallığını saxlayır.

İXTİSARLAR

B – Bakı qəzası , G – Göyçay qəzası, Bor. – Borçali qəzası, Göy. – Göyçə (Yeni Bayazid ərazisi), C. Cavad qəzası, Ax. – Axsqa qəzası, Ş. – Şuşa qəzası, Cav. Cavanşir qəzası, Şər. Şərur-Dərələyəz qəzası, Axır. – Axırkələk qəzası, L – Lori bölgəsi, T.–Tiflis, Lən.-Lənkəran qəzası, Ər – Ərəş qəzası, Güm. – Gümrü (Aleksandropol qəzası), N. – Nuxa qəzası, Sığ. – Sıgnaq qəzası, Gən. – Gəncə qəzası, Nax. – Naxçıvan qəzası, Ağ. – Ağbaba nahiyəsi, Sür. – Sürməli qəzası, Şam. – Şamaxı qəzası, Qub.-Quba qəzası, Qaz. Qazax qəzası, Üç. Üçkilsə (Eçmiadzin) qəzası, Zən. Zəngəzur qəzası, Zaq. Zaqatala dairəsi, Sam. – Samur dairəsi, Ərd. – Ərdahan dairəsi, Q. – Qars vilayəti, Pəm. Pəmbək bölgəsi, Kar. – Karyagin qəzası, Qar. – Qarabağ, İr. – İrəvan qəzası.

ƏDƏBİYYAT SİYAHISI

1. Adilov M, Paşayev A. Azərbaycan onomastikası. Bakı, BDU, 1987, 86 səh.
2. Bayramov A. Azərbaycan onomostikası. Bakı, 2015, 313 səh.
3. Əhmədov T.M. Azərbaycan onomastikasının əsasları. Bakı, Bakı Dövlət Universiteti, 1990, 309 səh.
4. Qafqazın hərbi dairəsinin hərbi-topoqrafik xəritəsi (rus dilində Военно-топографическая карта Кафказского военного округа), Tiflis, 1913, 530 s.
5. Paqirev D.D. Qafqaz ölkəsinin beş verstlik xəritəsinin əlifba göstəricisi (rus dilində: Алфавитной указатель к пятиверстной карте Кавказского края), Tiflis, 1913, 530 s.

РЕЗЮМЕ
ЭТНООЙКОНИМЫ И АНТРОПООЙКОНИМЫ НА ВОЕННО-ТОПОГРАФИЧЕСКОЙ КАРТЕ ЮЖНОГО КАВКАЗА

Тагиева Р.И.

В статье исследуются антропоойконимы и этноойконимы губерний и уездов, зафиксированных на карте военно-топографического карта Южного Кафказа 1903 года. Эти топонимы анализируются, приводятся различные лингвистические особенности и приводятся конкретные примеры каждой из них. Далее отмечается, что в конце 19-го и начале 20-го веков Османская империя была разделена их подстрекательством, политическими и военными

силами, особенно Великобританией, Францией, Россией и другими капиталистическими государствами. В результате народы, веками входившие в состав империи, обрели независимость. После этого тюркские народы, веками проживавшие в Болгарии, Хорватии, Греции, Македонии, Румынии, Сербии, Боснии, Египте, Йемене и других странах, будут трагически депортированы и подвергнуты геноциду. В результате объясняется уничтожение географических названий, созданных веками по правилам тюркских языков и выражающих этническую идентичность нации.

Сегодня притеснение «забытых» туркмен, проживающих в Сирии, Ираке, Ливии и других регионах, искажение топонимов в их языке и так далее. Даны притчи. Далее показано, что после Октябрьской революции 1917 года на территориях «Армения» и «Грузия», искусственно созданных большевистской Россией в Крыму, Северном Кавказе, Татарстане, Башкортостане, а также в республиках Средней Азии, топонимы считались тюркскими. Идентичность и этнический код, захват , присвоение многим географическим объектам имен русских революционеров и т. д.

На Военно-топографической карте, изданной в Тбилиси в 1903 году, туркменские этно-ойконимы и антропоойконимы туркменского происхождения анализируются с лексико-семантической точки зрения и приводятся примеры.

Ключевые слова: ойконим, ономастика, онлайн, штаб, племя, оронимия, антропоним.

SUMMARY

ETHNOOYCONYMS AND ANTHROPOOYCONYMS ON THE MILITARY TOPOGRAPHIC MAP OF THE SOUTH CAUCASUS

Tagiyeva R.İ.

Key words: oikonym, onomastics, online, headquarters, tribe, oronymy, anthroponym.

The article explains that toponyms in Eurasia are of Turkish origin, that toponyms of Turkmen origin are created and systematically formed by the rules of a language from the Balkans to the Chinese, from the Volga to Iraq. It is further noted that at the end of the 19th and the beginning of the 20th centuries, the Ottoman Empire was divided by some countries' instigation, political and military forces, especially Britain, France, Russia and other capitalist states. As a result, the nations that had been part of the empire for centuries gained independence. After that, the Turkic peoples who had lived for centuries in Bulgaria, Croatia, Greece, Macedonia, Romania, Serbia, Bosnia, Egypt, Yemen and other countries were tragically deported and subjected to genocide. As a result, the geographical places which were created by the rule of the Turkic languages for centuries and express the ethnic identity of nation are destructed.

Today, a lot of information is given that in Syria, Iraq, Libya and other areas, there is a mass and "forgotten" foreign Turkmens under pressure and toponyms existed in their language are distorted. It is further shown that after the October 1917 revolution in "the republic Armenia and Georgia" which were artificially created in Azerbaijani lands by Bolshevik Russia and Crimea, North Caucasus, Tatarstan, Bashkortostan, as well as the Central Asian republics the toponyms which were considered the ethnic identity of nation and ethnic code are abolished. At the same time some geographical places are called by the name of Russian revolutionaries from time to time. The Turkmen-Azerbaijani ethno-ekononyms and anthropoekononyms in the Military-Topographic Map published in Tbilissi (Tbilisi) in 1903 are analyzed from the lexical-semantic point of view and examples are presented.

Rəyçi: professor Buludxan Xəlilov

XANIMANA FƏTƏLİ QIZI MANAFLI
BDU
Zahid Xəlilov küç.,23
xanim.manafli@mail.ru

ÜNSİYYƏT ZAMANI DİNLƏMƏ MƏDƏNİYYƏTİ

Xülasə

İnsan necə ki danışmasa özünü ifadə edə bilməz, eləcə də dinləmədən qarşı tərəfin-həmsöhbətin duyğu və düşüncələrini də anlaya bilməz. Danışan zaman içimizdə yığılıb qalmış duyğuları sözə töküb, istəklərimizi, dərdlərimizi dilə gətirib rahatlayırıq. Bu üzdən danışmaq çox önəmlidir, lakin onun qədər dinləmək də önəmlidir. Qarşı tərəf danışarkən onun sözünü kəsməməli, hörmətsizlik etməməliyik, səbirlə sona qədər bitirməsini gözləməliyik. Bu, qarşı tərəfə kifayət qədər dəyər verməməyimizdən, ya özümüzü ondan daha ağıllı və üstün göstərməyimizdən, ya da həyəcan və səbirsizlikdən irəli gəlir. Bu yalnış vərdişlərimizi gözdən keçirməliyik, həmsöhbətimizə onun önəmli olduğunu hiss etdirməliyik.Dinlənildiyini hiss edən insan da dinləyənə dəyər verir. Ünsiyyət bu istiqamətdə qurularsa, həm dinləyən, həm danışan məqsədinə çatar. Bir mövzu haqqında danışa bilmək, fikir söyləyə bilmək üçün ilk növbədə dinləmək lazımdır. Boş danışmaq yerinə dinləyib az danışmaq daha yaralıdır. Danışmaq tələb olunan yerdə danışıb, susmaq lazım olan yerdə isə dinləməyi bacaran biri olmalıyıq. Keçmişdə atalarımız ona görə iki dinlə bir danış deyə gələcək nəsillərə nəsihət vermişdilər. Yunan filosofu Platon «dinləməyi bacarsan, ən pis danışan insandan da bir şeylər öyrənə bilərsən» deyərək, antik dövrdə də dinləmənin əhəmiyyətini vurğulamışdır.Əslində dinləmədiyimiz zaman özümüzə qarşımızdakından daha çox zərər veririk. Biz qarşımızdakını müxtəlif məqsədlərimiz üçün dinləyirik: fikir mübadiləsi üçün, sadəcə danışdıqlarından zövq almaq üçün, bilik əldə etmək üçün və empatik dinləmə. Dinləməməyimizin də müxtəlif səbəbləri vardır:1.Bəzən qarşımızdakı nə danışırsa danışsın, biz sadəcə növbəmiz çatanda nə söləyəcəyimizi düşünürük. 2.Bəzən qarşımızdakını sırf yaşı, peşəsi, tələffüzü, mövqeyi üzündən dinləmirik. 3. Bəzən isə beynimizdə bizi narahat edən problemlər olduğu üçün dinləyə bilmirik. 4. Elə dinləyicilər də var ki, çox səbirsizdir, tez-tez həmsöhbətinin sözünü kəsir, fikrini tamamlamağa imkan vermir. 5. Passiv dinləyicilər də var və biz onların deyilənlərdən bir şey anladığından heç vaxt əmin ola bilmirik. (1, 202)

Məqalədə yaxşı dinləyici olmaq üçün, dinləmə sənətinə yiyələnə bilmək üçün bəzi dilçi dilçi və psixoloqların da tövsiyələrinə yer verilmişdir.

Açar sözlər: ünsiyyət, dinləmə mədəniyyəti, mimika və jestlər, etik qaydalar, eşitmək və dinləmək, davranış normaları

Ünsiyyət zamanı bilik, bacarıq, diqqət çəkə bilmək qədər dinləmə də çox əhəmiyyətlidir. Yalnız biz danışsaq, heç bir şey öyrənə bilmərik və başqalarına da öyrədə bilmərik. Qarşımızdakı insanın – həmsöhbətimizin bizdən daha bilikli, bacarıqlı ola biləcəyini, ondan çox şeylər öyrənə biləcəyimizi unutmamalıyıq. Hər şeyi bilən biri havasına girib dinləmə mədəniyyətimizi inkişaf etdirmədən bir şey öyrənmək mümkün deyil. Ən böyük elm adamları belə hər zaman öyrənə biləcəkləri şeylərin olduğunu qəbul etmiş, qarşısındakını dinləmişdir. Nə qədər savadlı olsaq da, özümüzü inkişaf etdirməyə və öyrənməyə daim ehtiyacımız var. Yunan filosofu Platon «dinləməyi bacarsan, ən pis danışan insandan da bir şeylər öyrənə bilərsən» deyərək, antik dövrdə də dinləmənin əhəmiyyətini vurğulamışdır.Əslində dinləmədiyimiz zaman özümüzə qarşımızdakından daha çox zərər veririk. (2, 99)

Dünyaya gəldiyi gündən etibarən ətraf mühitlə əlaqə yaratmaq insan üçün zəruri bir tələbdir. Bu tələb insanın təbiətindən doğur, insan buna məcburdur. Bu ünsiyyət anlamaq, anlaşılmaq, özünüifadə kimi ehtiyaclardan doğur. Cəmiyyət arasında yaşayan hər bir fərd ətrafındakılara özünü ifadə etmək və onları başa düşmək məcburiyyətindədir. İnsan hələ ana bətnində olarkən dinləməyi öyrənir. Dünyaya gözlərini açdıqdan sonra da hələ danışmağı öyrənənə kimi ətrafı dinləyir.Dinləmə insanın qazandığı ilk və ölməzdən qabaq itirdiyi son dil bacarığıdır. Çünki elm sübut edib ki, körpə ana bətnində beşinci aydan etibarən ətrafdakı səsləri eşidir, ölməzdən əvvəl də funksiyasını itirən ən son hissiyatın eşitmə olduğu söylənilir.

Ünsiyyət mədəniyyətinin özülü ailədən qoyulur, əsas iş də burdan başlayır. Çünki uşaq ilk səsləri, sözləri məhz ailədə eşidir, danışmaq öyrənir, sonra özü həmsöhbətə çevrilir. Deməli, həm danışır, həm də dinləyir. Həm soruşur, həm də cavab verir. Odur ki, bu məsələyə, sadəcə, təkcə nitq vərdişlərinə yiyələnmək kimi yox, həm də ünsiyyət vərdişlərinə yiyələnmək kimi baxmaq lazımdır. Sokrat haqlı olaraq demişdir ki, danış, səni görüm. Kiminləsə danışarkən onun psixikasını, daxili aləmini nəzərə almaq, temperamentini duymaq lazımdır.

Dinləmə insana həyatını davam etdirməsi üçün bir çox mənada əhəmiyyət daşıyır. Məhz onun vasitəsilə yaşadığımız cəmiyyətdə sosial bir varlıq kimi müntəzəm olaraq ailədə ailə üzvləri ilə, ailədən kənarda doğmalarımızla, dostlarla, məktəb və iş yoldaşlarımızla, küçədə, nəqliyyatda, mağazada və başqa yerlərdə isə tanıdığımız və tanımadığımız adamlarla ünsiyyətə giririk. Əslində insan münasibətlərinin çoxu özünü ifadə və dinləməyə dayanır. Dinləmə bilik əldə etmənin, öyrənmənin başlıca yollarından biridir. İnsan evdə, məktəbdə, iş yerində, küçədə dinləmə fəaliyyəti içindədir. Digər tərəfdən mədəni həyatımızın elə sahələri var ki, tək tərəfli dinləmə ilə bağlıdır. Radio və televiziya proqramlarının, teatrların, kinoların, konfransların dinlənilməsi və seyr edilməsi müasir insanın ehtiyacları sırasındadır. (3, 101)

İnsanlar gündəlik həyatında tez-tez bir-birini yanlış anlayırlar. Qarşımızdakını doğru anlamamanın əsas səbəbi də onu tam dinləməməkdir. Syilvane Herpin

insanların bir-birini yanlış anlamasını belə ifadə etmişdi:« Düşündüyünüz, söyləmək istədiyiniz, söylədiyinizi hesab etdiyiniz şeylərlə qarşınızdakının eşitmək istədiyi, eşitdiyi, anlamaq istədiyi, anladığını sandığı şeylər arasında fərqlər vardır». Bir insan fərqli sahələrdə mükəmməl biliyə sahib ola bilər. Bu nöqtədə əsl önəmli olan həmin şəxsin öz biliklərini qarşı tərəfə necə və hansı səviyyədə verə bilməsidir. Cəlaləddin Rumi « Nə qədər bilirsənbil, söylədiklərin qarşındakının anladığı qədərdir», « Söz söyləmək üçün əvvəlcə dinləmək gərəkdir» sözləriylə dinləmənin nə qədər əhəmiyyətli olduğunu göstərmişdir.

XVIII əsrdə məşhur ingilis yazıçısı Oliver Holdsmit " Dünyanın vətəndaşı və ya Çin filosofunun məktubları" əsərində yazımışdır ki, hər bir ölkənin milli əxlaq normaları olsa da, bütün insanlıq üçün eyni ola bilən normalar da mövcuddur və bunlar sağlam düçüncədən, kamillikdən doğur. Bunlara malik adam hansı millətə məxsus olmasından asılı olmayaraq hər yerdə hamı tərəfindən rəğbətlə qarşılanır. Bu, eyni zamanda ünsiyyət qurarkən dinləmə mədəniyyətinə dair bir sıra qaydalara da aiddir:

1. Danışanın sözünü kəsmədən səbir və hörmətlə dinləmək
2. Başqalarını narahat etmədən dinləmək
3. Eşitdiklərinə münasibət bildirmək üçün uyğun zaman gözləmək
4. Danışan ilə göz təması qurmaq
5. Söz almaq üçün danışanın nitqini bitirməsini gözləmək
6. Diqqət dağıdacaq səslər çıxartmamaq
7. Yersiz hərəkətlərdən uzaq durmaq
8. Özünü danışanın yerinə qoyaraq dinləmək (empatik dinləmə)
9. Danışanın varlığını bir şəxsiyyət kimi qəbul etmək
10. Dinlədiklərimizlə bağlı qısa və aydın suallar vermək
11. Danışanın suallarına dəqiq cavablar vermək
12. Konfranslarda, iclaslarda eşitdiklərimizlə bağlı qeydlər aparmaq.İnsan hafizəsi hər şeyi asanlıqla xatırlamaz, ona görə mütləq qeydlər götürülməlidir, lakin sözbəsöz yazmaq doğru deyil. Çünki o zaman eşitdiklərimiz ancaq yazdıqlarımızdan ibarət olar, digər məlumatlar diqqətdən kənar qalar.
13. Eşitdiyimiz nəzəri bilikləri həyatda tətbiq etmək

Bu qaydalar ailə içində, məktəbdə, işdə, küçədə, ictimai nəqliyyatda, qisaca həyatın bütün sahələrində riayət etməli olduğumuz dinləmə mədəniyyəti ilə bağlı normalardır.

Harda olmasından asılı olmayaraq, birini dinləyərkən onun həm özünə, həm də düşüncələrinə hörmət edilməlidir. Deyilənlərin doğru və tam başa düşülməsi isə nə qədər diqqətlə dinləməyimizə bağlıdır. Yaxşı dinləyici ola bilmək üçün bəzi önəmli məqamlara diqqət etmək lazımdır:

1. Danışanın izah etdiyi, yaxud öyrənmək istədiyimiz əsas mövzuları dəqiqləşdirmək

2. Baxışlar, baş sallama və yaxud müxtəlif jest və mimikalarla dinləyirmiş kimi görünməmək. Danışanın bizə çatdırmaq istədiyi bilik və məlumatların tam fərqinə varmaq.
3. Danışanın nitqini onun gözlərinə, üzünə baxaraq dinləməli, sözlərini, mimika və hərəkətlərini bir bütün olaraq anlamağa çalışmalı
4. Danışanın səhvini tutaraq özümüzün ondan üstün olduğumuzu göstərən bir dinləyici olmamaq
5. Qarşındakını dinləyərkən onu kiçik düşürən, ələ salan, özünü pis hiss etməsinə səbəb ola biləcək mimika və jestlər, ya da sözlər istifadə olunmamalı
6. Danışanın bilik və məlumat verdiyi müddətdə sadəcə dinləyici olaraq qalmaq
7. Nitq bitdikdən sonra sual yaxud cavab vermək lazımdırsa, o zaman düşünməyə başlamaq olar.
8. Dinləyərkən ara-sıra «sizi diqqətlə dinləyirəm», «bəli», «elədir»¸«sizi anlayıram» kimi ifadələr işlədilə bilər. Bu razılıq baş, boyun, göz ya da əl hərəkətləri ilə də göstərilə bilər.

Diqqətlə dinləmək, qarşındakı həmsöhbətinin fikirlərinə hörmətlə yanaşmaq, onu doğru şəkildə başa düşmək qarşılıqlı anlaşmanı təmin edir.

Bir sıra atalar sözləri və hikmətli sözlərdə də dinləmə mədəniyyəti ilə bağlı ata-babalarımızın, müdriklərin dəyərli fikirləri var:

Danışmaq bir ehtiyacdırsa, susmaq bir sənətdir (Höte)

Deyən ağılsız olsa, dinləyən ağıllı gərək (Atalar sözü)

Söz gümüşdürsə, susmaq qızıldır (Atalar sözü)

Susmaq insanı ələ verməyən sadiq bir dostdur (Konfutsi)

Susmaq alimə yaraşır, cahilin isə eyiblərini ört-basdır edir (Məhəmməd Peyğəmbər)

Hətta başıboş adam da susanda müdrik görünür (Hz.Əli)

Ən yaxşı dinləyici susmağı bacarandır (Fletçer)

Sükut da bir növ danışmaq sənətidir (Uilyam Hezlift)

Bəzən susmaq ən dəhşətli ittiham ola bilər (Menandr)

Dilin bəlasıdır uzunçu olmaq,

Ariflər işidir sükuta dalmaq (N.Gəncəvi)

Ya sus, ya da susmaqdan üstün bir söz de (Pifaqor)

Dinləmə mədəniyyətinin tədris edilməsi Qərb ölkələrində XX əsrin əvvəllərindən başlamışdır. Bizdə isə XX əsrin sonlarına qədər bununla bağlı heç bir araşdırma aparılmamışdır. Məktəblərdə dinləmə bacarıqlarına çox az önəm verilməsinin müxtəlif səbəbləri vardır: Dinləmənin təbii olaraq yaranmasına inandıqları üçün üzərində dayanmağa ehtiyac görülməməsi, oxuma və yazmanın daha önəmli olduğunu düşünmək; dərs proqramlarının ağır olmasına görə dinləməyə

ayıracaq zamanın olmaması; müəllimin özünün belə dinləmə bacarığı ilə bağlı kifayət qədər təcrübə və səriştəsinin olmaması və s.

İbtidai siniflərdən ali məktəbə qədər şagird və tələbələrə dinləmə mədəniyyəti ilə bağlı yalnız «sus»,«sakit olun»» ,«dinlə»,«diqqət edin» kimi ifadələr işlədilmiş, bundan başqa heç bir istiqamət, tövsiyə verilməmişdir. Tələbə və şagirdlərin səsi kəsilincə onların dinlədiyi qəbul edilmişdir. (4, 21)

Eşitmək və dinləmək arasında fərq var. Dinləmədiyimiz bir çox şeyləri eşidirik və çox zaman bir səsi susduqdan sonra eşitdiyimizin fərqində oluruq. Eşitmək bir səsin mövcudluğunun fərqində olmaqdır. Dinləmək isə səsə diqqətin verilməsi, doğru mənaların çıxarılmasıdır. Normal halda ətrafımızda cərəyan edən hər şeyi heç bir əziyyət çəkmədən eşidə bilirik. Ancaq səslərin mənalarını, anlamlarını dərk etmək istədiyimiz təqdirdə səy göstərməyimiz lazım gəlir. Bu da bizi aktiv dinləyiciyə çevirir. Aktiv dinləmə terminini ilk ortaya atan psixoterapist Carl Rogersdir. O, insanların problemlərini həll etmək üçün əvvəlcə onları gözəl başa düşmək, bunun üçün isə onları gözəl dinləmək lazım gəldiyini söyləyirdi.

Gözəl ünsiyyət dedikdə ilk ağlımıza gələn danışmaq olur. Danışmaq qədər gözəl dinləmək, gözəl yazmaq, oxumaq da çox önəmlidir. Təəssüf ki, gündəlik iş rejimimiz bizi əzbər danışmağa, əzbər oxumağa, yazmağa, dinləməyə vadar edir. Yəni oxuduqlarımızı tam analiz etmirik, yazarkən diqqətimiz dağılır, ən əsası da özümüzü dinləyirmiş kimi aparırıq. Aparılan bir araşdırmada məlum olub ki, bir insan gün ərzində 9% yazmaq, 16% oxumaq, 30% danışmaq, 45% dinləməklə məşğul olur. Bu da dinləmənin nə qədər əhəmiyyətli olduğunu göstərir. Bu bacarığımızı nə qədər inkişaf etdirsək, o qədər ünsiyyətcil olarıq. Gözəl, diqqətlə dinləyən insandan gözəl rəhbər, yaxşı dost, valideyn olar. «Sizə ən çox kim qulaq asır?» sualına cavab verərkən görəcəyik ki, bizi diqqətlə dinləyən insanlara özümüzü daha yaxın hiss edirik. «Bəs sizə kim çox təsir edə bilər?» Özünüzə uzaq hiss etdiyiniz insanlar, yoxsa yaxın? İnsanlar özlərinə yaxın hiss etdikləri adamların təsirinə daha tez düşürlər. Demək, insanları idarə etmək, öz tərəfinizə çəkmək, inandırmaq istəyirsinizsə,onları diqqətlə dinləməlisiniz.

Biz müəllimlər, valideynlər uşaqların problemlərinin həlli yollarını axtararkən vəzifəmizin onlarla danışmaq, nəsihət vermək, yol göstərmək olduğunu düşünürük. Halbuki, uşağın problemlərini həll etmək üçün onu dinləmək lazımdır. Dinləmək uşağın gələcəkdə sağlam ünsiyyət qura bilməsinə, özünə inamın yaranmasına, dəyər verildiyini hiss etməsinə, özünə hörmətin yaranmasına gətirib çıxardır. Danışmasına imkan verilən uşaq başqalarını da dinləməyi öyrənir. Dinləyən uşaq hadisələri daha rahat qavrayır, səbəb-nəticə əlaqəsini düzgün quraraq zehnində müzakirə edir. Beləliklə, təsirləndiyi amilləri süzgəcdən keçirərək cavab verməyi öyrənir. Yəni bizim onu dinləməyimiz, duyğularını rahat ifadə etməsinə şərait yaratmamız onu da gələcəkdə gözəl dinləyiciyə çevirir. (5,402)

İnsan necə ki danışmasa özünü ifadə edə bilməz, eləcə də dinləmədən qarşı tərəfin-həmsöhbətin duyğu və düşüncələrini də anlaya bilməz. Danışan zaman

içimizdə yığılıb qalmış duyğuları sözə töküb, istəklərimizi, dərdlərimizi dilə gətirib rahatlayırıq. Bu üzdən danışmaq çox önəmlidir, lakin onun qədər dinləmək də önəmlidir. Qarşı tərəf danışarkən onun sözünü kəsməməli, hörmətsizlik etməməliyik, səbirlə sona qədər bitirməsini gözləməliyik, həmsöhbətimizə onun önəmli olduğunu hiss etdirməliyik.Dinlənildiyini hiss edən insan da dinləyənə dəyər verir. Ünsiyyət bu istiqamətdə qurularsa, həm dinləyən, həm danışan məqsədinə çatar. Bir mövzu haqqında danışa bilmək, fikir söyləyə bilmək üçün ilk növbədə dinləmək lazımdır. Boş danışmaq yerinə dinləyib az danışmaq daha yaralıdır. Danışmaq tələb olunan yerdə danışıb, susmaq lazım olan yerdə isə dinləməyi bacaran biri olmalıyıq. Keçmişdə atalarımız ona görə iki dinlə bir danış deyə gələcək nəsillərə nəsihət vermişdilər. Dinləyərkən danışan insanın o andakı ehtiyaclarına fikir verin. Əgər söhbəti sizi qane etmirsə belə onun danışmaq ehtiyacına hörmət edin. Çox vaxt insanlar problem həll etmək üçün yox, paylaşmaq üçün danışırlar. Onu diqqətlə dinləmək həmin şəxsin psixoloji olaraq rahatlanmasına səbəb olacaqdır.Əlbəttə, ətrafımızdakılar bizdən maddi və mənəvi yardım, dəstək istəyə bilərlər, ya da iş yoldaşımız hər hansı bir mövzuda onu müdafiə etməyimizi bizdən istəyə bilər. Amma çox zaman insanların tək istədikləri onları anlamamız və nələr yaşadıqlarını bilməyimizdir. Məşhur yazıçı və psixoloq Leo Buscaglia bu vəziyyətlə bağlı yazırdı: «Məni dinlə deyəndə sən öyüd verməyə başlayırsan və o zaman səndən istədiyimi etməmiş olursan».

ƏDƏBİYYAT

1. Erich Fromm. Dinləmə sanatı. İstanbul, Say Yayınları, 2019, 200səh
2. Nəsirəddin Tusi. Əxlaqi-nasiri, Bakı 1989.
3. Şiriyev F. Azərbaycan dilinin nitq mədəniyyəti və ritorika.Bakı, Nurlar,2014, 395səh.
4. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2015, 280 səh.
5. Michael P. Nichols. Dinləmə sanatı, İstanbul, 2016, 368 səh.

Манафлы Ханымана Фатали гызы

КУЛЬТУРА АУДИРОВАНИЯ ВО ВРЕМЯ ОБЩЕНИЯ

Резюме

Как не может быть самовыражения без говорения, точно так же не может быть понимания мыслей и чувств собеседника без слушания. Во время беседы мы выражаем свои чувства словами, вкладываем в них накопленные в глубинах души сокровенные желания, волнующие нас проблемы, и в результате получаем некоторое успокоение.

Вот почему с этой точки зрения очень важно выговориться, но также не

менее важно уметь слушать. Следует проявлять уважение к собеседнику, не перебивая его во время разговора, и терпеливо ждать, пока он закончит говорить. Это происходит в том случае, если мы недостаточно ценим другого человека, или думаем, что мы умнее и лучше его, или же когда взволнованы и нетерпеливы. Надо отказаться от этих вредных привычек и дать почувствовать собеседнику, насколько он важен для нас. В свою очередь, собеседник также будет ценить того, кто слушает его. Если наладить общение в этом направлении, то и слушающий, и говорящий достигнут своей цели. Прежде, чем говорить на какую-нибудь тему и выражать свое мнение, следует сначала прислушаться.

Полезнее всего больше слушать и меньше говорить вместо того, чтобы заниматься пустой болтовней. Необходимо говорить тогда, когда нужно говорить, и молчать, когда надо слушать. Недаром мудрость гласит: «больше слушай, меньше говори». Древнегреческий философ Платон, подчеркивая важность аудирования в античный период, говорил: «Если ты умеешь слушать, то можешь научиться чему-то даже у худшего оратора».

Действительно, когда мы не слушаем, то причиняем себе больший вред, чем собеседнику. Мы слушаем собеседника по нескольким причинам: для обмена мнениями, просто для того, чтобы насладиться его красивой речью, получить знания, или слушать эмфатически.

Также по разным причинам мы отвлекаемся от беседы:

1. Иногда, что бы ни говорил собеседник, мы только думаем о том, что будем говорить, когда придет наш черед.

2. Зачастую мы не слушаем собеседника только из-за предвзятого отношения к его возрасту, профессии, произношению, позиции, занимаемой им в тех или иных вопросах.

3. Однако порой мы не слышим собеседника потому, что наш мозг поглощен мыслями о насущных проблемах.

4. Есть слушатели, которые очень нетерпеливы, часто перебивают собеседника, не позволяя ему докончить свою мысль.

5. Но есть и пассивные слушатели, разговаривая с которыми никогда не бывает уверенности в том, что они что-то понимают из сказанного.

В статью также включены рекомендации некоторых лингвистов и психологов относительно того, как стать хорошими слушателями и овладеть искусством аудирования.

Ключевые слова: *общение, культура аудирования, мимика и жесты, правила этикета, слушание и аудирование, нормы поведения*.

Khanimana F. Manafli

CULTURE OF AUDITION DURING DIALOGUE

Summary

As there can not be a self-expression without speaking, in the same way there can not be an understanding of thoughts and feelings of the interlocutor without hearing. We put the feelings into words during conversation, we put in them the souls saved up in depths the secret desires exciting us of a problem and as a result we receive some calm. Therefore from this point of view it is very important to be uttered, but also it is not less important to be able to listen. It is necessary to show respect for the interlocutor, not interrupting him during conversation, and patiently to wait, while he will stop to speak. It occurs in the event that we appreciate other person insufficiently, or we think, that we it is cleverer and better than it or when are excited and impatient. It is necessary to refuse these bad habits and to let know to the interlocutor, how much he is important for us. In turn, the interlocutor will appreciate also the one who listens to it. If to adjust dialogue in this direction both listening, and speaking will achieve the object.

Before to speak on any theme and to express the opinion, it is necessary to listen at first. It is the most useful to listen more and to speak instead of being engaged in empty chatter less. It is necessary to speak when it is necessary to speak, and to be silent, when it is necessary to listen. Not without reason wisdom says: “listen more, speak less”.

Ancient Greek philosopher Platon, underlining importance of audition during the antique period, spoke: “If you are able to listen, can learn something even at the worst orator”. Really, when we do not listen, we cause ourselves more harm, than to the interlocutor. We listen to the interlocutor for the several reasons: for an exchange of opinions, or simply to take pleasure in its beautiful speech, to receive some knowledge, or to emphatic listen.

Also for various reasons we distract from conversation:

1. Sometimes, whatever the interlocutor spoke, we only think about that we will speak when our turn will come.

2. Frequently we do not listen to the interlocutor only because of the prejudiced relation to its age, a trade, a pronunciation, a position occupied with it in those or other questions.

3. However at times we do not hear the interlocutor because our brain is absorbed by thoughts on essential problems.

4. There are some listeners who are very impatient, often interrupt the interlocutor, not allowing it to finish the thought.

5. But there are also passive listeners, talking with which never happens

confidence that they understand something from the told.

Recommendations of some linguists and psychologists also are included in the article for studying how to become good listeners and to seize audition art.

Keywords: *dialogue, culture of audition, a mimicry and gestures, etiquette rules, hearing and audition, norms of behaviour*.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Tofiq Hacıyev tərəfindən çapa tövsiyə olunmuşdur.

NURANƏ ƏLƏKBƏROVA
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
İstiqlaliyyət küç, 26
nuku_alekperova@yahoo.com

MƏCRUH MUĞANI "DIVAN"INDA ANTROPONIMLƏR

Xülasə

Bu məqalədə XIX əsr Azərbaycan şairi Məhəmmədəli bəy Məcruh Muğaninin "Divan"ındakı onomastik leksika araşdırılır.

Onomastikanın dilçiliyin maraqlı bölmələrindən biri olduğunu söyləmək mümkündür. Bu bölmədə dilin lüğət tərkibində olan xüsusi adlardan bəhs edilir. Dilimizin lüğət tərkibinin ayrılmaz hissəsini təşkil edən onomastik vahidlər xalqımızın tarixini özündə əks etdirir. Dil tariximizin araşdırılmasında xüsusi adlar vacib və əvəzolunmaz mənbə sayılır. Bildiyimiz kimi, xüsusi adlardan bədii ədəbiyyatda da geniş istifadə olunur.

Məcruh Muğaninin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Б-756 şifrəsi altında mühafizə edilən "Divan"ının əlyazma nüsxəsi incələnib. "Divan" dilindəki xüsusi adlar müxtəlif və rəngarəng üslubi məqamlarda işlənib. XIX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairi Məhəmmədəli bəy Məcruh Muğaninin dilinin leksikası onomastik vahidlərlə zəngindir. Şairin istifadə etdiyi xüsusi adlar əsasən onun tərcümeyi-halını, dünyagörüşünü və bədii üslubunun xüsusiyyətlərini və təbii olaraq müəllifin şəxsiyyətini özündə əks etdirir. Şairin dilində demək olar ki, onomastik vahidlərin bütün növünə rast gəlmək olur. Onun yaradıcılığı dil cəhətdən çox maraqlı olduğu üçün poeziyası onomastik mənbə funksiyası daşıya bilər. Məqalədə əsasən Məcruh Muğaninin şeirlərində işlənmiş antroponimlər müəyyən edilərək sistemləşdirilib. Muğani şeirlərində antroponimlərdən geniş şəkildə istifadə edib. Şeirlərdəki antroponimlər müxtəlif üslubi məqamlarda işlənib.

Açar sözlər: Məcruh Muğani, onomastika, antroponim

Xüsusi ad nəzəriyyəsi onomastika adlanır. Onomastika dilçiliyin maraqlı bölmələrindən biridir, dilin lüğət tərkibində olan xüsusi adlardan bəhs edir. Onomastika bütövlükdə xüsusi adların toplusudur. Xüsusi adlar isə öz vəzifə, funksiya və mənalarına görə ümumi adlardan kəskin surətdə fərqlənir. Şəxs, tayfa, xalq, millət, yer adları, səma cisimləri və heyvanlara verilən xüsusi adlar məhz onomastik leksikanın tərkibinə daxildir.

Dilçiliyin onomalogiya bölməsində xüsusi adlar, onların yaranma tarixi, mahiyyəti, funksional spesifikliyi, mənşəyi və s. tədqiq edilir. Başqa sözlə ifadə etsək bu sahənin tədqiqat mövzusu, ad qoyulan obyektin digər obyektlər arasında fərqləndirilməsinə xidmət edən onimdir (xüsusi ad).

Dilimizin lüğət tərkibinin ayrılmaz hissəsini təşkil edən onomastik vahidlər xalqımızın tarixini özündə əks etdirir. Təsadüfi deyil ki, tarixin izləri dilin lüğət tərkibinə aid leksik vahidlərdən ən çox xüsusi adlarda öz əksini tapır. Cəmiyyət həyatında baş verən ictimai-tarixi əhəmiyyətə malik hadisələrin dilin onomastikasına təsiri təbidir.

Azərbaycanın görkəmli tədqiqatçılarından olan A.M.Qurbanov xüsusi adlarla cəmiyyət həyatı üçün mühüm hadisələr arasındakı əlaqəni nəzərə alaraq yazır: "Dildəki hər bir xüsusi ad – onomastik vahid ictimai-tarixi inkişafın məhsuludur" (2, s. 3).

Hər bir xüsusi ad aid olduğu xalqın tarixini, milli adət-ənənələrini özündə əks etdirir. İlk növbədə ad qoyulma prosesində hər bir millətin öz dilinə məxsus spesifik cəhətləri nəzərə alınır.

Qeyd etmək lazımdır ki, xüsusi adlar müxtəlif elm sahələrinin - tarix, coğrafiya, ədəbiyyatşünaslıq, etnoqrafiya, psixologiya, astronomiya və s. tədqiqat obyekti olub. Lakin ilk növbədə onimlər dilçilik sahəsinə aiddir və dilçilərin diqqətlə araşdırdığı bir obyektdir. Xüsusi adların dil təbiətindən danışan V.A. Nikonov yazır: "Ad sözdür və bütün sözlər kimi dil qanunlarına tabe olur, yəni dilçiliyə aiddir".(6,s.6)

Dil tariximizin araşdırılmasında xüsusi adlar vacib və əvəzolunmaz mənbə sayılır**.** Dildəki onomastik vahidlər ictimai-tarixi inkişafın məhsuludur. Onlar bir növ tarixin canlı şahidləri, keçmişin izlərini mühafizə edərək müasir dövrümüzə gətirən dil faktlardır.

Bildiyimiz kimi, xüsusi adlardan bədii ədəbiyyatda da geniş istifadə olunur. Dilçilikdə onomastik vahidləri bu istiqamətdə poetik onomastika sahəsi öyrənir.

Hər bir əsərin onomastik sisteminin öyrənilməsi mətnin daha dərindən başa düşülməsinə, gizli mənaların dərk edilməsinə kömək edir, oxucunun müəyyən bir xarakterə münasibətini formalaşdırır. Xüsusi adlar bədii ifadə vasitələri sistemindəki əsas komponentlərdən biridir.

Qədim və orta əsr yazılı abidələri Azərbaycan dilindəki onomastik vahidlərin tədqiq edilməsində dəyərli mənbələrdən biri sayılır.

S. Mollazadə bədii ədəbiyyatda işlənmiş onomastik vahidlərlə bağlı yazır: "XIII–XIX əsrlərə aid yazılı abidələrimiz Nəsimi, Kişvəri, Xətai, Füzuli, Əmani, Qövsi Təbrizi, Vaqif, Vidadi kimi şairlərimizin əsərlərindən toponimləri toplamaq, işləmək, Azərbaycan toponimikasının elmi-nəzəri cəhətdən daha da inkişaf etdirilməsi üçün, xüsusən tarixi toponimika məsələlərinin işıqlandırılması üçün bir sıra maraqlı və giymətli faktlar verə bilər" (1.s.113).

XIX əsr Azərbaycan ədəbiyyatının məşhur ədəbi dühalarına nəzər yetirdikdə Seyid Əzim Şirvani, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh və sair bir çox tanınmış simaları görürük. Amma onlarla eyni dövrdə yaşamasına baxmayaraq ədəbiyyat

tarixinə adını yazdıracaq qədər məşhurlaşa bilməyən bir çox ədiblər də vardır. Bakı, Dərbənd, Şamaxı, Qarabağda tanınmış sənətkar olan Məhəmmədəli bəy Məcruh Muğani bu qismdən olan ədiblərimizdəndir.

Məqalədə Məcruh Muğanin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Б-756 şifrəsi altında mühafizə edilən "Divan"ının əlyazma nüsxəsi incələnəcək.

XIX əsrdə yaşayıb-yaratmış Azərbaycan şairi Məhəmmədəli bəy Məcruh Muğaninin dilinin leksikası onomastik vahidlərlə zəngindir.

Şairin istifadə etdiyi xüsusi adlar əsasən onun tərcümeyi-halını, dünyagörüşünü və bədii üslubunun xüsusiyyətlərini və təbii olaraq müəllifin şəxsiyyətini özündə əks etdirir.

Şairin dilində demək olar ki, onomastik vahidlərin bütün növünə rast gəlmək olur. Onun yaradıcılığı dil cəhətdən çox maraqlı olduğu üçün poeziyası onomastik mənbə funksiyası daşıya bilər.

Azərbaycan dilçilik ədəbiyyatında onomastik vahidlər üçün qəbul edilmiş təsnifata əsaslanaraq Məcruh Muğani "Divanı"nda işlənmiş xüsusi adları aşağdakı kimi qruplaşdırmaq olar:

1)antroponimlər, 2) etnonimlər, 3) toponimlər, 4) hidronimlər, 5) zoonimlər, 6) kosmonimlər

Antroponimika onomastikanın əsas və ən geniş yayılmış sahəsidir. Bu termin yunan dilində "antropos" (insan) və "onuma" (ad) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Antroponimika insan adlarının yaranma prosesini, onların inkişafı yollarını öyrənir. İnsan təxəyyülünün məhsulu olan hər bir ad tarixi öyrənmək baxımından ictimai və siyasi əhəmiyyət kəsb edir.

Antroponimya onomastikanın ən geniş yayılmış və əsas sahəsini təşkil edir. Dilimizin zənginləşməsində xüsusi yeri var.

Azərbaycan antroponimlərinin təhlili ilə bağlı ilk qeydlərə A.Bakıxanovun əsərlərində təsadüf olunur. Müəllifin yaradıcılığında toponim, hidronim və etnonimlərin təhlili ilə yanaşı, antroponimlərin araşdırılması da müşahidə edilir. Bu baxımdan onun 1843-cü ildə yazdığı "Adlar və titullar" adlı əsəri antroponimiyamız üçün qiymətli mənbədir.

Məcruh Muğani şeirlərində antroponimlərdən geniş şəkildə istifadə edib. Şeirlərdəki antroponimlər müxtəlif üslubi məqamlarda işlənmişdir. "Divan"dakı antroponimləri bir neçə qrupa ayırmaq olar:

a) tarixi şəxs adları
b) dini şəxsiyyətlərin adları
c) əfsanəvi adlar
d) görkəmli şəxsiyyət adları
e) əsərlərdə istifadə edilən qəhrəmanların adları

a) tarixi şəxs adları

Bürci-əladən nücum kövkəbin enmiş məgər?

Mövlani mövla kəsüb, Sultan Muradsınmış məgər?
Fərəngü İngilisü Rum əhli rus ilə dəvi,
Qilur guya təmaşadə bular şahi-Qəcərdürlər.

b) dini şəxsiyyətlərin adları
1) Peyğəmbər adları: Adəm, Nuh, İsa (Məsiha), Musa, Xızır, Davud, Yusif
Bizi xəlq eylədi xəllaqi-aləm,
Müsəlmmalandı Həvva zövci-Adəm

Var hər məzhəb arasında tükənməz qovqa,
Bə`zi əllərdə qalub daməni-İsa, Musa.

Ol mələk eyləmədi ruhi mücəssəm ruhə,
Yəmi-eşqində tənim ğərq, sığındım Nuhə.

Sölədi kimsən ona dedi: bən, ey sahibi-kar.
Xızr peyğəmbərəm hər hacətinin var əməli.

Bəzi yerdə Musavü İsa Əliallah olub,
Bəzi yerdə gavpərəs, atəşpərəs eylər xitab.

Çəngali-şəhbazi ilə yad bud,
Təsir etdi onə nəğmeyi-Davud.

Yusif vəsfini mən etkalı töhmət tapub,
Can verdim lə`ninə ol vəchilə qiymət tapub.

Adəm dini təsəvvürlərə görə, bəşəriyyətin atası və dünyada ilk yaradılmış insan və ilk peyğəmbərdir.

Tövrata, Zəbura, İncilə və Qurana görə Allahın yaratdığı ilk insan və insan nəslinin ulu babasıdır. Adəmin qabırğa sümüyündən Həvvanı yaradıb.

Beytlərdə işlənmiş Adəm, Nuh, İsa, Musa, Yusif, Davud antroponimləri hər hansı bir mənanın rəmzi kimi işlənib.

Yusif gözəllik, Davud gözəl səsi olan, Nuh insanların xilaskarı, Musa möcüzələr yaradandır.

Şair Məhəmməd peyğəmbərdən (s.ə.v.s.) bəhs edərkən əsərlərində onun başqa adlarını işlədir.

Çəkilmiş pişvazə naqələr həm nizədə başlar,
Gərəkdür Şamə getsin əhli-beyti- Mustafa ağlar.

Xəbər alsam deyəcəksiniz ki, bəli ümmətiyük,
Niyə peyğəmmər Əhmədi-Muxtar degil.
Əhmədi-Muxtar, Mustafa (s.ə.v.s.) peyğəmbərin məlum ləqəbləridir.
2) İmam adları: İmam Əli, İmam Hüseyn

Hüseyn adı çıxanda ahilə fəryad Zeynəbdən,
Deyər can-can qalan tənha Xeyrənnisa ağlar.

3) Din tarixində müqəddəs qadınların adları: Həvva, Məryəm, Bilqeys, Zeynəb

Şövqi-vəslindən bənə verdükcə yüz ğəm, ağlaram.
Çıxdi cənnətdən necə Həvvavü Adəm, ağlaram.

Sərasimə gəzir çərxəndəvü bərr
Üzin səhrəyə dutmuş Məryəm.

Mən səni Bilqeys, özüm alsam Süleyman çağlaram,
Alsam oldum, almasam, bil döndü dövranım Mələk.

4) Allahın mələklərinin adları Mikayıl, İsrafil

İsrafil götürüb suri çalanda,
Hər kəs öz naməsin ələ alanda,
Məhşər ayağında qismət olanda,
Cənnət ğeyri-xəlqin, dami mollanun.

İsrafil Allahın mələklərindən biridir. İsrafilin əsas vəzifəsi qiyamət günündə bu günün çatdığını xəbər verməkdir. Quranda "sur" (şeypur) sözündən istifadə edilir. İsrafil şeypura bənzər bir alətə üfürəcək və şeypurdan bütün canlıları dəhşətə salan səda çıxacaq.

c) əfsanəvi adlar
Olsa vəslin dövləti yek gənci-Qarundan bənim,
Zülfi-şahmarına yox sərriştəm əfsundan bənim.

Rizavü elmü hilmü səbrü insaf,
Mürüvvət məskəni Ənqa kimin Qaf

Qurtardun girdabi-bəhr ədəmdən,
Dəxi xof eyləmə Cəmşidü-Cəmdən.

Əsatirə görə Qaf (Elbrus) dağında yaşamış əfsanəvi çox iri bir quşdur. Quyruq və ayaq hissələri şir, başı və qanad hissələri qartal formasında təsvir olunan əfsanəvi varlıq. Azərbaycan mifologiyasında Ənqa, Simurq, Zümrüd kimi müxtəlif adlarda qeyd edilir.

Qarun var-dövlətə sahib olan, lakin dövlətindən hec kimə yardım etməyən, xəsisliyin mifik obrazının, Cəmşid müdriklik, tədbirli hökmdar obrazının rəmzidir.

d) görkəmli şəxsiyyət adları

Yox nəzərin əql ilə fəhmü fərasət təbdə,
Varisi-Firdosivü həm Sədivü Əş`ar xan.
Bəndə yoxdur təb`i-Firdovsi çe sud?
Səndə var övsafi-Rüstəm layiqi

e)əsərlərdə istifadə edilən qəhrəmanların adları

Məcruh Muğaninin "Divanı"nda işlənmiş qəhrəmanların adlarını iki qrupa bölmək olar.

1) Sevgi- məhəbbətlə bağlı obrazlar
2) Qəhrəmanlıqla bağlı obrazlar

Hər Leylivəşin atəşi-eşqin cana saldim.
Nifrət elədim Qisseyi Məcnuni görəndə.

Bərrlər Məcnuni, bəhrlər Nuhi.
Olan Fərhad kimi düzliyin kuhi.

Düşmənin vəsvəseyi-vəhmini dildən çıxarub,
Rüstəmə arxalanub Xosrovi-bibak olduq.

Cəmü Cümşid ilə Dara Sekəndər birlə Keyxosrov,
Firiduni fəribimlə dolandurdim biyabani.

"Divan"da elə antroponimlər var ki, onlar həm ümumi, həm də xüsusi ad kimi istifadə edilib.

Gəl bənə həmdəm ol, ey şuxi-sitəmkar Mələk,
Aşiqə vəsli məsəl bülbülə gülzar, Mələk.

Ey fələk, dünyada azdı mələgin,
Qurbani olmadı nazdı mələgin,
Olan növhəgəri yazdi mələgin,

Açılmaz ğönçəsi bəstə düşübdür.

Nümunələrdən gördüyümüz ki, Məcruh Muğani *mələk* sözünü həm ümümi, həm də xüsusi söz kimi maraqlı üslubi məqamlarda işlədib.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan onomastikası problemlərinə dair konfransın materialları. Bakı, 1986
2. Qurbanov A.M. Azərbaycanonomalogiyasınınəsasları. I cild. Bakı: Nurlan. 2004, 340 s.
3. ƏləkbərovaNuranə. MəhəmmədəlibəyMəcruhMuğani "Divanı"nınməzmunu. "Filologiyaməsələləri" jurnalı, Bakı, 2019, №13
4. Məhəmmədəli bəy Məcruh Muğani. Əlyazma, şifrə Б-756. AMEA Əlyazmalar İnstitutu.
5. Бакыханов А. О наименованиях и титулах. Баку, «Элм», 1982
6. Никонов, В.А. Имя и общество Текст. В.А. Никонов. М.: Наука, 1974. - 278 с.

NURANA ALAKBAROVA

ANTHROPONYMS IN MAJRUH MUGHANI'S "DIVAN"

Summary

This article examines the onomastic vocabulary in the "Divan" of the 19th century Azerbaijani poet Muhammedali bey Majruh Mughani.

It can be said that onomastics is one of the most interesting fields of linguistics. This section considers personal names in the language's vocabulary. Onomastic units, which are an integral part of the vocabulary of our language, reflect the history of our people. Specific names are an important and invaluable source in the study of our language history. As we know, personal names are widely used in fictional stories.

In this regard, the manuscript copy of Majruh Mughani's "Divan", protected under the code Б-756 at the Institute of Manuscripts named after Mohammad Fuzuli of the Azerbaijan National Academy of Sciences, was examined. The special names in the "Divan" language are developed in different and colourful stylistic moments within the article. The lexicon of the language of the Azerbaijani poet Muhammedali bey Majruh Mughani, who lived and created in the XIX century, is rich in onomastic units. The special names used by the poet mainly reflect his biography, worldview and features of his artistic style, and naturally the personality of the author. In the language of the poet, almost all types of onomastic units can be found. Since his work is very interesting in terms of language, his poetry can serve as an onomastic

source. The article identifies and systematizes the anthroponyms used in Majruh Mughani's poems. Mughani widely used anthroponyms in his poems. These anthroponyms have been developed in different stylistic moments.

Key words: MajruhMugani, onomastics, anthroponym

НУРАНА АЛАКБАРОВА

АНТРОПОНИМЫ В «ДИВАНЕ» МАДЖРУХА МУГАНИ

Резюме

В статье исследуется ономастическая лексика в «Диване» азербайджанского поэта XIX века Мухаммедали бека Маджруха Мугани.
Один из интересных разделов ономастической лингвистики. В этом разделе обсуждаются личные имена в языковом словаре. Ономастические единицы, являющиеся неотъемлемой частью лексики нашего языка, отражают историю нашего народа. Личные имена – важный и бесценный источник в изучении истории нашего языка. Как известно, в художественной литературе личные имена широко используются.

С этой целью была исследована рукописная копия "Дивана" Маджруха Мугани, защищенная под кодом Б-756 в Институте рукописей имени Мухаммеда Физули НАНА. В статье, особые имена на языке «Дивана» исследуются с точки зрения разных и красочных стилистических моментов. Лексика языка азербайджанского поэта Мухаммедали бека Маджруха Мугани, жившего и творившего в XIX веке, богата ономастическими единицами. Особые имена, используемые поэтом, во многом отражают его биографию, мировоззрение и особенности его художественного стиля и, естественно, личность автора. В языке поэта можно встретить практически все виды ономастических единиц. Поскольку работы очень интересны с точки зрения языка, его стихи могут служить ономастическим источником. В статье выявляются и систематизируются антропонимы, используемые в стихотворениях Маджруха Мугани. Автор в своих стихах широко использовал антропонимы. Данные антропонимы развивались в разные стилистические моменты.

Ключевые слова: Маджрух Мугани, ономастика, антропоним

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: fililogiya elmleri namizədi Aynur Qədimalıyeva tərəfindən çapa tövsiyə olunmuşdur.

VÜSALƏ SABIT QIZI MƏMMƏDOVA
Azərbaycan Dillər Universiteti
Təlimdə innovasiyalar
kafedrasının müəllimi
vusala.mamadova93@gmail.com

REKLAM MƏTNLƏRI VƏ ONLARIN STRUKTURU

XÜLASƏ

Məqalə reklam və onun strukturunun öyrənilməsinə həsr edilmişdir. Məqalə- də reklam, reklam mətni, reklam mətnlərinin tərtibinə verilən tələblər, reklam mətnlə-rinin strukturu tədqiq edilir.

İlk olaraq, müxtəlif mütəxəssislər tərəfindən reklama verilmiş tərif araşdırılmışdır. Sonra reklamın 6 məqsədi barədə fikirlər əks olunmuşdur. Daha sonra, məqa-lədə, reklamın dildə daşıdığı 4 əsas funksiya tədqiq edilmiş və bununla bağlı dilçilə- rin fikirləri nəzərdən keçirilmişdir. Bu kiçik araşdırmada reklam mətnlərinin struktur hissəsinin aşağıdakı əsas elementləri də əks olunmuşdur: ekspressiv sintaksis, eyni za-manda üslubi vasitələr, məs. ellipsis, qradasiya, antiteza və s. Qeyd edilənlərdən sava-yı, məqalədə reklam mətninin təşkilində riayət ediləcək aşağıdakı 7 prinsip də qeyd edilmişdir: konkretlik, dəqiqlik, məntiqlik, inandırma, sadəlik, orijinallıq və ifadəlilik. Daha sonra, məqalədə reklam mətnlərinin effektivliyini göstərən verbal və qeyri-ver-bal komponentlərdən söz açılır.

Araşdırmadan belə nəticəyə gəlinir ki, mətn elə sadə olmalıdır ki, orta İQ-yə malik insanlar onu anlaya bilsinlər. Çox vacibdir ki, bu zaman məişətdə çox istifadə edilən və yadda qalan sözlərdən istifadə edilsin.

Məqalədə müxtəlif dilçilərin reklama, onun funksiya və məqsədlərinə baxışları, həmçinin də reklam mətnlərinin tərkibi nəzərdən keçirilir.

Açar sözlər: *reklam mətnləri, istehlakçı, reklamın effektivliyi, başlıq, yarımbaşlıq;*

Reklam sosial-mədəni və linqvo-mədəni bir fenomendir. Onun formalaşması sosial, psixoloji, dil amilləri, cəmiyyətin “estetik şüuru”nun xüsusiyyətləri və mədəni ənənələri ilə şərtlənir.

Reklama müxtəlif təriflər verilmişdir. Məsələn, V.N.Komissarov reklamı insanlara malların istehlak xüsusiyyətləri və müxtəlif növ xidmətlərin üstünlükləri barə-də məlumatların verilməsi kimi müəyyənləşdirir. Onun fikrincə, reklamın effektiv-liyinin meyarı onun obyektivliyi və konkretliyi, doğruluğu və etikası,

içərisində lazımi məlumatların olması, habelə onun ünvan sahibinə yönəlməsindədir [9, s. 124].

F.Kotler reklam termini dedikdə, "açıq şəkildə göstərilən maliyyə mənbəyi ilə yayılan məlumat və ya qeyri-şəxsli ünsiyyət formaları"nı nəzərdə tutur [10, s. 93].

S.Katlip, A.Senter və G.Brum isə reklamı konkret sponsor tərəfindən yayın vaxtı və yeri ödənilərək məlumatın kütləvi informasiya vasitələrində yerləşdirilməsi hesab edir.

M.Y.Roqojin "Reklam fəaliyyətinin nəzəriyyə və praktikası əsərində reklamın 6 əsas məqsədini qeyd edir [12, s. 24]:

1. Məhsulların reklamı. Əsasən bu cür reklamların əsas məqsədi xidmətlər və reklam olunan malların satış həcminin artmasına kömək etməkdir.

2. Ticarət markası reklamı (xidmət markası). Buradakı əsas məqsəd alıcıların reklam olunan məhsula marağını artırmaqdır. Yəni, alıcını bu məhsulu almağa inandırmaq.

3. İstehsalçının adının və xidmətinin reklamı (yəni məhsul istehsal edən bir müəssisə və ya təşkilatın reklamı) müəyyən bir müəssisənin və ya şirkətin reklamına yönəldilmişdir, yəni buradakı reklam hər hansı bir məhsulun deyil, məhsulun istehsal edildiyi şirkətin və ya firmanın reklamına yönəlmişdir.

4. Mal və xidmətləri realizə edənin reklamı onu istehsal edənin reklamına bəznəyir, lakin bu zaman məhsulu bilavasitə istehsal edən təşkilat və ya müəssisə reklam edilir.

5. Siyasi partiyaların və siyasətçilərin fəaliyyətinin reklamı öz-özlüyündə tamamilə aydın bir hədəf daşıyır - bu və ya digər siyasi hərəkətlərin insanlara çatdırılması.

6. İctimai təşkilatların və sosial və vətəndaş fəaliyyətinin reklamı daha çox kommersiya məqsədlərini əks etdirir. Əsas məqsəd açıq şəkildə siyasi olmayan hərəkətlər və ya qərarlar həyata keçirməkdir.

Reklamın əsas vəzifəsi hər hansı bir xidmət və ya məhsul haqqında yalnız başa düşülən məlumatlar vermək deyil, həm də xoş təəssürat yaratmaqdır. V.I. İlyin belə hesab edir ki, reklam istehlakçının hər hansı məhsulu aldıqdan sonra və ya xidmətdən istifadə etdikdən sonra qazanacağı faydadan bəhs etməlidir [5].

Reklamın bahalı (televiziya) və budcədən maliyyələşən (radio, qəzet) növləri vardır, lakin onların hamısının məqsədi birdir - istehlakçının reklam edilən məhsulu almasına nail olmaqdır.

Reklamın əsas funksiyalarına daxildir:

1) iqtisadi; O, bazar münasibətlərini stimullaşdırmağa imkan verir;

2) sosial; Alıcıda müəyyən bir cəmiyyət istehlakçı modelinin formalaşmasına kömək edir;

3) marketinq; Malların və ya xidmətlərin tələb və istehlakını təşkil edir.

4) rabitə; Alıcılar arasında lazımi bilikləri formalaşdırır.

Y.N.Karaulov reklam mətnlərindən bəhs edərkən onların mövzu və funksiya-sına görə publisistik mətnlərdən əhəmiyyətli dərəcədə fərqləndiyini qeyd edir:

"*Publisistikada sosial baxımdan əhəmiyyətli bir hadisə müzakirə olunur, ticari reklamda bir məhsul və ya xidmət nümayiş olunur; jurnalistikada hər iki funksiya eyni dərəcədə vacibdir, reklamda dominant rolu təsir funksiyası oynayır, çünki əsas şey məlumat mesajı vermək deyil, işə sövq etməkdir. Biz belə hesab edirik ki, publisistikanın bir növü hesab edilməsinə baxmayaraq reklam publisistikanın periferiyasında dayanır"* [8, s. 43].

Hər bir mətnin struktur hissəsi olduğu kimi, reklam mətnlərinin də struktur hissəsi vardır. Reklam mətnlərinin struktur hissəsinin əsas elementləri aşağıdakılardır: ekspressiv sintaksis, eyni zamanda üslubi vasitələr, məs. ellipsis, qradasiya, antiteza və s.

Reklam mətninin kompozisiyasını müxtəlif cür qurmaq olar: onu müxtəlif yer-lərdən abzaslara bölmək, cümlələri müxtəlif cür qurmaq, reklam mətni üçün uyğun sözlərin seçilməsi və onların cümlədə yerləşdirilməsi müxtəlif cür ola bilər. Karterin fikrincə, *"ideal reklam mətnində hər şey gözəl olmalıdır: fikirlər, reklam mətninin di-li, dizaynı. Bütün bunlar insanın reklamı oxumasını və yadda saxlamasını asanlaş-dırır*" [6, s. 36].

Reklam mətnlərinə olan vacib tələblərdən biri az sözlə çox məlumat ver-məkdən ibarətdir. Reklamda olan sözlərin sayı alıcının onu bir baxışda oxuya bilməsi qədər olmalıdır. Reklam üçün elə sözlər seçilir ki, onlar emosional gücə malik olsun və reklam edilən məhsul və ya xidməti ətrafl təsvir etsin.

C.N.Berdışev reklam mətninin təşkilində riayət ediləcək 7 prinsipi qeyd etmişdir:

1) konkretlik. Burada əsas məqsəd tez mətləbə keçməkdir. Reklam mətnindəki cümlələri elə yerləşdirmək lazımdır ki, artıq söz olmasın. Lakin eyni zamanda reklamın üslub və ritmini də nəzərdən qaçırmamaq lazımdır.

2) dəqiqlik. Reklam mətnlərində verilən məlumatlar dəqiq olmalıdır.

3) məntiqlik. Reklam mətnlərində cümlələr arasında məntiqi əlaqə olmalıdır.

4) inandırma. Reklam mətni elə qurulmalıdır ki, orada işlənən sözlər dəqiq və bir mənalı olsun, yəni qeyri-müəyyənlik olmasın.

5) sadəlik. Mətn elə sadə olmalıdır ki, orta intellektə malik insanlar onu anlaya bilsinlər. Çox vacibdir ki, bu zaman məişətdə çox istifadə edilən və yadda qalan sözlərdən istifadə edilsin.

6) orijinallıq. Reklam mətnləri orijinal olamlıdır və yadda tez qalmalıdır.

7) ifadəlilik. İfadəlilik reklam mətni üçün çox vacib prinsipdir. Burada istifadə edilən üslubi vasitələr reklam mətninin tez yadda qalmasına səbəb olur [2, s. 24].

Reklam mətnlərinin effektivliyi onun verbal və qeyri-verbal komponentlərinin uğurla birləşməsindən asılıdır. Bununla belə, bir çox tədqiqatçılar belə hesab edirlər ki, reklamın verbal hissəsi daha çox əhəmiyyət daşıyır.

Reklamın verbal hissəsinin əhəmiyyəti böyükdür. Doğrudur, reklam şəkilləri istehlakçının diqqətini cəlb edir, lakin məhz reklamın verbal hissəsi sayəsində reklam kommunikativ intensiya səviyyəsinə gəlib çata bilir.

Reklamın verbal hissəsi dörd komponentdən ibarətdir: şüar, başlıq, reklam mətni və əks-səda ifadələri.

Z.K.Bedankovanın fikrincə isə, reklam mətninin verbal hissəsi başlıq, əsas rek-lam mətni, şüar, yarımbaşlıq, çərçivə və loqotiplərdən ibarətdir. Bəzən şüar yarımbaş- lıq kimi də istifadə edilir [1, s. 192].

Reklamın srtukturunda bu dörd komponentin həmişə olması çox da vacib de-yildir. Qeyd etmək lazımdır ki, reklam zamanı daha yaxşı nəticə almaq üçün bu dörd komponentin hamısının olması vacibdir. Reklamın strukturunu təşkil edən bu dörd komponentin hər birinin ayrı-ayrılıqda məqsədi vardır. Məsələn, başlığın əsas məq-sədi istehlakçının diqqətini cəlb etmək, reklam mətninin məqsədi reklam edilən məhsulun və ya xidmətin xarakterik xüsusiyyətlərini göstərmək, şüarın məqsədi isə istehlakçıya təqdim edilən məhsul və ya xidməti yadda saxlamağa sövq etməkdir.

Şüar reklam konseptinin yığcam formasıdır. Ona verilən əsas tələb yığcam, yadda qalan, daimi olması, ticarət markasının adını daşıması və digər dillərə asanlıqla tərcümə edilməsidir. Reklam şüarı, dəqiqliyi və ifadəli olması sayəsində daha sonra qrafika və məlumat bloku olmadan tətbiq edilə bilər [15].

Başlıq reklamın əsas verbal hissəsi hesab edilir. O, adətən, əsas reklam mesa-jını və əsas reklam arqumentini ifadə edir. Reklam başlıqlarının əsas funksiyaları bunlardır:

-diqqət cəlb etmək;
- maraq oyatmaq;
- alıcı / hədəf qrupunu müəyyənləşdirmək;
- məhsulu / xidməti müəyyənləşdirmək;
- məhsulu / xidməti satmaq.

Reklam mətninin əsas hissəsində reklam olunan məhsul və onun üstünlükləri barədə ətraflı məlumat verilir. Bu hissənin mətni müxtəlif yollarla təqdim edilə bilər: məhsulun yüksək keyfiyyətinə, alış-verişin gəlirliliyinə inam, “rasional prinsipə müraciət etmək, emosional və sensor qavrayışa, tanınmış obraz və sosial baxımdan əhəmiyyətli stereotiplərə” müraciət.

Əsas hissə, adətən çox da böyük olmayıb təxminən 20-30 sözdən ibarət olur, lakin bəzən böyük mətnlərə də rast gəlmək olur. Bundan başqa, əsas hissədə bir sıra linqvistik vasitələrdən də istfadə edilir. Reklam mətni məzmunca reklamın şüarına uyğun olmalıdır. Əks-səda – ifadə reklamın son verbal hissəsi olub aşağıdakı funksiyaları yerinə yetirir:

- Mətnin əsas hissəsini təkrarlamaq və şirkətin üstünlüklərini qeyd etmək;
- Reklama bitkin bir forma vermək.

THE WORLD AT YOUR FEET
GALAXY TOURS

THE SPECIALIST FOR SOUTH AND NORTH ASIA, AUSTRALIA,
NEW ZEALAND, AND BALI
OFFERS UNBEATABLE BARGAIN!!!

TRAVEL TO EXCITING NEW ZEALAND

HURRY! BOOK NOW! LIMITED SEATS ONLY

Travel highlights

- Visit a native Maori village and observe their unique traditional dances and customs.
- Stay at peaceful sheep farms and dairy farms.
- Ski on Mount Cook, the highest peak in New Zealand.
- Asian meals provided.
- Five-star accommodation.

All flights on Air New Zealand
Departing 10 Dec, 16 Dec, and 22 Dec

Prices:	$2500	$1800
	$2200	$1600
	(Adults)	(Children below 12)

BOOK NOW TO AVOID HOLIDAY CROWDS

Yuxarıda gətirdiyimiz reklam əsasında reklam mətnlərinin strukturunu təhlil edək [16]. Nümunə kimi gətirilən bu reklamın strukturu şüar, başlıq, yarımbaşlıq, əsas hissə və əks-sədadan ibarətdir. Bu reklam mətninin başlığı (*The world at your feet* 'Dünya sənin ayaqlarının altında'*)* üslubi vasitələrdən biri –metaforik birləşmə ilə ifadə edilmişdir. Burada əsas məqsəd müştərinin diqqətini cəlb etməkdən ibarətdir.

Reklam mətnində həmçinin yarımbaşlıqlar da vardır. *"Galaxy Tours. The specialist for South and North Asia, Australia, New Zealand and Bali offers unbeatable bargain!"* Qeyd etmək lazımdır ki, bu yarımbaşlıqların əsas məqsədi başlıqda ifadə edilən fikrə aydınlıq gətirməkdir. Reklamda *"Travel to New Zealand! Hurry up! Book now!"* 'Yeni Zelandiyaya səyahət edin! Tələsin! İndi sifariş edin' kimi şüarlar da işlənmişdir. Reklam mətnin əsas hissəsində səyahətin proqramı, müştəriyə təklif edilən xidmətlər qısa, lakin aydın şəkildə ifadə edilmişdir. Reklamın əks-səda hissəsində *"Book now to avoid crowds"* 'Növbədə durmamaq üçün indi sifariş edin' işlənmişdir.

Beləliklə, qeyd etmək lazımdır ki, reklam mətni yazmaq mürəkkəb bir yaradıcılıq prosesidir. Hansı mövzuda yazılmasından asılı olmayaraq bütün reklamlarda əsas məqsəd hər hansı məhsulun satılması və ya xidmətdən istifadə edilməsi olduğundan, reklamın strukturunun düzgün qurulması çox əhəmiyyətlidir.

İstifadə edilmiş ədəbiyyat

1. Беданкова З.К. Рекламный текст как отражение активных процессов в лексической системе русского языка // Вестник Адыгейского государственного университета. 2006. Вып. 1. С. 192 – 194.

2. Бердышев С.Н. Рекламный текст. Методика составления и оформления. М.: Дашков и Ко, 2008. 252 с.

3. Гампер, Е.Э. Лингвокультурный и тендерный аспекты социальной рек-ламы в женских журналах [Текст] / Е. Э. Гампер // Лингвистика. Герменевтика. Концептология: Сборник научных трудов, посвященный 60-летнему юбилею профессора Е.А. Пименова / Отв. ред. Р.Д. Керимов. - Кемерово: Кемеровский полиграфический комбинат, 2008. - С. 386-393.

4. Гольман Н.А., Добробабенко Н.С. Практика рекламы. – Новосибирск, 1991. - 142 с.

5. Ильин А.С. Реклама в коммуникационном процессе Курс лекций / А.С. Ильин. — М. : КНОРУС, 2013. — 142 с.

6. Картер Г. Эффективная реклама. М.: Прогресс, 1991. - 156 с.

7. Кафтанджиев Х. Герои и красавицы в рекламе. СПб.: Питер, 2008. - 223 с.

8. Колшанский Г.В. Коммуникативная функция и структура языка. М.: Наука, 1984.- 176 с.

9. Комиссаров В. Н. Общая теория перевода : учеб. пособие / В. Н. Комиссаров. – М.: МГУ, 1999. – 136 с.

10. Котлер Ф. Основы маркетинга. – М., 2001. - 1200 с.

11. Мокшанцев, Р. И. Психология рекламы / Р.И. Мокшанцев. — М.: Инфра-М, 2009. — 230 с.

12. Рогожин М.Ю. “Теория и практика рекламной деятельности” – Мос-ква, 2010 – 207 с.

13. Розенталь Д.Э., Голуб И.Б. Секреты стилистики: правила хорошей речи М.: Знание, 2002. - 200 с.

14. Тарасов Е.Ф. Речевое воздействие: методология и теория / Е.Ф. Тарасов // Оптимизация речевого воздействия. – М.: Наука, 1990. – С.5-18.

15. Фещенко В.В. Грамматика может быть пересоздана: Эксперимен-таль ная поэтика Гертруды Стайн (1920—1930-е гг.). М.: РАН. 2003. Т. 62. Вып. 1. 28 с.

İnternet Mənbəsi

16. http://englishadmin.com/2015/07/generic-structure-of-advertisement-and-samples.html

ВЮСАЛА САБИТ МАМЕДОВА

РЕКЛАМНЫЕ ТЕКСТЫ И ИХ СТРУКТУРА

РЕЗЮМЕ

Ключевые слова*: рекламные тексты, потребитель, эффективность рекламы, заголовок, подзаголовок;*

Данная статья посвящена изучению рекламы и ее структуры. Здесь анализируются реклама, рекламный текст, требования к оформлению рекламного текста, структура рекламного текста.

Сначала, были исследованы определения рекламы разными специалиста- ми. Далее приводятся мысли о 6 целях рекламы. Затем в статье анализируются 4 основные функции рекламы и изучаются точки зрения лингвистов на нее.

В этом небольшом исследовании представлены следующие основные элементы структурной части рекламных текстов. выразительный синтаксис, стилистические приемы одновременно, такие как, многоточие, градация, антитезис и т. д. Помимо этого, в статье используются следующие 7 принципов, которым следует обратить внимание при организации рекламы: конкретность, точность, логичность, убедительность, простота, оригинальность и выразит-ельность.

В результате исследования, отмечается что, текст должен быть настолько простым, чтобы его могли понять люди со средним IQ. Очень важно использовать слова, которые очень часто используются в повседневной жизни, использовать слова, которые легко запомнить.

В статье рассматриваются взгляды различных лингвистов на рекламу, ее функции и цели, а также состав рекламного текста.

VUSALA SABIT MAMMADOVA

ADVERTISING TEXTS AND THEIR STRUCTURE

SUMMARY

Key words: *advertising texts, consumer, advertising efficiency, headline, subtitle;*

This article is devoted to the study of advertising and its structure. Here, advertising, advertising text, requirements for the design of the advertising text, the structure of the advertising text are analyzed and studied.

Firstly, the definitions given to advertisment by different specialists have been investigated. Later, the thoughts about 6 purposes of advertising are given. Then, in the article, 4 main functions of advertisments are analysed and the viewpoints of linguists about it are looked through. In this small investigation, the following main elements of the structural part of advertisment texts are given. expressive syntax, stylistic devises at the same time, such as, ellipsis, gradation, antithese, etc. Besides the ones that are singled out here, in the article, the following 7 principles which should be followed in the organization of the advertisments take place: concreteness, exactness, logicalness, persuasion, simplicity, originality and expressiveness. Besides, verbal and non-verbal components, that show the effectiveness of advertismet texts are spoken about in the article.

As a result of investiagtion, it is noted that the text should be so simple that people with avarage IQ could understand it. İt is very important to use the words that are utilised in everyday life very much, to use the words which are easy to memorise.

The article considers the views of various linguists on advertising, its functions and purposes, as well as the composition of the advertising text.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya elmləri doktoru, dosent A.M.Bayramova
tərəfindən çapa tövsiyə olunmuşdur.

İLYASOVA GÜLNARƏ RƏHMAN QIZI
Odlar Yurdu Universiteti
Azərbaycan, Bakı, Koroğlu Rəhimov küçəsi
gulnarailys@gmail.com

SİNONİM SÖZLƏR VƏ ONUN TƏDRİS ZAMANI İNKİŞAF ETDİRİLMƏSİ

Xülasə

Azərbaycan dilinin bir dil olaraq özünəməxus zənginlikləri, rəngarəngliklər vardır. Dilin sahib olduğu bu keyfiyyətləri özündə əks etdirən əsas arqument sözlərdir. Sözlərin müxtəlif anlayışları mənalandırmaq xüsusiyyəti onlar arasında fərq yaratsa da, bəzən mənaca oxşarlıq da yarada bilir. Dilin lüğət tərkibində elə sözlər vardır ki, yazılışı və tələffüzü fərqli olan iki söz arasında məna oxşarlığı müşahidə edilir. Belə sözlərə, dilçilikdə sinonimlər deyilir. Sinonimlər öz daxilində üslubi, semantik, məntiqi cəhətdən fərqləndiyinə görə müxtəlif qruplar üzrə təsnif edilirlər. Sinonimlər leksik cəhətdən oxşarlığa malik ola bilirlər, bu baxımdan, onlar leksik sinonimlər adlanır. Leksik sinonimlərin iki növü vardır. Bunlar ideoqrafik və üslubi sinonimlər adlanır. İdeoqrafik sinonimlər dilin özünəməxsus məna çalarlarını dəqiq şəkildə ifadə etməyə xidmət göstərən sinonimlərə deyilir. Bu sinonimlər dil daxilində bir-birilərini tam şəkildə əvəz edə bilirlər. Buna görə də, bu növ sinonimlərə semantik sinonimlər də deyilir. Üslubi sinonimlər isə, semantik sinonimlər kimi bir-biri ilə hərtərəfli yaxın mənalılıq təşkil etmirlər. Əsasən, dilin üslubi rəngarəngliyini təsvir etməyə xidmət edirlər. Orta məktəb təhsilində şagirdlərə Azərbaycan dilini tədris edərkən onun bir dil olaraq sahib olduğu zənginliklər, rəngarəngliklər və özünəməxsusluq keyfiyyətləri şagirdlərin nəzərinə çatdırılmalıdır. Çünki, xarici bir dili ana dili kimi sərbəst bir şəkildə danışa və istifadə edə bilmək üçün dilin bu keyfiyyətlərinə bələd olmaq lazımdır. Şagirdlərin söz ehtiyatını zənginləşdirmək, nitqini inkişaf etdirmək üçün sinonimlər kimi leskik vahidlərin tədrisinə daha çox yer verilməlidir. Şagirdlərin gələcəkdə xarici dillərin asan öyrənilməsinə fayda göstərə biləcək dərəcədə əhəmiyyətə sahib mövzulardan biri də sinonimlərin tədrisi hesab oluna bilər. Çünki, şagird öz ana dilində nə qədər geniş söz ehtiyatına malik olarsa, ikinci bir dili qavramaqda o qədər də çətinliklərlə üzləşməz. Sinonimlərin tədrisi təkcə xarici dillərin öyrənilməsi baxımından əhəmiyyətli mövzu hesab olunmur. Azərbaycan dilində səlis, düzgün, anlaşıqlı və ifadəli nitqə sahib şəxsiyyətlər yetişdirmək üçün də sinonimlər mövzusunun tədrisinə ayrılan vaxt, diqqət kimi məsələlərə xüsusi nəzər yetirilməlidir.

Açar sözlər: Sinonimlər, sözlər, tədris, söz ehtiyatı, məna, anlayış, inkişaf, leksikologiya, yaxın mənalı, Azərbaycan dili.

Azərbaycan dilinin tədrisi metodikası əsas aktual mövzularından biri də dilin sahib olduğu söz ehtiyatına müvafiq şagirdlərin nitqinin zənginləşdirilməsi məsələsidir. Azərbaycan dili kurikulumunda oxu və yazı bacarıqları, axıcı oxuma, zəngin söz ehtiyatı və anlama kimi problemlər üzrə daha çox təlim fəaliyyətinə yer verilməsi əsas məqsədlər sırasında qoyulmuşdur. Çünki, şagirdlərin öz ana dili biliklərini şüurlu şəkildə və ətraflı öyrənə bilmələri üçün dilin sahib olduğu bütün incəlikləri mərhələli şəkildə mənimsəyə bilməlidir. Bunun üçün də ilk öncə, şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi əsas şərtlərdən biridir. Yəni, şagird nə qədər geniş söz ehtiyatına malik olsa, onun ana dili vasitəsilə yerinə yetirdiyi bütün oxu, yazı, anlama, dinləmə kimi fəaliyyətlər üzrə bacarıqları da formalaşacaqdır. Həmçinin şagird öz ana dilindən şüurlu şəkildə yararlana biləcəkdir. Bu məqamda dilin elə söz qrupları var ki, şagirdlərə onların tədris olunması böyük əhəmiyyət daşıyır. Bu söz qruplarından biri də, sinonimlərdir.

Sinonim sözlər mənaları eyni olan və ya bir-birinə yaxın olan sözlərdir. Linqvistik baxımından əslində, mənaca bir-birini tam əvəz edə bilən çox az söz vardır. Sinonim sözlər ümumilikdə bəzi sözlərdəki anlayış incəliklərinin müxtəlif sosial və dil seqmentlərində zamanla dəyişikliyə uğrayaraq mənaca bir-birinə yaxınlaşma nəticəsində yaranmışdır. Təkrardan qaçmaq üçün yaxın mənalı sözlərdən istifadə edərək dil öz daxilində yeni yaxın mənalı sözlər formalaşdıraraq zənginləşir. [1, 57]

Eyni varlığı, konsepsiyanı və ya vəziyyəti ifadə edən, fərqli yazılışa və tələffüzə malik olan və eyni mənaları ifadə edən sözlər sinonimlər adlanır. Tərifdən də anlaşıldığı kimi, sinonim sözlərin yazılışı və tələffüzü bir-birindən fərqlidir, lakin daşıdıqları mənalardan ən azı bir eyni olan sözlərdir. Bu sözlərə "yaxın mənalılar" və ya “mənadaş (ortaq mənalı)” da demək olar, çünki iki fərqli söz olmasına baxmayaraq ifadə etdikləri mənalar eynidir.

Bu gün dilimizdə "çevirmək, fırlatmaq", "göndərmək, yollamaq", "cansıxıcı, bezdirici" kimi sözlər görünüş baxımından sinonim kimi qəbul edilə bilər. Ancaq, əslində bu sözlər ayrı köklərdən yanmışdır və mənaca bir-birinə çox yaxınlaşmış sözlərdir.[1, 60]

Sinonimlərin səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

* Eyni anlayışları ifadə edən sözlərdir.

* Yaxın mənalı sözlərdən biri ümumiyyətlə alınma söz olur.

* Başqa dillərdən sinonim keçidləri təbii olaraq millətlər arasında mədəni mübadilə zamanı baş verir.

* Müasir Azərbaycan dilinə Ərəb, fars, türk və ingilis kimi dillərdən keçən yaxın mənlalılığı təmin edən bir çox söz vardır.

Ümumilikdə bir sözün yaxın mənalası hansı söz olduğunu müəyyən edən əsas amil cümlənin ümumi daşıdığı mənadır. Bunu nümunələr vasitəsilə daha yaxşı izah etmək olar:

“ Yaşadığımızın sıxıntının əsas səbəbi sevgisizlikdir.” cümləsində “ sıxıntı sözü “ Bu dəfəki səfərimiz çətin keçdi” cümləsindəki “çətin” sözü ilə yaxın mənalara malikdir. Lakin, “sıxıntı” sözünün sinonimi “çətin” deyildir.

Məlum olduğu kimi, sinonimlər iki yerə bölünür: Qrammatik və lüğəvi sinonimlər. Lüğəvi sinonimlərin isə iki növü vardır: leksik sinonimlər və frazeoloji sinonimlər.

Azərbaycan dilində formaca bir-birindən fərqli olub, mənaca yaxın olan sözlər vardır ki, bunlara leksik sinonimlər deyilir. Əslində, heç bir dildə tam eyni mənaya malik sözlər yoxdur. Bu cür sözlər ilk baxışdan eyni mənalı olduğu düşünülür. Ancaq, çox incə bir məna fərqi vardır.

Leksik sinonimlər bədii ifadə vasitələri sayəsində yaranır. Leksik sinonimlər mətn daxilində bir-birini əvəz etsə də, ayrılıqda sinonimlik təşkil etməyə bilərlər. Daha çox bir anlayışın müəyyən bir məna çalarını ifadə edən sözlər arasında leksik sinonimlik yaranır. Bu hadisəni ən yaxşı aşağıdakı şeir parçası üzərində müşaahidə etmək olar:

Çağladı **arzumuz, diləyimiz** də,
Divarın yanında biz dövrə vurduq.
Min nəğmə coşsa da ürəyimizdə,
Susduq, bir dəqiqə sükutla durduq.

(H. Xəzri)

Bu qar **istəyimiz** idi nə vaxtdan,
Xoş gələcək, biz onu arzulardıq.

(Ə. Kürçaylı)

Yaxud:

Hayıf ömür **qısa,** arzu genişdir,
Kim bu qayğı ilə titrəməmişdir?

(M. Müşfiq)

Qayaları baş- başadır,
Günəşləri tamaşadır.
Gödək ömrü çox yaşadır
Canım dağlar, gözüm dağlar!

(S. Vurğun).

Birinci iki bəndin misralarında işlənən arzum, diləyim və istəyim sözləri arasında leksik sinonimlik vardır. Lakin, “ Xəstə əməliyyatdan sonra istəyindən asılı olaraq ev şəraitində müalicə ala bilər.” cümləsində “istək” sözünün əvəzinə “ dilək” sözünü işlətmək olmur. Çünki, burada “ istək” sözü daha çox “seçim” mənasında işlədilmişdir.

Son iki bənddəki "qısa" və "gödək" sözləri şeirin ümumi mənası daxilində sinonimlik yaratmışdır. Lakin, " O, sözünü qısa şəkildə dedikdən sonra, evi tərk etdi" cümləsindəki "qısa" sözünü "gödək" sözü ilə əvəz etmək mümkün deyildir.

Leksik sinonimlərin məntiqi əlaqə, məna fərqi, üslubi cəhətləri kimi xüsusiyyətlərinə görə iki cür təsnif edilir:

1. İdeoqrafik və ya semantik sinonimlər.
2. Üslubi sinonimlər.
3. Dubletlər.

İdeoqrafik sinonimlər dilə məxsus məna çalarlığını dəqiq şəkildə ifadə etməyə xidmət göstərən sinonimlərə deyilir. İdeoqrafik sinonimlər dilin incəliklərini dəqiq şəkildə əks etdirə bildiklərinə görə bir-birinin yerində rahatlıqla işlənə bilir. Məsələn,

- Balaca, zəif (cılız) bir oğlan idi.
- Qonşuluğumuzun ən kasıb (yoxsul) adamlarından biri idi.
- Bu dünyada ən vacib şey sağlamlıqdır (səhhət).
- Dərdini deməyənlər dəva (dərman) tapa bilməz.[4, 443]

Üslubi sinonimlər semantik sinonimlərdən fərqli olaraq tam şəkildə bir-biri ilə yaxın mənalı sayılmır. Daha çox dilin üslubi rəngarəngliyini əks etdirrməyə xidmət edirlər. Bunu aşağıdakı şeir parçasında nəzərdən keçirmək olar[8, 278]:

Qardaşım! Sən nahaq **yalvardın** ona,
Söz əsər eləməz qəlbi pozğuna...

(S. Vurğun).

Elədimi yüz ləli
Sərraf çəkər yüz ləli,
Namərd gəlib mərd olmaz,
Yüz sızılda, **yüz ləli**

(Bayatı).

Olarsız ki, heç qoymazlar yaxına,
Döyə- döyə öldürərlər, ağlarsan

(M.V. Vidadi).

...Söylərsən sözünü dəli sərsəri,
hər biri bir yandan **budar** ağlarsan

(M.P.Vaqif).

Şeir parçasında işlədilmiş " yalvarmaq" sözü ilə "ləlimək" sözü arasında üslubi sinonimlik vardır. "Döymək" sözü "budamaq" sözü arasıda da üslubi sinonimlik müşahidə olunur. Bu sinonimlərin ikinci tərəfləri loru sözlər olduğundan daha çox danışıq dilində rast gəlinən sözlərdir.[3, 441] Üslubi sinonimlər əsasən, loru dildə işlənən sözlər, poetizimlər, dialektizmlər sayəsində yaranır.

Bir məna qrupunu ifadə edən sözlər sinonimik cərgə adlanır. Sinonim cərgələrdə iştirak edən sözlərin miqdarından asılı olaraq onların dairəsi dar və ya geniş olur . Bu cəhətdən dilimizdə aşağıdakı kimi sinonim cərgələrə rast gəlirik . Bunlardan biri dominant - aparıcı olur , əsas mənanı dolğun ifadə edir . Məsələn , ürək , can , könül , qalb . Burada ürək dominant sözdür . [3, 31]

Od kimi qoynundan keçər odların,
Çəkilməz önündan boranı, qarın,
Əzəldən dostluğun, əhdin ilqarın,
Mayası ürəkdir, **duzu** ürəkdir .

(Hüseyn Arif)

Ədəbi materiala xidmət edən üslubi sinonimlər şeirdə mayası, duzu sözlərində öz əksini tapmışdır. Ayrılıqda isə bu leksik vahidlər sinonim cərgə belə düzəldə bilməz.

Üslub xüsusiyyətlərinə görə sinonim sözlərdən belə istifadə olunur.

İfadəni qüvvətləndirmək üçün hər hansı bir sözün sinonimi olan başqa bir söz işlədilir:

Nəhang maşınların gurlayır səsi,
Odur dalğalanır yarış bayrağı.

(I.Səfərli)

Car çəkir çarxların çaxnaşıq səsi,
Car çəkir, **qışqırır** nəhəng motorlar.
O daşlı, qumsallı, gilli torpağı
Udur, lay - lay udur ekskavatorlar,
Hay salır, qışqırır **nəhəng** motorlar.

(S. Vurğun)

Bu misallarda səs salır, böyük sözləri əvəzinə onların car çəkir, hay salır, qışqırır və nəhəng sinonimləri işlədilmişdir.

Bunun kimi, ifadəni qüvvətləndirmək üçün çağırmaq, qorunmaq, yaraq, dava, böyük, vəhşi, qul, qurtarmaq və s . sözləri onların sinonimi olan dəvət etmək, müdafiə etmək, müharibə, ulu, yırtıcı, kölə, xilas etmək kimi sözlərlə əvəz etmək olar .

İfadəni qüvvətləndirmək üçün çox zaman hər hansı bir söz əvəzinə onun sinonimi olan idiom işlədilir .

Qoca Şahdağımın , ulu Qosqarın
Ürək sərinlədən qarı bol olsun ...

(R.Rza)

Burada *soyuq* sözü əvəzinə *ürək sərinlədən* idiomu işlədilmişdir .

Əkin... göz işlədikcə əkindir yaxın, uzaq.

(Ə.Cəmil)

Bu misalda şair baxdıqca sözünü göz işlədikcə idiomu ilə əvəz etmişdir .

Nə çoxdur qoynunda almalı bağlar ,
Qüdrətim göylərin **dilini bağlar** ...
(S.Vurğun)

Bu misalda susdurar əvəzinə dilini bağlar idiomu işlədilmişdir . [3, 32]

Eyni məqsədlə , bəzi hallarda , bir idiom onun sinonimi olan başqa idiom yerinə işlədilir . Məsələn, başdan eləmək əvəzinə başımı əkmək; rəngdən - rəngə girmək əvəzinə rəng alıb, rəng vermək, zəhləsini tökmək əvəzinə baş - beynini aparmaq , baş çıxarmamaq əvəzinə, kələfin ucunu itirmək idiomlarını onların sinonimi kimi işlətmək olar.

Dilin lüğət tərkibində elə sözlər vardır ki, onlar arasında tam şəkildə yaxın mənalılıq yaranır. Nə mənaca, nə də üslubi cəhətdən fərqi olmayan sözlərə leksik dubletlər deyilir. Məsələn, aktiv və fəal sözləri leskik dubletlərdir. Bu sözlər bir-birini mənaca tam əvəz edə bilir. [1, 166] Dubletlər dili lazımsız sözlərin təkrarı hesabına ağırlaşdırır və ifadənin səlisliyini pozur . Dubletlər forma və mənşəyi müxtəlif olan sözlərdir, onlar mətna görə neytral olur, çünki mənaca bir - birinin tam eyni olan sözlərdir. Buna göra də müxtəlif şəraitda (mətn, nitq, situasiya) məna fərqi yaratmır və bir - birini əvəz edə bilir . Məsələn, universitet - darülfünun, eynək - çeşmək - gözlük, ağ - bəyaz, bahar - yaz, ad - san, dava - dərman, sağ - salamat, bica - versiz, künc - bucaq, şərəf – san. Sinonim dubletlərin bir hissesi arxaikləşmiş da ola bilər: Ayaq – qədəm, aydır - deyir, nasna - şey, dün - gecə, sayru - xəstə, tuş - yuxu, tanıq - şahid, sağ - əsən və s .[3, 27]

Sözlərin məna problemini dedikdə ağıla gələn ilk məsələlərdən biri də yaxın mənalılıqdır. Söz ehtiyatı dilin, ünsiyyətin və buna bağlı olaraq dil tədrisinin ən əhəmiyyətli arqumentlərindən biri sayılır. Söz ehtiyatı şəxsin ötürülən məlumatları anlama, özünü ifadə etmək bacarıqlarına olan təsiri və bu təsirin əhəmiyyəti bir çox elmi araşdırmaların mövzusu olmuşdur.

Sözlərin tədrisində əsas faktor olan söz kiçik və bəsit kimi görünsə də, onun yerinə yetirdiyi funksiyalar ana dilini öyrənənlərin nitqinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, sinonimlərin tədrisi xüsusi diqqət tələb edir.

Azərbaycan dili dərslərində sinonimlərin tədrisi yalnız lüğət tədrisinin aparıldığı adi bir təhsil və ya təlim fəaliyyəti kimi qəbul edilməməlidir. Bu təlim mədəniyyət və ictimailəşmə tərbiyəsi olaraq da başa düşülməlidir. Beləliklə, sinonimlər lüğəti tədris edilərkən şagirdlərə ictimai mədəniyyət, etika da aşılanır desək, yanılmarıq. Bu səbəbdən, sinonimlərin tədrisi diqqət edilməli məsələlərdən biridir [8, 329].

Tədris olunan sinonim sözlərin gündəlik həyatda qalıcı və işlək hala gətirilməsi üçün şagirdlərlə xüsusi fəaliyyətlər təşkil olunmalıdır. Bu sahədəki araşdırmalara baxaraq, sinonimlərin tədrisində bir çox metod və texnikadan istifadə edildiyi qənaətinə gəlmək olar:[4, 442]

1. semantik analiz (məna baxımından),
2. əlaqələndirmə,

3. beyin fırtınası,
4. kombinə edilmiş metod (antonimlərlə,omonimlərlə, terminlərlə qarışıq təlim)
5. tapmaca texnikası,
6. birbaşa metod,
7. dramatizasiya,
8. dörd çərçivə strategiyası,
9. uyğunlaşdırma,
10. müşahidə,
11. qruplaşdırma, təsnifetmə
12. assosiativ metod,
13. jestika,
14. təqlid, yamsılama
15. təsvir etmə, izahetmə
16. sinonim xəritələri və s.

Bu metodları dəstəkləyən müxtəlif fəaliyyətlərin təşkili sinonimlərin tədrisində qarşıya qoyulan məqsədə çatmağa yardım edir. Buna əsasən, sinonimlər tədris olunan zaman şagirdlərin təbiətinə, tələbatına və marağına uyğun oyun mərkəzli təlim mühiti yaradılmalıdır. Ana dilinin tədrisində sinonimlərin şagirdlər tərəfindən yaxşı mənimsənilməsi üçün onların daxili aləminə xitab edən təlim fəaliyyətlərinin təşkil olunmasının böyük faydasının olduğu vurğulanır.

Sinonimlərin tədrisində müəllimlərin təlim fəaliyyətində nəzərə alması gərəkli olan və tətbiq etməsində faydası olan addımları aşağıdakı kimi təsvir etmək olar:

a. Yeni sözləri tədris edərkən onun daşıdığı məna ətraflı izah edilməli və onlara uyğun sinonimlər şagirdlərə hər dərs tanıdılmalıdır.
b. Mənası tam aydın olmayan sinonimlər üzrə işə daha çox vaxt ayrılmalı və şagirdlərə çoxlu sayda nümunə cümlələr nümayiş etdirilməlidir.
c. Yeni öyrənilən iki fərqli söz arasında əgər sinonimlik varsa bu əlaqə şagirdlərin nəzərinə çatdırılmalıdır.
d. Sinonimləri digər söz qrupları ilə qarışdırmamaları üçün şagirdlər qarışıq çalışmalar üzrə işə cəlb olunmaldırlar.
e. Mətnlər üzrə iş zamanı şagirdlərin müstəqil şəkildə sinonimləri digər sözlərdən ayrıd etmələrinə vaxt tanımalı, səhvlərinə sonda müdaxilə edilməlidir. Şagirdlər nəinki, mətnlər üzrə iş zamanı digər bütün çalışmaların həllində sərbəst fikir yürüdə bilməli və bu yolla şüurlu şəkildə sinonimləri mənimsəyə bilmələri üçün şərait yaradılmalıdır.
f. Tədris zamanı şagirdlərə təqdim olunan istər mətnlər, istər çalışmaların məzmununda daha məhsuldar və şagirdlərin söz ehtiyatını zənginləşdirməsinə xidmət edən sinonimlər seçilməlidir.

g. Müəllim sinonimlərə izah verərkən jestika, mimikadan istifadə etməyə diqqət göstərməli, şagirdlərə bəzən təqlid yolu ilə bu bacarıqlara yiyələnmələrinə imkan yaratmalıdır.[7, 235]

Dilin şüurlu mənimsənilməsində xüsusi rola malik olan sinonimlərin tədrisində yuxarıdakı addımlardan məlum olduğu kimi, müəllimin rolu böyükdür.[7, 222]

Sinonimlərin tədrisində tapmaca üsulunun faydalı olduğu metodoloji mənbələrdə qeyd olunmuşdur. Tapmacaları öyrənmə fəaliyyətinə tətbiq etməklə əyləncəli təlim mühiti yaradıla bilər. Bu isə, şagirdlər sinonimləri dərs materialı olaraq görmür, oynayaraq sinonimləri öyrənməsinə imkan verir, yəni şagird dərsdə olduğunu unudur və zehni yorulmadan yeni sinonimlər öyrənir.

Tapmacalar üsulu ilə sinonimləri tədris etməkdə ən xüsusi üstünlük fərqli öyrənmə üslubuna malik olan şagirdlərin birlikdə təlimə qoşula bilməsinə və fəal şəkildə fəaliyyətlərdə iştiraka etməyə həvəs göstərmələrinə imkab verir. Şagirdyönümlü fəaliyyət hesab olunur. Tapmacaların həlli zamanı şagirdlərin müxtəlif qabiliyyətləri ortaya çıxa bilir və bu da, onlarda özünə inam yaratmağa səbəb olur. Tapmacalar imkan verir ki, şagirdlər müxtəlif anlayışları sinonimlər vasitəsilə bir daha nəzərdən keçirsin və ona qaranlıq qalan bir sıra sözləri yaxın mənaları ilə birlikdə araşdırarkən başa düşə bilsin. Sinonimləri tapmacalarla tədris etmək şagirdlərin məntiqi, yaradıcı təfəkkürünü inkişaf etdirir. Bu yolla, şagirdlər həm əylənərək öyrənir, həm də zehni fəaliyyət ilə məşğul ola bilirlər.

Summary

Ilyasova Gulnara Rahman

SYNONYMOUS WORDS AND ITS DEVELOPMENT DURING TEACHING

The Azerbaijani language as a language has its own richness and diversity. The main argument that reflects these qualities of language is words. Although the ability of words to interpret different concepts makes a difference between them, it can sometimes create similarities in meaning. There are words in the vocabulary of a language that have similar meanings between two words with different spellings and pronunciations. Such words are called synonyms in linguistics. Synonyms are classified into different groups due to their stylistic, semantic and logical differences. Synonyms can be lexically similar, in this sense, they are called lexical synonyms. There are two types of lexical synonyms. These are called ideographic and stylistic synonyms. Ideographic synonyms are synonyms that serve to accurately express the specific shades of meaning of the language. These synonyms can completely replace each other within the language. Therefore, such synonyms are also called semantic synonyms. Stylistic synonyms, on the other hand, are not as closely related to each other as semantic synonyms. They mainly serve to describe the stylistic diversity of

the language.When teaching the Azerbaijani language to students in secondary education, the richness, diversity and originality of the language should be brought to the attention of students. Because, in order to be able to speak and use a foreign language fluently as a mother tongue, it is necessary to be aware of these qualities of the language. Also, more attention should be paid to the teaching of lexical units such as synonyms in order to enrich students' vocabulary and develop their speech. One of the most important topics that can help students learn foreign languages easily in the future is the teaching of synonyms. Because the more vocabulary a student has in their mother tongue, the less difficulty they will have in understanding a second language. The teaching of synonyms is not only an important topic in terms of learning foreign languages. In order to cultivate fluent, correct, understandable and expressive speech in the Azerbaijani language, special attention should be paid to issues such as time and attention to the teaching of synonyms.
Key words: Синонимы, words, teaching, vocabulary, meaning , understanding, development, lexicology, close meaning, Azerbaijani language.

Резюме

Ильясова Гульнара Рахман

СИНОНИМИЧЕСКИЕ СЛОВА И ИХ РАЗВИТИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

Азербайджанский язык как язык имеет свое богатство и разнообразие. Главный аргумент, отражающий эти качества языка, - это слова. Хотя способность слов интерпретировать разные понятия делает их различие, иногда это может создавать сходство в значении. В словаре языка есть слова, которые имеют схожие значения между двумя словами с разным написанием и произношением. Такие слова в лингвистике называют синонимами. Синонимы классифицируются по разным группам из-за их стилистических, семантических и логических различий. Синонимы могут быть лексически подобными, в этом смысле они называются лексическими синонимами. Есть два типа лексических синонимов. Их называют идеографическими и стилистическими синонимами. Идеографические синонимы - это синонимы, которые служат для точного выражения определенных оттенков значения языка. Эти синонимы могут полностью заменять друг друга в пределах языка. Поэтому такие синонимы еще называют семантическими синонимами. С другой стороны, стилистические синонимы не так тесно связаны друг с другом, как семантические синонимы. В основном они служат для описания стилистического разнообразия языка. При обучении азербайджанскому языку учащихся средних школ следует обращать внимание учащихся на богатство, разнообразие и оригинальность языка. Потому что для того, чтобы свободно говорить и использовать иностранный язык в качестве родного языка,

необходимо знать эти качества языка. Также больше внимания следует уделять обучению лексическим единицам, таким как синонимы чтобы обогатить словарный запас учащихся и развить их речь. Одна из самых важных тем, которая может помочь студентам легко выучить иностранные языки в будущем, - это обучение синонимам. Поскольку чем больше словарный запас у учащегося на родном языке, тем меньше у него трудностей в понимании второго языка. Обучение синонимам - важная тема не только с точки зрения изучения иностранных языков. Для развития беглой, правильной, понятной и выразительной речи на азербайджанском языке особое внимание следует уделять таким вопросам, как время и внимание к обучению синонимам.

Ключевые слова: Synonyms, слова, обучение, имея в виду, понимание, развитие, лексикология, близкое значение, Азербайджанский язык.

Ədəbiyyat siyahısı

1. Ağarəhim. Əsərlər. 20 cilddə. XX cild (Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə)). Bakı, BQU nəşriyyatı, 2015, 470 s.
2. Əfəndiyeva T. (1980). Azərbaycan dilinin leksik üslubiyyatı Bakı:Elm
3. Cəfərova S. Müasir Azərbaycan dili, II hissə. Leksika, Bakı, "Şərq-Qərb", 2007, 192 səh.
4. Qurbanov A., Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003, s. 463
5. Məmmədov. İ. T .Azərbaycan dilində qrammatik sinonimlik. Bakı, 1985.
6. Mustafayeva Q. (2010). Azərbaycan dilinin üslubiyyatı. Bakı: Elm.
7. Süleyman Səfər oğlu Hüseynov, Elvira Muxtar qızı Qaracayeva. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, "Elm və təhsil", 2016, 408 səh.
8. Xəlilov B. (2008). Müasir Azərbaycan dilinin leksikologiyası,Bakı: Elm və təhsil.s.442

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: F.f.d. dos. Abdurəhmanova Səadət Xalid
tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏLİYEVA NURAY FÜZULI QIZI
Odlar Yurdu Universiteti
Ünvan: Azərbaycan, Bakı, Koroğlu Rəhimov küçəsi
kalashovanuray@gmail.com

ANTONİM SÖZLƏR VƏ ONLARIN TƏDRİS ZAMANI İSTİFADƏSİ

Açar sözlər: Antonimlər, sözlər, əks mənalı, İngilis dili, söz ehtiyatı, məna, növ, leksik vahidlər , metod, istifadə.

Ключевые слова: Антонимы, слова, противоположное значение, английский язык, словарь, имея в виду, своего рода , лексические единицы.

Key words: Antonyms, words, opposite meaning, English language, vocabulary, meaning, type, lexical units, method , meaning , use.

Əks və ya zidd məna bildirən sözlər antonimlər adlanır. Məsələn, Good is antonym of bad – Yaxşı sözünün əks mənası pisdir. Light is antonym of heavy – Yüngül sözünün antonimi ağırdır. Başqa nümunələrə və onların Azərbaycan dilindəki qarşılığına nəzər salaq:

1- Healty / Sick - Sağlam/ Xəstə
2- Hot / Cold - İsti / Soyuq
3- White / Black - Ağ/ Qara
4- Yesterday / Tomorrow – Dünən /Sabah
5- Happy / Unhappy – Xoşbəxt / Bədbəxt
6- Brave / Funky (Coward) – Cəsur / Qorxaq
7- Strong / Weak - Güçlü / Zəif
8- Hardworking / Lazy – Çalışqan / Tənbəl
9- Informed / Ignorant - Bilikli / Cahil
10- Thin / Thick – İncə / Qalın
11- Pleasant / Unseemly – Gözəl / Çirkin
12- Charming / Repulsive – Cəlbedici/ Kifir
13- Young / Old – Gənc / Qoca
14- Moderate / Bad Tempered – Yola gedən, uyğunlaşan, mehriban – Tərs
15- Sparkling / Shady - Parıltılı / Kölgəli
16- Chatty (Talkative) / Discreet – Çox danışan / Ağzı kip
17- Extrovert / Withdrawn - Ekstravet/ İçine qapanıq
18- Rapid / Slow – Sürətli / Yavaş
19- İnterior / Outside - Daxili / Xarici
20- Friend / Enemy - Dost / Düşmən

Mənaca bir-birinin əksi olan sözlər antonimliyi əmələ gətirir. Black – white, small-big kimi sözlər antonimlərə misal ola bilər. Məna baxımından əks mənalı sözlərin bir çox növündən bəhs etmək olar [1, 498].

Antonimlər cümləni mənalandırmaq, onu zənginləşdirmək baxımından əhəmiyyətli sözlər qrupu hesab olunur. Yuxarıda verilmiş antonimlərin cümlədə işlənmə formasına diqqət yetirək:

1.A- I have never seen such a repulsive person in my life.
Həyatımda onun qədər iyrənc bir insan görmədim.
1.B- She is pleasant and charming woman.
O, gözəl ve cəlbedici bir qadındır.
1.C- It's easy to get along with moderate people like her.
Onun kimi yola gedən insanlarla anlaşmaq çok asandır.
1.D- Mahmud is very talkative and friendly.
Mahmud çox danışan və mehriban insandır.

İngilis dilində də Azərbaycan dilində olduğu kimi bir cümlədə söz və onun antonimi birlikdə işlənə bilir.

1- I'm tired of her cold and hot treatment towards me.
Mənə qarşı bir isti bir soyuq davranmasından yoruldum.
2- I just cannot decide whether he is brave or coward.
Heç bir cürə qərar verə bilmirəm ki, o, cəsur yoxsa qorxaq insandır.
3- You have to walk slowly, then at a fast pace.
Əvvəlcə yavaş sonra sürətli templə yeriməlisən.

"Antonim" sözü yunan dilindən götürülmüşdür, iki sözdən əmələ gəlmişdir: "anti" – qarşı və "onim" – ad mənasını daşıyır. Deməli, antonim başqa bir sözün əksinə olan mənasını ifadə edən sözlərdir. Dil mürəkkəb olduğundan və oxşar mənaları olan bir çox sözlər ola bildiyinə görə bəzən, antonim tam əks məna bildirmir, nisbi zidd mənalar bildirən antonimlər də vardır.[1, 487]

Lakin, bir sözün əks mənasını tək bir sözlə göstərməkdən əlavə, birdən çox antonim ilə ifadə etmək də olar. Məsələn, "good" sözünün əks mənaları – wicked, sour, malicious, evil, corrupt, bad və s. ola bilər. Bunun ən təməl səbəblərindən biri "good" sözünün digər bir çox söz kimi isim ya da sifət kimi işlənə bilməsidir. İkinci bir səbəb isə, zidd mənalıların tam olaraq əks məna bildirmələri gərəkli deyildir.

Məsələn, isti - hot sözünün əks mənası kimi cold -soyuq və ya cool-sərin sözlərindən biri antonim ola bilər. Beləliklə, düzgün olanı seçmək vacibdir və bunun üçün ingilis dilində antonimlərin doğru istifadəsini öyrənmək, onların bütün mənalarını ətraflı təhlil etmək gərəkdir. "Cool" sözü həm şık, həm də sərin mənasında istifadə olunur, bu səbəbdən sərin-cool sözünün hot-isti sözünün antonimi kimi götürmək yaxşı bir seçim olmaya bilər. Antonimlərin düzgün istifadəsini öyrənmək üçün aşağıda qeyd olunan mənaca növləri düzgün başa düşmək lazımdır.

Antonimlərin quruluşca iki növü vardır: leksik antonimlər və qrammatik antonimlər. İki fərqli mənalı söz cütləri leksik antonimləri əmələ gətirir, Məsələn,

yaxşı – good, pis -bad. Sözlərə ön və ya son şəkilçilər əlavə edərək yaranan antonimlər isə qrammatik antonimlər adlanır. Məsələn, slowly – yavaşca, quickly, rapidly- sürətlə, incorrect -yalnış, səhv, correct – düzgün və s [4, 405].

Antonimlər məna baxımından üç kateqoriyaya bölünür: Relational Antonimlər, Graded Antonimlər və complementary Antonimlər. Yəni, Azərbaycan dilində desək, əlaqəli və ya qarşılıqlı antonimlər, nisbi antonimlər və tamamlayıcı, tam antonimlər vardır.

Relational antonyms, yəni əlaqəli, qarşılıqlı antonimlər iki əks mənalı sözlər arasında olan qarşılıqlı əlaqəni göstərən söz cütləridir. Yəni, antonimilik bildirən iki söz arasında qarşılıqlı əlaqə vardır. Bunlar, hər zaman birlikdə çıxış edirlər. Yəni, onları bir uşaq və valideyn arasındakı münasibətə bənzətmək olar. Əlaqəli antonimlər digəri olmadan təsəvvür etmək mümkün deyildir, nümunələr ilə bunu daha yaxşı başa düşmək olar:

. Front: Back Ön - Arxa
· Uncle: Aunt Əmi – Bibi/ Dayı - Xala
· Hello: Goodbye Salam - Sağol
. Above: Below, Yuxarı – Aşağı
. Doctor:Patient, Həkim – Xəstə
. Husband :Wife, Ər – Arvad
. Servant: Master, Qulluqçu– Ağa , Fəhlə - Usta
. Borrow :Lend, Borc almaq – Borc vermək
. Give: Receive, Vermək – Almaq
. Predator: Prey, Yırtıcı - Şikar
. Buy: Sell Almaq – Satmaq

Graded Antonyms yəni, Nisbi antonimlər iki əks mənalı sözlər arasındakı müxtəlifliyi göstərən sözlər cütüdür. Daha çox müəyyən bir halı, vəziyyəti qiymətləndirərkən istifadə olunan əks mənalı sözlərdir. Və ya hər hansı bir anlayışın müəyyən bir səviyyəsini ifadə etməyə xidmət edən antonimləridir. Məsələn, Early- erkən, late- gec sözləri zaman anlayışının müəyyən səviyyələrini təsvir edirlər və bunlar öz aralarında ziddlik təşkil edirlər. [1,485]

Huge, Big, little, bulky, full-size, slight, petite və s. Digər nümunələr bunlardır :

· Sad: Happy Kədərli – Xoşbəxt
· Healthy: Sick Sağlam - Xəstə
· Smart: Stupid Ağıllı – Axmaq, dəli

Üçüncü növ antonimlər isə, Complimentary antonyms, yəni, tam antonimlərdir. Burada ifadə olunan ziddiyyət müəyyən dərəcə və səviyyə bildirmir. Bu antonimlər arasında orta səviyyə yoxdur, mümkün şəkildə iki zidd varlığı bildirən sözlər cütüdür. Bunu bir neçə nümunə üzərində nəzərdən keçirək [7]:

· Dead – Alive Ölü – Diri
· Male- female Kişi – Qadın
· On - Off Yandırıb – söndürmə

. Boy - Girl, Qız – Oğlan
. Night – Day Gecə - Gündüz
. Entrance - Exit Giriş - Çıxış
. Exterior - İnterior Xarici - Daxili
. Daughter – Son Qız - Oğul
. True – False Doğru – Yalan
. Push - Pull İtələmək – Dartmaq

Yuxarıda verilmiş nümunələrdən də məlum olduğu kimi, mənaca fərqlənən antonimləri cümlədə düzgün işlədə bilmək üçün hər kateqoriyanı ayrılıqda başa düşmək lazımdır. Bundan əlavə, antonimlərin ifadə etdiyi konteksti müyyən etməklə hansı məna növünə aid olduğunu da dəqiqləşdirmək lazımdır. Bununla da, hər sözün özünə uyğun əks mənasını tapmaq asanlaşacaqdır.

Ümumilikdə, hər bir leksik mənaya malik olan söz verdiyi məna baxımından nisbi də olsa nə ifadə etmədiyi haqqında məlumat verir. Məsələn, erkək dişi olmayan varlıq, ölü isə, yaşamayan insan, heyvan mənasını daşıyır. Hər sözün nə ifadə etdiyi bu cür uzun birləşmə və ya cümləylə təsvir etmək çətindir. Buna görə, dilçilikdə bir sözün mənasını izah etmək üçün ya oxşar, yaxın mənalı söz ilə əvəz edilir, ya da tamamilə əks, zidd bir məna ifadə edən sözü nümunə göstərərək nə olmadığı aydınlaşdırılır. Əks məna bildirən sözlər həm gərəksiz təkrardan yayınmağa, həm də cümləni fərqli qurmağa imkan verir. Antonimlər bu yolla dildən istifadə edən insanların nitqini zənginləşdirir [3, 15].

Ziddlik anlayışı xüsusiyyətlərinə görə sıfırdan sonsuza qədər dərəcələndirilə bilən sözlərə aiddir. Buna görə də, hər anlayışın ziddi yoxdur desək, yanılmarıq. İsti ilə soyuq – hot / cold sözləri antonimdirlər. Lakin, dondurucu və ilıq , freezer və warm heç bir ziddlik təşkil etmədiyindən antonim sayılmır. Bir sözün neqativi onun antonimi hesab oluna bilməz.

İngilis dili söz ehtiyatı baxımından zəngin oluduğu üçün təbii olaraq, antonim sözlər həddindən çoxdur. Buna görə də, antomimlərin tədrisinə uzun bir müddət ayrılmalıdır.

Yuxarıda qeyd edildiyi kimi, yeni sözlərin öyrənilməsi zamanı antonimlərdən istifadə etmək faydalı metdolardan sayılır. Şagirdlər əgər yeni sözün mənasını bilmirlərsə, onlara bu sözü tanıdıqları əks məna ilə izah etmək daha şüurlu söz bazasına sahib olmalarına yardımçı olur.

Sözlərin daha uzun müddət hafizədə qalıcı şəkildə saxlanılması üçün müəllimlər antonimlərdən bir üsul kimi istifadə edirlər. Şagirdləri bu üsul söz əzbərçiliyindən uzaqlaşdırır və yeni sözləri öz nitqlərində şüurlu şəkildə istifadə edə bilirlər.

İngilis dilində söz ehtiyatını inkişaf etdirmək üçün sözlərin əks mənalarını öyrənmək ən əlverişli üsullardan hesab olunur. Sözlərin əks mənalarını öyrənərək söz ehtiyatını zənginləşdirmək üsulu olduqca geniş istifadə olunan üsuldur. Çünki, bir sözü öyrənərkən onun eyni zamanda əks mənasını öyrənmək, həm sözün yadda

saxlanılmasını asanlaşdırır və qalıcılığını artırır, həm də antonimlərini öyrənərək 2 və ya daha çox sözü tez bir zamanda mənimsəyə imkan verir.

İngilis dilində əks mənalı sözləri tədris etmək üçün bir neçə üsuldan istifadə etmək olar. Bunlara misal aşağıdakıları göstərmək olar:

1. Söz kartları
2. Söz oyunları
3. Mətn oxuma (antonimləri mətndən seçmək)
4. Yazaraq öyrənmə
5. Tapmaca ilə öyrənmə və [4,417]s.

Söz kartları kiçik yaşlı məktəblilərə antonimləri öyrətməyin ən sadə və əyləncəli üsullarından biri sayılır. Şagirdlərə aydın olmayan sözlərin mənasını təsvir şəkildə göstərmək onların yeni sözləri tez bir zamanda mənimsəmələrinə kömək edir.



Məsələn, yuxarıda verilən rəsmdə məkan bildirən " inside" yəni, "içəri, içərisində" sözünü izah etmək üçün şagirdlər bu cür kart verilə bilər. Müəllim, quşa işarə edərək "içəri" anlayışını şagirdlərin nəzərinə çatdıra bilər. Burada, "inside" sözünün antonimi olan "outside", yəni, " çöldə, çölündə" sözü verilmişdir. Bu da, şagirdlər bu anlayışları daha ətraflı şəkildə mənimsəyə bilmələri üçün şərait yaradır. Deməli, şagirdlər yeni söz ilə birlikdə onun antonimini də öyrənə bilər və daha yeni bir söz ilə bu yolla tanış ola bilərlər.

Söz oyunları antonimlərin tədrisində xüsusi yerə malikdir. Bu üsul ilə təlim daha maraqli təşkil oluna və interaktiv təlim mühiti yaradıla bilər. Söz oyunlarına aşağıdakı nümunələri göstərmək olar [4, 424]:

1. **Əksini de oyunu.** Bu oyuna başlamazdan öncə müəllim sinfi iki qrupa bölməlidir. A qrupuna müəllim öncədən hazırladığı sifətləri yazılı iş vərəqlərində paylayır. B qrupu isə, iş vərəqlərində verilən sözlərin əks mənaları paylanılır. Müəllim A qrupundakı bir şagirdi qaldıraraq iş vərəqindəki sifətlərdən birini söylənməsini istəyir. Şagirdin söylədiyi sözün əks mənalısını bilən B qrupundakı şagirdlər əlini qaldıraraq düzgün cavabı səsləndirir. Əgər, cavab düzgün olarsa, B qrubundakı şagird sual vermək haqqını qazanır və iş vərəqindəki sözlərdən birini qarşı qrupdakı

şagirdlərə ünvanlayır. Bu yolla, hər tərfli şəkildə antonim sözləri sinifdə tədris etmək olar. Şagirdlərin ingilis dilində tələffüz problemlərinin də həm müəyyən olunmasına, həm də aradan qaldırılmasına kömək edəcək bir metod sayılır.

2. **Bilən oturur.** Bu oyun isə, əks mənalı sözlərin mənimsənilməsində faydalı hesab olunur. Müəllim lövhədə əks mənalı sözləri yazır, sinifdəki bütün şagirdlər ayağa qalxır, daha sonra sıra ilə müəllim şagirdlərdən lövhədə yazılan sözlərdən hansının bir-biri ilə əks mənalı olduğunu deməlidir.Düzgün cavabı verən şagirdlər yerlərinə oturur. Əgər şagirdlərdən biri yalnış cavab verərsə, dügzün cavablar səsləndirildikdən sonra bu şagirdə yenidən sual verilir. Şagirdlərin hamısı düzgün antonimləri tapana qədər oyun davam edir və proses təkrarlanır. Müəllim, saysız antonim nümunələri yazaraq, şagirdlərin çoxlu sayda antonim sözlər öyrənməsinə kömək edir. Hər şagirdə ayrı antonim cütü verildiyinə görə, oyun bitdikdə, bir dərs ərzində öyrənilə biləcək maksimum sayda əks mənalı söz şagirdlərin diqqətinə çatdırılmış olur.
3. **Qulaqdan-qulağa söylə oyunu.** Bu oyun bir ümumi dərs müddətində təşkil olunmalıdır. Çünki oyun bir sıra mərhələlərdən ibarətdir. Aşağıda oyunun mərhələləri təsvir edilmişdir:
   a. Sinif qruplara bölünür və liderlər seçilir.
   b. Qruplar sinifdə paralel şəkildə sıra ilə əyləşirlər.
   c. Oyunda əsas rəhbər müəllimin olduğu açıqlandıqdan sonra, müəllim oyunun şərtlərini sinfə izah edir.
   d. Müəllim tərəfindən müəyyən olunan sözlər qrup liderlərinin qulağına söylənilir.
   e. Qrup liderləri öz əməkdaşlarından birinin qulağına bu sözü söyləyir və bütün qrup digərinin qulağıma eşitdiyi sözü söyləyir. Öndən arxaya doğru hər bir şagirdə məlumat ötürülür. Birinci şagird eşitdiyi sözün əks mənasını tapmalıdır. Əgər tapa bilməzsə, ondan sonrakı şagirdlər müəllimin istəyi ilə sualı cavablandırır.
   f. Zamanla yarış olduğuna görə qrupdakı hər şagirdə bu söz söylənməli öndəki şagirdlər cavablandıra bilməzsə arxdakı şagirdlər hazır şəkildə növbəsini gözləməlidir.
   g. Qrupdakı şagirdlərdən hər biri müəyyən suala cavab verməlidir. Hər bir şagird cavablandırdığı təqdirdə o qrupun isitfadə etdiyi zaman müəllim tərəfindən qeyd olunur.
   h. Qruplardan hansı qısa müddətdə sualları cavablandırsa, yəni sözlərinn əks mənalısını qrupdakı hər bir şagird tapa bilsə, bu qrup qalib elan olunur [4, 413].

Bu cür oyun təşkil edildikdə, sinifdə zəif və güclü olmasından asılı olmayaraq bütün şagirdlər dərsdə fəal iştirak edir. Bu oyunun əsas məqsədi antonimləri

cütləşdirə bilməyən, ya da əks mənalı sözləri düzgün müəyyən edə bilməyən şagirdlərə əyləncəli formada antonimləri öyrətməkdən ibarətdir. Bu oyun vasitəsilə, şagirdlərin listening yəni, dinləmə bacarıqları da inkişaf etdiyi üçün faydalı üsullardan biri hesab olunur.

Xülasə

İngilis dilində gözəl nitqə sahib olmaq üçün bu dilin sahib olduğu söz ehtiyatından düzgün istifadə etmək lazımdır. Dili zənginləşdirən, rəngləndirən sözlər qrupları vardır, məsələn, sinonimlər, omonimlər, antonimlər və s. Bir sözün əks mənasını bildirən sözlər də vardır ki, bunlara antonim sözlər deyilir. Antonimlər vasitəsilə, ingilis dilində danışan insanlar dah ifadəli bir nitqə sahib ola bilər. Antonimləri öyrənərəkən, qarşımıza onun mənaca müxtəlif növləri çıxır. Bunlar, qarşılıqlı antonimlər, tamamlayıcı antonimlər, nisbi antonimlərdir. Orta məktəb təhsilində şagirdlərə İngilis dilini tədris edərkən onun bir dil olaraq sahib olduğu zənginliklər, rəngarəngliklər və özünəməxsusluq keyfiyyətləri şagirdlərin nəzərinə çatdırılmalıdır. Çünki, xarici bir dili ana dili kimi sərbəst bir şəkildə danışa və istifadə edə bilmək üçün dilin bu keyfiyyətlərinə bələd olmaq lazımdır. Eləcə də, şagirdlərin söz ehtiyatını zənginləşdirmək, nitqini inkişaf etdirmək üçün sinonim, antonim kimi leskik vahidlərin tədrisinə daha çox yer verilməlidir. Şagirdlər sözlərin əks mənalarını öyrəndikləri üçün cümlə qurarkən daha geniş söz ehtiyatından istifadə edə bilmək imkanları yaranır. Antonimlərin tədrisində müəllimlər müxtəlif metod və üsullardan istifadə edərək şagirdlərin maraq və diqqətini mövzu üzərinə cəmləyə bilər. Kiçik yaşlı şagirdlərlə işləyərkən daha çox oyun mərkəzli təlim mühiti təşkil edilir. Lakin, bu o demək deyil ki, yuxarı sinif şagirdləri ilə antonimlər mövzusunu işləyərkən oyunları təlim fəaliyyətinə tətbiq etmək olmaz. Hər yaş səviyyəsinə uyğun oyunlar vardır. Ümumi şəkildə desək, İngilis dili dərslərində antonimlər mövzusunu tədris edən müəllimlər söz kartları, söz xəritələri, söz oyunları, mətn oxuma (antonimləri mətndən seçmək), yazaraq öyrənmə, tapmaca ilə öyrənmə, krassvordlarla iş kimi üsullardan istifadə edərək interaktiv təlim mühiti yarada bilər. Bu yolla müəllimlər şagirdlərə İngilis dilində antonimləri daha ətraflı və qalıcı şəkildə öyrədə bilər. Nəzərə almaq lazımdır ki, şagirdlərin xarici dil olaraq öyrəndikləri İngilis dilinin özünəməxsus antonim sözləri vardır və bu mövzunu tədris edərkən ənənəvi üsulla dərslərin təşkil olunması heç bir fayda verməyəcəkdir. Buna görə də, müəllimlər daim bu tip mövzulara aid yeni metodlara bələd olmalı, onları dərsə tətbiq edərkən isə, şagirdlərin yaş faktorunu nəzərə almalıdır. Dilin lüğəvi tərkibinin əsas söz qruplarından hesab olunan antonimlər mövzusunun tədrisi ilə bağlı yeni nəzəriyyələrin izlənilməsi, bu metodologiyaya aid prinsiplərin gözlənilməsi çox vacibdir. Çünki, dil də elmi-texniki tərəqqinin bir parçasıdır və o daim dəyişir, dilin tərkibi dəyişdikcə onun tədrisi metodikası da sürətlə yenilənir. Beynəlxalq danışıq dili hesab olunan, iqtisadi, siyasi, elmi və texnoloji baxımdan bu dərəcədə

əhəmiyyətli mövqevə sahib olan İngilis dilini tədris edən pedaqoji kadrların da bu inkişafla ayaqlaşması çox vacib xüsuslardan biridir.

ALIYEVA NURAY FUZULI

ANTONYMS AND THEIR USE IN TEACHING

SUMMARY

In order to have a good speech in English, it is necessary to use the vocabulary of this language properly. There are groups of words that enrich and color the language, for example, synonyms, homonyms, antonyms, etc. There are also words that mean the opposite of a word, which are called antonyms. Through antonyms, English-speaking people can have a more expressive speech. As we study antonyms, we come across different types of its meaning. These are graded antonyms, complementary antonyms, relational antonyms. When teaching English to students in secondary education, the richness, diversity and originality of English as a language should be brought to the attention of students. Because, in order to be able to speak and use a foreign language fluently as a mother tongue, it is necessary to be aware of these qualities of the language. Also, more attention should be paid to the teaching of lexical units such as synonyms and antonyms in order to enrich students' vocabulary and develop their speech. As students learn the opposite meanings of words, they have the opportunity to use a wider vocabulary when composing sentences. In teaching antonyms, teachers can use a variety of methods and techniques to focus students' interest on the topic. When working with younger students, a more play-centered learning environment is created. However, this does not mean that games should not be applied to learning activities when working on the topic of antonyms with high school students. There are games for every age level. In general, teachers of antonyms in English classes can create an interactive learning environment using methods such as word cards, word maps, word games, reading (choosing antonyms from text), learning to write, learning with riddles, and working with crossword puzzles. In this way, teachers can teach students antonyms in English in more detail and permanently. It should be borne in mind that the English language, which students learn as a foreign language, has its own antonyms, and it will not be useful to organize lessons in the traditional way when teaching this topic. Therefore, teachers should always be aware of new methods for this type of topic, and when applying them to the lesson, should take into account the age factor of students. It is very important to follow new theories related to the teaching of antonyms, which are considered to be one of the main groups of words in the lexical structure of the language, and to observe the principles of this methodology. Because language is also a part of scientific and technical progress, and it is constantly changing, and as the composition of language changes, so does its teaching methodology. It is very important that the pedagogical staff, which teaches English, which is an international

spoken language and has such an important position in economic, political, scientific and technological terms, keep pace with this development.

АЛИЕВА НУРАЙ ФИЗУЛИ

АНТОНИМЫ И ИХ ИСПОЛЬЗОВАНИЕ В ОБУЧЕНИИ

РЕЗЮМЕ

Чтобы хорошо говорить по-английски, необходимо правильно использовать лексику этого языка. Есть группы слов, которые обогащают и окрашивают язык, например, синонимы, омонимы, антонимы и т. Д. Есть также слова, которые означают противоположность слову, которые называются антонимами. С помощью антонимов англоговорящие люди могут иметь более выразительную речь. Изучая антонимы, мы сталкиваемся с разными типами его значения. Это градуированные антонимы, дополнительные антонимы, относительные антонимы. При обучении английскому языку учащихся средних школ следует обращать внимание учащихся на богатство, разнообразие и оригинальность английского языка как языка. Потому что для того, чтобы свободно говорить и использовать иностранный язык в качестве родного языка, необходимо знать эти качества языка. Также больше внимания следует уделять обучению лексическим единицам, таким как синонимы и антонимы, чтобы обогатить словарный запас учащихся и развить их речь. По мере того, как учащиеся изучают противоположные значения слов, у них появляется возможность использовать более широкий словарный запас при составлении предложений. При обучении антонимам учителя могут использовать различные методы и приемы, чтобы сосредоточить интерес учащихся на теме. При работе с младшими школьниками создается более игровая среда обучения. Однако это не означает, что игры не следует применять к учебной деятельности при работе на антонимную тему со старшеклассниками. Есть игры для любого возраста. Как правило, преподаватели антонимов на уроках английского могут создавать интерактивную среду обучения, используя такие методы, как карточки со словами, карты слов, словесные игры, чтение (выбор антонимов из текста), обучение письму, изучение загадок и работа с кроссвордами. Таким образом, учителя могут более подробно и постоянно учить студентов антонимам на английском языке. При этом следует учитывать, что английский язык, который студенты изучают как иностранный, имеет свои антонимы, и при преподавании данной темы будет нецелесообразно организовывать уроки традиционным способом. Поэтому учителя всегда должны знать о новых методах по этому типу тем и, применяя их на уроке, должны учитывать возрастной фактор учащихся. Очень важно следовать новым теориям, связанным с обучением антонимам, которые считаются одной из основных групп слов в лексической структуре языка, и соблюдать принципы

этой методологии. Потому что язык также является частью научно-технического прогресса, и он постоянно меняется, и по мере того, как меняется состав языка, меняется и его методика обучения. Очень важно, чтобы педагогический коллектив, который преподает английский, который является международным разговорным языком и занимает столь важное место в экономическом, политическом, научном и технологическом плане, не отставал от этого развития.

Ədəbiyyat siyahısı

1. Adrienne Lehrer and Keith Lehrer. (1982). Antonymy: Linguistics and Philosophy, 5:483–501.
2. Gao, C., & Zheng, Q. (2014). A Linguistic Study of Antonymy in English Texts. Journal of Language Teaching & Research, 5
3. Gregory L. Murphy and Jane M. Andrew. (1993). The Conceptual Basis of Antonymy and Synonymy in Adjectives. Memory and Language, 32(3):1-19.
4. Murphy, M. L., & Jones, S. (2008). Antonyms in children's and child-directed speech. First language, 28(4), 403-430
5. Jones, S. (2002). Antonymy: A Corpus-based perspective. London and New York: Routledge.
6. Jones, S.; Murphy, M. L.; Paradis, C. və Willners, C. (2012). İngilis dilindəki ziddiyyətli sözlər, konstruksiyalar, konstruksiyalar və kanonizm. Cambridge: Cambridge University Press.
7. Nordquist, R. (2017, 27 aprel). Antonim nədir? Thinkco.com saytından götürülmüşdür.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: F.f.d. dos. Abdurəhmanova Səadət Xalid tərəfindən çapa tövsiyə olunmuşdur.

HÜSEYNOVA GÜNAY ŞƏMISTAN QIZI
müəllim
Gəncə Dövlət Universiteti
gunay.huseinova@mail.ru

İLYAS TAPDIĞIN UŞAQ ŞEİRLƏRİNDƏ İŞLƏNƏN ANTONİMLƏRİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: antonim,üslub,təzad, xüsusiyyət, uşaq şeirləri

Dilin lüğət tərkibində özünəməxsus rolu olan vahidlərdən biri də antonimlərdir. Dilçilik ədəbiyyatında eyni nitq hissəsinə aid olub əks mənalar ifadə edən sözlərə antonimlər deyilir. Antonimləri təşkil edən sözlər müxtəlif fonetik tərkibə malik olur. Müqayisə və qarşılaşdırma yolu ilə aşkar edilən mütəlif təzadlı hadisələr, obyektiv aləmin bütün ziddiyətli cəhətləri əksmənalı anlayışlar silsiləsini təşkil edən antonimlər vasitəsilə şərh edilir. Antonimlər əks qütbdə duran leksik ifadə vasitələridir.

Həyatın bütün sahələrində əksiklilər və ziddiyətlər özünü göstərir. Antonimlərin əsasında məhz bu əkslik – kontrast durur. "Antonimlər, əsasən, kəmiyyət və keyfiyyət, zaman və məkan məzmunlu məfhumların əks cəhətlərini ifadə edən müxtəlif fonetik tərkibli sözlərdir. Bu məfhumun əks əhətlərini göstərən, formaca müxtəlif, mənaca biri-birinə əks olan sözlərlə ifadə olunan semasioloji hadisəyə antonim deyilir"[5, 144].

Dildə olan bütün sözlərin antonimliyi olmur. Bu da onunla bağlıdır ki, dildə elə məfhumlar vardır ki, onların əks mənaları olmur. Çünki antonimlər məfhumların müxtəlif cəhətlərini, adətən əks və zidd cəhətlərini ifadə edirlər. Məfhumların zidd cəhətləri bir-birini inkar edən məzmuna malik olurlar. H.Həsənov haqlı olaraq qeyd edir ki, məfhumların zidd cəhətləri məzmunca bir-birini inkar edir. Bunlarda keçid, aralıq pillə olmur, onların əks cəhətləri biri digərini inkar etmir, keçid, aralıq, pillə olur. Məsələn, isti – soyuqda ilıq, şirin – acıda dadlılıq, ağ – qarada bozluq ortalıqlı sözlərdir. Əşyaların daxili ziddiyətinin ancaq əks cəhətləri dildə işlədilən antonim termini ilə ifadə oluna bilər. Çünki onların məzmunu antonimlərə uyğun gəlir. Başqa sözlə, antonim sözlərin adlandırdığı əşya və hadisələrin əks cəhətləri arasında mahiyyətcə bir yaxınlıq vardır. Yaxınlıq müxtəlif kateqoriyaya aid olan əşya və hadisələrin müxtəlif əks cəhətləri ilə deyil, bir kateqoriyaya aid olan əşya və hadisələrin müxtəlif əks cəhətləri ilə əlaqədardır[5, 144].

Bəzi dilçilərin fikrincə, antonimlər bir-birinə əks mənaları ifadə edə bilməzlər. Bu barədə danışarkən R. Məhərrəmova yazır: "Antonimlərə çox vaxt bir-birinə zidd fikirləri, anlayışları bildirən sözlər kimi tərif verirlər ki, bu bizə görə dəqiq deyil. Antonimlər zidd mənalar, anlayışlar deyil, əksinə, eyni mənanın, eyni anlayışın müxtəlif əks cəhətlərini qarşılaşdırma yolu ilə bildirən sözlərdir. Məsələn,

yaxşı – pis, ağır – yüngül, təzə - köhnə, sağ – sol antonimlərini alaq. Bunlar zidd anlayışlar deyil, eyni mənanın, eyni keyfiyyətin müxtəlif, əks cəhətlərini bildirir"[8, 210]**.** Şübhəsiz, alimlə müəyyən mənada razılaşmamaq olmur, amma nəzərə almaq lazımdır ki, antonimlər müxtəlif məna qruplarına bölünür və dilçilik tarixində bu cür bölgülər çoxdur. Və hər bir dilçi alim antonimlərə özünəməxsus yanaşma sərgiləmişdir. H. Həsənov bu barədə danışarkən haqlı olaraq qeyd edir ki, dildə müxtəlif məkanları ifadə edən, məfhumların məkan və zaman müxtəlifliyini bildirən, keyfiyyət və əlamətləri inkar edən sözlər, hətta mənaca bir-birinə yaxın olan sinonimlər də (ümumiyyətlə, nitqdə hər hansı iki söz) qarşı-qarşıya qoyula bilər, lakin hər cür qarşılaşdırılıan sözlər antonimlik yaratmır, bir məfhumun əks cəhətlərini qarşılaşdırma yolu ilə ifadə edən müxtəlif formalı və mənalı sözlər antonimlik əmələ gətirir.

Antonim sözlərin qarşılaşdırılması onların hər birinin bir məna vahidi kimi mövcudluğunu zəruri edir. Müntəzəm şəkildə bir-birinə qarşı qoyulan antonim (mətndən kənar və mətn daxilində: şirin – acı, başlaqnğıc – son, yuxarı – aşağı, sevinc – qəm, böyük – kiçik, hündür – alçaq, nazik – yoğun, yaxşı – pis, ağ – qara və s.) sözləri biz qarşılaşdırırıq. Bu antonimlər mətndən kənarda da şüurumuzda öz əksliyini büruzə verir[5,147]**.**

Bu barədə danışarkən A. Cəfərov yazır: "...cəmiyuyətdə "ağıllı" insan meydana gələndən sonra o, ətrafdakı əşya və hadisələri dərk edərək yaxşını pisdən, böyüyü kiçikdən, yeri göydən, gücəni gündüzdən və s. fərqləndirməyə başlamışdır. Bunu əfsanələr, nağıllar, dastanlar, bayatılar, frazeoloji – ideomatik tərkiblərin təzadlar əsasında yaranmasından da aydın görürük. Xalqın yaratdığı hikmət xəzinəsi olan atalar sözlərinin və sərrast, dərin mənalı xalq məsəllərinin əksəriyyəti təzadlıdır"[4,80]**.** Antonimlərin bu xüsusiyyətlərindən bədii ədəbiyyatda təzad yaratmaq üçün şair və yazıçılarımız məharətlə istifadə etmişlər.

Müasir dilçilikdə antonimlərə münasibətdə müxtəlif bölgülər mövcuddur. Bu məsələdən danışarkən G. Bayramova onların bir neçə növünü qeyd edərək deyir ki, "son dövr araşdırmalarda qəbul edilmiş təhlil yanaşmasına görə: *1) kontrar; 2) kontradiktor; 3) vektor; 4) konversiv və 5) enantiosemik* antonimlər fərqləndirilir. Lakin həmin mərhələyə qədər, *qeyri – kontekstual* və *kontekstual* antonimlərin fərqləndirilməsinin məqsədəuyğun olduğunu düşünürük. Zənnimizcə, tam (və ya digər adları ilə *əsli və ya mütləq* adlandırılan antonimləri ziddiyyət münasibətlərinin xarakterinə görə 1) *komplementar;* 2) *kontrar*; *3) vektor 4) konversiv* antonimlərə bölünməsi də məqsədəmüvafiqdir" [3, 13]**.**

Antonimlərə bu cür fərqli yanaşmalar mövcud olsa da prinsip etibarı ilə ümumi bir baxış formalaşmışdır. Bu baxış isə ondan ibarətdir ki, leksik və qrammatik antonimlik fərqləndirilməlidir. Dilçilik üçün isə daha çox leksik antonimlik maraq kəsb edir. Çünki qrammatik antonimlik şəkilçi vasitəsi ilə yaranır və bu zaman sözün kökü antonimlik xüsusiyyətinə malik olmur. Antonimliyə xas ziddiyyət və təzad mənası antonim sözlərin leksik mənasından irəli gəlir və hər bir

antonim cütlüyün daxili ruhunu təşkil edir. Bununla da leksik antonimlik hər bir şairin dilində də xüsusi məna yükünə malik olur. Bu xususəyyətlər bir çox dilçilərin əsərlərində öz əksini tapır. Məsələn, B. Xəlilov antonilmərin bədii dildə yaratdığı üslubi çalarları aşağıdakı kimi qruplaşdırır:

1)Antonimlər ziddiyət bildirdiyindən əlamət və keyfiyyətin müsbət və mənfiliyi haqqında onların vasitəsilə aydın təsəvvür yaradır;

2)Antonimlərin üslubi xüsusiyyətlərindən biri də onların insanda ruh yüksəkliyi, optimist əhval-ruhiyyə, emosional hiss, bədii-estetik zövq yaratmasıdır;

3)Obrazlı təsvir etmək və bununla da fikrin təsirli ifadəsinə nail olmaq üçün antonimlər böyük rol oynayır;

4)Antonimlər vasitəsilə bədii dildə antiteza hadisəsi yaranır (yunanca antithesis – qarşı-qarşıya olan deməkdir). Təsvir olunan obyektin xarakterinin açılmasında antiteza hadisəsi mühüm rol oynayır. Onun mərkəzində, təbii ki. təzad dayanır. Bunun sayəsində bədii dilə xüsusi üslubi effekt verir;

5)Antonimlər bədii dildə qarşılaşdırma yolu ilə təsvir olunan obyektin qabrıqlıqlığını artırır, dinamik inkişafda verilməsinə şərait yaradır;

6)Antonimlər dramaturgiyada – personajların dilində də geniş istifadə olunur. Yazıçı bədii personajların dilində antonimləri işlətməklə hadisələr, xarakterlər haqqında aydın təsəvvür yaradır;

7)Bədii əsərdə ifadələrin təsir gücünü artırmaq üçün kontekstual antonimlərdir ki, onlar konteksdən kənarda antonimlik kəsb etmirlər;

8)Antonimlərin üslubi xüsusiyyətlərindən biri də onların bədii dildə oksimoron yaratmaqdır. *Oksimoron yunan sözüdür, "ağıllı – dəli" deməkdir*. Onlar antonimərin növlərnidən biri kimi, məntiqi cəhətdən bir-birinə zidd olan, söz, söz birləşmələri və ifadələr yanaşı işlənərək obrazlı bir ifadə kimi başa düşülür [6, 194-198]**.**

İlyas Tapdıq yaradıcılığında biz zəngin antonimlərə rast gəlirik. Şair Azərbaycan dilinin leksik layından ustalıqla istifadə edir və gənc oxuculara öz fikrini çatdıra bilir:

Bu anlarda nə qədər
Könül duyğusu qalır.
Qətrə-qətrə yazılır
Zaman – insan ömrünə.
Sevinc – kədər sapıyla,
Süqut, zəfər adıyla
Ya Çətənir pillə-pillə
Zaman insan ömrünə. [10, 36]

Göründüyü kimi, şair kiçik bir şeir parçasında iki antonim cütlüyündən istifadə edir. "Əşya və hadisələrin bir-birindən fərqləndirilərək qiymətləndirilməsi xüsusiyyəti antonimlər üçün səciyyəvidir. Bu da onların bədii ədəbiyyatda geniş şəkildə işlənməsinə səbəb olur. Təsirli üslubi xarakterə malik olan antonimlər nitqi daha canlı və obrazlı edir. Antonimlər əşya və hadisələr haqqında olan anlayışları,

əlamət və keyfiyyətləri təzadlı şəkildə müqayisə etməklə onlar haqqında canlı təsəvvür oyadaraq, dinləyiciyə və oxucuya güclü təsir göstərir" [4, 81]**.**
Məsələn:

Sənin ömrün
İşıqdır –
Zülmətlər səndən qaçır [10, 37]

Antonim sözlərdən bədii ədəbiyyatda, xüsusən də nəzmdə təzad yaratmaq üçün geniş istifadə edilir. Burada antonimlərlə yanaşı, bir-birinə zidd, əks məanalı sözlərdən də istifadə edilir. Bu hər bir şairin ustalığından da asılı olur. İlyas Tapdıq yaradıcılığında da biz bu tipli sözlərə tez-tez rast gəlirik:

Eşitmişik *qışı, yazı*
Yaddaşlarda bir "kukla" var[10, 33]

Gülün gül nəfəsi var,
Tikanın tikan izi...
Gülün də, *tikanın* da
Yanında insan izi...[10, 37]

Misallardan da göründüyü kimi, şair çox vaxt əslində antonim olmayan sözləri belə lazım gəldikcə təzad yaratmaq məqsədi ilə olduqca uğurlu şəkildə istifadə edə bilir.

Digər üslublardan fərqli olaraq bədii üsluba da antonimlər daha böyük üslubi yükə malik olurlar. Bu səbəbdən də burada mütləq antonimlərlə yanaşı tez-tez üslubi antonimlərə də müraciət olunur.

Antonimlərin üslubi əhəmiyyətindən danışarkən A.Qurbanov yazır ki, "nitqdə antonimllərin üslubi rolu da böyükdür. Bunların vasitəsilə əşyanın, şəxsin, hadisənin və sairin müəyyən cəhətləri bir-biri ilə qarşılaşdırılır, bunun nəticəsində anlayış haqqında aydın, gözəl təsəvvür yaradılır. Eyni zamanda, bu qrup sözlər fikrin daha dəqiq və emosional ifadəsinə də xidmət edir" [7, 349].

Bəzi dilçilik ədəbiyyatlarında üslubi antonim əvəzinə "nisbi antonim" termini də işlədilir. Bu barədə danışarkən, H. Həsənov yazır ki, "dilçilikdə mütləq və nisbi antonimlər müxtəlif terminlərlə izah edilir. Belə ki, mütləq antonimlər tam, xalis, leksik, qəti; nisbi antonimlər isə natamam, şərti, fərqləndirici, üslubi, mətni və ya kontekstual antonimlər adı ilə verilir. Əksliyin dərəcəsinə görə müəyyənləşdirilən antonimlərin müxtəlif terminlərlə yox, mütləq və nisbi antonimlər istilahı ilə müəyyənləşdirlməsi daha düzgün olardı" [5, 157].

Bədii ədəbiyyatda çox vaxt elə üslubi antonimlər yaranır ki, onlar yazıçı və şairə hadisə və obrazlar arasındakı ziddiyyəti, qarşılaşmanı verməyə imkan verir. Nəticədə isə əslində bir-birinin əksi olmayan sözlər, təzad yaradır və üslubun tələbi ilə antonim kimi işlənir. Artıq qeyd olunduğu kimi İlyas Tapdığın uşaq şeirlərində də biz bu cür sözlərə rast gələ bilirik. Belə antonimlərdən şairin yaradıcılığında ustalıqla istifadə edilir:

Nə *dənizdə* batmışam,
Nə *sahilə* çatmışam! [9, 10]

Şairin uşaq şeirlərində xeyli sayda mütləq antonimlərə də rast gəlinir:

Tülkünün oynamağı
Ləzzət verdi dovşana,
Endi qalxdı qulağı
O da qoşuldu ona [10, 48]

Verilmiş nümunədə şair *"enmək"* və *"qalxmaq"* feillərinin antonimliyindən istifadə edərək gözəl antonim cütlük yaratmışdır. Maraqlıdır ki, "Azərbaycan dilinin antonim lüğəti"ndə "qalxamq" sözünün üç antonimi qeyd edilir. 1)Qalxmaq – düşmək; 2)qalxmaq – sərilmək; 3)qalxmaq – yıxılmaq [1, 78]**.** Göründüyü kimi, bu sözlər içərisində "*enmək"* feilinə rast gəlinimir. Həmin lüğətdə "*enmək*" feilindən danışarkən müəllif onun iki antonimini qeyd edir: *Enmək – qalxmaq; enmək – yüksəlmək* [1, 48]. Göründüyü kimi, burada birinci "*enmək*" sözü "*qalxmaq*" sözü ilə antonim kimi verilir.

Azərbaycan ədəbiyyatında ən çox işlənən antonilərdən biri də "*qış"* və *"yay*" sözləridir. Peyzaj lirikasında özünəməxsus mövqeyə malik olan bu sözə İlyas Tapdıq yaradıcılığında da rast gəlinir:

Qışda soyuq, *yayda* sərin
Olur sənin küləklərin [10, 63]

Maraqlıdır ki, şair bu şeirində əksər şairlərimizdən fərqli olaraq "qış" və "yay" sözlərindən təzad yaratmaq üçün istifadə edir.

Antonimlərdən bədii ədəbiyyatda çox vaxt məhz təzad yaratmaq üçün istifadə edilir. Bunu da İlyas Tapdığın şeirlərində bu tez-tez rast gəlinir:

Üşüməsən, *qış* zamanı,
İstilənsən, gəl, *yayda* gəl! [9, 108]-deyən

şair burada bədii təzad yaratmışdır.

Gah *zülmətə*, gah *nura*
Qərb oldu *yer*, *asiman* [9, 93]

Nümunədən də göründüyü kimi, şair dilimizdə işlənən antonim cütlüklərindən istifadə etməklə olduqca gözəl təzad yaratmağa nail olmuşdur. Bu misralarda işlənən "*zülmət" – "nur" və "yer" – "asiman*" antonim cütlükləri də dilimizdə ən çox işlənən antonimlərdəndir. Birinci antonim cütlük dilimizdə həddindən artıq işlək olsa da, hər iki söz alınma sözdür və ərəb mənşəlidir. "Azərbacyan dilinin izahlı lüğəti"ndə *zülmət* sözü *"qaranlıq"* mənasında [2, 693]**,** "nur" sözü isə "aydınlıq", "işıq" [2, 505] mənasında izah edilir. Hər iki söz klassik Azərbaycan ədəbiyatında, kifayət qədər işlənmə tezliyinə malik olmuşdur.

Ölməz şairimiz Bəxtiyar Vahabzadədən gətirdiyimiz bu bənddə də bu sözlərin necə uğurla işləndiyinin şahidi oluruq.

Çıraq ol! *Nurunu* artır gunbəgun
Hər yerdə həyatın boğ *zulmətini*.

Məncə, çıraq olub başqalarıyçün
Yananlar tapıbdır səadətini! [12, 18]

Şeirdə işlənən digər antonim cütlük isə "*yer"* və *"asiman*" sözləridir. Maraqlı cəhət ondan ibarətdir ki, bədii ədəbiyyatda adətən hər iki tərəfi milli mənşəli *"yer"* və *"göy*" sözlərinə daha çox rast gəlinir. Şair isə bu misrada alınma *"asiman*" sözünə üstünlük verir.

İlyas Tapdıq yaradıcılığında antonimlərdən çox vaxt obrazın daxili aləmini təsvir etmək üçün də istifadə edildiyi hallarına da rast gəlmək olur:

Bəzən *gülməli*,
Bəzən də *qəmli*
Rolları var.
Hər tamaşanın
Özünə görə
Əhvalları var:
Gah *cavan* olur,
Gah *qoca* – ana. [11. 20]

Göründüyü kimi, şair təsvir etdiyi obrazın müxtəlif hallar və vəziyyətini antonim cütlüklərlə obrazlı şəkildə təsvir edir. Bu barədə danıçşarkən V. İvanova yazır ki, "müəyyən şəraitdən asılı olaraq obrazın psixoloji vəziyyəti kəskin, gözlənilməz təzadlı bir şəkildə dəyişə bilər. Surətlərin daxilində mövcud olan ziddiyətləri aşkara çıxarmaqda, qabarıq verməkdə antonim sözlər yüksək üslubi effektivliyə malikdir" [14, 94]**.**

Şair bəzən öz hisslərini də ifadə etmək üçün antonimlərdən bədii təzad kimi istifadə edir:

Dönür "*Şərbət*" *zəhərə*
Hamıdan əskik olur. [11, 10**]**

Nümunədə şair, "*şərbət*" və "*zəhər*" sözlərini antonim kimi işlədərək gözəl təzad yaradır. Azərbaycan ədəbiyyatında bu antonim cütlük yeni olmasa da "Azərbaycan dilinin antonimlər lüğəti"ndə buna rast gəlmədik. Lüğətdə "*zəhər*" sözünün antonimi kimi "*şirin*" sözü verilmişdir [1, 140]**.** "*Şirin"* və *"şərbət*" sözləri bir-birinə yaxın mənalarda işlənsə də nəzərə almaq lazımdır ki, "*şirin*" sözü sifət olduğundan bu sözün antonimi "*acı*" olmalıdır. "*Zəhər"* sözü isə məlum olduğu kimi isim olduğundan onun antonimi *"şərbət"* və ya "*bal"* sözləri olması hallarına bir Azərbayan ədəbiyyatında əksər hallarda rastlaşırıq.

Özüm öz əllərimlə
Bir gün *bal* icirəmsə,
Bir gün *zəhər* icirəm.
Mən həyat yollarından
Ayaqlarımla deyil,
Əqidəmlə kecirəm [12, 14]

İlyas Tapdığın uşaq şeirlərində işlənən antonim cütlüklərdən biri də *"pislik"* və *"yaxşılıq"* sözləridir:

Elcan adlı bir oğlan
Hey *pislikdən* danışır.
Yaxşılığı unudub,
Xəbislikdən danışır [11, 65]

Şeirdən də göründüyü kimi şair burada "*yaxşılıq*" sözünə iki sözü antonim qarşılığı kimi işlədir: "*Xəbislik"* və *"pislik*". Maraqlıdır ki, "Azərbaycan dilinin antonimlər lüğəti"ndə "*yaxşılıq*" sözünün antonimi kimi "*yamanlıq"* sözü verilir. [1, 133] Lüğətdə "*pislik*" sözünün antonimi kim isə "*yaxşılıq"* sözü verilmişdi [1, 107].

Şairin yaradıcılığında "*yatmaq"* və *"oyanmaq*" feillərində rast gəlinən antonim cütlüklərdən biri də verilir:

Dəniz *yatır* bir anlıq,
Dəniz yenə *oyanır* [9, 13]

Məlum olduğu kimi, feillər milli mənşəli sözlərdir. Bu misalda da şair antonim sözlərin köməyi ilə gözəl bir metafor yaradır. Qeyd olunmalıdır ki, dilimizdə bu antonim cütlük də kifayət qədər çox işlənir. "Azərbaycan dilinin antonimlər lüğəti"ndə "*yatmaq*" feilinin dörd sözlə antonimlik təşkil etdiyi qeyd edilir: 1) yatmaq – ayılmaq; 2) yatmaq – durmaq; 3) yatmaq – qalxmaq; 4) yatmaq – oyanmaq.[1, 135]

Şairin işlətdiyi feili antonim cütlüklərdən biri də "*sormaq"* və *"cavab almaq*"dır:

Qayalar onu *sordu*,
Qayalar *cavab aldı***.**[9, 12]

İlyas Tapdıq yaradıcılığında feillərlə yanaşı digər nitq hissələrinin də antonim cütlüklərinə rast gəlmək olur:

Elə bil ki, burda hər şey –
Bu *axşam* da, *səhər* də,
Məni qucan o qollar da,
Qarışqalı o yollar da
Gözlərimə təzə gəlir;
Qəlbim coşub sözə gəlir! [9, 45]

Şeirdən də göründüyü kimi, şair *"səhər"* və *"axşam*" antonim cütlüyündən istifadə etmişdir. Bu sözlər də Azərbaycan ədəbiyyatında kifayət qədər çox işlənən antonimlərdəndir və dilimizdə təzad yaradan əsas vasitələrdən bir sayılır. Məsələn, xalq şairi Səməd Vurğun yaradıcılığında:

Birincinin simasında: "Şəbi-hicran
Yanar canım" söyləyərək alışan şam
Çıxa bilmir zülmətlərin qucağından;
Ah qopanb, nalə çəkir *səhər, axşam.*[13, 210]

Müşahidələr göstərir ki, İlyas Tapdıq yaradıcılığında antonimlər xüsusi rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı: Şərq-Qərb, 2007, 144 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
3. Bayramova G. Azərbaycan və italyan dillərində semantik söz qrupları. Fil. ü.fəl. dok. avtoref. Bakı: 2016, 24 s.
4. Cəfərov A. Nəbi Xəzrinin poetik dili. Bakı: Elm və təhsil. 2012, 144 s.
5. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Nurlan, 2005, 452 s.
6. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, Nurlan, 2008, 442 s.
7. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili: 2 cilddə, I c., Bakı: Nurlan, 2003, 450 s.
8. Məhərrəmova R.C. Mirzə Ələkbər Sabirin söz dünyası. Bakı. Nurlan, 2006, 324 s.
9. Tapdıq İ. Arxalı dağlar. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1962, 112 s.
10. Tapdıq İ. Qoçaq dovşan. Bakı: Gənclik, 1982, 144 s.
11. Tapdıq İ. Nağıllı ağaçalar. Bakı: Gənclik, 1985, 188 s.
12. Vahabzadə.B Seç. əsər. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, 328 səh
13. Vurgun S. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, “Şərq-Qərb”, 2005, 424 s.
14. Иванова В.А. Антонимия в системе языка. Кишинев.Штин-ца, 1982, 163 с.

Xülasə

Məqalədə İlyas Tapdığın uşaq şeirlərində işlənən antonimlərin uslubi xususiyyətləri araşdırılmışdır. Şübhəsiz, hər bir dildə müəyyən sözlər vardır ki, onların antonimliyi şübhə doğurmur və hər kəs onu asanlıqla müəyyən edə bilir. Məsələn, Azərbaycan dilində *ağ, böyük, yaxşı, hündür* kimi sifətlərin *qara, kiçik, pis, alçaq* kimi əksi olduğunu hamı bilir. Çünki antonimlərin komponentləri bir-birnə görə mövcud olur. Bu əkslik və ziddiyyət təbiətin özündə mövcuddur və fəlsəfi problemdir. Dildə işlənən antonimlərin əksəriyyəti ümumişlək sözlərdən ibarətdir. Bu da onu sübut edir ki, antonimlər öz yaranma tarixinə görə dilin inkişafının ən qədim qatına məxsusdur.Məqalədən aydın olduğu kimi İlyas Tapdıq yaradıcılığında bütün bu məsələlər öz əksini tapmışdır.

Şair dilimizin antonimlərlə zəngin leksikasından məharətlə istifadə edərək öz şeirlərində təzadlar yaradır. Bu da İlyas Tapdığın dilimizin leksik qatlarına dərindən bələd olmasından irəli gəlir. Bədii ədəbiyyatda çox vaxt elə üslubi antonimlər yaranır ki, onlar yazıçı və şairə hadisə və obrazlar arasındakı ziddiyyəti, qarşılaşmanı verməyə imkan verir.

Nəticədə isə əslində bir-birinin əksi olmayan sözlər, təzad yaradır və üslubun tələbi ilə antonim kimi işlənir. Artıq qeyd olunduğu kimi İlyas Tapdığın uşaq şeirlərində də biz bu cür sözlərə rast gələ bilirik. Belə antonimlərdən şairin yaradıcılığında ustalıqla istifadə etməsi məqalədə göstərilmişdir. Şairin uşaq şeirlərində xeyli sayda mütləq antonimlərə də rast gəlinir. Məqalədə həmçinin şairin uşaq şeirlərində mütləq antonimlərdən məharətlə istifadə etməsi də araşdırılmışdır. Müəllifin şeirlərində antonimlərdən istifadəsi təzadlı hadisələri ifadə etməklə yanaşı, oxucuda mənəvi və estetik fikir formalaşdırır.

Bu mənada İlyas Tapdığın oxucuları onun şeirlərindən mənəvi zövq almaqla yanaşı, dilimizin incəliklərini şeir vasitəsilə mənimsəyir. Antonimlər vasitəsilə istər bizi əhatə edən obyektiv aləmi, istərsə də insanın daxili aləminin fərqli xüsusiyyətlərini səciyyələndirə bilir.

Həmçinin məqalədə ayrı-ayrı dilçilərin antonim haqqında söylədikləri təzadlı fikirlər də öz əksini tapmışdır.

HUSEYNOVA GUNAY SHAMISTAN GIZI

FEATURES OF ANTONYMS USED IN CHILDREN'S POEMS BY ILYAS TAPDIG KEYWORDS: ANTONYM, STYLE, CONTRAST, FEATURE, CHILDREN'S POEMS

SUMMARY

The article examines the stylistic features of the antonyms used in Ilyas Tapdig's children's poems. Of course, there are certain words in every language whose antonyms are beyond doubt, and everyone can easily identify them. For example, in the Azerbaijani language, everyone knows that adjectives such as white, big, good, tall are the opposite of black, small, bad, low. Because the components of antonyms exist according to each other. This contradiction and contradiction exists in nature and is a philosophical problem. Most antonyms in a language consist of common words. This proves that antonyms belong to the oldest layer of language development according to their history. As it is clear from the article, all these issues are reflected in the work of Ilyas Tapdig.

The poet skillfully uses the rich vocabulary of our language with antonyms and creates contrasts in his poems. This is due to the fact that Ilyas Tapdig is deeply acquainted with the lexical layers of our language. Fiction often has such stylistic antonyms that allow the writer and poet to contrast and contrast between events and

images. As a result, words that do not actually contradict each other create a contrast and are used as antonyms at the request of the style. As already mentioned, we can find such words in the children's poems of Ilyas Tapdig. The article shows that the poet skillfully uses such antonyms in his work. The poet's children's poems also contain a large number of absolute antonyms. The article also examines the poet's skillful use of absolute antonyms in children's poems. The use of antonyms in the author's poems, in addition to expressing contradictory events, forms a moral and aesthetic idea in the reader. In this sense, Ilyas Tapdig's readers not only enjoy his poems, but also master the subtleties of our language through poetry. Through antonyms, it can characterize the different features of both the objective world around us and the inner world of man.

The article also reflects the conflicting views of some linguists on the antonym.

ГУСЕЙНОВА ГЮНАЙ ШАМИСТАН ГЫЗЫ

ОСОБЕННОСТИ АНТОНИМОВ В ДЕТСКИХ СТИХОТВОРЕНИЯХ ИЛЬЯС ТАПДИГА КЛЮЧЕВЫЕ СЛОВА: АНТОНИМ, СТИЛЬ, КОНТРАСТ, ЧЕРТА, ДЕТСКИЕ СТИХИ.

РЕЗЮМЕ

В статье исследуются стилистические особенности антонимов, используемых в детских стихотворениях Ильяса Тапдига. Конечно, в каждом языке есть определенные слова, антонимы которых не вызывают сомнений, и каждый может легко их идентифицировать.

Например, в азербайджанском языке всем известно, что такие прилагательные, как белый, большой, хороший, высокий, являются противоположностью черного, маленького, плохого, низкого. Потому что составные части антонимов существуют согласно друг другу. Это противоречие и противоречие существует в природе и является философской проблемой. Большинство антонимов в языке состоят из общих слов. Это доказывает, что антонимы принадлежат к древнейшему пласту языкового развития по своей истории. Как видно из статьи, все эти вопросы нашли отражение в творчестве Ильяс Тапдига.

Поэт умело использует богатую лексику нашего языка с антонимами и создает контрасты в своих стихах. Это связано с тем, что Элайджа Тапдиг глубоко знаком с лексическими пластами нашего языка. В художественной литературе часто встречаются стилистические антонимы, которые позволяют писателю и поэту противопоставлять и противопоставлять события и образы. В результате слова, которые на самом деле не противоречат друг другу, создают контраст и используются как антонимы по требованию стиля.

Как уже упоминалось, такие слова мы можем найти в детских стихотворениях Ильяса Тапдига. В статье показано, что поэт умело использует

такие антонимы в своем творчестве. Детские стихи поэта также содержат большое количество абсолютных антонимов. В статье также исследуется умелое использование поэтом антонимов в детских стихотворениях. Использование антонимов в стихотворениях автора, помимо выражения противоречивых событий, формирует у читателя нравственно-эстетическое представление.

В этом смысле читатели Ильяса Тапдига не только духовно получают удовольствие от его стихов, но и овладевают тонкостями нашего языка через поэзию. Через антонимы он может характеризовать различные черты как объективного мира вокруг нас, так и внутреннего мира человека.

В статье также отражены противоречивые взгляды некоторых лингвистов на антоним.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Telman Ziyatxan oğlu Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

ГАСАНОВА СЕВДА,
ДАВУТОВА АЛЬФИЯ
Азербайджанское Высшее Военное Училище имени Гейдара Алиева
sevda.@email.ru

ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЙ АСПЕКТ ИНТЕГРИРОВАННОГО ОБУЧЕНИЯ РКИ

РЕЗЮМЕ

В статье рассматриваются особенности языка в контексте культурологического развития, тесная взаимосвязь языка и культуры. В статье также анализируется место русского языка в межкультурной коммуникации, с этой точки зрения производится оценка русского языка в плане освоения его иноязычными студентами. В статье выявляются особенности русского языка в сравнительном анализе преимуществ и недостатков русской речи, трудности изучения русского языка носителями других языковых культур. Лингвокультурологический аспект в преподавании русского языка отражается в данной статье на основе анализа лингвистических ресурсов в обучении русскому языку иностранных студентов.

Лингвокультурологический аспект неразрывно связан с понятиями «язык», «культура», «межкультурная коммуникация». Именно эти понятия закладываются в качестве основ в преподавании РКИ, поскольку без этих понятий невозможно формирование полноценных знаний русского языка, транслирующих самую богатую и разнообразную культуру.

О тесной взаимосвязи языка и культуры сказано очень много; кроме того, существует достаточно много исследований в этой области. Вместе с тем, не актуализирована проблема введения лингвокультурологического аспекта в методику преподавания языка, в лингводидактику. Обычно изучение второго, неродного языка происходит вне культуры, транслируемой данной языковой системой. Это происходит потому, что именно в лингво-дидактике не рассматривается на должном уровне взаимосвязь языка и культуры.

Изучение языка - это, прежде всего, изучение культуры, транслируемой им. Здесь культурные ценности могут выступать не только в качестве средств освоения культуры изучаемого языка, но и целью, которая позволит в полной мере освоить языковые структуры.

Лингвокультурология как наука формируется как часть языкознания, как его отрасль. Основным предметом является изучение взаимосвязи между языком и культурными концепциями. В русской лингвистике понятие лингвокультурология легко заменяется понятием «лингвистика культуры» - лингвокультурологией. Согласно лингвокультурологии, язык следует

рассматривать как культурное событие, уходящее корнями в культурный уровень сознания. Главный тезис лингвокультурологии звучит так: культура напрямую связана с языковыми структурами. Многие взгляды лингвокультурологии уже широко используются в мировой лингвистике. С этой точки зрения изучение теоретических основ и методологии данной области науки является одной из актуальных проблем современности. Есть метод, основанный на методологии лингвокультурологии. Этот метод называется системным и подразумевает единство семантики, сигматики, прагматики. Исследователи лингвокультурологии также выделили уникальную единицу этой области науки - лингвокультуру. Эти вопросы были подробно и всесторонне рассмотрены на уровне разногласий.

Key words: attribute, concepts, thinking, culture, cultural linguistics .

Açar sözlər: atribut, anlayışlar, düşüncə, mədəniyyət, linqvokultural.

Ключевые слова: атрибут, концепции, мышления, культура, лингвокультурология .

В настоящее время, в условиях динамической глобализации всех сфер реальной социальной действительности знание иностранного языка – это не только атрибут культурного развития человека, но и условие его успешной деятельности в самых разных сферах производства. В связи с этим пересматриваются цели и задачи преподавания иностранных языков, появляются новые концепции и подходы к обучению иностранным языкам, в практику входят новые формы и методы обучения.

В методике преподавания русского языка как иностранного на рубеже XX-XXI веков наметилась тенденция строить изучение языка с учетом лингвокультурологического подхода, при котором язык рассматривается не только как способ выражения мыслей, но и как своеобразный источник получения сведений о культуре русского народа и его духовных идеалах.

Реалии настоящего времени таковы, что они логически даруют необходимость продуманного, научно обоснованного культурологического подхода к изучению языка. Это объясняется следующим образом: во-первых, *культура* – это коммуникация: во-вторых, *культура* – базовое понятие в межкультурной коммуникации, в языковом пространстве. Будучи важнейшим элементом культуры, язык представляет собой уникальную форму мышления. Триада – *мышление, язык, культура* – системным и неразрывным образом взаимосвязаны между собой, составляя единое взаимосвязанное целое. В этом ракурсе несомненно актуальным и необходимым является вопрос о формировании у носителей иного языка и иной ментальности *культурологической компетенции* «своей» и «чужой» страны, которая включает лингвокультурологическое образование.

Лингвокультурологический подход к изучению языка открыл огромные возможности для разнообразных изысканий на стыке двух явлений – языка и культуры. Лингвокультурология позволяет узнать новое не только о языке, но и о человеке, как главном «пользователе» языка, и о культуре, как «части картины мира, закрепленной в языке». (1.120)

Формирование лингвокультурологической компетенции языковой личности иноязычного студента происходит одновременно с овладением знаниями о фонетической, грамматической и лексической системах русского языка. Учебным материалом на занятиях по РКИ выступают образцы культурного наследия русского народа – русский речевой этикет и воплощение русского характера в произведениях литературы, живописи, вокального и танцевального народного искусства, русский фольклор, традиции, обычаи, пословицы, поговорки. Комплексный подход в обучении РКИ позволяет иноязычным студентам получить широкие представления о составляющих элементах «русской души», почувствовать сопричастность к национальному русскому коммуникативному поведению, осознать себя как часть межкультурного диалога.

В контексте приобщения к новой культуре, владения новым социокультурным содержанием обучение иностранному языку рассматривается как диалог двух культур (своей собственной и иноязычной) в формате межкультурного общения, т.е. равноправного культурного взаимодействия представителей разных лингвокультурных общностей с учетом их самобытности и своеобразия. В конечном итоге предполагается, что изучающий иностранный язык должен овладеть лингвокультурологической компетенцией, основными составляющими которой являются: осмысление картины мира иной социокультуры, умение видеть сходство и различие между общающимися культурами и владение навыками межкультурного диалога, готовность к решению конфликтов, оперирование лингвокультурными концептами и средствами социальной коммуникации. (2. 143)

В связи с включением в учебный процесс материалов, выполняющих функцию аккультурирующую, чрезвычайно важной представляется проблема их отбора в учебных целях:

во-первых, это должны быть такие произведения, в которых отражена история и культура, чей язык изучается;

во-вторых, отбираются лишь те произведения, которые соответствуют фоновым знаниям носителей изучаемого языка, т.е. материалы, на известные исторические или национально-культурные тематики;

в-третьих, должны отбираться только те материалы, которые согласуются с учебно-методической целесообразностью: ясность построения и стиля, выигрышная подача страноведческих ценных деталей, доступность текста, картины, фильма, песни для языковой интерпретации – таковы основные

методические аргументы, которые обуславливают выбор материала. В учебно-методическую целесообразность входят также соображения относительно воспитательной, гуманистической ценности произведения, отобранного для изучения.

Взаимосвязь и интеграция русского языка, литературы, живописи и музыки в процессе преподавания в иноязычной аудитории являются одним из основных положений концепции в реализации диалога культур в целом, и межкультурной коммуникации в частности. Решение этого вопроса, по нашему убеждению состоит в строго продуманном отборе лингвокультурологического материала при обучении русскому языку, в разработке использования их для обучения таким видам речевой деятельности, как слушание, говорение, чтение, письмо, перевод.

В процессе исследования культуры духовной необходимо ставить во главу угла такие ее составляющие, как этнический образ, компоненты обыденного сознания, символ, традицию, обряд, этикет, ритуал, обычай. Это связано с ролью, которую они играют в процессе формировании национальной идентичности, что в свою очередь находит проявление в процессе овладения инолингвокультурой при изучении языка как средства межкультурной коммуникации.

Изучающий иностранный язык является носителем ряда особенностей: бытовых и культурных, по поводу которых выдающийся французский этнограф и социолог Клод Леви-Стросс писал: «Оригинальность каждой из культур заключается прежде всего в ее собственном способе решения проблем — перспективном размещении ценностей, которые общи всем людям». (3.11-100)

Как отмечалось выше, в настоящее время одной из основных целей языковой педагогики является построение эффективной модели обучения иностранному языку в условиях межкультурной коммуникации. В условиях сегодняшнего дня оптимальной может считаться лишь такая модель обучения языку как средству межкультурной коммуникации, которая в состоянии успешно справиться с задачей формирования не только лингвистической и коммуникативной компетенций, но и так называемой межкультурной компетенции. Под ней следует понимать «способность человека существовать в поликультурном обществе, достигать успешного понимания представителей других культур и представителей своей культуры».

В современных условиях развития межкультурного пространства проблема специфики национальных языковых систем является для лингвистов и методистов все более актуальной. Стало общепринятым понятие о культурологическом аспекте преподавания иностранных языков. Язык и культура каждого народа находятся в сложных соотношениях взаимовлияния и взаимозависимости. Без знания того, что говорящий вкладывает в понятие

речевого отрезка, в ту или иную грамматическую категорию, что является достоянием всех членов языкового сообщества, адекватное коммуникативное общение между представителями иноязычной культуры может быть затруднено или даже не состоится.

С нашей точки зрения, одно из условий рациональной организации обучения иноязычной речи, в данном случае русской, – это правильно составленная и достаточно детализованная программа в плане отражения в ней культурологической (россиеведческой) составляющей. В соответствии с подобной программой должны быть подобраны тексты, которые станут организующим стержнем всей проводимой учебной работы. К этим текстам приложена соответствующая система упражнений. Методическая обработка каждого текста предопределяет включение в эту систему специальных упражнений, направленных на:

- усвоение русских лексико-фразеологических единиц;
- на формирование и развитие русских речевых умений и навыков;
- на знакомство и расширение знаний студентов о России – стране изучаемого языка;
- на расширение кругозора студентов, выработку у них логики мышления и речи;
- выработку толерантного взгляда на явления иной культуры, не совпадающие с родной культурой студента. (4. 282-285)

В системе работы по интегрированному обучению русскому языку как иностранному важно предусмотреть эффективные средства презентации учебного материала, использовать наглядные средства. Умело подобранный языковой учебный материал позволяет наилучшим образом реализовать принцип наглядности, опираться на возможности слухового и зрительного восприятия студентов.

В заключение необходимо подчеркнуть, что формирование лингвокультурных компетенций у иностранных студентов должно осуществляться путем интегрирования методических приемов обучения иностранному языку, основанных на дидактических и методических принципах обучения и учитывающих взаимосвязанное обучение всем видам речевой деятельности: аудированию, чтению, письму, говорению, изучение фонетического, лексического и грамматического аспектов русского языка и содержательного компонента, включающего образцы культурного наследия русского народа.

Xülasə

Həsənova Sevda, Davutova Alfiya

Məqalə xarici dil kimi rus dilində inteqrasiya olunmuş təhsilin linqvokultural aspektindən bəhs edir.

XX-XXI əsrlərin başlanğıcında rus dilini xarici dil kimi tədris metodikasında dilin öyrənilməsini linqvokultural yanaşma nəzərə alınmaqla qurmaq meyli var idi, burada dil yalnız ifadə yolu deyil düşüncələr, eyni zamanda rus xalqının mədəniyyəti və mənəvi idealları haqqında bir növ məlumat mənbəyi kimi göstərilmişdir.

Linqvokulturologiya bir elm kimi dilçiliyin tərkibində, onun bir sahəsi kimi formalaşmışdır. Əsas predmetini dillə mədəni konseptlər arasındakı əlaqənin öyrənilməsi təşkil edir.

Rus dilçiliyində linqvokulturologiya anlayışını asanlıqla "kulturnaya linqvistika"- mədəni dilçilik anlayışı ilə əvəz edirlər. Linqvokulturologiyaya görə, dil şüurun mədəni səviyyəsində kök salmış mədəni hadisə kimi qəbul edilməlidir.Linqvokulturologiyanın əsas tezisi isə bu şəkildə səslənir - mədəniyyət dil strukturları ilə birbaşa əlaqədədir.

Linqvokulturologiyanın bir çox görüşləri dünya dilçiliyində artıq geniş şəkildə tətbiq edilməkdədir. Bu baxımdan bu elm sahəsinin nəzəri əsaslarının, metodologiyasının öyrənilməsi çağdaş dönəmin aktual problemlərindəndir. Linqvokulturologiyanın metodologiyasında isə əsas götürülən bir metod vardır. Bu metod sistem metodu adlanır və semantikanın, siqmatikanın, praqmatikanın vəhdətini nəzərdə tutur.

Linqvokulturologiya ilə məşğul olan tədqiqatçılar bu elm sahəsinin özünəməxsus vahidini də müəyyənləşdiriblər – linqvokulturema. Bu məsələlər polemika müstəvisində geniş və hərtərəfli araşdırılmışdır.

Summary

Hassanova Sevda, Davutova Alfiya

The article deals with the linguocultural aspect of integrated teaching of Russian as a foreign language.

At the beginning of the XX-XXI centuries, there was a tendency to build the study of Russian as a foreign language, taking into account the linguoculturological approach, in which the language was presented not only as a way of expression, but also as a source of information about the culture and spiritual ideals of the Russian people.

Cultural linguistics as a science is formed as a part of linguistics, as its branch. The main subject is the study of the relationship between language and cultural concepts. In Russian linguistics, the concept of cultural linguistics is easily replaced by the concept of "cultural linguistics" - cultural linguistics. According to cultural linguistics, language should be considered as a cultural event rooted in the cultural

level of consciousness. The main thesis of cultural linguistics is as follows: culture is directly related to linguistic structures. Many views of cultural linguistics are already widely used in world linguistics. From this point of view, the study of the theoretical foundations and methodology of this field of science is one of the urgent problems of our time. There is a method based on the methodology of cultural linguistics. This method is called systemic and implies the unity of semantics, sigmatics, pragmatics. Researchers of cultural linguistics have also identified a unique unit of this field of science - linguoculture. In the statement, these issues were discussed in detail and comprehensively at the level of disagreement.

The article is devoted to the peculiarities of teaching Russian as a foreign language, depending on the presence or absence of a natural language environment.

Linguoculturology was formed as part of linguistics of the science and as a part of it. The main subject is the study of the relationship between the cultural concepts of the language. In Russian linguistics the concept of linguoculturology is easily replaced by the concept of "culturology linguistics" - cultural linguistics. According to linguoculturology, language should be perceived as a cultural phenomenon that is rooted in the cultural level of consciousness. Many linguocultural meetings are already widely used in world linguistics. From this point of view, the study of theoretical bases and methodologies of this field of science is one of the urgent problems of the modern era.

Список использованной литературы

1. Пассов Е.И. Основы методики обучения иностранным языкам. - М.,1977.с. 120
2. Мамонтов А.С.Лингвокультурология в аспекте обучения русскому языку как средству межкультурной коммуникации // Русистика. 2019. Т.17. № 2.с.143
3. Кострова .А. Язык, культура, идентичность // Вестник факультета иностранных языков; №1, Самара, 2000.с. 11-100
4. Товбаева М.М. Культурологическая и нравственно-воспитательная ценность интегрированного обучения русскому языку и литературе в условиях билингвизма // Вестник Таджикского национального университета. Душанбе, Сино, №5 (51), 2009. с.282-285

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: доктор филологических наук, доцент Баширова Гульшан tərəfindən çapa tövsiyə olunmuşdur.

MƏMMƏDOVA NAIRƏ RAFAEL Q. ,
RZAYEVA ŞƏFƏQ FƏRRUX Q.
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi
nigush71

ERNEST HEMINQUEYIN YARADICILIĞINDA MÜHARIBƏ MÖVZUSU VƏ "İTIRILMIŞ NƏSIL" PROBLEMI.

Xülasə:

Məqalə Nobel mükafatı laureatı məşhur Amerikan yazıçısı Ernest Heminqueyin yaradıcılığına həsr olunub. Yazıçı öz yaradıcılığında müharibələrə və faşizmə olan nifrətini ifadə etmişdir. O göstərmişdir ki, müharibə amansız döyüşdən, vuruşmadan, ağır acıdan başqa bir şey deyil. O əsərlərində dünyada başverən hadisələrə qarşı olan narahatlığını əks etdirib.

E. Heminqueyin birinci romanı "Fiyesta" (1926) ona dünya şöhrəti gətirmişdir və yazıçı heç vaxt bu əsəri faciyəvi roman adlandırmamışdır. Əsərdə müharibə nəticəsində idealarını itirmiş bir nəslin faciyəsi əks olunub. Amma onun baş qəhrəmanı Ceyk Barns bu faciyədə özünü itirməmişdir. Başqalarından fərgli olaraq, o işini jurnalist peşəsini sevir və onunla qürur duyur. Çox qadağanların olmasına baxmayaraq, onda insanlara qarşı nifrət oyanmamış, insanlığını itirməmiş və özünə qəsd etmək haqda düşünməmişdir. Ceyk həyatı olduğu kimi qəbul edir, özündə güc, dözümlülük və mənəvi sakitlik tapır.

Heminqueyi o dövrün başqa yazıçıları kimi "İtirilmiş nəslin" nümayəndəsi kimi hesab edirdilər, amma o belə hesab etmirdi. Bu bölgü birinci dəfə Amerikan yazıçısı Gertruda Şteyn ilə söhbət zamanı üzə çıxmışdır. I Dünya müharibəsinin dəhşətlərini keçmiş, patriotizmə inamını və ideyalarını itirmiş, cəmiyyətdən tamamilə uzaqlaşmışları "İtirlmiş nəsil" adlandırırdılar.

"İtirilmiş nəslin" problemləri "Əlvida silahlar!" (1928) əsərində əks olunub və indiyədək öz aktuallığını itirməmiş və XX-ci asrin ədəbiyyatında ən məşhur romanlarından biridir. Roman I Dünya müharibəsi hadisələrindən bəhs edir. Romanın əsas qəhrəmanı Frederik Henri cəbhəyə gedir, amma yüksək insanı ideyalarını və inamını itirmir. Ətrafındakı amansızlıqlar və müharibəyə nifrəti onu fərarililiyə aparır. Müharibə öz-özlüyündə faciədir, fəlakətdir. Əsərin digər gəhrəmanı Ketrin öz sevgilisinə " Bizimlə də bu dəhşətlər baş verəcək" deyir və bu baş verir. Frederik Henri fərari olaraq öz sevdiyi qadınla neytral ölkəyə İsveçrəyə qaçır, amma bu sakit, sülhsevən ölkədə də bədbəxtlik onları tapır. Ketrin doğuş zamanı vəfat edir. Sevdiyi qadınla acı həqiqətdən, amansız müharibənın reallığından qaçmaq Frederiki xoşbəxt etmir. Beləliklə, Ernest Heminquey "Əlvida silahlar!" əsərində I Dünya müharibəsinin dəhşətlərini keçmiş "İtirilmiş nəslin" problemlərinə toxunmuşdur. Amma buna baxmayaraq Heminqueyin qəhrəmanları vicdanlarını, ləyaqətlərini və ədalətlərini itirməmişdilər.

Heminqueyin yaradıcılığı müasir dövrümüzdə də aktuallığını itirməməşdir. Onun əsərləri gənc nəslə müharibələrin mənasızlığını qavranmasına, vətən və millət qarşısında borc hissinin, gələcəyə inamın yaranmasına kömək edir.

Açar sözləri: "Itirilmiş nəsil", məğlubiyyət acısı, səciyyəvi xüsusiyyətləri, humanist prinsipləri, faşizm, vətənpərvər ideallar, militarizm, "Əlvida silah!", müxbir, epiqraf.

Ключевые слова: "Потерянное поколение", боль потери, характерные особенности, принципы гуманизма, фашизм, патриотические идеалы, милитаризм, "Прощай, оружие!", корреспондент, эпиграф

Key words: "Lost generation", typical features, pain of losses, humanism principles, fascism, ideals of patriotism, militarism, "Farewell, Arms!", correspondent, epigraph

Dünya ədəbiyyatında müharibə mövzusu daima aktual olmuş və aktual olaraq da qalacaqdır. Yazıçılar, necə olursa olsun, oxucularına bütün həqiqəti çatdırmağa çalışırlar. Oxucular onların əsərləri səhifələrindən müharibə, onun bütün ağırlığı, dağıdıcı nəticələri, çoxsaylı itkilər və insan tələfatı və nəhayət dinc əhaliyə müharibənin gətirdiyi sağalmaz yaralar və zədələnmələr (sarsıntılar) haqqında acı həqiqəti öyrənirlər. Müharibə təkcə qələbə sevinci yaşamaq və məğlubiyyət acısı çəkmək deyil, müharibə əslində – qan, qəm-qüssə, zorakılıqla dolu ağır günlər yaşamaqdır.O ağır günlər haqqında xatirə gələcək nəsillərin yaddaşlarında daima yaşayacaqdır. Ola bilər, elə bir gün gəlsin ki, yer üzündə anaların iniltiləri və fəryadları, yaylım atəşləri və güllə səsləri kəsilsin, yer üzü müharibələrsiz yaşasın! Amma hələki, dünyamız müharibələrdən və müxtəlif səpkili daxili münaqişələrdən əziyyət çəkir, dünya ədəbiyyatında müharibə mövzusu öz aktuallığını qoruyub saxlayacaqdır.

XX yüzillik tarixdə iki dünya müharibəsi dövrü kimi yadda qalmışdır.Məhz buna görə o dövrün bir çox xarici yazıçıları öz əsərlərini müharibəyə həsr etmişlər. Axı məşhur yazıçıların çoxu müharibə dəhşətləri ilə üz-üzə qarşılaşmış, müharibənin törətdiyi bütün ağırlıqı və sınaqları öz çiyinlərində daşımışlar. Şiddətli döyüşləri və savaşları yaşayan şahidlər və hətta bilavasitə onun iştirakçıları olanlar, bu çətin günlərin hadisələrini öz əsərlərində gerçək əks etdirmişrlər. Əsərləri ilə onlar yeni müharibələrin qarşısını almaq, insanları insanlıq üçün onların müstəsna təhlükəsi barədə xəbərdar etmək istəyirdilər. Eyni zamanda, həmin o dövrün yazıçılarının yaradıcılığı özündə humanist prinsipləri daşıyır, onlar insanı istənilən şəraitlərdə yüksək mənəvi keyfiyyətlərlə qalmağa, humanizm prinsiplərini hər şeydən üstün tutmağa, insanda özünə və yaxınlarına olan inam hissini inkişaf etdirməyə çağırırlar. Əlbəttə ki, eyni dövrün yazıçıları müxtəlif janrları istifadə edərək, öz fərdi konsepsiyasına və əxlaqi prinsiplərə söykənərək, real hadisələri özlərinə xas olan şəkildə şərh etmişlər. Ancaq onların fikirləri bir şeydə üst-üstə düşürdü: müharibə,

onun bütün mövcudluğu ərzində, insanlığın ən dəhşətli törəməsi olmuş və olacaqdır.(1. 198)

O dövrün yazıçılarından biri, militarizmi onun istənilən təzahürlərində tənqid edən Ernest Heminquey idi. Ernest Miller Hemingway (Ernest Miller Hemingway 1899 - 1961) – Amerikalı yazıçı, 1954-cü ildə ədəbiyyat üzrə Nobel mükafatı laureatıdır. Heminqueyin bütün yaradıcılığı avtobioqrafik xarakter daşıyır və onun əsərlərində fərdi təəssüratları, həyəcanı, dünyadakı hadisələrə dair düşüncələri və baxışları ifadə olunmuşdur. Heminqueyin həyatından bir neçə müharibə keçmişdir. O dəflərlə hərbi əməliyyatlarda iştirak etmiş: könüllü getdiyi I Dünya müharibəsində iştirak etmiş, İspaniyada vətəndaş müharibəsi və ikinci Dünya müharibəsi yolu ilə getdi. O zaman Heminquey hələ yazıçı deyil, əsgər və ön xətt müxbiri idi, lakin şübhəsiz ki, cəbhə təəssüratları və həyəcanları təkcə onun bütün gələcək həyatına unudulmaz möhür vurmamış, həm də onun bir sıra əsərlərində bilavasitə öz əksini tapmışdır. Hər üç müharibəyə onun münasibəti müxtəlif olmuşdur. Birinci Dünya müharibəsi onun üçün yad idi, onun müharibəsi deyildi. Və bu onun "Əlvida silah!" romanında açıq-aydın ifadə olunmuşdur. İspaniyadakı vətəndaş müharibəsi Heminquey üçün – onun döyüşü idi. O, faşizmdə nifrət edir və İspaniya tərəfindən faşizmə qarşı müharibədə iştirak etmişdir. "Kimin üçün zəng çalınır" romanını Heminquey faşizmə qarşı mübarizəyə həsr etmişdir. Romanın başlıca və səciyyəvi xüsusiyyətləri, faşizmə qarşı olan dözülməz nifrətidir. Heminquey faşizmə nifrət edirdi və bütün mümkün üsullarla ona qarşı mübarizə aparırdı - həm jurnalist, həm də döyüş əməliyyatlarında könüllü iştirakçı kimi. İkinci Dünya Müharibəsi faşizmlə İspaniyada başlayan müharibənin davamı idi. O, hətta baxışlarını belə bölüşmədiyi, Kommunist Partiyasına qoşulmuşdu. Nə qədər ki, kommunizm təcavüzkar əleyhinə yeganə müxalifətə bərabər kimi qəbul olunmuşdu, onun tərəfində çıxış etmək, belə bir döyüşdə ən böyük uğur qazanmaq kimi nəzərdə tutulurdu.O, özünün fərdi baxışlarından uzaqlaşaraq, yad baxışlar tərəfində durmağa məcbur idi. Axı bir amerikalı, onun bir çox müasirlərinin də belə hesab etdiyi kimi, faşist rejiminin qısa müddətdə yox olmayacağını başa düşürdü. (2.147)

Heminqueyin yaradıcılığı avtobioqrafikdir və fərdi hissləri, həyəcanları, dünyadakı hadisələrə düşüncələri və baxışları onun əsərlərində həqiqətə uyğun ifadə olunmuşdur. Həmçinin Heminquey, dövrünün digər yazıçıları ilə birgə, dünya ədəbiyyatında adlandırılan "İtirilmiş nəsil"in nümayəndəsi kimi tanınır, baxmayaraq ki, bunu o özünə aid etmək istəmirdi. "İtirilmiş nəsil" ifadəsi ilk dəfə Amerikalı yazıçı Gertrude Stayn (Gertrude Stein) tərəfindən onun E.Heminqueylə söhbətində istifadə olunmuşdur. Sonra "itirilmiş nəsil" Birinci Dünya müharibəsindən keçmiş, ruhi cəhətdən zədələnmiş, vətənpərvər ideallara inanmayan və cəmiyyətdən uzaqlaşdıqlarını dərk edən insanları adlandırmağa başlamışlar. Buna görə "itirilmiş nəsil" belə bir şəkildə adlandırılır ki, lazımsız, mənasız bir müharibədən keçib sonra həyatın mənasına inamını itirmişdir. Heminquey özünün «Fiesta (Günəş də yüksəlir)» romanına "Siz hamınız bir məğlub nəsil!"epiqrafı ilə söz almış və tərif

tədricən öz real məzmununu itirərək, o dövrünzaman və insanların universal işarəsinə çevrilmişdir. Müharibənin bütün dəhşətlərini keçmiş insanlar, ondan xilas ola bilənlər döyüş meydanlarında təkcə fiziki sağlamlığını deyil, həm də daha çox şeylər qoyaraq evə qayıtmışlar. İdeallar, həyata gələcəyə inam hissləri itirildi. Möhkəm və sarsılmaz görünən - mədəniyyət, hümanizm, ağıl, fərdi şəxsiyyət azadlığı - dərhal dağıldı.Bir çoxları könüllü şəkildə döyüşə getdilər. Lakin reallıqla qarşılaşdıqda, onların idealları darmadağın olaraq parçalanmışdı. Amansız və mənasız bir müharibə dərhal onların illüziyalarını səpələdi. "İtirilmiş nəsil" in nümayəndələri, onlar məktəbi yenicə bitirmiş və bəzən də onu bitirməyə çatdırmayan gənclərdir.Qırılmış illüziyalara baxmayaraq, "itirilmiş nəsil" in nümayəndələri vicdan, insanın ləyaqəthissini, ədalətini, şəfqətini, yaxınlarına sadiqliyini, fədakarlıqlarını itirməmişdir. "İtirilmiş nəsil" haqqında yazılmış əsərlər öz məzmununa görə də dəyərlidir.Yazıçılar bu nəsil haqqında həqiqəti söyləyərək, qəhrəmanlarını həqiqətən də bütün müsbət və mənfi xüsusiyyətləri ilə göstərmişlər.Yazıçılar oxucuların dünyagörüşünə də təsir göstərir, onlar militarizmi qətiyyətlə və qeyd-şərtsiz şəkildə qınamış və onları beynəlmiləlçiliyə çağırırdılar. Əsərləri ilə onlar yeni müharibələrin qarşısını almaq, insanları bəşəriyyətə (insanlığa) qarşı müharibələrin müstəsna təhlükəsi barədə xəbərdar etmək istəyirdilər."İtirilən nəsil" in yazıçılarının qəhrəmanları həyatın bütün sınaqlarında möhkəmlik və cəsarət nümayiş etdirirdilər.Onlar bütün çətinlikləri bir-birinə dəstəkləyərək susmaqla, bütün gücü ilə həyatına görə mübarizə aparıraq qarşılayırdılar."İtirilən nəsil" problemi E.Heminqueyin "Fiesta" ("Günəş də yüksəlir") və "Əlvida silah" romanlarında tam gücü ilə açıqlanmışdır.(3. 544)

Beləliklə, "Əlvida, silah!" romanının(1928) "Bir Vərdilə Arması" romanı Birinci Dünya Müharibəsi hadisələrinə həsr olunmuşdur ki, burada əsas qəhrəman özünün insani keyfiyyətlərinə görə deyil, müharibəyə qarşı olduğu üçün fərarilik edir, onun əsas istəyi –özünün sevdiyi qadını ilə yaşamaqdır. Baş qəhrəman, leytenant Frederik Henri (Frederik Henri) - bir avtobioqrafik şəxsdir. Birinci Dünya Müharibəsi cəbhəsinə gəldiyi illərdə Heminqueyin hərbi təcrübə, onun "Əlvida, silah!"romanının baş qəhrəmanının xüsusiyyətini müəyyən edir.Romandakı hadisə 1917-ci ildə İtaliya-Avstriya cəbhəsində cərəyan edir. Heminquey gündəlik hərbi həyatda parlaq və güclü epizodlar yaratmışdır. Sanitar xidmətinin leytenantı, amerikalı Henri cəbhəyə düşərək illüziyaların itkisinə, müharibədə dərin ümidsizliyə qapanmaya düçar olur. Şəxsi təcrübə, İtalyan əsgərləri və zabitləri ilə səmimi ünsiyyət müharibənin mənasız, qəddar qırğın yeri olduğuanlamına gətirib çıxarır. Leytenant Henri taleyə itaət etməyi istəmir, onun azad seçiminə qarşı çıxır. Bir zamanlar o özü könüllü olaraq cəbhəyə getməyi qərara aldı, sonra isə öz xəyallarında ümidsizliyə qapanaraq, eyni şəkildə tamamilə müstəqil olaraq silahla vidalaşmaq qərarı qəbul edir. Və o güllələnmədən möcüzə ilə sıyeılaraq, özünün sevgilisi ilə İsveçrə qaçır. Beləcə onun sərbəst seçimi olur. Müharibənin kəskin təzadı leytenant Henrinin və Ketrin Barklinin məhəbbətidir. Bir-birini sevən iki insan qanlı müharibənin bütün dəhşətlərindən

qaçmağa, xarici aləmdən təcrid olmağa çalışırlar. Lakin bu reallıqdan qaçma Heminquey tərəfindən faciəli planda göstərilmişdir.Ketrin doğuşda ölür və Henri tək qalır. Finalda yazıçı öz qəhrəmanını həyatın bütün qəddarlığı və mənasız olması anlamına gətirib çıxarır.

"Əlvida, silah!" romanıE.Heminqueyin yaradıcılığının əlamətdar dövrünə təsadüf etmişdir. Onilliklər keçir, lakin ona olan maraq azalmır. Bu roman XX əsr ədəbiyyatının ən oxunan əsərlərindən biridir. "Əlvida, silah!" romanı yazıçıya "İtirilmiş nəsil"in – Birinci Dünya Müharibəsini yaşamış və ruhən boşalmış aşkar olunan nəslin yaranma prosesini izləməyə kömək etmişdir. Əsas qəhrəmanın tarixi hər insanın ictimai borcu olaraq adlandırılması qəbul edilmiş ideologiyadan, hərbi xidmətdən nə üçün dönməsini insanlara izah etməyə kömək etmişdir.Heminquey sadə məişət şairi olmamışdır. O, nəyi yaxşı bildiyi, özünün gördüyü, yaşadığı barədə yazırdı. Onun əsərlərini oxuyarkən, biz onun qəhrəmanlarının yerində müəllifin özünü görürük. Bu onun o baxışları ilə əlaqədardır ki, yazıçı daima həqiqəti yazmalıdır. O cümlədən də - müharibə haqqında həqiqəti. Heminquey özü demişdir: "Roman və ya nağıl yazmaq – bildiklərinin əsasında uydurmaq deməkdir. Uydurmaq yaxşı alındıqda isə, əslində necə olduğunu xatırlamağaçalışmaya nisbətən, gerçəklik kimi çıxır".(4. 147)

Məhz buna görə də Heminquey çətin vəziyyətlərdə özünün cəsarətli həqiqət axtarışları ilə həmişə oxucuya yaxın olmuşdur.Onun sözlərini xatırlamamaq olmaz: "Kişinin yataqda ölməyə haqqı yoxdur. Ya döyüşdə, ya da üzbəüz güllədən". Və o zaman aydın olur ki, nə üçün Heminquey özü həyatdan getməli oldu. Axı o, özünü yaradıcılıqsız, kişilik hərəkətləri olmadan, uzaq səfərlərsiz və yeni insanlarla tanış olmadan təsəvvür etmirdi. Mənim üçün Heminquey onunla dəyərlidir ki, onun kitabları vasitəsilə mən müasir siyasi həyatı dərk edə, yalançı vətənpərvərliyi öz ölkəsinə həqiqi xidmət etməkdən fərqləndirə və dünyanın işini öyrənə, müxtəlif nəsil insanları başa düşə bilirəm. Heminqueyin əsərlərində müharibə mövzusu və onun humanist məsləkləri və militarizmə aydın ifadə olunmuş nifrəti, müasir həyatımızda da xüsusi aktuallıq qazandırmaqdadır.

Мамедовой Наиры, Рзаевой Шафаг

РЕЗЮМЕ:
ТЕМА ВОЙНЫ И ПРОБЛЕМА «ПОТЕРЯННОГО ПОКОЛЕНИЯ» В ТВОРЧЕСТВЕ ЭРНЕСТА ХЕМИНГУЭЯ.

Статья посвящена творчеству известного американского писателя Эрнеста Хемингуэя, лауреата Нобелевской премии по литературе. Все творчество Хемингуэя связано с его личным опытом, так как через его жизнь прошло несколько войн. В своих произведениях Хемингуэй сумел выразить свою ярую ненависть к войне, фашизму и милитаризму. Он старался донести до читателя всю суровую правду о войне и ее разрушительных последствиях.

Личный военный опыт приводит к пониманию того, что война - это бессмысленная, жестокая бойня, приносящая боль страдания.Своими словами: «Задача писателя — говорить правду», Хемингуэй тем самым определил себя продолжателем реалистических традиций американской и мировой литературы Его чувства, личные переживания и волнения, взгляды на происходящее в мире нашли свое отражение во всех его произведениях.

Свой первый роман «Фиеста» («И восходит солнце», 1926), принесший ему мировую славу, Хемингуэй не раз называл трагическим. И действительно, в романе явно проглядывается трагедия целого поколения, опустошенного войной, утратившего духовные идеалы, оторванного от своих корней.Но его главный герой Джек Барнс не тонет в водовороте «суеты сует». В отличие от окружающих он любит свою профессию журналиста, гордится ею. Из-за ранения,лишающего его многих возможностей, он не становится человеконенавистником, не спивается и не думает о самоубийстве. Джек Барнс находит в себе силы жить, принимая жизнь такой, какова она есть, он сохраняет душевную стойкость, способность все выдержать. Выстоять герою «Фиесты» помогает природа. Тема единения человека с природой, мысль о вечности природы и зыбкости человеческой жизни возникает у Хемингуэя уже в первых его рассказах.

Также Э. Хемингуэй, наряду с другими писателями того времени, считается представителем так называемого "потерянного поколения", хотя он не хотел причислять себя к нему. Это определение впервые появилось во время беседы американской писательницы Гертруды Штейн с Хемингуэем. Впоследствии " Потерянным поколением" стали называться молодые люди, которые прошли через все ужасы Первой мировой войны и утратили веру в патриотические идеалы, совершенно отдалившись от общества. Проблема " потерянного поколения" ярко выражена в романе «Прощай, оружие»(1928), который до сих пор не утратил своей актуальности и является одним из популярных романов литературы XX столетия. Роман повествует о событиях Первой Мировой войны 1917 года. Главный герой романа Фредерик Генри попадает на фронт, но теряет веру в высокие человеческие идеалы. Суровая реальность вокруг него и его презрение к войне заставляют его прибегнуть к дезертирству. Война сама по себе является трагедией, а любовь на войне, среди страданий, крови и смерти, тем более трагична. Любовь героев романа пронизана предчувствием катастрофы. Катрин говорит своему возлюбленному: «Мне кажется, с нами случится все самое ужасное». Так оно и происходит. И хотя Фредерик Генри дезертирует из армии и бежит с любимой женщиной в нейтральную Швейцарию, где они наслаждаются тишиной и миром, — рок настигает их, Кэтрин умирает во время родов. Побег от суровой реальности и уединение с любимой женщиной не сделали Фредерика счастливым человеком, потому что война нанесла непоправимый отпечаток на его

сознание, лишив его веры в будущее. Таким образом, в романе «Прощай, оружие» Хемингуэй затронул проблему « потерянного поколения», к которому относились молодые люди, которые прошли через ужасы Первой мировой войны и разочаровались в жизни, потеряв веру в то, во что так слепо верили. Утратив свои иллюзии, и не обретя новых, «потерянное поколение» судорожно искало выход в пьянстве и разврате, в острых ощущениях. Казалось, что в мире не осталось больше никаких нравственных ценностей, никаких идеалов. Но, несмотря на это, герои Хемингуэя в лице Фредерика Генри не утратили чувств совести, человеческого достоинства и справедливости.

Тема войны в произведениях Хемингуэя приобрела особую актуальность в современном мире, раздираемом войнами и межнациональными распрями. Ведь произведения Хемингуэя могут помочь молодому поколению осознать бессмысленную сущность войн, выработать в них чувство долга перед своей страной и народом и укрепить веру в будущее нашей планеты. Его произведения помогают читателям отделить ложный патриотизм от настоящего служения стране и делу мира, понимать людей разных поколений.

SUMMARY:

MAMMADOVA NAIRA, RZAYEVA SHAFAQ

THE THEME OF WAR AND THE PROBLEM OF "LOST GENERATION" IN THE WORKS OF ERNEST HEMINGWAY.

The article deals with works of the famous American writer Ernest Hemingway, winner of the Nobel Prize in Literature. All of Hemingway's work is connected with his personal experience, because several wars have passed through his life. In his works, Hemingway could express his hatred for war, fascism and militarism. He tried to convey to the reader the whole harsh truth about the war and its destructive consequences. Personal military experience leads to the understanding that war is a senseless, brutal carnage, bringing pain of suffering. In his own words: "The task of a writer is to tell the truth," Hemingway called himself the follower of the realistic traditions of American and world literature. His feelings, emotional experiences and views on what is happening in the world are reflected in all of his works. E. Hemingway, equally with other writers, is considered a representative of the so-called "Lost generation", although he did not want to relay himself to them. This definition first appeared during a conversation between the American writer Gertrude Stein and Hemingway. Later, the young people, who went through all the horrors of the First World War and lost faith in patriotic ideals and completely estranged from society, have been called the "Lost Generation".

The problem of the "Lost generation" is clearly expressed in the novel "Farewell to Arms" (1928), which is one of the most popular novels of the 20th

century literature and is considered an actual novel at present. The novel tells about the events of the First World War in 1917. The main character of the novel, Frederick Henry, goes to the front, but loses faith in high human ideals. The harsh reality around him and his hatred for war make him become a deserter. War itself is a tragedy, and love in the war, in the midst of suffering, blood and death, is more tragic. Foreboding for evil runs through the characters` love. Katherine tells to her sweetheart: "I think everything bad will happen with us". And the same thing has occurred. Although Frederick Henry deserted from the army and escaped with his beloved woman to neutral Switzerland, where they enjoyed peace and quiet, vicious fate caught up with them, and Catherine died during childbirth. Escape from the harsh reality and solitude with his beloved woman did not make Frederick a happy person, because the war left an irreparable imprint on his consciousness, depriving him of the faith in the future.

Thus, have been lost their illusions and everything they blindly believed in, Hemingway`s characters realized the emptiness of their life and could not find the way out of that situation. They seemed that there were neither moral values nor any ideals in the world. But in spite of this, Hemingway`s characters like Frederic Henry, have not lost the sense of conscience and justice.

The theme of war in Hemingway's works has gained particular actuality in the modern world torn by wars and ethnic strife, because Hemingway's works can help the young generation to understand senselessness of wars, develop in a sense of honors to their country and people and strengthen faith in the future of our planet. His works help readers to separate false patriotism from true service to the country and peace cause, to understand people of various generations.

Ədəbiyyat:

1.L. Wagner-Martin. A History Guide to Ernest Hemingway. – New York: Oxford University Press, 2000. – 367 p.

2..J. Meyers. Hemingway: A Biography. – London: Macmillan, 1985. – 198 p.

3. Грибанов Б. Эрнест Хемингуэй: жизнь и творчество. Послесловие // М.: Просвещение, 1984. – 544с.

4. Грибанов Б. Человека победить нельзя // Хемингуэй Э. Фиеста. Прощай, оружие! . – Худ. Лит. , 1988 – 147 с

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya üzrə elmlər doktoru, dosent Bəşirova Gülşən tərəfindən çapa tövsiyə olunmuşdur.

RZAYEVA ŞƏFƏQ, HEYDƏROVA AYBƏNIZ
Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi

İNGİLİS DİLİNDƏ PRODUKTİV BACARIQLARIN İNKİŞAF PROBLEMLƏRİ VƏ İSTİQAMƏTLƏRİ

shafaq.@email.ru

Xülasə

Məqalə dilin bacarıq və vərdişlərinin bir növü olan produktiv bacarıqlardan və onun problemlərindən söhbət açır. Eyni zamanda həmin problemlərin həlli yollarını istiqamətləndirir. Bu məqalə tələbələrin ingilis dilində danışarkən qarşılaşdıqları problemləri və onun həlli yolları haqqında məlumat əldə etməyə yönəldilmişdir. Tələbələrin ingilis dilində səlis danışa bilmədikləri əsl problemlər nədir. Bu, çağdaş dünyamızın tələbi ingilis dilinin beynəlxalq bir dil olmasıdırmı. Müasir cəmiyyətlə ayaqlaşmaq üçün insanlar ingilis dilini başa düşməli və səlis danışmağı bacarmalıdırlar.İnsanların üz tutduğu bir çox məkanda nəinki ingilis dilində danışmağı hətta ən azından başa düşməyi belə bacarmalıdır. Dil bacarıq və vərdişləri dedikdə produktiv və reseptiv bacarıqlar nəzərdə tutulur. Produktiv bacarıqlara danışıq və yazı, reseptiv bacarıqlara isə oxu və dinləmə bacarıqları aiddir. Məqalə produktiv bacarıqlardan bəhs etdiyi üçün biz danışıq problemlərindən və onun aradan qaldırılması yollarından danışacağıq. Danışıq zamanı bir çox suallar yaranır. Məsələn, nə üçün tamamilə fərqli yazıya malik olan sözlər “our” və “hour”, “night” və “knight” və s. eyni tələffüz olunur. Yaxud “bed”və “bet” , “bad” və “bat” sözlərində son hərflərin düzgün tələffüz olunmaması həmin sözlərin mənalarının dəyişməsinə səbəb ola bilər. Eyni yazılan bir söz başqa mənalar ifadə edir. Məsələn, “bat” sözü həm “yarasa” həm də “beyzbol taxtası” mənalarını verir.

Key words: productive, receptive, difficulties, speaking, writing, consist of, problems.

Açar sözlər: məhsuldar, qəbuledici, çətinliklər, danışma, yazma, dən ibarət olmaq, problemlər.

Ключевые слова: продуктивный восприимчивый, трудности, разговор, писание, состоят из, проблемы.

İngilis dili elm, aviasiya, kompüter, diplomatiya və turizm dilidir. İngilis dilini bilmək, ölkəmizdəki beynəlxalq bir şirkətdə yaxşı bir iş tapmaq və ya xaricdə bir iş tapmaq şansını artırır. Bu həm də beynəlxalq ünsiyyət, media və internet dilidir, buna görə də İngilis dilini öyrənmək həm ünsiyyət və əyləncə(dünyanın ən yaxşı filmlərinin, kitablarının çoxu ingilis dilində istehsal olunur və musiqilərinin çoxu ingilis dilində yazılır) üçün, həm də iş üçün vacibdir! Britaniya Konsulluğu son dövrlərdə dünyada iki milyard insanın ingilis dili öyrəndiyini təxmin edir.

İngilis dilini öyrənmə prosesində ortaya çıxan bir sıra çətinlikləri aradan aqldırmaq üçün müəyyən inkişaf bacarıq və vərdişlərini bilmək lazımdır.

Ana dili xaricində ingilis dilinin tədrisi və bu səbəbdən öyrənilməsi, yerli, milli və beynəlxalq səviyyədə ingilis dili bilik və bacarıqlarına artan tələbatın öhdəsindən gəlmək üçün ünsiyyət bacarıqları üçün çox mühümdür.

Bu proses müəyyən inkişaf bacarıqlarından ibarətdir. Ümumi bir baxış çərçəvəsindən götürsək bunlar iki yerə bölünür: reseptiv və produktiv.

Reseptiv (qəbul etmə) bacarıqlarına oxumaq və dinləmək daxildir. Onlar, dil öyrənənlərin kontekstləri (məzmunları), dərslikləri, əsərləri və ya sənədləri anlamalarına imkan verdiyinə görə vacibdir.

Produktiv bacarıqlar şıfahi və yazılı nitq vərdişlərindən, yəni danışıq və yazıdan ibarətdir və bunlar xarici dil öyrənənlərin şifahi təqdimatlarda, yazı işlərində və digər hesabatlar kimi ünsiyyət aspektlərində danışmalarını təmin edir. Buna görə bu bacarıqların inkişaf etdirilməsi və düzgün öyrənilməsi lazımdır.Bir çox xarici dili tədris edən müəllimin və eləcə də onu öyrənən tələbələrin təcrübəsinə əsasən əksər çətinliklər produktiv bacarıqların öyrənilməsi və öyrədilməsi prosesində tapılır. Digər tərəfdən, produktiv bacarıqların tədrisi və öyrənilməsi prosesini həm müəllimlər həm də xarici dil öyrənənlər üçün asanlaşdıran fərqli metodlar, yanaşmalar və üslublar ixtira edilmişdir. Beləliklə, bu tədqiqatın əsas məqsədi müasir dünyada və eləcə də ölkəmizdə produktiv bacarıqların tədrisində, öyrənilməsində yaranan problemlər və onların düzgün istiqamətlərini müəyyənləşdirməkdir. (1)

İngilis dili bacarıqlarından biri də hər hansı bir xarici dil öyrənənin mənimsəmə qabiliyyəti – onun danışıq qabiliyyətinin olmasıdır.Bu halda xarici dil öyrənənin bilik qabiliyyətini bilmək istəyən hər kəsdə yaranan ümumi sual odur ki, xarici dil öyrənən həmin dildə danışa bilir yoxsa yox.Xarici dil öyrənənin nailiyyəti xarici dildə söhbət etmə qabiliyyəti zamanı üzə çıxır.

Tələbələrin əksəriyyətinin danışarkən qarşılaşdıqları problemlər "söz ehtiyatı çatışmazlığı", "danışmaqda özünə əmin olmamaq", "toplumda danışmağa alışmamaq" və "sözləri və ya cümlələri ifadə etməkdə çətinlik çəkmək"dir. Tələbələrin çoxunun qarşılaşdığı problemlərin səbəbi səhv etməkdən qorxmaq"dır. Bu problemlərin necə və nə zaman yarandığını nəzərdən keçirək.Xarici dil öyrənənlərin qarşılaşdıqları problemlər aşağıda verilmişdir:

1. İngilis dilində danışarkən ümumi qrammatika səhvləri; Danışıq zamanı tələbələrin üzləşdiyi əksər səhvlər ümumi qrammatik səhvlərdir. İngilis dilinin qrammatikasını öyrənmək onlar üçün çox çətindir. İngilis dilində danışarkən tələbələr daha çox qrammatik səhvlərə yol verirlər. Adətən onlar, ingilis dilində danışarkən zamanlar, məlum və məchul növ, söz ehtiyatlarına görə səhvlər edir.Bəzən onlar, keçmiş zamanda danışmaq istədikləri halda keçmiş zaman əvəzinə indiki zamanda danışırlar. Xarici dil öyrənənlər indiki, keçmiş və gələcək zaman arasındakı fərqi və onlardan necə istifadə etməli olduğunu asanlıqla ayırd etməyə bilirlər. (1)

2. İngilis dilində danışanlaraın özünə əmin olmaması; Özünə inamsızlıq da həmçinin tələblərin ictimai yerlərdə ingilis dilində danışa bilməməsi səbəblərindən

biridir. Onlar insanlar qarşısında ingilis dilində danışdıqlarına əmin deyillər. Bunun səbəbini müəllimlərdə axtarmaq lazımdır, çünki müəllimlər öz tələblərinə ictimai yerlərdə ingilis dilində danışmaq üçün onlarda əhəmiyyətli dərəcədə özgüvən yaratmamışdır. Ümumiyyətlə, müəllimlər tələbələri sinifdə və ya insanların qarşısında ingiliscə danışması üçün cəsarətləndirməlidir. Onlar ingilis dilini öyrənir, amma bu dildə necə danışacağını öyrənmir. Bu problem, tələbələrin əsasən sinifdə və ya insanlar qarşısında qarşılaşdıqları problemlərdən biridir. Özünə inam ingilis dilində danışmaq üçün çox mühüm rol oynayır və əgər tələbələr özlərinə inanmırsa yaxud özlərinə əmin olmadıqları təqdirdə onlar ingilis dilində danışa bilməzlər. Onların özgüvəni və inamı tamamilə müəllimlərdən asılıdır. Tədris edənlər onları həvəsləndirməli və özlərinə inamlı şəkildə ictimai yerlərdə ingilis dilində danışmağı motivasiya etməlidir.

Əgər tələbələr danışarkən səhv etməkdən narahatdırlarsa, deməli müəllimlər onlara heç kəsin anadan mükəmməl insan olaraq doğulmadığını aşılamaq məcburiyyətindədir, hər bir insan öz səhvləri nəticəsində öyrənir. Səhv danışdıqlarına baxmayaraq özlərinə inamla danışmalıdırlar. Səhvlərdən dərs alacaq və yenidən danışarkən bunları düzəldəcəklər.Buna görə ingilis dilində danışmaqda özünə inam çox vacibdir. 3. İngilis dilində danışmaqda utancaqlıq hissi; Utancaqlıq hissi tələbələrin ingilis dilində danışa bilmədikləri ən böyük amillərdən biridir, tələbələrin ingilis dilində danışarkən hiss etdikləri bir duyğudur, onlar öz müəllimləri və dostları qarşında danışmaqdan çəkinirlər. Utancaqlıq nəticəsində onlar nə düşündükləri və nə danışmaq istədikləri qarşısında aciz olurlar. Danışan şəxs özünə əmin olmadığından bütün qrammatik qaydaları unudur və danışarkən lüğətdən yetərincə istifadə edə bilmir. Utancaqlıq ucbatından ingilis dilində danışanlar insanlar qarşısında narahatlıq və çaşqınlıq hissi keçirirlər.

Müəllimlər tələbələri özünə güvənməyə motivasiya etməlidir ki, onlar insanların önündə özlərini çıxılmaz vəziyyətdə hiss etməsinlər və ingilis dilində danışmağa cürət etsinlər. (2)

Tələbələr utancaqlıqlarını aşmalı və inamla ingilis dilində danışmalıdırlar.

4. İngilis dilində danışarkən səhv etmək qorxusu; İngilis dilində danışarkən səhv etmək qorxusu da tələbələrin danışarkən qarşılaşdıqları ən böyük problemlərdən biridir. İngilis dilini öyrənmək, ingilis dilində danışarkən başqa insanlarla necə ünsiyyət qurmağın bir vasitəsi deməkdir. Tələbələr, ingilis dilində danışarkən yoldaşlarının gülməsindən və ya yoldaşlarının qarşısında axmaq görünməkdən və hətta tənqid olunmaqdan qorxur. Səhv etmək qorxusu insanlarla ingilis dilində danışarkən uğursuzluqla nəticələnir. 5. İngilis dilində danışan tələbələrdə motivasiyanın olmaması; Motivasiyanın olmaması da tələbələrin ingilis dilində danışa bilməməsi səbəblərindən biridir. Motivasiya ingilis dilində danışmaqda çox vacib rol oynayır. Motivasiya müəllimlər, digər tələbələr və onların valideynləri tərəfindən idarə oluna bilər. Motivasiyanın olmaması tələbələrin dilə marağının azalmasına səbəb olur. 6. İctimai yerdə ingilis dilində danışmaqda yaranan gərginlik;

Gərginlik və narahatlıq da həmçinin ictimai yerlərdə və ya insanlar qarşısında ingilis dilində danışa bilməyən tələbələrin arxasında duran səbəblərdən biridir. Gərginlikdən tələbələrdə diskomfortluq yaranır və nəticə etibarı ilə onlar ingilis dilində danışarkən və ictimai yerlərdə ünsiyyət qurarkən özlərini çaşdırırlar. (3)

Tələbələr ictimai yerlərdə danışan zaman gərginlik hissini aradan qaldırmağı öyrənməlidirlər. İngilis dilində danışan tələbələrin danışıq zamanı yaranan gərginliyi aradan qaldırmaq üçün lazım olan bir neçə məsləhət var.Tələbələr ictimai yerlərdə ingilis dilində danışarkən əsəbi olduqda, düzgün nəfəs almalı, sakit olmalı və ingilis dilini nə üçün öyrəndiklərini xatırlamalıdırlar, bu onların rahatlaşmasına və əminliklə danışmasına kömək edər. İstiqamətlər; A lot of students tell me their biggest difficulty is speaking English, and today I'm going to tell you why speaking is so hard. It's actually a combination of four different difficulties – and I'm going to give you specific tips for improving each area. Bir çox tələbələrin qarşılaşdıqları dörd fərqli çətinliyin birləşməsi - və hər sahəni yaxşılaşdırmaq üçün xüsusi tövsiyələr təqdim edirik. Bu çətinliklər aşağıdakılardır: Dinləmə (Listening); Unutmayın ki, söhbət edərkən yalnız vaxtın 50% -ni siz danışırsınız - digər 50% -i həmsöhbətin danışmasını dinləməyə sərf olunur. Qarşı tərəfin dediklərini anlamırsınızsa, cavab vermək çətindir. Bu problemin iki sadə həlli var: İlk öncə, hər gün dinləmə materiallarına qulaq asın.Dinləmə bacarıqlarınınızı inkişaf etdirmək üçün gündə sizə 10-15 dəqiqə vaxt lazımdır. Dinləməni maşın sürərkən, ictimai nəqliyyatda olarkən, idman edərkən və yaxud ev işləri görərkən ingilis dilində verilən podkastları və eləcə də, bəzi saytlarda qəbul etmək olar. Sonra bir şeyi anlamadığınız zaman söhbət zamanı istifadə edə biləcəyiniz bu ifadələri yadda saxlayıb tətbiq etsəniz yerinə düşər. I beg your pardon? - Üzr istəyirəm. I'm sorry, I didn't understand that.- Bağışlayın, anlamadım. Could you repeat that, please? - Lütfən, bunu təkrar edə bilərdinizmi? Could you say that again, please? - Xahiş edirəm bir daha deyə bilərsiniz?

Lüğət (Vocabulary); Bəzən ingilis dilində danışarkən bir cümləni düşünürsən, ancaq iki və ya üç vacib sözü bilmədiyindən öz fikrini çatdırmaq çətin olur. (4)

English words can be difficult to pronounce – and when speaking English, you have to consider not only the pronunciation of the individual words, but also the connection between the words in the sentence. There's also the "rhythm" and intonation of the sentence to consider – and sometimes your mouth gets confused!

İngiliscə sözləri tələffüz etmək çətin ola bilər - və ingilis dilində danışarkən təkcə ayrı-ayrı sözlərin tələffüzünü deyil, cümlədəki sözlər arasındakı əlaqəni və cümlədə "ritm" və intonasiyanı da nəzərə almaq lazımdır. İngilis dilində tələffüzü yaxşılaşdırmağa kömək edə biləcək iki üsul var. Birinci üsul dil kursuna getməkdir. Tələffüzü yaxşılaşdırmağın başqa bir yolu da dinləməyə (listening) davam etməkdir. İngilis dilini nə qədər çox dinləsəniz, tələffüzünüz təbii olaraq yerli tələffüzə daha da yaxınlaşacaq. (4)

Əminlik (Confidence);

If you feel nervous and are afraid of making a mistake while speaking English, then your problem is confidence. There are three things that can help increase your confidence:

Summary

Rzayeva Shafaq Heydarova Aybaniz

DIRECTIONS AND PROBLEMS OF DEVELOPMENT OF PRODUCTIVE SKILLS IN ENGLISH LANGUAGE

This article aims to know about the "Problems and their directions of productive skills in English language".That what are actually the problems by which the students are unable to speak English language fluently. Being English language as an international language. It is a demand of today's world. For surviving in society, people have to understand and speak English language fluently. In this world, you go everywhere the people can speak English language or even understand English language. English language plays a greater role for the people in a society. English language is an important subject for people whose English language is not their native language. For surviving in society, they have to learn, understand, and speak English language fluently. For communicating and sharing thoughts with people who belong to other regions who speak different languages, English language is a common language to communicate with them. English language is studying and learning all over the world. In every country, the students are compelled to study and learn English language.

The problems faced by students are given below:

1. Common Grammar Mistakes 2. Lack of Confidence in Speaking English Language.

3. Shyness in Speaking English Language4. Fear of Making Mistakes When Speaking English Language 5. Nervous in Speaking English Language in Public

Резюме

ПРОИЗВОДСТВЕННЫЕ НАВЫКИ ПРОБЛЕМЫ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

Рзаевой Шафаг Гейдаровой Айбениз

Иногда кажется, что выучить английский очень сложно. Ведь на нашем пути постоянно возникают разные проблемы: непонимание английских времен, неспособность разговаривать бегло, непонимание речи, забывание слов. Как же справиться со всеми этими сложностями и заговорить на английском языке?

Сегодня мы рассмотрим 5 самых частых проблем, с которыми вы обязательно столкнетесь, изучая английский. И, конечно, дадим советы, как преодолеть эти сложности.

Проблема 1: Неспособность разговаривать на английском язык

Несмотря на то, что многие люди годами учат английский, они не могут говорить на нем. Это происходит потому, что большую часть времени обучения (80-90%) человек тратит на изучение теории, а вот практику почти ничего не остается (10-20%). Человек учит правила, выполняет упражнения, читает книги и т. д. А до тренировки разговорного навыка дело не доходит. В итоге, столкнувшись с иностранцем, человек не может выразить свои мысли в речи, либо делает это очень плохо. Но язык мы учим именно для того, чтобы общаться, а не пересказывать правила грамматики на азербайджанском.

Решение проблемы: Соотношение теории к практике должно быть противоположным: 20% теории к 80% практики. То есть вы должны сразу применять правило, как только его выучили. Да-да! Вы должна сразу начать строить предложения устно. Только тогда вы сможете научиться использовать это правило в своей речи.

Ədəbiyyat

1. http://ejournal.unp.ac.id › view Speaking Problems - Hendra Heriansyah

2. https://citeseerx.ist.psu.edu › viewdoc › Lenny Johana Alvarado Rico: Causing difficulties to productive skills January-June 2014. Colombia.

3. https://easyspeak.ru/blog/sovety-i-sekrety/top-5-problem-pri-izuchenii-anglijskogo-yazyka. Jane.Топ 5 проблем при изучении английского языка 16.09.2015 Советы и секреты.

4. espressoenglish.net/english-speaking-tips-for-4-common-difficulties.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: Filologiya üzrə elmlər doktoru, dosent Bəşirova Gülşən tərəfindən çapa tövsiyə olunmuşdur.

ƏDƏBİYYAT ŞÜNASLIQ

ELÇIN QALIBOĞLU (İMAMƏLIYEV)
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutunun böyük elmi işçisi
elcin.galiboglu@gmail.com

ŞIRVAN AŞIQ MÜHITI VƏ REPRESSIYA
(Aşıq Mirzə Bilalın həyatı və yaradıcılığı əsasında)

Özət

Şirvan aşıq mühitinin görkəmli nümayəndəsi Aşıq Mirzə Bilalın aşıq sənətində etdiyi yeniliklər, başlıcası, faciəli taleyinin qatlarını araşdırmaq qarşımızda insani, ulusal borc olaraq durur.

Mirzə Bilal təkcə Şirvanda deyil, Azərbaycanın bir çox bölgələri, eləcə də İran, Dağıstan, Orta Asiya, Gürcüstan və İrəvanda məşhur olub. Aşıq Bilal 60-dan artıq klassik saz havalarını bacarıqla ifa edib, 15-dən artıq saz havası bəstələyib. Aşıq Mirzə Bilal haqqında bu gün biz daha çox onun bilginliyi sarıdan, yəni dastançılığı, şairliyi, yaratdığı havacatlar əsasında danışırıq.

Hayıf ki, Mirzə Bilalın ustad səsi bizə gəlib çatmayıb. Bolşevik repressiyasının qurbanı olmuş aşıq haqqında uzun müddət danışmaq yasaq olub. Ancaq xalqın yaddaşında Aşıq Bilalla bağlı yaşayan xatirələr, onun ölməz sənətkar kimi ürəklərdə və ağıllarda qalan əməlləri ölməzliyinin sübutu olub.

Aşıq Mirzə Bilalın faciəli həyatının bizə məlum olan səhifələrini vərəqlədikcə onun xalqa gərəkli olan ömrünün yarıda qırılmasına heyfsilənirik. Hər şeydən öncə ona görə ki, bu kimi yaradıcı insanların məhv edilməsi xalqımızın ruh yaddaşının qoruyucularının azalmasına səbəb oldu. Düzdür, nəinki Şirvan, ümumiyyətlə, Azərbaycan aşıq sənətinin ənənəsi bu gün də yaşamaqda, inkişaf etməkdədir. Deməli, bu və başqa yaradıcı sahələrdə tarix boyunca itkilərimiz olsa da, ulusal ruhumuz ölməyib, itməyib. Bu ruhun yaşadıcıları, qoruyucuları isə ulus (xalq) ruhuna yetkin şəkildə yiyələnən insanlardır. Aşıq Mirzə Bilal hər şeydən öncə ulusal ruhun ərdəmli ötürücülərindən biridir.

Məqalədə Aşıq Mirzə Bilal haqqında yazılmış kitablar, elmi-publisistik məqalələr, xatirələr onun faciəli həyatı sarıdan araşdırılır, ömrünü aşıq sənətinə həsr etmiş ustadın Şirvan, ümumən Azərbaycan aşıq sənətindəki özünəməxsus rolu əsaslandırılır.

Açar sözlər: Şirvan aşıq mühiti, Aşıq Mirzə Bilal, ənənə, repressiya, istintaq.

Giriş. 1930-cu illərdə Azərbaycanda repressiyanın yeni dalğası başlandı. İlk dalğa 1920-ci illərdə başlanmışdı. Əslində bu dalğa səngiməmişdi. İmperiya xalqların iradəsini qırmaq, ruhunu sarsıtmaq üçün yeni mərhələyə hazırlaşırdı...

Repressiya ilk növbədə düşünən beyinlərin, xalqla bir olan, xalqın ruhunu təmsil edən insanların məhv edilməsinə yönəlmişdi. Yeni gələn nəsil öncəkinə qətiyyən oxşamamalıydı. 1920-ci il 28 Aprel işğalından sonra Rusiya Azərbaycanda illərlə kütləvi həbslər apardı, dəhşətli qətllər, qarətlər törətdi. Bu, Stalinin amansız repressiya maşınının bütün gücü ilə işə düşdüyü zamanlarda daha da tüğyan etdi. 1937-ci ildə zərbə daha çox xalqın ədəbiyyat adamlarına dəydi. İmperiya əlindən gələn etdi ki, xalqın ruhunu tamamilə sarsıtsın.

30-cu illərdən başlayaraq rəsmi Moskva ədəbiyyat adamları arasında özünə carçılar axtarmağa başladı. Bu ideyaya tabe olmayanların məhvi planını məharətlə hazırladı və həyata keçirdi. Ancaq heç zaman əsl ədəbiyyat zamana tabe olmayıb. Di gəl ki, 1917-ci ildən sonra Rusiya imperiyasının varisi olan SSRİ sosializm adı altında yeni imperiyaçılıq siyasəti yürütməklə əslində yazıçıların "saqqızını oğurlaya bildi".

Hətta zaman səviyyəsini aşmağa qüdrəti çatacaq nəhəng simalar belə sovet ideyalarının "vurğunu" oldular. Hər halda bu paradoksallıq araşdırılmalı, təkcə ədəbi fakt kimi yox, əslində dərin köklü ictimai faktor olaraq təhlil edilməli, bəşərin sabahı üçün dərs səviyyəsində bir qənaətə gəlinməlidir.

Azərbaycanda sovet hakimiyyəti qələbə çaldıqdan sonra yazıçıları kütləvi şəkildə sovet ideologiyası mövzusunda yazmağa məcbur etdilər. Hər halda 37-ci il yaradıcı adamların ürəyində və ağlında dəhşətli xof yaratdı. Bu xəttə, prinsipə uyğun olmayanları, hətta olanların müəyyən fəallarını belə məhv etdilər ki, qalanlara dərs olsun. Təkcə 1937-ci ildə Azərbaycanda “xalq düşməni” kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi [10]. 1937-ci il repressiyaları zamanı biri-birlərini satanlar, xəyanətlər selində insanların halsızlığı, imperiyanın mütləq hakimliyi bütün aydınlığı ilə göründü, bilindi. Ədəbiyyat adamlarının 1937-ci ilin oktyabrında başlanan kütləvi həbsləri dəhşətli xofun yeni, daha qanlı mərhələsi oldu. 1937-ci il oktyabrın 12-dən 13-nə keçən gecə Azərbaycanın tanınmış yaradıcı adamları Əhməd Cavad, Bəkir Çobanzadə, Böyükağa Talıblı, Vəli Xuluflu, Məmmədkazım Ələkbərli, Hənəfi Zeynallı, Xalid Səid Xocayev qətlə yetirildi.

Azərbaycanın işğalından sonra müxtəlif ölkələrdə ağır mühacirət həyatı yaşamağa məcbur olan Məhəmməd Əmin Rəsulzadə yazırdı: "Bolşeviklərin qarşılaşdığı ən böyük çətinlik ədəbiyyat sahəsində idi. Onlar Azərbaycanda "proletar mədəniyyəti"ni bərqərar etmək istəyirdilər. Qısaca "proletkul" adlandırılan bu formulun mənası "formaca milli, məzmunca kommunist" olan bir ədəbiyyatdır. Ancaq bolşeviklər bu arzularına heç cür çata bilmirdilər. Çünki bu iş üçün hazırlanmış kadrlar yox idi. Məktəb kimi ədəbiyyat da uzun müddət kommunizmə yabançı olan ideoloqların təsiri altında qaldı. 1937-ci ilə qədər bu sahədəki əsl hakimiyyət "inqilabdan" əvvəlki qələm sahiblərinin əlində idi...1929-cu ilin 5 oktyabr

tarixli Bakıda çıxan "Kommunist" qəzetində o zamankı maarif nazirinin yazıçıların qurultayındakı çıxışında belə məqama rast gəlinir: "Azərbaycan işçiləri arasından çıxan şair və yazıçıların sayı gündən-günə artmaqdadır. Yazıçıların bu nəslinin "Müsavat" dövründə xəbəri yoxsa da, yenə Cavadın (milli şair Əhməd Cavad nəzərdə tutulur - M.Ə.R.) milli məktəbi təsirinə düşür və milli Azərbaycan ruhunda ədəbiyyat yaradırlar. Hətiçədə Azərbaycanın gənc yazıçıları uydurulmuş rus təhlükəsinə qarşı çıxır və "Bağımsız Azərbaycan" şüarını idealizə etməyə başlayırlar. Almas (Almas İldırım - M.Ə.R.), Əbdül, Müşviq (Mikayıl Müşviq), Hüseynzadə. Bunlar bir-bir millətçi olaraq proletar Yazıçılar İttifaqından və Kommunist Partiyasından çıxırlar. İndi isə Cavadla birlikdə üçrəngli Azərbaycan bayrağını tərənnüm edirlər" [9].

Şübhəsiz, aşıq sənətində də bu ruh vardı. Aşıqlar birbaşa ad çəkməsələr də, el məclislərində azadlıq ruhunun daşıyıcıları idilər: istər-istəməz sazın ilahi səsi ulusal sözlə birləşəndə insanları coşdururdu. Bu isə bolşevizmin prinsiplərinə uyğun deyildi.

Deməli, aşıq sənəti bolşeviklərin işinə yarımalıydı. Ona görə ki, xalq aşığa özündən çox inanırdı. Savadsızlığın aradan qaldırılmadığı, radionun yavaş-yavaş camaat arasında dəbləşdiyi bir vaxtda aşığın sovet ideologiyasını kütləyə çatdırması gözəl effekt verə bilərdi, sonradan verdi də. Ancaq aşıqları bu məcraya yönəltmək üçün öncə onlara yaxşıca "dərs vermək", “davranış normalarını” müəyyənləşdirmək gərək idi.

Gerçəkdən, aşıqlar necə dərs aldılarsa, onların şeir yaradıcılığına, aşıq musiqisinə sovet ideologiyası tamamilə oturdu. Hətta Azərbaycan aşıqlarının geyimi belə bolşeviksayağı idi. Bu, o demək idi ki, Azərbaycan aşıqları zorən bolşevizmin, sovet ideologiyasının sadiq əsgərləri oldular. Təbii ki, bu dönəmdən sonra da aşıqlarımız daxilən (çalğıda, improvizədə) xalq ruhundan ayrılmadılar, ancaq ideoloji sarıdan sovet ideologiyası istəyinə çatdı.

Bu dövrün repressiyasının Azərbaycan folklorşünaslığına vurduğu mənəvi ziyanla, məhv etdiyi foklorşünaslarla bağlı fil.ü.e.d., professor Cəlal Qasımovun tədqiqatları ayrıca diqqət çəkir [1;2]. (“Ədəbi məhkəmələr” kitabında M.Cəlilin “Ölülər”, C.Cabbarlının “Aydın”, H.Cavidin “Şeyx Sənan” əsərlərinin qəhrəmanları – İsgəndərin, Gültəkinin, Şeyx Sənanın və milli musiqi alətimiz tarın ədəbi məhkəmələri ilk dəfə arxiv və mətbu materiallar əsasında araşdırma obyektinə çevrilir [3].

Xüsusilə tarın mühakimə edilməsi mahiyyətcə sazın, aşıq sənətinin daşıyıcılarının mühakiməsi demək idi. C.Qasımov haqlı olaraq qeyd edir ki, ədəbi məhkəmələr də həmin dövrün milli-mənəvi dəyərlərimizə vurduğu zərbələrdəndir [3, 212].

Aşıq sənəti xalqımızın möhtəşəm döyüşkənlik ruhunu ifadə edir, xalq ruhunu tam mənasıyla anlamağa imkan verir. XX yüzildə Şirvan aşıq mühitindən danışarkən, yadımıza ilk növbədə XIX əsrin sonu, XX əsrin 30-cu illərində yaşamış məşhur

sənətkar, ustad Aşıq Mirzə Bilal düşür. Aşıq sənətinin geniş şəkildə inkişaf etdiyi bölgələrdən biri olan Şirvanda aşıqlar içərisində repressiyanın qurbanı o oldu.

Aşıq Mirzə Bilalın aşıq sənətində etdiyi yeniliklər, yaratdığı saz havaları, bağladığı dastanlar, ümumiyyətlə, zəngin repertuarı haqqında danışmaq, bu barədə bilgiləri sabaha çatdırmaq, başlıcası, faciəli taleyinin qatlarını araşdırmaq qarşımızda insani borc olaraq durur.

Mirzə Bilal təkcə Şirvanda deyil, Azərbaycanın bir çox bölgələri, eləcə də İran, Dağıstan, Orta Asiya, Gürcüstan və İrəvanda məşhur olub. Azərbaycan xalq dastanları ilə yanaşı, Şirvanın klassik «Aşıq Saleh və Maral», «Koroğlunun Şirvan səfəri», «Şirvanlı Qəhrəman şah», «Şahzadə Qasım», «Miskin Baba və Nigar xanım», «Aşıq Ağaməmməd və Məryəm», «Küçə Rza», «Mustafa və Sənəm xanım», «Adgözəl və Aslan şah», «Zəncanlı Qurban», «Kərəmin Beşdaş səfəri» dastanlarını dəqiq bildiyi kimi, ustalıqla da ifa edib. «Səfiyyə və Ziyad», «Aşıq Bilal və Soltan xanım», «Yetim Soltan», «Mustafa xan», «Aşıq İbrahim və Pəri», «Aşıq Bilal və Sənəm», «Həzrət Baba» adlı dastanlar bağlayan Aşıq Bilal 60-dan artıq klassik saz havalarını bacarıqla ifa edib, 15-dən artıq saz havası bəstələyib.

Aşıq Mirzə Bilal haqqında bu gün biz daha çox onun bilginliyi sarıdan, yəni dastançılığı, şairliyi, yaratdığı havacatlar əsasında danışırıq.

Hayıf ki, Mirzə Bilalın ustad səsi bizə gəlib çatmayıb. Bolşevik repressiyasının qurbanı olmuş aşıq haqqında uzun müddət danışmaq yasaq olub. Ancaq xalqın yaddaşında Aşıq Bilalla bağlı yaşayan xatirələr, onun ölməz sənətkar kimi ürəklərdə və ağıllarda qalan əməlləri ölməzliyinin sübutu olub.

Fil.ü.e.d. Seyfəddin Qəniyevin Mirzə Bilalla bağlı qənaətləri maraqlıdır: «Seyid Əzimin məktəbini uğurla başa vuran Bilal dostları arasında Mirzə Bilal adı ilə tanınır, sevilir. O, ustadı Seyid Əzimdən ərəb və fars dillərini mükəmməl öyrənir, eləcə də klassik poeziyaya dərindən bələd olur. Aşıq Bilal Şirvanın məşhur xanəndəsi Mirzə Məhəmmədhəsəndən muğam sənətinin sirlərini öyrənir. O, məhz ustadı Aşıq İbrahimin məsləhətindən sonra 35 ildən artıq bənzərsiz xanəndə kimi bütün Qafqazda, İranda məşhurlaşmış Mirzə Məhəmmədhəsənin yanına gəlir. Məclislərində iştirak etdiyi, səsindən doymadığı məşhur xanəndəyə ürəyinin istəyini açır. Mirzə Məhəmmədhəsən o zaman bir neçə dəfə bu cavan aşığı dinləmişdi, səsini bəyənmişdi. Həmin vaxtdan Bilal Mirzə ilə ilə məclislərə gedir. O, ustadının məharətlə oxuduğu «Şur», «Rast», «Humayun», «Segah», «Şüştər» muğamları ilə ona imtahan verir, halallıq alır. Bu vaxtdan başlayaraq el məclislərinə həm aşıq, həm də xanəndə kimi getməyə başlayır. Deyilənə görə, Mirzə Bilalın həm də xanəndə kimi gözəl səsi var imiş. Aşıq Bilal artıq məşhurlaşır: o, Azərbaycanın hər yerində sevilir. Səsi-sorağı el-obanı başdan-başa bürüyən, özünəməxsus üslubu, yolu, şeir yaradıcılığı, repertuarı olan və klassik Şirvan aşıq mühitinin qədim ənənələrini öz sənət dünyasında yaşadan aşıq Bilal cavan yaşlarında ustadlar cərgəsinə qoşulur. O, həm də Şirvan saz havalarının mahir ifaçısı və bilicisi olur, özü də neçə-neçə havalar bəstələyir» [5, 33].

Mirzə Bilal həm də Azərbaycanın ictimai-siyasi həyatı ilə bağlı bəzi məsələlərə şeirlərinin dili ilə münasibətini ifadə edə bilib. "Pristavın əlindən" adlı şeirinə görə hələ 1917-ci ildə Çar hökuməti tərəfindən həbsxanaya salınıb. 1918-ci ildə ermənilərin türklərə qarşı həyata keçirdiyi soyqırım zamanı doğma Qəşəd kəndində əhalinin faciəyə düçar olmaması üçün əlindən gələni əsirgəməyib, kəndin könülləri ilə birgə çoxunu qırğından xilas edib. Kənd ermənilər tərəfindən yandırılıb, əhalinin bir hissəsi isə öldürülüb. O, Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Şamaxı İcraiyyə Komitəsinə üzv seçilib, 6-7 kəndə nümayəndə təyin edilib.

Aşıqla bağlı tərtib edilmiş protokolda qeyd edilir: «Şamaxı rayonunun Qəşənd kənd sakini, 1872-ci ildə anadan olmuş… az savadlı, sənəti aşıq (həbs olunana qədər həmin sənəti işlədib). Təqsirli bilinir ona görə ki, İ.İbrahimovun başçılığı altında sovet hökumətinə qarşı əks-təbliğat aparıb, həmin şəxsin əksinqilabi tapşırıqlarını yerinə yetirilməsi, Qəşəd kəndində əksinqilabçı qrupun yaradılmasında, millətlərarası şaiyələr yayılmasında, sovet hökumətinə qarşı silahlı üsyan hazırlanmasında fəal iştirakına görə… ciddi rejimdə saxlanılsın».

S.Qəniyev kitabında yazır: "13773 saylı "cinayət işinin" 4 cilddə cəmləşmiş 18735 saylı protokolunu səhifə-səhifə, sətirbəsətir oxudum. Dindirilmə protokolundan bəlli olur ki, ixtiyar yaşlı ustad Aşıq Bilal həbs ediləndən - 15 iyun 1937-ciil tarixdən həmin ilin noyabrına kimi 5 dəfə dindirilib".

Protokoldan aydın olur ki, Aşıq Bilal kimlərlə "əlbir olub": "Şamaxı rayon partiya komitəsinin katibi Xəlfə Hüseynov, rayon İcraiyyə Komitəsinin sədri İsrafil İbrahimov, eləcə də Həmid Sultanov, rayon prokuroru Əmirov, rayon torpaq şöbəsinin başçısı H.Yurxanov, rayon təhsil şöbəsinin müdiri Süleymanov, rayon partiya komitəsinin instruktoru M.Mehdiyev, rayon hərbi komissarı Paşayev və başqaları ilə antisovet təbliğatı apardığı, Ləngəbiz-Qəşəd kəndlərində silahlı üsyan hazırlanmasına başçılıq etdiyi üçün" həbs edilib [5, 74].

Protokolun girişində yazılır: "Aşıq Mirzə Bilal. Qəşəd kənd sakini, sənəti aşıq. "Şamaxı rayonunda Sovet hakimiyyətinə qarşı fəal iştirakçılardan biri", "Qəşəd kəndində Sovet hökumətinə qarşı aparılan təbliğatın rəhbəri", "üsyana hazırlıqla bağlı slah almış" aşıq ilk dindirmədə heç bir günahı olmadığını cəsarətlə bildirir, "65 yaşlı aşıq sonrakı dindirmələrdə (5 avqust, 8 noyabr) yavaş-yavaş deyilənlərə boyun əyməli olur. Yəqin aşıq cəladların ona verdikləri işkəncələrə tab gətirə bilməyib. Odur ki, ona qarşı irəli sürülən bütün ittihamlarla razılaşır. Deyilənləri imzası ilə təsdiq edir" [5, 74].

İstintaq materiallarından:

"Sual: Siz nəyə görə səsvermə hüququndan məhrum olmusunuz?

Cavab: Guya mən 1922-cii ldə muzdur saxlamışam. Ona görə 1922-ci ildə səsvermə hüququndan məhrum edilmiş, 1934-cü ildə bəraət almışam.

Sual: Siz kulak olmusunuzmu və muzdur saxlamısınızmı?

Cavab: Mən kulak olmamışam. Heç kimin əməyini istismar etməmişəm. Ancaq 1924-26-cı illərdə hər il yay mövsümü ilə əlaqədar şəxsi adamlar təsərrüfat işlərində mənə kömək edirdilər.

Sual: Bəs siz 1927-ci ildə muzdur saxlamısınızmı?

Cavab: Xeyr, mən nə 1927-ci ldə, nə də sonrakı illərdə muzdur saxlamamışam və başqalarının əməyini istismar etməmişəm.

Sual: Müsavat hakimiyyəti zamanı yüzbaşı olmusunuzmu?

Cavab: Bəli, mən 1918-ci il sentyabrın 21-dən noyabrın 30-na kimi, yəni 40 gün Ləngəbiz kənd sahəsi üzrə seçki yolu ilə yüzbaşı seçilmişəm.

Sual: İstintaq zamanı aydınlaşdırılıb ki, siz yüzbaşı işlədiyiniz zaman bir muzduru öldürmüsünüz. Bunu boynunuza alırsınızmı?

Cavab: Dediyim kimi mən heç zaman muzdur işlətməmişəm. Və heç bir muzduru öldürməmişəm.

Sual: Siz Sovet hakimiyyətinə qarşı əks təbliğat aparanda kimlərlə əlaqəli olmusunuz?

Cavab: Mən heç vaxt Sovet hakimiyyətinə qarşı əks təbliğat aparmamışam və heç kimlə əlaqədar olmamışam.

Sual: İstintaq məlum edir ki, siz kəndlilərin arasında dövlətə qarşı fəal təbliğatçı olmusunuz, düzdürmü?

Cavab: İnkar edirəm, mən heç bir zaman antisovet təbliğatı aparmamışam.

Sual: Siz düz danışmırsınız! Siz vaxtaşırı Sovet hökumətinə qarşı fəal əks təbliğatçı olmusunuz. Təklif edirik ki, dediklərimizi təsdiq edəsiniz.

Cavab: Mən isə bir daha deyilənlərin hamısını təsdiq edirəm. Heç vaxt Sovet dövlətinə qarşı əks təbliğat aparmamışam.

Dindirdi: Dövlət Təhlükəsizlik Komitəsi, 4-cü şöbə, leytenant Q.B.Martirosov" [5, 79].

Həbsxanada uzunmüddətli işgəncələrdən sonra saxta ittihamlara məcburiyyət qarşısında imza atan aşıq həmin il noyabrın 26-dan 27-nə keçən gecə erməni Q.B.Martirosovun qərarı və Sumbatovun göstərişi ilə 65 yaşında güllələnir. Həmin gecə onunla birlikdə 50 nəfər öldürülür.

Fil.ü.e.d., prof. Məhərrəm Qasımlı yazır: "Təəssüf ki, XX yüzillikdən etibarən, xüsusən də sovetlər dönəmində aşıqlıq öz tarixi status və missiyasından uzaqlaşdırılaraq tənəzzülə doğru getməyə başladı. İlahi aləmin mənəvi ucalığına bağlı olan aşıqlıq "İşıqlıdır lampaları kolxozun" səviyyəsinə endirildiyindən onun cəmiyyət içərisindəki hörmət və nüfuzu tədricən aşağı düşdü. Aşıqlara Lenin, Stalin, Kommunist Partiyası, Moskva, Kreml mövzusunu təbliğ kimi saxta, boğazdan yuxarı bir missiyanın yüklənməsi də öz işini gördü. Bu tipli mövzulara etiraz edən Mirzə Bilal, Borsunlu Məzahir, Mikayıl Azaflı, Kəmsavad kimi saz-söz sənətkarları repressiya, həbs və mənəvi təzyiqlərə məruz qaldılar. 1928-ci ildə çağırılmış I Aşıqlar Qurultayının materiallarından da göründüyü kimi, mövcud quruluş onun ideoloji təbliğatçısı rolunu oynayan yeni tipli bir aşıq - sovet aşığı obrazının yaranmasına

cidd-cəhdlə çalışmışdı. İkinci və üçüncü qurultaylar da bu məqsədlə çağırılmışdı. Yalnız 1984-cü ildə çağırılan IV qurultayda aşıqların yaradıcılıq və məişət problemləri gündəliyə çıxarılaraq qətnamədə öz əksini tapmış, lakin həmin müddəaların çox cüzi bir hissəsi zaman içərisində gerçəkləşə bilmişdi" [4].

Akademik Rafael Hüseynov yazır: "1937-ci il iyulun 1-nə keçən gecə Mirzə Bilalın doqqazının qarşısında maşın dayanır. Külfət səsə oyanır. Mirzə Bilalı növbəti toya dəvət etmək üçün gəlməmişdilər. Bu, vay maşını idi. Əslində Mirzə Bilal çoxdan qara siyahıda idi. Onun söz deyən dili vardı. Başqaları susurdu, amma Allah onu başqalarının deyə bilmədiyini deməyə kökləmişdi. Və 1933-cü ildə Aşıq Bilalı salırlar "kulak" siyahısına. Əlbəttə, bu, oyun idi, başa salırdılar ki, asanca tuta da bilirik, buraxa da. Ağıllı olmaq lazımdır" [8].

Araşdırmaçı Qalib Soltanoğlu məşhur balabançı haqqında olan "Kalvalı Əli Dədə" kitabında Aşıq Mirzə Bilalla ustad Əli Kərimovun (Kalvalı Əli Dədənin) dostluğunu örnək kimi təqdim edir. Hər iki sənətkar ilqarlı olduqlarından oğlanlarının adlarını Ağalar qoyurlar. Bilal oğlu Ağalar (1913-1988) aşıq, Əli oğlu Ağalar (1906-1976) isə müəllim olur. Adaşların dünyaya gəlişlərinə diqqət yetirsək, Əli oğlu Ağaların yeddi yaş Aşıq Ağalardan öncə doğulduğunu görərik. Belə nəticə çıxarmaq olar ki, Aşıq Bilal öz dostu Əlinin oğlunun adını dostluqlarını yaşatmaq üçün oğluna da qoyub" [7, 22].

Seyfəddin Qəniyev Əli Dədənin (Kərimov) Aşıq Bilalla dostluğundan geniş yazır. Aşıq Mirzə Bilalın xatirələrdə yaşayan toy məclisini təsvir edir. Kalvalı Əli Dədə dostu Aşıq Mirzə Bilal 1937-ci ildə suçsuz tutulduqdan sonra düz bir il toylara getmir. Sonra isə Aşıq Şamillə (1902-1986) ömrünün sonuna kimi sənət yoldaşlığı edir.

Aşıq Şamilin xatirəsi: "1930-cu illərdə Sovet dövlətini, ölkəni "əksinqilabi qüvvələrdən" təmizləmək üçün Şamaxıda da həbslər artırdı. Nəhayət, ustadımız Aşıq Bilala növbə çatdı. Xəbər tez bir zamanda Şamaxını başına götürdü. Bazara gəlib-gedənlər bu qəmli xəbəri bütün kənd və obalara çatdırdı. Qorxumuzdan danışa bilməsək də, dərd bizim idi. Toy sezonu olmasına baxmayaraq həmin ilin yayında mən, Aşıq Abbas, Kalvalı Əli, Aşıq Qurbanxan toya getmədik. Gedənlərimiz də dilimizin əzbəri olan Aşıq Bilal repertuarına müraciət edə bilmirdi. Onun düzdüyü dastanları oxumadıq, havaları çalmadıq. Əhali də qorxu içində idi. Hami Sibirdən qorxurdu. Əvvəllər məclislərə gedəndə hamı bizə "Bilal peşrevi", "Bilal duvaqqapması", "Bilal təcnisi", "Bilal qara qafiyəsi", "Bilal gəraylısı", "Bilal şikəstəsi" "Bilal gözəlləməsi" oxumaq sifariş verirdilər. Artıq heç kəs Bilal kəlməsini dilinə gətirməyə cürət etmirdi. Çünki hər kənddə hökumətin "qulaqları", casusları vardı" [5, 87-88].

Kalvalı Əli Dədənin nəvəsi Ağasəf Seyidovun dediyinə görə, Əli Dədə Aşıq Bilal həbs edilənə kimi, onunla bir ansamblda çıxış edib. Dostunun həbs edilməsi xəbərini eşidən Əli kişi düz iki ay xəstə yatır. Bir il isə heç bir toya – şənliyə ayaq açmır. Ancaq az sonra "Bilal getdi, heç olmasa, onun sənəti yaşasın"- deyə məclislər

qurur, bildiklərini öyrədir. Deyərmiş: "Bilal Şirvan aşıq sənətinin bel sütunu di. Yazığı günahsız tutdular". Onun bir şəklni də qoruyub saxlamışdı. Ömrünün son günlərinə kimi hər gün o şəklə baxardı.

Yeri gəlmişkən, çoxları bilmir ki, amansız repressiya Əli dədənin ailəsindən də yan keçməyib. Azərbaycan Respublikası keçmiş Milli Təhlükəsizlik Nazirliyinin orqanı olan «Sərhəd» qəzetinin «Yaddaşın bərpası» adlı özəl buraxılışında (2000-ci, il № 1) Kərimov Muxtar Əli oğlunun 25, Kərimov Əlimusa Ağababa oğlunun 33 yaşında 1937-ci il noyabrın 15-dən 16-na keçən gecə güllələndiyini oxuyuruq. Kərimov Mehdi Ağababa oğlu isə 46 yaşında 1937-ci il sentyabrın 26-dan 27-nə keçən gecə güllələnib. Q.Soltanoğlu yazır, Əli dədənin özünün vaxtilə söylədiyinə görə, onu Mirzə Bilalla dostluq etdiyinə görə keçmiş Dövlət Təhlükəsizlik Komitəsinin İsmayıllı rayon şöbəsində o ki var incidiblər. 1937-ci ildə İsmayıllıda müstəntiq biləndə ki, Əli kişi musiqiçidir, ondan tələb edib ki, balabanda bir hava çalsın. Ustadın dediyinə görə, bir tərəfdən oğlunun suçsuz tutulması, başqa yandan dostu Mirzə Bilalın uğursuz taleyini düşünüb yastı balabana güc verir. Ustad həmişə balabanını üstündə gəzdirərdi. Əski bir el havasını səsləndirir. Bir də onu görür ki, müstəntiqin gözləri çox uzaqlara dikilib. Sonda Əli kişiyə deyir ki, gedə bilərsən. Bax, Əli kişini ölməz sənəti çətin anda belə qurtarır. [7, 23].

Bu iki sənətkar Şirvan aşıq sənətini 40 ildə ucalara qaldırıblar. Onların 1900-1937-ci illərdə Şirvan aşıq mühiti üçün etdikləri – klassik saz havalarının yenidən dirilməsi, canlanması, saz havalarına yeni nəfəslər əlavə edilməsi, XVIII-XIX yüzillərdə yaşamış aşıqların şeirlərinin ifası ilə Aşıq Qurbanxan, Aşıq Abbas, Aşıq Ağalar, Aşıq Soltan, Aşıq Əhməd, Aşıq Şakir, Aşıq Məmmədağa və b. kimi aşıqların; Həsrət Hüseynov, İzzətalı Zülfüqarov, Ağasəf Seyidov, Fikrət Əliyev və b. kimi balabançıların yetişməsini heç bir xidmətlə ölçmək mümkün deyil" [7, 24].

Aşıq Bilal və Əli Kərimovun Azərbaycan Aşıqlarının I qurultayında iştirakı, çıxışları onları Azərbaycanın qüdrətli sənətkarları arasında daha da məşhurlaşdırdı. Nəticədə dahi bəstəkar Ü.Hacıbəyov 1937-ci ildə Moskvada – Azərbaycan incəsənəti ongünlüyü keçirilərkən, «Koroğlu nağarası»nın ifasını müəllif Əli Kərimova (Kalvalı Əli Dədəyə) tapşırır.

Fil.ü.f.d. Q.Sayılovun Mirzə Bilala həsr etdiyi monoqrafiyada onun həyatı ilə yanaşı yaradıcılığını, sənətkarlıq keyfiyyətlərini araşdırır. Müəllif bu qənaətə gəlir ki, Mirzə Bilalın şeirləri özüylə birgə repressiya olundu. Qanlı NKVD şər və böhtanlarını müdrik Bilala ünvanlayanda o, öz şeirlərini də onlara təqdim etdi. Biilalın mənəvi yatırımı özü kimi zindanlara atıldı. Bu gün əlimizdə olan bu şeirlər Sovet dönəmində çap olunması mümkün olan şeirlər idi. Belə deyirlər ki, Mirzə Bilal gedər-gəlməzə göndəriləndən xeyli sonra onun əlyazmalarının aqibəti ailə üzvləri tərəfindən müzakirə olunur. Biri gizlədək, biri dövlətə (yəni arxivə) verək deyir. Ömür-gün yoldaşı Soltanxanım deyir, onlardan Bilal xeyir tapmadı, heç kimə vermərəm. Həmin əlyazmaları təndirə atıb yandırır. O əlyazmalarda bizim bilmədiyimiz çox şeylər yandı. Bir aşiqin, bir Dədənin hissi, həyəcanı, sevinc və kədəri, arzu və istəkləri yandı

o kağızlarda. 1937-ci ilə qədər Azərbaycanda ən çox çap olunan Aşıq Mirzə Bilal olub. O, Azərbaycan aşıqlarının I qurultayında aşıqlar adından çıxış edib. Sənətkarlığı ilə yanaşı elmi səviyyəsi də çoxlarına xoş gəlməmişdi. Sovet imperiya xofu, qorxusu Bilal haqqında çalıb-çağırmağı yasaq etdi [6, 99-100].

Aşıq Mirzə Bilalın faciəli həyatının bizə məlum olan səhifələrini vərəqlədikcə onun xalqa gərəkli olan ömrünün yarıda qırılmasına heyfsilənirik. Hər şeydən öncə ona görə ki, bu kimi yaradıcı insanların məhv edilməsi xalqımızın ruh yaddaşının qoruyucularının azalmasına səbəb oldu. Düzdür, nəinki Şirvan, ümumiyyətlə, Azərbaycan aşıq sənətinin ənənəsi bu gün də yaşamaqda, inkişaf etməkdədir. Deməli, bu və başqa yaradıcı sahələrdə tarix boyunca itkilərimiz olsa da, ulusal ruhumuz ölməyib, itməyib. Bu ruhun yaşadıcıları, qoruyucuları isə ulus (xalq) ruhuna yetkin şəkildə yiyələnən insanlardır. Aşıq Mirzə Bilal hər şeydən öncə ulusal ruhun ərdəmli ötürücülərindən biridir.

Ədəbiyyat

1. Qasımov C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı: “Nurlan” nəşriyyatı, 2011, 600 səh.
2. Qasımov C. Azərbaycan folklorşünasları (19201950). Bakı: “Elm”, 2015, 456 səh.
3. Qasımov C. Ədəbi məhkəmələr. Bakı: “Zərdabi LTD” MMC, 2012, 304 səh.
4. Qasımlı M. Aşıq sənətinin müasir vəziyyəti, problemləri və inkişafi perspektivləri.
12-07-2010. http://medeniyyet.az/page/news/21395/Asiq-senetinin-muasir-veziyyeti-problemleri-ve-inkisafi-perspektivleri.html?lang=ru)
5. Qəniyev S. Şirvanlı Aşıq Mirzə Bilal. Bakı: Nurlan, 2003, 308 səh.
6. Sayılov Q. Aşıqlar atası Bilal, Bakı: 2011, 160 səh.
7. Soltanoğlu Q. Kalvalı Əli Dədə. Bakı, Qərənfil, 2009, 74 səh.
8. Vahid T. http://medeniyyet.az/page/news/21441/Repressiyaya-meruz-qalan-asiqlar.html)
9.http://www.anl.az/down/meqale/xalqcebhesi/2012/oktyabr/269836.htm-“1937-ci il repressiyasından 75 il ötür”, 2012.
10. http://kulis.az/news/21338

Elchin Galiboglu (Imamaliyev)

Shirvan ashug art and repression
(On the base of Ashug Mirza Bilal’s life and activity)

Summary

The newness, especially to investigate the levels of tragedian life of the well-known representative of Shirvan ashug art Ashug Mirza Bilal’s ashug art is our humane, national duty.

Mirza Bilal became famous not only in Shirvan but also in many regions of Azerbaijan, as well as in Iran, Dagestan, Central Asia, Georgia and Yerevan. Ashiq Bilal skillfully performed more than 60 classical melodies and composed more than 15 melodies. Today we are talking about Ashig Mirza Bilal mostly on the basis of his knowledge, that is, on the basis of his epos, poetry, and the ashig-based melodies he created.

It is a pity that Mirza Bilal's master's voice did not reach us. It has long been forbidden to talk about the ashig, a victim of Bolshevik repression. However, the memories of Ashig Bilal in the memory of the people, his deeds as an immortal artist in the hearts and minds were proof of his immortality.

As we turn the pages of the tragic life of Ashig Mirza Bilal, we regret that his life, which was necessary for the people, was cut in half. First of all, because the destruction of such creative people has reduced the protection of the spiritual memory of our people. It is true that not only Shirvan, but in general, the tradition of Azerbaijani ashiq art still lives and develops today. So, despite our losses throughout history in these and other creative areas, our national spirit has not died or disappeared. The inhabitants and protectors of this spirit are people who have mastered the spirit of the nation. Ashiq Mirza Bilal is, first of all, one of the virtuous transmitters of the national spirit.

In the article it is said about the written books, the scientific-publicistic articles, recollections about Ashug Mirza Bilal, his special role in Sihrvan, generally in Azerbaijan ashug art are based on.

Key words: Shirvan ashug art, Ashug Mirza Bilal, tradition, repression, interrogation

Эльчин Галибоглы (Имамалиев)

ШИРВАНСКОЕ АШЫГСКОЕ ИСКУССТВО И РЕПРЕССИЯ
(На основе жизни и творчества Ашыга Мирзы Билала)

Резюме

Исследование новшеств, выдающегося представителя ширванского ашыгского искусства Ашыга Мирзы Билала, в ашыгском искусстве, а главное этапов его трагической судьбы, является нашим человеческим и национальным долгом.

Мирза Билал прославился не только в Ширване, но и во многих регионах Азербайджана, а также в Иране, Дагестане, Средней Азии, Грузии и Ереване. Он мастерски сыграл более 60 классических мелодий и сочинил более 15 мелодий. Сегодня мы говорим о нем больше на основе его знаний, то есть его эпоса, его стихов, его произведений. Жалко, что голос хозяина Мирзы Билала не дошел до нас. Долгое время было запрещено говорить об

ашуге, ставшем жертвой большевистских репрессий. Однако воспоминания об Ашыге Билале в памяти людей, его поступки бессмертного художника в сердцах и умах были доказательством его бессмертия.

Перелистывая страницы трагической жизни Ашыга Мирзы Билала, мы сожалеем о том, что его жизнь, необходимая народу, быстро закончилась. Уничтожение таких творческих людей привело к уменьшению хранителей духовной памяти нашего народа. Азербайджанское ашугское искусство живо и развивается по сей день. Итак, несмотря на наши исторические потери в этой и других творческих сферах, наш национальный дух не умер и не исчез. Обитатели и защитники этого духа - люди, овладевшие духом народа. Ашиг Мирза Билал - это, прежде всего, один из добродетельных носителей национального духа.

В статье написанные об Ашыг Мирза Билале книги, научно-публицистические статьи, воспоминания исследуются с точки зрения его трагической жизни, мотивируется своеобразная роль посвятившего свою жизнь ашыгскому искусству мастера, в ашыгском искусстве Ширвана, а в целом Азербайджана.

Ключевые слова: Ширванское ашыгское искусство, Ашыг Мирза Билал, традиция, репрессия, следтвие.

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Rəyçi: Filologiya üzrə elmlər doktoru, professor S.G.Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏFƏQ HÜSEYN qızı ABDULLAYEVA
Azərbaycan Dillər Universiteti
Fəlsəfə və ictimai elmlər kafedrasının dosenti
shafaqabdullayeva@gmail.com

AZƏRBAYCAN İQTİSADİ FİKRİN FORMALAŞMASINDA NİZAMİ DÜŞÜNCƏSİ

XÜLASƏ

Dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi Azərbaycanın iqtisadi fikrinin inkişafında önəmli yer tutur. Nizami Gəncəvi öz dövrünün ictimai-iqtisadi münasibətlərinə, ziddiyyətlərinə biganə qalmamış, öz əsərlərində iqtisadi baxışlarını əks etdirmişdir. Humanizm və demokratizm dahi mütəfəkkirin iqtisadi ideyalarının əsasını təşkil etmişdir. Gəncəvi cəmiyyətin ictimai-iqtisadi quruluşu, əmək, əmək bölgüsü, sərvət və onun mənbələri, bölgü, istehlak, mübadilə, ticarət, qiymət, pul və s. məsələlər üzrə qiymətli fikirlər irəli sürmüşdür.

Gəncəvinin əmək və sərvət haqqında yaratdığı təlimə görə, əmək maddi və mənəvi sərvətləri artıran əsas mənbədir. Əmək və əməkçi surətləri demək olar ki, onun bütün əsərlərinin başlıca qayəsini təşkil edir. Nizami tənbəlləri, ikiüzlüləri tənqid etmiş, halal zəhmətlə yaşayan sadə adamlara öz yüksək məhəbbətini bildirmişdir. Nizamiyə görə sənətə, sənətkara, əkinçi əməyinə qayğı göstərilməsə, hər kəsin öz peşəsinə görə işləmək imkanı yaradılmasa, sərvət azalar, vergilər ödənilməz, xəzinə də boş qalar.

Gəncəvi daxili və xarici ticarət, onların inkişafı və aparılması qayda-qanunlarına dair qiymətli fikirlər söyləmişdir. O, tacirlərə, alqı-satqı ilə məşğul olanlara şəriət və ədalət qanunları ilə sövdələşməyi tövsiyə edirdi. Həm də onların hüquqlarının müdafiə olunmasını dövlət məmurlarının vəzifəsi hesab edirdi. O, ölkələr və xalqlar arasında ticarət əlaqələrinin inkişaf etdirilməsini vacib sayırdı. Nizami ticarətdə, bazarda qiymətlərin ədalətli surətdə qoyulmasını tövsiyə edir, sələmçilik yolu ilə sərvət, pul toplamağı haram sayırdı.

Açar sözlər: iqtisadi fikir, iqtisadi prinsiplər, ticarət, əmək prosesi, maddi nemətlərin bölgüsü, idarəetmə üsulu, qənaət.

Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini, daşı, heyvanı.
Qalacaq əbədi nə şey dünyada
Öyrən günlərini vermədən bada.
Tanısan özünü, köçsən cahandan,
Yenə bu dünyada yaşayacaqsan.

Azərbaycan xalqının iqtisadi fikrinin öyrənilməsində ilkin mənbələr kimi qədim mifologiya, folklor və dastanlar, bədii əsərlər, fəlsəfi traktatlar, dini cərəyan və hərəkatlar, dövri mətbuat müstəsna əhəmiyyətə malikdir. Azərbaycan xalqının qədim yazılı iqtisadi fikirləri bizim eradan əvvəl X-VII əsrlərdə meydana gəlmişdir.

Nizami Gəncəvi dünya ədəbiyyatının qızıl fondunun ən parlaq səhifələrindən birini təşkil edir və bəşəriyyətin böyük ağıllarının yaratdığı möcüzəli abidələr arasında şərəfli bir yer tutur.

XII-XIII əsrlərdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvi öz əsərlərində dövrün aktual problemləri ilə yanaşı, iqtisadi prinsiplər, iqtisadi həyatın müxtəlif cəhətlərinə dair maraqlı fikirlər söyləmişdir. Nizaminin fikir dünyasını bir daha araşdırmaq, onun iqtisadi fikir tariximizi zənginləşdirə bilən ideyalarını açıb göstərmək iqtisad elmimizin qarşısında duran mühüm məsələdir.

Nizaminin əsərlərində cəmiyyətin iqtisadi-sosial quruluşu, ictimai münasibətləri xüsusi formalarda ifadə olunmuşdur. Onun bu sahədə yürütdüyü fikir və ideyaları "Xəmsə"nin beytlərində, misralarında, yaratdığı çoxsaylı obrazların deyimlərində iqtisadçıların adət etmədiyi bir tərzdə açıqlanır və nəticədə onun baxışları bir sistem şəklində müəyyənləşir.

Nizami "Xəmsə"də istehsal, əmək prosesi, bölgü və istehlak anlayışları haqqında öz dövrü üçün səciyyəvi olan, sonrakı əsrlərdə və bu gün də öz aktuallığını itirməyən qiymətli ideyalar irəli sürmüşdür.

Nizaminin **istehsalla istehlak** arasındakı əlaqələrə dair ümumi iqtisadi baxışlarına nəzər yetirək. O, istehsalı cəmiyyətin yaşamasının zəruri əsası olması ideyasını əsas tutur. Lakin o, göstərir ki, bütün maddi nemətlər, var-dövlət, qızıl-gümüş və s. insan mənəviyyatına xidmət etdikdə qiymətlidir. Maddi imkanlar mənəvi-əxlaqi dəyərlərdən üstün olduqda mala-dövlətə, qızıla hərislik yarandıqda "insanda insanlıq yox olur". Buna görə də hər şeyin öz ölçüsü, indiki dillə desək, öz optimal variantı olmalıdır.

Nizami **çalışmağı**, **yaratmağı** yalnız bir qrup insanların peşəsi yox, hamının öz qabiliyyətinə görə fəaliyyət göstərməsi kimi başa düşürdü. Onun ideyası belə idi ki, "dilsiz və çarəsiz"lərdən başqa hamı öz bacarığına görə işləməlidir. Burada şah da, sultan da, məmur və rəiyyət də öz vəzifələrini şərəflə, namusla yerinə yetirməyə borcludur.

Nizaminin fikirlərində cəmiyyətdə **milli sərvətin** yaranması, artırılması və qorunması ideyası reallığa uyğundur. Çünki hər bir cəmiyyətin milli sərvəti yalnız bir insan nəslinin fəaliyyətinin nəticəsi deyildir. Bu keçmiş nəsillərin yaratdığı və yeni nəslə qoyub getdiyi maddi və mənəvi nemətlərdən ibarətdir. Bu baxımdan Nizaminin sərvətin yaradılmasında keçmiş və yeni nəsillərin iştirakı, həmçinin, zəhməti haqqında irəli sürdüyü ideya təqdirəlayiqdir [1].

Nizaminin əsərlərində **torpaq istehsal prosesinin** ən qiymətli və təbii vasitəsi kimi səciyyələndirilir. Dahi şair torpağı qorumağı, onu çirkləndirməməyi, "bağrını yarmamağı" məsləhət görür:

Torpağa mərhəmət göstərsən gül verər,
Zülm etsən isə tikan verər.

Dahi şair şəhər mühitində yaşayıb-yaratsa da, **kənd təsərrüfatının** bir çox sahələri, xüsusilə, əkinçilik haqqında əsərlərində geniş məlumat vermiş, bu istehsal sahəsinin xüsusiyyətlərini, əhəmiyyətini açıb göstərmişdir. Bu cəhətdən "Sirlər xəzinəsi" poemasında "Süleyman və qoca əkinçi" hekayəsi diqqəti daha çox cəlb edir.

Maddi nemətlərin bölgüsü məsələsində də Nizami öz humanist idealına uyğun bir mövqe tutur. Ədalət və bərabərliyə əsaslanan bölgü sistemi onun ideyasının məğzini təşkil edir. Ağılla, mərifətlə yaşamaq, bu dünyanın mal-dövlətindən bacarıqla, müəyyən ölçü çərçivəsində istifadə edib ömrünü sevinclə və xoşluqla keçirmək bütün insanlar üçün təbii haldır:

O, adamın xoş rüzgarı var ki,
Tamah bazarı o qədər gur olmasın.

Bu Nizaminin çalışmağın, yaratmağın və yaşamağın bir orta ölçü meyarı kimi irəli sürdüyü ideyadır. Çağdaş iqtisadi elm baxımından bu ideyanı qiymətləndirmək nə qədər qəribə görünsə də, onun bu baxışlarında ümumbəşəri əxlaqi və iqtisadi dəyərlər də öz qüvvəsini itirməmişdir.

Nizaminin "Xəmsə"sində mühüm yer tutan məsələlərdən biri də **istehlak prosesi**, onun ictimai-iqtisadi mahiyyətinə dair fikirlərdir. Nizamiyə görə istehlak bir təbii və bioloji proses kimi bütün canlılara məxsus olan zəruri haldır. Bundan fərqli olaraq insan öz şüurlu fəaliyyəti ilə öz fiziki və mənəvi tələbatlarının ödənilməsində ictimai və əxlaqi keyfiyyətlərinə görə fərqlənməlidir.

Yemək, içmək hərisliyinin həddini bilmək, onun ölçüsünü saxlamaq haqqında Nizaminin ideyaları onun bütün əsərlərində bu və ya digər baxımdan nəzərdən keçirilir. O, "Sirlər xəzinəsi"ndən başlamış son əsəri olan "İsgəndərnamə"də bu məsələyə həm əxlaqi, həm ictimai-iqtisadi, həm də sağlamlıq baxımından yanaşır və bu gün də öz tərbiyəvi əhəmiyyətini saxlayan fikirlər irəli sürür. O, bir daha insana xatırladır ki, "heyvan kimi qarınqulu olma". Beləliklə, Nizami istehsalın son məqsədi olan istehlak prosesini, onun insanın iqtisadi və mənəvi həyatında tutduğu yeri və xüsusiyyətləri nəzərdən keçirmiş və bu sahədə dəyərli fikir söyləmişdir [3].

Nizami heç də dövlətin və ordunun saxlanması üçün əhalidən alınan **vergilərin** əleyhinə olmamışdır. O, islam peyğəmbəri və ondan sonra dörd xəlifə dövründə tətbiq edilən ədalətli vergi sistemini, yoxsullara və əlsiz-ayaqsızlara göstərilən qayğı və köməyi yada salır, şəriət qaydalarına uyğun gəlməyən vergilərin zorla toplanmasının ədalət prinsipinə zidd olduğunu göstərmişdir.

Nizami ictimai-iqtisadi həyatın tənzimlənməsində elə bir **idarəetmə üsulu** seçilməsinin tərəfdarı idi ki, o, kəndlinin, sənətkarın, tacirin, elm və təhsilin inkişafı üçün geniş zəmin yaratsın, ölkənin abad və firəvan oımasına təkan versin. Əks halda ölkə zəifləyər, dağılar və düşmən qarşısında aciz qalar.

Nizami ölkənin, ictimai-iqtisadi həyatın idarə edilməsində ağlın, elmin, uzaqgörənliyin rolundan geniş danışır. Şahın, vəzirlərin, naiblərin və məmurların nəsil-nəcabətinə görə yox, qabiliyyətinə görə yer tutmasını mühüm şərt hesab edir.

Nizaminin iqtisadi görüşlər sistemində mühüm məsələlərdən biri də **peşə bölgüsü**, **ixtisaslaşma**, **əmək bölgüsü** mövzusudur. "Xəmsə"də Nizami bu məsələyə ölkədə sərvətin və bolluğun artırılmasına təsir edən bir amil kimi yanaşır.

O vaxt ki, hər kəs öz peşəsindən əl çəkər,
Cahanda abadlıq heçə uğrayar.

Buna görə də Nizami məsləhət görürdü ki, "hər kəsin hünərinə görə iş verilməlidir." O, deyirdi: "halına, bacarığına görə o peşəni seç ki, gördüyün işdən xəcalət çəkməyəsən".

Dahi şairin əsərlərində diqqəti cəlb edən ən mühüm məsələlərdən biri də **mübadilə**, **ticarət**, **pul** və onların rolu haqqında yürütdüyü ideyalardır. Göstərirdi ki, alqı-satqıda bərabərliyə əməl etmək ədalət və şəriət qanunlarına uyğun olmalıdır. Nizami dəfələrlə göstərir ki, ən nadir metallar, daş-qaşlar çox böyük zəhmətlə hasil olunduğuna görə qiymətlidir.

Nizami **bazar qiymətlərini** və onlara təsir edən amilləri düzgün müşahidə etmiş və bu kateqoriyalar haqqında daha maraqlı fikir söyləyə bilmişdir. Onun bu sahəyə dair irəli sürdüyü ən qiymətli fikri **tələb** və **təklif** haqqındakı görüşlərində ifadə etdirilmişdir. Nizamiyə görə bazarda bəzi əmtəələrin qiyməti ona görə yüksəkdir ki, onlara olan tələb çox, təklif isə azdır. O, "Xosrov və Şirin" əsərində yazır:

Bir şeyə olanda iki müştəri,
Əlbəttə o şeyin artar dəyəri.

Yenə həmin əsərində bazarda eyni qəbildən olan malların çoxalması nəticəsində onların qiymətdən düşməsini göstərir:

Gövhəri gövhərlər qiymətdən salar,
İpəyi ipəklər hörmətdən salar.

Nizami mübadilədə, **alqı-satqıda bərabərliyi** və **ədaləti** əsas tutmaqla qeyri-ekvivalent yolla ticarətdən, çoxlu qazanc əldə edən tacirlərin əməllərini pisləyirdi. O bildirirdi ki, müxtəlif yollarla tacirlər və sələmçilər kəndlinin, sənətkarın hesabına həddən artıq sərvət toplayırlar. Buna görə də o, ticarətdə "az verib çox alanları", çəkidə, ölçüdə müştəriləri aldadanları məzəmmət edir və onları bu işdən çəkinməyi məsləhət görürdü.

Nizami **pulu** insanın maddi və mənəvi tələbatına xidmət edən bir vasitə kimi başa düşürdü. Sələmçilik, pul yığmaq hərisliyi, qızıla, gümüşə pərəstiş etmək Nizaminin əxlaq təliminə, idealına uyğun deyildi. Nizaminin dövründə tədavüldə qızıl, gümüş və mis pullar fəaliyyət göstərirdi. Onun əsərlərində qızıl sikkələr, qızıl külçələr haqqında məlumatlar verilir.

Nizami ruslarla Azərbaycan və Qafqazla **iqtisadi-ticarət əlaqələri** haqqında geniş məlumata malik idi. O, həmin əsərində rusların Qafqaza,

Azərbaycana yürüşlərindən danışarkən onların adət-ənənələrini də təsvir edir. Eyni zamanda o, həmin dövrlərdə ruslar üçün səciyyəvi olan və xarici bazarlara ixrac edilən mallar (xəz dərilər, mum, bal və s.) haqqında düzgün tarixi məlumatlar verir [2].

Dahi şair **qənaətcillik** kimi faydalı keyfiyyətə diqqət yetirilmişdir. "Xəmsə"dəki poemaların hamısında qənaətcillik məsələsinə toxunan şair "Leyli və Məcnun"da bu məsələ üzərində xüsusi dayanmışdır. Həmin poemanın "Şadlıq və qənaət" adlı hekayəsində şair öyrədir ki, qənaətcillikdə insan heç olmasa digər canlılardan nümunə götürməlidir. Belə ki, "insanlardan başqa bütün canlılar qənaət evində tutmuşdur qərar". Yəni hər bir canlı nə ruzi tapsa onunla qənaətlə dolanır, öz qismətinə razı olur. Lakin qənaətcil olmayan acgöz insanlar öz payından şikayət edir, tanrıdan, təbiətdən, hətta, günəşdən narazılıq edirlər:

Yalnız insan oğlu doymayan zaman,
Şikayət sədası ucalar ondan.
Əlindən tikəsi itsə bir kərə,
Naləsi, fəryadı çıxar göylərə.

Nizami dövlətlilərə, xəzinə sahiblərinə məsləhət görürdü ki, onlar yığdıqları **sərvətdən səmərəli** istifadə etsinlər

O şeyi ki, qoyub özün görəcəksən,
Onu nə qədər yığıb saxlamaq olar.

Buna görə də ən yaxşısı bu sərvəti xeyirxah işlərə-şəhərlər tikdirmək, abadlıq yaratmaq, yoxsullara kömək etmək üçün sərf etmək ədalətli və səmərəli fəaliyyət göstərmək olardı. Nizami göstərir ki, qızıla, pula sitayiş insanı dünyəvi işlərdən uzaqlaşdırır, insanlar arasında ədavət salır, dostu-dosta qarşı qoyur.

Nizaminin əməyə, çalışqanlığa, qurub-yaratmağa səsləyən bu və buna bənzər yüzlərlə nəsihət və fikirləri bu gün də öz aktuallığını saxlamaqdadır. Əməyi, insan azadlığını hər şeydən üstün tutan böyük mütəfəkkir bu gün də bütün bəşəriyyətə, insanlığa xidmət edən öz mütərəqqi ideyaları ilə yaşamaqdadır. İndi isə dünya dini, irqi, siyasi və maddi mənafeləri ön plana çəkir, insanın mənəvi keyfiyyətlərini maddi amillərdən asılı vəziyyətə salır. Nizaminin dediyi kimi, öz əməyi, qabiliyyəti ilə sərvət yaradanlara geniş və sağlam mühit yaradılmasa, dünyanı və cəmiyyəti abad etmək, hamı üçün firavan həyat şəraiti yaratmaq olmaz.

Dövlət başçımız cənab İlham Əliyev Nizami Gəncəvinin 880 illiyinin keçirilməsi barədə Sərəncam imzalamışdır. Sərancamda deyilir: *Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.*

Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur [4].

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. https://www.facebook.com/azerbaycandili/posts/1797108703888474/
2.http://economics.com.az/index.php/kitabxana/tan-nm-iqtisad-lar/item/1563-nizami-zhaendzaevinin-izhtisadi-fikirlaeri.html
3. https://referat.ilkaddimlar.com/r/referatlar/iqtisadiyyat/info-1090.html
4. https://multiurok.ru/files/nizami-g-nc-vi-yaradiciliginda-iqtisadi-motivl-r.html
5. https://bizimpullar.az/news/detail/339
6. https://sesqazeti.az/news/kivdf/528133.html

Шафаг Абдуллаева Гусейновона

РЕЗЮМЕ

Великий азербайджанский мыслитель Низами Гянджеви играет важную роль в развитии экономической мысли Азербайджана. Низами Гянджеви был неравнодушен к социально-экономическим отношениям и противоречиям своего времени, и в своих произведениях отражал свои экономические взгляды. Гуманизм и демократия легли в основу экономических идей великого мыслителя. Социально-экономическая структура общества Гянджеви, труд, разделение труда, богатство и его источники, распределение, потребление, обмен, торговля, цена, деньги и т. д. выдвинуть ценные идеи по вопросам.

Согласно учению Гянджеви о труде и богатстве, труд является основным источником увеличения материального и духовного богатства. Копии трудов - основа почти всех его работ. Низами критиковал ленивых и лицемеров и выражал свою любовь к простым людям, живущим халяльным тяжелым трудом. По словам Низами если не позаботиться об искусстве, ремесленниках и фермерах, если каждому не будет предоставлена возможность работать по своей профессии, благосостояние уменьшится, налоги не будут уплачены, а казна опустеет.

Гянджеви высказал ценные взгляды на внутреннюю и внешнюю торговлю, правила их развития и поведения. Он призывал купцов и торговцев заключать сделки по шариату и правосудию. Он также считал долгом государственных чиновников защищать свои права. Он считал важным развивать торговые отношения между странами и народами. Низами

рекомендовал справедливые цены в торговле и на рынке и запретил накопление богатства и денег за счет ростовщичества.

Ключевые слова: экономическая мысль, экономические принципы, торговля, трудовой процесс, распределение материальных благ, методы управления, сбережения.

Shafag Abdullayeva Huseyn

SUMMARY

The great Azerbaijani thinker Nizami Ganjavi plays an important role in the development of Azerbaijan's economic thought. Nizami Ganjavi was not indifferent to the socio-economic relations and contradictions of his time, and reflected his economic views in his works. Humanism and democracy formed the basis of the economic ideas of the great thinker. Socio-economic structure of Ganjavi society, labor, division of labor, wealth and its sources, distribution, consumption, exchange, trade, price, money, etc. put forward valuable ideas on the issues. According to Ganjavi's teaching on labor and wealth, labor is the main source of increasing material and spiritual wealth. Copies of labor and labor are the mainstay of almost all of his works. Nizami criticized the lazy and hypocritical, and expressed his love for ordinary people who live by halal hard work. According to Nizami, if care is not taken for art, craftsmen, farmers, if everyone is not given the opportunity to work in their profession, wealth will decrease, taxes will not be paid, and the treasury will remain empty. Ganjavi expressed valuable views on domestic and foreign trade, the rules of their development and conduct. He encouraged merchants and traders to bargain under Sharia and justice. He also considered it the duty of government officials to protect their rights. He considered it important to develop trade relations between countries and peoples. Nizami recommended fair prices in trade and the market, and forbade the accumulation of wealth and money through usury.

Keywords: economic thought, economic principles, trade, labor process, distribution of material goods, management methods, savings.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: **İ.f.d., baş müəllim Sevda Elşad qızı Məhərrəmova**
tərəfindən çapa tövsiyə olunmuşdur.

RZAYEVA QƏRƏNFIL ZEYQƏM QIZI
qerenfilrzayeva40@gmail.com
ABDULLAYEVA ŞÖLƏ SƏBUHI QIZI
abdullayevamrym2019@gmail.com
ADPU-nun Ağcabədi filialı

CƏLİL MƏMMƏDQULUZADƏNİN "ÖLÜLƏR" TRAGİKOMEDİYASINDA MƏNƏVİ-ƏXLAQİ FANATİZM VƏ CƏHALƏTİN İFŞASI

Xülasə

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi-ictimai fikir tarixində sözün geniş mənasında milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön cərgəsində dayanır. Onun yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir.

Ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olan Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi-bədii fikrinin inkişafında mühüm rol oynamışdır. Onun təkrarsız yaradıcılığında Azərbaycan xalqının XIX-XX əsr mərhələsində həyat və məişət tərzi, düşüncə və psixologiyası öz əksini tapmış, xalqın mədəni inkişafına əngəl olan dini fanatizm, cəhalət kəskin tənqid hədəfinə çevrilmişdir.

Cəlil Məmmədquluzadənin dram əsərləri Azərbaycan dramaturgiyasının inkişafında yeni mərhələ təşkil edir. Azərbaycan dramaturgiyasının nadir və bənzərsiz nümunəsi olan "Ölülər" tragikomediyası (1909) cəhalət və mövhumat əsarətindən xilas üçün yazılmış son dərəcə dərin təsir gücünə malik bir əsərdir.

"Ölülər" bütövlükdə türk-müsəlman dünyasında, o cümlədən Azərbaycanda mənəvi buxovları, əsarəti və fanatizmi böyük cəsarətlə yıxıb uçuran dahiyanə əsərdir. Əsərdəki Kefli İskəndər obrazı XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində nəzərə çarpan milli ziyalı təbəqəsinin ümumiləşmiş obrazıdır.

"Ölülər" tragikomediyasında müəllifin toxunduğu vacib məsələlərdən biri cəhalət, nadanlıqdırsa, digəri qadın hüquqsuzluğudur. Mövcud cəmiyyətdə qadının kölə kimi alınıb-satılması, ona lazımsız əşya kimi davranılması əsər müəllifinin ciddi etirazına səbəb olmuşdur.

Açar sözlər: ölülər, dirilər, tragikomediya, dini fanatizm, cəhalət, mövhumat, yazıçı, sənətkar, tənqidi realizm

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Cəlil Məmmədquluzadə (1869-1932) Azərbaycan ədəbi-bədii fikrinin inkişafında mühüm rol oynamışdır. Ədəbi, ictimai fəaliyyəti ilə azadlıq yolunda mübarizəyə, demokratik

hərəkata kömək edən böyük ədib, dramaturq, mühərrir Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) XX əsr Azərbaycan ədəbiyyatında tənqidi realist ədəbi cərəyanın başçısı kimi məşhurdur.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbi-ictimai fikir tarixində sözün geniş mənasında milli istiqlal, demokratiya və Vətən azadlığı uğrunda mübarizənin ön cərgəsində dayanır. Onun yaradıcılığı gələn hər yeni nəsil üçün müstəqillik, azərbaycançılıq, millilik və vətəndaşlıq tərbiyəsi məktəbidir.

Cəlil Məmmədquluzadə inqilabi-demokratik fikrin sosial-ictimai həyatda və bədii-estetik düşüncədə yaranıb formalaşmasında əvəzsiz xidmətə malik olmuşdur. Onun təkrarsız yaradıcılığında Azərbaycan xalqının XIX-XX əsr mərhələsində həyat və məişət tərzi, düşüncə və psixologiyası öz əksini tapmış, xalqın mədəni inkişafına əngəl olan dini fanatizm, cəhalət kəskin tənqid hədəfinə çevrilmişdir.

C. Məmmədquluzadə yaradıcılığına diqqət etsək görərik ki, sənətkarın elə bir əsəri yoxdur ki, orada mənsub olduğu xalqın ağrı-acısı, dərd-səri öz bədii əksini tapmamış olsun. Bəzən belə bir təəssürat yaranır ki, tarix Mirzə Cəlili öz xalqının milli-mədəni intibahında rol oynamaq üçün yetirib.

Böyük demokrat-yazıçının qələmə aldığı əsərlər yaranmaqda olan yeni ədəbiyyatın obraz-qəhrəman tərkibini də dəyişir: “ölülər”, “dirilər”, “artıqlar”, “xırda adamlar”, “saqqallı uşaqlar” və onların dünyası ilk dəfə nəsrin və dramın səhnəsinə gətirilir. Akademik Yaşar Qarayev “Tarix: yaxından və uzaqdan” əsərində Mirzə Cəlil yaradıcılığına münasibətdə belə bir ifadə işlədir: “...Cəlil Məmmədquluzadə realist milli ədəbiyyatın bədii əhvalını, psixoloji ovqatını dəyişir: çağdaş ədəbi fikirdə “ağrı ədəbiyyatı” deyilən qəhrəman, janr və üslubun əsasını qoyur”(1, 241).

Cəlil Məmmədquluzadənin dram əsərləri Azərbaycan dramaturgiyasının inkişafında yeni mərhələ təşkil edir. Milli dramaturgiyanın bünövrəsini qoymuş Mirzə Fətəli Axundzadənin komediyalarından fərqli olaraq, Cəlil Məmmədquluzadənin komediyaları faciəvi xarakter daşıyan tragikomediyalardır.

XX əsr Azərbaycan ədəbiyyatının və ümumilikdə Cəlil Məmmədquluzadə yaradıcılığının mükəmməl sənət nümunəsi olan “Ölülər” tragikomediyası əhatə etdiyi vacib məsələlər, hədəfinin aydınlığı, ideya-estetik məziyyəti ilə digər əsərlərindən orijinallığı ilə seçilir. Əsər 1909-cu ildə qələmə alınmış və 1916-cı ildə Bakıda uğurla səhnəyə qoyulmuşdur. Səhnə tərtibatından sonra “Ölülər” əsəri müəllifinin ədəbi şöhrətini daha da artırmış, cəmiyyətdəki mövqeyinin aydın seçilməsində mühüm rol oynamışdır.

Qeyd etdik ki, “Ölülər” janr etibarilə tragikomediyadır. Çünki əsərdə komediya ilə yanaşı, faciə də vardır. Bu baxımdan “Ölülər” əsərini ədəbiyyatımızda tragikomediyanın misilsiz nümunəsi adlandırmaq olar.

Əsərin mövzusu XIX əsr dindar mühiti və məişətindən götürülmüş, insanların mədəni inkişafına əngəl olan, onları daim itaətdə saxlayan qaranlıq mühit öz spesifikliyi ilə əks olunmuşdur. Əsas ideyası mövhumat və cəhalət, mənəvi-əxlaqi fanatizm və onun fəsadlarının ifşası olmaqla yanaşı, mövcud mühitə qarşı mübarizəni

özündə birləşdirən bu əsər təkcə Mirzə Cəlil yaradıcılığında deyil, bütövlükdə Azərbaycan ədəbiyyatında öz zamanı üçün mükəmməl bir sənət nümunəsi olmuşdur. Mirzə Cəlil bu əsər vasitəsilə movcud quruluşa və bu quruluşun eybəcərliklərinə qarşı etirazını bildirmiş və mövhumata, cəhalətə qarşı ardıcıl mübarizə mövqeyini ortaya qoya bilmişdi.

"Ölülər" tragikomediyasında dini etiqad və düşüncə tərzi, patriarxal münasibət nəticəsində tamamilə kütləşmiş, insani hisslərini itirmiş avam, nadan camaatla tanış oluruq. Təsvirdən də göründüyü kimi, xalqın cəhalətindən istifadə edən din və mövhumat fırıldaqçıları avam kütlənin canına daraşmışlar. Təəssüf doğuran məsələlərdən biri budur ki, cəhalətdən kar, kor və lal olan adamların əməyini tüfeylilər mənimsəyir, bu azmış kimi onlara ağalıq edirlər. Böyük Sabirin sözləri ilə desək, Şeyx Nəsrullah dini "quldurluq tüfənginə" çevirmişdir. O, Xorasandan Araz qırağına, Naxçıvana qədər şəhər və kəndləri gəzir, guya "möcüzələr" göstərərək Məhəmməd ümmətinə xidmət edir.

"Ölülər" də baş verən hadisələr daha çox Hacı Həsənin - əsərin əhəmiyyətli obrazı olan İskəndərin atasının evində baş verir. Müəllifin başlıca tənqid hədəflərindən olan Şeyx Nəsrullah öz iyrənc niyyətlərini həyata keçirmək üçün əvvəlcədən plan qurur. Hacı Həsənin qardaşı oğlu, mərhum Kərbalayı Fətullahın dilindən saxta məktub yazdırır, hamını inandırır ki, mərhumun dirilməsində Şeyx Nəsrullah adlı mübarək Allah bəndəsinin xidməti olub və o, yaxın günlərdə İrəvana gələcək. Çalışsınlar ki, bu "mübarək zatı" incik salmasınlar, layiqli qarşılasınlar. Uzun-uzadı Şeyx Nəsrullahın "möcüzələr"indən bəhs edən bu məktubda əsas məsələnin din pərdəsi altında gizlənən fırıldaqçının təbliği olduğunu dərk edə bilməyən avam insanlar tədarük görür, "şeyxi" layiqli qarşılamaq üçün dəridən-qabıqdan çıxırlar.

Cəhalət yuvası olan bu mühitdə yeganə ayıq başlı insan kimi təsvir olunan Kefli İskəndər əsər müəllifinin işfaçı obrazı, baş verən hadisələrə etiraz səsinin ifadəçisidir. İnsanların avamlığı, mövhumatı, acınacaqlı bir mühitdə yaşaması İskəndərə cox ağır təsir edir. Ancaq mövcud cəmiyyətə etiraz etsə də, mühit bu etiraza dəli adı verir. İnsanların öz dəyərlərini cox asağı səviyyəyə salıb bundan bir şüar, bir qayda-qanun kimi istifadə etmələri onu da özünə məxsus etiraz etməyə vadar edir və İskəndər şərab icib kefli gəzməyə baslayır. Elə buna gorə də Kefli İskəndər adlanır.

Dini fanatizmin beşiyi olan mövcud cəmiyyətin tipik nümayəndəsi Şeyx Nəsrullah obrazıdır. Şeyx Nəsrullahın fərasətlə uydurduğu "ölu diriltmək" bacarığına inanan avam camaat öz fanatizminin toruna düşür. Ata-anaların əziyyətlə böyütdüyü doqquz yaşlı körpə qız uşaqları 40 yaşlı fırıldaqçının qurbanına çevrilir. Cəhalətin törətdiyi bu iyrəncliyin iç üzünü görə bilməyən nadan atalar Şeyx Nəsrullahın siğəsini qəbul edən qızların guya Cənnət əhli olacağı xülyası ilə təskinlik tapır, bu izdivacı özlərinə fəxr hesab edirlər.

Əsərdə olduqca məharətlə işlənmiş qəbristanlıq səhnəsi Şeyx Nəsrullahla birgə cahil, nadan insanların da mənəvi boşluğunu, əxlaqi fanatizmini ortaya qoyur. Ölülərini diriltmək üçün növbəyə durmuş insanlar dünyasını dəyişmiş bütün yaxınlarını deyil, ozlərinə lazim olan insanları diriltmək istəyirlər. Səbəb aydındır: kimisi ölmüş qardaşının əhli-əyalına, kimisi ev-eşiyinə, kimisi var-dövlətinə, torpaq sahələrinə sahib çıxmışdır. Yaxud kişilər qadınlarını döyərək, min bir işgəncə ilə öldürmüş, ya da başqa arvad almışlar. Elə bu səbəbdən də bütün ölülərin dirilməyini istəmirlər. Bu isə Şeyxin işinə yarayır, onun fırıldağının üstünün açılmasına imkan vermir. Hadisələri yaxından izləyən İskəndər mühitindəki məhz belə insanları "ölülər" adlandırır.

Əgər "Ölülər"də Şeyx Nəsrullah obrazı ilə bütövlükdə yalançı, fırıldaqçı din xadimlərinin əməlləri ümumiləşdirilirsə, kefli İskəndər obrazı ilə müəllif qaranlıq mühitə ayna tuta bilir.

Sonda ustalıqla aradan çıxan Şeyx Nəsrullahın fırıldaqçı olması insanlara məlum olur və əsər Kefli İskəndərin ölülərə manoloqu ilə başa catır. Bu monoloq Cəlil Məmmədquluzadənin əsərdə çatdırmaq istədiyi bütün fikir və düşüncələri özündə əks etdirir:

"Baxın! Baxın! Yaxşı baxın! Diqqətnən baxın! Sizin tarixlərinizin kitabında bu, qan ilə yazılmış bir səhifədir. Sizdən sonra gələnlər bu kitabı vərəqləyib, bu səhifəni görəndə sizi yada salıb deyəcək: tuf sizin üzünüzə! Bağışlayın kefli İskəndər bir az biədəblik eləyir. Amma indi də növbət mənimdir. Mən demirəm ki, siz niyə bu balaca uşaqları (qızları göstərir) zornan gətirib qatdız bu fahişəxanaya. Söz yox, siz bunlara deyəndə ki, səni verirəm bu şeyxə, bu biçarələr çığırıb bağırırdılar və sizin çirkli ayaqlarınızı öpə-öpə yalvarırdılar: "Ata, aman günüdür, məni anamdan ayırma!"

...Mənim adım kefli İskəndərdir; bə sizin adınızı nə qoyaq? Mən dağları, daşları, quşları, fələkləri, ayları, ulduzları və dünya aləmləri bura şahid çəkərəm və bu qızları onlara nişan verərəm, soruşaram ki, bu camaata nə ad qoymaq olar? O vədə hamısı bir səslə cavab verər: Ölülər!"(2, 428-429).

"Ölülər" tragikomediyasında müəllifin toxunduğu vacib məsələlərdən biri cəhalət, nadanlıqdırsa, digəri qadın hüquqsuzluğudur. Mövcud cəmiyyətdə qadının kölə kimi alınıb-satılması, ona lazımsız əşya kimi davranılması əsər müəllifinin ciddi etirazına səbəb olmuşdur. İskəndərin bacısı Nazlı ilə olan söhbətində müəllifin qəhrəmanının dilindən verdiyi fikirlər elə sənətkar qəlbinin səsi idi.

İsgəndərin obraz olaraq inkişafını izləyənlər bu sərxoş gəncə məhəbbət bəsləyir, bəzənsə onun halına acıyırlar. Başı dumanlı olmasına, cibində araq şüşəsi ilə dolaşmasına baxmayaraq, İskəndər həmişə ayıqdır, ictimai bəlaları yaxşı duyur və hamıdan artıq bunların əzabını, dərdini çəkir. O, bacısı Nazlının timsalında Azərbaycan qızları və qadınlarının faciəsini duyur, onların başına gətirilən məşəqqətlərin mahiyyətinin mənəvi ölülükdə, puçluq və ətalətdə olduğunu dərk edir.

Əsər müəllifi yaxşı bilir ki, elmsizlik, təhsildən uzaq qalmaq cəhalətin yayılmasında, insan təfəkkürünün süstləşməsində əsas amildir. Dini-sxolastik təhsilin (əsərin əvvəlində şəriət müəllimi Hacı Həsənin oğlu Cəlala mənasını bilmədiyi sözləri quru-quru əzbərlədir) heç bir işə yaramadığını görən, dərk edən sənətkar başqalarına da bunu anlatmaq istəyir. Lakin sənətkar iradəsinin ifadəçisi olan İskəndərin meydanda tək olması, onu ətrafa zülmət saçan mühitlə mübarizədə gücsüz edir, baş verən hadisələrə vaxtında müdaxilə etmək imkanından məhrum buraxır. "İskəndər elə həssasdır ki, qarşısındakı düşmənin gücünü, özünün isə acizliyini dərk edir. Ölülərə acıdığı qədər və daha çox dirilərə, vətəndaşlara acıyır" (3, 93).

Azərbaycan dramaturgiyasının nadir və bənzərsiz nümunəsi olan "Ölülər" tragikomediyası (1909) cəhalət və mövhumat əsarətindən xilas üçün yazılmış son dərəcə dərin təsir gücünə malik bir əsərdir. "Ölülər" bütövlükdə türk-müsəlman dünyasında, o cümlədən Azərbaycanda mənəvi buxovları, əsarəti və fanatizmi böyük cəsarətlə yıxıb uçuran dahiyanə əsərdir.

Əsərdəki Kefli İskəndər obrazı XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətində nəzərə çarpan milli ziyalı təbəqəsinin ümumiləşmiş obrazıdır. Ali təhsil almış İskəndər ətrafında baş verən hadisələri dərindən dərk edir, bütün bunları həmvətənlərinə çatdırmaq, onların gözünü açmaq üçün ciddi-cəhd göstərir. Lakin fanatizmin dərin girdabına düşmüş avam camaat onu anlamaq, başa düşmək səviyyəsində deyil. Atası Hacı Həsən, anası Kərbəlayı Fatma xanım, şəhər sakinləri Məşədi Oruc, Məşədi Baxşəli, Hacı Kərim, Hacı Kazım, Mir Bağır ağa kimi "diri ölülər" İskəndərə dəli kimi baxırdılar.

Cəlil Məmmədquluzadə Azərbaycanın usta yazıçılarından olmuş, insanların cəhaləti, dövrün səfilliyi və eybəcərliyinə qarşı qələmini süngüyə çevirə bilmişdir. "Onun biri digərindən sanballı əsərləri, ictimai-siyasi məzmunlu məqalələri özünün də qeyd etdiyi kimi, biçarə xalqının oyanmasına, "yaşayan ölülər"in dirilməsinə kömək etmək məqsədi daşımışdır. "Ölülər" tragikomediyası da onun bu münvalla yazdığı şah əsəridir" (4, 48).

"Əbədilik arzusu və ölüm qorxusu ta qədimlərdən insan düşüncəsini məşğul edən əsas problemlərdən olmuşdur. Ölümsüzlük arzusu insanı sehrli alma, dirilik suyu haqqında nağıllar, əfsanələr düzüb-qoşmağa vadar etmiş, kimyagərlər minillər boyu insana əbədiyyət bəxş edən iksir axtarmış, lakin bütün bunlar bir xülya olaraq qalmışdır" (5,73).

Cəlil Məmmədquluzadənin yüz ildən bir qədər də öncə yazdığı ölməz "Ölülər"i də məhz bu axtarışların absurdluğuna bir işarədir. Amma "Ölülər"də əsas problem ölülərin dirilməsi yox, dirilərin "ölümüdür". "Burda ölməz olan bircə şey var – "ölülüyün" ölməzliyi! Nadanlığın, cəhalətin, şarlatanlığın əbədiyyəti! Bu, Makedoniyalı İskəndər zamanında da belə idi, Kefli İskəndər vaxtında da! Makedoniyalı İskəndər dirilik suyuna çata bilmədiyi kimi, Kefli İskəndərin içdiyi şərab da onun dərdinə dərman ola bilmir"(6,19).

Vaxtilə böyük romantik sənətkarımız Hüseyn Cavid "Ölülər" haqqında belə demişdir: "Artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüz, ideyası inqilabi olan bu drama müsəlman həyatında böyük rollar oynayacaqdır".

Görkəmli realist ədib Nəriman Nərimanov 1916-cı ildə "Açıq söz" qəzetində "Ölülər" haqqında təəssüratlarını belə ifadə edirdi ki, artıq dərəcədə məharətlə yazılmış, məzmunu eynən həyatımızdan götürülmüş, ideyası inqilabi olan bu drama müsəlmanların həyatında böyük rollar oynayacaq, paslanmış beyinləri pasdan təmizləyib, ölmüş ruhlara can verəcəkdir.

Yekun olaraq deyək ki, "Ölülər" ölü mühitin, cahillik və geriliyin tənqidi ilə yanaşı, gələcəyə, inkişafa doğru yol göstərən bir əsərdir. "Ölülər"də sənətkaranə bir dirilik, mahiranə bir incəlik vardır.

İstifadə olunmuş ədəbiyyat:

1. Yaşar Qarayev. "Tarix: yaxından və uzaqdan". Bakı, 1996.
2. Cəlil Məmmədquluzadə. Əsərləri, I cild. "Öndər nəşriyyat", Bakı, 2004.
3. Mir Cəlal. Firudin Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. "Elm və təhsil". Bakı, 2019.
4. Müasir Azərbaycan ədəbiyyatı. I cild. BDU, Bakı, 2007
5. İ.Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, 2009
6. A.Bayramoğlu. Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi oçerki. Bakı, 2013

Garanfil Rzayeva
Shola Abdullayeva

Exposition of moral fanaticism and ignorance in Jalil Mammadguluzadeh's tragicomedy "Dead"

Summary

Jalil Mammadguluzadeh is at the forefront of the struggle for national independence, democracy and freedom of the homeland in the broadest sense of the word in the history of Azerbaijani literary and social thought. His work is a school of independence, Azerbaijanism, nationalism and citizenship for each new generation.

Jalil Mammadguluzadeh, one of the prominent representatives of our literature, played an important role in the development of Azerbaijan's literary and artistic thought. In his unique work, the way of life, thinking and psychology of the Azerbaijani people in the XIX-XX centuries were reflected, religious fanaticism and ignorance, which hindered the cultural development of the people, became the target of sharp criticism.

Jalil Mammadguluzadeh's plays are a new stage in the development of Azerbaijani drama. The tragicomedy "The Dead" (1909), a rare and unique example of Azerbaijani drama, is a work of profound influence, written to escape from the bondage of ignorance and superstition.

"The Dead" is a genius work that with great courage overturns the spiritual shackles, slavery and fanaticism in the Turkic-Muslim world as a whole, including Azerbaijan. The image of Kefli Iskender in the work is a generalized image of the national intelligentsia, which was noticeable in the Azerbaijani society in the early twentieth century.

One of the important issues raised by the author in the tragicomedy "Dead" is ignorance, and the other is women's rights. In the current society, the sale of women as slaves and their treatment as unnecessary items caused serious protests from the author.

Key words: dead, living, tragicomedy, religious fanaticism, ignorance, superstition, writer, artist, critical realism

Гаранфил Рзаева
Шола Абдуллаева

Проявление морального фанатизма и невежества в трагикомедии Джалила Мамедгулузаде «Мертвые».

Резюме

Джалил Мамедгулузаде находится на переднем крае борьбы за национальную независимость, демократию и свободу родины в самом широком смысле этого слова в истории литературной и общественной мысли Азербайджана. Его работа - это школа независимости, азербайджанства, национализма и гражданственности для каждого нового поколения.

Джалил Мамедгулузаде, один из видных представителей нашей литературы, сыграл важную роль в развитии литературной и художественной мысли Азербайджана. В его уникальном произведении нашли отражение образ жизни, мышление и психология азербайджанского народа XIX-XX веков, религиозный фанатизм и невежество, тормозившие культурное развитие народа, стали объектом резкой критики.

Пьесы Джалила Мамедгулузаде - новый этап в развитии азербайджанской драматургии. Трагикомедия «Мертвые» (1909), редкий и уникальный образец азербайджанской драмы, - произведение глубокого влияния, написанное для того, чтобы вырваться из рабства невежества и суеверий.

«Мертвые» - гениальное произведение, которое мужественно опрокидывает духовные оковы, рабство и фанатизм в тюрко-мусульманском мире в целом, в том числе в Азербайджане. Образ Кефли Искандера в

произведении - это обобщенный образ национальной интеллигенции, который был заметен в азербайджанском обществе в начале XX века.

Один из важных вопросов, поднятых автором в трагикомедии «Мертвые», - незнание, другой - права женщин. В нынешнем обществе продажа женщин в качестве рабынь и обращение с ними как с ненужными предметами вызвали серьезные протесты со стороны автора.

Ключевые слова: мертвые, живые, трагикомедия, религиозный фанатизм, невежество, суеверия, писатель, художник, критический реализм.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent
Əli Əliyev tərəfindən çapa tövsiyə olunmuşdur.

SƏDAQƏT ƏSGƏROVA,
AMEA-nın Nizami Gəncəvi adına
Ədəbiyyat Muzeyi
sedaqet_askerova.73@mail.ru
Bakı şəhəri, Həsən bəy Zərdabi küşəsi, 121
+ 994 51 711 31 31

AŞIQ AĞALARIN SƏNƏT DÜNYASINDA XALQ MƏHƏBBƏTI

Xülasə

Bu gün tarixlərdən keçən aşıq yaradıcılığı öz inkişaf yolunu yaşayır. Aşıqlarımız dünyanın müxtəlif ölkələrində keçirilən Beynəlxalq folklor festivallarında iştirak edir və vətənə mükafatçı kimi dönürlər. Azərbaycan Aşıqlar Birliyi xeyli uğurlu layihələrə imza atıb və aşıqlarımızın yubileylərinin, xatirə gecələrinin keçirilməsi, onların irsinin toplanması və barələrində xatirə kitablarının nəşr olunması ənənəyə çevrilib. Daimi dövlətimiz aşıq sənətinin inkişafına böyük maraq göstərir və xüsusi qanunların qəbul olunması, onun dünya miqyasında təbliği üçün hüquqi prinsiplərin, sənədlərin işlənib hazırlanmasını həyata keçirir. Aşıq sənətinə olan qayğı, diqqət , bu sənətin dünya miqyasında təbliğ olunması, həm də qədim tariximizi təbliğ etmək deməkdir. Bu baxımdan aşıqlarımızın və onların tədqiqatları ilə məşğul olan biz tədqiqatçıların üzərinə şərəfli və məsuliyyətli iş düşür.

Bu gün bu sənətin öyrənilməsi istiqamətində Azərbaycan folklorşünaslığında bir sıra dəyərli tədqiqatlar aparılmış, maraqlı əsərlər yazılmışdır. Lakin görkəmli saz-söz sənətkarları haqqında müəyyən araşdırmalar aparılsa da hələ də bir sıra problemlərin, həlli vacib məsələlərin tədqiqinə böyük ehtiyyac duyulur. Elə bu baxımdan da Aşıq Ağalar Mikayılovun yaradıcılğına komleks şəkildə yanaşmaq, onun yaradıcılığını dərindən tədqiq etmək önəmli bir məsələ olduğundan tədqiqata cəlb olunmuşdur.

Qətiyyətlə deməliyik ki, Şivan aşıq mühitinin spesifik cəhətlərindən biri dəqiq və aydın sənət şəcərəsinin mövcudluğudur ki, Aşıq Ağalar kimi böyük sənətkar yetişdirmişdir. O, yaşadığı vaxtda gözəl şeirlərin və misilsiz saz havalarının yaradıcısı olmuşdur. Həmişə insan qəlbini ən ülvi duyğular qucağında əsrarəngiz gözəlliklər aləminə aparmış, onu yüksək estetik ideallar, nəcib hisslərlə zənginləşdirmişdir. İnsan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran, onun hissiyyatının, lirik duyğularının canlı poetik tablosunu yaratmağa qadir olan Aşıq Ağalar səmimi insan hisslərini böyük məharətlə qələmə ala bilmişdir.

Qeyd etməliyik ki, aşıq yaradıcılığında vətənpərvərlik, mərdlik, dostluq, igidlik, məğrurluq haqqında da çox deyilib və çox da yazılıb. Bu mövzularda yazılan, dillərdə əzbərə çevrilən Aşıq Ağaların şeirləri də nəsildən-nəsilə keçərək insanların yaddaşına həkk olunub. Aşığın şeirləri insanda vətənə məhəbbət hisslərini artırır, mərdlik, qəhrəmanlıq duyğuları yaratdığından o, sevdiyi peşəsindən, sazından uzaq

düşəndə, qəlbi vətən həsrətilə yananda belə, saza sığınmış və dərdini sazla bölüşmüsdür.

Aşıq Ağaların şeirləri dillər əzbəri olduğundan xeyli vaxt ötsə də, hafizələrdə məhəbbətlə mühafizə olunmuşdur. İnsanın qəlb arzularını, məhəbbət və kədərini, nifrət və qəzəbini ifadə edən bu şeirlər indi də uca və əzəmətli qayalardan süzülən sular kimi duru və şəffafdır.

Açar sözlər: sədəfli saz, vətənpərvər, bayatı, poetik dil, büllur çeşmə

Bu gün tarixlərdən keçən aşıq yaradıcılığı öz inkişaf yolunu yaşayır. Aşıqlarımız dünyanın müxtəlif ölkələrində keçirilən Beynəlxalq folklor festivallarında iştirak edir və vətənə mükafatçı kimi dönürlər. Azərbaycan Aşıqlar Birliyi xeyli uğurlu layihələrə imza atıb və aşıqlarımızın yubileylərinin, xatirə gecələrinin keçirilməsi, onların irsinin toplanması və barələrində xatirə kitablarının nəşr olunması ənənəyə çevrilib. Daimi dövlətimiz aşıq sənətinin inkişafına böyük maraq göstərir və xüsusi qanunların qəbul olunması, onun dünya miqyasında təbliği üçün hüquqi prinsiplərin, sənədlərin işlənib hazırlanmasını həyata keçirir. Aşıq sənətinə olan qayğı, diqqət , bu sənətin dünya miqyasında təbliğ olunması, həm də qədim tariximizi təbliğ etmək deməkdir. Bu baxımdan aşıqlarımızın və onların tədqiqatları ilə məşğul olan biz tədqiqatçıların üzərinə şərəfli və məsuliyyətli iş düşür.

Unutmamalıyıq ki, Azərbaycan mədəniyyətində zəngin ideya-estetik keyfiyyəti ilə seçilən aşıq sənəti keçdiyi tarixi inkişaf yolunda kifayət qədər böyük sənətkarlar yetişdirmişdir. Belə sənətkarlar arasında digər mühitlər üçün genetik baza statusunda olan Şirvanın xüsusi yeri vardır. Şirvan zonası əsrlər boyu Azərbaycan xalqının saz və söz məbədgahlarından biri olmuş və Şirvanın yetişdirdiyi istedadlı sənətkarlar poeziyamızın iftixarına çevrilmişdir **(S.Qəniyev və E.Elmalıyev. Bu yol Şirvan yoludur. Bakı, ADPU, 1994, 95 s.).**

Bu gün bu sənətin öyrənilməsi istiqamətində Azərbaycan folklorşünaslığında bir sıra dəyərli tədqiqatlar aparılmış, maraqlı əsərlər yazılmışdır. Lakin görkəmli saz-söz sənətkarları haqqında müəyyən araşdırmalar aparılsa da hələ də bir sıra problemlərin, həlli vacib məsələlərin tədqiqinə böyük ehtiyyac duyulur. Elə bu baxımdan da Aşıq Ağalar Mikayılovun yaradıcılğına komleks şəkildə yanaşmaq, onun yaradıcılığını dərindən tədqiq etmək önəmli bir məsələ olduğundan tədqiqata cəlb olunmuşdur.

Qətiyyətlə deməliyik ki, Şivan aşıq mühitinin spesifik cəhətlərindən biri dəqiq və aydın sənət şəcərəsinin mövcudluğudur ki, Aşıq Ağalar kimi böyük sənətkar yetişdirmişdir. O, yaşadığı vaxtda gözəl şeirlərin və misilsiz saz havalarının yaradıcısı olmuşdur. Həmişə insan qəlbini ən ülvi duyğular qucağında əsrarəngiz gözəlliklər aləminə aparmış, onu yüksək estetik ideallar, nəcib hisslərlə zənginləşdirmişdir. İnsan qəlbinin dərinliklərinə nüfuz etməyi bacaran, onun

hissiyyatının, lirik duyğularının canlı poetik tablosunu yaratmağa qadir olan Aşıq Ağalar səmimi insan hisslərini böyük məharətlə qələmə ala bilmişdir.

Aşığın şeirlərində həmişə **Vətən sevgisi, Vətənə bağlılıq** mühüm yer tutur:

Mən şahların, sultanların, xanların,
Qan töküb zülümnən ev yıxanların,
Xalqın zəhmətilə yurd quranların,
Yurdunu tarı-mar olan görmüşəm.
Bilal oğlu, ibrət al sən bunlardan,
Vətəninin mərd oğlundan, qızından.
Qüdrətilə neft çıxaran sulardan,
Qurban kimi qoçaq oğlan görmüşəm

(Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir. Çaşıoğlu, 2014, 92 s.).

Bu şeirdə vətənpərvər övladların gördüyü unudulmaz, yaddançıxmaz işləri tərənnüm olunur. Qurbanın qəhrəmanlığından danışır və gəncləri onun kimi qəhrəman olmağa çağırır.

Biz bilirik ki, Aşıq Ağalar şənlikdə sələfləri kimi, klassik aşıq şeiri ənənələrindən bəhrələnərək zəngin yaradıcılıq yolu keçmişdir. Onun lirik poeziyası öz bəşəriliyi, xəlqiliyi ilə diqqəti cəlb edir. Aşığın lirik poeziyası öz ideya-məzmun xüsusiyyətlərinə görə çox fərqlənir. Ənənəvi olaraq saf məhəbbəti tərənnüm etməklə bərabər, o həm də dövrünün ictimai-siyasi hadisələrinə də öz sənətkar mövqeyini bildirib və şeirləri ilə insanları doğru yola, ədəb-ərkana, xeyirxahlığa, ürəyi açıqlığa səsləyib **(S. Qəniyev. Şirvanlı Aşıq Ağalar. Bakı, "Elm və təhsil", 2011, 174 s.).**

Aşıq Ağaların şeirlərində təravət, səmimilik, daxili hərarət, coşqun hisslər üstünlük təşkil edir. Bu şeirlərdəki hər söz, hər ifadə yerli - yerində işlənmiş, müəyyən bədii lövhə, təbiət təsviri, yaxud insanın daxili - mənəvi aləmini yaratmağa xidmət etmişdir. Şeirlərində eyni zamanda sadəlik və axıcılıq mövcuddur. Ona görə də aşığın məhəbbəti, gözəli və gözəlliyi tərənnüm edən şeirləri bu gün də dillər əzbəridir

Yaradıcılığından göründüyü kimi Vətənin bütövlüyü, müstəqilliyi, azadlığı Aşıq Ağalar poeziyasının əsasını təşkil edir. Şairin tanınmış vətəninə həsr etdiyi şeirləri ölümündən xeyli vaxt keçsə də, bu gün də diqqəti cəlb edir:

O, gözəl vətəndir, bürcü poladdan,
Qorxu bilməz nə alovdan, nə oddan.
Həzi Aslanovu çıxarmaz yaddan,
O, faşizmin qəniminə dönübdür.
Bilal oğlu adın çəkər xalqların,
Şah İsmayıl, Babək, mərd oğulların,
Nizami, Füzuli gövhər kanların,
Odlar yurdum gülüstana dönübdür.

(Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir. Çaşıoğlu, 2014, 92 s.).

Burada ən böyük, ülvi sevgi, böyük eşq vətənə olana sevgidir. Yurd, el-obaya bağlılıqdır. Doğulduğun, böyüdüyün torpağa olan sədaqətdir. Bu həqiqi sevgidən doğulan şeirlər də əbədidir, ölməzdir və basılmaz bir ordudur ki, əbədi yaşar qəhrəmanlarımızın adı çəkilir və qəlblərdə yaşayır.

Aşıq Ağalar yaradıcılığını tədqiq etdikcə bizə aydln olur ki, doğrudan da Aşıq Ağalar sözünü sənətin çətin yollarında sınamış və sazın, sözün və fikrin mükəmməl sintezini yaratmışdır. Onun əzəmətli və möhtəşəm poetik irsi ilə tanışlıq hazırda da hər kəsdə yüksək emosional duyğular oyadır.

Biz bilirik ki, vətənpərvərlik mövzuda yazılan şeirlər insanlarda vətənə məhəbbət hissini gücləndirir və milli mənlik şüurunun inkişafına xidmət edir. Həm də mərdlik, cəsarət, vətənpərvərlik hissləri ilə zəngin olan aşıq yaradıcılığında yazılan əksər şeirlər orta məktəblərdə tədris olunur. Bu qəbildən olan şeirlər gənc nəslin yaddaşına həkk olunur, onlara psixoloji cəhətdən müsbət təsir edərək, yeniyetmə və gənclərin vətənpərvər ruhda böyüməsinə zəmin yaradır. Bu cür yazıb - yaradan aşıqlar arasında Aşıq Ağaların adı da həmişə iftixarla çəkilir ki, onun yaradıcılığında vətənpərvərlik, el-obaya, torpağa olan bağlılıq açıq-aydın özünü göstərir:

Dolanıb keçsə də hey qərinələr
Vurğunu unutmaz obalar, ellər.
Onun yaratdığı ölməz əsərlər,
Azad könüllərin pasibanıdır.
Ağalar, çal oxu, obada, eldə,
Mirzə İbrahimi əzbər et dildə,
Dağlar da, düzlər də, meşə də, göl də,
Şairin söz yurdu, söz məkanıdır.

(Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir. Çaşıoğlu, 2014, 92 s.).

Aşıq Ağaların yaradıcılığından belə şeirlərin deyilməsi, eşidilməsi gənc nəslin vətənpərvər böyüməsində və onların milli mənlik şüurunun formalaşmasında mühüm rol oynayır.

Qeyd etməliyik ki, aşıq yaradıcılığında vətənpərvərlik, mərdlik, dostluq, igidlik, məğrurluq haqqında da çox deyilib və çox da yazılıb. Bu mövzularda yazılan, dillərdə əzbərə çevrilən Aşıq Ağaların şeirləri də nəsildən-nəsilə keçərək insanların yaddaşına həkk olunub. Aşığın şeirləri insanda vətənə məhəbbət hisslərini artırır, mərdlik, qəhrəmanlıq duyğuları yaratdığından o, sevdiyi peşəsindən, sazından uzaq düşəndə, qəlbi vətən həsrətilə yananda belə, saza sığınmış və dərdini sazla bölüşmüsdür.

Aşıq Ağaların şeirləri dillər əzbəri olduğundan xeyli vaxt ötsə də, hafizələrdə məhəbbətlə mühafizə olunmuşdur. İnsanın qəlb arzularını, məhəbbət və kədərini, nifrət və qəzəbini ifadə edən bu şeirlər indi də uca və əzəmətli qayalardan süzülən sular kimi duru və şəffafdır.

Aşıq Ağalar el sənətkarıdır, xalq ruhunu təmsil və tərənnüm edən bir aşıqdır. O, ozan-qopuz sənətinin aşıq-saz sənəti ilə əvəzləndiyi dövrün böyük nəğməkarıdır. Yüksək poetik dili, sənətkarlığı aşığın zəngin və uzun keçmişi olan bir ədəbiyyat zəminində yetişdiyini göstərir. Hələ tam şəkildə əldə edilməmiş və əslində, çox az toplanmış yaradıcılıq nümunələri göstərir ki, böyük və qüdrətli el sənətkarı və istedad sahibi olmuşdur. Onun şeirləri tər bənövşələr kimidir, səhərin ilıq nəfəsi qədər mülayim və ətirlidir, insanda xoş duyğular yaradır, onu ülviyyətə, həyatın gözəlliklərinə səsləyir və ona ruh və qanad verir.

Aşıq Ağalar xoşbəxt insanlardandır ki, xalqın yaddaşında ozan, ustad aşıq, saz-söz ustası, el sənətkarı - şair kimi yaşayır. Qurbani kimi, Ələsgər kimi, indi onu da "aşıq" adlandırırıq. Çünki aşıqlar şifahi xalq ədəbiyyatının nümayəndələri hesab olunurlar.

Deməliyik ki, aşıq sənətinin, aşıq poeziyasının qədim kökləri şifahi xalq ədəbiyyatına və xalq yaradıcılığına gedib çıxır. Onun rüşeymlərinə Aşıq Ağaların bayatılarında, xalq havalarında da rast gəlirik ki, bu bayatılar, müdrik xalq məsəlləri, nağıllar bir-iki adam tərəfindən yox, yüzlərlə, minlərlə adamın iştirakı ilə yaranmışdır. Təbii ki, şeir, musiqi və rəqs formalarının bəsitlikdən mürəkkəbliyə, kamilliyə doğru inkişafı insanın hissiyyatının, duyğularının, fikrinin, anlayışlarının dəyişməsi, inkişaf etməsi, zənginləşməsi ilə bağlıdır. El arasında çox sevilən Aşıq Ağalar öz yaradıcılığında vətənə, yurda olan məhəbbətini, vətəninə, Azərbaycanımıza olan sevgisini yazdığı bayatılarında da tərənnüm etməyi unutmamışdır.

O, sənətkarlıq qüdrətinə görə özünəməxsus yeri və mövqeyi olan görkəmli söz ustadlarından biri olmuş və dərin məzmunlu, oxunaqlı bayatıları ilə də xalq arasında tanınır. Aşıq Ağalar sənət dünyasında vətən müqəddəsliyi, xalq məhəbbəti, el həqiqətləri bədii yaradıcılığın nüvəsində dayanırdı. Aşığın yazdığı bayatıların hər sətri, hər misrası vətən qüdsiyyətini ifadə etmişdir. Aşıq Ağaların yaradıcılığında vətən sevgisi, vətənpərvərlik, ümumiyyətlə, Azərbaycançılıq motivləri öndə verilmişdir. Sənətkar bütün varlığı ilə özünü Vətənə həsr etdiyi şeirlərində olduğu kimi bayatılarında da əsl, nümunəvi bir vətəndaş olduğunu ifadə etmişdir.

Burada onu da qeyd etməliyik ki, bayatılar təkcə Azərbaycan xalq ədəbiyyatında deyil, bütövlükdə türk folklor etnocoğrafiyasında geniş yayılmış formalardandır. Bayatının mənşəcə bayatların adı ilə bağlı olduğu ehtimal edilir. Mövzuca rəngarəng olan bayatılarda xalqın kədəri, ictimai quruluşa, zülmə qarşı etirazı, yadelli işğalçılara nifrəti, azadlıq və xoşbəxtlik arzuları ifadə edilib, məhəbbətə, ayrılığa, dostluğa aid təsirli misralar söylənib. Elə by cəhətdən də Aşıq Ağaların bayatıları öz mükəmməlliyi ilə diqqəti cəlb edir. Aşıq Ağalar bayatılarında arzuladığı hər şeyi aydın, sadə və şirin demişdir. O, sadə sözləri elə bacarıqla işlədir, bayatısını elə məharətlə qurur ki, adam bildiyi, yüz dəfələrlə eşitmiş olduğu fikirləri də indi birinci dəfə eşidirmiş kimi dinləmək istəyir. Lakin bununla belə, etiraf etmək lazımdır ki, onun bayatıları öz məna, məzmun və forma gözəlliyi ilə seçilir. Çünki

Aşıq Ağalar qələmə aldığı bayatılarnı kiçik bir poetik janr kimi deyil, böyük imkanlara malik şeir forması kimi dəyərləndirə bilmiş, ən dərin fikirləri, ən incə mətləbləri lakonik şəkildə - cəmi dörd misranın çevrəsində çatdırmağı bacarmışdır.

Yazılı və şifahi poeziyanın başqa janrları ilə müqayisədə demək olar ki, bayatı xalq məişətinə daha çox yaxındır. Biz, bunu bir qədər obrazlı desək, bayatı xalqın bağrının başından qopmuşdur. Məhz buna görə də belə kütləvi poeziya xəzinəsi daxilində Aşıq Ağalar nəinki itib - batmamış, hətta o, öz istedadının qüdrəti ilə həmin bu sahədə də xüsusi mövqe qazana bilmişdir. Bax, Aşıq Ağaların bir sənətkar kimi böyüklüyü bundadır.

Bizə elə gəlir ki, bayatını ancaq yaradıcılıq ruhu olan xalq çağıra bilər. Bayatı oxucunu düşündürmək xüsusiyyətinə malikdir. Xalq dilində yaradıldığına görə bayatı asan başa düşülür. Xalq öz kədərini ifadə etmək üçün bayatıdan, onun lirik imkanlarından istifadə edir. Dərindən araşdırılsa, bayatıların da mərasim folkloru ilə bağlılığı üzə çıxa bilər.

Bir də bayatı qədim bir ədəbi növ kimi, mövzu və məzmunca məişət və mövsüm mərasimlərinə daxil edilir. Bayatıların bu xüsusiyyətinə görə ən çox onlardan toy, yas və doğum mərasimlərində istifadə olunduğunu demək olar. Aşıq Ağaların yaradıcılığında yer tutan bayatılar da elə bu qəbildən olan bayatılardır:

Balam yatar, ağlamaz,
Bağrım başın dağlamaz,
Onun xoşbəxt beşiyi,
Qəm kədəri saxlamaz.
Bülbül oxur qəfəsdən,
Könlü düşməz həvəsdən.
Mən balamı tanıram
Yatan zaman nəfəsdən.
Bağdan gülü dərəndə,
Sinən üstə sərəndə
Ağalar da qəm yeməz
Oğul toyu görəndə

(Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir. Çaşıoğlu, 2014, 92 s.).

Görürük ki, yazdığı bayatıların bir qismində Aşıq Ağalar öz arzularından, övladının gələcəyinə bəslədiyi ümidlərdən, qəlbindəki ülvi istəklərdən söz açmıdır. Bu, övladını dünyalarca sevən, onun yolunda hər cür fədakarlığa hazır olan aşığın təbii arzuları imiş. Onun qəlbində oğlunun gəzib oynaması, deyib - gülməsi, boya-başa çatıb qız sevməsi, toy etməsi, ailə qurması bir arzu kimi bayatılarında tərənnüm olunmuşdur.

Bir sözlə, apardığımız araşdırmalar və əldə olan faktlar bizə əsas verir ki, Aşıq Ağalar Mikayılovun fərdi dünya duyumu, poetik "nəfəsinin" özünəməxsusluğu, istedadı, bədii zövqü, poetik ənənəyə münasibəti və s. doğrudan da onun yaradıcılığında ifadəsini parlaq şəkildə tapa bilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. S.Qəniyev və E.Elmalıyev. Bu yol Şirvan yoludur. Bakı, ADPU, 1994, 95 s.
2. Aşıq Ağalar Mikayılov. "Söz mənimkidir. Çaşıoğlu, 2014, 92 s.
3. S. Qəniyev. Şirvanlı Aşıq Ağalar. Bakı, "Elm və təhsil", 2011, 174 s.
4. Ə.Cəfərzadə. "Bayatı". Bakı, "Gənclik", 1994, 200 s.
5. H.Araslı. Aşıq yaradıcılığı, Bakı, Birləşmiş nəşriyyat, 1960, 136 s.

САДАГЕТ АСКЕРОВА

НАРОДНАЯ ЛЮБОВЬ В ТВОРЧЕСКОМ МИРЕ АШИГ АГАЛАРА

РЕЗЮМЕ

Сегодня ашугское творчество, имеющее долгую историю, проходит собственный путь развития. Ашуги участвуют в международных фольклорных фестивалях, организованных в различных странах мира, и возвращаются на родину с наградами. Союз ашугов Азербайджана реализовал множество успешных проектов, а организация юбилеев и вечеров памяти ашугов, сбор их наследия и публикация книг в память об ашугах вошло в традицию. Государство постоянно проявляет большой интерес к развитию ашугского искусства, принимает специальные законы и разрабатывает правовые принципы и документы для его продвижения в мировом масштабе. Забота и внимание к ашугскому искусству, популяризация этого искусства в мировом масштабе означает также популяризацию нашей древней истории. С этой точки зрения, ашугам и нам, исследователям, занимающимся их изучением, досталась почетная и ответственная работа наших и наших.

На сегодняшний день в азербайджанской фольклористике проведен ряд ценных исследований в направлении изучения этого искусства, написаны интересные произведения. Однако, несмотря на определенные исследования о выдающихся мастерах слова и саза, всё ещё существует большая потребность в изучении ряда проблем и вопросов, решение которых немаловажно. В этом смысле комплексный подход к творчеству Ашуга Агалара Микаилова и глубокое изучение его творчества, представляющие собой важные вопросы, были привлечены к исследованию.

Необходимо решительно отметить, что одной из отличительных черт ширванской ашугской среды является наличие точной и ясной генеалогии искусства, которая взрастила такого великого мастера, как Ашуг Агалар. При жизни он стал создателем прекрасных стихов и бесподобных мотивов на сазе. В объятиях самых возвышенных эмоций он всегда уносил человеческую душу в мир таинственных красот, обогащал её высокими эстетическими идеалами и благородными чувствами. Ашуг Агалар, сумевший проникнуть в глубины человеческого сердца и создать живую поэтическую картину его чувств и

лирических переживаний, смог с большим мастерством описать искренние человеческие чувства.

Следует упомянуть, что в ашугском творчестве немало сказано и написано и о патриотизме, мужестве, дружбе, отваге и гордости. Стихи Ашуга Агалара, написанные на эти темы и запечатлевшиеся в памятях, перешли из поколения в поколение и сохранились в воспоминаниях людей. Стихи ашуга усиливают чувство любви к родине, пробуждают ощущения мужества и геройства, поэтому, даже отдалившись от любимого занятия и своего саза, когда сердце его глубоко тосковало по родине, спасением для него стал саз, с которым он делился своей скорбью.

Хотя с тех пор, как стихи Ашуга Агалара запечатлелись в памятях, прошло много времени, они с любовью сохранились в наших воспоминаниях. Эти стихи, выражающие сердечные пожелания, любовь и печаль, ненависть и гнев, по-прежнему чисты и прозрачны, как вода, стекающая с высоких и величественных скал.

Ключевые слова: жемчужный саз, патриотический, баяты, поэтический язык, хрустально чистый родник

SEDAGET ASKEROVA

PEOPLES LOVE IN THE ART WORLD OF ASHIG AGHALAR

RESUME

Today, ashig art, which has evolved over the years, is experiencing its own path of development. Our ashigs participate in international folklore festivals held in different countries of the world and come back home as winners. The Union of Ashigs of Azerbaijan has signed many successful projects and it has become a tradition to hold anniversaries and commemoration gatherings of our ashigs, collect their heritage and publish memorial books about them. Our state constantly shows great interest in the development of ashig art and establishes legal principles and documents for the adoption of special laws and its promotion on a global scale. The care and attention to ashig art, its promotion on a global scale mean the promotion of our ancient history as well. In this regard, it is the honorable and responsible duty of our ashigs and us, as researchers.

Today, a number of valuable researches have been conducted and interesting works have been written in the Azerbaijani folkloristics for studying this art. Although some researches have been conducted on prominent ashig artists, there is still a great need to study several problems and issues that is necessary to address. In this regard, as it is important to take a comprehensive approach, study in depth the works of Ashig Aghalar Mikayilov, it is involved in the research.

We must say assuredly that one of the specific features of Shirvan ashig environment is the existence of a precise and clear genealogy of art, which has raised such a great artist as Ashig Aghalar. During his lifetime, he created beautiful poems and unique melodies. He has always taken the human heart to the world of mysterious beauties in the embrace of the most divine emotions and enriched it with high aesthetic ideals and noble feelings. Ashig Aghalar, who was able to dig down into the depths of human heart and create a living poetic picture of the feelings and lyrical emotions, managed to write sincere human feelings with great skills.

Note that a lot has been said and written about patriotism, courage, friendship, bravery and pride in the works of ashigs. The poems of Ashig Aghalar written on this topic and memorized by everyone are etched on people`s memory passing down from generation to generation. As Ashig`s poems increase a person`s love for motherland and create feelings of courage and heroism, even when he was away from his beloved profession and instrument, and his heart was burning with longing for his motherland, he took shelter in saz and shared his pain with it.

As the poems of Ashig Aghalar are memorized by everyone, even after a long time, they are preserved in memories with great love. These poems, which express the desires of heart, love and sorrow, hatred and anger, are still as pure and lucent as water flowing from tall majestic rocks.

Key words: pearly saz, patriotic, bayaty, poetic language, crystal clear spring

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Rəyçi: akademik R. Hüseynov,
tərəfindən çapa tövsiyə olunmuşdur

DADAŞ ƏLİYEV
AMEA Folklor İnstitutu
lahij.tourizm@mail.ru

İSMAYILLI ETNOMÜHİTİNDƏKİ AZSAYLI XALQLARIN FOLKLORUNDA NAĞIL JANRI

Açar sözlər: etnomühit, folklor, nağıl janrı, bilnqvizm
Ключевые слова: этносреда, фольклор, жанр сказки, билингвизм.
Keywords: ethno-sphere, folklore, tale genre, bilingualism

Ismayıllı bölgəsində yaşayan azsaylı xalqların folklorunda həm ənənəvi (nağıl, əfsanə, rəvayət, sınamalar, tapmaca, bayatı, mahnı, düzgü, vücudnamə, şəbeh, mövsüm nəğməsi), həm də qeyri-ənənəvi (şəbədə, misgər nəğməsi, nəsr formasında olan layla) janrlardan istifadə edilmişdir. Belə bir bölgüdən istifadə təsadüfi deyil: azsaylı xalqların folklorunda Azərbaycan dilli folklorun təsiri güclü olduğundan ənənəvi janrların olması təbiidir, amma həmin xalqların nümayəndələri istər gündəlik məişəti, məşğuliyyəti, etnopsixoloji xüsusiyyətləri və sözsüz ki, ikidillilik mühiti qeyri-ənənəvi janrların yaranmasına təsir göstərimişdir. Onların, məsələn lahıcların arasında xalq sənətkarlığının geniş yayılması, məişətdə lokal dilin- tat dilinin lahıc ləhcəsinin işlənməsi, özünəməxsus məişət və mədəni həyat tərzi folklor nümunələrində özünü göstərir.

Azsaylı xalqların folklor nümunələri arasında epik janrlar üstünlük təşkil edir. Epik folklorun ənənəvi janrı sayılan nağıl bütün dünya xalqları arasında, o cümlədən Azərbaycanda da ən geniş yayılmış bir janrdır. *"Azərbaycan nağılları xalqın milli xüsusiyyətləri adət -ənənələri, məişət tərzi hesab olunur. Bu nağıllar müxtəlif dövrlərdə xalqın dünyagörüşünü, həyata münasibətini, gələcək haqqında arzularını, azadlıq , müstəqillik uğrunda xarici işğalçılara və yerli zalımlara qarşı mübarizəsini, onun öz qüvvəsinə , gələcəyinə inamını bədii boyalarla əks etdirir* [2,*175*]

Azərbaycan folklorunda nağıl janrı önəmli yerə malik olduğu kimi, lahıc ailələrində də uzun qış gecələrində, radio və televiziyanın olmadığı və əhalinin böyük hissəsinin təhsil almadığı bir dövrdə nağıla və nağıl dinləməyə hər kəs maraq göstərirdi. Nağıla maraq o qədər çox idi ki, aşıqlardan məclislərdə nağıl danışmağı xahiş edərdilər .

Lahıcda məşhur nağıl söyləyicilərindən biri olan Qurban Məmmədov hər dəfə nağıldan əvvəl şəbədələr söyləyərdi və bu zaman " *ustadlar bir yox, iki, iki yox, üç şəbədə deyərmişlər"*(söyl. Məmmədov Q). sözlərindən sonra bir-birinin ardınca 3 şəbədə deyərmiş . Xüsusən də bu dövrdə yaxşı nitq qabiliyyəti və müəyyən qədər oxumaq-yazmaq bacaran şəxslər xalq arasında nağılçı adını almışdılar. Güclü yaddaşa, bəlağətli, məzəli danışığa malik söyləyicilər məscidlərdəki yığıncaqlarda, sənətkarlıq emalatxanalarında manqal ətrafında, evlərdə qurulan kürsülərin arxasında

nağıllar söyləyərdilər. Elə nağıllar olurdu ki, 2-3 gün danışılırdı. Onlar az savadları ilə elə gözəl nitqə malik idilər ki, istənilən auditoriyanı uzun müddətə gərginlik içində saxlaya bilir və bunu etmək üçün hər bir nağılı yerli şəraitə və həmin mühitdəki insanlara uyğunlaşdırır, detallar əlavə edir, dinləyicini yormayan, əksinə, yeri gəldikcə onu gah gərginləşdirən, gah da şənləndirən ifadələrdən bacarıqla istifadə edərdilər. Son nəticədə dinləyici hətta özünü nağılın qəhrəmanı kimi hiss edə bilirdi. Azsaylı xalqlar arasında nağıl nümunələri toplayarkən çox bacarıqlı söyləyicilərin fəqli yaşLarda olduğunun şahidi olduq. Onların fərqi yaşla deyil, daha çox peşəkarlıq səviyyəsi ilə müəyyənləşir. Bu cəhətdən Azərbaycan folklorşünaslığında söyləyicilik sənətinə aid dissertasiyanın müəllifi fil.ü.f.d. Atəş Əhmədli söyləyiciləri daha çox bacarığına görə *"söyləyicilərin peşəkar və ya qeyri-peşəkarlara bölümlənməsi daha məqsədyönlüdür"* fikrində israrlıdır [3, s. 27]. Bu barədə folklorşünas Ləman Süleymanova yazır: "Söyləyicinin mətni nə dərəcədə bilməsi konkret olaraq onun yaddaşından asılıdır. Burada yaş, cins, savad dərəcəsi və s. amillər az rol oynayır" [6, s. 175-176].

Lahıc nağıllarının spesifik əlaməti onlarda şah nəslindən və sənətkarlar zümrəsindən olan baş qəhrəmanların, div, cin və Simurq quşu kimi sehrli qüvvələrin əsas yer tutmasıdır. Amma bəzi nağıllarda dil və mənşə baxımından, xüsusən də nağıllarda İran folklorunun təsiri vaxtilə güclü olsa da, Azərbaycan (türk) nağıllarına xas olan keçəl və ovçu obrazları, öküz, inək, qurd, ilan və s. totemlərə rast gəlmək olur. Lahıcın özündə yaranmış nağıllar o qədər də çox deyil, bu folklor mühitində söylənən nağılların içərisində Azərbaycan folklorunun təsiri altında yaranmış və bütün Şərqdə, o cümlədən İranda məşhur olan motivlərin əsasında qurulan nağıllar daha çoxdur. Təbii ki, bu nağılların əksəriyyətində dramatik gərginlik hökm sürür və xeyirlə şərin mübarizəsində xeyir qələbə çalır. Məsələn, Manaf Süleymanovun "Lahıc" kitabından götürülmüş "Şah və dəllək" nağılında nəql edilir ki, *"Şah Abbasın arıq, ucaboy, boynu uzun bir dəlləyi varmış. Bir gün bir rəssam Şah Abbasa rast gələndə təzim edib, balaca çərçivədəki şəkli ona uzadaraq təmənna edir ki, qibleyi-aləm sağ olsun, bunu alın, mənə bir çörək pulu ata edin.*

Şah Abbasın ovqatının yaxşı vaxtına düşür, şəkil də, altındakı yazı da xoşuna gəlir, gülümsəyir, bir neçə tümən verib, şəkli alır. Tabloda tənha bir dəvə təsvir edilibmiş. Altında da yazılıb: "Ey uzun, boynu əyri, ürəyindən keçənləri bilirəm". Şah Abbas saç-saqqalını düzəltdirmək üçün girir dəllək olan otağa, şəkli də asır güzgünün üstünə. Hər dəfə dəvənin şəklinə baxıb gülümsəyirmiş.

Bir dəfə də Şah Abbas gəlir və dəllək həmişə etdiyi kimi əl-ayağa düşüb hazırlığa başlayır. Ülgücü bilo daşına çəkəndə Şah Abbas şəklə baxıb oradakı yazını oxuyur: "Ey uzun, boynu əyri, ürəyindən keçənləri bilirəm".

Ülgüc dəlləyin titrəyən əlindən yerə düşür, özü də tirtap yıxılır şahın ayağına, ayaqlarını öpə-öpə, ağlaya-ağlaya başlayır yalvarmağa: "Qibleyi-aləm sağ olsun, məndə günah yoxdur... Zorla boynuma qoyublar. Neçə gündür, ha cəhd edirəm, sizi

görüm əhvalatı xəbər verim, olmur. Məni gözdən qoymurlar. Qorxurdum məni öldürərlər..."

Şah Abbas əmr edir: "Hamısını aç, de!"

Dəllək ağlaya-ağlaya dizləri üstə sözünə davam edir: "Baş vəzirlə əminiz oğlu Qurban mənə dedilər ki, üzünü qırxanda, əlahəzrətimizin boynunu ülgüclə üzüm... Rədd elədim təkliflərini. Dedilər ki, məni öldürəcəklər, ya da sizə çuğullayacaqlar. Sonra vəd etdilər ki, məni vəzir təyin edəcəklər... Məndə taxsır yoxdur. Çevir balalarının başına... Ya ki, elə özün çağır cəlladı, boynumu vurdur.

Şah Abbas soruşur:

-Bəs niyə razılaşmadın? Vəzir olardın!

Qurban:

-Onlar heç məni qoyacaqdılar ki, buradan sağ çıxım? Elə özləri qətlə yetirəcəkdilər ki, qibleyi- aləmi öldürüb.

Şah Abbas dəlləyi bu otaqda qoyub, qapını qıfıllayır və başqa qapı ilə çıxıb gedir. Sui-qəsdçilərin hamısını tutdurub, zindana saldırır, sonra da edam etdirir, dəvə şəklini rəsm edən nəqqaşa yaxşı ənam verir [5, s.198-199]. Nağıl göründüyü kimi Şah Abbasın adı ilə bağlıdır, haqqın qələbəsi ilə nəticələnir.

"Süleyman peyğəmbər və sərçə" adlı başqa bir nağıldakı kimi, ibrətamiz fikirlərlə nəticələnən nağıllar da az deyil. *"Süleyman peyğəmbər sərçəni hədələyir, sərçə də Süleyman peyğəmbəri. Peyğəmbər ondan soruşur: " Sən mənə nə edə bilərsən?" Sərcə cavab verir: "Özümü bir yetimin ocağındakı külə bulayaram və həmin külü şahlıq taxtının üstünə çırparam. Yetim ocağının külü səpələnmiş ev də ki 40 günə viran olur"* (söyl.Mövlamov İ.).

Lahıcların folklorunun özünəməxsus cəhətlərindən biri də budur ki, bütün janrlarda olmasa da, bəzilərində məhəlli *"folklor mühitindən irəli gələn xüsusiyyət – sənətkarlıqla, xüsusən də misgərliklə bağlılıq"* [4,316 s.]. hiss olunur. "Sənətkarın gücü" adlanan ailə-məişət nağılının süjet xətti belədir: *"Bir gün qoca bir misgər öz ölümünü hiss edərək oğullarını çağırır və deyir: "Mənim balalarım, hiss edirəm ki, mən tezliklə öləcəyəm. Mən bütün həyatım boyu işləmişəm, az-çox qazancım da olub. Sənə – ən böyük oğluma qızılla dolu bir küpə verirəm". Ortancıl oğluna isə atını verir. Kiçik oğluna da öz dükanını verərək, analarının onlarla birgə yaşayacağını deyir və tapşırır ki, onu qorusunlar. Misgər bunu deyən kimi də ölür. Böyük oğul pulu götürüb Lahıcın Ərəgit məhəlləsində özünə ev tikir, evlənir və səhragərdliklə məşğul olmağa başlayır. Qoca anası da onunla yaşayır. Amma onun gəlini xəsis olduğuna görə ana ortancıl oğlunun yanına gedir. Ortancıl oğul atı götürdü, Girdimançaydan daş gətirdi və Bədöyün məhəlləsində özünə ev tikdi və mis qab satmaqla məşğul olmağa başladı. Ana ortancıl oğulun böyük evində tənha yaşamaqla çox darıxır və kiçik oğlunun dükanına gedir. Görür ki, oğlu gecə-gündüz işləyir. Oğlunun gözəl əşyalar düzəldə bildiyini görən ana soruşur:*

– Sən atanın düzəltdiyi bu köhnə mis lampanın üzərində naxışlar çəkə bilərsənmi?

– Bacararam, –deyə oğlu cavab verir və soruşur: – Amma hansı şəkilləri istəyirsən ki, çəkim?

– Sən lampanın üstündə mənim hər üç oğlumu elə canlı çəkməlisən ki, onların haqqında istədiyim hər şeyi bilim, – ana bildirir.

Kiçik oğul razılaşdı və gecə anası yatarkən lampanın üstündə ananın dediyi rəsmləri çəkdi. Səhər o anasına deyir:

– Bu rəsmlər və bu lampa artıq sehrli oldu. İstədiyin vaxt onu qumla sürtsən, oğullarının taleyini öyrənə bilərsən

Ana əvvəlcə lampaya baxdı, görür ki, böyük oğlu varlı bir tacir sifətindədir, öz bağında oturub, qarşısında süfrədə plov var. Ana rəsmi qumla sürtür və bu dəfə görür ki, düz oğlunun yanında qadın paltarında bir şeytan peyda oldu, bıçaq kimi dişlərini qıcadı, plovu tamam yedi, bunun ardınca bağ, daha sonra ev gözdən itdi. İkinci dəfə ana lampanı çevirdikdə ortancıl oğlunu atın belində mahnı oxuyaraq getdiyini və mis qab satmaqla məşğul olduğunu görür. Onun rəsmini qumla sürtən ana atın və papağının yoxa çıxmasının, oğlunun isə qocalıb tək-tənha qalmasının şahidi olur. Ana bunları görüb çox məyus olur, oğullarının halına acıyır və düşünür ki, bəlkə, kiçik oğlunun taleyi üzünə güləcək. Lampanı çevirir, görür ki, onun dükanı indi olduğu kimi qalıb, kiçik oğul da öz işi ilə məşğuldur, qabların üstündə həkkaklıq edir. Ana rəsmi sürtəndə onun ətrafında uşaqların peyda olduğunu və həmin uşaqların atalarından sənətkarlığı öyrəndiklərini müşahidə edir. Təzədən sürtür, bu dəfə də heç nə dəyişmir.

–Heç nə başa düşə bilmirəm, – ana oğluna deyir, – məni başa sal.

– Sənə nəyi başa salım, – deyə oğlu izah edir, – zaman sənətkarı və onun övladlarını dəyişə bilmir, onu alçalda bilmir. Sənət ona sığınacaq, övlad və sakit həyat bəxş edib. Digər qardaşlarım isə daha çox sərvət qazanmağa çalışdıqları üçün həyatları tələtümlü keçəcək və ömürlərini tənha başa vuracaqlar"[1, s.19-20].

Nağıl sırf lahıcların yaşadıqları folklor mühitini səciyyələndirdiyi üün tm halında verilib. Nağıldan çıxan nəticəni asanlıqla hiss etmək mümkündür, əsl sənətkar həmişə yaşayır, amma var-dövlət hərisliyi insanı sonda məhv edir. Nağılın əsas özəlliyi ondadur ki, o məhz Lahıcda yaranıb, çünki buradakı hadisələr misgər ailəsində, Lahıcda və onun ən böyük məhəlləsi sayılan Ərəgit məhəlləsində baş verir. Amma ümumiyyətlə, Lahıc nağılları da quruluşu etibarilə əsl Azərbaycan nağıllarından o qədər də fərqlənmir. Ənənəvi giriş cümlələri " biri vardı, biri yoxdu" , " az getdi, çox getdi" , ortalıqda ".....qalsın, sizə kimdən deyim...", sonluqlardakı " siz yüz yaşayın, mən isə iki əlli" kimi nağıl düsturları müşahidə etmək olur. Bəzi söyləyicilər girişdə həm pişrov, həm də şəbədələrdən istifadə edirdilər. Bu düsturlardan başqa, nağıllrda həm də 3, 7 və 40 rəqəmlərinin mistik mənası da duyulur.

Bu nağılların gənclərin əxlaqi tərbiyəsində xüsusi rolu var. Belə nağıllar onlarda əməksevərlik, düzlük və doğma yurda bağlılıq hisslərini tərbiyə edir.

İsmayıllı bölgəsində yaşayan azsaylı xalqlara şərti olaraq daxil edilsə də, əslində etnoqrafik qrup kimi qəbul edilən Axıska türklərinə məxsus folklor nümunələrində aparıcı mövzu vətənpərvəlik, vətənlə bağlı nostalji hisslər, doğma yurdun gözəlliklərdir. Belə ki, onların folklorunda Azərbaycan folkloruna məxsus olan əksər janrlara rast gəlmək mümkündür.

"Nənənin gəbəligi", "Köti kaynana", "Köti gəlin" nağılları məişətlə bağlıdır, onlarda ailədaxili münasibətlər əsasdır. Məsələn, "*öz qaynanasına xəstə vaxtında pis baxmış qaynanası gəlindən xahiş edir ki, ona toyuq şorbası bişirsin, gəlin də əvəzində pişiyi kəsib ondan yemək bişirib qaynanasına verir. Gəlinin özü qocaldığı zaman o da öz gəlinindən xahiş edir ki, ona toyuq ətindən şorba bişirsin. Bu gəlin yaxşı gəlin olur, o toyuq ətindən yemək bişirir, amma görür ki, qazandakı toyuq pişiyə döndü. Gəlin ikinci dəfə yenə toyuq kəsir və yemək bişirir, yenə həmin vəziyyət təkrar olunur. Bunu gəlib qaynanasına deyəndə o bir az düşünür və deyir ki, bir vaxtlar mən qaynanama toyuq əvəzində pişik yedirtmişdim. İndi, odur ki, elədiyim qabağıma gəlir"*. (söyl.Ramizova Z.)

Axıska türklərinin nağıllarında padşah, küpəgirən qarı, keçəl (türklərə məxsus Kəloğlan) kimi Azərbaycan nağıllarına xas olan surətlər vardır. Bu nağıllar arasında sehrli, məişət və heyvanlar haqqında nağıllar var. Bu nağıllar arasında "Üç usta" nağılı olduqca maraqlıdır: *"Heç yerdə tayı-bərabəri olmayan bir saray tikmək istəyən padşah elan verir ki, üç usta gəlir. Ustalar belə bir evi o şərtlə tikməyə söz verirlər ki, padşah qızını onlara versin.Onların hər biri bu barədə şahın qızı ilə razılaşır. Bundan həvəslənən ustalar üç gündə tikiləcək bir evi bircə gündə tikib qurtarırlar. Lakin ev hazır olduqdan sonra padşaha məlum olur ki, qızı hər üç ustaya eyni zamanda ərə getməyə söz verib. Padşahla vəzir məsləhətləşirlər və üç ustanın hər birinə dünyada heç yerdə olmayan bir əşya gətirməsini tapşırırlar. Ustalardan biri qeyri-adi bir alma, o birisi uzağı yaxın göstərən, üçüncüsü isə ən sürətli qaçan at alıb gətirir. Şahın qızı bu vaxt xəstə imiş. Onu baş ustanın gətirdiyi alma sağaldır. Odur ki, vəzirin qərarı ilə qız ona ərə gedir"* .(söyl. Asfandiyev L.)

İsmayıllı bölgəsində yaşayan hapıt və ləzgilərin də özünəməxsus nağılları çox azdır. Olanlar da həcmcə çox kiçik olmaqla bərabər, nağıl janrına xas əsas xüsusiyyətləri özündə əks etdirmir. Amma müəyyən qədər təhsili olan yaşlı qadınlar və kişilər kiçik nağıllar danışırlar ki, onların da əksəriyyəti nağıl kitablarındakı keçəllər və şahlarla bağlı nağıllardır. Bu nağıllarda Azərbaycan xalq nağıllarının təsiri çox güclüdür. Bölgədəki molokan rusların molokanlıq dini ideologiyasını əks etdirən nağılları, demək olar ki, yoxdur. Yalnız məşhur rus nağıllarını söyləyərkən yerli şəraitə uyğun detallar əlavə edirlər.

Folklor bilinqvizm, bəzən polilinqvizm şəraitində yaranır. Lahıc, ləzgi və hapıtların yaşadıqları yaşayış məntəqələrində dil şəraiti bilnqvizm (iki dildə danışılır), molokanların yaşadığı İvanovka kəndində isə polilinqvizm(burada rus, ləzgi və Azərbaycan dillərində danışırlar) . Nümunələr 3 cür söylənilir: azsaylı xalqın dilində, Azərbaycan dilində, ya da ki iki dildə - Azərbaycan və etnik azlığın

dillərində. Amma əsasən demək olar ki, hər bir xalq öz nağılını özü üçün doğma olan dildə danışmağa üstünlük verir.

Sonda məqalədə aparılmış araşdırmanı aşağıdakı kimi yekunlaşdırmaq olar:

- Azsaylı xalqlara aid nağıllar da Azərbaycan xalq nağıllarının güclü təsiri (forma, təhkiyə, süjeti və surətlərin oxşarlığı) aydın hiss olunur:
- Bu nağıllarda, əsasən, bilinqvizm, bəzən polilinqvizm şəraitində yaranır . Nümunələr 3 cür söylənilir: azsaylı xalqın dilində, Azərbaycan dilində, ya da ki iki dildə - Azərbaycan və etnik azlığın dillərində. Hər bir nağılda onu nəql edən şəxsin milli kimliyi, yaşadığı məişət şəraiti və bilinqvizm mühiti özünü göstərir;
- Bəzi xalqların nağıllarında, xüsusən də lahıcların nağıllarında yerli əhalinin bu gün də yaşatmaqda olduqları sənətkarlıq ənənələrinin izləri aydın şəkildə özünü büruzə verir.
- İsmayıllı etnomühitindəki azsaylı xalqların folklorunda, həqiqətən, önəmli yerə malikdir.

ƏDƏBİYYAT:

1. Azsaylı xalqların folkloru. II cild //− Bakı: Elm və təhsil, − 2017 −196 s
2. Əfəndiyev P,Azərbaycan şifahi xalq ədəbiyyatı, / P.Əfəndiyev. − Bakl: Maarif, −1992. − 477s
3. Əhmədli A. Ənənəvi söyləyicilik sənəti.// A.Əhmədli. − Bakı: Elm və təhsil, − 2018. −220 s.
4. Əliyev D. Folklorda xalq sənətkarlığı ənənələrinin yeri Filologiya məsələləri, Bakı 2020 №1, s.312-320
5. Süleymanov M. Azərbaycan diyarı Lahıc. // M.Süleymanov. − Bakı: Vətən, − 1994. − 272 s
6. Süleymanova L. Şəki folklor mühiti. // L.Süleymanova. − Bakı: Elm və Təhsil, − 2012. − 248s.

Söyləyicilər:

7. Məmmədov Qurban, 1908, Ərəgit k., lahıc (vəfat edib)
8. Mövlamov İshaq, 1979, mədəniyyət işçisi, Lahıc qəs., lahıc
9. Asfandiyev Lətifşah, 1945, təqaüdçü, Qoşakənd k., Axıska türkü
10. Ramizova Zülfiyyə, 1955, evdar qadın, Qoşakənd k., Axıska türkü

Dadaş Əliyev

İSMAYILLI ETNOMÜHİTİNDƏKİ AZSAYLI XALQLARIN FOLKLORUNDA NAĞIL JANRI

Xülasə

Məqalənin əvvəliNdə məişəti, etnopsixologiyası, dil mühiti və məxsus olduğu mədəni ənənələr və mərasimlərinə görə unukal olan azsaylı xalqların folklorunda olan ənənəvi və qeyri-ənənvi janrlar haqqında danışılır. Məqalədə nağıl janrı haqqında danışılmış və İsmayıllı etnomühitindəki lahıclar, lzəgilər, hapıtlar, molokanlar kimi azsaylı xalqlar və etnoqrafik qrup hesab edilən Axıska türklərinin nağılları araşdırılmışdır. Araşdırmada qeyd edilmişdir ki, hər bir xalqın söylədiyi yaxud özünün yaratdığı nağıllarda onların milli mənsubiyyəti, dini inancları, məşğuliyyət növləri, adət-ənənələri və dil xüsusiyyətləri özünü göstərir.

Lahıclara məxsus "Sənətkarın gücü" adlı nağılın əsasında əsl sənət və sənətkarın ölməzliyi ideyası durur. Axıska türklərinin nağıllarında, əsasən, daha çox ailə-məişət problemləri əks olunmuşdur. Molokan, ləzgi və hapıt nağıllarına, demək olar ki, rast gəlinmir, amma bəzən danışdıqları nağıllara yerli səciyyəli detallar əlavə edirlər. Bundan əlavə qeyd olunmuşdur ki, ikidillilik şəraitində yaranan və danışılan nağıllar arasında şahlar, keçəllər və əjdahalar haqqında olan nağıllar üstünlük təşkil edir və onlarda ənənəvi formullar və mistik 3, 7 və 40 rəqəmlərinə rast gəlinir.

Məqalənin sonunda qeyd olunmuşdur ki, İsmayıllı etnomühitindəki azsaylı xalqların folklorunda nağıl aparıcı janrdır. Məqalədə aparılmış araşdırma yekunlaşdırılmış və göstərilmişdir ki, nağıllar əksər hallarda bilinqvizm şəraitində yaransa da, adətən xalqın doğma dilində yaxud iki dildə söylənir. Bu xalqlara məxsus olan nağıllarda Azərbaycan nağıllarının güclü təsiri nağılların forma, məzmun, təhkiyə, süjet quruluşu və oxşar surətlərində özünü büruzə verir.

Дадаш Алиев

МЕСТО ЖАНРА СКАЗКИ В ФОЛЬКЛОРЕ МАЛОЧИСЛЕННЫХ НАРОДОВ, ВХОДЯЩИХ В ИСМАИЛЛИНСКУЮ ЭТНОСРЕДУ

Резюме

В начале статьи говорится о традиционных и нетрадиционных жанрах в фольклоре малочисленных народов, которые отличаются по уникальности быта, этнопсихологии, языковой среды, и сложившихся культурных традиций и обрядов. В статье рассказано о жанре сказки и исследованы сказки малочисленных народов компактно проживающих в этносреде Исмаиллинского района -лахиджей, хапытов, лезгинов, молокан и тюрков Ахыска, которые считаются этнографической группой. В исследовании было отмечено, что в сказках, созданных или рассказываемых каждой нацией, проявляются их национальная принадлежность, религиозные убеждения, род занятий, быт, обычаи и языковые особенности.В основе сказки лахиджей «Сила мастера» лежит идея бессмертия настоящего искусства и художника. В

сказках, созданных турками-ахыска, в основном отражаются семейные проблемы, а молоканских, лезгинских и хапытских сказок почти не встречается, но иногда они добавляют местные детали к рассказываемым ими сказкам. Кроме того, было отмечено, что среди сказок, созданных и рассказанных в контексте двуязычия, преобладают сказки о королях, лысых и великанах, в которых встречаются традиционные формулы и мистические числа 3,7 и 40. В самом конце статьи отмечено, то что в фольклоре малочисленных народов, входящих в Исмаиллинскую этносреду , преобладает сказка как один из важных эрических жанров. Подытоживая итоги проделанной работы в статье указано на то, что эти сказки были созданы в большинстве случаев в условиях билингвизма, но обычно исполнялись на их родном языке или же на двух языках.

В сказках, относящися этим народам отчетливо видно сильное влияние азербайджанских сказок, это выражается в особенностях формы и содержания, повествовании, строении сюжета и похожих образах.

Dadash Aliyev

TALE GENRE IN THE FOLKLORE OF MINORITIES IN THE ETHNO-SPHERE OF ISMAYILLI REGION

Summary

At the beginning of the article it is said about the traditional and non-traditional genres in the folklore of small peoples, which differ in the uniqueness of ethno-psychology and cultural traditions and rituals.

In the article the brief information about the tale genre is given and the tales of minority nations such as Lahij, Hapit, Lezghin, Molokan and Meskhetian Turks, considered as the ethnographic group living in Ismayilli ethno-sphere in a compact form, are investigated. In the tales created or told by each nation the national relation, religious beliefs, occupation, life, traditions and language features manifest definitely. On the basis of the tale “The strength of the master”, which belongs to the Lahijs, it is shown that the real art and the master are immortal. Although the tales created by the Meskhetian Turks reflect more family and household problems, the nations such as Molokan, Lezghin and Hapits almost have no own tales, but they sometimes add local details to the tales they tell. In addition, it is noted that among the tales created and told in the conditions of bilingualism, the tales about kings, giants, ogres form superiority, the traditional formulas and mystical 3,7,40 figures are met in them.

And it is also pointed out that these fairy tales were created in most cases in the conditions of bilingualism, but were usually performed in their native language or in two languages. At the end of the article it is noted that in the folklore of the minority nations belonging to the Ismayilli ethnic environment, the fairy tale exceeds as one of the important epic genres. And it is also pointed out that these fairy tales were

created in most cases in the conditions of bilingualism, but were usually performed in their native language or in two languages.

The strong influence of Azerbaijani fairy tales is clearly visible in the fairy tales, which is expressed in the peculiarities of form and content, narration and similar images.

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova tərəfindən çapa tövsiyə olunmuşdur.

MƏMMƏDOVA NURLANA RAMAZAN QIZI
AMEA Folklor İnstitutu
nurlana.mammedova@inbox.ru

"TAHİR VƏ ZÖHRƏ" DASTANININ ORTA ASİYA VARİANTLARI

Xülasə. "Tahir və Zöhrə" dastanının Orta Asiya variantları içərisində türkmən variantının da özünəməxsus bir yeri və rolu vardır. Bu barədə söz açmazdan öncə qeyd etməliyik ki, Türkmənistan Şərqlə Qərbi, Anadolu və Qafqazla Türküstanı, o cümlədən Şərqi Türküstanı birləşdirən qədim karvan yolları üzərində yerləşməsi səbəbindən tarixi və coğrafi baxımdan olduğu qədər, mədəni baxımdan da Türk dünyasının mərkəzi və önəmli bölgələrindən biridir. Əhalisinin böyük əksəriyyətini oğuz mənşəli türkmənlər təşkil etməkdədir: təkə, yamud, göklən, çavdur, sarığ, salur və ərsari boylarından ibarətdirlər.

Zəngin bir folklor xəzinəsinə sahib olan türkmən xalqının yüzillər boyunca meydana gətirdiyi dastan, türkü, məsəl və s. kimi xalq ədəbiyyatı nümunələri əsasən "toy-tamaşa" dedikləri toy, ziyafət mərasimlərində və ya xalq toplantılarında sözlü ənənə yolu ilə nəsildən nəslə ötürülərək günümüzədək yetişə bilmişdir. Bu nümunələr içərisində dastanların daha çox fərqli bir yeri və önəmi vardır. Tarixi qaynaqlarda zikr edilən və türklərin, eləcə də oğuz-türkmənlərin mənşəyi ilə bağlı Xannamə, Oğuznamə kimi arxaik dastanlar ilə yanaşı bilavasitə oğuzların həyat tərzlərini əks etdirən Dədə Qorqud dastanı türkmənlər üçün tarixi və mədəni yöndən böyük əhəmiyyətə sahibdir.

Günümüzədək xalq arasında yaşamaqda, sevilə-sevilə söylənməkdə olan dastanlardan ən yayğın olanları "Aşıq Qərib", "Əsli-Kərəm", "Abbas- Gülgəz", "Tahir-Zöhrə" və s. dastanlardır. Məqalə "Tahir və Zöhrə" dastanının Orta Asiya variantlarının öyrənilməsinə həsr edilmişdir

Açar sözlər: məhəbbət dastanı, "Tahir və Zöhrə", Orta Asiya, variant, versiya, mətn

Azərbaycanda "Tahir və Zöhrə" adı ilə tanınan dastanın türkmən variantı "Zöhrə-Tahir" adlanmaqdadır. Türkmən bölgələrində bu mövzuda ortaya çıxmış bir çox rəvayət, nağıl, hekayə və xalq dastanı var ki, onların əksəriyyəti elm aləminə çoxdan məlumdur. Türkmən tədqiqatçısı Araznepes Mammetjumayevin fikrincə, bu süjet rəvayət, nağıl və hekayə şəklində XII-XIV əsrlərdə ortaya çıxmış, daha sonra bu mövzu yavaş-yavaş təkmilləşərək XV-XVI əsrlərdə xalq dastanlarının formalaşmasına yol açmışdır (1, 62).

Alim hesab edir ki, Zöhrə-Tahir mövzusu oğuzların bilavasitə özlərinin yaratmış olduğu ədəbi mövzulara aiddir. Nəticədə sözügedən mövzu yavaş-yavaş

qonşu xalqların xalq ədəbiyyatına daxil olmağa başlamışdır. Türkmənistanda "Zöhrə-Tahirin köşkü" adlı əski bir köşkün var olması süjetin çox əskilərdən bəri türkmən xalqının arasında yaşamaqda olduğunun bir isbatıdır. "Zöhrə-Tahir köşkü"nün mövcud adının dəqiq olaraq nə zaman ortaya çıxdığı məlum olmasa belə, bunun sözügedən süjetin ortaya çıxma dövründən həmən sonra olduğunu düşünmək olar.

Araznepes Mammetjumayevin yazdığına görə, Azerbaycan, özbək, qazax, Anadolu, tatar, uyğur və digər Türk xalqlarının folklorunda da olan bu süjet ilə bağlı rəvayət, məsəl, nağıl, xalq dastanlarının ortaq özəlliyi onların, demək olar ki, hamısında dastanlara məxsus olan quruluş, yəni şeirlə nəsrin sıralanmasının xas olmasıdır.

Bu süjetin yayılmasının sadəcə Türk xalqlarının folkloruyla sınırlı qalmadığını diqqətə çatdıran tədqiqatçı yazır ki, o eyni zamanda ərəb, hind, gürcü, alban kimi millətlərin arasında da məşhurdur. "Zöhrə-Tahir"in süjeti XVII əsrdən etibarən türkmən şairlərinin əsərlərinin də mövzusuna çevrilmişdir. Bu mövzuda ilk böyük həcmli əsər yazan Seyidmühəmməd Səyyadi olub. Sonra XVIII-XIX əsrlərdə Mollamurad Xorəzmi, Molla Nəfəs kimi şairlər də bu süjetə baş vurmuş, yeni dastanlar yazmışlar (1, 62).

"Zöhrə-Tahir" dastanının ən mükəmməl variantlarından birinin Xorasan, Türkmənsəhra və Məvərünnəhr bölgəslərində yaşayan xalq ozanlarının oxuduqları nümunələr əsasında Molla Nəfəs (Molla Nepes) tərəfindən qələmə alındığı bilinməkdədir (2, 45).

1810-cu ildə Xorasanın Səraxs bölgəsində dünyaya göz açan Molla Nəfəs ilk təhsilini atası Qədirverdinin başçılıq etdiyi mədrəsədə, daha sonra isə Mərvdə məşhur pedaqoq kimi ad çıxarmış Molla Məmmədsalihin yanında almış, oradan Buxaraya gedərək dövrün tanınmış alimlərindən türk, ərəb və fars dillərini, ilahiyyat, riyaziyyat, hesab, həndəsə, nücum, kimya, ədəbiyyat, tarix və coğrafiya elmlərini öyrənmişdir. Onun şeirlərinin böyük əksəriyyəti bizə gəlib çatmasa da, özündən sonra zəngin irs qoyduğu məlumdur. Onun irsi içərisində "Zöhrə-Tahir" dastanının xüsusi yeri var və belə hesab edilir ki, dastan onun tərəfindən tamamilə yenidən işlənmişdir. Burada o, türkmən həyatının, ruhunun əsil ensiklopediyasını yaratmışdır (3, 4-7).

Məlum olduğu kimi, məhəbbət dastanları, bir qayda olaraq, qəhramanların doğulmasıyla başlayır. Bunlardan bir qismində doğuşdan öncə sonsuzluq motivi yer alır. Eyni hal "Zöhrə-Tahir" dastanı üçün də keçərlidir. Valideynlərinin sonsuzluğuna rəğmən, türkmən variantında da qəhrəmanlar möcüzəvi bir şəkildə doğulur və gələcək qədərləri də məhz həmin epizodda çözülür.

Dastanın türkmən variantında Zöhrənin atası padişah, Tahirin atası isə vəzirdir. Padişahla vəzir eyni zamanda iki yaxın dostdur. Hər cür maddi imkanlara sahib olmalarına rəğmən, uşaq üzünə həsrət qalan padişah ilə vəzir sabah namazlarını qıldıqdan sonra atlarına minib, gizlicə şəhərdən çıxır, çölə tərəf yol alırlar. Gün boyunca at sürürlər. Bir çox övliyanın məzarlarının da olduğu böyük bir

qəbristanlığın yanında durub, içəri girirlər. Gecəni oradakı bir türbədə geçirirlər. "Ey Baki olan Rəbbi Rəhimim, bizə bir övlad ver, biz də arzumuza ulaşaq" duasıyla yuxuya gedirlər. Padişah belə dua edir:

Dərgahına yüzüm sürdüm, Yaradan,
Sən bənim dərdimə dəlalət eylə!
Sənsən əvvəl bəni yoqtan yaradan,
Pozulan şəhərimi imar eylə!

Vəzir röyasında ona bir oğul, padişaha isə qız verildiyini görür. O, yuxusunu padişaha danışır. Belə olan halda, onlar bir-birilə əhdi-peyman bağlayırlar ki, yuxu çin olarsa, övladlarını bir-biri ilə evləndirsinlər.

Vaxt keçir, Babaxanın qızı, vəzir Bahırın isə oğlu olur. Qızın adını Zöhrə, oğlanın adını Tahir qoyurlar. İş elə gətirir ki, padişah ölür. Belə olan halda, vəzir onunla bağladığı əhdi-peymanı pozur. Bunlar bir-birini dəlicəsinə sevən gənclərin sonrakı taleyinə çox mənfi təsir edir (3, 7-8).

Dastanın ən maraqlı epizodlarından biri padişahın qızına ad qoyulması səhnəsidir. Bu səhnədə sarayın irəi gələnlərinin toplanması və hər birinin fərqli adlar söyləməsi təsvir olunur. Padişah onların heç birini bəyənmir. Uşağa ad vermək üçün xalqın dəyər verdiyi bir ağsaqalla ehtiyac yaranır. Türkmən variantının bu yerində Molla Nəfəs özünü dastana xoca qismində daxil edir: "O vaxtlar bir adam vardı, adına cahan şəhəri Mərvin şahı Mollanepes deyərdilər, onun xanımına Bossantaç deyərdilər. Onların ikisi də Allahın rəhmət nəzərinin düşdüyü adamlardı. Padişah: "o adamlar ad verməzlərsə, başqalarının vereceyi ada razı deyiləm" – deyə əmr etdi. Kızın adını Zöhrə qoydular" (3, 10-11). Vəzirin oğlu oldu, ona da Tahir ismini verdilər.

Türkmən variantında da, digər variantlarda olduğu kimi, Zöhrə ilə Tahir eyni məktəbə gedirlər. Orada onların müəllimləri qismində də yenə Molla Nəfəs (Mollanepes) özü çıxış edir. Bu dönəmdə Zöhrə ilə Tahir arasında yaxınlaşma və dostlaşma baş verir. Onlar bir-birilərinə aşiq olurlar. Bir-birilərini bircə gün görmədən yaşaya bilmirlər. Tahir Zöhrəni gördüyündə sevincini belə dilə gətirir:

Hüsnü min tümən bahalı
Dilbərim dildarım gəldi.
Sormağa gəlmiş bu hali,
Hüznümü dəf, gəmxorum gəldi (4, 433).

Günlər keçir, Tahirin atası vəfat edir, Tahir yetim qalır. Onun Zöhrə ilə məhəbbəti bütün cahana yayılır, dillərə dastan olur.

Bir gün Zöhrə ilə Tahir məktəbdən gülə-gülə, söhbət edə-edə gələrkən qumaş toxuyan yaşlı bir qadının evinin önündən geçirlər. Bu qadın onların qarşısını kəsib deyir:"Ey Zöhrəcan, ey Tahircan. Quzucuqlarım. Mən burada qumaş toxuyuram. Siz mənim toxumama mane olursunuz. Buradan keçməyin, başqa yerdən keçin. Mən kimsəsiz bir qadınım. Əqrabam yoxdur. Mənim kimi bir qəribin duasını qazanın, özünüzə başqa yol tapın!".

Yaşlı qadının sözlərinə qulaq asmayan Tahir əlindəki altun aşığını atır və toxuma dəzgahına zərər vurur. Yaşlı qadın əsəbiləşir və aşiqlərə belə səslənir:

Aranızda bir söz vardır,
Şah, vəzirə aşikardır.
Tüm əhali xəbərdardır,
Əyan ərməz güman ilə (3, 20-21).

Yaşlı qadının sözləri Tahirin qəlbinə xənçər kimi saplanır. Tahir bu sözlərin doğru olduğunu anasından da öyrənir. Anası Tahirə Zöhrə ilə bir araya gəlməməsi barədə nəsihət edir və diqqətli olmasını tapşırır. Tahir anasına ürəyini açır:

Bən bu gün düşmüşəm eşqin yoluna
Ana, bəndə ne iradə var şimdi?
Zöhrə canın ağ yüzünə, bəninə,
Könlüm həvəs, gözüm intizar şimdi (3, 23-24).

V.M.Jirmunski və T.Zarifovun fikrincə, Molla Nəfəsin toplayaraq yeni nəfəs verdiyi dastanın süjeti "Kosi Körpeş və Bayan Sılü" adlı tatar dastanından alınmışdır, hətta onun bir variantıdır (5, 104).

Məlumat üçün bildirək ki, Türk dastançılığının ən maraqlı nümunələrindən biri hesab edilən "Kozı Körpeş və Bayan Sılu" dastanının tatar, Altay, başqırd, qazax variantları mövcuddur. Onun ən əski versiyası Altay variantı qəbul edilir. V. V. Radlov əsəri XII-XIII əsrlərə aid edir.

"Kozı Körpeş və Bayan Sılu" üçün də digər Türk dastanları üçün xarakterik olan sonsuzluq, hamilə maral (qurd), beşik kərtməsi, ad qoyma, qəhrəmanın silahlarını alması, yaxşı və pis heyvanlar, formul sayları, cilddəyişmə, müxtəlif mükafatlar və cəzalar, köməkçi insanlar, hiylə, at, silah və geyim almaq, müxtəlif heyvanlarla söyləşmək, sehrbaz, yuxu, ölüb-dirilmə və s. kimi motivlər xarakteridir ki, bu hal onu Molla Nəfəsin anlatdığı "Zöhrə-Tahir" ilə yaxınlaşdırır. Məsələn, "Zöhrə-Tahir" dastanının türkmən variantının əvvəli "Kozı Körpeş və Bayan Sılu" dastanının qazax variantının başlanğıcını xatırladır. Hər iki dastanda birisi padişah, birisi vəzir olan, övlad üzünə həsrət qalan iki yaşlaşmış atadan, onlar arasında bağlanan əhdi-peymandan söz açılır. Bu əhdi-peymana görə, onların hamilə xanımlarından biri oğlan, digəri qız doğarsa, onların bir-biri ilə evləndirilməsi nəzərdə tutulur. Vaxt keçir, hər iki qadın yükünü yerə qoyur. Birinin oğlu, digərinin qızı olur. Dünyaya geldikdən sonra oğlanın, yəni Tahirin atası ölür, qızın atası isə əhdini pozur. O, Tahirə düşmənlik edib oğlanın ölməsinə, Zöhrənin də yas tutmasına səbəb olur.

Bənzərlik bununla da birmir. "Zöhrə-Tahir" dastanında da iki gəncin təkrar dirilməsindən və bundan sonra uzun sürən xoşbəxt həyatlarından söz açılır. İki gənci dirildən isə İsa və Xızır peygəmbərlər olurlar. "Kozı Körpeş" dastanında isə İsanın adı keçmir, dirildən rolunda yalnız Xızır çıxış edir.

"Zöhrə-Tahir" dastanının Molla Nəfəs variantının sonunda da "Kozı Körpeş və Bayan Sılu" dastanının sonunda baş verən hadisə təkrarlanır. Burada da Tahir ilə

Zöhrəni bir-birindən ayıran Karabay bahadır iki sevgilinin arasında basdırılır. Sevgililərin məzarlarından çiçəklər tumurcuk attığında Karabayın məzarından tikan yetişir və çiçəklərin birləşməsinə mane olur (6, 99).

"Kozı Körpeş və Bayan Sılu" adlı tatar dastanının "Zöhrə-Tahir" in prototipi olduğu fikri bizə inandırıcı görünür. Belə ki, "Zöhrə-Tahir" dastanının ən başında hadisələrin "Tatar bölgəsi"ndə baş verdiyinə işarə edilməkdədir (3, 7).

"Zöhrə-Tahir" dastanının Anadolu və qumuq variantlarının bənzər və fərqli epizodlara sahib olduğunu söyləyən və türkmən variantını Stith Thompsonun "Motif-İndex of Folk Literature" adlı əsərində yer alan epizodlar sırasına görə qumuq variantı ilə tutuşduran Ahmet Gökçegözoğlu Zöhrənin atasının, türkmən variantına görə,Tatar bölgəsinin padişahı Babaxanın qızı olduğunu xüsusi diqqətə çatdırmaqdadır (4, 427-449).

Maraqlıdır ki, "Tahir və Zöhrə" dastanının astral əsər olduğunu sübuta yetirməyə çalışan M. Təhmasib dastanın digər versiyaları, özbək, türkmən, tatar və digər variantları ilə müqayisəli təhlillər aparmış, fərqli cəhətlər müəyyənləşdirmiş, özbək variantının XVI əsrdə yaşamış Səyyadi adlı bir şair tərəfindən yazılmış məsnəvi olduğu qənaətinə gəlmiş, bu variantda astral əlamətlərin çox zəif və sönük, tatar variantında isə daha qədim və astral köklərlə zəngin olduğunu söyləmişdir (7, 3).

Əgər M.Təhmasibin gəldiyi nəticə doğrudursa, "Tahir və Zöhrə" dastanının ilk öncə tatarlar içərisində ortaya çıxdığını və öz qaynağını "Kozı Körpeş və Bayan Sılu" dastanından aldığını ehtimal etmək olar.

Belə düşünmək üçün əldə başqa bir önəmli fakt da mövcuddur. Söhbət dastanın müxtəlif variantlarında keçən "Şat Suyu" (Şat çayı) adlı hidronimdən gedir. F.Türkmən mövzu ilə bağlı yazır: "Türküstan, Tobol və Tarançı variantları dışında qalan bütün variantlarda olaylar Güneydoğu Anadolu-Van-Azərbaycan bölgəsində baş verir. Türküstan variantında da Tahir, Şat Suyuna atılınca Ruma çıxır. Beləcə, o da sonunda Anadolu ile bağlanılır. Azərbaycan variantındakı Qaraman şəhəri, türkmən variantındaki Tatar ölkəsi ifadələri də hekayənin gəlişimi içində çox da bir önəm daşımır. Zira hər ikisində də Tahir, Şat Suyuna atılır" (8, 174).

Əvvəla qeyd edək, nə Azərbaycanda, nə də Anadoluda çaya "su" deyilmir. Anadoluda bu anlamda "irmaq" (kiçik çay) və "nəhr" (böyük çay), Azərbaycanda isə sadəcə "çay" kəlmələri istifadə edilir. Əvəzində isə Çingiz xanın soyunda gələn tatar xanlarının dövrümüzədək türkcə yetişmiş XV-XVII əsrlərə aid məktublarında Don çayı "Tan Suyu", Dnepr çayı isə (Özi Suyu) adlandırılır (9, 45). Konkret olaraq "Şan Suyu" (Şan çayı) adlı çayına gəlincə isə nə Qafqaz, nə də Anadolu ərazisində bu adda çay yoxdur. Həmin adda hazırda iki çay var. Bunlardan biri Rusiyanın Tula vilayətində axan Ula çayının qollarından birinin adıdır. Başqa bir eyni adlı çay isə Baykal gölünə tökülür, Buryatiyanın öz adını tofa türklərindən (tofalar) alan Tofalariya bölgəsindən keçir.

Qeyd edək ki, tofalara, yəni tofa türklərinə elmi ədəbiyyatda çox vaxt Tobol tatarları (Sibir tatarları, karaqaslar) da deyilməkdədir. "Tahir və Zöhrə" dastanının

elmi tədqiqata cəlb edilmiş ilk nümunəsi məhz Tobol tatarlarından toplanmışdır. K. Türkan yazır ki, "Hekayədən ilk dəfə XIX əsrdə Vambery bəhs edib. Mətn nəşrini isə ilk dəfə Radlov, Probenin IV cildi içində və Tobol mətnləri arasında yapmıştır. Bunu hekayənin XIX əsrdə türkmənlər, özbəklər, qazaxlar arasındakı variantları təkib edib". K.Türkan haqlı olaraq qeyd edir ki, "Hekayə XVI əsrdə xalq arasında dağınıq rəvayətlər şəklinde bulunarkən, Səyyadî bu rəvayətləri bir araya toplayaraq "Tahir ilə Zöhrə"ni vücuda gətirmişdir" (10, 147).

Biz də bu fikirdəyik və hesab edirik ki, dastanın formalaşmasının ikinci mərhələsi, yəni dastan forması alması məhz özbəklər içərisində, XVI əsrdə baş vermişdir. Belə düşünməyimizə səbəb dastanda Babaxan (Baba xan) adlı hökmdardan söhbət açılmasıdır.

Qeyd edək ki, tarixi qaynaqlarda adı bəzən Baba sultan kimi də çəkilən Baba xan (1530-1582) Çingizoğullarının bir qolu olan Şeybanilər sülaləsindən olub. Onun 1556-1582-ci illərdə Türküstanın hökmdarı olduğu bilinməkdədir (11, 354-355). Burada ortaya haqlı bir sual çıxa bilər: Axı, Baba xan Tatar ölkəsinin deyil, Türküstanın hökmdarı olub? Məsələ burasındadır ki, fars mənbələrində "Turan", və "Türküstan" kimi adı çəkilməkdə olan böyük ölkə Avropa və Rusiyada dərc edilmiş XV-XVIII əsrlərə aid bütün xəritələrdə Çingiz xanın soyu tərəfindən idarə edilən Böyük Tatarıstandan (Velikaya Tatariya, Grand Tartariya) müstəqil olan bir dövlət kimi "Azad Tatarıstan" (Tatariya Volnaya) adı altında göstərilməkdədir (12).

Qeyd edək ki, Baba xanın adı dastana onun formalaşmasının ikinci mərhələsində - Türküstanda və XVI əsrdə daxil edilib. Dastanın əvvəlki formalaşma mərhələsini əks etdirdiyini hesab etdiyimiz Tobol (tatar) variantında isə Zöhrənin atasının adı Kül xandır. Fikrimizcə, bu halda sözhbət Çingiz xanın oğlanlarında biri olmuş Kül xandan gedir (13, 71).

Bu variantın məzmunu türkmən və özbək variantlarından çox da fərqlənmir. Tobol (tatar) variantında Tahirin Zöhrəyə qovuşmasının önündəki əsas əngələ Kül xan, yəni Zöhrənin atası çıxış edir. O, qızını atası öldükdən sonra yetim qalan Tahirə vermək istəmir. Lakin Tahir uzun müddət apardığı mübarizədən qalib çıxır.

Dastanın özbək variantının formalaşması Səyyadi adlı bir ozanın adı ilə bağlıdır. Tarixən bu ad altında yazıb yaratmış iki ozan olduğu məlumdur. Onlardan birincisi XIV-XV əsrlər arasında yaşayıb yaratdığı bilinən, fəqət həyatı haqqında heç bir məlumat olmayan, Qılıc Oğlu Səyyadi və ya Qılıc ibn Səyyadi adı ilə məşhur olan ozandır. Elm aləmində daha çox "Babaxan dastanı" adı ilə tanınan dastanın, bir versiyaya görə, onun düzüb qoşduğu söylənilir. Bu fikri dəstəkləyən tədqiqatçılar sözügedən dastanı bu səbəbdən özbəklərə deyil, tatarlara aid edirlər. İkinci versiyanı, yəni dastanın özbəklərə aid olduğu versiyasını dəstəkləyən digər tədqiqatçılar, o cümlədən özbək alimi T. Nişanbayeva dastanın müəllifinin XVII-XVIII əsrlərdə yaşamış olan Mühəmməd Səyyadi olduğunu iddia etməkdədirlər (14, 17).

Biz ikinci versiyanı qismən də olsa, doğru hesab edirik. Çünki dastanda adı keçən Baba xan (Babaxan) XVI əsrdə, Türküstanda yaşamış və hökm sürmüşdür.

XIV-XV əsrlərdə yaşayıb-yaradan Qılıc oğlu Səyyadi, özündən sonra dünyaya gələcək bu hökmdarı tanıya və dastana daxil edə bilməzdi. Odur ki, bu halda söhbət Mühəmməd Səyyadidən gedə bilər və getməlidir. Üstəlik də hesab edirik ki, dastanın yaradıcısı olduğu söylənilən Qılıc oğlu Səyyadi ilə Mühəmməd Səyyadi əslində eyni addır. Məsələ burasındadır ki, dastanın mətnində hər iki adla rastlaşmaqdayıq. Belə ki, dastanın kitab variantının çeşidli yerlərində müəllif özünü Səyyad, Səyyadi, Səyyad oğlu Qılıc, Qul Səyyad oğlu Xarabi kimi tanıdır. Dastanın Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda 9194 nömrə altında qorunmaqda olan əlyazmasının sonunda müəllif özünü Səyyad Mühəmməd adlandırır: "Molla Səyyad Mühəmmədgüftagi kitob həmun əst" (Həmin kitabı Mola Səyyad Mühəmməd hazırladı) (14, 3-4).

T. Nişanbayeva dastanın mətnindən çıxış edərək, Səyyad Mühəmmədin bugünkü Əfqanıstanın Bəlx vilayətinin Xeyrabad şəhərində yaşadığını, dastanı da orada 4 ilə qələmə aldığını ehtimal etməkdədir (14, 4).

Elmi ədəbiyyatda Səyyadinin türkmən boylarından biri olan səyat // sayat boyuna aid ola biləcəyini ehtimal edənlər də var. F. Z. Yaxinin fikrincə, Səyyadi Urgenc şəhəri yaxınlığındakı Sayat şəhərindən olub (15, 4). S. Hüseyn və X. Zərifova dastanın dil xüsusiyyətlərini təhlil edərək, onu XVI əsrə aid etməkdədir (14, 4). X. Xismetullin XIV-XV əsrlərdən söhbət açır (16, 250).

Hazırda sözügedən variantın aşağıdakı nüsxələri məlumdur:

1. Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq institutunun Sankt-Peterburq şöbəsi (B 3833, C148, B3245)
2. Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu (№№ 6357, 6359, 9194, 10236).
3. Özbəkistan Elmlər Akademiyasının A. S. Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyat Muzeyi (№ 95).
4. M. E. Saltıkov-Şedrin adına Cankt-Peterburq Kütləvi Kitabxanası (№ 439).
5. Türkmənistan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu
6. Tatarıstan Respublikası Elmlər Akademiyasının Q. İbrahimov adına dil, ədəbiyyat və incəsənət İnstitutu (кол. 39, ед. хр. 2016, 4896)

Fikrimizcə, dastanın Türküstanda ortaya çıxması faktı onu özbək xalq ədəbiyyatından qoparmağa imkan vermədiyi kimi, sadəcə və yalnız özbəklərə aid etməyə də qismən imkan verir.

ƏDƏBİYYAT

1. Araznepes Mammetjumayew. Zühre ile Tahir süjesine göre türkmen edebiyatindaki masallar, rivayetler, halk dastanları // "Ortaq Türk keçmişindən ortaq Türk gələcəyinə" V Uluslararası Konfransı. Bakı, 17-19 oktyabr, 2007, s. 62-66.

2. "Zöhre-Tahyr" Dessany. TSSR Ylymlar akademiýasynyň neşirýaty. Aşgabat, 1963.

3. Aşırow A. Mollanepes, Zühre-Tahir. Asgabat: (TDNG) Türkmen Devlet Neşir Yayınları Gulluğu. 2010.

4. Ahmet Gökçegözoğlu. Zühre-Tahir Hikayesinin Türkmün ve Kumuk Varyantlarının Epizotlarına Göre İncelenmesi // A. Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi [TAED] 54, Erzurum 2015, s. 427-449.

5. Жирмунский В. М., Зарифов Х. Т. Узбекский народный героический эпос. М.: Наука, 1947. 520 с.

6. Muhtar Awezov. Eskiligin Gölgesinde (Aktaranlar: Zeyneş İsmail, Ahmet Güngör) // Bilig. Sayı: 5 Bahar 1997.

7. Görkəmli folklorşünas – alim astral dastanlar haqqında // "Şərq qapısı" qəzeti. Sayı: 186 (21 847), 3 oktyabr 2013.

8. Türkmen F. Tahir ile Zühre inceleme metin. Ankara: Atatürk Kültür Başkanlığı Yayınları, 1998.

9. Документы Крымского Ханства из собрания Хусейна Фейзханова / Составитель, транслитерация: Р. Р. Абдужемилев. Симферополь, 2017. 872 s.

10. Kadriyye Türkan. Tahir ile Zühre Hikayesinin Çeşitli varyantlarında Gölge Arketipi // Türkbilig, 2018/36: 137-146.

11. Материалы по истории казахских ханств XV-XVIII веков. (Извлечения из персидских и тюркских сочинений). / Ибрагимов С. К.. — Алма-Ата: Наука, 1969.

12. Tuncay B. Tatarların gizlədilmiş tarixi və ya Turanın gerçək xəritələri // bextiyartuncay, 4 mart 2016 (https://bextiyartuncay.wordpress.com /201603/04/ tatarlarin-gizl%C9%99dilmis-tarixi-v%C9%99-ya-turanin-gerc%C9%99k-x%C9%99 rit%C9%99l%C9%99ri/).

13. Рашид ад-Дин. Сборник летописей / Пер. с персидского Л. А. Хетагурова, редакция и примечания проф. А. А. Семенова. М., Л.: Издательство Академии Наук СССР, 1952. Т. 1, кн. 2.

14. Нишанбаева Т. Поэма Сайяди «Тахир и Зухра» (научно-критический текст): Автореф. дис. ... канд. филол. наук / Т. Нишанбаева; Ин-т востоковед. АН УзССР им. Абу Райхана Бируни. – Ташкент: Фан, 1965 b.

15. Sayadi. Tahir – Zəhrə (Babaxan dastanı). Kazan: Rannur, 1998. 192 s.

16. Xismetullin X. Dastan Babaxan / X. Xismetullin // Borınqı tatar ədəbiyatı. Kazan: Tatar. kit. Nəşr., 1963.

17. Куль-Мухамедов А. Материалы по среднеазиатским литературным памятникам (Краткая опись рукописей, приобретенных автором летом 1928 г. в поездке к амударьинским туркменам по поручению Ленинградского Восточного института и Центрального статического управления Туркменской ССР (67 отдельных рукописей и отрывков, двух документов и одного ярлыка) / А. Куль-Мухамедов. – Ашхабад: Туркм. гос. изд-во, 1931. s. 33.

Mammadova Nurlana Ramazan gizi

CENTRAL ASIAN VARIANTS OF THE EPOS "TAHIR AND ZOHRA"

SUMMARY

Among the Central Asian variants of the epic "Tahir and Zohra" the Turkmen variant has also its special place and role. It is necessary to note that Turkmenistan is one of the central and important cities of the Turkic world and from a historical and geographical point of view, due to its location on the ancient caravan routes connecting East and West, Anatolia and Caucasus and East Turkestan. The majority of the population is Turkmen with Oghuz origin. They are consisting of some tribes such as Teke, Yamud, Goklan, Chavdur, Sarıg, Salur and Arsari. Turkman people having a rich folklore treasure created for centuries as the saga, song, sayings and other folk literature samples, such as "wedding-spectacle" wedding, banquet ceremonies or folk meetings by way of oral tradition passed from generation to generation has reached the present day. Among these samples eposes have a much different place and importance.

The epos Dede Gorgud reflecting the life styles of Oghuz people along with archaic epics mentioned in historical sources such as Khanname, Oghuzname about the origin of Turks, as well as Oghuz-Turkmen, is of great historical and cultural importance for the Turkmen.

The most common of the epics, which have been living among the people until today, are the followings such as "Gorogli", "Yusuf Bey-Ahmed Bey", "Huyrlukla Hemra", "Shasanam-Garip", "Zohra-Tahir", etc. The article is devoted to the investigation of the Central Asian variants of the epic "Tahir and Zohra".

Keywords: love epos, "Tahir and Zohra", Central Asia, variant, version, text

Мамедова Нурлана Рамазан кызы

СРЕДНЕАЗИАТСКИЕ ВАРИАНТЫ ДАСТАНА «ТАХИР И ЗОХРА»

РЕЗЮМЕ

Среди среднеазиатских версий дастана «Тахир и Зохра» туркменская версия занимает особое место и роль. Прежде чем говорить об этом, следует отметить, что Туркменистан является одним из центральных и важных регионов тюркского мира, как исторически, так и географически, а также культурно, благодаря своему расположению на древних караванных путях, соединяющих Восток и Запад, Анатолию и Кавказ и Туркестан, включая Восточный Туркестан. Подавляющее большинство населения - туркмены огузского происхождения: козы, ямуд, гоклен, чавдур, сариг, салур и эрсари.

Дастаны, песни, притчи и т.д., созданные туркменским народом на протяжении веков, хранят богатую фольклорную сокровищницу. Образцы народной литературы, передаются из поколения в поколение через устные традиции на свадьбах, обрядах или общественных собраниях. Среди этих примеров дастаны имеют совершенно другое место и значение. Книга моего Деда Коркута, упоминаемый в исторических источниках и непосредственно отражающий образ жизни огузов, наряду с архаическими эпосами, такими как Ханнаме и Огузнаме, имеет большое историческое и культурное значение для туркмен.

Самые распространенные из эпосов, которые до сих пор живут и рассказываются в народе, - это «Ашыг Гариб», «Асли-Карам», «Аббас-Гулгаз», «Тахир-Зохра» и другие дастаны. Статья посвящена изучению среднеазиатских версий дастана «Тахир и Венера».

Ключевые слова: любовные дастаны, «Тахир и Зохра», Средняя Азия, вариант, версия, текст

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin Abbasov tərəfindən çapa tövsiyə olunmuşdur.

DİLŞAD QULİYEVA
Təbiət Elmləri üzrə İngilis Dili kafedrası
Bakı Dövlət Universiteti
Ismayılov_elmar@bk.ru
MİRVARİ QƏHRƏMANOVA
Təbiət Elmləri üzrə İngilis Dili kafedrası
Mirvari.qahramanova@mail.ru

BEYİN HƏMLƏSİNİN TƏDRİS PROSESİNDƏ ROLU

Xülasə

Tədris prosesində müəllim tələbələrə və ya şagirdlərə bilik verərkən onları daim vacib olan tərəfə, əsas məsələyə yönəldir. Biliklərlə təmin edilən öyrənci onu maraqlandıran, gələcək təhsil həyatı üçün ona gərəkli olan bacarıqları əldə etməklə vərdişlərə yiyələnir. Tələbə bilik, bacarıq və vərdişlərə dərs prosesində interaktiv metodların tətbiqi ilə daha səmərəli şəkildə sahib ola bilir. İnteraktiv metodların zənginliyi biliklərin öyrədilməsi prosesində öz praktik əhəmiyyətini bir daha sübut edir. İnteraktiv təlimdə başlıca məqsəd şagirdi təlimin subyekti etmək, onu oxumağa qabil insan kimi tərbiyə etməkdir. "İnteraktiv metodların tətbiqi zamanı tələbələr fəal olur və ən əsas əməkdaşlıq edirlər. Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən – beyin həmləsi daha çox şagirdin müstəqilliyini üzə şəxardır və onlara sərbəst fikir demeyə dəstək olur. Digər tərəfdən, bu proses zamanı şagirdlər özləri arasında da daha sərbəst və fəal ola bilir. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən öyrənənlər və öyrədən olaraq təşkilatçı, məsləhətçi, fasiliator funksiyasını yerinə yetirir: şagirdin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir və s. Amma təlim tapşırıqları üzərində tələbələr özləri öz aralarında fikir mebadiləsi edərək, öz ideyalarını təqdim edirlər. Deməli, Beyin həmləsi prosesində meydana çıxan şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim – şagird birliyi inkişaf edir.

Beyin Həmləsi üsulu (Əqli Hücüm)- 1953-cü ildə Amerika psixoloqu A. Osborn tərəfindən ideyaların yaradılması və məsələlərin həlli vasitəsi kimi təklif edilmişdir. Brainstorming - Beyin həmləsi, tələbələri bir mövzuya diqqət ayırmağa və fikirlərin sərbəst axınına töhfə verməyə təşviq edən böyük və ya kiçik bir qrup fəaliyyətidir. Müəllim sual və ya problem verməklə və ya bir mövzu təqdim etməklə beyin fırtınası sessiyasına başlaya bilər. Tələbələr daha sonra mümkün cavabları, müvafiq sözləri və fikirləri ifadə edirlər.

Beyin həmləsi (Əqli hücum) metodundan bütün siniflə və dərsin demək olar ki, bütün mərhələlərində reallaşdırıla bilər. Ancaq bu metoddən müəllimlər ən çox dərsin motivasiya mərhələsində istifadə edirlər. Beyin həmləsi şagirdlərin yeni bilikləri üzə çıxarmağa, müzakirə olunan məsələyə maraq oyadır. Bu metodun tətbiqi şagirdləri fəallaşdırır, verilən suala tez və düzgün cavab tapmağa, müxtəlif ideyalar

irəli sürməyə həvəs yaradır. Əqli hücum zamanı yeni mövzu ilə əlaqədar hər hansı bir fikrin, ifadənin tamamlanması üçün mümkün variantları müəyyənləşdirmək tapşırığı vermək də məqsədəuyğundar. Müəllim mümkün qədər çox şagirdin fikir söyləməsinə nail olmalıdır. Söylənilən bütün mülahizələr heç bir şərh verilmədən, tənqidi münasibət bildirilmədən lövhədə qeyd olunur. Sonra təhlil, müzakirə mərhələsi gəlir. Müxtəlif ideyalar qiymətləndirilir, lehinə və əleyhinə fikirlər söylənilir. Şagirdlər müzakirə olunan problemin həlli üçün faydalı hesab etdikləri ideyaları seçirlər.

Beləliklə, beyin həmləsi sinerji istifadəsini əhatə edir - kollektiv düşüncəmizi müxtəlif potensial həll yollarından istifadə etməyə şərait yaradır. Bununla birlikdə, sərhədsiz bir sərbəstliyə sahib olmaq imkanı verir.

Açar sözlər: beyin həmləsi, tədris prosesi, əməkdaşlıq, interaktiv metod, müzakirə

Beyin həmləsi, əsasən öyrəncilərin fəal iştirakının gözlənildiyi hər vəziyyətdə istifadə edilə bilən qərar qəbul etmə üsuludur. Bu metoddan təhsil kontekstində istifadə olunur. Beyin həmləsi prosesi ilk növbədə qrupun fiziki və intellektual varlığına əsaslanır, buna görə iştirakçı kəmiyyəti əsasdır. Bu, bir çox fikirlər, təxminlər arasından ən yaxşısını seçməyə gətirib çıxarır, lakin fasilitatorun təcrübəsi ilə bacarıqlı şəkildə təqib olunur. Beyin həmləsi, öyrəncilərin qərar qəbulu problemini nə dərəcədə başa düşdüyünü də təsdiqləyir. Bəzən insanlar həqiqi problemin məğzinə dərinə getmədən qərar verməyə can atırlar, meyl edirlər. Belə qərar təsirsiz və bəzən zərərli olduğu üçün uzun bəzi problemlər yaradır. 'Beyin həmləsi" prosesi zamanı bütün qrup çalışdıqları mövzu üzrə bir-birlərindən məlumat əldə edə biləcəklər. Bütün öyrəncilərin təcrübəsi çoxlarının qarşısında ortaya çıxaraq kifayət qədər alternativ fikirlər yaratmağı təmin edir və hər bir alternativin problemlə müəyyən bir əlaqəsi ola bilər, lakin mövcud vəziyyəti və cari mövzunu nəzərə alaraq bəzi mövzudan kenar-şərhlərin, fikirlərin olması ehtimalı olur.

Beyin həmləsi texnologiya kimi 1953-cü ildə amerikalı alim, psixoloq və iş adamı A.Osborn tərəfindən hazırlanmışdır. Qrup formasında diskussiyanın bu növü yeni orijinal ideyaların yaranması üçün kifayət qədər səmərəli oldu.

Osborna qədər buna oxşar strategiya gəmi heyəti tərəfindən istifadə olunurdu. Çətin və təhlükəli vəziyyətlərdə gəmi heyəti toplanır və gənc dənizçilərdən başlayaraq kapitana növbə çatana qədər hər kəs öz fikrini bildirirdi. Sonda təklif olunan bütün fikirlər müzakirə olunur, reallığa daha uyğun olanlar seçilirdi. Beyin həmləsinin mahiyyəti stereotiplərin dağıdılması, tamamilə yeni ideya və yanaşmaların yaradılmasıdır. [6, s 59]

Beyin həmləsinin müxtəlif növləri mövcuddur: klassik; "kölgə"; "əks"; fərdi; "servis"; lövhədə beyin həmləsi; vizual; solo; "breynraytinq".

- Klassik beyin həmləsinin bir variantı üzrə sinif iki qrupa bölünür. Bir qrup ideyalar irəli sürür – ideyalar bankı yaradırlar. İkincilər onların analizi ilə məşğul olur. Qruplar əməkdaşlıq çərçivəsində növbələşərək işləyir.

Klassik beyin həmləsinin ikinci variantı isə budur ki, bütün şagirdlər prosesdə eyni zamanda iştirak edir - əvvəlcə ideyaların generatoru kimi, sonra isə tənqidçi rolunda.

- "Kölgə" beyin həmləsi

Bu beyin həmləsi zamanı iştirakçılar 2 qrupa bölünür: "aktiv" və "kölgə". Akitv qrup üzvləri müzakirə zamanı yeni fikir və ideyalar irəli sürürlər, kölgə qrupun üzvləri isə bu zaman onları müşahidə edir və öz fikirlərini formalaşdırırlar. Sonda ekspertlərə təqdim olunmuş fikirlərdən ən orijinal olanı seçilir.

- "Əks" beyin həmləsi

Şagirdlərə natamam iş nümunəsi təqdim olunur. Müzakirənin iştirakçıları üçün tapşırıq: çatışmazlıqları tapmaq; yeni plan hazırlamaq. Məsələn, şagirdlərə natamam hazırlanmış quş yuvası təqdim olunur. Onlar isə ustanın səhvlərini tapmalı, düzgün quş yuvasının hazırlanma planını qurmalıdırlar.

- Fərdi beyin həmləsi

Bu beyin həmləsi də iki mərhələdə keçirilir. Birinci mərhələdə şagirdlər fərdi olaraq öz problemlərini qeyd edirlər. İkinci mərhələdə isə bu problemlər kollektiv şəkildə müzakirə olunur.

- "Servis" beyin həmləsi

Bu beyin həmləsi növü özünətənqidi yanaşmalarına görə ideyalarını reallaşdıra bilməyən insanlara aid olunur. Burada da iştirakçılar iki qrupa bölünür. Birinci qrup öz fikirlərini yazır, ikinci qrupa (tənqidçilərə) təqdim edir, onlar fikirləri müzakirə etdikdən sonra yenidən fikirləri birinci qrupa qaytarır. Belə fikir mübadiləsi daha yaxşı ideyaların yaranmasına imkan verir.

- Lövhədə beyin həmləsi

Bu beyin həmləsi zamanı müəllim sual verir. Şagirdlər bu sualla bağlı plan və fikirlərini bildirirlər, müəllim isə beyin həmləsinin nəticələrini lövhədə qeyd edir.

- Viziual beyin həmləsi

Bu beyin həmləsinin mahiyyəti yaranmış yeni ideyaların eskizləşdirilməsidir. İştirakçılar iki qrupa bölünür. Birinci mərhələdə qoyulmuş problemin həlli yolları ilə bağlı illüstrasiyalar hazırlanır. İkinci mərhələdə hər qrupdan bir nəfər lövhəyə çıxaraq hazırladıqları eksizlərlə problemin çıxış yollarını təqdim edir. Sonda hər iki qrupun ən yaxşı eskizlərindən ibarət kollaj hazırlanır.

- Solo beyin həmləsi

Bu növ beyin həmləsini adətən fərdi şəkildə aparırlar. Müəllim ümumi bir sual verir, şagirdlər isə mövzu ilə bağlı materialları dərslikdən toplayaraq dəftərdə və ya xüsusi kartlarda qeyd edirlər. Sonda isə cavablarla bağlı müzakirələr aparılır.

- "Breynraytinq" beyin həmləsi

Bu beyin həmləsinin klassik beyin həmləsindən fərqi ondadır ki, burada bütün iştirakçılar öz ideyalarını bir vərəqdə yazır, digərinə ötürür. O isə oxuduqdan sonra

fikrin davamını yazır. Bu prosses 15 dəqiqədən çox davam etməməlidir. Müzakirə və tənqidlər isə sonuncu yazıdan sonra başlayır.

Beyin həmləsi texnologiyasının tətbiqi şagirdin müstəqilliyini, düşünmə qabiliyyətini və öyrənmə motivasiyasını yüksəldir. [11]

Tədris kontekstində beyin həmləsi müəllimin istifadə etdiyi bir strategiya və ya tədris vasitəsidir ki, burada maksimum və ya bütün şagirdlər cavab verərək ya da bir mövzu ilə bağlı fikirlərini bildirərək iştirak edirlər. Bu texnika tələbələr arasında heç vaxt normal şəraitdə baş verməyəcək yeni fikirləri təşviq edir

Beyin həmləsi texnikasının bəzi üstünlükləri aşağıda göstərilmişdir:

1. Qruplar məlumatların və biliklərin daha əhatəli və etibarlı olmasına meylli olduğu üçün daha çox alternativ cavablar verməyə və ya tapmağa çalışırlar.
2. Qrupun qərarları demokratik mahiyyət daşıyır. Demokratik cavablar daha asan qəbul edilir və bərabər akademik imkanları təmin edən demokratik prinsiplərə daha uyğun olur.
3. Beyin həmləsinə əsaslanan qərarın icrasında bütün qrup iştirak etdikdə daha təsirli və effektiv olur.
4. Müxtəlif təlimatlı yanaşmanı stimullaşdırır və təmin edir.
5. Yüksək motivasiya.
6. Vəzifə fokusunu artırır.
7. Kortəbii və yaradıcılığı təbliğ edir.
8. Səmərəli prosedurdu.
9. İştirakçıları fikir sahibliyinə cəlb edir.
10. Yaradıcılığı təşviq edir.

Beyin həmləsi üstünlükləri onun tədris prosesində nə qədər vacib olduğunu göstərir. Mövzunun aktuallığı həm ümumi, həm də təhsil kontekstində öyrəncilər tərəfindən fəal hiss edilə bilir.

Bununla birlikdə, beyin həmləsi təhsil baxımından öyrənmə prosesində daha uyğun və mümkün ola bilər, çünki təhsil tamamilə insan münasibətlərinə əməkdaşlığa əsaslanır və beyin həmləsi bu prosesdə olduqca demokratik yanaşmadır [4, s 36]

Beyin həmləsi aşağıdakı yollarla izah edilə bilər:

- Bu, müəyyən bir maraq sahəsi ilə əlaqəli maksimum fikir sayını əldə etmək üçün hazırlanmış bir müddətdir.
- Bir qrup şagirdin yeni fikirlər və həll yolları yaratmaq məqsədi ilə sosial yaşayış yerləri və qaydaları kənara qoyduğu bir texnikadır.
- Yeni fikirlər yaratmaq qabiliyyətini maksimum dərəcədə artıran bir texnikadır.

Beyin həmləsi ya ənənəvi, ya da təkmilləşmiş ola bilər.

- **Ənənəvi beyin həmləsi**

Ənənəvi olaraq Beyin həmləsi üçün şagirdlər bir otaqda toplanır və fikirlərini ağıllarına gəldikcə irəli sürürlər. Onlara qruplarını tərketməli deyillər və irəli sürülən

heç bir fikir mühakimə olunmayacaq. Burada şagird digər insanların səsləndirdiyi fikirlərə hörmətlə yanaşır və qeydə alır.

- **Təkmilləşmiş beyin həmləsi**

Ənənəvi beyin həmləsinin davamıdır və bütün prosesi daha asan və təsirli edir. Təkmilləşmiş beyin həmləsi zamanı yeni proses və yeni üsullardan istifadə edilir, məsələn, yaradıcı düşüncə texnikası. Təkmilləşmiş beynin həmləsi zamanı simulyasiya və fikirlərin qeydə alınması və bunun nəticəsində yeni materiallar toplanması əsasdır.

Təhsildə beyin həmləsi

Təhsil sahəsində beyin həmləsi, tələbəni bir mövzuya diqqət ayırmağa və fikirlərin sərbəst axınına töhfə verməyə təşviq edən böyük və ya kiçik bir fəaliyyət qrupudur.

Müəllim dərsi bir sual, problem verməklə və ya bir mövzu təqdim etməklə başlayır.

Tələbə daha sonra mümkün cavabları, müvafiq sözləri və fikirlərini ifadə edir. Fikirlər tənqid və mühakimə olunmadan qəbul edilir və daha sonra müəllim tərəfindən lövhədə ümumiləşdirilir. Bu fikirlər ümumiyyətlə açıq sinif müzakirə formatında araşdırılır. [3, s 34-39]

Beyin həmləsi və sinif otağı

Beyin həmləsi bir mövzu ətrafında təsadüfi fikirlər toplusu yaratmaqdır. Bu fikirlərin düzəlişi və məcburiyyəti yoxdur. Daha sonra yazı və ya danışma bacarığı kimi başqa bir fəaliyyət üçün də beyin həmləsi əsas metod kimi istifadə edilə bilər. Məsələn, 'Sağlam qidalanma' mövzusundakı cavabları, birləşmələri, ümumiyyətlə bütün sözləri tələbələr bir vərəqə və daha sonra lövhəyə yazaraq beyin həmləsini təşkil edirlər. Bu zaman əgər sinifdə ağıllı lövhə varsa, cavabları asanlıqla qeyd etmək olar. Müəllim sadə səs yazarlardan və ya oxşar cihazlardan istifadə edərək belə cavabları qeyd edə bilər.

Beyin həmləsi şagirdləri daha sərbəst və yenilikçi düşünməyə təşviq edir, buda daha məhdud və gündəlik bir sinif çərçivəsində olan ənənəvi vəziyyətindən fərqlənir. Bu metod, öyrənənlərə bildiklərini xatırlamağa və bir-birlərinə öyrətməyə imkan verir. Eyni zamanda bu fəaliyyət tələbələri bir mövzuya yönəltməyin dinamik və stimullaşdırıcı bir yoludur.

Beyin həmləsi necə bir üsuldur?

Beyin həmləsi problemləri həll etmək üçün rahat, qeyri-rəsmi bir atmosferdən düşüncə ilə birlikdə istifadə olunan bir vasitədir. Yeni ideyaların yaranmasında əhəmiyyətinə baxmayaraq, bir çox tələbə onu istifadə etmək üçün kifayət qədər hazırlığa sahib deyillər. Bu fəaliyyət şagirdlərə təsirli şəkildə beyin həmləsi etməyi öyrədəcəkdir. Beyin həmləsi istənilən tədris prosesində həyata keçirilə bilər. Eyni zamanda bu fəaliyyət zamanı inkişaf etmiş bir yüksək texnoloji sinif otağı xaricində qələm və vərəqlərdən başqa heç bir material tələb olunmur.

Beyin həmləsi zamanı aşağıdakı addımlar ümumiyyətlə izlənir:

- yeni fikirlər yaratmaq,
- şagirdlərə beyin həmləsi fəaliyyəti zamanı fəal olmalarına kömək etmək,
- tələbələrin sayına uyğun olaraq sinfi bəzi qruplara bölməyə kömək edir,
-hər qrupda fəal bir tələbə üçün məsuliyyət verilir və ikinci lider vəzifəsi hiss etdirilir (müəllim 1ci liderdir).

Ümumiyyətlə, öyrənmə strategiyaları ilə əlaqəli çox sayda araşdırma var. Öyrəncilər bu fəaliyyətlər zamanı bir çox tədqiqatçı rolunda çıxış edərək xüsusi diqqət çəkir. Məsələn, aşağıdakı bəzi tədqiqatların qarışdıraq: beyin həmləsi fəaliyyətində iştirak edən şagirdlərlə əlaqəli motivasiya aspektini araşdırmışdır. Bejarano və digərləri şagirdlərin öyrənmə strategiyalarını inkişaf etdirməsində kiçik qruplarda iştirakının qarşılıqlı təsirinin mühüm rol oynadığını kəşf etdilər. [9, s 145-167]

Ancaq çox az araşdırmalarda, yazı kimi məhsuldar bacarıqların tədrisində beyin həmləsi kimi öyrənmə strategiyalarının effektivliyinə baxılmışdır. Richards tələbə qarşılıqlı fəaliyyətinin ideyaların yaradılması ilə əlaqəli idrak bacarıqlarının inkişaf etdirilməsinin vacib bir hissəsi olduğunu və beyin həmləsinin buna nail olmaqda təsirli bir yolu olduğunu göstərdi. Bu araşdırmanın nəticələri göstərir ki, beyin həmləsi texnikaları üzrə təlim keçmiş tələbələr, ideya qrupu tələbələrindən fərqli olaraq fikir yaratmaq və təşkil etməkdə daha öndədirlər. [7, s 11-12]

Brown öyrənmə üçün interaktiv yanaşmanın aktuallığını araşdırdı və bu məsələ ilə bağlı bir çox maraqlı faktları ortaya çıxardı. Rao on iki ay ərzində beyin həmləsi texnikaları üzrə təlim keçmiş və onlardan müntəzəm olaraq istifadə edən şagirdlərin tapşırıqlarını yazarkən qiymətləndirmədə daha yüksək nəticələr verdiyini vurğuladı. Bundan əlavə, effekli bir sorğu göstərdi ki, bu tədqiqat layihəsində iştirak edən şagirdlər beyin həmləsi texnikasının effektivliyinə müsbət yanaşırlar. ‘Brainstorming’ ixtira və yenilik üçün biznesdə uğurla istifadə edilmişdir [10, s 39]. Dil sinifində beyin həmləsi yazı yazmaqda tez-tez istifadə olunur. Sərbəst birləşmə və sözlə uzlaşma kimi fəaliyyətlər çox vaxt yazma və ya “buzları qırma” mərhələsinin bir hissəsi kimi daxil edilir [7, s 112].

Tapşırıq və beyin həmləsinin mərhələləri

Tədris strategiyası kimi beyin həmləsi: Əvvəlcə kiçik bir tələbə qrupu yaranır. Onlardan bir qrupda oturmaları istənilir və müəyyən bir məsələ və ya mövzu ilə təmin olunurlar. Müəllim, qrup lideri olaraq, daha sonra qrup üzvlərindən problem haqqında düşünmələrini və fikirlərini vermələrini istəyin. Problemə tapa biləcəkləri qədər həll yolu tapmaları tövsiyə olunur. Onlara başqalarının fikirlərini tənqid etməmələri tapşırılıb, ancaq başqalarının fikirlərinə diqqət yetirməkdə sərbəstdirlər. Tələbələr qeyri-adi fikirlər irəli sürsələr də tərəddüd etmədən təkliflər irəli sürmələri tövsiyə olunur.

Tələbələrin fikirləri müzakirə bitənə qədər hər hansı bir mühakimə və ya hər hansı bir şərh vermədən səbirlə dinlənilməli və qəbul edilməlidir. Beyin həmləsi bir çox mərhələləri / addımları əhatə edir:

1) Orijinal sual kiçik suallara bölünür. Məsələn, aşağıdakı nümunəyə nəzər salaq:
Mobil texnologiya insan həyatına necə təsir göstərib?
Bu məsələ / sual daha sonra hissələrə bölündü:
a) Mobil hazırkı həyatımızı necə dəyişdirdi?
b) Mobil telefonlarımız olmasa nə olacaq?
c) Nə qədər mobil telefonlar mənfi təsir göstərir?
d) Mobil telefon sizin üçün son dərəcə vacibdirmi?
Sinif qruplara bölünə bilər və hər qrup sualın bir hissəsini təyin edir.
2) Şagirdlərə fərdi olaraq beyin həmləsinə 3-5 dəqiqə icazə verilir və verilmiş suala dair fikirlər irəli sürülür.
3) Şagirdlər daha sonra kiçik qruplarında fikirlərini müzakirə edirlər
2. Sonra hər bir qrup fikirləri / variantları ümumiləşdirmək üçün bir moderator seçir
4) Moderatorlar daha sonra yeni bir qrupa keçirlər və əvvəlki qrupları tərəfindən hazırlanmış fikirlər barədə məlumat verirlər. Daha sonra yeni qrup digər qrupların yaratdığı fikirlərə əsaslanır və özlərinə aid yeni fikirlər əlavə edir. Bu mərhələnin konstruktiv olması və əvvəlki qrupların heç birinin rədd edilməməsi vacibdir. Bu mərhələdə bütün qruplar sualın hər bir hissəsində iştirak etmək və qarşılıqlı əlaqə quraraq nəticə tapana qədər təkrarlanır.
5) Bütün qruplar hər bir sualı müzakirə etdikdən sonra, moderator hər qrupun fikirləri barədə bir qayda olaraq yenidən sinifə hesabat verir.
6) Bu fikirlər daha sonra mütəşəkkil bir şəkildə təqdim olunur və qruplarla paylaşılır.[1, s 57-61]

Tapşırıqları və ‘Beyin həmləsi fəaliyyəti ‘Beyin həmləsinin kiçik qruplarda fikir yaratmaq üçün istifadə olunan bir fəaliyyət olduğu məlum olduğu üçün iştiraka yönəlmişdir. Məqsəd müəyyən bir müddətdə mümkün qədər çox fikir yaratmaqdır. Bu fikirlər sona qədər qiymətləndirilmir və çox vaxt geniş bir fikir istehsal edir. Müəyyən bir mövzuda danışma fəaliyyətindən əvvəl müəllim ümumiyyətlə öyrənənin əvvəlki biliklərinə nəzər salmaq və fikirlər yaratmaq üçün ‘fəallaşma” başlayır. ‘Beyin həmləsi ümumiyyətlə bütün tədris prosesində faydalı olsa da, daha çox danışma / söhbət fəaliyyətində daha çox istifadə edilə bilər. Danışıq fəaliyyətində fəallaşma üçün faydalı bir fəaliyyətdir. Bəzi öyrənənlər digərlərindən daha uğurludurlar. Bunun səbəbini tapmaq üçün Rubin daha fəal şagirdlərin xüsusiyyətlərini araşdırdı. Bu xüsusiyyətlərdən dördü aşağıda müzakirə olunur. Bunlar beyin həmləsi prosesində niyə faydalı bir vasitə olduğunu izah edə bilər. Beyin həmləsi tələbələrə risk etməyi öyrənməyə kömək edə bilər.[8, s 17-19]

McCoy, Dil öyrənməklə bağlı narahatlığı azaltmaq üçün fəal bacarıqları öyrənmək güclü bir metod ola bilər. Beyin həmləsində 'doğru' və ya 'səhv' cavab yoxdur və müəllim müdaxiləsi təhlükəsi yoxdur. Sadə bir beyin həmləsi fəallaşmanı həyata keçirərək şagirdlər sərişt‌əlik hissi əldə edə və ağıllı təxminlər etməkdə özlərini daha inamlı hiss edə bilərlər. [5, s 9]

Bir şəkil üzərində beyin həmləsi - Bu müasir dövrdə veb sayt şəkilləri beyin həmləsi prosesi fikirləri yazmaq və ya danışmaq üçün istifadə edilə bilər. Praktik vəziyyət də beyin həmləsi mənbəyi ola bilər.

Tədqiqat metodu - Bu iş əsasən öyrənmə prosesini və öhdəsindən gəlmək üçün strategiyaları araşdırmağı hədəfləyən təsviri tiplidi.

Beyin həmləsinin məqsədi

- Şagirdlərin diqqətini müəyyən bir mövzuya yönəltmək.
- Xüsusi fikirlər yaratmaq.
- Fərdi fərqlərin qəbulunu və bir-birinə hörmətini öyrətmək.
- Şagirdləri fikir və fikirlərini bölüşməkdə riskə getməyə təşviq etmək.
- Şagirdə bilik və bacarıqlarının hər birinin qiymətləndirildiyini və qəbul olunduğunu göstərmək.
- Tələbələrin bir-birinə əsaslanaraq fikir mübadiləsi etmələri və məlumatlarını genişləndirmələri üçün bir fürsət yaratmaq

Beləliklə, yuxarida qeyd edilən fikirlər və tədqiqat nəticələrinə əsasən Beyin fırtınasının xüsusiyyətlərini ümumi şəkildə aşağıdakı kimi şərh etmək olar:

- Bu intellektual bir fəaliyyətdir.
- Maksimum və ya bütün tələbələr iştirak edə bilər.
- Hər tələbə şəxsi baxış / fikirlərini verir.
- Hər bir fikir nə doğru, nə də səhvdir.
- Fərqli düşünməyi əhatə edir.[2, s 416]

İstifadə edilmiş ədəbiyyat:

1. Bejarano Y, Levine T, Olshtain E, Steiner J. (1997) The skilled use of interactive strategies: creating a framework for improved small group communicative interaction in the language classroom System 25: 03-14
2. 2. Brown, H.D, 1994 Principles of Language Learning and teaching, Prentice Hall Regents, p.416
3. Khan, I.A.(2005).Educational Management, New Delhi: Academic Excellence,pp.34-39
4. Khan, I.A. (2004) Relevance of modern management techniques in Educational Institutions, New Delhi: Gagandeep publication, pp.45-57
5. McCoy, R.I 1976. Means to Overcome the Anxieties of Second Language Learners, Foreign Language Annals, pages 185 9, No. 12, 1979.
6. Rao Z. (2007) Training in Brainstorming and Developing Writing Skills, in ELT Journal 2007 61(2) Oxford University
7. Richards J. (1990) New Trends in the Teaching of Writing in ESL/ EFL in Wang Z. (ed.) ELT in China. Papers Presented at the International Symposium on Teaching English in the Chinese Context, Foreign Language Teaching and Research Press, Beijing.

8. Rubin, J 1975. What the "Good Language Learner" Can Teach Us, TESOL Quarterly, Vol. 9, No.1, March 1975.
9. Tsui, A.B.M. (1996). Reticence and anxiety in second language learning, Voices From the Language Classroom, Cambridge 1996, 145-167.
10. Van Gundy, A. B. (1981, 2nd Ed. 1988). Techniques of Structured Problem Solving. New York: Van Nostrand Reinhold.
11. http://pedsovet.su/metodika/6748_mozgovoy_shturm

Д. Гулиева
М. Гахраманова

РОЛЬ МОЗГОВОЙ ШТУРМ В УЧЕБНОМ ПРОЦЕССЕ

Резюме

В процессе обучения, когда учитель передает знания ученикам или ученикам, он всегда направляет их на важную сторону, на главный вопрос. Знающий учащийся приобретает навыки, приобретая навыки, которые ему интересны и необходимы для его будущей образовательной жизни. Студенты могут более эффективно приобретать знания, навыки и привычки, применяя интерактивные методы в процессе обучения. Богатство интерактивных методов еще раз доказывает их практическую значимость в процессе обучения знаниям. Основная цель интерактивного обучения - сделать ученика субъектом обучения, воспитать его как человека, способного читать. Во время применения интерактивных методов студенты проявляют активность и, самое главное, сотрудничают. Как метод, интерактивность больше связана с прогрессом работы между учителем и учеником в процессе обучения - мозговой штурм больше касается независимости ученика и побуждает его свободно выражать свои мысли. С другой стороны, во время этого процесса студенты могут быть более свободными и активными между собой. Главное, чтобы учащиеся сотрудничали в этом процессе и выступали в качестве организаторов, консультантов, фасилитаторов: ставили задачи, руководили, контролировали и т. не мешая работе ученика.

Однако по учебным заданиям студенты обмениваются идеями и представляют свои идеи. Таким образом, обучение и общение между учениками, союз учителя и ученика, возникающее в процессе мозгового штурма, развивается.

Мозговой штурм (Brainstorming) - предложен в 1953 году американским психологом А. Осборном как средство создания идей и решения проблем. Мозговой штурм - это групповое мероприятие, большое или маленькое, которое побуждает студентов сосредоточиться на теме и способствовать свободному потоку идей. Учитель может начать мозговой штурм, задав вопрос

или проблему или представив тему. Затем студенты излагают возможные ответы, соответствующие слова и идеи.

Из метода мозгового штурма (Brainstorming) можно проводить со всем классом и практически на всех этапах урока. Однако этот метод чаще всего используется учителями на мотивационной фазе урока. Мозговой штурм стимулирует учащихся к открытию новых знаний и интересу к обсуждаемому вопросу. Применение этого метода активизирует студентов, вызывает желание быстро и правильно найти ответ на вопрос, выдвинуть разные идеи. Во время психической атаки также рекомендуется проинструктировать их определить возможные варианты завершения любой идеи или выражения по новой теме. Учитель должен постараться, чтобы как можно больше учеников выразили свои мысли. Все комментарии записываются на доску без комментариев и критики. Затем наступает этап анализа и обсуждения. Оцениваются разные идеи, высказываются мнения за и против. Студенты выбирают идеи, которые они считают полезными для решения обсуждаемой проблемы.

Таким образом, мозговой штурм предполагает использование синергии, позволяя нашему коллективному мышлению использовать множество потенциальных решений. Однако это дает вам неограниченную свободу.

Ключевые слова: мозговой штурм, учебный процесс, сотрудничество, интерактивный метод, дискуссия.

D. Guliyeva
M. Kahramanova

THE ROLE OF BRAINSTORM IN THE TEACHING PROCESS

Summary

In the teaching process, when a teacher imparts knowledge to students or pupils, he always directs them to the important side, the main issue. A learner who is provided with knowledge acquires skills by acquiring the skills that interest him or her and are necessary for his or her future educational life. The student can acquire knowledge, skills and habits more effectively by applying interactive methods in the teaching process. The richness of interactive methods once again proves its practical importance in the process of teaching knowledge. The main purpose of interactive learning is to make the student the subject of learning, to educate him as a person capable of reading. Students are active and, most importantly, collaborate in the application of interactive methods. As a method, interactivity is more about the independence of the student in the learning process than the course of work between teacher and student - brainstorming and encourages them to express themselves freely. On the other hand, during this process, students can be more free and active

among themselves. The main thing is that the learners who cooperate in this process and act as organizers, counselors, facilitators: set problems, direct, control, etc. without interfering with the student's work. However, on the learning tasks, students exchange ideas and present their ideas. Thus, the learning and communication between students, which occurs in the process of brainstorming, develops teacher-student union.

Brainstorming - proposed in 1953 by American psychologist A. Osborn as a means of creating ideas and solving problems. Brainstorming is a group activity, large or small, that encourages students to focus on a topic and contribute to the free flow of ideas. The teacher can begin the brainstorming session by asking a question or problem or by introducing a topic. Students then state possible answers, relevant words and ideas.

From the method of Brainstorming can be carried out with the whole class and at almost all stages of the lesson. However, this method is most often used by teachers in the motivational phase of the lesson. Brainstorming stimulates students to discover new knowledge and interest in the issue under discussion. The application of this method activates students, creates the desire to find a quick and correct answer to the question, to put forward different ideas. It is also advisable to instruct the brainstormer to identify possible options for completing any idea or expression on a new topic. The teacher should try to get as many students as possible to express themselves. All comments are recorded on the board without comment or criticism. Then comes the stage of analysis and discussion. Different ideas are evaluated, opinions are expressed for and against. Students choose ideas that they find useful to solve the problem under discussion.

Thus, brainstorming involves the use of synergies - allowing our collective thinking to use a variety of potential solutions. However, it allows you to have unlimited freedom.

Keywords: brainstorming, learning process, collaboration, interactive method, discussion

Redaksiyaya daxil olma tarixi: 22.05.2021.
Çapa qəbul olunma tarixi: 07.06.2021
Filologiya üzrə fəlsəfə doktoru, dosent Nigar Seyidova tərəfindən çapa tövsiyə olunmuşdur

MƏTANƏT QURBAN QIZI ŞAHALIYEVA
AMEA- nın M.Füzuli adına Əlyazmalar İnstitutu
matanat.sahaliyev.63@bk.ru

XIX ƏSR CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDAN SEÇMƏLƏR: AĞA MƏHƏMMƏD BAĞIR XALXALI VƏ "SƏLƏBİYYƏ" MƏSNƏVİSİNDƏ ŞAİRİN İCTİMAİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ

Xülasə

XIX əsrin ikinci yarısında Şimalda olduğu kimi, Cənubda da mütərəqqi meyllərin güclənməsi mərsiyə ədəbiyyatının get-gedə zəifləməsinə gətirib çıxarır. Klassik ədəbiyyatın janrları: qəzəl, qəsidə, mədhiyyə şeir formalarının öz mövqeyindən uzaqlaşıb yerini yeni məzmunlu ictimai məsələləri özündə daha dolğun əks etdirən ədəbiyyata verməsi realizmin inkişafına təkan vermiş oldu. Təbii ki, xalq kütlələrinin mənafeyi nöqteyi-nəzərindən hadisələrə ifşaedici mövqedən yanaşan sənətkarlar insanların şüurunun işıqlandırmasına mane olan qüvvələrə qarşı satirik əsərlər yazmağa başladılar. Dövrünün ilk satirik realist poeziyasının nümayəndələrindən biri də Ağa Məhəmməd Bağır Xalxalidir. Məzhəkə şəklində uşaqlar üçün yazılan Xalxalinin «Sələbiyyə» məsnəvisində qoyulan əsas məsələ müəllifin nəsihət yolu ilə ictimai reallığa olan münasibəti, toxunduğu məsələlər isə ədəbiyyatdan çox həyata söykənən mövzulardır.Başdan-başa nəsihət ruhu aşılayan əsərdə şair haqsızlıqları, nöqsanları açıq şəkildə yox, dolayı, alleqorik şəkildə yəni, canlı aləmə müraciət etməklə əxlaqi-fəlsəfi, həyati və ictimai məsələlərə olan münasibəti heyvanların dili ilə ifadə edirBildiyimiz kimi, folklor nümunələrində qurd və tülkü həmişə mənfi qəhrəman kimi səciyyələnib. Xalxali isə «Sələbiyyə» əsərində Tülkü obrazını süjetin ümumi axarından və müəyyən vəziyyətlərdən asılı olaraq gah müsbət, gah da mənfi obraz kimi təsvir edir. Özündən zəiflərlə münasibətdə tülkü xain, qəddar və bic, ailəsinə gəldikdə isə örnək olacaq ailə başçısıdır.

Poemada XIX əsr Cənubi Azərbaycan həyatı real şəkildə təsvir edilmiş həmçinin Cənubi ədəbi dilin fonetik normasını özündə göstərən dialekt və şivələr-dən, loru sözlərdən dolğun istifadə edilmişdir Əsərdə bir-birini tamamlayan hissərlərdə məzlum kütlələrin ağır həyat tərzinin təsvirini verən şair məişət qayğılarını misraların dili ilə danışır, gözü ilə gördüyü haqsızlıqlara qarşı çıxır, bələd olduğu hadisələrdən şikayətlənir, eyni zamanda yoxsula, məzluma zülm edənin aqibətinin yaxşı qurtarmayacağına inanır.Tənqidi realist ədəbiyyatın ideya-estetik görüşlərini özündə əks etdirən, acı həyat həqiqətlərinə münasibət bildirən «Sələbiyyə» əsərində verilmiş rəsmlər məzmuna uyğun müəyyənləşdirilmişdir.

Acar sözlər: Poemada, süjet, əsər, publisistik yaradıcılığ, ədəbiyyat, poeziya, ictimai məsələlər.

XIX əsrin ikinci yarısında Şimalda olduğu kimi, Cənubda da mütərəqqi meyllərin güclənməsi mərsiyə ədəbiyyatının get-gedə zəifləməsinə gətirib çıxarır. Klassik ədəbiyyatın janrları: qəzəl, qəsidə, mədhiyyə şeir formalarının öz mövqeyindən uzaqlaşıb yerini yeni məzmunlu ictimai məsələləri özündə daha dolğun əks etdirən ədəbiyyata verməsi realizmin inkişafına təkan vermiş oldu. Müasir həyatla səsləşən ictimai məsələləri, yəni cəhalət və nadanlıq, zorakılıq, mütləqiyyətin üsuli-idarəsi, istismar dünyasına qarşı nifrət və qəzəbi özündə əks etdirən realist ədəbiyyat yaranırdı.

Təbii ki, xalq kütlələrinin mənafeyi nöqteyi-nəzərindən hadisələrə ifşaedici mövqedən yanaşan sənətkarlar insanların şüurunun işıqlandırmasına mane olan qüvvələrə qarşı satirik əsərlər yazmağa başladılar. Dövrünün ilk satirik realist poeziyasının nümayəndələrindən biri də Ağa Mehemmed Bağır Xalxalidir.

Bildiyimiz kimi, bədii ədəbiyyatda qələm sahibləri fikirlərini açıq, sərbəst ifadə etmək üçün birbaşa deyil, çox zaman alleqorik üsuldan istifadə etmişlər. Dünya ədəbiyyatında «Kəlilə və Dimnə» əsəri, İ.A.Krılovun təmsilləri ictimai-siyasi həyatı təsvir etmək baxımından çox səciyyəvidir. Azərbaycan ədəbiyyatında da Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani kimi sənətkarlar cəmiyyətdə baş verən haqsızlıqlara qarşı etiraz və qəzəblərini alleqorik formada əlaqələndirməyi məqsədəuyğun saymışlar. Bu baxımdan orijinal xüsusiyyətlərinə Azərbaycan ədbiyyatı tarixində ilk alleqorik formada yazılan M.B.Xalxalinin «Sələbiyyə»si (Tülkünamə) seçilən əsərlərdən sayılır. Müəllifin əsərə "Sələbiyyə" adı verməsi təsadüfi deyil. "Sələb" sözünün kökü ərəb mənşəli olub, "tülkü" deməkdir. Tülkünün dişisinə "Sələbiyyə", ərkəyinə "Solban" deyilir. "Sələb" sözü hər iki sözün cəmi olaraq "Sələbiyyə" kimi götürülür. "Sələbiyyə" sözü bəzi mənbələrdə "sələbi" və yaxud "gessətol-sələbiyyə", "mənsimi- sələbiyyə" və ya "kitabi-sələbiyyə" şəklində yazılıb.

«Sələbiyyə» (Tülkünamə) adı ilə tanınan poemada şairin ədəbiyyatda rolu və yeri, tərcümeyi-halı haqqında dolğun məlumatlar əksini tapmışdır:

Məhəmməd Bağıri-Xəlxaliyəm mən,
Fününi-mərifətdən xaliyəm mən,
Bu fərdi-axiri nəzmi-səvabi,
Bəyan eylübdi tarixi-kitabi (2, s.254-255).

Şairə uğur gətirən, 1600 beytdən ibarət olan «Sələbiyyə» məsnəvisi əruz vəzninin həzci- məksun bəhrində yazılmış və şairin ictimai-fəlsəfi, dini görüşlərini əks etdirmək baxımından xalqın marağına səbəb olmuşdur. «Sələbiyyə»nin üslub tərzi, forma, məzmunundakı fərqlilik onu daha çox dastana yaxınlaşdırır. Əsər İstanbulda, Tehranda dəfələrlə nəşr olunmuş, Təbrizdə h.q. 1310, 1329-cu (M:1892-1911) illər arasında letoqrafiya üsulu ilə 8 dəfə nəşr olmuşdur. H.q. 1339-cu ildə isə Qubad Tufani tərəfindən fars dilinə tərcümə edilərək təkrar çap edilmişdir. İslam Ağayevin

verdiyi məlumata görə, «Sələbiyyə»nin ərəb qrafikası ilə bütün nəşrlərdə başlıqlar farsca, mətnin özü isə azərbaycanca yazılıb (1, s.33).

Tənqidi realist ədəbiyyatın ideya-estetik görüşlərini özündə əks etdirən, acı həyat həqiqətlərinə münasibət bildirən «Sələbiyyə» əsərində verilmiş rəsmlər məzmuna uyğun müəyyənləşdirilmişdir.

«Sələbiyyə» əsərində Xalxalinin müxtəlif elm sahələrinə: hüquq, sənət, ədəbiyyat, təbiət, folklor, əxlaq, fəlsəfə, məntiq, tarix, dilçilik, estetik, həmçinin dini-fəlsəfi və ictimai məfhumlara aid baxışları ilə bağlı mülahizələri yer almışdır.

Bildiyimiz kimi, bəşəriyyətin gücü sözdür. İnsan söz vasitəsilə təmizlənir, sözlə yeni mənalar axtarışına çıxır. «Söz» həm də «bədii söz sənəti» olan ədəbiyyatın idrak və inikas vasitələrini özündə birləşdirir, insanı gözəl, məntiqi danışmağa sövq edir.

Əsərdə vücudun təmizlənməsi, yalqızlıq, kimsəsizlik, artıq tamah, xəyanət ilə ömür sürmək, eyş-işrət və əyyaşlıqla yaşamaq, qocalıq, nəfs, səadət, diqqət və sair məsələlər oxucunu düşündürməyə bilməz.

Müəllif «Sələbiyyə» əsərində sanki oxucusu ilə ağıllı, cazibəli, mühakimə xarakterli söhbət edir. Başdan-başa nəsihət ruhu aşılayan əsərdə şair haqsızlıqları, nöqsanları açıq şəkildə yox, dolayı, alleqorik şəkildə yəni, canlı aləmə müraciət etməklə əxlaqi-fəlsəfi, həyati və ictimai məsələlərə olan münasibəti heyvanların dili ilə ifadə edir. Bu baxımdan F.B.Köçərli «Sələbiyyə»nin mülahizələrini geniş ölçüdə izah edib qiymətləndirərək yazır: «Xalxalinin Sələbiyyə kitabçası ədəbiyyat xəzinəmizin ən qiymətli cəvahirlərindən və ən məqbul əsərlərindən biridir» (6, s.381).

Xalxali dövrünün şairlərindən fərqli olaraq, hadisələri, haqsızlıqları görmüş, başqaları üçün əhəmiyyətsiz olan hadisələrə tənqidi yanaşaraq, münasibət bildirməkdən çəkinməmişdir. Kamran Məmmədov yazır: «Şair gördüyü haqsızlıqları satira yolu, ezop dili ilə tülkü-canavar əhvalatları söyləməklə qamçılayırdı» (8, s.125).

Məlum həqiqətdir ki, şair zorakılıq dünyasında edilən zülmlərə, məzlum insanların zalım adamların əlində əsir olmasına seyirçi qalmayaraq həmvətənlərinə kömək əlini uzatmaq istəmişdir:

Deyib çox məzhəkə, qıldım zərafət
Onun zinnində həm yazdım nəsihət (2, s.254).

Əsərdə Xalxali xalqı aldadan ikiüzlü ruhanilərə, fırıldaqçı din xadimlərinə qarşı çıxmış, həqiqəti, haqq sözünü deməkdən çəkinməmişdir. Şairin fikrincə, sənətkar həqiqətpərəst olmalı, məzlum insanları dilənçi kökünə salan işbazları sənət dili ilə qamçılamalı, Vətəninə, xalqına fayda verməyən adamları ifşa etməlidir.

Şair üçün yaşadığı cəmiyyətdə iki dünya var. Birincidə insanların heç nəyə ehtiyacı yoxdur, həyat onların üzünə daima gülür, ikincidə isə insanlar əziyyət çəkməkdən belləri bükülür, həyat onlar üçün qaranlıq məzara bənzəyir:

Birisinin yağar dövlət başından,
Birisi görməyib bir pul yaşından(2, s.187).

Xalxalı yaşadığı mühitdə gördüyü çətinlikləri aradan qalmağın yollarını düşünür, bu baxımdan tutqun əhvali-ruhiyyəsini ifadə etmək üçün misraların dili ilə

həyatın bir çox təzadlı məsələlərinə toxunur. Təəssüf ki, Xalxali xalq həyatının bir çox mühüm cəhətlərini işıqlandırsa da ruhani təhsili aldığı üçün bəzən mövcud cəmiyyətin nöqsan və ziddiyyətlərinin təsvirini verərkən mülahizələrinə ehtiyatla yanaşır. Xalxali «Sələbiyyə» əsərində dövrünün geniş bədii mənzərəsini, acı həyat həqiqətlərini şirin zarafatdan istifadə etmək yolu ilə həmvətənlərinə anladır, haqq-ədaləti təbliğ edənlərin əməllərindəki pislikləri xalqa çatdırmağı özünün müqəddəs vəzifəsi sayır:

«Sələbiyyə»nin mövzusu və süjeti daha çox Tülküyə həsr olunmuş təmsillərdən ibarətdir.

Bildiyimiz kimi, folklor nümunələrində qurd və tülkü həmişə mənfi qəhrəman kimi səciyyələnib. Xalxali isə «Sələbiyyə» əsərində Tülkü obrazını süjetin ümumi axarından və müəyyən vəziyyətlərdən asılı olaraq gah müsbət, gah da mənfi obraz kimi təsvir edir. Özündən zəiflərlə münasibətdə tülkü xain, qəddar və bic, ailəsinə gəldikdə isə örnək olacaq ailə başçısıdır.

Azərbaycanda Xalxali irsinin tədqiqi və nəşri sahəsində mühüm xidmətləri olan prof. Feyzulla Qasımzadə (7, s.396) şairin «Sələbiyyə» əsəri ilə bağlı araşdırmasında verilən lirik ricətlərin dolğunluğunu önə çəkir, Tülkü obrazının ikinci dərəcəli rol oynadığı ilə bağlı maraqlı fikirlər irəli sürür. Halbuki, qətiyyətlə deyə bilərik ki, şair lirik ricətlərdən daha çox Tülkü obrazı ilə fikir və düşüncələrini aydın şəkildə ortaya qoyur. Poemanın ayrı-ayrı hissələrində: xalqın adət-ənənələri, xüsusilə ölümlə bağlı mərasim, ölüm ayağında atanı, ananı, qohum-qardaşı, qadınını, bacını və övladlarını yada salmaq, vəsiyyət etmək, saç tökmək, cənazənin üstünə şal salmaq, molla dalınca qaçmaq, qazanda halva çalmaq, əhli-qüburu ziyarət etmək, niskilli yolun yolçularına göz dikən ölüləri yad etmək və s. dolğun şəkildə öz əksini tapır.

Əsərdə verilən şeir parçalarının dili bütünlüklə özündə xalq deyimlərini əks etdirir:

Gözümdən ağlayan vaxtda öpərdin,
Durardın ağzıma əmcək təpərdin (4, s.498).

Məzhəkə şəklində uşaqlar üçün yazılan Xalxalinin «Sələbiyyə» məsnəvisində qoyulan əsas məsələ müəllifin nəsihət yolu ilə ictimai reallığa olan münasibəti, toxunduğu məsələlər isə ədəbiyyatdan çox həyata söykənən mövzulardır. Müəllif əsərin fəlsəfi-həyati tutumu və məna yükünü artırmaq üçün Xoruz, Tülkü, Toyuq və Qurdun daxili aləmlərinə nüfuz etməklə, əslində insanların fərdi xüsusiyyətlərini açmaq, həmçinin şəxsiyyət haqqında fikirlərini nümayiş etdirmək istəmişdir.

Poemada verilmiş 82 hekayətdən 39-u ictimai-siyasi, əxlaqi məzmunlu, 43-ü isə Tülkü haqqında rəvayət və nağıllardır. Şair sələflərindən fərqli bir yol seçərək fəlsəfi-didaktik fikirlərini Tülkü ilə əlaqəli verir.

XIX əsr ədəbiyyatımızın ümumi mənzərəsini nəzərdən keçirərkən aydın şəkildə görürük ki, Xalxalinin satirik ruhda yazdığı «Sələbiyyə» əsəri orijinal kompozisiyaya malik olması və süjet xəttinin olmaması ilə diqqəti cəlb edir. Maraqlı burasıdır ki, müəllif «Sələbiyyə» əsəri ilə yaşadığı sosial və mədəni mühitin

inkişafındakı fərqli cəhətləri aydınlaşdırmağa müvəffəq olmuşdur Əsərdə yaratdığı obrazların mənəvi dünyasını ustalıqla qələmə alması, həmçinin bacarıqlı rəssam kimi ədəbi-bədii lövhələr yaratması böyük sənətkarın istedadından, dram yaradıcılıq dünyasından xəbər verir.

Xalxali əsərdə yeri düşdükcə süjetlə səsləşən lirik ricətlərdən də istifadə edir:

Kəman qəddim deyil, billəm, yanımda,
Təəccübdür, atırsan ox kəmansız (2, s.208)

Şairin əsərdə qoyduğu problemlər: mövcud cəmiyyətdə baş verən hadisələr yumor dolu dialoqlarla Tülkü ilə bağlı verilən hekayələrdə daha çox üzə çıxır, həmçinin şairin cəmiyyətə qarşı münasibəti aydınlaşır. Müəllif, əsərdə bəzən haşiyələrdən kənara çıxaraq əsas ideyadan uzaqlaşsa da, oxucusunu şifahi və yazılı, ədəbi dilin imkanlarından istifadə etməklə əsərin ideyasını anla-mağa cəlb edə bilir.

Bildiyimiz kimi, cəmiyyətdə olduğu kimi, zorakılıq, zülm, ədalətsizlik, güclülük, yaltaqlıq, qətl və qarət təbiət qanun-larına da hakimdir.

Hüseyn Düzgün yazır: «Biz "Sələbiyyədən" öyrənirik ki, M.B.Xalxali təbiətin canlı aləminə müraciət etməklə əxlaqi-fəlsəfi, həyati və ictimai məsələlərin çoxunun heyvanların dili ilə bəyan etmişdir» (3, s.20).

Həyata qarşı tənqidi münasibəti özündə əks etdirən «Sələbiyyə» əsərində qadına münasibət məsələsinə də xüsusi toxunulur. Şairin bu mövzu ilə bağlı fikirləri şifahi xalq ədəbiyyatından qaynaqlanır. Məsələnin ətraflı şərhinə keçməzdən öncə qeyd olunmalıdır ki, Xalxali «Kitabi-Dədə Qorqud»a söz abidəsi kimi yanaşmışdır.

Bildiyimiz kimi, Oğuz türklərinin mənəvi sərvət xəzinəsi sayılan bu dastanda qadın-ana haqqı müqəddəs tutulur. Dədə Qorqud qadınları əxlaqına, rəftarına görə dörd tipə bölür:

Qarılar dört dürlüdür.
Birisi solduran sordur.
Birisi dolduran topdur.
Birisi evin dayağıdır.
Birisi necə söylərsən, bayağıdır (5, s.22).

Xalxali isə Dədə Qorquddan fərqli olaraq, qadınları iki qrupa ayırır: həyalılar, namuslular; əxlaqsızlar, abırsızlar. Bu bölgü ilə şair yaşadığı cəmiyyətin nöqsanlarını hakim təbəqənin əxlaqını ifşa etmək istəmişdir:

Vəfalı övrəti bas, öp gözündən,
Sənə hər nə desə çıxma sözündən (2, s.209).

Məlumdur ki, ailənin səadəti, gələcək nəslin düzgün tərbiyəsi, bir-birini başa düşən iki şəxsin: qadın-kişinin qarşılıqlı məhəbbətinə söykənməlidir.

Xalxaliyə görə, qadın namuslu, xoş simalı olmalı, baxışları ilə məhəbbət aşılamalı, özünün və evinin səliqəsini bilməli, ərinin yolunu gözləyib ona xidmət göstərməlidir.

Xalxalidən fərqli olaraq ədəbiyyatşünas, tənqidçi Firudin bəy Köçərli qadını cəmiyyətin tam hüquqlu varlığı kimi görür: «Təzə və cavan nəslin bərası və səadəti, birkulliyyə, analar əlindədir, onun hümmət mərifətinə baqlıdır» (6, s.371).

Firudin bəy Köçərlinin məntiqə sığışan mühakiməsi alqışlanmalıdır. Çünki kişinin evdə şuxluq yaradan, onu sevgisi ilə oxşayan qadına ehtiyacı olduğu kimi, qadının da bunlara ehtiyacı var. Həya, tərbiyə övlada qadından keçir. Elmə, hərtərəfli dünyagörüşə, əxlaqi dəyərlərə sahib olan qadının tərbiyəsi ilə böyüyən övlad cəmiyyətdə öz yerini bilən, sahib olmaq istədiyinə nail olan şəxsiyyət kimi formalaşar. Bu gün cəmiyyətdə böyüyən övladların bir qisminin naqis olmasının səbəbi onlarda yox, qadınların, yəni anaların müasir təhsildən, tərərqqidən, geri qalmasında, digər tərərfdən milli dəyərlərin unudulmasındadır. Qadın-ana nə qədər hikmət, təhsil sahibi olsa, sözsüz ki, onun tərbiyə verdiyi nəsil sabahın yaradıcı insanı ola bilər. Şair əsərdə iki arvadlılıq məsələsinə də toxunur. Şairə görə, ailənin ağırlığını zərif çiyinlərində daşıyan qadın hörmət və ehtirama layiqdir. Şəhvətinin, nəfsinin qurbanı olan kişinin iki qadın alması əslində, bir yox iki ailəni məhvi, dünyaya gələn övladların isə hərc-mərcliklə keçən ömrüdür. Qadınlara qarşı insani münasibət bəsləməyi tövsiyə edən şair ikiarvadlılığı həm kişinin, həm də qadının ləyaqətini alçaldan əməl kimi dəyərləndirir.

Əyalına əgər ər xain olsun,
Necə övrət ərə arxayın olsun?!
Gecə vəqtində can kimi qucaqla.
Susuz, ac saxla, əmma yaxşı saxla (2, s.209).

Şair əsərdə qadına qarşı hörmətsizliyi, günahsız yerə təhqir olunub, alçalaraq döyülməyi oxucuya sosial ədalətsizlik kimi təqdim edir:

Qara günlər görüb qaçmaz idin sən.
Eşikdə qeybətim açmaz idin sən, (2, s.207)

Oxucu yaltaqlıq, hiyləgərlik kimi sifətlərələ mühakimə edilən Tülkünün bu misralarda qadınına verdiyi dəyəri görür, onlar arasında olan ər-arvad münasibətini yüksək qiymətləndirir.

Əsərdə bir-birini tamamlayan hissərlərdə məzlum kütlələrin ağır həyat tərzinin təsvirini verən şair məişət qayğılarını misraların dili ilə danışır, gözü ilə gördüyü haqsızlıqlara qarşı çıxır, bələd olduğu hadisələrdən şikayətlənir, eyni zamanda yoxsula, məzluma zülm edənin aqibətinin yaxşı qurtarmayacağına inanır:

«Sələbiyyə» əsərində sosial problemlərin özünəməxsus lirik ricətli şəkildə verilməsi göstərir ki, şairin fikri nəsihət vermək yox, ictimai və iqtisadi bərabərsizliyi ifşa etmək olub. Müəllif atalar sözləri ilə, məsələn, Xoruzla Tülkünün dialoqunda sözlə cəmiyyətin xarakterik xüsusiyyətlərini və yaralarını açır. Cənubi Azərbaycanın düşdüyü ağrı-acılı vəziyyətə göz yummaq feodal dövrünün qanun-qaydalarına qarşı səsini çıxarmamaq, əslində insanın cismani məhfidir-fikrini şair əsərin məqsəd və ideya xüsusiyyətləri ilə səciyələndirir.Xalxali «Sələbiyyə» poemasında Şərq poeziyasının ən yaxşı ənənələrini özündə birləşdirmiş, real hadisələri güzgü

timsalında əks etdirmişdir. Şairin dil, üslub sadəliyində, həyata nikbin baxışında Vaqif ruhu duyulur, siyasi-fəlsəfi, əxlaqi fikirlərini, duyğu və düşüncələrini nəsihətlərlə aşılamaq istəyi isə Nizamiyə söykənir. Əsərdə verilmiş Tülkü, Canavar, Xoruz obrazları gerçəkliyi doğru-düzgün əks etdirmək üçün şairin əlində bədii vasitədir. «Sələbiyyə» poeması eyni zamanda Azərbaycan şeirində yeni bir səhifə açmışdır. İlk dəfədir ki, poetik əsərdə lirik münasibətlər, ictimai məişət problemləri əsas mövzu kimi götürülmüşdür.

Poemada XIX əsr Cənubi Azərbaycan həyatı real şəkildə təsvir edilmiş həmçinin Cənubi ədəbi dilin fonetik normasını özündə göstərən dialekt və şivələrdən, loru sözlərdən dolğun istifadə edilmişdir

Ədəbiyyat

1. Ağayev.İ. M.B.Xalxalinin "Sələbiyyə"əsərinin nəşri tarixi və xəttat ressamları barədə. Azərbaycan SSRİ Elmlər Akademiyasının xəbərləri. Ədəbiyyat, dil, incəsənət seriyası, 1983N1
2. Cənub ulduzları(şerlər, poemalar).Bakı: "Yazıçı", 1984.
3. Deveryar.M.Tehran:"Tekderext neşriyyatı"1389 h.ş.
4. Əhmədova S.Əhmədov T.XIX əsr Azərbaycan ədəbiyyatı (Dramaturgiya) Üç cilddə III cild.Bakı:"Nurlar", 2014
5. "Kitabi-Dədə Qoqud" Əsl və sadələşdirilmiş mətnlər. Bakı: "Önder" ,2004
6. Köçərli Firidun bəy . Azərbaycan ədəbiyyatı . iki cilddə. I cild. Bakı: "Avrasiya Press",2005.
7. Məmmədov.K.XIX əsr Azərbaycan serində satira. Bakı: "Elm" , 2000.

МАТАНАТ ШАХАЛИЕВА

ИЗДАНИЯ ИЗ ЮЖНО-АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ XIX ВЕКА: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЕ ВСТРЕЧИ ПОЭТА В АГА МУХАММЕД БАГИР ХАЛХАЛИ И "САЛАБИЯ" МАСНАВИС

Summary

Во второй половине XIX века, как и на Севере, усиление прогрессивных тенденций на Юге привело к постепенному ослаблению траурной литературы. Жанры классической литературы: газели, стихи, гимны и поэтические формы отошли от своих позиций и уступили место литературе, более полно отражающей социальные проблемы с новым содержанием, что дало толчок развитию реализма.

Естественно, что с точки зрения интересов масс художники начали писать сатирические произведения против сил, тормозивших просвещение

умов людей. Одним из представителей первой сатирической реалистической поэзии своего времени был Ага Мохаммед Багир Халхали. Главный вопрос в маснави «Салабия» Халхали, написанном для детей в форме анекдота, - это отношение автора к социальной действительности через советы, а затрагиваемые им вопросы более реалистичны, чем литература.

В произведении, которое с самого начала внушает дух наставления, поэт выражает свое отношение к морально-философским, жизненным и социальным вопросам на языке животных не открыто, а косвенно, аллегорически, то есть обращаясь к живой мир.

Как известно, в фольклоре волк и лисица всегда характеризовались как отрицательные герои. Халхали описывает образ Лисы в «Салабийе» как положительный или отрицательный, в зависимости от общего течения сюжета и определенных ситуаций. Лисица - предатель, жестокий и хитрый в обращении со слабыми, и он примерный глава семьи.

Поэма реалистично описывает жизнь Южного Азербайджана в XIX веке, а также в полной мере использует диалекты, слова, отражающие фонетическую норму южного литературного языка.

В дополнительных частях произведения поэт описывает нелегкую жизнь угнетенных масс языком стихов, противопоставляет несправедливости, которые он видит собственными глазами, жалуется на известные ему события, а заодно и на судьбу самих людей.

Картины в «Салабии», отражающие идейно-эстетические взгляды критически-реалистической литературы и выражающие ее отношение к горьким реалиям жизни, определены в соответствии с содержанием.

Ключевые слова: Поэма, сюжет, произведение, публицистическое творчество, литература, поэзия, социальные проблемы.

Matanat Qurban gizi Shahaliyeva

SELECTIONS FROM XIX TH CENTURY SOUTHERN AZERBAIJANI POETRY PUBLIC PHILOSOPHICAL VIEW OF THE POET IN AGA MOHAMMAD BAGIR KHALKHALI AND "SALABIYYA" COUPLET.

RESUME

In the second half of the nineteenth century, as in the North, the intensification of progressive tendencies in the South led to the gradual weakening of mourning literature. The development of realism was stimulated by the fact that the genres of classical literature: ghazals, verses, hymns and poetic forms moved away from their position and gave its place to literature that more fully reflects social issues with a new content. Naturally, from the point of view of the interests of the masses, artists

began to write satirical works against the forces that prevented the enlightenment of the minds of the people. One of the representatives of the first satirical realist poetry of his time was Agha Mohammad Bagir Khalkhali

The main issue in Khalkhali's "Salabiyya" masnavi, written for children in the form of a joke, is the author's attitude to social reality through advice, and the issues he touches on are more realistic than literature. İn the work, which instills the spirit of admonition from the very beginning, the poet expresses his attitude to moral, philosophical, vital and social issues in the language of animals, not openly, but indirectly, allegorically, that is, by referring to the living world. As we know, in folklore, the wolf and the fox have always been characterized as negative heroes. But in “Salabiyya”work Khalkhali describes the image of the Fox as either positive or negative, depending on the general flow of the plot and certain circumstances. The fox is a traitor, cruel and cunning in dealing with the weak, and he is an exemplary head of the family.

The life of Southern Azerbaijan realistically describes in the poem in the XIX century, as well as makes full use of dialects and words that reflect the phonetic norm of the Southern literary language. In the complementary parts of the work, the poet describes the hard life of the oppressed masses by the language of hemistich, opposes the injustices he sees with his own eyes, complains about the events he knows, and believes that the fate of the oppressor will not end well.

The pictures given in the works of "Salabiyya", which reflect the ideological and aesthetic views of critical realist literature and express their attitude to life issues, have been identified according to the content.

Keywords: Poem, plot, work, publicistic creativity, literature, poetry, social issues.

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Filologiya elmlər doktoru, professor, Qəzənfər Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA MANSUR QIZI HƏSƏNZADƏ

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
qasanzade.leyla@mail.ru

NİZAMİ GƏNCƏVİ VƏ ALMAN ŞƏRQŞÜNASLARI

XÜLASƏ

Məqalədə alman şərqşünaslarının Nizami irsinə və mədəniyyət tarixinə artıq dərəcədə böyük marağı araşdırılır və, faktlarla, bir çox almandilli ədiblərin əsərlərinin nümunəsində sübuta yetirilir. Qeyd edilmişdir ki, Şərq, o cümlədən Azərbaycan klassik ədəbiyyatına ciddi maraq Avropada XVII əsrin ikinci yarısında başlamış, sonrakı dövrlərdə isə sürətlə inkişaf etmişdir. Aşkar edilib ki, Höte ilə yanaşı digər alman şairləri öz ədəbiyyatlarında Nizami poeziyasının Şərq üslubundan yararlanıblar və onların yaradıcılığında qəzəl janrına müraciət etməsi mövcüddur. Axırda qeyd edilib ki, Nizami irsinin öyrənilməsində təkcə alman şərqşünasları deyil, həm də alman dilini bilən digər ölkələrin şərqşünasları, o cümlədən Baltikyanı dövlətlərin xidmətləri çox əhəmiyyətlidir.

Şərq mövzusu – Şərq tarixi, fəlsəfəsi, mədəniyyəti və ədəbiyyatı əsrlərdən bəri Avropa alimləri və yazıçılarının nəzər-diqqətini özünə cəlb etmişdir. Qərbi Avropa ölkələrində Şərq şairlərinin əsərləri ilə tanış olub, yaradıcılığında onlardan təsirlənmiş görkəmli sənətkarlardan biri də İ.V.Hete (1749-1837) idi. Höte Şərqin bir sıra ən məşhur şairlərinin, o cümlədən Nizami Gəncəvinin əsərləri ilə Avropa şərqşünaslarının, xüsusən İ.Y.Hammerin (1774-1856) tərcümələri vasitəsi ilə tanış olmuş, sonra onları orijinalda oxumaq üçün ərəb əlifbasını və fars dilini öyrənib həyatının on iki ilini Şərq tarixinin və ədəbiyyatının mütaliəsinə həsr etmişdir.

"Qərb-Şərq divanı" Hötenin yüksək insanpərvərliyini, estetik-fəlsəfi görüşlərinin, poetik marağının ifadəsinə çevirilmişdir.

Yeri gəlmişkən qeyd edək ki, Şərqə olan ədəbi-bədii mühitinin son dərəcə yüksək yaradıcılıq coşqusunu bir çox əcnəbi ədəbiyyatşünaslar o qədər də normal qarşılanmırdı, daha dəqiq desək, oradakı xarakterik janr-üslub prinsiplərindən yararlanmalarına ciddi baxmayanlar da var. Mərhum ədəbiyyatşünas, klassik alman poeziyasının kamil bilicilərindən olan Aqil Ağayev söhbət edirdi ki, bəzi ədəbiyyatçılara klassik alman şairlərinin qəzəl janrında şeir yazdıqlarını deyəndə inanmaq istəmirlər.

Açar sözlər: Nizami irsi, almandilli şairlər, şərqşünaslıq, Şərq poeziyası, poetik sətir, ədəbiyyatşünas.

Şərq mövzusu – Şərq tarixi, fəlsəfəsi, mədəniyyəti və ədəbiyyatı əsrlərdən bəri Avropa alimləri və yazıçılarının nəzər-diqqətini özünə cəlb etmişdir. Qərbi Avropa ölkələrində Şərq şairlərinin əsərləri ilə tanış olub, yaradıcılığında onlardan təsirlənmiş görkəmli sənətkarlardan biri də İ.V.Hete (1749-1837) idi. Höte Şərqin bir sıra ən məşhur şairlərinin, o cümlədən Nizami Gəncəvinin əsərləri ilə Avropa şərqşünaslarının, xüsusən İ.Y.Hammerin (1774-1856) tərcümələri vasitəsi ilə tanış olmuş, sonra onları orijinalda oxumaq üçün ərəb əlifbasını və fars dilini öyrənib həyatının on iki ilini Şərq tarixinin və ədəbiyyatının mütaliəsinə həsr etmişdir.

"Qərb-Şərq divanı" Hötenin yüksək insanpərvərliyini, estetik-fəlsəfi görüşlərinin, poetik marağının ifadəsinə çevirilmişdir.

Nizami irsi ilə almandilli ədibləri bağlayan tellər kifayət qədər geniş və rəngarəngdir. Bunun başlıca ədibləri, hətta deyərdik ki, kökləri alman şərqşünaslığının bu bölgənin mədəniyyət tarixinə intensiv və çoxcəhətli marağındadır. "Şərq, o cümlədən Azərbaycan klassik ədəbiyyatına ciddi maraq Avropada XVII əsrin ikinci yarısında başlamış, sonrakı dövrlərdə isə sürətlə inkişaf etmişdir. XIX əsrin əvvəllərində alman şərqşünaslığında əsərlər təkcə Almaniyada deyil, bütün Avropada, bəlkə də dünya şərqşünaslığında bir təkamülə səbəb olmuşlar. İozef fon Hammerin Şərqin tanınmış 200 şairinin həyat və yaradıcılığına həsr olunmuş əsəri 1813-cü ildə ikicildlik Osman poeziyası tarixi (1836, 1837), Vilhelm Baxerin dahi Nizaminin həyatı və yaradıcılığına həsr etdiyi monoqrafiyası (1871) dediklərimizi sübuta yetirən faktlardır" (1, s.20).

Böyük alman şərqşünası Y.Hammer 1816-cı ildə Vyanada dərc etdiyi "İranın bədii söz incisi tarixi" kitabında 200 Şərq şairi haqqında məlumatla yanaşı, onların əsərlərindən tərcümələr verməklə öz həmvətənləri üçün, hətta deyərdik bütün avropalı tədqiqatçılar və oxucular üçün Şərq poeziyasının qapısını aralamışdır. Heç də təsadüfi deyildir ki, Hammerdən sonra macar əsilli V.Baxer, alman Herber Duda və bir çox dəyərləri Şərq ədəbiyyatına, o cümlədən Azərbaycan şairlərinin yaradıcılığına dair monoqrafik əsərləri yaranmışdırlar. Böyük alman şairi Y.V.Höte Hammerə Şərqi ona tanıtdığına, habelə bu tanışlıq nəticəsində ərsəyə gətirdiyi "Qərb-Şərq divanı"nda qeyd edirdi: "Bu ləyaqətli insana nə qədər borclu olduğumu mənim kitabım bütün parçaları ilə sübut edir".

Yeri gəlmişkən qeyd edək ki, Şərqə olan ədəbi-bədii mühitinin son dərəcə yüksək yaradıcılıq coşqusunu bir çox əcnəbi ədəbiyyatşünaslar o qədər də normal qarşılamırdı, daha dəqiq desək, oradakı xarakterik janr-üslub prinsiplərindən yararlanmalarına ciddi baxmayanlar da var. Mərhum ədəbiyyatşünas, klassik alman poeziyasının kamil bilicilərindən olan Aqil Ağayev söhbət edirdi ki, bəzi ədəbiyyatçılara klassik alman şairlərinin qəzəl janrında şeir yazdıqlarını deyəndə inanmaq istəmirlər.

Elə bu cür fərqli yanaşmanı Hötenin "Qərb-Şərq" divanına münasibətdə də müşahidə etmək olar. V.M.Jirmunski Höteni yaxından tanıyan Lafater İ.K. haqqında

yazır: "Lafater nadir hallarda yanılardı. O inanırdı ki, onun hər bir sətri ürəkdən gəlir. Lakin bu görüş zamanı bunları Hötenin nə qəlbində, nə də sifətində görmədi. Belə ki, öz dühasını məcbur edib sadə Nizami şeirinin qoxusu gələn "Qərb-Şərq" divanını yazmasına baxmayaraq, onda Şərqdən heç nə yoxdur" (2, s.265).

Ancaq V.Jirmunskinin əksinə olaraq, bu sətirlərin müəllifi Hötenin müsəlman Şərqinə daha sıx bağlılığını, habelə bu xalqların müqəddəs kitabı Qurani-Kərimi dərindən öyrənmək, hətta onun bəzi yerlərini (6-cı surəni) tərcümə etmək istəyi barədə əsaslı dəlillərlə çıxış etmişdir. Höte orta əsrlər Şərq poeziyasında mövcud olan sufizmin Ulu Yaradana yüksək sevgi kimi, insanın ruhən saflaşmasına, mənən kamilləşməsinə gətirən başlıca şərt kimi həmişə təqdir etmiş və öz yaradıcılığında bundan yeri gəldikcə yararlanmağa çalışmışdır (3, s.15).

Höteni ciddi-cəhdlə rus ədəbi mühitinə bağlamaq istəyən tənqidçinin alman şairini Şərqə "qısqanmağını" sezməmək olmur. Buna tənqidçinin rus romantiklərinin "Divan"ından elədikləri tərcümələrə, iqtibaslara münasibətdə də müşahidə edirik. Bütün bunları "oriental stilizasiyadan başqa bir şey" hesab etməyən V.M.Jirmunski nümunə kimi Bestujevin "Divan"ından götürdüyü "No he" ("yaxınlıq") şeirinin tərcüməsini göstərir:

Как часто, милое дитя,
Тебя чуждаюсь я невольно
Когда, в толпе людей блестя,
Крутимся мы – хоть сердцу больно;

Akademik Bertelsin, R.Əliyevin və digər nizamişünasların haqlı qənaətlərinə görə Höte Nizamini yüksək yaradıcılıq ilhamına malik olan "şəxsiyyət" hesab etməklə onun poeziyasından yetərincə bəhrələnmişdir. Həqiqətən də, Nizami lirikasının ruhunu, oradakı sevinci və nisgili alman şairinin ömrünün yetkin çağlarında məhəbbət mövzusunda yazdığı şeirlərində asanlıqla duymaq olar.

Nümunə üçün Hötenin yuxarıda qeyd olunan şeiri ilə Nizaminin məşhur "Sənsiz"ini müqayisə etsək, hər iki şeirin ruhunu təşkil edən ayrılıqdan, həsrətdən doğan iztirabların nə qədər oxşar, hətta analoji poetik səpkidə verildiyinin şahidi olardıq; lirik qəhrəman hicran nisgilindən, dönməz ayrılıqdan doğan üzüntülərdən müqəddəs sevgiyə sədaqətdə təskinlik tapır. Başqa sözlə desək, Nizami və Höte yaradıcılığına yetərincə bələd olan V.M.Jirmunski əyanilik üçün hər iki şeirin rus dilinə edilmiş tərcümə variantını (çünki Hötedən o nümunəni məhz bu dildə vermişdir) müqayisə etsəydi pis olmazdı:

Мне ночь в ночь, мне в ночь невмочь, когда тебя нету со мной.
Сон мчится прочь, сон мчится прочь, беда в мой вступает покой,
Клянусь, придет свиданья час: пройти бы не мог стороной.
Клянусь я мглою кос твоих: уйдешь – и охвачен я мглой.

Не мне ль нестись к тебе одной, стремиться могу ли к другой
Тебе ль искать подобных мне, – не тешусь надеждой пустой
Сравнись со мной – величье ты, вглядись – никну я пред тобой,
Сравнюсь с тобой – не прах ли я? Все клады в тебе лишь одной.
(перевод К.Липскерова)

Höte Nizami dühasının hər bir möcüzəyə qadir olmasına olan əminliyini belə ifadə etmişdir: "Şərq şairi üçün bizi yerdən göyə qaldırmaq, oradan yenidən aşaği endirmək və əksinə, heç nədir". Avropa ədəbiyyatının patriarxı bu qənaətə birdən-birə gəlmişdir. Şeiriyyət diyarı Qoca Şərqi dərindən öyrənən bu mütəfəkkir sənətkar dəfələrlə qeyd etmişdir ki, Şərqdə seçilən şair olmaq çox çətin işdir, çünki bu yerlərdə az qala hamı şairdir.

Şərqşünas alim Otto Şprin "Qərbdə Şərq mədəniyyətinin təsiri" əsəri tutarlı faktlarla alman şairlərinin yaradıcılığına Şərq poeziyasının təsirindən söhbət açır.

Bu problemlə daha ətraflı məşğul olan Q.Bayer alman şairi, tərcüməçisi Fridrix Rükkertin külliyyatına yazdığı ön sözdə deyirdi ki, "Rükkert qədim formada qəzəllər də yazmış və bunlara qəzəl formasının toxumunu ilk dəfə alman torpağına əkmişdir". Alim sonra "Qəzəlin forması" adlanan bir hissəni də nümunə gətirir:

Die nue Form, die ich zuest in deinen Garten pllanze
O, Deutschland, wird nicht ubel in deinem reichen Kranse.

Müqayisə edək:

Toxumunu ilk dəfə bağına səpdiyim bu yeni forma
O, Almaniya, sənin zəngin çələnginə yaraşacaq.
(sətri tərcümə) (4, s.130)

F.Rükkertin bundan sonra qəzəl janrına müraciət etməsi digər alman şairləri A.Planted, T.Ştorm və bir çox başqalarını bu janrda gözəl nümunələri reallaşdırmağa sövq etmişdir.

Qərb mədəniyyətində ənənəvi hesab olunmayan divan yaradıcılığının bünövrəsini digər alman şairi Y.Höte qoymuşdur. Höte bu əsərində seçdiyi yeddi Şərq şairləri – Firdovsi, Ənvəri, Nizami, Rumi, Sədi cə Caminin yaradıcılığı haqqında verdiyi məlumatlar müəllifin onlar haqqında müfəssəl informasiyalara malik olduğundan xəbər verir. Alman şairinin Şərq poeziyasına məftunluğu onun digər əsərlərində də müşahidə olunurdu. Höte yaradıcılığının məşhur tədqiqatçısı professor Paul Horm Şərq poeziyasının xüsusiyyətlərinə işarə edərək 1909-cu ildə yazırdı ki, səmimi lirik nümunələr, adətən aşiqlə məşuqun söhbətlərindən yaranır. Alim nümunə üçün "Faust"un ikinci hissəsində Faustla Yelena arasında gedən sevgi

söhbəti əsnasında incə ruhlu şeir nümunəsini göstərir. Bu fikrin əsaslı olduğunu göstərmək üçün azərbaycanlı tədqiqatçı bir qədər də irəli gedərək "Qərb-Şərq" divanında Bəhramgurla Dilaram arasında gedən analoji mövzuda "təmiz qəlb arzusundan valehedici qafiyələrin yaranması haqda olan söhbətini xatırladır" (5, s.137).

Yeri gəlmişkən qeyd edək ki, alman ədəbiyyatında Nizami poeziyasının ilahi ruhundan nurlanıb Şərq üslubundan yararlanan təkcə Höte deyildir. Rükkert, Şiller, Rammer, H.Everis və digərləri Nizami poeziyasındakı romantik ruhla gerçəkliyin sintezini əsl poetik nümunə kimi qəbul edir və orijinal əsərlər yaradırdılar. Y.Hammerin "Şirin" poemasından Nizaminin "Xosrov və Şirin" süjeti əsasında hadisələrin özünəməxsus bədii həllini verməklə onu orijinal əsər kimi təqdim etməsindən irəli gəlir.

Bu müəlliflər öz əsərlərinin ərsəyə gəlməsində Nizami irsindən bəhrələndiklərini açıqca etiraf edirdi.

Onu da əlavə etməyə dəyər ki, bəzən bir sıra Avropa, o cümlədən Nizami irsindən birbaşa deyil, ikinci, üçüncü ədəbi-bədii məxəz vasitəsi ilə bəhrələnmişdir. Məsələn, 1910-cu ildə alman şairi H.Everis "Müəğənninamə" əsərini çap etdirir. Klassik Şərq poeziyası ruhunda yazılmış bu əsərin kompozisiyasında Hötenin "Qərb-Şərq divanı"nın təsiri aşkar duyulur. Müəllif "Divan"da Nizaminin "Sirlər xəzinəsi" poemasından "İsa peyğəmbərlərin dastanı" novellasının süjeti əsasında yazdığı şeirdə azərbaycanlı şairin ənənələrinə tam sadiqlik nümayiş etmişdir. Bir qədər fərqli məqsədlə F.Bodenşdet tərəfindən M.Ş.Vazehin şeirlərini "Qərb-Şərq divanı" adı altında dərc etdiyini də əlavə etmək yerinə düşərdi. "Fərqli məqsəd" ifadəsini ona görə işlətdik ki, Bodenşdet məlum olduğu kimi, öz plagiatını ört-basdır etmək niyyəti ilə belə etmişdir.

Vasitəçi dil və süjetlə F.Şillerin "Turandot" əsəri yaranmışdır. Alman şairi Azərbaycan şairinin yaradıcılığı ilə şəxsən tanış olmamışdır. Nizaminin "Yeddi gözəl" poemasının 4-cü nağılının süjetini italyan K.Qotski fransız drmaturqu Lesajdan, o isə Peti de-la Kruanın "İran nağılları" əsərindən götürmüşdür (6, s.147). Başqa sözlə desək, fransız, italyan və alman müəlliflərinin əlindən keçərək ötgən əsrin əvvəllərində (1922-ci il) rus sovet teatrlarına yol tapan bu əsər uzun bir yol keçmişdir. "Turandot" əsərinin adının mənşəyini araşdıran azərbaycanlı alim A.Ağayev qeyd edir ki, bu adın nə çinlilərə, nə fransızlara, nə də almanlara heç bir aidiyyatı yoxdur. Sonda tədqiqatçı ağılabatan belə bir versiya irəli sürür ki, əsərin personajlarının çoxu türkmənşəli adlar və yerlərdəndir (noğay, tatar, Həştərxan, Səmərqənd...). Ona görə də, bu Turan (İran-Turan) türk-dot, farsca doxtər-dauğhter, yəni "turan qızı" deməkdir (5, s.146).

Şərq ədəbiyyatına əvəzsiz sənət beşiyi kimi baxan alman şairi H.Heyne yazırdı: "Ah, Nizami! Ah, Sədi! Bilsəydiniz ki, sizin burdakı qardaşlarınız nə qədər əzab çəkir! Almaniyanın özünün də böyük şairləri var... Lakin Hafizin və Nizaminin qarşısında onlar – nədir". Alman poeziyasının qüdrətli ustadının bu səmimi etirafı

bizə çox şeyi deyir. Təməli hələ XVII-XVIII əsrlərdə səyyahlar (A.Olkarı, Enqelbert Kemper və b.) tərəfindən qoyulmuş Azərbaycan-Almaniya mədəni əlaqələri böyük sənətkarların yaradıcılığı səbəbindən şaxələnmiş, dərinləşmiş və zənginləşmişdir. Bu işdə Y.Hammerin, Rükkertin, X.Bürqelin, d'Erbelonun və onlarca digər tərcüməçi və şərqşünasların xidmətləri ölçüyə gəlməzdir. Bu şeiriyyət diyarı əsrarəngiz Şərqlə tanışlıq üçün Hammerə sonsuz minnətdar olan Höte alman ədəbiyyatı və bütövlükdə Avropa söz yaradıcılığı üçün ənənəvi sayılmayan divan janrı, üslubu ilə Şərqə mənəvi borcunu, sonsuz sevgisini ifadə etmişdir.

Hötenin çətin sınaqlardan keçib bu məqama çatması alman şairinin Şərq poetik dünyasını yetərincə öyrənib oraya ruhən bağlandığı halda mümkün olduğunu görürük. Yaradıcılığının yetkin çağında Höteni Şərq ədəbiyyatına cəlb edən şairlər sırasında mötəbər yer tutan Nizami alman şairinin daima diqqət mərkəzində olmuşdur. Höte Nizamiyə olan sonsuz ehtiramını, sevgisini dəfələrlə incə poetik sətirlərlə ifadə etmişdir. "Oxu kitabı" şeirini Nizamiyə həsr etmişdir:

Bütün kitabların ən sehirlisi,
Ən ilki eşq yazan kitabdır elə
Mən onu diqqətlə oxudum, düzü
Çox az qarşıladım bil sevinc ilə
Hər sözdən iztirab küləyi əsir.
Ayrılıq yüklənib hər bölümünə
Vüsal, qovuşmaqdır, keçib bir fəsil.

Dahi Azərbaycan şairinə hörmətini, ehtiramını Höte "Qərb-Şərq" divanında tez-tez xatırladır. Alman mütəfəkkir şairini Nizami poemalarından ümumbəşəri mövzuları və onların təkrarsız bədii həlli düşündürmüşdür. Höteni düşündürən digər sual Nizami poemalarının dərin məntiqi ardıcıllığının səbəbinin aydınlaşdırılması məsələsi idi.

Bir bölümündə də dərd keçib önə,
Sonsuz izahatlar uzanıb gedir,
Yox bunun ölçüsü, yox bunun sonu
Ey Nizami! Orda, enən axırda biz
Doğru yol varıymış, sən tapdın onu.
Kim ki, olmayanı qabili-mümkün
Həll etsə, aşiqlər qovuşar o gün.

Bu məsələ alman tədqiqatçılarını da ciddi maraqlandırmışdır. A.Ağayev qeyd edir ki, Avropa ədəbiyyatşünaslığında daha çox sual doğuran "İsgəndərnamə"ni dərindən mütaliə, tədqiq və ondan nümunələri alman dilinə tərcümə edən V.Baxerin fikrincə "Leyli və Məcnun"u bitirdikdən 3 il sonra bir müddət dünyanın faniliyini,

insan ömrünün qısalığı barədə düşünür. Bu müddətdə şair Firdovsinin "Şahnamə" əsərini dönə-dönə oxuyur, oradakı boşluqları duyur, bunları doldurmağa və çatışmazlıqları qənaətinə gəlir. O, hətta yazacağı əsəri "Şahların şərəf kitabı" və yaxud sadəcə olaraq "Şərəfnamə" adını vermək qənaətinə gəlir. Bunun üzərində şair 40 gün düşünür. Şair öz ilhamının çağırışına qulaq asır, amma ilhamının yaratdığı əsəri müstəqilliyi və orijinallığı ilə seçilməlidir. Şair əsərin qəhrəmanının İsgəndər olacağı qərarına gəlir. Odur ki, şairin əsəri üç hissədən ibarət idi: İsgəndər müdrikliyi və nəhayət, İsgəndər peyğəmbər kimi (5, s.119-120).

Höteni Nizami işinə bağlayan təkcə onun əsərlərinin dərinliyinə nüfuz edən fəlsəfi duyum deyildi. Höte Avropanın şairi idi. O, Qərbin və Şərqin yüzilliklər boyu formalaşmış fərqli şeiriyyət qanunauyğunluqlarına dərindən bələd idi.

Bununla belə, şair özünə və dolayısı ilə poeziya ilə maraqlanan bütün müasirlərinə xitabən deyirdi:

Wer das Gedicht will verstehen,
Muss ins Land der Dichtung gehen:
Den Dichter will verstehen,
Muss ins Dichtersland gehen.

Yəni:

Kim şeiri başa düşmək istəyir
Şeiriyyət aləminə getməlidir;
Kim şairi başa düşmək istəyir
Şairin ölkəsinə getməlidir.

Höte bunu Nizaminin özündən oxumuşdur, hər sətrində dahi şairin ölməz ruhu, sirli dünyasından pərdələr açan poeziyasından duymuşdur.

Şeiri oxunanda bu Nizaminin:
Özü də sözdə görünər yəqin
Gizlənib özünü verməzmi nişan
Sənə hər beytində bir sirr danışar?
Hər beyti səslənər: "Burda, burda".

Bəli, yaradıcılığı zaman və məkan tanımayan Nizamiyə aludəlik təkcə Hötenin vətənində deyil, onun hüdudlarından kənarda neçə əsrlərdir ki, artmaqda davam edir. Bu genişlənən çevrənin almandilli ədəbi mühitdə, o cümlədən Pribaltika təzahürünü görməmək olmur. Yeri gəlmişkən xatırladaq ki, Hötenin yuxarıdakı beytini məşhur polyak şairi Adam Mitskeviç özünün "Krım sonetləri"nə şeiriyyət beşiyi Şərqə ehtiram əlaməti olaraq epiqraf kimi götürmüşdü.

Pribaltika ədəbi mühitinin Nizami yaradıcılığı ilə tanışlığa görə Avropa, xüsusən də alman şərqşünaslığına borcludur. Onlar üçün İ.Hamerin xidməti xüsusilə

dəyərlidir. XIX əsrdə Nizaminin ingilis, alman dillərinə edilmiş tərcümələri geniş yayılmışdır. "İsgəndərnamə"nin bir sıra hissələrini fransız dilinə məhz Litva şərqşünası L.F.Spintsnagel tərcümə etmişdir. Peterburqa köçüb gələn L.F.Spintsnagel hələ Vilnus universitetindən tanıdığı şərqşünas F.B.Şarmuadan ərəb, fars və türk dillərindən dərs alır. O, burada "İsgəndərnamə"ni nəsrlə tərcümə edir, lakin ölüm bu tərcüməni redaktə etməyə imkan vermir. Onun bu işini F.Şarmua başa çatdırır.

Pribaltika ilə Azərbaycanı bağlayan ədəbi-bədii tellərin tarixi XIX əsrin lap əvvəllərindən başlamışdır. Vilnus universitetinin məzunları A.Xedriko, Adam Mitskeviçin Peterburq universitetinin professoru M.Topçubaşovla yaxın münasibətləri, elə həmin dövrlərdə Y.Yulius, F.Reynqold, Keyvsvaldın, sonralar F.Yakobson kimi ədiblərin mədəniyyət tariximizə marağı, onlarla pribaltikalı şair və tərcüməçilərin M.Ş.Vazeh poeziyasına vurğunluğu ayrıca söhbətin mövzusudur.

Nizaminin Pribaltikada yayılmış əsərləri ədəbiyyatşünasların diqqət mərkəzində olmuşdur. Estoniyalı A.Xermanın 1890-cı ildə "Fars məqaləsi" haqda məqaləsi sanbalına görə diqqətəlayiqdir.

Qeyd edək ki, Pribaltika ədiblərinin Qafqaz, xüsusən də Azərbaycan folklorunu, klassik ədəbiyyatı yaxından tanışlığında polşalı şərqşünasların, şairlərin rolu çox olmuşdur. Bu işdə 1842-1849-cu illərdə Vilnusda polyak dilində nəşr olunan "Rubon" jurnalının xidmətləri əvəzsizdir.

Qeyd etdiyimiz kimi, Nizami irsinin öyrənilməsində təkcə alman şərqşünasları deyil, həm də alman dilini bilən digər ölkələrin şərqşünasları, o cümlədən Baltikyanı dövlətlərin xidmətlərini qeyd etməmək olmaz. F.Hammerin və digərlərinin tərcümələrini oxuyub təhlil etmiş bu ədəbiyyatşünaslarda Azərbaycan şairinin yaradıcılığına marağı artmışdır. Latviyalı tərcüməçi Yakobs Darvineksin (1858-1927) fəaliyyəti maraqlıdır. Onun 1891-1899-cu illərdə nəşr etdirdiyi konversiya lüğətində Nizami haqqında dəyərli məlumatlar var (7, s.69).

Əldə olunan məlumatlara görə XVIII əsrin sonu XIX əsrin əvvəllərində Nizaminin əsərlərinin çoxu Estoniyaya yayılmışdır. Ədəbiyyatşünas V.Arzumanlının dediyi kimi, Azərbaycan şairinin əsərlərinin alman, fransız, ingilis dilinə edilmiş tərcümələri bu gün də Tartus universitetində saxlanılır. Eston ədəbiyyatşünası K.A.Harmanın 1890-cı ildə dərc elətdirdiyi "Fars poeziyası haqda" məqalədə əvvəlki alman şərqşünaslarının səhvini təkrar edərkən Nizamini fars şairi adlandırsa da, onun yaradıcılığına yüksək qiymət vermişdir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərinə qədərki klassik Azərbaycan ədəbiyyatı haqda obyektiv məlumatı latış ədəbiyyatşünasları A.Upit və R.Egle vermişlər. A.Upitin "Romanın tarixi" kitabında Makedoniyalı İsgəndərin haqqında Azərbaycanda hələ lap qədimdə lüğətlər mövcud olub və Nizami bunlar haqqında bilməyə bilməzdi.

Pribaltika ədəbiyyatşünası A.Xurqanisin "Nizami və onun dövrü" əsəri özünün əhatəliyi ilə seçilir. O, Nizaminin ədalətli ictimai quruluş haqqında T.Mor və

Kompanelidən çox-çox öncə fikirləşmişdir. Alim Nizami irsinin Renessans mədəniyyətinin güzgüsü olduğunu qeyd edir.

Tanınmış Litva şairi və ədəbiyyatşünası A.Venselov haqlı olaraq qeyd edirdi ki, Azərbaycan xalqı fəxr etməlidir ki, Dantendən, Servantesdən, Şekspirdən çox-çox öncə odlar yurdunun "Nizami"si, "Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Xosrov və Şirin", "İsgəndərnamə" kimi möhtəşəm sənət əsəri yaratmışdır.

K.Kraulin yazırdı ki, "XIV əsrin görkəmli şairi Hafiz Nizamini dahi yaradıcı adlandırmış, Əlişir Nəvai onu özünün müəllimi hesab etmiş, Höte böyük Nizaminin vurğunu idi" (8, s.10).

Klassik Azərbaycan ədəbiyyatının Pribaltika ədiblərinə təsirindən danışarkən ilk an yada ədəbiyyatşünas yazıçı V.Krivenin "Şərq nağılları" və "İyrənc qüvvə" əsəri düşür. Sonuncu əsərdə Nizaminin "Xeyir və Şər"inin izləri aydın duyulur.

İstifadə olunmuş ədəbiyyat

1. Ağayev A. Nizami alman dilində. Bakı, Gənclik, 1992; Ağayev A. Azərbaycan klassik ədəbiyyatından seçmələr alman dilində; Ağayev Ə. Nizami və dünya ədəbiyyatı. Bakı, Gənclik, 1964.
2. Sultanov V. Azərbaycan ədəbi tənqidi. Bakı, Elm və təhsil, 2012.
3. Самедова Л. Коранические мотивы в западноевропейской и русской литературе. Баку, 2019.
4. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 2008.
5. Ağayev A. Nizami alman dilində. Bakı, Gənclik, 1992.
6. Quliyev V. Azərbaycan filoloji fikri və rus ctimai mühiti (XIX əsrin birinci yarısı). Bakı, Elm, 2000.
7. Mitskeviç A. Krım sonetləri. Pan Tadeuş. Bakı, Mütərcim, 1989; Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, Yazıçı, 1982.
8. Бирзниск – Упит Э. Дневник Малыша. Рига, 1976.

Лейла Насанзаде Мансур

Низами Гянджеви и немецкие востоковеды

Резюме

В статье исследуется большой интерес немецких востоковедов к наследию Низами и истории культуры, что доказывается, с приведением фактов, на примере произведений многих немецкоязычных писателей. Было отмечено, что серьезный интерес к классической литературе Востока, в том числе Азербайджана, начался в Европе во второй половине XVII века и быстро развивался в последующие периоды. Выяснилось, что, наряду с Гете, и другие

немецкие поэты использовали в своей литературе восточный стиль поэзии Низами и использовали жанр газели в своих произведениях. В заключение было отмечено, что услуги не только немецких востоковедов, но и востоковедов из других стран, знающих немецкий язык, в том числе стран Балтии, очень важны в изучении наследия Низами.

Восточная тема - история, философия, культура и литература Востока на протяжении веков привлекали внимание европейских ученых и писателей. Он познакомился с произведениями восточных поэтов Западной Европы, и одним из выдающихся художников, на которых они оказали влияние в своем творчестве, был И. В. Хете (1749-1837). Гете познакомился с произведениями ряда самых известных поэтов Востока, в том числе Низами Гянджеви, через переводы европейских востоковедов, особенно И.Я. Хаммера (1774-1856), а затем изучил арабский алфавит и персидский язык, чтобы читать их на английском языке. их первоначальный вид. посвящен изучению истории и литературы.

Диван «Запад-Восток» стал выражением высокой человечности, эстетических и философских взглядов Гете и его поэтического интересы.

Высокий творческий энтузиазм литературно-художественной среды Востока был не так уж нормален для многих зарубежных литературоведов, точнее, были те, кто не принимал всерьез использование присущих им жанровых и стилевых принципов. Литературный критик и один из лучших знатоков немецкой классической поэзии Агиль Агаев сказал, что некоторые писатели не хотели верить, когда им говорили, что классические немецкие поэты писали стихи в жанре газели.

Ключевые слова: наследие Низами, немецкоязычные поэты, востоковедение, восточная поэзия, поэтические строки, литературный критик.

LEYLA HASANZADE MANSUR

NIZAMI GANJAVI AND GERMAN ORIENTALISTS

SUMMARY

The article examines the great interest of German orientalists in the heritage of Nizami and the history of culture, and, with the facts, is proved by the example of the works of many German-speaking writers. It was noted that a serious interest in the classical literature of the East, including Azerbaijan, began in Europe in the second half of the 17th century and developed rapidly in subsequent periods. Along with Goethe, other German poets used the eastern style of Nizami's poetry in their literature. It turned out that several German poets used the gazelle genre in their works. In conclusion, it was noted that the services of not only German orientalists, but also orientalists from other countries who know the German language, including the Baltic countries, are very important in the study of Nizami's heritage.

Oriental theme - Eastern history, philosophy, culture and literature have attracted the attention of European scholars and writers for centuries. He got acquainted with the works of Eastern poets in Western Europe, and one of the prominent artists who was influenced by them in his work was IV Heete (1749-1837). Goethe became acquainted with the works of a number of the most famous poets of the East, including Nizami Ganjavi, through the translations of European orientalists, especially IY Hammer (1774-1856), and then studied the Arabic alphabet and Persian to read them in their original form. devoted to the study of history and literature.

The "West-East Divan" has become an expression of Hote's high humanity, aesthetic and philosophical views, and poetic interest.

The high creative eenthusiasm of the literary and artistic environment of the East was not so normal for many foreign literary scholars, more precisely, there were those who did not take seriously the use of their characteristic genre and style principles. Agil Agayev, a literary critic and one of the best connoisseurs of classical German poetry, said that some writers did not want to believe when they were told that classical German poets wrote poetry in the gazelle genre.

Key words: heritage of Nizami, German-speaking poets, oriental studies, oriental poetry, poetic lines, literary critic.

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Ludmila Səmədova tərəfindən çapa tövsiyə olunmuşdur

LƏTİFƏ ƏHMƏDOVA
Gəncə Dövlət Universiteti
letife.ahmedova64@mail.ru

JOZEF HELLERİN "MADDƏ 22" ROMANI "QARA YUMOR" ƏDƏBİ İSTİQAMƏTİNİN MƏŞHUR NÜMUNƏSİ KİMİ

Xülasə

Jozef Heller XX əsr Amerika ədəbiyyatında formalaşan "qara yumor" ədəbi istiqamətinə aid yazıçılardan biri kimi mövzu zənginliyi, geniş bədii imkanları, ifadə orijinallığı ilə seçilən ədiblərdən olmuşdur. Yazıçının yaradıcılığında "Maddə 22" romanı önəmli yer tutur. XX yüzilliyin ikinci yarısında yazılan ən yaxşı romanlardan biri kimi dəyərləndirilən əsərdə satira və "qara yumor"un texniki imkanlarından istifadə olunmaqla Amerika cəmiyyətinin əhəmiyyətli məsələləri qələmə alınmışdır. II Dünya müharibəsi illərində Amerika ordusunda çalışan J.Hellerin həyatında baş verən bir sıra faktlarla da səsləşən romanda yazıçı müharibə dövrü insanının əhval-ruhiyyəsini ifadə etmişdir.

Klassik romanlardakı savaş, müharibə mövzusularının bədii əksindən fərqli olaraq burada müharibə qalibiyyət, vətən, torpaq, ölkə uğrunda mübarizə duyğusu ilə ifadə olunmur, əksinə müharibə insanın ölümünə səbəb olan, mənasız bir məqsədə xidmət edən hadisə kimi təsvir edilir.

Romanın əsas qəhrəmanı Amerika ədəbiyyatında 1960-cı illərdə ən mühüm obrazlar arasında yer alan pilot yüzbaşı Yossariandır. Onun müharibədə iştirakdan və real ölümdən qaçmaq üçün özünü dəliliyə vurması və dəliliyi göstərən Maddə 22-yə sığınması romanda satirik planda təsvir olunmuşdur. Əsərin adı da həmin maddədən götürülmüşdür.

Avtobioqrafik xarakter daşıyan Yossarian obrazı yazıçının bir sıra romanlarında da avtointertekstuallığın göstəricilərindəndir. "Kiçik insanları" qəhrəman seçən Jozef Heller sadəcə II Dünya müharibəsindəki hadisələri romanının mövzusuna çevirməmişdir. Ümumiyyətlə, hərbləşmiş müasir cəmiyyət, müharibənin bitməsinə baxmayaraq, hərb qaydalarının cəmiyyətə tətbiqi, amerikan ordusundakı problemlər romanda gizli tənqid hədəfləridir. Vyetnam müharibəsi və Koreyadakı proseslər də romanın yazılması prosesində yazıçıya təsirsiz qalmamışdır. Yossarian obrazı ilə Jozef Heller həm müharibəyə münasibətini satira və "qara yumor" vasitəsilə ifadə etmiş, həm də insan həyatının təbii və sosial azadlığını, seçim sərbəstliyini göstərmişdir.

Açar sözlər: Jozef Heller, "qara yumor", Amerika, "Maddə 22"

Roman, hekayə, pyes və ssenarilərin müəllifi olan Amerika yazıçısı Jozef Heller (1923-1999) "qara yumor" ədəbi axınının görkəmli nümayəndələrindən biridir. Yazıçının yaradıcılığında önəmli yer tutan "Catch-22" - "Maddə 22" romanı II Dünya savaşı ilə bağlı yazılmış ən yaxşı əsərlərdən biri hesab olunur. Nəsr nümunəsini J.Heller 1953-cü ildə yazmağa başlamış və 1961-ci ildə nəşr etdirmişdir. Yazıçı özü də bu barədə qeyd etmişdir: "Mənim üçün "Maddə 22"nin keçmişi 1953-cü ilə kimi uzanır. Romanı o il yazmağa başlamışdım. O zamanlar Pensilvaniya Universitetinin bir kollecində ingilis dilində kompozisiya bölümündə iki il təhsil aldıqdan sonra Nyu-Yorkda kiçik reklam şirkətində yazar kimi çalışırdım, ilk öncə "Esquire" və "The Atlantic" dərgilərində yazdığım qısa hekayələr sayəsində tanıdığım ədəbiyyat adamlarına giriş bölümünü göndərdim. Onlar yazdıqlarımdan təsirlənmədi, lakin ordakı gənc bir köməkçi Kandida Donadio xanım təsirlənmiş və göndərdiyim bölümü yazılış prosesindəki romanlardan xülasələr yayımlayan bir neçə dərgiyə göndərmək üçün icazə istəmişdi. Giriş bölümü 1955-ci ildə üç ayda bir dəfə çap olunan "New York Writing"in 7-ci sayında çıxdı. Tanınmış nəşriyatlardan bir neçə redaktor maraqlandığını ifadə edən, tərif dolu məktublar göndərib çalışmamı davam etdirmək üçün məni cəsarətləndirdi. Artıq romanı tamamlamağın öncə düşündüyümdən daha çox zaman tələb edəcəyini real şəkildə görürdüm" [2, 11-12].

Əsər yazıçının həyat təcrübələri ilə sıx şəkildə bağlı olmuşdur, belə ki, J.Heller II Dünya savaşı zamanı bombardman təyyarəsi pilotu kimi çalışmış və Amerika ordusunun daxili vəziyyətini yaxından müşahidə etmişdir. Müharibə mövzusunu "qara yumor" və satira ənənələrinə uyğun şəkildə ifadə etməsi isə romanın həm texniki imkanlarını genişləndirmiş, həm də orijinal bir sənət nümunəsi kimi Amerika mədəniyyətinin bir parçasına çevrilmişdir. Mövzusu 1943-cü ildə baş verən hadisələrdən götürülən, fərqli xarakterləri və özünəməxsus qurğusu ilə roman müharibədə iştirak edən insan psixologiyasının əhəmiyyətli cəhətlərini açır, avtobioqrafik faktlara və şəxsi təcrübələrə də istinad edərək müharibənin dünya tarixi və bədii ədəbiyyatda yaratdığı yeni meylləri göstərir. "Maddə 22" bu günə kimi oxuduğunuz heç bir romana bənzəmir. Özünəxas bir məntiqi, fərqli xarakterləri var. Jozef Hellerin açı gerçəkləri kəskin bir istehza ilə iynələdiyi bu XX əsrin klassikini oxuyarkən savaşı, həyatın acımasızlığını, iqtidarın yeri gəldikcə necə bir canavara döndüyünü görüb bəzən qorxacaq, bəzən qəhqəhələr edəcəksiz. Dünya savaşı zamanı Amerika ordusunda bombardman pilotu olaraq çalışan Yossarianın hekayəsi dırnağı çıxmış bir dünyanın kiçik modelidir, əslində. Oxuyarkən bu gün dünyada baş verənlərlə kitabdakı hekayə arasında bağlantını qurub nə qədər cəfəng, dəli, qorxulu və nifrət dolu dünyada yaşadığınızı başa düşəcəksiniz [6, 4].

Roman çap olunduqdan sonra mühüm hadisə kimi qarşılanmışdır. Yazar özü kitabın nəşrlərindən birinə yazdığı ön sözdə bu barədə qeyd edirdi: "Romanın nəşr olunmasından bir neçə gün sonra "The Nation"da Nelson Alqrenin roman haqqında bir yazısı çıxdı... Alqren o yazıda "Maddə 22"dən "illərdir yayımlanan ən yaxşı

əsər", - deyə bəhs edirdi. Çikakoda nəşr olunan gündəlik qəzetlərdən "Studs Terkel" də eyni ölçüdə iltifatlar dolu sözlərlə kitabı oxucularına tövsiyyə etmişdir" [2, 8].

Romanda müharibəyə münasibət fərqli xarakter daşıyır. Savaş, müharibə mövzusundakı klassik romanlardan fərqli olaraq burada müharibə qalibiyyət, vətən, torpaq, ölkə uğrunda mübarizə duyğusu ilə ifadə olunmur, əksinə müharibə insanın ölümünə səbəb olan, mənasız bir məqsədə xidmət edən hadisə kimi təsvir edilir, ölməkdən xilas olmaq uğrunda aramsız cəhd göstərən pilotun həyatı və dünyagörüşü qələmə alınır. Amerika ədəbiyyatında 1960-cı illərdə ən mühüm obrazlar arasında yer alan pilot yüzbaşı Yossarianın istəmədiyi halda dövrün müharibəyə məhkum etdiyi döyüşdən uzaqlaşmaq üçün dəliliyi bildirən 22-ci maddəyə sığınması romanın ağır bir mövzuda satirik ifadəsinin ən parlaq təzahürüdür: "Tək bir yol var idi, o da maddə 22. Bu maddə insanın gerçək və yaxın təhlükə qarşısında öz təhlükəsizliyi üçün narahat olmasının zehnin rasional bir zamanı olduğunu müəyyən edirdi. Orr dəli idi və uçuşu qadağan edilə bilərdi. Edəcəyi tək şey uçuşuna qadağa qoyulmasını tələb etməkdir və bunu edər-etməz dəli olmadığı bəlli olacaqdır və başqa vəziyyətlərdə uçması lazım olacaqdır. Orrun başqa vəzifələrdə uçması üçün dəli olması lazım idi, ağlı başında olsa uçmazdı, amma ağlı başındaysa, uçmaq məcburiyyətində idi. Uçarsa, dəli deməkdi və uçmaq məcburiyyətində deyildi. Lakin uçmaq istəmirsə, ağlı başındaydı və uçmaq məcburiyyətində idi. Maddə 22-dəki bu şərtin mütləq bəsitliyi Yossariana dərindən təsir etdi. Hörmətlə fit çaldı" [3, 5].

Yossarian yazıçı mənini daşıyan obraz idi. Bunu Jozef Hellerin öz sözlərindən də müşahidə etmək mümkündür. O, öncə kitabın nəşrindən sonra dövrün tanınmış qəzetçi və tənqidçilərindən Riçard Starnesin sözlərini örnək gətirir: "28 fevral 1962-ci ildə müxbir Riçard Starnes "The New York World-Telegram"da sonsuz tərifərlə dolu bir yazı yayımladı. Yazı bu sözlərlə başlayırdı: "Mənə qalarsa, Yossarian daha çox uzun zaman yaşayacaqdır" [2, 12].

Sonra Jozef Heller qəhrəmanının "Maddə 22" romanından sonra yazdığı əsərlərdə də yaşadığını yazmaqla avtointertekstualıqla qurduğu romanlarına seçdiyi obrazın özünün daşıyıcısı olduğuna da işarə edir: "Hər kəsin bir gün ölməsi lazımdır", - deyə xatırlayır Yossarianın həkim dostu. "Hər kəsin". Amma üçüncü bir kitab yazsam, sonunda Yossarian hələ də həyatda olacaq. Qəbul etməliyəm ki, bir gün artıq yetmiş yaşına çatan Yossarianın ölməsi gərəkəcəkdir. Lakin mənim əlimlə deyil" [2, 13].

Qeyd olunduğu kimi, Jozep Heller romanda satira və "qara yumor"dan geniş şəkildə istifadə etmişdir. Satira bədii ədəbiyyatın xüsusi bir sahəsi olmaqla satirik yazıçının etik görüşlərini hətta aydın hiss etdirmədən güclü şəkildə ifadə edə bilir. "Eyni zamanda, oxucuların satirikin tənqid predmetinə intellektual və əxlaqi baxışlarının nədən ibarət olduğunu anlaması lazımdır. Beləliklə, satira didaktik xarakter daşıyır və onun sosial funksiyası cəmiyyətin ictimai və mədəni həyatı ilə bağlı olur" [9, 72]. M.O.Mendelson qeyd edir ki, satirik yazıçıya sadəcə zarafat,

əyləncəli tərz xas deyil, o cəmiyyətin sosial problemlərini, ziddiyyətlərini üzə çıxarır [7, 13].

J.Hellerin satiraya meyl onun əsərlərində digər yaradıcılıq metodlarını da şərtləndirmişdi. Belə ki, A.Mulyarçik yazır ki, J.Hellerin yaradıcılığında qroteks və fantastikya müraciət də əsas etibarilə satirik məqsədə xidmət edir və yazıçının realist təsvirinin geniş və çoxölçülü tərkib hissəsini təşkil edir [8, 151].

"Kiçik insanları" qəhrəman seçən Jozef Heller sadəcə II Dünya müharibəsindəki hadisələri romanının mövzusuna çevirməmiş, yazıçı öz sözləri ilə deyilərsə, "müasir hərbləşmiş iş cəmiyyətinin" mənəvi-psixoloji əhval-ruhiyyəsini ifadə etmişdir [5, 30]. Romanın yazıldığı dövr Vyetnam müharibəsinə təsadüf edir, eyni zamanda, Koreyadakı soyuq müharibə də əsərə təsirsiz qalmamışdır. J.Heller belə bir hərbi münaqişələr içərisində ABŞ cəmiyyətini, insanların savaşa münasibətini satirik planda qələmə almışdır: "CİTB-dən gələn adam bir baxımdan çox şanslı idi, çünki xəstəxananın kənarında müharibə gedirdi. İnsanlar dəli olur, medallarla mükafatlandırılırdılar. Dünyanın hər bucağında bombardman xətlərinin ətrafındakı dəliqanlılar vətənləri olduğu söylənilən şey üçün canlarını fəda edirdilər və bu heç kimin kefinə deyildi, xüsusilə də canlarından keçən gənclərin. Üfüqdə savaşın sonu görünmürdü. Görünən tək son Yossarianın sonu idi və huni kimi çənəsi, üzünün ön tərəfində nəhəng, qara bir şapqanın başı kimi önə çıxıb duran, bürüşük, yox edilməz gülümsəməsi ilə vətənsevər Teksaslı olmasa, qiyamət günü gələnə qədər xəstəxanada qalardı. Teksaslı palatada Yossarian və Dunbardan başqa hamının xoşbəxt olmasını istəyirdi. Adam həqiqətən xəstə idi" [4, 24].

Romanın qəhrəmanı müharibə və ölümdən kənar sakit həyat axtarışındadır. Onun ilk baxışda bəsit və ideallardan kənar görünən dünyagörüşü, əslində, insan həyatının təbii və sosial azadlığına, seçim sərbəstliyinə dayanırdı. Dövrün bir çox roman ustaları kimi, yazıçı obrazlarına münasibətini açıq şəkildə ifadə etmir, lakin hadisələrin gedişi həmin obrazların cəmiyyətdə qəbul edilmiş bəzi streotiplərdən qurtulmağa çalışır, mövcud "normalardan" kənarda da həyatın ola bilməsi imkanlarını göstərməklə özlərinə rəğbət yaradırlar. Yazıçı rasionallıq, vətənpərvərlik və doğruluq haqqında cəmiyyətin ənənəvi görüşlərinə qarşı çıxmış, onlara yeni baxış bucağı gətirmişdir. J.Heller müsahibələrindən birində etik qaydaların diktə etməsindən narahatlığını ifadə edir, müharibə dövründəki normaların sülh zamanında da tətbiq olunmasının sadəcə axmaq vəziyyətə deyil, faciələrə də səbəb olduğunu söyləyirdi [1, 73].

J.Hellerin satirik cəhətləri özünəməxsusluğu ilə seçilsə də, Amerika ədəbiyyatı ənənələrindən də uzaqda deyildir. "Onun yaradıcılığı ümumi ruhu və bədii materialın işlənməsi baxımından Mark Tvenlə səsləşirdi. İstehzadan Heller yalnız gülüş yaratmaq üçün istifadə etmirdi, bu yazıçıya onu əhatə edən dünyanın natamamlığını göstərmək üçün bir vasitə idi" [9, 78-79].

Romanın əsas qəhrəmanı olan Yossarianı yazıçı qiymətləndirərkən qeyd edir ki, o, bir çoxları kimi müharibənin çaşdırdığı tipik amerikan "kiçik adamı" idi.

Təsadüfən o kapitan olur. Lakin elə romanın əvvəlində məlum olur ki, məsələn Teksan kimi jurnalların üz qabığına düşən, insanların vətənpərvərlik əhval-ruhiyyəsini ifadə edən sıravi amerikanlardan fərqli olaraq o, ağılsız deyil və təbliğat maşınına çevrilməmişdir [4, 9]. "Qara yumor" ədəbi axınına aid bir sıra əsərlər kimi, J.Hellerin romanında da cəmiyyətin görünməyən, diqqətə alınmayan, avara, əxlaqsız, mənasız ömür sürdükləri hesab edilən zümrəsi ön plana çəkilərək əsas hədəfə istehza silahına çevrilmişdir.

Qəhrəmanın ətrafındakı bir sıra insanların düşündüyü kimi, o, anormal deyil, düşüncə qabiliyyətinə, yumoristik hissə malik, onu sürüklədikləri ölümdən xilas olmaq üçün cəhd göstərən biridir. Lakin Yossarian ağıllı olmaqla xilas ola bilməyəcəyini anlayır və "dəli" olmaq qərarına gəlir: "Bu qarabasma deyil, ən real gerçəklikdir. Yossarian anlayır ki, dəlilik onu döyüş uçuşlarından xilas edəcək yoldur və buna görə də o, "həmin andan etibarən dəli olmağa qərar verir" [4, 40].

O, əslində, faşistlərə deyil, öz ordusuna qarşı, özünü xilas etmək üçün mübarizə aparır. Yossarian ideallaşdırılan dəyərlərə "qara yumor"un üsullarından istifadə edərək istehza edir. Polkovnik Ketkart ilə aralarındakı söhbət bunun bariz nümunəsidir: "Vətənpərvərlik eyni şəkildə karikaturaya çevrildi. Polkovnik Ketkart Yossarianı nəzərdə tutaraq qışqırır:

- Onda bir damcı vətənpərvərlik hissi varmı?

O israr edir:

Məgər siz öz ölkəniz uğrunda döyüşməyəcəksiz?

Polkovnik Korn:

- Məgər siz həyatınızı polkovnik Ketkarta və mənə qurban verməyəcəksiz?

Yossarian cavab verir:

- Sizin və polkovnik Ketkartın mənim ölkəmlə ortaq cəhəti nədir? Heç nə" [4, 433].

J.Heller qəhrəmanın sözləri ilə amerikan ordusundakı hegemonluk və bürokratiyaya istehza edir. Yazıçı, eyni zamanda, Amerika ordusunun bütləşdirilmiş modelinə qarşı çıxır: "Siz amerikan zabitləri. Dünyanın istənilən digər ordusunun zabitləri özləri haqqında bu sözləri söyləyə bilməzlər. Bu barədə düşünün" [4, 28].

J.Hellerin məqsədi birbaşa faşizmin törətdiyi cinayətlərin, vəhşiliklərin tənqidi deyil, yazıçı düşünür ki, bu mövzuda kifayət qədər əsərlər vardır. O daha çox faşizmə xas şiddət, qəddarlıq və kor itaətin Amerika ordusuna da aid olduğunu istehzalı şəkildə ifadə etməyə çalışmışdır.

Göründüyü kimi, görkəmli yazıçı "Maddə 22" romanında müharibə mövzusu içərisində müasiri olduğu cəmiyyətin, sadə insanların problemlərini satira və "qara yumor" vasitəsilə ön plana çəkir, yazıçı münasibətini pərdə arxasında saxlayaraq cəmiyyətin "dəyər" və "norma"larına yenidən nəzər yetirmək zəruriyyətini ortaya qoyur.

Ədəbiyyat

1. Davis G.Y. “Catch-22” and the Language of Discontinuity. Hovel, 1978, N 1.
2. Heller Joseph. Ön söz. Joseph Heller. Madde 22 (çeviren Niran Elçi), İstanbul, İthaki Yayınları, 2012.
3. Heller Joseph. Catch-22. New York, Everyman’s Library, 1961.
4. Heller Joseph. Catch-22. New York, Dell Publishing Co, Inc., 1971.
5. Joseph Heller Replies. The Realist, 1964, N 50.
6. Niran Elçi. Ön söz. Joseph Heller. Madde 22 (çeviren Niran Elçi), İstanbul, İthaki Yayınları, 2012.
7. Мендельсон М. Американская сатирическая проза XX века. Москва, Наука, 1972.
8. Мулярчик А. Послевоенные американские романисты. Москва, Художественная литература, 1980.
9. Сооль Р.В. Сатирические тенденции в Американском романе 1960-70-х годов. Диссертация на соискание ученой степени кандидата филологических наук. Тарту, 1982.

Латифа Ахмедова

РОМАН ДЖОЗЕФА ХЕЛЛЕРА “УЛОВКА-22” КАК ИЗВЕСТНЫЙ ПРИМЕР ЛИТЕРАТУРНОГО НАПРАВЛЕНИЯ “ЧЕРНЫЙ ЮМОР”

Резюме

Как один из авторов литературного направления «черный юмор», сформировавшегося в американской литературе XX века, Джозеф Хеллер был одним из писателей, отличавшихся богатством сюжета, широкими художественными возможностями и оригинальностью выражения. Роман «Уловка-22» занимает важное место в творчестве автора. Оцениваемая как один из лучших романов второй половины XX века, книга исследует важные проблемы американского общества, используя технические возможности сатиры и «черного юмора». В романе, который перекликается с рядом фактов из жизни Дж. Хеллера, служившего в американской армии во время Второй мировой войны, писатель выразил настроение человека в период войны.

В классических романах война, в отличие от художественного отражения тем войны, выражается не в терминах победы, борьбы за родину, землю, страну, а скорее как событие, которое вызывает смерть и служит бессмысленной цели.

Главный герой романа - капитан Йоссариан, пилот, который был одним из самых важных персонажей американской литературы 1960-х годов. Его избегание войны и реальной смерти путём притворства безумцем, ссылаясь на

статью 22, описывает сатирический сюжет в романе. Название произведения также взято из этой статьи.

Автобиографический образ Йоссариана - один из показателей автоинтертекстуальности в ряде романов автора. Джозеф Хеллер, выбравший своим героем «маленьких человечков», не просто сделал события Второй мировой войны предметом своего романа. В целом современное милитаризованное общество, применение военного положения в обществе, несмотря на окончание войны, проблемы в американской армии - объекты скрытой критики в романе. Война во Вьетнаме и события в Корее также повлияли на писателя в процессе написания романа. В образе Йоссариана Джозеф Хеллер выразил свое отношение к войне через сатиру и «черный юмор», а также естественную и социальную свободу человеческой жизни, свободу выбора.

Ключевые слова: Джозеф Хеллер, «чёрный юмор», Америка, “Уловка-22”.

Latifa Ahmedova

JOSEF HELLER'S “ARTICLE 22” NOVEL AS A FAMOUS EXAMPLE OF “BLACK HUMOR” LITERARY DIRECTION

Summary

As one of the writers of the “black humor” literary direction formed in the twentieth century American literature, Joseph Heller was one of the writers distinguished by the richness of the subject, wide artistic possibilities, originality of expression. The novel “Article 22” occupies an important place in the author's work. Evaluated as one of the best novels of the second half of the 20th century, the book explores important issues of American society, using the technical possibilities of satire and “black humor”. In the novel, which echoes a number of facts about the life of J. Heller, who served in the American army during World War II, the writer expressed the mood of the people living in the period of war.

In contrast to the artistic reflection of war themes edilir in the classical novels, war, in this work war is not expressed in terms of victory, struggle for homeland, country, country, but rather as an event that causes death and serves a meaningless purpose.

The protagonist of the novel is Yossarian, a pilot who was one of the most important characters in American literature in the 1960s. His acting as insane and taking refuge in Catch 22, which shows his insanity in order to avoid war and real death is decribed in a satirical plot in the novel. The title of the work is also taken from that article.

The autobiographical image of Yossarian is one of the indicators of autointertextuality in a number of the author's novels. Joseph Heller, who chose “Little People” as his hero, did not just turn the events of World War II into the subject of his novel. In general, modern militarized society, the application of martial law to society despite the end of the war, the problems in the American military are the targets of covert criticism in the novel. The Vietnam War and the events in Korea also influenced the writer in the process of writing the novel. With Yossarian character, Joseph Heller expressed his attitude to the war through satire and "black humor", as well as the natural and social freedom of human life, freedom of choice.

Key words: Joseph Heller, America, Black comedy, “Catch-22”

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Rəyçi: Filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

TÜKƏZBAN BAYRAMLI
Odlar Yurdu Universiteti,
Koroğlu Rəhimov 13
tukazbayramli@gmail.com

MÜƏLLİMLİK PEŞƏSİNİN ÖZÜNƏMƏXSUS PRİNSİPLƏRİ

XÜLASƏ

Məqalədə müəllimlik peşəsinin özünəməxsus prinsiplərindən söz açılmışdır. Beş əsas prinsipin özəlliklərindən danışılmış və prinsiplərin hər birinin müəllimin peşə fəaliyyətindəki önəmi və rolu göstərilmişdir. Məqalədə "peşəkar və ləyaqətli müəllim necə olmalıdır?" sualının cavabı öz əksini tapmışdır. Prinsiplərin hər birinə ayrı-ayrılıqda nəzər salınmışdır:

Müəllimlik peşəsinin ən mühüm prinsiplərindən biri vətənpərvərlik prinsipidir. Müəllim, bütün pedaqoji fəaliyyətini, əməyini vətənin tərəqqisi və inkişafına həsr etməlidir.

Peşə fədakarlığı müəllim peşəsinin digər bir mühüm prinsipidir. Peşə fədakarlığı dedikdə, müəllimin öz peşəsi uğruna canını, qanını fəda etməsi, şagirdlərinin səadəti üçün fədakarlıq etməsi kimi keyfiyyətlər başa düşülür.

Müəllimik peşəsinin həmrəylik prinsipinə əsasən, müəllim pedaqoji kollektivdə səmimi və mülayim olmalıdır. Kollektivçilik və həmrəylik prinsipi, əksərən, müəllimin kollektivə münasibətində təzahür edir.

Müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsini məhz humanizm prinsipi təşkil edir. Humanizm dedikdə, müəllimin şagirdlərinə sonsuz diqqət və qayğısı, həssaslığı başa düşülür.

Müəllim peşəsinin ayrılmaz tərkib hissəsindən biri də pedaqoji nikbinlik prinsipidir. Bu prinsipin əsas tələbi, müəllimin öz yetirmələrinə ali nəzərlərlə, onların gələcəyinə böyük ümidlə baxmasından ibarətdir.

Müəllimin ən ümdə vəzifəsi, layiqli bir vətəndaş kimi hər zaman öz xalqının əlindən tutması, öz millətinə arxa olmasıdır. Müəllim öz daxilinə qapanıb yalnız öz şəxsi problemləri ilə məşğul olmamalıdır. Müəllimin həyatı yaşadığı bölgə ilə - şəhərlə, kəndlə, torpaqla bilavasitə bağlı olmalıdır. Müəllim, təkcə elm tədris etdiyi şagirdlərin deyil, bütün cəmiyyətin maariflənməsi və cəhalətdən qurtulmasının qayğısına qalmalıdır.

Açar sözlər: *müəllimlik peşəsi, pedaqoq, pedaqoji prinsiplər, pedaqoji fəaliyyət, müəllim əməyi*

Günümüzdə müəllimin mənəvi siması digər dövrlərlə müqayisədə daha böyük əhəmiyyətə və dəyərə malikdir. Bu baxımdan, hər bir peşənin özünəməxsus prinsipləri olduğu kimi, müəllimlik peşəsi də özünəməxsus prinsiplərə malikdir. Hər bir müəllimin borcudur ki, öz pedaqoji fəaliyyətində həmin prinsipləri rəhbər tutsun. Seçdiyimiz məqalə mövzusunun aktuallığı da məhz bundadır. Həmin prinsiplərə nəzər salaq.

Müəllimlik peşəsinin ən mühüm prinsiplərindən biri ***vətənpərvərlik prinsipidir.*** Müəllim, bütün pedaqoji fəaliyyətini, əməyini vətənin tərəqqisi və inkişafına həsr etməlidir. Müəllim, öz şagirdlərinə ana vətənə sonsuz məhəbbət və dərin vətən bağlılığı hissini aşılamalıdır. Hər şey vətəni sevməkdən başladığı üçün, müəllim hansı istiqamətdə çalışmasından asılı olmayaraq vətən torpağının hər küncünü, hər bucağını yetirmələrinə tanıtmalı, bu barədə şagirdlərini lazımi dərəcədə məlumatlandırmalıdır. Müəllim yalnız vətən torpağını sevdirməyi, onu zalım düşmənlərdən qorumağı aşılamalı deyil, həm də vətəni qəsb edən mənfur düşmənləri də onlara tanıtmalıdır. (1,s.67)

Müəllimin ən ümdə vəzifəsi, layiqli bir vətəndaş kimi hər zaman öz xalqının əlindən tutması, öz millətinə arxa olmasıdır. Müəllim öz daxilinə qapanıb yalnız öz şəxsi problemləri ilə məşğul olmamalıdır. Müəllimin həyatı yaşadığı bölgə ilə - şəhərlə, kəndlə, torpaqla bilavasitə bağlı olmalıdır. Müəllim, təkcə elm tədris etdiyi şagirdlərin deyil, bütün cəmiyyətin maariflənməsi və cəhalətdən qurtulmasının qayğısına qalmalıdır.

Müəllim bir vətəndaş kimi xalqının, millətinin çətin günlərində kənardan seyrçi kimi baxa bilməz. Xalq hər zaman müəllim zəkasına, ziyalı pedaqoq sözünə ehtiyac duymuşdur. Müəllim öz fikrini və öz sözünü deməli, xalqı doğru yola yönləndirməlidir. Xalq necə həyat sürürsə, müəllim də elə həyat sürməlidir. Çətinliklər, problemlər müəllimin fikirlərinə təsir etməməlidir. Müəllim öz biliyini, bacarığını vətənin tərəqqisinə sərf edib, hər zaman vətənə xitmət edərsə, bu, vətənpərvərlik prinsipinə əməl olunması deməkdir. Böyük Mustafa Kamal Atatürk demişkən, vətənin xidmətçisi olan müəllim elə həm də vətənin əfəndisidir.

Peşə fədakarlığı müəllim peşəsinin digər bir mühüm prinsipidir. Peşə fədakarlığı dedikdə, müəllimin öz peşəsi uğruna canını, qanını fəda etməsi, şagirdlərinin səadəti üçün fədakarlıq etməsi kimi keyfiyyətlər başa düşülür. Müəllim oxumağa, öyrənməyə sərf etdiyi vaxta təəssübkeşlik hissi ilə yanaşmamalı, bunu qənimət kimi qəbul etməlidir. (2, s.192)

Müəllim peşəsi olduqca məsuliyyətli və mürəkkəb bir işdir. Formalizm və şablonçuluq bu işlə ziddiyyət təşkil edir. Müəllim peşəsi sahibindən mətinlik, işgüzarlıq, sağlamlıq və gümrahlıq tələb edir. Müəllimin gecə-gündüz yorulmadan yoxlama işlərini həyata keçirməsi, həmişə qiraətlə məşğul olması, öz yetirmələrinin evlərinə baş çəkib onların valideynləri ilə söhbətləşməsi və dərslərə hazırlaşması prosesi müəllimdən geniş vaxt və ələlxüsus fədakarlıq tələb edir. Sözsüz, əgər lazım

gələrsə, müəllim öz yetirmələri uğrunda canını fəda etməyə hazır olmalıdır. Müəllimin fədakarlığından onun yetirmələri də faydalanmalıdır. Şagirdlər də öz müəllimlərinin uğrunda fədakarlıq etməyi bacarmalıdırlar.

Müəllimin hər daim yenilik axtarışında olması, hər gün çalışmasında və yaradıcı fəaliyyətində onun fədakarlığı xüsusi əhəmiyyət kəsb edir. Bu o anlama gəlir ki, müəllimlər, ilk öncə, şagirdlərə münasibətində həmrəy və yekdil olmalı, onlara eyni vahid tələbkarlıqla yanaşmalıdırlar. Şagird kollektivində yaranan həmrəylik və kollektivçilik məhz müəllim kollektivində təzahür edən həmrəylik və kollektivçilikdən təsirlənir. Müəllimlər öz həmkarlarına hər zaman dəstək olmalı, yetirmələri arasında bir-birinin nüfuzunu, hörmətini və rəğbətini yüksəltməlidirlər. Şagirdlərin gözündə yalnız öz fənninin əhəmiyyətini böyüdüb digər fənləri kiçimsəmək müəllim peşəsinə yaraşan xüsusiyyət deyil.

Müəllimik peşəsinin ***həmrəylik prinsipinə*** əsasən, müəllim pedaqoji kollektivdə səmimi və mülayim olmalıdır. Müəllim kollektivdə yaranan qrup təfriqəçiliyinə, nifaqa, fərdçiliyə qarşı barışmaz mövqe tutmalıdır. Kollektivçilik və həmrəylik prinsipi, əksərən, müəllimin kollektivə münasibətində təzahür edir. Müəllimin fəaliyyətində kollektivi gözdən salan hallara yol verilərsə, bu zaman onun həmkarları həmin davranışına görə müəllimi məsuliyyətə cəlb etməlidirlər.

Həmrəylik və kollektivçiliyin təşəkkül tapması üçün kollektivdə doğru düzgün mənəvi abu-hava olmalıdır. Belə olan təqdirdə, kollektivdə həmrəylik və kollektivçilik formalaşır, müəllimlər də, öz növbəsində, tənqid və özünütənqidi qərəzli qarşılamır və tənqidi normal qəbul edən müəllimlər öz nöqsanlarının aradan qaldırılması üçün özünütərbiyələndirməyə vaxt ayırırlar.Müəllimlik peşəsinin ayrılmaz tərkib hissəsini məhz ***humanizm prinsipi*** təşkil edir. Müəllim, nəinki öz şagirdlərini, həm də bütün bəşəriyyəti sonsuz məhəbbətlə sevməli, rəğbət və hörmət bəsləməlidir. Humanizm dedikdə, müəllimin şagirdlərinə sonsuz diqqət və qayğısı, həssaslığı başa düşülür. Müəllimlərin məktəbdə şagirdlərin rahatlığının qayğısına qalması, onları döyüb incitmədən, söymədən və təhqir etmədən təlimləndirməsi və tərbiyə etməsi humanizm prinsipinin əsas tələblərini təşkil edir. (3,s.121)

Humanizm prinsipindən danışdıqda, düşmənə nifrət məsələsini də yaddan çıxarmaq olmaz. “Düşmən təslim olmazsa, onu məhv edərlər”, – söyləmişlər. Düşmənə nifrət bəsləməyi də, xilqətə sevgi bəsləməyi də öyrətmək lazımdır. Şagirdlərə insanların mənafeyinə uyğun davranmağı aşılamaqdan savayı, hər cür xudbinliyə, süründürməçiliyə, rüşvətxorluğa, iddiasızlığa qarşı barışmaz olmağı öyrətməklə bərabər, həmçinin, müəllim özü də bu prinsipə əməl etməlidir. Humanizm prinsipi müəllimin hər bir rəftarında, davranışında, söhbətində, şagirdlərə yanaşmasında özünü əks etdirməli və o, həmişə xoşxasiyyət, səmimi və mehriban olmalı, uşaqlarla məhz onların dilində danışmağı bacarmalıdır. Şagirdin izzət və ləyaqətinə hörmət etməklə müəllimin öz ləyaqəti də qat-qat yüksəlir.

Humanizm prinsipinə uyğun olaraq, müəllim aşağıdakı qaydalara riayət etməlidir: (6, s.125)

Şagirdin şəxsiyyətinə hörmətlə yanaşmalı, onun ləyaqətini hifz etməlidir.

Şagirdin fikri müəllimin fikri ilə üst-üstə düşməsə də, müəllim səbir və təmkinlə şagirdi dinləməli, və lazım gələrsə, faktlar əsasında şagirdin mülahizəsinin yanlış oduğunu sübuta yetirməlidir.

Şagirdin yaradıcı fəaliyyətini inkişaf etdirməli, onların hər birinə öz potensiallarına uyğun tələblər qoymalıdır.

Şagirdin şəxsiyyətini təhqir edən hər cür hərəkətdən uzaq olmalıdır.

Şagirddən uşaqların məktəbdə və məktəbdən xaric davranışı barədə məlumat verən qismində istifadə etməməlidir.

Şagirdi məcbur etməməlidir ki, qüsurlu hərəkəti üçün böyüklərdən üzrxahlıq etsin. Əgər şagird öz qüsurlu hərəkətini boynuna almırsa, o zaman müəllim ona hədə-qorxu həmləsi etməməlidir. Yoldaşlarının şagirdə hər hansı bir hərəkəti üçün gülməsinə imkan verməməlidir. Müəllim, həmçinin şagirdlərin sirlərini də qorumalıdır. Qiymətlə qorxutma və təhdid etmə hallarına yol verməməlidir. Şagirdləri cəzalandırmaq üçün valideynə müraciət yolunu seçməməlidir.

Yetirmələrinə başqasının dərdinə təəssüf hissi ilə yanaşmağı və sevincinə şərik olmağı öyrətməlidir. Öz növbəsində, müəllim, fiziki cəhətdən qüsurlu uşaqlardan da qayğısını əsirgəməməlidir. Müəllim peşəsinin ayrılmaz tərkib hissəsindən biri də ***pedaqoji nikbinlik*** prinsipidir. Bu prinsipin əsas tələbi, müəllimin öz yetirmələrinə ali nəzərlərlə, onların gələcəyinə böyük ümidlə baxmasından ibarətdir. Nikbinlik, bir növ, insanın daxili aləminin təzahürüdür, bu keyfiyyət bir insanın xeyirxahlığını, digərinə yüksək və müsbət fikirlə yanaşmasını, gələcəyə ümidlə baxmasını əks etdirir. Nikbin insanın əsas qayəsi xeyirin şər üzərində, gerçəyin yalan üzərində qələbəsinə inanması və bunu müdafiə etməsidir. (7,s.134)

Nikbin insana aid bütün bu keyfiyyətlər müəllimin peşə xüsusiyyətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Müəllimin şagirdlərlə münasibətinin düzgün tənzimlənməsi əsasında məhz bu prinsip dayanır. Öz əməyinin bəhrəsinə inanan pedaqoq – nikbin müəllimdir! Nikbin müəllim, yetirmələrinin cəmiyyət üçün faydalı və xeyirli insanlar olacağına inanır. Məhz bunun üçün, o, öz peşəsindən məmnundur və özünü bəxtiyar hiss edir. Bu inam yalnız müəllimin öz əməyindən zövq və həzz alması üçün deyil, həm də müəllimin şagirdlərə göstərdiyi inamın onları motivasiya edən, yaxşı oxumağa təşviq edən bir mənbə rolunu oynadığı üçün vacib əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev H. Pedaqoji ustalığın əsasları. (Dərs vəsaiti). Bakı, ADPU, 1999.
2. İbrahimov F.N. Ümumi pedaqogikadan mühazirələr. Bakı: Mütərcim, 2010. səh.192-200.
3. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Bakı: Elm və təhsil, 2013.
4. Mahmut Açel. Peşəkar müəllimin bədən dili. Bakı: 2013.

5. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: Elm və təhsil, 2015.
6. Müəllimlərin etik davranış qaydaları. Bakı, 2014.
7. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: Nurlan, 2007.

SUMMARY

BAYRAMLI TUKEZBAN

PECULIAR PRINCIPLES OF THE TEACHING PROFESSION

In the article, the unique principles of the teaching profession are discussed. The features of the five basic principles are discussed and the importance and role of each of the principles in the professional activity of the teacher is proven. In the article, the answer to the question "how should be a professional and worthy teacher?" is reflected. Each of the principles is considered separately:

One of the most important principles of the teaching profession is the principle of patriotism. The teacher must dedicate all his pedagogical activity and work to the progress and development of the country.

Professional dedication is another important principle of the teaching profession. Professional self-sacrifice means such qualities as a teacher's sacrifice of his/her life and blood for the sake of his/her profession, his/her sacrifice for the happiness of his/her students.

According to the principle of solidarity of the teaching profession, a teacher should be sincere and gentle in the teaching staff. The principle of collectivism and solidarity is often reflected in the teacher's attitude to the team.

The principle of humanism is an integral part of the teaching profession. Humanism means the teacher's endless attention, care and sensitivity to his/her students.

One of the integral parts of the teaching profession is the principle of pedagogical optimism. The main requirement of this principle is that the teacher looks at his/her students with high hopes and great hopes for their future.

The most important task of a teacher, as a worthy citizen, is to always hold the hand of his/her people and support his/her nation. The teacher should not be confined to himself/herself and deal only with his/her personal problems. The teacher's life should be directly connected with the region where he/she lives – the city, the village, the land. The teacher must take care not only of the students he/she teaches, but also of the enlightenment of the whole society and the liberation from ignorance.

Key words: *teaching profession, pedagogue, pedagogical principles, pedagogical activity, teacher job*

РЕЗЮМЕ

БАЙРАМЛЫ ТУКЕЗБАН

СВОЕОБРАЗНЫЕ ПРИНЦИПЫ ПЕДАГОГИЧЕСКОЙ ПРОФЕССИИ

В статье обсуждаются уникальные принципы педагогической профессии. Обсуждаются особенности пяти основных принципов и доказывается важность и роль каждого из принципов в профессиональной деятельности учителя. В статье содержится ответ на вопрос «Каким должен быть профессиональный и достойный преподаватель?». Каждый из принципов рассматривается отдельно:

Одним из важнейших принципов педагогической профессии является принцип патриотизма. Педагог должен всю свою педагогическую деятельность и труд посвятить прогрессу и развитию страны.

Профессиональная самоотдача – еще один важный принцип профессии учителя. Профессиональное самопожертвование означает такие качества, как пожертвование учителем своей жизни и крови ради своей профессии, его жертва ради счастья своих учеников.

Согласно принципу солидарности педагогической профессии, учитель должен быть искренним и нежным в педагогическом коллективе. Принцип коллективизма и солидарности часто отражается в отношении учителя к коллективу. Принцип гуманизма – неотъемлемая часть профессии учителя. Гуманизм означает бесконечное внимание, заботу и чуткость учителя к своим ученикам. Одна из неотъемлемых частей педагогической профессии – принцип педагогического оптимизма. Главное требование этого принципа – учитель смотрит на своих учеников с большими надеждами и большими надеждами на их будущее. Основная задача учителя как достойного гражданина – всегда держать за руку свой народ, поддерживать свой народ. Учитель не должен ограничиваться самим собой и заниматься только своими личными проблемами. Жизнь учителя должна быть напрямую связана с регионом, в котором он живет – городом, селом, землей. Учитель должен заботиться не только об учениках, которых он учит, но также о просвещении всего общества и освобождении от невежества.

Ключевые слова: *педагогическая профессия, педагог, педагогические принципы, педагогическая деятельность, работа учителя.*

Redaksiyaya daxil olma tarixi: 09.01.2020
Çapa qəbul olunma tarixi: 09.05.2021
Rəyçi: F.f.d.dos.Abdurəhmanova Səadət tərəfindən çapa tövsiyə olunmuşdur

KİTABIN İÇİNDƏKİLƏR:

NADİR MƏMMƏDLİ
ÜNSİYYƏT, KOMMUNİKASİYA VƏ İŞGÜZAR KOMMUNİKASİYA 3

NAMAZ RİZVAN OĞLU MANAFOV
FRİDRİX ŞİLLERİN "TURANDOT – ÇİN ŞAHZADƏSİ" ƏSƏRİNDƏ ŞƏXS ADLARI 13

БУНЯДОВА ВАФА ШАХЗАДЕ КЫЗЫ
РОЛЬ И ЗНАЧЕНИЕ ИНФОРМАЦИОННО- КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ СПЕЦИАЛИСТА СТРОИТЕЛЬНО-АРХИТЕРНОГО ПРОФИЛЯ 20

LALƏ ƏSƏDOVA
MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ İŞGÜZAR YAZIŞMALARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ 27

GÜLNARƏ ƏHMƏDOVA
MƏTNDƏ ZAMAN ARDICILLIĞI TƏZAHÜRÜ 35

İRADƏ İSRAFIL QIZI KƏRIMOVA
AZƏRBAYCAN TELEVİZİYASINNIN (AzTV) "TELESƏHƏR" PROQRAMI VƏ APARICILARININ DİLİ 43

SHUKUFA INGILAB RZAYEVA
SEMANTICS FOR BARE CONDITIONALS 50

KÖNÜL QOCAYEVA
SƏİDƏ ƏLƏSGƏROVA
ÜMUMİ DİLÇİLİK SİSTEMİNDƏ FRAZEOLOGİZMLƏRİN TƏDQİQİ VƏ TARİXİ MƏNBƏLƏRİNƏ DAİR 60

LALƏ HÜSEYNOVA
İNGİLİS DİLİNDƏ SADƏ CÜMLƏNİN STRUKTUR TİPLƏRİ VƏ ONUN AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏDƏ MƏQBUL EKVİVALENTLƏRİ 67

PAKİZƏ MƏMMƏDZADƏ
MÜASİR İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNİN
ZƏNGİNLƏŞMƏSİNDƏ ƏCNƏBİ MƏNŞƏLİ SÖZLƏRİN ROLU 74

NAİZƏ SALMANOVA
AYTƏN HÜSEYNOVA
İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ MORFOLOJİ
VƏ SİNTAKTİK ÜSULLA SÖZ YARADICILIĞI 81

RASİMƏ TEYMUROVA
İNGİLİS DILINİN TƏDRİSİ PROSESİNDƏ QARŞIYA ÇIXAN
ÇƏNİNLİKLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI YOLLARI..... 88

RAHIMA MAMMADOVA
THE ROLE OF INFORMATION TECHNOLOGIES IN TEACHING
LANGUAGE SKILLS 95

FAZİLƏ QULİYEVA
COGNITIVE LINGUISTICS AS A RECONTEXTUALIZING APPROACH..... 105

MƏLAHƏT ŞÜKÜROVA
İNGİLİS DİLİNDƏ ƏVƏZLİKLƏRİN STUKTURU VƏ SEMANTİK
XÜSUSİYYƏTLƏRİ 114

LEYLA SÜLEYMANOVA
MÜASİR İNGİLİS DİLİNDƏ BAĞLAYICILARIN MƏTNYARATMA
XÜSUSİYYƏTLƏRİ 124

ALCANOVA AYGÜN CAVID QIZI
QAVRAMADA EŞITMƏ FEILLƏRININ ROLU 133

ДЖАМИЛЯ РАМИЗ ГЫЗЫ ГАСЫМОВА
О ПЕРЕВОДЕ КАК СРЕДСТВЕ МЕЖКУЛЬТУРНОЙ
КОММУНИКАЦИИ И РОЛИ ПЕРЕВОДЧИКА КАК ПОСРЕДНИКА
МЕЖДУ КУЛЬТУРАМИ 142

KÖNÜL TAĞIYEVA
ERQONİMLƏRİN DİL MƏNSUBLUĞU 151

AXUNDOVA NƏRMİN CAHANDAR QIZI
ÜSLUBİ NEOLOGİZMLƏRİN LİNQVİSTİK SƏCİYYƏSİ.....164

САБИНА НУРАЛИЕВА
ЯЗЫКОВЫЕ СРЕДСТВА ВЫРАЖЕНИЯ ОЦЕНКИ В ПОЛИТИЧЕСКОМ ДИСКУРСЕ (НА ОСНОВЕ ВЫСТУПЛЕНИЙ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА).....174

FƏXRƏDDİN EYLAZOV
EKOLOGİYA TERMİNLƏRİN TƏRCÜMƏ METODLARI 183

TAĞIYEVA RUHIYYƏ İSABALA QIZI
CƏNUBI QAFQAZIN HƏRBI-TOPOQRAFIK XƏRITƏSINDƏ ETNOOYKONIMLƏR VƏ ANTROPOOYKONIMLƏR 190

XANIMANA FƏTƏLİ QIZI MANAFLI
ÜNSİYYƏT ZAMANI DİNLƏMƏ MƏDƏNİYYƏTİ.....197

NURANƏ ƏLƏKBƏROVA
MƏCRUH MUĞANI “DIVAN”INDA ANTROPONIMLƏR.....206

VÜSALƏ SABIT QIZI MƏMMƏDOVA
REKLAM MƏTNLƏRI VƏ ONLARIN STRUKTURU 214

İLYASOVA GÜLNARƏ RƏHMAN QIZI
SİNONİM SÖZLƏR VƏ ONUN TƏDRİS ZAMANI İNKİŞAF ETDİRİLMƏSİ.....222

ƏLİYEVA NURAY FÜZULI QIZI
ANTONİM SÖZLƏR VƏ ONLARIN TƏDRİS ZAMANI İSTİFADƏSİ.....232

HÜSEYNOVA GÜNAY ŞƏMISTAN QIZI
İLYAS TAPDIĞIN UŞAQ ŞEİRLƏRİNDƏ İŞLƏNƏN ANTONİMLƏRİN XÜSUSİYYƏTLƏRİ 242

ГАСАНОВА СЕВДА, ДАВУТОВА АЛЬФИЯ
ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЙ АСПЕКТ ИНТЕГРИРОВАННОГО ОБУЧЕНИЯ РКИ.....253

MƏMMƏDOVA NAIRƏ RAFAEL Q. ,
RZAYEVA ŞƏFƏQ FƏRRUX Q.
ERNEST HEMINQUEYIN YARADICILIĞINDA MÜHARIBƏ
MÖVZUSU VƏ "İTIRILMIŞ NƏSIL" PROBLEMİ 260

RZAYEVA ŞƏFƏQ, HEYDƏROVA AYBƏNIZ
İNGİLİS DİLİNDƏ PRODUKTİV BACARIQLARIN
İNKİŞAF PROBLEMLƏRİ VƏ İSTİQAMƏTLƏRİ 268

ƏDƏBİYYAT ŞÜNASLIQ

ELÇIN QALIBOĞLU (İMAMƏLIYEV)
ŞIRVAN AŞIQ MÜHITI VƏ REPRESSIYA..... 274

ŞƏFƏQ HÜSEYN qızı ABDULLAYEVA
AZƏRBAYCAN İQTİSADİ FİKRİN FORMALAŞMASINDA
NİZAMİ DÜŞÜNCƏSİ.....285

RZAYEVA QƏRƏNFIL ZEYQƏM QIZI
ABDULLAYEVA ŞÖLƏ SƏBUHI QIZI
CƏLİL MƏMMƏDQULUZADƏNİN "ÖLÜLƏR" TRAGİKOMEDİYASINDA
MƏNƏVİ-ƏXLAQİ FANATİZM VƏ CƏHALƏTİN İFŞASI 292

SƏDAQƏT ƏSGƏROVA,
AŞIQ AĞALARIN SƏNƏT DÜNYASINDA XALQ MƏHƏBBƏTI.....300

DADAŞ ƏLİYEV
İSMAYILLI ETNOMÜHİTİNDƏKİ AZSAYLI XALQLARIN
FOLKLORUNDA NAĞIL JANRI 309

MƏMMƏDOVA NURLANA RAMAZAN QIZI
"TAHİR VƏ ZÖHRƏ" DASTANININ ORTA ASİYA VARİANTLARI.....318

DİLŞAD QULİYEVA
MİRVARİ QƏHRƏMANOVA
BEYİN HƏMLƏSİNİN TƏDRİS PROSESİNDƏ ROLU.....328

MƏTANƏT QURBAN QIZI ŞAHALIYEVA
XIX ƏSR CƏNUBİ AZƏRBAYCAN POEZİYASINDAN SEÇMƏLƏR:
AĞA MƏHƏMMƏD BAĞIR XALXALI VƏ "SƏLƏBİYYƏ"
MƏSNƏVİSİNDƏ ŞAİRİN İCTİMAİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ 339

LEYLA MANSUR QIZI HƏSƏNZADƏ
NİZAMİ GƏNCƏVİ VƏ ALMAN ŞƏRQŞÜNASLARI 348

LƏTİFƏ ƏHMƏDOVA
JOZEF HELLERİN "MADDƏ 22" ROMANI "QARA YUMOR"
ƏDƏBİ İSTİQAMƏTİNİN MƏŞHUR NÜMUNƏSİ KİMİ 359

TÜKƏZBAN BAYRAMLI
MÜƏLLİMLİK PEŞƏSİNİN ÖZÜNƏMƏXSUS PRİNSİPLƏRİ 367

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov

Çapa imzalanmış 23. 06. 2020
Şərti çap vərəqi 23,5 Sifariş № 228
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 050 -41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.